DÖVLƏT İMTAHAN MƏRKƏZİ
www.dim.gov.az | www.imtahan.az | www.abiturient.az | www.mekteb.edu.az

ABİTURİYENT

№ 12
2019

2019/2020-ci

tədris ili üçün tələbə qəbulu və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanlarının nəticələrinin elmi-statistik təhlili

CD-ROM

REDAKSİYA ŞURASI

M.M.Abbaszadə, N.Ə.Babayev, K.R.Aydazadə, F.Ş.Bədəlbəyli, G.Ç.Gəraybəyli, A.M.Paşayev, V.R.Misirov.

REDAKSİYA HEYƏTİ

M.Ə.Bədəlov (baş redaktor), İ.M.Allahverdiyev, A.H.Bağırov, G.M.Balacanova, A.H.Batıyeva, N.N.Bayramova, T.A.Bədəlov, M.Ə.Əkbərli, V.O.Əkbərov, N.L.Əliyev, X.S.Əzimova, A.E.Həbibov, N.Z.Hüseynova, Ç.C.Xəlilov, X.Z.Kərimova, A.Ə.Qasımov, S.S.Mərdanov, O.Y.Şelaginov, H.R.Zeynalov.

Abiturient.az

"Abituriyent" jurnalının onlayn satış sistemi

Jurnalın buraxılışlarına geniş ictimaiyyətin dərin maraq göstərməsi nəzərə alınaraq onun online satış sistemi də istifadəyə verilib. Bu sistem vasitəsilə jurnalın bütün sayları və xüsusi buraxılışlarını, test kitabçaları, metodiki vəsaitlər və statistik materialları əldə etmək mümkündür. Bunun üçün istifadəçi online rejimdə jurnalın almaq istədiyi buraxılışını seçib, Visa/VisaElectron və Master/Maestro plastik kartlarından istifadə etməklə ofis və evə göndərilməsini sifariş edə bilər. Sifarişlər poçtla ünvana çatdırılır.

MÜNDƏRİCAT

2019/2020-ci TƏDRİS İLİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU VƏ ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ BURAXILIŞ İMTAHANLARININ NƏTİCƏLƏRİNİN ELMİ-STATİSTİK TƏHLİLİ

GİRİŞ 2

1. ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN BAKALAVRİAT SƏVİYYƏSİNƏ TƏLƏBƏ QƏBULU 9

1.1 Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında tələbə qəbulu 170
1.2 Ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə tələbə qəbulu 198
1.3 Dövlət və özəl ali təhsil müəssisələrinə tələbə qəbulunun müqayisəli təhlili 207
1.4 Xüsusi təyinatlı təhsil müəssisələrinə tələbə qəbulu 213
1.5 Bölgələr üzrə 2019-cu il məzunlarının qəbul imtahanlarındakı nəticələrinin təhlili 214

2. ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL 275

3. REZİDENTURAYA QƏBUL 339

4. ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU 357

4.1 Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu 357
4.2 Orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında tələbə qəbulu 372

5. ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ BURAXILIŞ İMTAHANLARININ NƏTİCƏLƏRİ 380

6. ELMİ-STATİSTİK TƏHLİLƏ ƏLAVƏLƏR 429

ƏLAVƏLƏR 480

Qəbul imtahanlarında iştirak edən nəzarətçi müəllimlərin fəaliyyəti 480
Dövlət İmtahan Mərkəzinin dövlət qulluğu sahəsində fəaliyyətinin elektron informasiya sistemləri üzrə analitik və statistik təhlili 494
"Şagird-məzun" dövlət elektron məlumat sistemi üzrə ümumtəhsil müəssisələrində təhsilalanların yekun qiymətləndirilməsinə analitik baxış 500
"Tələbə-məzun" dövlət elektron məlumat sisteminə daxil edilmiş tələbə məlumatlarının analitik təhlili 515
Buraxılış və qəbul imtahanlarının məzmunu ilə bağlı metodiki materialların hazırlanması,dərslik komplektlərinin elmi-metodiki monitorinqi (qiymətləndirilməsi) və hazırlıq kursları haqqında 521
Xüsusi qabiliyyət imtahanlarının təhlili 523
Regionlarda vətəndaşların qəbuluna dair tədbirlər 529
DİM-in vətəndaşlara göstərdiyi elektron xidmətlər 530
DİM-də aparılan elmi-metodiki işlər və fənn seminarları haqqında statistik məlumatlar 533
DİM-in beynəlxalq əməkdaşlıq və strateji inkişaf layihələrinin həyata keçirilməsi üzrə fəaliyyəti 536
Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransı 547
DİM-in ictimaiyyətin istifadəsinə verdiyi nəşrlər 558
DİM 2019-cu ildə: görülmüş işlərin, tədbir və yeniliklərin xronologiyası 565

SUMMARY (12th Issue of "Abiturient" Journal) 596

Biz elə etməliyik ki, gələcəkdə ölkəmizin uğurlu və uzunmüddətli inkişafını elm, biliklər, texnologiyalar müəyyən etsin. Elmi-texniki tərəqqi hər bir ölkə üçün onun gələcəyini müəyyən edən ən mühüm amildir. Xüsusilə XXI əsrdə ölkələrin gələcəyi bilavasitə təhsilin, biliklərin səviyyəsindən asılı olacaqdır. Ona görə uşaqlarımız, gənclərimiz bilikli, savadlı olmalıdırlar, dünyada gedən yenilikləri bilməlidirlər. Əlbəttə ki, müəllim heyəti də təhsilin yüksək səviyyəsini təmin etməlidir.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

2019/2020-ci TƏDRİS İLİ ÜÇÜN AZƏRBAYCAN RESPUBLİKASININ ALİ VƏ ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU VƏ ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ BURAXILIŞ İMTAHANLARI NƏTİCƏLƏRİNİN ELMİ-STATİSTİK TƏHLİLİ

M.M.Abbaszadə, T.A.Bədəlov, O.Y.Şelaginov

GİRİŞ

Müasir mərhələdə təhsil, iqtisadiyyat, mədəniyyət və sosial sahələrdə həyata keçirilən islahatların nəticəsi olaraq ölkəmiz dinamik inkişaf yolu ilə inamla irəliləyir, onun beynəlxalq aləmdə nüfuzu güclənir. Respublikamızda hər bir sahədə müşahidə olunan fasiləsiz inkişaf tendensiyası özünü təhsil sektorunda da göstərir. Bu inkişafın əsasında ulu öndər Heydər Əliyevin ideyaları və həmin ideyaların işığında həyata keçirilən aydın və ardıcıl strateji kurs dayanır. Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən və icra edilən dövlət proqramları təhsil sistemində keyfiyyətcə yeni inkişafa, yüksək nəticələrin əldə edilməsinə geniş imkan və şərait yaradır. Ölkəmizin qədəm qoyduğu yeni inkişaf mərhələsinin əsas hədəfləri çoxşaxəli, səmərəli və innovasiyayönümlü iqtisadiyyatın formalaşdırılması, elmin, təhsilin, mədəniyyətin və ictimai həyatın digər sahələrində yeni nailiyyətlərin əldə olunmasıdır.

Respublikamızın rəhbərliyi bunları nəzərə alaraq təhsil sisteminin inkişafına böyük önəm verir, onu dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi ön plana çəkir. Bu sahədə kompleks proqramlar həyata keçirilir. Prezident İlham Əliyev gənclərin sosial, təhsil, karyera və mədəni inkişaf məsələlərinin həllini təmin etmək məqsədilə 2005-2021-ci illəri əhatə edən 3 dövlət proqramı təsdiq etmişdir. Ölkə gənclərinin elm, təhsil, mədəniyyət və digər sahələrə yönəlmiş layihələrin reallaşdırılmasına kömək göstərilməsi, onların fəaliyyətinin stimullaşdırılması məqsədilə 2011-ci ildə Gənclər Fondu yaradılmışdır.

"Azərbaycan – 2020: gələcəyə baxış" inkişaf konsepsiyasında qeyd edildiyi kimi, hazırkı mərhələdə qarşıda duran əsas vəzifə qeyri-neft sektorunun qabaqlayıcı inkişafına nail olmaq, iqtisadiyyatın səmərəliliyini və rəqabətqabiliyyətliliyini artırmaq, onun innovasiya əsasında irəliləyişini təmin etməkdir.

Yeni iqtisadi sistemin formalaşması daha çox bilik iqtisadiyyatına və yüksək texnologiyaya əsaslanacaq. Bilik iqtisadiyyatı və yüksək texnologiyalar isə elm, təhsil, səhiyyə, İKT və infrastruktur sahələrinin fəaliyyətində ciddi irəliləyişlərin əldə olunmasını təmin edəcək. Məhz buna görə də ənənəvi iqtisadiyyatdan bilik iqtisadiyyatına keçidin əsasları qoyulmalı, bunun üçün həlledici amil olan insan kapitalının adekvat inkişafı ön plana çəkilməlidir.

Bilik iqtisadiyyatının fəaliyyəti üçün hər bir ölkəyə, ilk növbədə, yeni biliklərin əldə edilməsi sistemi, ikincisi isə onların tətbiqi və yayılması sistemi lazımdır. Bunların gerçəkləşməsi sayəsində sənaye və biznesin, bütövlükdə cəmiyyətin təhsil sektorundan, elmi tədqiqatların və innovasiyaların nəticələrindən əvvəllər heç vaxt görünməmiş dərəcədə asılılığı meydana gəlir.

Respublikamızın mövcud potensialı ölkəmizdə ali təhsil sisteminin təkmilləşdirilməsi üçün geniş imkanlar açmaqla onun iqtisadi inkişafın mühüm amilinə çevrilməsini təmin etməlidir. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda da ölkəmizdə insan kapitalının inkişaf etdirilməsi, onun ölkə iqtisadiyyatının qlobal iqtisadi sistemə qoşulması prosesində rəqabətqabiliyyətli olması və hər bir təhsilalanın müasir bilik, bacarıq və vərdişlərə yiyələnməsinin təmin edilməsi təhsil sisteminin başlıca vəzifəsi kimi irəli sürülür.

"Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"ndə bir daha vurğulanır ki, hazırda Azərbaycanda insan kapitalının inkişaf etdirilməsi, qeyri-neft sektorunun inkişafı, biznes mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində islahatlar aparılır. Bu islahatların davam etdirilməsi orta və uzunmüddətli dövrdə təhsilin keyfiyyətinin, xüsusilə təhsilin ixtisaslı kadr hazırlığı pillələrində yüksəldilməsi üçün əhəmiyyətlidir. Azərbaycanda insan kapitalının inkişafında fasiləsizliyin (ömürboyu təhsilin) təmin edilməsi, məktəbəqədər və ümumi təhsil də daxil olmaqla, peşə təhsilli və ixtisaslı kadr hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılması, eləcə də "elm-təhsil-istehsal" əlaqələrinin təkmilləşdirilməsi istiqamətində məqsədli proqramların hazırlanması və həyata keçirilməsi davam etdiriləcəkdir. Daha keyfiyyətli insan kapitalının formalaşdırılması maddi və mənəvi fayda əldə etməyə və rəqabətqabiliyyətliliyi yüksəltməyə imkan verəcəkdir. Ali təhsil müəssisələrində yetişdirilən mütəxəssislər dövlətin və şirkətlərin idarə olunmasında, iqtisadi artımda və əmək məhsuldarlığının yüksəldilməsində fəal iştirak edirlər. Bunu nəzərə alaraq, Azərbaycanda iqtisadi və sosial baxımdan daha səmərəli ali təhsil sisteminin formalaşdırılması prioritet istiqamətlərdən biri olmalıdır. Bu, müasir dünyada gedən qloballaşma, rəqabət və informasiya cəmiyyəti quruculuğu proseslərində yüksək peşəkarlıqla çalışa biləcək kadr potensialının yetişdirilməsi üçün çox vacibdir.

Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında 26 iyul 2019-cu il tarixdə Sərəncam imzalayıb. Sərəncam intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədini daşıyır. Bunu nəzərə alsaq, yuxarıda qeyd

olunanların nə qədər həyati əhəmiyyət daşıdığının şahidi olarıq. Bu müsabiqədə iştirak etmək hüququndan biri iştirakçıların ali təhsilli olmasıdır. Ona görə də ölkəmizdə dünya standartlarının tələblərinə cavab verən təhsil sisteminin qurulması, yüksəkhazırlıqlı, rəqabətəqabil milli kadr potensialının formalaşdırılması çox mühümdür.

Dövlətin təhsil siyasətini həyata keçirən qurumlardan biri kimi Dövlət İmtahan Məkəzi (DİM) Azərbaycan Respublikası Prezidentinin təsdiq etdiyi dövlət proqramları, verdiyi fərman və sərəncamlardan irəli gələn vəzifələri yerinə yetirmək üçün davamlı və məqsədyönlü iş aparmış və aparmaqdadır. Cari ildə tələbə qəbulu kampaniyasının və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanlarının təşkili və keçirilməsi ilə əlaqədar görülmüş işlər də bu fəaliyyətin tərkib hissəsidir.

2019/2020-ci tədris ili üçün respublikanın ali təhsil müəssisələrinə tələbə qəbulu DİM tərəfindən "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu qaydaları"na əsasən aparılıb. Qəbul qaydalarına uyğun olaraq, respublikanın bütün mülki ali təhsil müəssisələrinə, xüsusi təyinatlı ali təhsil müəssisələrinə tələbə qəbulu mərkəzləşdirilmiş qaydada keçirilib.

Ali təhsil müəssisələrinə qəbul prosesinin təkmilləşdirilməsi ilə əlaqədar 2019-cu ildə bir sıra yeniliklər tətbiq edilmişdir:

- Cari ildə ilk dəfə olaraq ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə qəbul imtahanı iki mərhələdə həyata keçirilmişdir. Abituriyentlər qəbul imtahanının birinci (maksimal toplanıla bilən bal – 300) və ikinci (maksimal toplanıla bilən bal – 400) mərhələlərindən topladıqları ümumi balların cəminə (maksimal toplanıla bilən bal – 700) əsasən ali təhsil müəssisələrinin ixtisasları üzrə müsabiqədə iştirak etmişlər. Cari ilin məzunları üçün qəbul imtahanının birinci mərhələsinin nəticəsi kimi onların buraxılış imtahanında əldə etdikləri nəticələr götürülmüşdür. İmtahanın ikinci mərhələsi iki dəfə (yaz və yay sessiyaları) keçirilmiş və hər iki sessiyada iştirak edən abituriyentlərə yay sessiyasında imtahanı birincidəkindən fərqli ixtisas qrupu üzrə vermək imkanı yaradılmışdır. V ixtisas qrupu üzrə abituriyentlər qəbul imtahanının birinci mərhələsinin (cari ilin məzunları üçün tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanın) nəticələrinə əsasən ali təhsil müəssisələrinin ixtisasları üzrə müsabiqədə iştirak etmişlər.
- Cari ildə ilk dəfə olaraq imtahanda bacarıq və vərdişlərin qiymətləndirilməsi üçün abituriyentlərə yazılı şəkildə cavablandırılması tələb olunan test tapşırıqları təqdim olunmuşdur. Yeni imtahan modelinə uyğun keçirilən qəbul imtahanında şagirdlərə hər fənn üzrə 30 tapşırıq təqdim olunmuşdur. Tapşırıqların 22-si qapalı (çoxseçimli), 8-i isə açıq formalıdır. Açıq formalı tapşırıqlardan 3-ü yazılı şəkildə cavablandırılması tələb olunan situasiya, mətn və yaxud mənbə əsasında hazırlanan tapşırıqlar olmüşdur.
- Cari ildə ilk dəfə olaraq imtahanda abituriyentlərin xarici dillər üzrə qrammatika, oxu və söz ehtiyatı ilə bağlı bilik və bacarıqlarla yanaşı, onların dinləyib-anlama bacarıq və vərdişləri də qiymətləndirilmişdir.
- Cari ildə ilk dəfə olaraq, orta ixtisas təhsili pilləsi üzrə "subbakalavr" peşə-ixtisas dərəcəsi almış şəxslər (subbakalavrlar) qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq hüququna malik olmuşlar.
- Cari ildə ilk dəfə olaraq, beynəlxalq səviyyədə akkreditasiya olunan "Beynəlxalq Bakalavriat Diplom Proqramı (IB Diploma Programme)", "Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (Advanced Level of General Certificate of Education)" və "Yüksək yerləşdirmə (Advanced Placement)" təhsil proqramları üzrə təhsil almış abituriyentlər ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmaq imkanına malik olmuşlar.

2019/2020-ci tədris ili üçün respublikanın ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul qaydaları, qəbul proqramları, xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul elanları hələ ilin əvvəlində "Abituriyent" jurnalının 1-ci sayında dərc edilərək ictimaiyyətə çatdırılmışdır. Eyni zamanda, burada bütün fənlər üzrə test modelləri təqdim edilmişdi ki, abituriyentlərin qəbul imtahanlarında hansı tipli və hansı mürəkkəblik dərəcəsinə malik test tapşırıqlarının təklif ediləcəyi barədə əvvəlcədən təsəvvürləri olsun.

Abituriyentlərin imtahanlara hazırlığına metodiki kömək məqsədilə DİM tərəfindən ilboyu silsilə tədbirlər həyata keçirilmişdir. DİM-in nəzdindəki fənlər üzrə elmi-metodiki seminarlar və ekspert şuraları xətti ilə geniş çeşiddə elmi-metodiki materiallar: fənlər üzrə qəbul proqramları, imtahana hazırlığın səmərəli yollarına dair metodiki tövsiyələr, dərsliklərdə səthi və ya natamam verilən mövzulara, yaxud məktəb proqramında olub, dərsliklərdə lazımınca şərhini tapmayan məsələlərə dair məqalələr, fənn proqramlarının çətin mövzularına dair mütəxəssis şərhləri və s. hazırlanıb abituriyentlərin istifadəsinə verilmişdir. Bu

istiqamətdə abituriyentlərə internet vasitəsilə də məlumatlandırıcı və maarifləndirici proqramlar təqdim edilmişdir.

Qəbul imtahanlarına müstəqil şəkildə (repetitor xidmətindən istifadə etmədən) hazırlaşanlara kömək məqsədilə bütün imtahan fənləri üzrə test toplularının yenidən işlənmiş və təkmilləşdirilmiş nəşrləri dərc edilmişdir. İmtahan fənləri üzrə test bankının toplular şəklində nəşri davam etdirilmişdir. Toplularda tapşırıqların düzgün cavabları da verilmişdir ki, şagird və abituriyentlər testlərlə müstəqil, repetitor köməyinə müraciət etmədən işləmək vərdişlərinə yiyələnə bilsinlər. Bundan əlavə, təcrübəli ekspertlərin internet vasitəsilə imtahan fənləri üzrə video-məsləhətləri təşkil edilmiş, abituriyentlərin cavab verməkdə çətinlik çəkdikləri test tapşırıqlarının izahı verilmiş, yol verdikləri xarakterik səhvlər araşdırılmışdır. "Videomühazirə" adlanan bu layihənin ikinci mərhələsində bütün fənlər üzrə qəbul proqramlarının mövzularını əhatə edən mühazirələr nümayiş etdirilmişdir. Videomühazirələri tanınmış mütəxəssis-ekspertlər təqdim etmişlər. Layihədə bölgələrin qabaqcıl və təcrübəli müəllimləri də iştirak etmişlər. Mühazirələrdə nəzəri materiallar test tapşırıqlarının həlli ilə müşayiət olunmuşdur.

İmtahanların məzmunu formalaşdırılarkən ənənəvi test tapşırıqları ilə yanaşı, yeni tipli yazılı şəkildə cavablandırılması tələb olunan situasiya, mətn və yaxud mənbə əsasında hazırlanan tapşırıqlar da tətbiq olunmuşdur. Şagird və abituriyentlərin yeni tipli test modelləri haqqında təsəvvürlərini genişləndirmək və bunlarla işləmək vərdişlərini inkişaf etdirmək üçün belə tapşırıqların fənlər üzrə nümunələri ilin əvvəlində "Abituriyent" jurnalında dərc olunmuş, sınaq imtahanlarında yoxlamadan keçirilmiş, siniflər üçün test toplularına daxil edilmişdir. Belə tapşırıqlar abituriyentlərin bilik və bacarıqlarının hərtərəfli üzə çıxarılmasına, əldə olunmuş biliklərin praktikada tətbiqi mexanizmlərinin inkişaf etdirilməsinə, mənimsəmənin dörd səviyyəsinin: bilik, anlama, tətbiqetmə və bacarıq səviyyələrinin yoxlanılmasına, xüsusilə də qiymətləndirmədə yüksək hazırlıqlı abituriyentlərin fərqləndirilməsinə imkan vermişdir.

Sual kitabçaları hər bir abituriyent üçün xüsusi avtomatlaşdırılmış xətt vasitəsi ilə (bu xətt xüsusi olaraq imtahanlar üçün sual kitabçalarının çapı və komplektasiyasını həyata keçirmək üçün layihələndirilmişdir) fərdi qaydada çap olunub və imtahan zalları üzrə komplektləşdirilib.

Şagirdləri (gələcək abituriyentləri) və müəllimləri fənlər üzrə yeni təhsil proqramları (kurikulum) əsasında hazırlanmış qiymətləndirmə vəsaitləri ilə təmin etmək məqsədlə V-XI siniflər üçün kitablar nəşr edilmişdir.

DİM-in Naxçıvan, Gəncə, Şəki, Lənkəran, Xaçmaz, Göyçay, Şirvan, Şəmkir və Bərdə şəhərlərində fəaliyyət göstərən regional bölmələrinin xətti ilə görülən işlərin həcmi xeyli artmışdır. Bölmələrin səmərəli fəaliyyəti sayəsində rayonlarda çalışan müəllimlər yalnız təşkilati tədbirlərə deyil, elmi-metodiki işlərə də cəlb edilmişlər. Artıq 10 ildir ki, internet proqramlarının tətbiqi sayəsində DİM-in inzibati binası ilə bölgələr arasında canlı videobağlantı qurulur və bu yolla DİM-in nəzdində fəaliyyət göstərən fənlər üzrə elmi-metodiki seminarlarda ölkənin ayrı-ayrı regionlarında çalışan müəllimlərin də iştirakı təmin edilir. Beləliklə, respublika üzrə bu sahəyə marağı olan müəllimlər üçün geniş imkanlar yaradılır. Bütün bunlar qəbul kampaniyasının keyfiyyətinə də müsbət təsir göstərir.

Qəbul imtahanlarına hazırlıq ərəfəsində gənclərin öz bilik səviyyələrini yoxlamaları, test imtahanının texnologiyasına bələd olmaları və imtahana psixoloji cəhətdən alışmaları üçün respublikanın bütün bölgələrini əhatə etməklə sınaq imtahanları keçirilib. Qəbul imtahanlarının texnologiyasına uyğun təşkil olunmuş bu imtahanlarda 32157 nəfər iştirak etmişdir. Abituriyentlərin istədikləri vaxt internet vasitəsilə sınaq imtahanında iştirak etməsi üçün xüsusi proqram da hazırlanıb.

Xüsusi qabiliyyət tələb edən ixtisasları seçən abituriyentlərə elmi-metodiki kömək məqsədilə "Xüsusi qabiliyyət imtahanları" jurnalının 1-ci və 2-ci nömrələrini nəşr etmişdir. Jurnalın 1-ci nömrəsində ali təhsil, 2-ci nömrəsində isə orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarının yığcam xarakteristikası, ixtisaslar üzrə kadr hazırlığı aparan təhsil müəssisələri haqqında məlumatlar, bu ixtisaslar üzrə müsabiqə şərtləri, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları, imtahanlara hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, çalışmalar, əyani vəsaitlərdən reproduksiyalar, şəkillər, cədvəllər, normativlər, bir sözlə, burada xüsusi qabiliyyət tələb edən ixtisasları seçənlərin marağına uyğun olan, sorğularına aydınlıq gətirən, imtahana hazırlaşmalarına fayda verə bilən ən zəruri materiallar dərc edilmişdir.

İmtahan rəhbərləri və nəzarətçiləri imtahanlara hazırlaşdırmaq istiqamətində həm respublika paytaxtında, həm də ayrı-ayrı bölgələrdə çoxsaylı tədbirlər həyata keçirilib. İmtahan rəhbərləri bazasının zənginləşdirilməsi məqsədilə AMEA-nın elmi-tədqiqat institutları, eləcə də bir sıra dövlət qurumlarının nümayəndələri imtahanlarda rəhbər qismində iştirak etməyə cəlb olunmuşdur. Bazaya ilk dəfə daxil edilən imtahan rəhbərləri ilə xüsusi seminar-məşğələlər keçirilib. Təlimata uyğun təcrübə və səriştə əldə etmələri üçün onlar öncə sınaq imtahanlarında, sonra qəbul imtahanlarında iştirak ediblər.

İşə vicdanla yanaşan, səriştəli və məsuliyyətli müəllimlər hesabına nəzarətçilər bazasının zənginləşdirilməsinə də xüsusi diqqət yetirilib. Yanvar ayından etibarən Bakı şəhəri ilə yanaşı, ölkənin digər bölgə mərkəzlərində də nəzarətçi-müəllimlərlə seminar-məşğələlər təşkil olunub. Seminar-məşğələlərdə müəllimlərə qəbul imtahanı prosesinin idarə olunması hərtərəfli izah edilib, imtahan texnologiyasına aid öyrədici film nümayiş etdirilib.

İlin ilk aylarından etibarən həm paytaxtda, həm də bölgələrdə imtahan üçün nəzərdə tutulan 100-dən çox binaya baxış keçirilmiş, onların imtahana yararlılıq səviyyəsi yoxlanılmış, texniki pasportları dəqiqləşdirilmiş, mövcud çatışmazlıqların aradan qaldırılması üçün aidiyyəti qurumlarla birgə iş aparılmışdır. İmtahan binaları haqqında yenilənmiş məlumat "İmtahan yerləri bazası"na daxil edilmişdir. İmtahan keçirilən binaların təhlükəsizlik baxımından yoxlanılması üçün Xüsusi Dövlət Mühafizə Xidməti ilə birlikdə lazımi tədbirlər həyata keçirilmişdir.

Dövlət İmtahan Mərkəzi tərəfindən göstərilən həm elektron, həm də ödənişli xidmətlərindən faydalanmaq istəyən hər bir istifadəçi (abituriyent, bakalavr, namizəd) şəxsi kabineti yaratmışdır. Şəxsi kabinet bir dəfə yaradılır və daim istifadə edilir. İstifadə edilmiş xidmətlər, imtahan nəticələri və digər məlumatlar istifadəçinin şəxsi kabinetində öz əksini tapır. Kabinet yaradılan zaman onun pul hesabı da açılır. Hesaba lazımi miqdarda vəsait əlavə etmək üçün müxtəlif ödəniş üsullarından yararlanmaq olar. Vəsait DİM tərəfindən göstərilən xidmətlərin ödənilməsi üçün istifadə edilir.

Ali və orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu bu il də internet vasitəsilə aparılmışdır. Bu üsul ərizə təqdimetmə prosedurunu sadələşdirməklə bərabər, abituriyentlər tərəfindən buraxıla biləcək məntiqi səhvlərin qarşısını almağa da imkan yaratmışdır. Beləliklə, abituriyentlər DİM-in müəyyən etdiyi müddət ərzində özləri barədə tələb olunan məlumatları göstərməklə "Elektron ərizə" doldurmuşlar. Ərizə qəbulu elanının tam mətni və "Şəxsi kabinet"in yaradılması və istifadə qaydası "Abituriyent" jurnalının 2019-cu il 2-ci sayında ictimaiyyətə çatdırılmışdır.

Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, müsabiqə şərtləri, qəbul aparılan ixtisasların planı, o cümlədən dövlət sifarişi üzrə qəbul aparılan yerlərin proqnozu "Abituriyent" jurnalının 4-cü sayında ictimaiyyətə çatdırılmışdır. Proqnozda qəbul aparılan ixtisasların siyahısı, yerlərin sayı və dövlət sifarişinin yerinə yetirilməsində iştirak edən ali təhsil müəssisələrinin adları təqdim olunmuşdur. Hər ixtisas qrupunun imtahan vaxtından bir neçə gün əvvəl abituriyentlərə internet vasitəsilə "İmtahana buraxılış vərəqələri" əldə etmək imkanı yaradılmışdır.

Bu il ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanlarının yaz sessiyası I və IV ixtisas qrupları üzrə mayın 12-də, II və III ixtisas qruplarının abituriyentləri üçün mayın 19-də keçirilmişdir. Qəbul imtahanlarının yay sessiyası isə müvafiq olaraq iyunun 23-də və iyulun 7-də keçirilmişdir.

Həm ilk, həm də ikinci qəbul imtahanlarında iştirak edən abituriyentlər üçün ixtisas seçimi və müsabiqə eyni vaxtda – ali təhsil müəssisələrinə bütün qəbul imtahanları başa çatdıqdan sonra keçirilmişdir.

DİM abituriyentlərin və valideynlərin rahatlığını təmin etmək məqsədilə bütün ixtisas qrupları üzrə qəbul imtahanlarını ölkənin 11 bölgə mərkəzində təşkil etmişdir (xatırladaq ki, bir neçə il əvvəl imtahanlar ölkənin yalnız 3 şəhərində keçirilirdi).

İmtahanların keçirildiyi mərkəzlər (şəhərlər) və onlara aid olan rayonlar aşağıdakı kimi olmuşdur:

Bölgələr üzrə imtahan mərkəzləri	**Bölgə (imtahan) mərkəzlərinin əhatə etdiyi şəhər və rayonlar**
Bakı	Bakı, Abşeron, Şamaxı, Qobustan, Neftçala, Salyan və Biləsuvar
Sumqayıt	Sumqayıt, Xızı və Siyəzən
Gəncə	Gəncə, Daşkəsən, Şəmkir, Göygöl, Samux, Gədəbəy, Qazax, Ağstafa və Tovuz
Şəki	Balakən, Qax, Qəbələ, Zaqatala, Oğuz və Şəki
Lənkəran	Astara, Yardımlı, Lerik, Lənkəran, Masallı və Cəlilabad
Xaçmaz	Quba, Qusar, Xaçmaz və Şabran
Bərdə	Ağcabədi, Xocavənd, Ağdam, Tərtər və Bərdə
Şirvan	Şirvan, Saatlı, Sabirabad, Hacıqabul, İmişli, Beyləqan və Füzuli
Göyçay	Göyçay, Ucar, Kürdəmir, Zərdab, İsmayıllı və Ağsu
Naxçıvan	Naxçıvan, Sədərək, Şərur, Şahbuz, Babək, Culfa, Kəngərli və Ordubad
Mingəçevir	Mingəçevir, Naftalan, Goranboy, Yevlax və Ağdaş

Müxtəlif təyinatlı imtahanlarda Xüsusi Dövlət Mühafizə Xidmətinin çoxsaylı əməkdaşları imtahan prosesinin təhlükəsizliyini yüksək səviyyədə təmin etmişlər. Daxili İşlər Nazirliyi, "Azərbaycan Hava Yolları" Dövlət Konserni, Səhiyyə Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi və Fövqəladə Hallar Nazirliyi əməkdaşlarının peşəkarlığı imtahanların mütəşəkkil keçirilməsində mühüm rol oynamışdır.

Hər ixtisas qrupu üzrə qəbul imtahanı keçirildikdən sonra abituriyentlərin imtahan balları internet vasitəsilə elan edilmiş, onların düzgün ixtisas seçiminə kömək məqsədilə hər bir ixtisas qrupunun abituriyentləri üçün «İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?» adlı vəsait çap edilmişdir. Vəsaitdə təhsil formaları (dövlət sifarişli və ödənişli), Azərbaycan və rus bölmələri üzrə ayrılıqda və hər iki bölmənin birgə müsabiqəsinə aid qəbul planları verilmiş, müsabiqəyə buraxılma şərtləri, eyni zamanda, müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan nəticələrinin bal intervalları üzrə paylanmasına dair məlumatlar təqdim olunmuşdur.

Abituriyentlərin ixtisas seçimi zamanı düzgün istiqamət götürmələrinə kömək məqsədilə ali və orta ixtisas təhsili müəssisələrinə ötənilki qəbul imtahanlarında formalaşmış keçid balları haqqında məlumatlar da ayrıca vəsaitlərdə təqdim edilmişdir. Abituriyentlərə ixtisas seçimi zamanı "Bakalavr ixtisasları" adlı vəsaitlərdən yararlanmaq da tövsiyə olunmuşdur. Bu vəsaitlərdə hər bir ixtisas üzrə kadrların hansı təhsil müəssisəsində hazırlanması, ixtisasın xarakteristikası, təyinatı, bu və ya digər ixtisas üzrə hazırlanan bakalavrlara təhsil müddətində tədris edilən peşə-ixtisas fənləri, həmin fənlər əsasında öyrədilən ixtisas bilik və bacarıqları şərh olunmuş, onların gələcək fəaliyyətinin əsas sahələri və iş yerləri barədə məlumat verilmişdir.

Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək hüququ qazanmış abituriyentlər iyulun 24-dan avqustun 6-dək internet vasitəsilə ixtisas seçimi etmişdir.

Ali təhsil müəssisələrinə müsabiqə və yerləşdirilmənin nəticələri ictimaiyyətə həm "Abituriyent" jurnalı, həm internet, həm də mobil operatorlar – "Azercell", "Bakcell" və "Nar Mobile"-ın müvafiq xidmətlərindən istifadə yolu ilə elan edilmişdir. Jurnalda qəbul olanların siyahısı ilə yanaşı, təhsili həm ödənişli əsaslarla, həm də dövlət sifarişi əsasında olan yerlərə qəbul aparılan ixtisasların minimal keçid balları, dövlət sifarişi üzrə qəbul olan abituriyentlərin ali təhsil müəssisələri və ixtisaslar üzrə paylanması, müsabiqənin birgə aparıldığı ixtisaslar üzrə plan yerlərinə Azərbaycan və rus bölmələrindən qəbul olan abituriyentlərin sayı haqqında məlumatlar, ali təhsil müəssisələrinin müvafiq ixtisaslarına müsabiqədənkənar (test və qabiliyyət imtahanlarından azad olunmaqla) qəbul olmaq hüququna malik olan abituriyentlərin siyahısı təqdim olunmuşdur.

Bu il respublikanın ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə I-IV ixtisas qrupları üzrə keçirilən qəbul imtahanlarında 1935 nəfəri 600 baldan yuxarı nəticə göstərmişdir. Onlar respublikanın, demək olar, bütün şəhər və rayonlarını, o cümlədən bəzi kənd məktəblərini təmsil edir. Yüksək nəticə göstərənlər I qrupda 554, II qrupda 404, III qrupda 605, IV qrupda 378 nəfərdir.

DİM ali təhsilin ikinci səviyyəsi olan magistratura səviyyəsinə qəbul imtahanının məzmununun və qiymətləndirmə mexanizminin təkmilləşdirilməsi işlərini cari ildə də davam etdirmişdir.

Magistraturaya qəbul aparılan ixtisaslaşmalar 75 qəbul proqramı üzrə qruplaşdırılmışdır. Bakalavrlara kömək məqsədilə "Magistr" xüsusi buraxılışının saylarında qəbul proqramları, qəbul qaydaları və elanları, ixtisas seçiminə dair tövsiyələr və cədvəllər, test tapşırığı nümunələri, aparılmış müsabiqənin nəticələri, keçid balları və digər zəruri məlumatlar çap olunmuşdur.

Qəbul imtahanına hazırlıq ərəfəsində bakalavrların öz bilik səviyyələrini yoxlamaları və imtahan tapşırıqlarının modelinə bələd olmaları üçün internet vasitəsilə sınaq imtahanı keçirilmişdir. Ərizə qəbulu internet vasitəsilə aparılmışdır. Qəbul imtahanı iki mərhələdə keçirilmişdir. İmtahanın 24 fevral 2019-cu ildə keçirilmiş birinci mərhələsində bakalavrların məntiqi təfəkkürü, xarici dil və informatikadan bilik səviyyəsi test üsulu ilə yoxlanılmış və müəyyən edilmiş müsabiqə şərtlərini ödəyənlər ikinci mərhələdə iştirak etmək hüququ qazanmışdır. 26 may 2019-cu ildə keçirilən ikinci mərhələdə isə bakalavrların ixtisas üzrə bilikləri test üsulu ilə yoxlanılmışdır. Müəyyən proqramlara daxil olan ixtisaslaşmaları seçən bakalavrlar ixtisas üzrə test tapşırıqlarının əvəzinə təqdim edilmiş suallara yazılı cavab vermişdir. Qəbul imtahanının ikinci mərhələsinin nəticələri elan olunduqdan sonra bakalavrlar müsabiqədə iştirak etmək üçün internet vasitəsilə ixtisaslaşma seçimi aparmışdır. İxtisaslaşma seçimində imtahanın ikinci mərhələsindəki nəticələri və ümumi balı DİM tərəfindən müəyyən edilmiş minimal tələbləri ödəyən bakalavrlar iştirak etmişdir. Hər bir bakalavrın 20-dək ixtisaslaşma kodunu seçmək imkanı olmuşdur.

Rezidentura səviyyəsinə qəbul 2019-cu ildə də DİM tərəfindən mərkəzləşdirilmiş qaydada test üsulu ilə keçirilmişdir. Rezidenturaya qəbul qaydaları və qəbul elanı, baza və ixtisas fənləri üzrə qəbul proqramları, namizədlərin cavab verməkdə çətinlik çəkdikləri bəzi test tapşırıqlarının elmi-metodiki izahı və tövsiyələr, test tapşırığı nümunələri və digər zəruri məlumatlar "Rezidentura" jurnalının 2019-cu il tarixli 1-ci və 2-ci nömrələrində çap olunmuşdur. Qəbul imtahanının ikinci mərhələsi və ixtisas seçimi haqqında elan, qəbul aparılan ixtisaslar və plan yerləri haqqında məlumatlar, rezidenturaya qəbul imtahanının I mərhələsinin nəticələrinin ötən illə müqayisəli təhlili və tövsiyələr, 2018-ci ildə rezidenturaya qəbul müsabiqəsində formalaşmış keçid balları və digər elmi-metodiki materiallar jurnalın 3-cü nömrəsində dərc edilib ictimaiyyətə çatdırılmışdır.

Rezidenturaya ərizə qəbulu 2019-cu il fevralın 14-dən 28-dək internet vasitəsilə aparılmışdır. Qəbul imtahanı iki mərhələdə keçirilmişdir. Birinci mərhələdə namizədlərin baza ali tibb təhsili istiqamətinə müvafiq baza fənləri üzrə, ikinci mərhələdə isə ixtisas fənləri üzrə bilikləri yoxlanılmışdır. İmtahanın birinci mərhələsi aprelin 7-də, ikinci mərhələsi isə iyulun 14-də keçirilmişdir. Birinci mərhələdəki nəticələri müsabiqə şərtini ödəmiş namizədlər ikinci mərhələyə buraxılmışdır. İmtahanın hər iki mərhələsi üzrə müsabiqə şərtlərini ödəyən namizədlər isə ixtisas seçimində iştirak etmişlər. Müsabiqənin nəticələri ixtisas seçimi başa çatan gün internet və "Rezidentura" jurnalının 4-cü nömrəsində ictimaiyyətə açıqlanmışdır.

Tam və ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə müsabiqə cari ilin məzunları üçün buraxılış imtahanının nəticələri əsasında, əvvəlki illərin məzunları üçün isə buraxılış imtahanı qaydasında keçirilən qəbul imtahanının nəticələri əsasında aparılmışdır.

Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında ixtisas seçimi ali təhsil müəssisələrinə qəbul imtahanlarının nəticələri açıqlandıqdan sonra ali təhsil müəssisələrinin boş qalan yerlərinə ərizə qəbulu ilə eyni vaxtda – avqustun 15-dən 19-dək aparılıb. Abituriyentlərə eyni zamanda həm ali təhsil müəssisələrinin boş qalan yerlərinin, həm də orta ixtisas təhsili müəssisələrinin ixtisaslarının müsabiqəsində iştirak etmək imkanı verilmişdi. Abituriyentlər öz ərizələrində hər iki təhsil pilləsindən 20-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstərə bilərdilər.

Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün ərizə qəbulu fevralın 22-dən martın 11-dək internet vasitəsilə aparılıb. Qəbul aparılan ixtisasların siyahısı və plan yerləri haqqında məlumat "Abituriyent" jurnalının 3-cü nömrəsində təqdim olunub.

Respublikanın ümumtəhsil müəssisələrində ümumi orta (9 illik) və tam orta (11 illik) təhsilini başa vuran şagirdlərin yekun buraxılış imtahanları bu il də DİM tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilmişdir.

Ümumi orta (9-cu sinif) təhsil üzrə buraxılış imtahanları yeni tədris proqramı (kurikulum) əsasında iki mərhələdə keçirilmişdir. Birinci mərhələdə şagirdlərin dinləyib-anlama, oxuyub-anlama və yazı bacarıqlarını yoxlamaq məqsədilə açıq və qapalı tipli test tapşırıqlarından, yazı işlərindən, riyazi bacarıqları yoxlamaq məqsədilə isə açıq tipli tapşırıqlardan istifadə edilmişdir. İkinci mərhələdə isə hər bir fənn üzrə qapalı tipli test tapşırıqlarından istifadə edilmişdir. Buraxılış imtahanlarından əvvəl şagirdlərə kömək məqsədilə ana dili (Azərbaycan bölməsinin şagirdləri üçün – Azərbaycan dili, rus bölməsinin şagirdləri üçün – rus dili) və riyaziyyat fənlərindən test tapşırığı nümunələri hazırlanmış, bu imtahanda təqdim ediləcək yazı işlərinin mövzuları, yazı işinin qiymətləndirilməsi meyarları müəyyənləşdirilmiş və DİM-in internet saytında yerləşdirilmişdir. Həmçinin "Abituriyent" jurnalının xüsusi buraxılışında ümumi orta (9 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanı üçün fənlər üzrə alt standartlar, proqramlar, buraxılış imtahanın I və II mərhələləri üçün tapşırıq nümunələri və qiymətləndirmə meyarları ictimaiyyətə çatdırılmışdır.

Tam orta (11-ci sinif) təhsil səviyyəsi üzrə buraxılış imtahanı tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər üçün - Azərbaycan dili, riyaziyyat və xarici dil fənləri üzrə, tədris rus dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər üçün - rus dili, riyaziyyat və xarici dil fənləri üzrə DİM tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilmişdir. Xarici dil fənni tədris edilməyən ümumi təhsil müəssisələrinin şagirdləri buraxılış imtahanını xarici dil fənninin əvəzinə kimya fənnindən vermişdir. Şagirdlərə ümumilikdə 85 test tapşırığı təqdim edilmişdir. "Abituriyent" jurnalının xüsusi buraxılışında tam orta (11 illik) təhsil səviyyəsi üzrə buraxılış imtahanı proqramları və test tapşırığı nümunələri ictimaiyyətə çatdırılmışdır.

Buraxılış imtahanlarının mütəşəkkil qaydada keçirilməsi məqsədilə "Şagird–məzun" sistemi üzrə buraxılış imtahanlarında iştirak edəcək şagird kontingentinin seçilməsi, imtahan mərkəzlərinin müəyyənləşdirilməsi, imtahan rəhbərləri və zal nəzarətçilərinin imtahanlara hazırlığı, test bankının zənginləşdirilməsi, proqram təminatının hazırlanması, eləcə də təşkilati işlər istiqamətində geniş hazırlıq işləri görülmüşdür. İmtahanlar regionlar üzrə qruplaşdırılaraq ayrı-ayrı günlərdə keçirilmişdir. Şagirdlərin

rahatlığının təmin olunması üçün imtahanlar yalnız rayon mərkəzlərində deyil, ucqar kənd məktəblərində də keçirilmişdir.

Məlum olduğu kimi buraxılış və qəbul imtahanları yeni təhsil proqramları (kurikulumlar) əsasında keçiriləcəkdir. Bunu nəzərə alaraq DİM-də yeni təhsil proqramları (kurikulumlar) qiymətləndirmə materiallarının hazırlanması, ekspertizası və yoxlanılması ilə bağlı imtahan fənləri üzrə hazırlıq kursları təşkil edilmişdir. Kurslarda elektron qeydiyyatdan keçmiş müəllimlər, metodistlər və pedaqoji yönümlü ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin müvafiq fənn üzrə təhsil alan axırıncı kurs tələbələri və həmin müəssisələrdə təhsil alan magistrlər iştirak etmişlər. Gələcəkdə həmin şəxslər tapşırıq müəllifi, ekspert və imtahan materialların yoxlanılmasında marker kimi Dövlət İmtahan Mərkəzi ilə əməkdaşlıq edə biləcəklər.

DİM 2019-cu ildə də informasiya-kommunikasiya texnologiyalarının (İKT) kütləvi proseslərə tətbiqi istiqamətində işləri intensiv şəkildə davam etdirmiş, bu sahədə bir sıra yeni layihələr həyata keçirmişdir. İKT istər ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrinə, istər rezidenturaya, istər orta ixtisas təhsili pilləsinə qəbul prosesinin, ümumi təhsil müəssisələri şagirdlərinin buraxılış imtahanlarının, istərsə də dövlət qulluğuna işə qəbulun bütün mərhələlərində tətbiq edilmiş və yüz minlərlə vətəndaşa elektron xidmət göstərilmişdir. Mərkəzin ictimaiyyətə göstərdiyi 18 elektron xidmət növündən hesabat ilində 7 milyon 270 min dəfədən çox istifadə olunmuşdur. Bunlar dövlət qurumlarının icraatında olan elektron xidmət layihələri arasında ən çox istifadə olunan layihələrdəndir.

"Açıq hökumətin təşviqinə dair 2012–2015-ci illər üçün Milli Fəaliyyyət Planı"nın 2-ci bəndində göstərilir ki, dövlət orqanları öz fəaliyyətləri barədə müntəzəm olaraq ictimaiyyətə məlumat verməli, bu məlumatları "mütəmadi, yenilənmiş əsaslarla internet səhifələrində yerləşdirməli", "illik məruzələr tərtib etməli və internet səhifələrində açıqlamalı", "mətbuat konfransları keçirməli və ictimaiyyətlə birbaşa ünsiyyət formasında tədbirlər keçirməlidirlər. " Bu prinsipləri öz fəaliyyətində rəhbər tutan Dövlət İmtahan Mərkəzi mütəmadi olaraq qəbul kampaniyasının mərhələləri ilə bağlı ictimaiyyəti hərtərəfli məlumatlandırmış, qəbul prosesinin şəffaflığının təmin edilməsinə böyük önəm vermişdir. Bu baxımdan, mərkəzi icra hakimiyyəti orqanları rəhbərləri tərəfindən vətəndaşların qəbulu qrafikinə uyğun olaraq 2019-cu ildə də DİM-in direktorlar Şurasının sədri, may ayından başlayaraq sədr müavinləri hər ay bölgələrdə vətəndaşların qəbulunu həyata keçirmiş, il ərzində 20 şəhər və rayonda keçirilmiş qəbullarda 184 vətəndaş iştirak etmiş, səslənmiş 175 müraciətin 152-i DIM-in səlahiyyətinə aid olmuşdur. Qəbullarda hər bir bölgənin ətraf rayonlarından olan vətəndaşlar, eləcə də bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak etmişlər. Qəbul tarixləri barədə əvvəlcədən DİM-in rəsmi internet saytında və kütləvi informasiya vasitələrində elan-məlumat verilmişdir.

Müasir mərhələdə informasiya inkişafın ən başlıca əsaslarından biridir. Ən önəmli məsələlərdən biri informasiyanın açıqlanmasıdır. Bu, informasiya sahibinin mühüm vəzifəsidir. Bu vəzifə "İnformasiya əldə etmək haqqında Azərbaycan Respublikasının Qanunu"nuda təsbit olunmuşdur. Qanunun 29-cu maddəsinə əsasən informasiya sahibi cəmiyyətin maraqlarını daha asan və daha operativ şəkildə təmin etmək, çoxsaylı informasiya sorğularını azaltmaq məqsədi ilə malik olduğu, ictimai vəzifələrin yerinə yetirilməsi nəticəsində yaradılmış, yaxud əldə olunmuş informasiyanı ictimaiyyətə açıqlamalıdır. Qanunda belə informasiyalara ilk növbədə "ümumiləşdirilmiş statistik məlumatlar" aid edilir.

DİM-in (TQDK-nın) apardığı ənənəvi elmi-statistik təhlillərdə təhsilin həm ümumilikdə ölkə səviyyəsində, həm də ayrı-ayrı bölgələr və məktəblər üzrə göstəriciləri, eləcə də abituriyentlərin ayrı-ayrı fənlər üzrə nəticələri, onların müxtəlif ixtisas qruplarına meyil və maraqları, ali təhsil müəssisələrinə qəbulolma göstəriciləri, yüksək və zəif göstəricili rayon və məktəblər, ali təhsil müəssisələrinin reytinqi, bakalavriat və magistratura səviyyələrinə, orta ixtisas təhsili pilləsinə və rezidenturaya qəbulun nəticələri, həmçinin ümumtəhsil müəssisələri şagirdlərinin buraxılış imtahanları üzrə nəticələri və s. məsələlər öz əksini tapıb. Eyni zamanda, aparılan elmi-statistik təhlilin tərkib hissələri kimi "Tələbə qəbulunun gender aspektləri" ("Qadınlar statistikada"), "Kənd təsərrüfatı profilli ixtisaslar statistikada" və "Neft-qaz ixtisasları statistikada" adlı kitabçalar, həmçinin hər bir rayonun məzunlarının qəbul imtahanlarındakı göstəricilərini əks etdirən kitabçalar hazırlanıb. Qəbulun nəticələrinin bu miqyasda, bu səviyyədə araşdırılmasını təhsilin vəziyyətinin monitorinqi də adlandırmaq olar.

DİM elmi-statistik təhlil nəticəsində əldə etdiyi informasiyanı – "ümumiləşdirilmiş statistik məlumatlar"ı qeyd edilən qanuna və "Abituriyent" jurnalının nizamnaməsinə uyğun olaraq açıqlayır və əldə olunmuş nəticələri nəşr edərək ictimaiyyətin istifadəsinə verir.

1. ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN BAKALAVRİAT SƏVİYYƏSİNƏ TƏLƏBƏ QƏBULU

2019/2020-ci tədris ili üçün respublikanın ali təhsil müəssisələrinə tələbə qəbulu DİM tərəfindən "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu qaydaları"na əsasən aparılıb. Qəbul qaydalarına uyğun olaraq, respublikanın bütün mülki ali təhsil müəssisələrinə, xüsusi təyinatlı ali təhsil müəssisələrinə (Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti, Fövqəladə Hallar Nazirliyi və Dövlət Sərhəd Xidmətinin təhsil müəssisələri) tələbə qəbulu mərkəzləşdirilmiş qaydada keçirilib.

Ali təhsil müəssisələrinə qəbul prosesinin təkmilləşdirilməsi ilə əlaqədar 2019-cu ildə bir sıra yeniliklər tətbiq edilmişdir:

- Cari ildə ilk dəfə olaraq ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə qəbul imtahanı iki mərhələdə həyata keçirilmişdir. İmtahanın ikinci mərhələsi iki dəfə (yaz və yay sessiyaları) keçirilmiş və hər iki sessiyada iştirak edən abituriyentlərə yay sessiyasında imtahanı yaz sessiyasındakından fərqli ixtisas qrupu üzrə vermək imkanı yaradılmışdır.
- Cari ildə ilk dəfə olaraq imtahanda bacarıq və vərdişlərin qiymətləndirilməsi üçün abituriyentlərə yazılı şəkildə cavablandırılması tələb olunan test tapşırıqları təqdim olunmuşdur.
- Cari ildə ilk dəfə olaraq imtahanda abituriyentlərin xarici dillər üzrə qrammatika, oxu və söz ehtiyatı ilə bağlı bilik və bacarıqlarla yanaşı, onların dinləyib-anlama bacarıq və vərdişləri də qiymətləndirilmişdir.
- Cari ildə ilk dəfə olaraq, orta ixtisas təhsili pilləsi üzrə "subbakalavr" peşə-ixtisas dərəcəsi almış şəxslər (subbakalavrlar) qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq hüququna malik olmuşlar.
- Cari ildə ilk dəfə olaraq, beynəlxalq səviyyədə akkreditasiya olunan "Beynəlxalq Bakalavriat Diplom Proqramı (IB Diploma Programme)", "Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (Advanced Level of General Certificate of Education)" və "Yüksək yerləşdirmə (Advanced Placement)" təhsil proqramları üzrə təhsil almış abituriyentlər ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmaq imkanına malik olmuşlar.

Bütün bunlardan başqa 2019-cu ildə dövlət sifarişi üzrə ayrılan yerlərin sayı 2018-ci illə müqayisədə təxminən 1.7 dəfə artırılmış və ümumi qəbul planındakı payı 26%-dən 41%-ə çatdırılmışdır. Bu isə öz növbəsində dövlətin təhsil sahəsində qayğısının artmasını, bu sahəyə ciddi diqqətin olduğunu göstərir.

Bütün bu qeyd olunan dəyişikliklər və yeniliklərin hamısının cəmiyyət tərəfindən birmənalı şəkildə müsbət qarşılanmasını gözləmək sadəlövhlük olardı. Çünki istənilən dəyişiklik və yeniliklərə uyğunlaşma bir qədər vaxt və əmək sərfi tələb edir. Qeyd etmək lazımdır ki, bütün bu yeniliklər cəmiyyətin maraqlarına və ölkənin güclü və peşəkar kadr potensialının artmasına xidmət edir. Dünyada bu sahədə gedən proseslərə, əmək bazarındakı müasir tələblərə cavab vermək üçün bu dəyişikliklərin olması labüd idi. Bunu bir çox təhsil ekspertləri də qeyd ediblər və qeyd olunan yenilikləri müsbət qarşılayıblar (bax: "Yeni imtahan modeli: islahatlar, nəticələr və gözləntilər", Sosial Tədqiqatlar Mərkəzi, 2019).

Abituriyentlər ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün 2019-cu il martın 15-dən aprelin 15-dək internet vasitəsilə elektron ərizə veriblər. Bunun üçün onlar ekabinet.dim.gov.az internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet (eservices.dim.gov.az/erizebak/erize) səhifəsinə daxil olaraq "Abituriyentin elektron ərizəsi" formasını doldduraraq təsdiq etmişlər.

Cari ildə ilk dəfə olaraq ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə qəbul imtahanı iki mərhələdə həyata keçirilmişdir. İmtahanın ikinci mərhələsi iki dəfə (yaz və yay sessiyaları) keçirilmiş və hər iki sessiyada iştirak edən abituriyentlərə yay sessiyasında imtahanı birincidəkindən fərqli ixtisas qrupu üzrə vermək imkanı yaradılmışdır. Bu abituriyentlər müsabiqə şərtlərini ödədikləri halda imtahanlarında iştirak etdikləri hər iki ixtisas qrupu üzrə müsabiqədə iştirak etmək hüququ qazanmışlar. Hər iki sessiyada eyni ixtisas qrupu üzrə imtahan verən abituriyentlər topladıqları ən yüksək balla (imtahanlarda əldə etdikləri ən yüksək nəticə ilə) ixtisas seçimində iştirak etmişlər. Müsabiqədə iştirak ödənişli olmuşdur. Abituriyentlər

ərizələrini təsdiq etmək (etdirmək) üçün tələb olunan məbləği kabinetlərindəki hesaba əlavə etmiş və təsdiq zamanı həmin məbləğ onların hesabından çıxılmışdır. Cari ilədək ali təhsil müəssisələrinə qəbul olmaq üçün ilk dəfə müraciət etmiş Azərbaycan Respublikası vətəndaşlarının imtahanda (imtahanın ikinci mərhələsi üzrə keçirilən imtahanlarda ikinci dəfə iştirak istisna olmaqla) iştirakı isə dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilmişdir.

Ərizələrində I–IV ixtisas qrupları üzrə keçirilən qəbul imtahanının ikinci mərhələsinin yaz sessiyasında iştirak etmək istədiyini qeyd etmiş abituriyentlər, yay sessiyasında da iştirak etmək istədikləri halda bu sessiyada iştirak etmək üçün mayın 30-dan iyunun 12-dək eservices.dim.gov.az/erizebak/erize internet səhifəsində qeydiyyatdan keçmişlər. Ərizələrində yaz sessiyasında iştirak etmək istədiklərini qeyd etməmiş abituriyentlərin isə qeydiyyatdan keçmələrinə ehtiyac olmayıb və onlar birbaşa yay sessiyasında iştirak etmişlər.

Ərizənin təsdiqi DİM-in məlumat bazalarında abituriyent barədə olan məlumatların yetərli olub-olmamasından asılı olaraq iki üsulla həyata keçirilib:

1. Aşağıda göstərilən kateqoriyalardan olan abituriyentlər elektron ərizələrini elektron ərizə səhifəsinə daxil olaraq özləri təsdiq ediblər:

1.1. Azərbaycan Respublikasının ümumtəhsil müəssisələrini cari ildə bitirən abituriyentlər;

1.2. Azərbaycan Respublikasının ümumtəhsil müəssisələrini 2012-ci və ondan sonrakı illərdə bitirən qadın cinsli abituriyentlər;

1.3. Azərbaycan Respublikasının ilk-peşə ixtisas təhsili müəssisələrini 2013-cü və ondan sonrakı illərdə bitirən qadın cinsli abituriyentlər;

1.4. 2012-ci və ondan sonrakı illərdə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə verib onu təsdiq etmiş qadın cinsli abituriyentlər;

2. 1.1, 1.2, 1.3 və 1.4 -ci yarımbəndlərdə göstərilən abituriyentlərdən başqa digər abituriyentlər elektron ərizələrini tələb olunan sənədləri təqdim etməklə müvafiq Sənəd Qəbulu Komissiyasında (SQK) təsdiq etdiriblər. Ərizə qəbulu elanının tam mətni "Abituriyent" jurnalının 2019-cu il 2-ci sayında dərc edilərək ictimaiyyətə çatdırılıb. Ərizə qəbulu ilə bağlı bütün məlumatlar operativ şəkildə DİM-in internet saytında da yerləşdirilib. Bundan başqa, "Abituriyentin elektron ərizəsi" formasının doldurulması qaydası televiziya kanallarında abituriyentlərə dəfələrlə izah olunub.

Azərbaycanda təhsil almış Azərbaycan Respublikasının vətəndaşları (1.1, 1.2, 1.3 və 1.4-cü yarımbəndlərdə göstərilən abituriyentlər istisna olmaqla) tələb olunan sənədləri təqdim etməklə elektron ərizələrini aşağıdakı SQK-larda təsdiq etdiriblər:

Bakı şəhərində:

Bakı Dövlət Universiteti; Azərbaycan Texniki Universiteti, Azərbaycan Universiteti;

Digər şəhər və rayonlarda:

Naxçıvan ş.	*DİM-in Regional Bölməsi;*
Gəncə ş.	*DİM-in Regional Bölməsi*
Lənkəran ş.	*DİM-in Regional Bölməsi;*
Şəki r-nu.	*DİM-in Regional Bölməsi;*
Xaçmaz r-nu.	*DİM-in Regional Bölməsi;*
Şirvan ş.	*DİM-in Regional Bölməsi;*
Göyçay r-nu.	*DİM-in Regional Bölməsi;*
Bərdə r-nu.	*DİM-in Regional Bölməsi;*
Şəmkir r-nu.	*DİM-in Regional Bölməsi;*
Sumqayıt ş.	*Sumqayıt Dövlət Universiteti;*

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər (1.1, 1.2, 1.3 və 1.4-ci yarımbəndlərdə göstərilən abituriyentlər istisna olmaqla), həmçinin xaricdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları ərizələrini aşağıdakı SQK-larda təsdiq etdiriblər:

Bakı şəhərində:	*DİM;*
Naxçıvan ş.	*DİM-in Regional Bölməsi;*
Gəncə ş.	*DİM-in Regional Bölməsi*

Lənkəran ş. *DİM-in Regional Bölməsi;*
Şəki r-nu. *DİM-in Regional Bölməsi;*
Xaçmaz r-nu. *DİM-in Regional Bölməsi;*
Şirvan ş. *DİM-in Regional Bölməsi;*
Göyçay r-nu. *DİM-in Regional Bölməsi;*
Bərdə r-nu. *DİM-in Regional Bölməsi;*
Şəmkir r-nu. *DİM-in Regional Bölməsi;*

Xüsusi təyinatlı ali təhsil müəssisələrində təhsil almaq istəyən abituriyentlər də 1-ci və 2-ci bənddə göstərilən müddətdə və qaydada elektron ərizələrini təsdiq ediblər.

2019/2020-ci tədris ili üçün ali təhsil müəssisələrinə qəbul beş ixtisas qrupu üzrə aparılmışdır. I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı iki mərhələdən ibarət olmuşdur. Abituriyentlər qəbul imtahanının birinci *(maksimal toplanıla bilən bal – 300)* və ikinci *(maksimal toplanıla bilən bal – 400)* mərhələlərindən topladıqları ümumi balların cəminə *(maksimal toplanıla bilən bal – 700)* əsasən ali təhsil müəssisələrinin ixtisasları üzrə müsabiqədə iştirak etmişlər. Cari ilin məzunları üçün qəbul imtahanının birinci mərhələsinin nəticəsi kimi onların buraxılış imtahanında əldə etdikləri nəticələr götürülmüşdür.

Qəbul imtahanının birinci mərhələsi (cari ilin məzunları üçün tam (11-illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı) üzrə imtahan fənləri, tapşırıqların sayı və balların hesablanma qaydası 1.1 saylı cədvəldə təqdim olunmuşdur. Bu mərhələdə şagird və abituriyentlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi ilə onlara ümumilikdə üç fənn üzrə 85 tapşırıq təqdim edilmişdir. İmtahanın müddəti 3 saat olmuşdur.

Cədvəl 1.1

Fənnin adı	Tapşırıqların sayı	Nisbi balın hesablanması düsturu
Xarici dil (ingilis, alman, fransız, rus, ərəb və ya fars dili)	- Dinləyib-anlamaya dair mətn (publisistik və ya dialoq formalı) və mətnə aid 6 tapşırıq: yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 3 və qapalı tipli 3 tapşırıq; - Qapalı tipli 16 tapşırıq; - Oxuyub-anlamaya dair mətn və mətnə aid 8 tapşırıq: yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 4 və qapalı tipli 4 tapşırıq. **Cəmi: 30 tapşırıq**	$\frac{100}{37}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(qapalı)})$ **Maksimal bal: 100**
Azərbaycan (rus) dili	- Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq; - Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik formalı) və hər mətnə aid 10 tapşırıq: yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 5 və qapalı tipli 5 tapşırıq (cəmi 20 tapşırıq). **Cəmi: 30 tapşırıq**	$\frac{5}{2}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(qapalı)})$ **Maksimal bal: 100**
Riyaziyyat	- Qapalı tipli 13 tapşırıq. - Cavabların kodlaşdırılması tələb olunan açıq tipli 5 tapşırıq; - Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 7 tapşırıq; **Cəmi: 25 tapşırıq**	$\frac{25}{8}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(açıq,\ kod)}+$ $+n_{d(qapalı)})$ **Maksimal bal: 100**

Qeyd. 1. $n_{d(açıq,\ kod)}$ - cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(qapalı)}$ - qapalı tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(açıq,\ yazılı)}$ - yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi.

2. Qapalı tipli və cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqların hər birinə verilən düzgün cavab 1 balla qiymətləndirilib.

3. Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar markerlər tərəfindən meyarlar əsasında 0, $\frac{1}{3}$, $\frac{1}{2}$, $\frac{2}{3}$ və ya 1 balla qiymətləndiriliblər.

Abituriyentin qəbul imtahanının birinci mərhələsi (cari ilin məzunları üçün tam (11-illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı) üzrə ümumi balı hesablanarkən hər bir fənn üzrə topladığı nisbi ballar cəmlənib. Fənlər üzrə nisbi ballar yuxarıdakı cədvəldə göstərilən qaydada hesablandıqdan sonra 0.1-ə qədər yuvarlaqlaşdırılıb. Tapşırıqlar üzrə səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərməyib.

Qəbul imtahanının ikinci mərhələsində abituriyentlərə hər fənn üzrə 30 tapşırıq (ümumilikdə 90 tapşırıq) təqdim olunmuşdur. Bu tapşırıqların 22-si qapalı, 8-i isə açıq tipli idi. Açıq tipli tapşırıqlardan 5-i cavabların kodlaşdırılması tələb olunan hesablama, seçim və ya uyğunluğu müəyyən etmək tipli tapşırıqlar olub. Digər açıq tipli 3 tapşırıq isə yazılı şəkildə cavablandırılması tələb olunan, meyarlar əsasında markerlər tərəfindən qiymətləndirilən situasiya, mətn və yaxud mənbə əsasında hazırlanan tapşırıqlar idi. Bu tapşırıqlar riyaziyyat, fizika, kimya, biologiya və coğrafiya fənləri üzrə situasiya, Azərbaycan (rus) dili və ədəbiyyat fənləri üzrə mətn, tarix fənni üzrə isə mənbə əsasında hazırlanıb. İmtahanın müddəti 3 saat olmuşdur.

Abituriyentin qəbul imtahanının ikinci mərhələsi üzrə ümumi balı hesablanarkən hər bir fənn üzrə topladığı nisbi ballar 1.2 saylı cədvəldə verilmiş müvafiq çəki əmsallarına vurulmaqla cəmlənib. Hər bir fənn üzrə nisbi bal aşağıdakı qaydada hesablandıqdan sonra 0.1-ə qədər yuvarlaqlaşdırılıb:

$$\boldsymbol{NB = NB_q + NB_a},$$

burada NB – fənn üzrə nisbi bal; NB_q – qapalı tipli tapşırıqlar üzrə nisbi bal; NB_a – açıq tipli tapşırıqlar üzrə nisbi baldır.

Qapalı və açıq tipli test tapşırıqları üzrə nisbi ballar isə aşağıdakı qaydada hesablanıb:

$$\boldsymbol{NB_q = \left(D_q - \frac{1}{4} Y_q \right) \cdot \frac{100}{33}}$$ (hesablamanın nəticəsi mənfi alınarsa, $\boldsymbol{NB_q=0}$ götürülür),

burada $\boldsymbol{D_q}$ – qapalı tipli tapşırıqlar üzrə düzgün cavabların sayı; $\boldsymbol{Y_q}$ – qapalı tipli tapşırıqlar üzrə yanlış cavabların sayıdır.

$$\boldsymbol{NB_a = (D_{kod} + 2D_{yazılı}) \cdot \frac{100}{33}}$$

burada $\boldsymbol{D_{kod}}$ – cavabların kodlaşdırılması tələb olunan açıq tipli (hesablama, seçim, uyğunluğu müəyyən etmək) tapşırıqlar üzrə düzgün cavabların sayı; $\boldsymbol{D_{yazılı}}$ – yazılı şəkildə cavablandırılması tələb olunan, situasiya, mətn və yaxud mənbə əsasında hazırlanan açıq tipli tapşırıqlar üzrə balların cəmidir. Bu tapşırıqlar markerlər tərəfindən meyarlar əsasında 0, $\frac{1}{2}$ *və ya* 1 *balla qiymətləndiriliblər.*

Açıq tipli tapşırıqlar üzrə səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərməyib.

Cədvəl 1.2

QƏBUL İMTAHANININ İKİNCİ MƏRHƏLƏSİ ÜZRƏ İMTAHAN FƏNLƏRİNİN ÇƏKİ ƏMSALLARI (İXTİSAS QRUPLARI ÜZRƏ)

İxtisas qrupları	İmtahan fənləri	Çəki əmsalları
I qrup	Riyaziyyat	1.5
	Fizika	1.5
	Kimya	1
II qrup	Riyaziyyat	1.5
	Coğrafiya	1.5
	Tarix	1
III qrup	Azərbaycan (rus) dili	1.5
	Tarix	1.5
	Ədəbiyyat	1
IV qrup	Biologiya	1.5
	Kimya	1.5
	Fizika	1

Abituriyentlər V ixtisas qrupu üzrə ali təhsil müəssisələri və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin ixtisasları üzrə müsabiqədə yalnız qəbul imtahanının birinci mərhələsinin (cari ilin məzunları üçün buraxılış imtahanının) nəticələrinə əsasən iştirak etmişlər.

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə təhsil almaq istəyən və imtahanda topladıqları ümumi balları müvafiq müsabiqə şərtlərini ödəmiş abituriyentlər imtahanların nəticəsi elan olunduqdan sonra V qrup üzrə 2019-cu il iyunun 20-dən iyulun 13-dək ("Bədən tərbiyəsi və idman" istiqamətinin 60, 61 və 62-ci komissiyaları üzrə 20-28 iyun), I qrup üzrə iyulun 8-dən 13-dək, III qrup üzrə isə iyulun 20-dən 25-dək eservices.dim.gov.az/erizebak/qabiliyyet internet səhifəsinə daxil olub seçdiyi xüsusi qabiliyyət tələb edən ixtisasın aid olduğu komissiya üzrə qeydiyyatdan keçiblər. Ali təhsil müəssisələrinə qəbul olmaq üçün ilk dəfə müraciət etmiş Azərbaycan Respublikası vətəndaşlarının (ümumi təhsil müəssisələrini bitirən) ilk seçdiyi (qeydiyyatdan keçdiyi) komissiya üzrə qabiliyyət imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilmişdir.

Qabiliyyət imtahanları DİM-in təşkil etdiyi xüsusi komissiyalar tərəfindən mərkəzləşdirilmiş qaydada aparılıb. Qabiliyyət imtahanları Bakı şəhərində ali təhsil müəssisələrinin təsviri sənət istiqamətli ixtisasları üzrə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında, Azərbaycan Memarlıq və İnşaat Universitetində və Azərbaycan Dövlət Pedaqoji Universitetində, musiqi sənəti istiqamətli ixtisasları üzrə Bakı Musiqi Akademiyasında, Azərbaycan Milli Konservatoriyasında, Azərbaycan Dövlət Pedaqoji Universitetində və Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, memarlıq istiqamətli ixtisasları üzrə Azərbaycan Memarlıq və İnşaat Universitetində, teatr, kino və xoreoqrafiya sənəti istiqamətli ixtisasları üzrə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində və Bakı Xoreoqrafiya Akademiyasında, bədən tərbiyəsi və idman istiqamətli ixtisasları üzrə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında, ilahiyyat istiqamətli ixtisası üzrə Azərbaycan İlahiyyat İnstitutunda keçirilib.

Qabiliyyət imtahanları ali təhsil müəssisələri üzrə Bakı şəhərindən əlavə Naxçıvan, Gəncə şəhərlərində və Şəmkir rayonunda da təşkil edilmişdi. Naxçıvan şəhərində keçirilən imtahanlarda yalnız Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universitetinin və Naxçıvan Müəllimlər İnstitutunun, Gəncə şəhərində keçirilən imtahanlarda Gəncə Dövlət Universiteti, Azərbaycan Texnologiya Universiteti və Bakı Dövlət Universitetinin Qazax filialının, Şəmkir rayonunda keçirilən imtahanlarda Gəncə Dövlət Universitetinin xüsusi qabiliyyət tələb edən ixtisaslarında təhsil almaq istəyən abituriyentlər, Bakı şəhərində keçirilən imtahanlarda isə Bakı şəhərində fəaliyyət göstərən ali təhsil müəssisəsinin xüsusi qabiliyyət tələb edən ixtisaslarında təhsil almaq istəyən abituriyentlər iştirak ediblər.

Dövlət İmtahan Mərkəzi ilin əvvəlində qabiliyyət imtahanlarının keçirilməsi qaydaları, qəbul proqramları, imtahanlara hazırlığa dair metodiki tövsiyələr, qiymətləndirmə meyarları və s. materialları "Abituriyent" jurnalının xüsusi buraxılışı olan "Xüsusi qabiliyyət imtahanları" jurnallarının müvafiq saylarında dərc edərək qabiliyyət imtahanlarına hazırlaşanların istifadəsinə vermişdir.

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə qabiliyyət imtahanlarının yekun nəticəsi ixtisasın xüsusiyyətindən asılı olaraq məqbul və ya balla qiymətləndirilib. Abituriyentin xüsusi qabiliyyət tələb edən ixtisasları seçmək və onların kodlarını ərizəsində qeyd etmək hüququ qazanması üçün onun qabiliyyət imtahanından yekun nəticəsi və test imtahanında topladığı ümumi balı DİM tərəfindən müəyyən edilmiş tələblərə uyğun olmalı idi. Abituriyentlərə öz ərizələrində qabiliyyət tələb edən ixtisaslarla yanaşı, digər ixtisasları da seçmək imkanı verilmişdi. Seçim imkanlarının bu şəkildə genişləndirilməsi, bir tərəfdən, qabiliyyət tələb edən ixtisaslara qəbulda müsabiqə vəziyyətinin artmasına, digər tərəfdən isə müsabiqə zamanı seçimin keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərmişdir. Qeyd edək ki, I–IV qruplardan hər hansı birinə (və ya ikisinə) ərizə verən abituriyentə, eyni zamanda V qrupa da ərizə vermək və qoyulan tələbləri ödədiyi halda, bu qrup üzrə də müsabiqədə iştirak etmək və ixtisas seçimi zamanı eyni vaxtda I–IV qruplardan hər hansı birinə (və ya ikisinə) daxil olan ixtisaslarla yanaşı, V qrupa aid ixtisasları da ərizəsində istədiyi ardıcıllıqla qeyd etmək imkanı yaradılmışdı.

Son illərdə ən aşağı müsabiqə vəziyyəti xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə olmuşdur. Dövlət İmtahan Mərkəzi bunu nəzərə alaraq gənclərin bu ixtisaslara meyil və marağını artırmaq, onların qəbula hazırlığına kömək məqsədilə əvvəlki illərdə olduğu kimi, bu ildə xüsusi qabiliyyət tələb edən ixtisaslara dair metodiki materiallar hazırlanıb və müxtəlif maarifləndirici tədbirlər həyata keçirib. Qeyd olunanlarla yanaşı, 2015-ci ildən etibarən xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə (I qrup "Memarlıq" və III qrup "İslamşünaslıq" və "Jurnalistika" ixtisasları istisna olmaqla) ayrıca bir qrup – V qrup yaradılmış, qəbul imtahanının struktur və məzmun tərkibi dəyişdirilmişdir (cari ilin məzunları V qrup üzrə müsabiqədə əlavə qəbul imtahanı verməden bilavasitə buraxılış imtahanlarının nəticələri əsasında iştirak ediblər). Nəticədə, ötən illərlə müqayisədə müsabiqə vəziyyəti dəfələrlə artmış və V qrupa daxil olan ixtisaslara ayrılan 3462 plan yerinə 4971 abituriyent iddia etmişdi. Qeyd edək ki, 2015-ci ildə bu ixtisaslara ayrılan 2355 plan yerinə 4293, 2016-cı ildə 2854 plan yerinə 3993, 2017-ci ildə 3067 plan yerinə 3939, 2018-ci ildə isə 3307 plan yerinə 3593 abituriyent iddia edirdi.

Bu il I ixtisas qrupun xüsusi qabiliyyət tələb edən "Memarlıq" ixtisası üzrə müsabiqəyə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan, V qrupun xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə müsabiqəyə isə ümumi balı 60-dan (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) az olmayan abituriyentlər buraxılmışdı. Qeyd edək ki, bu ixtisaslara qəbul olan abituriyentlərin qəbul imtahanlarında topladıqları orta ballar (I qrupda "Memarlıq" istiqaməti üzrə 364.95, III qrupda "İlahiyyat" istiqaməti üzrə 259.96, "Jurnalistika" istiqaməti üzrə 390.23, V qrupda "Təsviri sənət" istiqaməti üzrə 123.65, "Musiqi sənəti" istiqaməti üzrə 94.27, "Teatr, kino və xoreoqrafiya" istiqaməti üzrə 102.77, "Bədən tərbiyəsi və idman" istiqaməti üzrə 106.59 bal) müsabiqə şərtlərindən xeyli yüksək olub.

2019/2020-ci tədris ili üçün V ixtisas qrupunun xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə ümumilikdə 3462 plan yeri ayrılmışdı (bundan əlavə 74 yerə müsabiqədən kənar qəbul aparılıb). 4971 abituriyent V qrupun xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə qabiliyyət imtahanını müvəffəqiyyətlə vermişdir. Bu il xüsusi qabiliyyət tələb edən ixtisasların qəbul planları və qabiliyyət imtahanlarını uğurla vermiş abituriyentlərin sayı aşağıdakı cədvəldə təqdim olunur:

Cədvəl 1.3

İSTİQAMƏTLƏR ÜZRƏ QABİLİYYƏT İMTAHANINI UĞURLA VERMİŞ ABİTURİYENTLƏRİN SAYI

İstiqamət	İxtisas qrupu	Qəbul planı	Qabiliyyət imtahanını müvəffəqiyyətlə vermiş abituriyentlərin sayı
Memarlıq	I	155	115
İlahiyyat	III	36	133
Jurnalistika	III	270	345
Təsviri sənət	V	950	1490
Musiqi sənəti	V	631	523
Teatr, kino və xoreoqrafiya sənəti	V	237	126
Bədən tərbiyəsi və idman	V	1644	2859

Müsabiqə zamanı abituriyentlərin seçdikləri ixtisaslar "Abituriyentin elektron ixtisas seçimi ərizəsi" formasında göstərilən ardıcıllıqla nəzərə alınmış və abituriyent topladığı ballara əsasən müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilmişdir. Seçdiyi ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün abituriyentin topladığı ümumi balı ilə yanaşı, imtahanın ikinci mərhələsi üzrə yığdığı bala da tələblər (müsabiqə şərtləri) müəyyənləşdirilmişdir. Bu tələblər, bir qayda olaraq, qəbul imtahanlarının nəticələrinin elmi-statistik təhlili əsasında formalaşır. Aparılan təhlil nəticəsində müəyyən edilmişdir ki, I–IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinin qəbul planında nəzərdə tutulmuş qəbul yerlərini həmin qruplarda nəticələri yüksək və orta bal diapazonunda yerləşən abituriyentlərin hesabına tam doldurmaq mümkün deyil. Odur ki, müsabiqə vəziyyətini yüksəltmək məqsədilə müsabiqədə iştirak etmək üçün fənlər üzrə nisbi bala heç bir məhdudiyyət tətbiq edilməmişdir.

Ümumilikdə, müsabiqəyə buraxılma şərtləri aşağıdakı şəkildə müəyyən olunmuşdur:

• **I qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb. I ixtisas qrupunun "Riyaziyyat", "Fizika", "Kompüter elmləri", "Nəqliyyat tikintisi mühəndisliyi", "İnşaat mühəndisliyi", "İnformasiya texnologiyaları", "Geologiya", "Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi" ixtisasları üzrə müsabiqədə ümumi balı 250-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər iştirak edib.

Dövlət ali təhsil müəssisələrinin (ADA Universiteti, Birgə Azərbaycan-Fransız Universiteti (UFAZ), Bakı Mühəndislik Universiteti və Bakı Ali Neft Məktəbi istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsində attestatında xarici dil fənni kimi ingilis dili göstərilən və qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər iştirak hüququ qazanıb.

I ixtisas qrupunun “Torpaqşünaslıq və aqrokimya”, “Meşəçilik”, “Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi”, “Şərabçılıq”, “Texnologiya müəllimliyi”, “Nəqliyyatda daşımaların və idarəetmənin təşkili mühəndisliyi”, “Meşə materiallarının və ağac emalının texnologiyası mühəndisliyi”, “Çoxişlənən malların texnologiyası mühəndisliyi”, “İstehlak mallarının ekspertizası və marketinqi” və “Poliqrafiya mühəndisliyi” ixtisasları üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər iştirak ediblər.

Azərbaycan Dövlət Aqrar Universitetinin “Aqromühəndislik”, “Balıqçılıq və balıqçılıq təsərrüfatı işi”, “Meşəçilik”, “Aqronomluq”, “Zootexniklik”, “Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi”, “Şərabçılıq”, “Torpaqşünaslıq və aqrokimya” ixtisasları, Naxçıvan Dövlət Universitetinin “Torpaqşünaslıq və aqrokimya” ixtisası və Lənkəran Dövlət Universitetinin “Torpaqşünaslıq və aqrokimya”, “Aqronomluq” və “Meşəçilik” ixtisasları üzrə həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərinin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan abituriyentlər iştirak hüququ qazanıb.

• **II qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb.

Dövlət ali təhsil müəssisələrinin (“ADA” Universiteti istisna olmaqla) “Beynəlxalq münasibətlər” və “Regionşünaslıq (regionlar üzrə)” ixtisaslarının müsabiqəsinə xarici dil fənni üzrə nisbi balı 30-dan az olmayan abituriyentlər iştirak ediblər.

Dövlət ali təhsil müəssisələrinin (“ADA” Universiteti və Bakı Mühəndislik Universiteti istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsinə attestatında xarici dil fənni kimi ingilis dili göstərilən və qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılıblar.

II ixtisas qrupunun “Marketinq”, “Biznesin idarə edilməsi”, “Kommersiya”, “Regionşünaslıq (regionlar üzrə)” və “Turizm və otelçilik” ixtisasları üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər iştirak ediblər.

• **III qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb.

Dövlət ali təhsil müəssisələrinin “Tərcümə (dillər üzrə)” ixtisasının müsabiqəsində xarici dil fənni üzrə nisbi balı 30-dan az olmayan abituriyentlər iştirak ediblər.

Dövlət ali təhsil müəssisələrinin (“ADA” Universiteti istisna olmaqla) tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsinə attestatında xarici dil fənni kimi ingilis dili göstərilən və qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər buraxılıblar.

III ixtisas qrupunun “Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması” və “Sosial iş” ixtisasları üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər iştirak ediblər.

• **IV qrup** ixtisaslarının müsabiqəsinə (həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlər üzrə) ümumi balı 200-dən, imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan abituriyentlər buraxılıb.

Attestatında xarici dil fənni kimi ingilis dili göstərilən və qəbul imtahanının birinci mərhələsində (cari ilin məzunları üçün buraxılış imtahanında) ingilis dili fənni üzrə nisbi balı 40-dan az olmayan abituriyentlər dövlət ali təhsil müəssisələrinin tədrisi ingilis dilində olan ixtisaslarının müsabiqəsində iştirak etmək hüququ qazanıb.

IV ixtisas qrupunun “Ekologiya” ixtisası üzrə ödənişli əsaslarla ayrılmış yerlərin müsabiqəsində ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan (dövlət sifarişi əsasında ayrılan yerlər üzrə ümumi balı 200-dən və imtahanın ikinci mərhələsi üzrə balı 100-dən az olmayan) abituriyentlər iştirak ediblər.

Azərbaycan Dövlət Aqrar Universitetinin “Baytarlıq”, “Su bioehtiyatları və akvabitkilər”, “Ekologiya”, “Əczaçılıq”, “Bitki mühafizəsi”, “Bağçılıq və tərəvəzçilik” ixtisasları, Naxçıvan Dövlət Universitetinin “Baytarlıq” ixtisası və Lənkəran Dövlət Universitetinin “Baytarlıq”, “Bağçılıq və tərəvəzçilik” ixtisasları üzrə həm dövlət sifarişi əsasında, həm də ödənişli əsaslarla qəbul aparılan yerlərinin müsabiqəsinə ümumi balı 150-dən və imtahanın ikinci mərhələsi üzrə balı 50-dən az olmayan abituriyentlər buraxılıb.

• **V qrup** üzrə ixtisas seçimində qabiliyyət imtahanı üzrə yekun nəticəsi və qəbul imtahanında topladığı ümumi balı cədvəl 1.3-də göstərilən şərtləri ödəyən abituriyentlər iştirak etmişlər.

I və V qrupların qəbul planında qarşısında ulduz “*” (qabiliyyət imtahanının nəticəsi məqbulla qiymətləndirilən) və ya iki ulduz “**” (qabiliyyət imtahanının nəticəsi balla qiymətləndirilən) işarəsi olan ixtisaslarının müsabiqəsində qabiliyyət imtahanından yekun nəticəsi və qəbul imtahanından topladığı ümumi balı DİM tərəfindən müəyyən edilmiş tələblərə uyğun olan abituriyentlər iştirak etmişlər. I ixtisas qrupunun xüsusi qabiliyyət tələb edən “Memarlıq” ixtisasının müsabiqəsində iştirak edən abituriyentlərə həmin qrup daxilində digər ixtisasları da seçmək imkanı verilib.

Ali təhsil müəssisələrinin V ixtisas qrupunda qabiliyyət imtahanlarının nəticələri balla qiymətləndirilən xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə abituriyentin qabiliyyət imtahanlarında topladığı yekun balı, qabiliyyət imtahanlarının nəticələri məqbulla qiymətləndirilən xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə abituriyentin qəbul (cari ilin məzunları üçün buraxılış) imtahanında topladığı ümumi balı əsasında aparılmışdır. Qabiliyyət imtahanı komissiyaları üzrə müsabiqə şərtləri 1.3a saylı cədvəldə təqdim edildiyi kimi olmuşdur.

Cədvəl 1.4

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə müsabiqə şərtləri

İxtisasın adı	Minimal bal	II mərhələ üzrə minimal bal	Qabiliyyət imtahanının yekun nəticəsi
I qrup			
Memarlıq	200	100	məqbul
III qrup			
İslamşünaslıq	150	50	məqbul
Jurnalistika	200	100	məqbul
V qrup			
Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi (qızlar üçün fiziki tərbiyə) Musiqi müəllimliyi Rəqs müəllimliyi Təsviri incəsənət müəllimliyi Dizayn Bədən tərbiyəsi və idman Məşqçi (idman növü üzrə)	60	---	məqbul
Dekorativ sənət İnstrumental ifaçılıq Solo oxuma Dirijorluq Bəstəkarlıq Musiqişünaslıq Estrada sənəti Xalq çalğı alətləri ifaçılığı Aktyor sənəti Rejissorluq Operator sənəti Rəngkarlıq Qrafika Heykəltəraşlıq Xoreoqrafiya sənəti (sahələr üzrə)	60	---	6

Abituriyentlər qəbul qaydalarına əsasən eyni ixtisas qrupuna aid 15-dək ixtisas kodunu seçə bilərdilər.

Cari ildə ilk dəfə olaraq, orta ixtisas təhsili pilləsi üzrə "subbakalavr" peşə-ixtisas dərəcəsi almış şəxslər (bundan sonra - subbakalavrlar) qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq hüququna malik olmuşlar. Tələbə qəbulu ilə bağlı subbakalavrların ərizələrinin qəbulu 2019-cu il iyunun 13-dən iyulun 17-dək (V ixtisas qrupu üzrə iyunun 13-dən 27-dək) internet vasitəsilə aparılmışdır. Ərizə qəbulu ilə bağlı ətraflı məlumat "Abituriyent" jurnalının "2019/2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə subbakalavrların qəbulu elanı" adlı xüsusi buraxılışında təqdim olunmuşdur.

Subbakalavrlar ixtisas seçimində iştirak etmək üçün qəbul olmaq istədikləri ixtisasların kodlarını iyulun 24-dən avqustun 6-dək "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nə daxil edib təsdiq etmişlər. Onlar yalnız orta ixtisas təhsili səviyyəsində təhsil aldıqları tədris dilinə və bitirdikləri ixtisasa uyğun olan ixtisasları seçmək imkanına malik olmuşlar. Qəbul aparılan ixtisasların uyğunluğu Dövlət İmtahan Mərkəzi ilə razılaşdırılmaqla, Təhsil Nazirliyi tərəfindən müəyyən olunmuşdur. Dövlət hesabına ali təhsil almış şəxslərə yalnız ödənişli əsaslarla ayrılmış yerləri seçmək hüququ verilmişdir. Subbakalavrlar xarici dil fənni üzrə əlavə tələblər qoyulan ixtisasları seçə bilməyiblər. Xüsusi qabiliyyət tələb edən ixtisasları isə yalnız bu ixtisaslar üzrə qabiliyyət imtahanlarında iştirak edən və müvafiq müsabiqə şərtlərini ödəyən subbakalavrlar seçə bilmişlər.

İxtisas seçimi başa çatdıqdan sonra ali təhsil müəssisələrinin ixtisaslarının qəbul planı və dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu çərçivəsində əvvəlcə abituriyentlərin, sonra isə subbakalavrların müsabiqə əsasında yerləşdirilməsi aparılmışdır. Cari ildə qəbul imtahanında iştirak etmiş subbakalavrlar isə öz istəklərindən asılı olaraq, həm imtahanda topladığı bal ilə ümumi qaydada, həm də qəbul imtahanlarında iştirak etmədən orta ixtisas təhsili səviyyəsində bitirdiyi ixtisasa uyğun ali təhsil pilləsinin ixtisasları üzrə keçirilən müsabiqədə iştirak ediblər.

Cari ildə ilk dəfə olaraq, beynəlxalq səviyyədə akkreditasiya olunan "Beynəlxalq Bakalavriat Diplom Proqramı (IB Diploma Programme)", "Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (Advanced Level of General Certificate of Education)" və "Yüksək yerləşdirmə (Advanced Placement)" təhsil proqramları üzrə təhsil almış abituriyentlər ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmaq imkanına malik olmuşlar. Bu imkandan yalnız "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu Qaydaları"na əsasən Azərbaycan dili (dövlət dili kimi) fənnindən imtahan verərək "məqbul" qiymət alan abituriyentlər istifadə edə bilmişlər. Ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmaq istəyən yuxarıda qeyd olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlər iyunun 19-dan iyulun 17-dək tələb olunan sənədləri Dövlət İmtahan Mərkəzinə və ya onun regional bölmələrindən birinə təqdim ediblər. Abituriyentlər eyni zamanda beynəlxalq diplom üzrə nəticələrini (qiymətlərini) elektron formada da DİM-ə təqdim etmişlər. Sənədlərini təqdim etmiş abituriyentlər iyulun 15-dən 30-dək şəxsən DİM-ə və ya onun regional bölmələrinə müraciət edərək qəbul olunmaq istədiyi ixtisasın kodunu yazılı şəkildə bildirmişlər. Qeyd olunan kateqoriyadan olan abituriyentlərə yalnız tədrisi ingilis dilində aparılan ixtisasları seçmək imkanı verilmişdir.

Ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul üçün minimal tələblər müvafiq ixtisas qrupları və təhsil proqramları üzrə aşağıdakı cədvəllərdə təqdim olunmuşdur.

Beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu üçün ixtisaslar üzrə qoyulan minimal tələblər

I ixtisas qrupu

Sıra №-si	İxtisaslar	Müsabiqədənkənar qəbul üçün minimal tələblər					
		Beynəlxalq Bakalavriat Diplom Proqramı		Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (müvafiq üç imtahan fənni* üzrə)		Yüksək yerləşdirmə (müvafiq üç imtahan fənni* üzrə)	
		Ödənişli əsaslarla qəbul üçün	**Dövlət sifarişi əsasında qəbul üçün**	**Ödənişli əsaslarla qəbul üçün**	**Dövlət sifarişi əsasında qəbul üçün**	**Ödənişli əsaslarla qəbul üçün**	**Dövlət sifarişi əsasında qəbul üçün**
1.	Biotibbi texnologiya mühəndisliyi	26	30	C	B	3	4
2.	Cihazqayırma mühəndisliyi	26	30	C	B	3	4
3.	Ekologiya mühəndisliyi	26	30	C	B	3	4
4.	Elektroenergetika mühəndisliyi	26	30	C	B	3	4
5.	Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi	26	30	C	B	3	4
6.	Fizika	26	30	C	B	3	4
7.	Geofizika mühəndisliyi	26	30	C	B	3	4
8.	İnformasiya texnologiyaları	26	30	C	B	3	4
9.	İnşaat mühəndisliyi	26	30	C	B	3	4
10.	Kimya mühəndisliyi	26	30	C	B	3	4
11.	Kompüter elmləri	26	35	C	B	3	4
12.	Kompüter mühəndisliyi	26	35	C	B	3	4
13.	Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi	26	30	C	B	3	4
14.	Mexanika mühəndisliyi	26	30	C	B	3	4
15.	Mexatronika və robototexnika mühəndisliyi	26	30	C	B	3	4
16.	Neft-qaz mühəndisliyi	26	30	C	B	3	4
17.	Proseslərin avtomatlaşdırılması mühəndisliyi	26	30	C	B	3	4
18.	Riyaziyyat	26	30	C	B	3	4
19.	Sənaye mühəndisliyi	26	30	C	B	3	4
20.	Sistem mühəndisliyi	26	30	C	B	3	4
21.	Memarlıq	25	28	C	B	3	4
22.	Aqronomluq	25	28	C	B	3	4

* *I ixtisas qrupu üzrə müvafiq üç imtahan fənni dedikdə riyaziyyat, fizika və kimya fənləri nəzərdə tutulur.*

II ixtisas qrupu

Sıra Nº-si	İxtisaslar	Müsabiqədənkənar qəbul üçün minimal tələblər					
		Beynəlxalq Bakalavriat Diplom Proqramı		Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (müvafiq üç imtahan fənni* üzrə)		Yüksək yerləşdirmə (müvafiq üç imtahan fənni* üzrə)	
		Ödənişli əsaslarla qəbul üçün	**Dövlət sifarişi əsasında qəbul üçün**	**Ödənişli əsaslarla qəbul üçün**	**Dövlət sifarişi əsasında qəbul üçün**	**Ödənişli əsaslarla qəbul üçün**	**Dövlət sifarişi əsasında qəbul üçün**
1.	Beynəlxalq münasibətlər	28	35	C	B	3	4
2.	Biznesin idarə edilməsi	26	30	C	B	3	4
3.	Dövlət və bələdiyyə idarəetməsi	28	30	C	B	3	4
4.	Dünya iqtisadiyyatı	26	30	C	B	3	4
5.	İqtisadiyyat	28	35	C	B	3	4
6.	Maliyyə	26	30	C	B	3	4
7.	Marketinq	26	30	C	B	3	4
8.	Menecment	26	30	C	B	3	4
9.	Mühasibat uçotu və audit	26	30	C	B	3	4
10.	Sənayenin təşkili və idarə olunması	26	30	C	B	3	4
11.	Sosiologiya	26	30	C	B	3	4
12.	Turizm və otelçilik	25	28	C	B	3	4

* *II ixtisas qrupu üzrə müvafiq üç imtahan fənni dedikdə riyaziyyat, coğrafiya və tarix fənləri nəzərdə tutulur.*

III ixtisas qrupu

Sıra Nº-si	İxtisaslar	Müsabiqədənkənar qəbul üçün minimal tələblər					
		Beynəlxalq Bakalavriat Diplom Proqramı		Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (müvafiq üç imtahan fənni* üzrə)		Yüksək yerləşdirmə (müvafiq üç imtahan fənni* üzrə)	
		Ödənişli əsaslarla qəbul üçün	**Dövlət sifarişi əsasında qəbul üçün**	**Ödənişli əsaslarla qəbul üçün**	**Dövlət sifarişi əsasında qəbul üçün**	**Ödənişli əsaslarla qəbul üçün**	**Dövlət sifarişi əsasında qəbul üçün**
1.	Dövlət və ictimai münasibətlər	28	35	C	B	3	4
2.	Jurnalistika	26	30	C	B	3	4
3.	Politologiya	26	30	C	B	3	4
4.	Hüquqşünaslıq	30	34	C	B	3	4

* *III ixtisas qrupu üzrə müvafiq üç imtahan fənni dedikdə Azərbaycan dili və ya rus dili, tarix və ədəbiyyat fənləri nəzərdə tutulur.*

IV ixtisas qrupu

Sıra Nº-si	İxtisaslar	Müsabiqədənkənar qəbul üçün minimal tələblər					
		Beynəlxalq Bakalavriat Diplom Proqramı		Təhsil haqqında ümumi sertifikatın yüksək səviyyəsi (müvafiq üç imtahan fənni* üzrə)		Yüksək yerləşdirmə (müvafiq üç imtahan fənni* üzrə)	
		Ödənişli əsaslarla qəbul üçün	**Dövlət sifarişi əsasında qəbul üçün**	**Ödənişli əsaslarla qəbul üçün**	**Dövlət sifarişi əsasında qəbul üçün**	**Ödənişli əsaslarla qəbul üçün**	**Dövlət sifarişi əsasında qəbul üçün**
1.	Biologiya	26	30	C	B	3	4
2.	Kimya	26	30	C	B	3	4
3.	Psixologiya	26	30	C	B	3	4

* *IV ixtisas qrupu üzrə müvafiq üç imtahan fənni dedikdə biologiya, kimya və fizika fənləri nəzərdə tutulur.*

Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qaliblərinin ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbulu aşağıdakı qaydada aparılıb:

1. Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri ali təhsil müəssisələrinə müsabiqədənkənar qəbul olunmaq hüququna malikdirlər.

2. Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri dedikdə, aşağıdakı şəxslər nəzərdə tutulur:

- Beynəlxalq fənn olimpiadasının qızıl, gümüş və ya bürünc medalı ilə təltif olunmuş şəxslər;
- IX-XI sinif şagirdləri arasında keçirilən respublika fənn olimpiadasında birinci, ikinci və üçüncü yer tutmuş şəxslər;
- Beynəlxalq müsabiqənin və ya yarışın (15 yaşdan yuxarı yaş qrupunda) laureatı olmuş (ali mükafat, birinci, ikinci və üçüncü yerlər) şəxslər.

3. Beynəlxalq və respublika fənn olimpiadasının qalibinin tam orta təhsil səviyyəsini bitirdikdən sonrakı növbəti 2 tədris ili üçün, beynəlxalq müsabiqənin və ya yarışın qalibi isə tam orta təhsil səviyyəsini bitirməklə qalibiyyət əldə etdikdən sonrakı növbəti 5 tədris ili üçün ali təhsil müəssisəsinə tələbə qəbulunda yalnız bir dəfə müsabiqədənkənar qəbul olunmaq hüququ vardır. "Müsabiqədənkənar qəbulun aparıldığı ixtisaslar", "Beynəlxalq fənn olimpiadalarının siyahısı", "Respublika fənn olimpiadalarının siyahısı" və "Beynəlxalq müsabiqələrin və yarışların siyahısı" Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 229 nömrəli Qərarında əks olunmuşdur (**http://www.e-qanun.az/framework/42536**).

4. Beynəlxalq və respublika fənn olimpiadalarının, beynəlxalq müsabiqələrin və yarışların qalibləri 3-14 iyun 2019-cu il tarixlərində aşağıda göstərilən sənədləri Dövlət İmtahan Mərkəzinə və ya onun regional bölmələrinə (Naxçıvan, Gəncə, Xaçmaz, Lənkəran, Şəki, Göyçay, Şirvan, Bərdə, Şəmkir) təqdim etmişlər:

- Ümumi qaydada təsdiq olunmuş "Abituriyentin elektron ərizəsi" formasının surəti;
- Beynəlxalq fənn olimpiadasının, yaxud respublika fənn olimpiadasının, beynəlxalq müsabiqənin və ya yarışın qalibi olduğunu təsdiq edən sənədin əsli;
- Beynəlxalq fənn olimpiadasının, beynəlxalq müsabiqə və yarışın qalibi olan Azərbaycan Respublikasının vətəndaşı yuxarıda qeyd olunan sənədlərin əsli ilə yanaşı, həmin sənədlərin notarial qaydada təsdiq edilmiş Azərbaycan dilinə tərcüməsini.

Sənədlər təqdim olunduqdan sonra onların həqiqiliyi və təqdim edən şəxslərə məxsus olması DİM tərəfindən araşdırılır və araşdırmaların nəticələri barədə abituriyentlərə məlumat verilir.

Sənədlərinin həqiqiqliyi və onlara məxsus olması təsdiqlənən şəxslər **15-30 iyul 2019-cu il tarixlərində** şəxsən DİM-ə və ya onun regional bölmələrinə müraciət edərək qəbul olmaq istədikləri ixtisasın kodunu yazılı şəkildə bildirməlidirlər.

Ali təhsil müəssisələrinə bu il 47966 plan yeri ayrılmışdı.

Qəbul planı ötən illə müqayisədə 6.22 faiz artırılmışdı

2019/2020-ci tədris ili üçün respublikanın ali təhsil müəssisələrinə qəbul üçün 47966 yer ayrılmışdı. Bunlardan 201 yer qəbul imtahanlarında müsabiqədənkənar iştirak edən abituriyentlər (103 yer ADA Universitetinə SAT balına əsasən qəbul olunanlar) tərəfindən tutulmuşdur. Qalan yerlərdən 34025-i Azərbaycan bölməsi, 3549-u rus bölməsi, 10191-i isə hər iki bölmənin birgə müsabiqəsi üçün nəzərdə tutulmuşdu. Qəbul planındakı 40454 yer dövlət, 7512 yer isə özəl ali təhsil müəssisələrinin payına düşürdü.

19842 yer ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında qəbul üçün nəzərdə tutulmuşdu. Bunlardan 98 yer qəbul imtahanlarında müsabiqədənkənar iştirak edən abituriyentlər tərəfindən tutulmuşdur.

1.1 və 1.2 saylı şəkillərdəki diaqramlarda qəbul planının paylanması təsvir olunub:

QƏBUL PLANI



Şəkil 1.1



Şəkil 1.2

Müsabiqədənkənar qəbulu nəzərə almasaq, ötən illə müqayisədə bu il dövlət ali təhsil müəssisələrinin qəbul planında 5.12% (1962 yer), özəl ali təhsil müəssisələrinin qəbul planı isə 11.62% (782 yer), ümumilikdə isə 2744 yer (6.09%) artım müşahidə edilmişdir. Müsabiqədənkənar qəbul ötən illə müqayisədə 63 yer, bu yerlərlə birlikdə ümumi qəbul planı isə 6.22% (2807 yer) artmışdır.

Plan yerlərinin təhsil formaları üzrə bölgüsünün müqayisəsi göstərir ki, 2019-cu ildə Azərbaycan və rus bölmələrinin birgə müsabiqəsi üçün ayrılan yerlər 5.24% artmışdır. Bununla belə qeyd etmək lazımdır ki, cari ildə hər iki bölmənin birgə müsabiqəsi üçün ayrılan yerlər ümumi plan yerlərinin cəmi 21.25%-ni təşkil etmişdir. Bu göstərici 2018-ci ildə 21.44%, 2017-ci ildə 14.80%, 2016-cı ildə 18.73%, 2015-ci ildə 13.95%, 2014-cü ildə 13.87% olduğu halda, 2013-cü ildə 56.18% olmuşdu. 2013-cü illə müqayisədə son altı ildə həyata keçirilən bu cür dəyişiklik arzuolunmaz haldır. Çünki bəzən Azərbaycan və rus bölmələrinin abituriyentləri eyni test suallarına cavab verdikləri halda, plan yerlərinin ciddi bölgüsü və müsabiqə vəziyyətinin fərqli olması nəticəsində bu bölmələrin eyni ixtisasları üzrə tam fərqli keçid balları yaranır. Plan yerləri birgə müsabiqə üçün ayrıldıqda isə həmin yerlərə bölməsindən asılı olmayaraq daha hazırlıqlı gənclər qəbul olunur.

Bu il ali təhsil müəssisələrinə müsabiqədə iştirak etmək hüququ qazananların 91.25%-i Azərbaycan, 8.75%-i isə rus bölməsinin abituriyentləri olmuşdur. Qeyd edək ki, hər iki bölmənin birgə müsabiqəsi üçün ayrılan yerlərin hesabına Azərbaycan bölməsinin abituriyentləri qəbul planının minimum 71.23, maksimum 92.57%-ni, rus bölməsinin abituriyentləri isə minimum 7.43, maksimum 28.77%-ni tuta bilərdilər. Göründüyü kimi, minimum və maksimum imkanlar arasında fərq kiçikdir. Bu isə Azərbaycan bölməsindədaha hazırlıqlı gənclərin ali təhsil müəssisələrinə qəbul olmaq imkanlarında süni maneələr yaradır.

İxtisas qrupları, ali təhsil müəssisələri, ayrı-ayrı təhsil formaları və bölmələr üzrə plan yerlərinin sayı haqqında tam məlumat 1.5 –1.7 saylı cədvəllərdə təqdim olunur.

Cədvəl 1.5

2019/2020-Cİ TƏDRİS İLİ ÜÇÜN RESPUBLİKANIN ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU PLANI

İxtisas qrupu	QƏBUL PLANI													
	Müsabiqə əsasında qəbul												Müsabiqədənkənar qəbul	BÜTÖVLÜKDƏ
	Azərbaycan bölməsi üçün			Rus bölməsi üçün			Hər iki bölmənin birgə müsabiqəsi üçün			CƏMİ				
	Dövlət	Özəl	Ümumi	Dövlət	Özəl	Ümumi	Dövlət	Özəl	Ümumi	Dövlət	Özəl	Ümumi		
I	10610	465	11075	1122	0	1122	2509	485	2994	14241	950	15191	32	15223
II	7810	2230	10040	970	30	1000	1560	1500	3060	10340	3760	14100	81	14181
III	7453	1392	8845	995	10	1005	595	815	1410	9043	2217	11260	11	11271
IV	2744	150	2894	304	0	304	199	310	509	3247	460	3707	3	3710
V	1131	40	1171	118	0	118	2133	85	2218	3382	125	3507	74	3581
CƏMİ	**29748**	**4277**	**34025**	**3509**	**40**	**3549**	**6996**	**3195**	**10191**	**40253**	**7512**	**47765**	**201**	**47966**

Cədvəl 1.6

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA TƏLƏBƏ QƏBULUNUN İXTİSAS QRUPLARI ÜZRƏ BÖLGÜSÜ

İxtisas qrupu	Qəbul planı (bütövlükdə)	Dövlət sifarişi			
		Müsabiqə əsasında qəbul	Müsabiqədən-kənar qəbul	Bütövlükdə	
				sayı	faizi
I	15223	9182*	12	9194	46.34
II	14181	3119	3	3122	15.73
III	11271	3746	6	3752	18.91
IV	3710	2260**	3	2263	11.41
V	3581	1437	74	1511	7.62
CƏMİ	**47966**	**19744**	**98**	**19842**	**100.00**

* Əlavə olaraq maksimum 138 yer Azərbaycan Dövlət Aqrar Universitetinin, Naxçıvan Dövlət Universitetinin və Lənkəran Dövlət Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

** Əlavə olaraq maksimum 120 yer Azərbaycan Dövlət Aqrar Universitetinin, Naxçıvan Dövlət Universitetinin və Lənkəran Dövlət Universitetinin dövlət sifarişi əsasında qəbul aparılan ixtisasları üçün nəzərdə tutulmuşdur.

Cədvəl 1.7

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI

№	TƏHSİL MÜƏSSİSƏSİ	QƏBUL PLANI			
		Azərbaycan bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Cəmi
1	Bakı Dövlət Universiteti	4997	905	409	6311
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	2065	320	674	3059
3	Azərbaycan Texniki Universiteti	1885	170	15	2070
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	1185	55	735	1975
5	Azərbaycan Tibb Universiteti	695	90	0	785
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	3094	239	0	3333
7	Azərbaycan Dövlət İqtisad Universiteti	2950	590	188	3728
8	Azərbaycan Dillər Universiteti	1244	275	85	1604
9	Bakı Slavyan Universiteti	780	330	0	1110
10	Bakı Mühəndislik Universiteti	663	20	600	1283
11	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	226	180	0	406
12	"ADA" Universiteti	0	0	437	437
13	Bakı Musiqi Akademiyası	50	0	124	174
14	Azərbaycan Milli Konservatoriyası	40	0	152	192
15	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	180	0	445	625
16	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	60	0	295	355
17	Azərbaycan Turizm və Menecment Universiteti	310	0	205	515
18	Bakı Xoreoqrafiya Akademiyası	104	23	0	127
19	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası	0	0	1407	1407
20	Milli Aviasiya Akademiyası	333	117	0	450
21	Azərbaycan Dövlət Dəniz Akademiyası	140	45	115	300
22	Bakı Ali Neft Məktəbi	0	0	185	185
23	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	110	0	0	110
24	Naxçıvan Dövlət Universiteti	1164	0	0	1164
25	Naxçıvan Müəllimlər İnstitutu	370	0	0	370
26	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)	1260	135	90	1485
27	Gəncə Dövlət Universiteti	1683	15	0	1698
28	Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.)	330	0	650	980
29	Sumqayıt Dövlət Universiteti	1665	0	185	1850
30	Mingəçevir Dövlət Universiteti	770	0	0	770
31	Lənkəran Dövlət Universiteti	1395	0	0	1395
32	Azərbaycan Kooperasiya Universiteti	1060	0	180	1240
33	Azərbaycan İlahiyyat İnstitutu	72	0	0	72
34	"Azərbaycan" Universiteti	550	0	90	640
35	Qərbi Kaspi Universiteti (əvvəlki Qərb Universiteti)	0	0	1065	1065
36	Xəzər Universiteti	0	0	780	780
37	Bakı Avrasiya Universiteti	955	40	0	995
38	Bakı Qızlar Universiteti	440	0	0	440
39	"Odlar Yurdu" Universiteti	205	0	755	960
40	Bakı Biznes Universiteti	365	0	255	620
41	"Naxçıvan" Universiteti (Naxçıvan şəhəri)	440	0	0	440
42	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	190	0	70	260
	CƏMİ	**34025**	**3549**	**10191**	**47765**

İxtisaslar üzrə ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında tələbə qəbulunun proqnozu 1.1.5 saylı cədvəldə təqdim olunub (bax: səh. 179-193).

Ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün
71839 nəfər abituriyent ərizə vermişdi.
Ərizələrin sayı ötən ildəki ilə müqayisədə 13.16% azdır

Bu il ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün 71839 abituriyent ərizə vermişdi. Onların 2161-i orta ixtisas, 128-i ali (2-ci ixtisas kimi), qalanları isə tam orta təhsillidir. Sənəd verənlərin sayı ötən ildəkindən 10885 nəfər az olmuşdur.

Yalnız orta ixtisas təhsili müəssisələrinə (tam orta təhsil bazasında) sənəd verənləri də (12133 nəfər) nəzərə alsaq, o zaman ərizə verənlərin sayı bütövlükdə 83972-yə bərabər olacaq (1.3 saylı şəklə bax).

Qeyd edək ki, abituriyentlərə, eyni zamanda həm I–IV qruplardan hər hansı birinin (və ya ikisinin) ixtisasları üzrə, həm də V qrupun ixtisasları (xüsusi qabiliyyət tələb edən musiqi, incəsənət və idman ixtisasları) üzrə müsabiqədə iştirak etmək imkanı yaradılmışdı. Nəticədə, 5391 nəfər abituriyent (6.42%) bu imkandan yararlanmışdı. Ümumiyyətlə, 16274 nəfər abituriyent (19.38%) yalnız I–IV qruplardan birinə, 2285 nəfər abituriyent (2.72%) yalnız V qrupa və 47889 nəfər abituriyent (57.03%) həm orta ixtisas təhsili müəssisələrinə, həm də I–IV qruplardan birinə daxil olan ixtisaslara qəbul olmaq üçün ərizə verib.

Ali təhsil müəssisələrinə sənəd verən abituriyentlərin 52.15%-ni (37467 nəfər) oğlanlar, 47.85%-ni (34372 nəfər) isə qızlar təşkil etmişdir.

Göründüyü kimi, qəbul imtahanlarında iştirak edənlərin cinsi tərkibi əhalinin 15–19 yaş kateqoriyasındakı tərkibinə uyğundur.

QRUPLAR ÜZRƏ ƏRİZƏLƏRİN PAYLANMASI



Şəkil 1.3

Bölmələr üzrə ayrı-ayrılıqda ali təhsil müəssisələrinə ərizə verən abituriyentlərin cinsi tərkibinə nəzər saldıqda mənzərənin bir qədər fərqli olduğunu müşahidə edirik. Belə ki, Azərbaycan bölməsində oğlan abituriyentlərin (52.36%), rus bölməsində isə qız abituriyentlərin (50.08%) sayı daha çoxdur.

Müasir informasiya texnologiyalarının tətbiqi sayəsində Dövlət İmtahan Mərkəzində gənclər haqqında çoxşaxəli informasiya bazası formalaşdırılmışdır. DİM hər il qəbul imtahanlarının nəticələri əsasında "Qəbul imtahanlarının nəticələrinin gender aspektləri", "Neft-qaz profilli ixtisaslar statistikada" və "Kənd təsərrüfatı profilli ixtisaslar statistikada" adlı təhlili materiallar da hazırlayaraq "Abituriyent" jurnalının xüsusi buraxılışlarında dərc edir.

Cari ildə 14616 subbakalavr qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq üçün ərizə vermişdir. Qeyd edək ki, bu il qəbul kampaniyasında iştirak etmiş subbakalavrlara öz istəklərindən asılı olaraq, həm imtahanda topladıqları bal ilə ümumi qaydada, həm də qəbul imtahanlarında iştirak etmədən orta ixtisas təhsili səviyyəsində bitirdikləri ixtisaslara uyğun ali təhsil pilləsinin ixtisasları üzrə keçirilən müsabiqədə (subbakalavr kimi) iştirak etmək imkanı verilmişdir. Ərizə verən subbakalavrlardan 11494-ü (78.64%) ixtisas seçimində yalnız subbakalavr kimi, 230-u (1.57%) yalnız abituriyent kimi, 814-ü (5.57%) isə həm abituriyent, həm də subbakalavr kimi iştirak etmişdir. 2078 (14.22%) subbakalavr isə ixtisas seçimində iştirak etməmişdir.

ƏRİZƏ VERƏN SUBBAKALAVRLARIN PAYLANMASI



Şəkil 1.4

2019-cu ildə ümumtəhsil müəssisələrinin 80031 məzunu olmuşdur.

Son on beş ildə məzunların sayı 43077 nəfər azalmışdır

Bu meyil artıq bir neçə ildir ki, müşahidə olunur. Son on beş ildə məzunların sayı 34.99% azalmışdır. Bu, ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak edənlərin sayında da özünü göstərir. Ötən illə müqayisədə məzunların sayı 2455 nəfər azalıb. Bununla belə qeyd etmək lazımdır ki, sənəd verənlərin tərkibində cari ilin məzunlarının payı heç də azalmır, əksinə artır. Bu il sənəd verənlərin 87.54%-ni (61256 nəfər) builki məzunlar təşkil etmişdir. Müqayisə üçün bildirək ki, 2010-cu ildə ali təhsil müəssisələrinə sənəd verənlər arasında həmin ilin məzunlarının payı 55.63%, 2011-ci ildə 58.39, 2012-ci ildə 58.84, 2013-cü ildə 60.66, 2014-cü ildə 64.05, 2015-ci ildə 66.04, 2016-cı ildə 68.31, 2017-ci ildə 75.83 və 2018-ci ildə 77.86% olmuşdu. Göründüyü kimi, 2010-cu ildən etibarən sənəd verənlərin arasında əvvəlki illərin məzunlarının payı getdikcə azalır, cari illərin məzunlarının payı isə artır. Bunun əsas səbəbi hər il ali təhsil müəssisələrinə qəbul üçün ayrılan plan yerlərinin ciddi şəkildə artırılması və nəticədə qəbul olanların sayı artdıqca, növbəti il üçün əvvəlki illərin məzunları arasında qalığın, yəni qəbul olmayanların azalmasıdır.

Sənəd verənlərin ümumtəhsil məktəbini qurtarma illəri üzrə tərkibi aşağıdakı cədvəl və diaqramda təqdim olunur.

Cədvəl 1.8

Ümumtəhsil məktəbini qurtardığı il	Abituriyentlərin sayı	Abituriyentlərin sayı ümumi saya nisbətən, %-lə
2010-cu və ondan əvvəlki illər	1644	2.35
2011	174	0.25
2012	215	0.31
2013	269	0.38
2014	396	0.57
2015	525	0.75
2016	855	1.22
2017	923	1.32
2018	3721	5.32
2019	61256	87.54



Şəkil 1.5

Ali təhsil müəssisələrinə qəbul üçün ayrılmış yerlərin 31.80%-i I, 29.52%-i II, 23.57%-i III, 7.76%-i IV, 7.34%-i isə V qrupun payına düşür. Ötən illə müqayisədə plan yerləri I qrupda 5.01, II qrupda 5.74, III qrupda 6.25, IV qrupda 11.83 və V qrupda 6.05% artmışdır (bax: səh. 26, cədvəl 1.10).

I ixtisas qrupu üzrə ən çox plan yeri "İnformasiya texnologiyaları" (797 yer), "Riyaziyyat və informatika müəllimliyi" (740 yer) və "Kompüter mühəndisliyi" (634 yer) ixtisaslarına, II ixtisas qrupu üzrə "İqtisadiyyat" (1643 yer), "Biznesin idarə edilməsi" (1536 yer) və "Maliyyə" (1369 yer) ixtisaslarına, III ixtisas qrupu üzrə "Xarici dil müəllimliyi (ingilis dili)" (1245 yer), "İbtidai sinif müəllimliyi" (1085 yer) və "Azərbaycan dili və ədəbiyyatı müəllimliyi" (1064 yer) ixtisaslarına, IV ixtisas qrupu üzrə "Müalicə işi" (520 yer), "Ekologiya" (485 yer) və "Biologiya müəllimliyi" (385 yer) ixtisaslarına, V ixtisas qrupu üzrə "Bədən tərbiyəsi və idman" (645 yer), "Məşqçi (idman növü üzrə)" (522 yer) və "Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq (qızlar üçün fiziki tərbiyə) mьəllimliyi" (477 yer) ixtisaslarına ayrılmışdır.

İxtisas qrupları üzrə qəbul planları və abituriyent ərizələrinin paylanması 1.9 saylı cədvəldə təqdim edilir. Abituriyentlərin istəklərinin qruplar üzrə paylanmasına diqqət yetirək. Bu il abituriyentlərin 39.43%-i (28328 nəfər) I qrupa, 20.26%-i (14558 nəfər) II qrupa, 30.94%-i (22230 nəfər) III qrupa, 7.12%-i (5113 nəfər) IV qrupa, 10.69%-i isə (7676 nəfər) V qrupa ərizə vermişdi.

Cədvəl 1.9

İXTİSAS QRUPLARI ÜZRƏ QƏBUL PLANLARI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN PAYLANMASI

№	İXTİSAS QRUPU	Qəbul planı				Ərizələrin sayı		
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsi	Rus bölməsi	Bütövlükdə
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	11075	1122	2994	15191	25982	2346	28328
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	10040	1000	3060	14100	13118	1440	14558
III	Humanitar, pedaqogika ixtisasları	8845	1005	1410	11260	20704	1526	22230
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	2894	304	509	3707	4547	566	5113
V	İncəsənət, musiqi, idman ixtisasları	1171	118	2218	3507	6895	781	7676
CƏMİ		**34025**	**3549**	**10191**	**47765**	**65787**	**6052**	**71839**

*5391 abituriyent həm V qrupa, həm də I–IV qruplardan birinə ərizə verib. 675 abituriyent isə yaradılmış imkandan istifadə edərək I-IV qruplardan iki müxtəlif qrupa ərizə verib.

Qəbul planının və abituriyent ərizələrinin son iki il üzrə müqayisəli təhlili (bax: cədvəl 1.10) göstərir ki, bu il ali təhsil müəssisələrinə qəbul planının 6.09% artması, ərizələrin sayının isə 13.16% azalması müsabiqə vəziyyətində 18.13% azalmaya səbəb olmuşdur. Müsabiqə vəziyyəti, I, II, IV və V ixtisas qruplarında azalmış, III ixtisas qrupunda isə artmışdır.

Cədvəl 1.10

2018 VƏ 2019-CU İLLƏR ÜZRƏ QƏBUL PLANI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYININ MÜQAYİSƏSİ

İxtisas qrupu	Qəbul planı (illər üzrə)			Ərizə vermiş abituriyentlərin sayı (illər üzrə)			Müsabiqə vəziyyəti (illər üzrə)		
	2018	2019	fərq, %-lə	2018	2019	fərq, %-lə	2018	2019	fərq, %-lə
I	14466	15191	+5.01	30342	28328	-6.64	2.097	1.865	-11.06
II	13335	14100	+5.74	18365	14558	-20.73	1.377	1.032	-25.05
III	10598	11260	+6.25	20839	22230	+6.67	1.966	1.974	+0.41
IV	3315	3707	+11.83	5441	5113	-6.03	1.641	1.379	-15.97
V	3307	3507	+6.05	47594	7676	-83.87	14.392	2.189	-84.79
CƏMİ	**45021**	**47765**	**+6.09**	**82724**	**71839**	**-13.16**	**1.837**	**1.504**	**-18.13**

("-" ötən illə müqayisədə azalmanı, "+" isə artmanı göstərir)

Cari ildə ən yüksək müsabiqə vəziyyəti V ixtisas qrupunda (2.19) olub. Müsabiqə vəziyyətinə görə ikinci yerdə III ixtisas qrupu (1.97), sonrakı yerlərdə isə I ixtisas qrupu (1.87), IV ixtisas qrupu (1.38) və II ixtisas qrupu (1.03) gəlir.

V ixtisas qrupuna daxil olan ixtisaslar üzrə müsabiqə vəziyyətinin ötən ilə nəzərən kəskin şəkildə aşağı düşməsi cari ildə bu qrupa ərizə verənlərin sayının kəskin azalması ilə əlaqədardır. Ötən illə müqaysədə ərizələrin sayı 6 dəfədən çox azalmışdır. Bunun başlıca səbəbi V qrupa ərizə qəbulunun 2018-ci ildəkindən bir qədər fərqli aparılması olub. Belə ki, 2018-ci ildə abituriyentlər ərizə qəbulu başa çatdıqdan sonra qabiliyyət imtahanı vermək üçün qabiliyyət imtahanı komissiyaları üzrə qeydiyyatdan keçə bilərdilər. Həmin ildə V qrupa ərizə verən abituriyentlərin böyük əksəriyyəti əslində bu qrupa aid olan ixtisaslar üzrə təhsil almaq istəklərinin ciddi olmadığını göstərmiş və sonradan qeydiyyatdan keçməmişdilər. Cari ildə isə abituriyentlər artıq V qrupu ərizəsində göstərmək üçün eyni zamanda müvafiq qabiliyyət imtahanı komissiyaları üzrə qeydiyyatdan keçməli idilər. Bu isə öz növbəsində bu ixtisaslar üzrə təhsil almaq istəkləri ciddi olmayan abituriyentlərin V qrupu öz ərizələrində qeyd etməmələrinə səbəb olmuşdur və nəticədə ərizələrin sayı kəskin azalmışdır.

Bildiyimiz kimi cari ildə subbakalavrlara qəbul imtahanında iştirak etmədən ali təhsil müəssisələrinə qəbul olmaq üçün müsabiqədə iştirak etmək imkanı yaradılmışdır. Nəticədə 11518 subbakalavr bu imkandan yararlanmışdır. Onların 32.94%-i I, 36.92%-i II, 22.43%-i III, 9.58%-i IV və 2.03%-i V qrupa ərizə verib.

İxtisas qrupları üzrə qəbul planı ilə ərizələrin sayı arasında qeyri-tarazlıq vardır.
I və III qrupda ərizələrin, II qrupda isə plan yerlərinin nisbi çəkisi böyükdür

2019-cu il üçün ali təhsil müəssisələrinin qəbul planının, abituriyent və subbakalavr ərizələrinin qruplar üzrə paylanması 1.6 saylı şəkildə əksini tapıb. Təhlil göstərir ki, ixtisas qrupları üzrə qəbul planı və ərizələrin nisbi çəkiləri arasında qeyri-tarazlıq vardır. Bu halın əyani şəkildə nümayiş etdirilməsi üçün ali təhsil müəssisələrinin qəbul planının və abituriyentlərlə subbakalavrların ərizələrinin nisbi saylarının ixtisas qrupları üzrə paylanmasına 1.7 saylı şəkilə diqqət yetirək. Göründüyü kimi, ümumi qəbul planının II ixtisas qrupu üçün ayrılmış hissəsi ərizələrin həmin ixtisas qrupuna düşən hissəsindən böyük, I, III və V ixtisas qruplarında, əksinə, kiçik, IV ixtisas qrupunda isə demək olar ki, eynidir. II qrupda plan yerlərinin çox, ərizələrin sayının nisbətən az olması müsabiqə vəziyyətinə mənfi təsir göstərmişdir. Nəticədə, hazırlıq səviyyəsi o qədər də yüksək olmayanlar ali təhsil almaq imkanı əldə etmişlər. Bu baxımdan, gələcəkdə ali təhsil müəssisələrinə plan yerləri ayrılarkən mövcud reallıqlar nəzərə alınmalı, qəbul planında kəskin sıçrayışlar edilməməli, perspektivlər müəyyən olunmalı, bir sözlə, uğurlu qəbul planı siyasəti aparılmalıdır.

2019-Cİ İLDƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI VƏ ƏRİZƏLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ SAYI
(abituriyentlər və subbakalavrlar)



Şəkil 1.6

2019-CU İLDƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI VƏ ƏRİZƏLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ NİSBİ SAYI (%-lə)



Şəkil 1.7

İxtisas qrupları üzrə dövlət və özəl ali təhsil müəssisələrinin qəbul planları arasındakı fərqi göstərən diaqram 1.8 saylı şəkildə təqdim edilib. Diaqramdan göründüyü kimi, özəl ali təhsil müəssisələri, əsasən, humanitar və iqtisadiyyat ixtisasları üzrə mütəxəssis hazırlığı həyata keçirir. Abituriyentlər özəl ali təhsil müəssisələrinin ixtisaslarını ərizələrində axırıncı mövqelərdə göstərdiklərindən bu təhsil müəssisələrinin çoxunda müsabiqə vəziyyəti aşağı olur. Onlar ərizələrinin ilk mövqelərində, əsasən, dövlət ali təhsil müəssisələrinin ixtisaslarını kodlaşdırırlar. 2019-cu ildə sənəd verən abituriyentlər arasında özəl ali təhsil müəssisələrinin ixtisas kodlarını ərizələrində birinci yerdə göstərənlər cəmi 5.68%, subbakalavrlar arasında isə cəmi 6.34% olub. 2000-ci illərin birinci yarısında bu göstərici 0.67% olmuşdu. On beş ildən artıq vaxt keçməsinə baxmayaraq, bu sahədə irəliləyiş çox cüzidir. Bu baxımdan, hazırda da özəl ali təhsil müəssisələrinə qəbul olanlar, əsasən, dövlət ali təhsil müəssisələrinə qəbul ola bilməyənlərdir ki, onların da böyük əksəriyyətinin biliyi kafidən yuxarı deyildir. 2010-cu ilə qədər yalnız ödənişli əsaslarla təhsil verdiyi üçün özəl ali təhsil müəssisələrinə, əsasən, bu cür abituriyentlərin qəbul olması həmin ali təhsil müəssisələrinin dövlət ali təhsil müəssisələri ilə rəqabət aparmaq imkanlarını məhdudlaşdırırdı. Bu gün özəl ali təhsil müəssisələri dövlət ali təhsil müəssisələri ilə dövlət sifarişi əsasında qəbul aparılan yerləri tutmaq üçün rəqabət aparmaq, ümumiyyətlə, daha bilikli gəncləri özlərinə cəlb etmək imkanına malikdirlər. Bunun üçün isə onlar həm təhsilin səviyyəsini qaldırmalı, həm də yüksək intellektli tələbələrə təhsilhaqqının məbləğində əhəmiyyətli güzəştlər etməlidirlər. Təəssüf ki, bir çox özəl ali təhsil müəssisələri bu məsələdə o qədər də maraqlı deyillər. Ümumiyyətlə, ayrı-ayrı ali təhsil müəssisələrinə qəbul olan gənclərin bilik səviyyələri bir-birindən ciddi fərqlənir (bax: səh. 440, cədvəl 6.9). Hesab edirik ki, bu amil mütləq birinci kursların tədris planlarında nəzərə alınmalıdır.

2019-CU İLDƏ DÖVLƏT VƏ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ İXTİSAS QRUPLARI ÜZRƏ QƏBUL PLANLARI



Şəkil 1.8

Abituriyent ali təhsil ocağını seçməzdən əvvəl valideynləri, dostları, tanışları ilə məsləhətləşir, maraq göstərdiyi ixtisasların hansı təhsil müəssisələrində olması, həmin təhsil müəssisələrində təhsilin səviyyəsi, biliyin qiymətləndirilməsi meyarları, ali təhsil müəssisəsini bitirdikdən sonra iş yeri tapmaq imkanları, gələcək diplomunun ölkə daxilində və xaricdə tanınması ilə maraqlanır. Bütün bunları nəzərə alaraq, abituriyent meyil göstərdiyi ixtisasların aid olduğu ali təhsil müəssisələri arasında seçim aparır və üstünlük verdiyi ali təhsil müəssisəsinin (müəssisələrinin) ixtisaslarını ərizəsində müxtəlif mövqelərdə qeyd edir.

Müəyyən bir ixtisasın və həmin ixtisasın tədris olunduğu təhsil müəssisəsinin nüfuzundan asılı olaraq ixtisaslar üzrə müsabiqə vəziyyəti fərqli olur. Bildiyimiz kimi, son illərdə abituriyentlər topladıqları balları öyrəndikdən sonra ixtisas seçir və nəticədə yüksək nüfuza malik olan ixtisasları öz ərizələrində yalnız yüksək bal toplamış abituriyentlər qeyd edirlər. Nəticədə, bu cür ixtisaslar üzrə müsabiqə vəziyyəti yüksək olduğu üçün keçid balları və orta ballar da yüksək olur.

Cədvəl 1.11-da ayrı-ayrı ali təhsil müəssisələrinin ixtisaslarına qəbul olan abituriyentlərin qruplar üzrə orta bal göstəriciləri təqdim edilir. I ixtisas qrupu üzrə Bakı Ali Neft Məktəbi (649.951), Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası (569.4), Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (547.827), ADA Universiteti (522.604) II ixtisas qrupu üzrə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası (528.752), ADA Universiteti (526.704), III ixtisas qrupu üzrə Milli Aviasiya Akademiyası (576.387), Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (571.769), Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası (571.286), ADA Universiteti (567.69), Azərbaycan Dillər Universiteti (506.785), IV ixtisas qrupu üzrə isə Azərbaycan Tibb Universitetinin (579.947) ixtisaslarına qəbul olan abituriyentlərin orta bal göstəriciləri digər ali təhsil müəssisələri ilə müqayisədə daha yüksəkdir. Cədvəldən göründüyü kimi, yüksək hazırlıqlı abituriyentlərin Bakı Ali Neft Məktəbinə, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına, ADA Universitetinə, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasına meyil və marağı olduqca böyükdür.

Özəl ali təhsil müəssisələri arasında yüksək hazırılıqlı abituriyentlər Xəzər Universitetinə üstünlük verirlər. Cari ildə bu universitetin ixtisaslarına qəbul olan abituriyentlərin orta bal göstəriciləri I qrup üzrə 461.624, II qrup üzrə 449.878, III qrup üzrə 380.879 və IV qrup üzrə 390.315 bal olmuşdur.

Xəzər Universiteti istisna olmaqla, digər özəl ali təhsil müəssisələrinə və regionlarda fəaliyyət göstərən dövlət ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin orta bal göstəriciləri aşağı olub.

I ixtisas qrupu üzrə Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.), "Azərbaycan" Universiteti, "Odlar Yurdu" Universiteti, Qərbi Kaspi Universiteti, Azərbaycan Kooperasiya Universiteti, Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.), II ixtisas qrupu üzrə Bakı Qızlar Universiteti, Mingəçevir Dövlət Universiteti, "Naxçıvan" Universiteti (Naxçıvan ş.), Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, Bakı Slavyan Universiteti, Qərbi Kaspi Universiteti, Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.), "Odlar Yurdu" Universiteti, Azərbaycan Kooperasiya Universiteti, Bakı Avrasiya Universiteti, "Azərbaycan" Universiteti, Bakı Biznes Universiteti, III ixtisas qrupu üzrə Azərbaycan Kooperasiya Universiteti, IV ixtisas qrupu üzrə "Naxçıvan" Universiteti (Naxçıvan ş.), Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.), "Odlar Yurdu" Universiteti, Mingəçevir Dövlət Universiteti, Azərbaycan Kooperasiya Universitetinin ixtisaslarına qəbul olan abituriyentlərin orta bal göstəriciləri 250-dən aşağı olub.

V ixtisas qrupu üzrə orta bal göstəricisi yüksək olan ali təhsil müəssisəsi kimi Azərbaycan Memarlıq və İnşaat Universitetini qeyd etmək olar. Qeyd edək ki, Azərbaycan Memarlıq və İnşaat Universiteti üzrə orta bal göstəricisi 179.186 bal olmuşdur.

Cədvəl 1.11

AYRI-AYRI ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İXTİSASLARINA QƏBUL OLAN ABİTURİYENTLƏRİN QRUPLAR ÜZRƏ ORTA BAL GÖSTƏRİCİLƏRİ (2019-CU İL ÜZRƏ)

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	Qruplar üzrə ortastatistik ballar					
		I qrup	II qrup	III qrup	IV qrup	Bütövlükdə (I–IV qruplar üzrə)	V qrup
1	Bakı Dövlət Universiteti	396.731	358.544	469.378	421.888	421.939	95.876
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	426.092	411.878			424.324	
3	Azərbaycan Texniki Universiteti	292.531	333.393			298.235	
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	303.732	292.564			300.797	179.186
5	Azərbaycan Tibb Universiteti				579.947	579.947	
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	378.233	363.707	425.008	400.744	405.893	96.572
7	Azərbaycan Dövlət İqtisad Universiteti	341.245	445.893		300.104	424.764	133.694
8	Azərbaycan Dillər Universiteti		292.378	506.785		468.890	
9	Bakı Slavyan Universiteti		233.912	388.827		373.866	
10	Bakı Mühəndislik Universiteti	401.260	340.591		402.272	381.980	144.235
11	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	547.827	481.310	571.769		519.720	
12	"ADA" Universiteti	522.604	526.704	567.690		540.635	
13	Bakı Musiqi Akademiyası					---	128.924
14	Azərbaycan Milli Konservatoriyası					---	102.293
15	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti		314.152	367.314		356.239	113.201
16	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	354.200		298.968		300.461	142.819
17	Azərbaycan Turizm və Menecment Universiteti	311.208	343.846	452.463		360.395	
18	Bakı Xoreoqrafiya Akademiyası			294.680		294.680	111.989
19	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası		268.806		395.509	327.089	110.372

Cədvəl 1.11 (ardı)

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	Qruplar üzrə ortastatistik ballar					
		I qrup	II qrup	III qrup	IV qrup	Bütövlükdə (I–IV qruplar üzrə)	V qrup
20	Milli Aviasiya Akademiyası	371.626	347.839	576.387		375.922	
21	Azərbaycan Dövlət Dəniz Akademiyası	369.586				369.586	
22	Bakı Ali Neft Məktəbi	649.951				649.951	
23	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	569.400	528.752	571.286		553.895	
24	Naxçıvan Dövlət Universiteti	323.047	392.333	434.350	447.784	403.011	86.844
25	Naxçıvan Müəllimlər İnstitutu	288.948		345.945	277.256	336.616	79.750
26	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə ş.)	226.743	272.443		238.093	239.555	
27	Gəncə Dövlət Universiteti	323.967	263.128	423.754	332.416	351.945	106.888
28	Azərbaycan Texnologiya Universiteti (Gəncə ş.)	208.927	211.282			209.721	98.814
29	Sumqayıt Dövlət Universiteti	296.080	258.336	414.838	315.939	321.915	95.834
30	Mingəçevir Dövlət Universiteti	282.819	246.327	417.747	212.564	312.007	
31	Lənkəran Dövlət Universiteti	260.871	265.122	369.755	268.052	300.496	76.050
32	Azərbaycan Kooperasiya Universiteti	209.461	205.384	287.233	190.911	225.740	
33	Azərbaycan İlahiyyat İnstitutu			301.256		301.256	
34	"Azərbaycan" Universiteti	223.512	203.579	330.383		265.881	
35	Qərbi Kaspi Universiteti (əvvəlki Qərb Universiteti)	214.603	229.005	316.701	281.330	260.776	107.108
36	Xəzər Universiteti	461.624	449.878	380.879	390.315	412.195	96.807
37	Bakı Avrasiya Universiteti	253.000	204.922	316.890		283.453	
38	Bakı Qızlar Universiteti	271.258	247.362	335.263	262.204	319.413	
39	"Odlar Yurdu" Universiteti	222.032	207.281	319.465	230.053	270.532	100.111
40	Bakı Biznes Universiteti		201.673	339.633		244.637	
41	"Naxçıvan" Universiteti (Naxçıvan şəhəri)	270.475	238.183	309.893	244.433	277.900	73.526
42	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası		234.585	334.317		316.184	

1992–2019-cu illər ərzində ali təhsil müəssisələri üzrə ən yüksək müsabiqə vəziyyəti 2008-ci ilə, ən aşağı müsabiqə vəziyyəti isə 2019-cu ilə təsadüf edir

1.9 saylı şəkildə bütövlükdə ali təhsil müəssisələrinə ayrılan plan yerləri və ərizələrin illər üzrə dinamikası təqdim olunub.

1992–2019-cu illər üzrə plan yerləri və abituriyent ərizələrinin dinamikasının müqayisəli təhlili göstərir ki, bu illər ərzində ali təhsil müəssisələrinin qəbul planı 2.83 dəfə, abituriyent ərizələrinin sayı isə 1.78 (subbakalavrlarla birlikdə 2.07) dəfə artıb. İllər üzrə bu göstəricilərin dinamikası müxtəlif olub. Təqdim olunacaq abituriyent ərizələrinin sayının əvvəlcədən proqnozlaşdırılmasına baxmayaraq, qəbul planları tərtib edilərkən heç də həmişə abituriyentlərin gözlənilən sayı nəzərə alınmayıb. Ali təhsil müəssisələri üçün plan yerləri ən çox 2019-cu ildə, ən az 1993-cü ildə ayrılıb. Abituriyent ərizələrinin sayı isə ən az 1992-ci ildə, ən çox 2008-ci ildə olub. Ötən illər ərzində ən aşağı müsabiqə vəziyyəti 2019-cu ilə təsadüf edir. Qeyd etmək lazımdır ki, müsabiqə vəziyyətinin aşağı olması qəbulun keyfiyyətinə mənfi təsir göstərir, ixtisaslar üzrə keçid ballarının aşağı düşməsinə səbəb olur.

1992-2019-CU İLLƏR ÜZRƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANI VƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYININ DİNAMİKASI



Şəkil 1.9

Mayın 5-də və 26-da qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər "Azərbaycan dili" (dövlət dili kimi) fənnindən imtahanı veriblər

Dövlət İmtahan Mərkəzi "Azərbaycan Respublikasında Dövlət dili haqqında" qanunu rəhbər tutaraq qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər üçün "Azərbaycan dili" (dövlət dili kimi) fənnindən test imtahanı keçirir. Bu il də "Azərbaycan dili" (dövlət dili kimi) fənnindən imtahan iki dəfə – mayın 5-də (Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Lənkəran, Şəki, Bərdə, Şirvan, Göyçay, Xaçmaz, Qusar, Şəmkir, Zaqatala və Mingəçevir şəhərlərində) və mayın 26-da (Bakı və Naxçıvan şəhərlərində) keçirilib. Abituriyentlərin 30 test tapşırığından ibarət suallara cavab vermələri üçün 45 dəqiqə vaxt ayrılmışdı. İmtahanın nəticələri "məqbul" və "qeyri-məqbul"la qiymətləndirilmiş və "məqbul" alan abituriyentlər ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə keçirilən müsabiqəyə buraxılıb. Hər düzgün cavab bir balla qiymətləndirilib, səhv cavablar düzgün cavabların nəticəsinə təsir göstərməyib. Abituriyentin "məqbul" alması üçün onun topladığı bal 15-dən az olmamalı idi. 2018-ci ildə keçirilmiş Azərbaycan dili fənni üzrə imtahandan "məqbul" alan abituriyentlər cari ildə ali təhsil müəssisələri və tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün müsabiqəyə cari ildə keçirilən "Azərbaycan dili" (dövlət dili kimi) fənni üzrə müvafiq imtahanda iştirak etmədən buraxılmışlar.

Azərbaycan Respublikasının tədris Azərbaycan dilindən fərqli dillərdə aparılan tam orta təhsil müəssisələrini cari ildə bitirən abituriyentlərin buraxılış imtahanı çərçivəsində mayın 5-də verdikləri "Azərbaycan dili" (dövlət dili kimi) fənni imtahanı üzrə nisbi balı ən azı 50 olduqda, onların həmin nəticələri əsas götürülmüş və "məqbul" almış hesab olunmuşlar. Həmin imtahanda nisbi balı 50-dən az olan abituriyentlər isə "qeyri-məqbul" almış hesab olunmuşlar və "Azərbaycan dili" (dövlət dili kimi) fənnindən yenidən imtahan verirmişlər.

Mayın 6-da keçirilən I imtahanda 6882 abituriyent iştirak edib. Bu imtahanda 4 variantda test kitabçalarından istifadə olunub. İmtahanda iştirak edən abituriyentlərin 5589-u "məqbul" alıb. Mayın 26-da keçirilən II imtahanda isə 851 abituriyent iştirak edib. Bu imtahanda da 4 variantda test kitabçalarından istifadə olunub. İmtahanda iştirak edən abituriyentlərin 457-si "məqbul" alıb. Qeyd edək ki, mayın 5-da və 26-da keçirilən imtahanlarda "qeyri-məqbul" alan və yaxud hər iki imtahanda iştirak etməyən abituriyentlər (qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verənlər) 2019-cu ildə ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə keçirilən müsabiqədə iştirak etmək hüququnu itirmiş oldular.

I–IV qruplar üzrə imtahanlara 9679 nəzarətçi, 872 imtahan rəhbəri cəlb olunub. Onların hər birinin fəaliyyəti təhlil edilib və qiymətləndirilib

Hər il qəbul imtahanlarının idarə olunmasına elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrin yüzlərlə nümayəndəsi, imtahanların gedişinə nəzarət işinə isə minlərlə məktəb müəllimi cəlb olunur. Dövlət İmtahan Mərkəzi imtahanların düzgün və obyektiv idarə olunmasına, zallarda nəzarət prosesinin təlimata uyğun həyata keçirilməsinə böyük diqqət yetirir və bu sahədəki fəaliyyətini mütəmadi olaraq təkmilləşdirir. Təsdiq edilmiş iş qrafikinə uyğun olaraq respublikanın bütün rayonları üzrə ümumtəhsil müəssisələrində nəzarətçi bazasına əlavə edilmiş yeni və təcrübəsi az olan nəzarətçi-müəllimlərə yanvar və fevral aylarında seminar-məşğələlər keçirilib, nəzarətçi-müəllimlər imtahan qaydaları ilə təlimatlandırılıb. Nəzarətçilərdə imtahan prosesi barədə daha aydın təsəvvür yaratmaq üçün seminarlarda videomateriallardan istifadə olunub, onlara DİM tərəfindən hazırlanmış "Nəzarətçilər üçün təlimat" kitabçası təqdim edilib. Seminar-məşğələlər eyni vaxtda respublikanın digər bölgələrində də keçirilib. İmtahanın texnologiyasını dərindən mənimsəmələri üçün nəzarətçilər mütəmadi olaraq keçirilən sınaq imtahanlarına cəlb edilib. Sınaq imtahanlarına nəzarət edən müəllimlərin ümumi sayı 1654 nəfər olmuşdur ki, bunların da 700 nəfəri imtahana ilk dəfə cəlb edilib. Onu da qeyd edək ki, imtahan prosesinə Bakı və Sumqayıt şəhərlərində məskunlaşmış məcburi köçkün və qaçqın rayonlarının (Şuşa, Qubadlı, Laçın, Zəngilan) ümumtəhsil müəssisələrindən də nəzarətçi müəllimlər cəlb olunub. Eyni zamanda, nəzarətçi-müəllimlər cəlb olunduqları imtahandan öncə müvafiq təlimlərdə iştirak edərək məhz həmin imtahan barədə ətraflı məlumatlar almışlar.

Bu il ali təhsil müəssisələrinə I–IV qruplar üzrə qəbul imtahanlarına bütövlükdə 9679 nəfər, o cümlədən Bakı şəhərinin rayonlarından 3308 (Yasamal rayonu – 249 , Binəqədi rayonu – 414, Səbail rayonu – 186, Xətai rayonu – 463, Xəzər rayonu – 218, Nərimanov rayonu – 298, Suraxanı rayonu – 346, Sabunçu rayonu – 449, Nəsimi rayonu – 227, Qaradağ rayonu – 136, Nizami rayonu – 322), Sumqayıt şəhərindən 385, Abşeron rayonundan 361, Naxçıvan MR-dan 427, Gəncə şəhərindən 965, Şəki şəhərindən 620, Mingəçevir şəhərindən 453, Lənkəran şəhərindən 642, Şuşa rayonundan 6, Qubadlı rayonundan 145, Laçın rayonundan 17, Zəngilan rayonundan 16, Şirvan şəhərindən 461, Hacıqabul rayonundan 54, Göyçay rayonundan 404, Bərdə rayonundan – 392, Yevlax rayonundan – 42, Xaçmaz rayonundan 460, Milli Elmlər Akademiyasından 170 nəfər nəzarətçi kimi cəlb olunmuşdu. Bundan başqa cari ildə qəbul imtahanlarına181 nəfər zal nəzarətçisi sertifikatı almış nəzarətçi və 170 nəfər DİM əməkdaşı cəlb edilmişdir.

İmtahanda iştirak edən nəzarətçilərin fəaliyyəti imtahan rəhbərlərinin məlumatlarına və DİM-ə daxil olan şikayət məktublarına əsasən araşdırılmışdır. İmtahanı aşağı səviyyədə keçirən, köçürmə hallarına yol verən, təlimatı qaydaları pozan nəzarətçilər bazadan çıxarılmış və onların siyahıları inzibati tədbirlər görülmək üçün Təhsil Nazirliyinə, Bakı Şəhəri üzrə Təhsil İdarəsinə və müvafiq təhsil şöbələrinə göndərilmişdir. Nəzarətçilərin böyük əksəriyyəti təlimatı qaydalara əməl etmiş və bu dövlət əhəmiyyətli tədbirin həyata keçirilməsində üzərlərinə düşən vəzifəni məsuliyyətlə yerinə yetirmişlər.

Qəbul imtahanlarının birinci mərhələsi aprelin 28-də keçirilmişdir. Cari ilin məzunları üçün I mərhələnin nəticəsi kimi buraxılış imtahanının nəticəsi əsas götürülmüşdür.

İmtahanların ikinci mərhələsi I və IV ixtisas qruplarının abituriyentləri üçün mayın 12-də və iyunun 23-də, II və III ixtisas qruplarının abituriyentləri üçün mayın 19-da və iyulun 7-də keçirilmişdir. Abituriyentlər V ixtisas qrupu üzrə ali təhsil müəssisələrinin ixtisasları üzrə müsabiqədə yalnız qəbul imtahanlarının birinci mərhələsinin (cari ilin məzunları üçün buraxılış imtahanının) nəticələrinə əsasən iştirak etmişlər. Ümumilikdə imtahanlarda I–IV qruplar üzrə 66623, V qrup üzrə 7673 (orta ixtisas təhsili müəssisələri üzrə birlikdə 61295 nəfər) abituriyent iştirak etmişdir.

Hərbi Tibb Məktəbinin feldşer ixtisasını seçənlər, C.Naxçıvanski adına və H.Əliyev adına hərbi liseylərə sənəd verənlər iyulun 14-də imtahan vermişlər.

İmtahanların gedişi barədə ictimaiyyətə geniş informasiya çatdırılması, həmçinin qəbulda şəffaflığın təmin olunması məqsədilə kütləvi informasiya vasitələri nümayəndələrinin imtahanlarda iştirakına geniş

şərait yaradılmışdır. Bunun üçün imtahan ərəfəsində və imtahanın keçirildiyi dövrdə DİM-in direktorlar şurasının sədri kütləvi informasiya vasitələrinin nümayəndələri üçün mətbuat konfransları keçirmişdir. Mərkəz artıq on altı ildir ki, qəbul imtahanlarının gedişini hər saatdan bir özünün internet saytında işıqlandırır və prosesin hər bir məqamına dair fotoşəkillər təqdim edir.

Qəbul imtahanlarının birinci mərhələsi üzrə test kitabçaları 23-27 aprel, I–IV ixtisas qrupları üzrə keçirilən imtahanların ikinci mərhələsinin sual kitabçaları isə 1-ci imtahan günü üçün 7-11 may, 2-ci imtahan günü üçün 14-18 may, 3-cü imtahan günü üçün 18-22 iyun, 4-cü imtahan günü üçün 2-6 iyul tarixlərində DİM-in binasında xüsusi bunkerdə hazırlanmışdır. İmtahanlarda istifadə edilən test tapşırıqları bankdan kompüter proqramı vasitəsilə avtomatik olaraq seçilmişdir. Hər bir qrupun abituriyentlərinin bilik səviyyəsinə uyğun qaydada seçilən test tapşırıqları DİM-də fəaliyyət göstərən fənn seminarlarının müəyyənləşdirdiyi standartlara uyğun olmuşdur. Sual kitabçaları Azərbaycan və rus dillərində olmaqla imtahanların birinci mərhəsi üçün 8 variantda (A, B, C, D, E, F, G, H), ikinci mərhələsi üçün isə (I–IV ixtisas qruplarının hər biri üzrə) 4 variantda (A, B, C, D) tərtib edilmiş və beləliklə, köçürmə hallarının qarşısının alınması məqsədilə çoxvariantlılıq təmin olunmuşdur.

Qəbul imtahanlarının birinci mərhələsi üzrə imtahanlar Bakı, Naxçıvan, Gəncə, Lənkəran, Şəki, Xaçmaz, Bərdə, Göyçay, və Şirvan şəhərlərində, ikinci mərhələsi üzrə imtahanlar isə Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Lənkəran, Şəki, Xaçmaz, Bərdə, Göyçay, Şirvan və Mingəçevir şəhərlərində keçirilmişdir.

Mayın 12-də keçirilən imtahanda I və IV ixtisas qruplarının abituriyentləri, o cümlədən DİN-in Polis Akademiyası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "İnformasiya təhlükəsizliyi" ixtisasları, Dövlət Sərhəd Xidməti Akademiyasının I qrup ixtisasında, Ali Hərbi Məktəbdə, Fövqəladə Hallar Nazirliyi Akademiyasının "Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" və "Yanğın təhlükəsizliyi mühəndisliyi" ixtisaslarında təhsil almaq istəyən abituriyentlər iştirak etmişlər. İmtahanın idarə olunmasına Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan, Şəki, Lənkəran şəhərlərinin, Abşeron, Bərdə, Yevlax, Göyçay, Xaçmaz, Şuşa, Qubadlı, Laçın, Zəngilan, Hacıqabul rayonlarının məktəblərindən və Azərbaycan Milli Elmlər Akademiyası 2562 nəfər nəzarətçi-müəllim, 236 nəfər imtahan rəhbəri cəlb olunmuşdur.

Mayın 19-da keçirilən imtahanda II və III ixtisas qruplarının abituriyentləri, o cümlədən DİN-in Polis Akademiyası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "Hüquqşünaslıq" ixtisasları, DİN-in Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası və Dövlət Sərhəd Xidməti Akademiyasının II qrup ixtisasları üzrə təhsil almaq istəyən abituriyentlər imtahan vermişlər. İmtahanın idarə olunmasına Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan, Şuşa şəhərlərinin, Abşeron, Şəki, Yevlax, Bərdə, Göyçay, Laçın, Qubadlı, Zəngilan, Lənkəran, Xaçmaz, Yevlax rayonlarının məktəblərindən, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyası əməkdaşlarından 2844 nəfər nəzarətçi-müəllim, 258 nəfər imtahan rəhbəri cəlb olunmuşdur.

İyunun 23-də keçirilən imtahanda I və IV ixtisas qruplarının abituriyentləri, o cümlədən DİN-in Polis Akademiyası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "İnformasiya təhlükəsizliyi" ixtisasları Dövlət Sərhəd Xidməti Akademiyasının I qrup ixtisasında, Ali Hərbi Məktəbdə, Fövqəladə Hallar Nazirliyi Akademiyasının "Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" və "Yanğın təhlükəsizliyi mühəndisliyi" ixtisaslarında təhsil almaq istəyən abituriyentlər iştirak etmişlər. İmtahanın idarə olunmasına Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan, Şuşa, şəhərlərinin, Abşeron, Şəki, Göyçay, Qubadlı, Zəngilan, Laçın, Lənkəran, Xaçmaz, Bərdə rayonlarının məktəblərindən və Azərbaycan Milli Elmlər Akademiyası əməkdaşlarından 1950 nəfər nəzarətçi-müəllim,173 nəfər imtahan rəhbəri cəlb olunmuşdur.

İyulun 7-də keçirilən imtahanda II və III ixtisas qruplarının abituriyentləri, o cümlədən DİN-in Polis Akademiyası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "Hüquqşünaslıq" ixtisasları, DİN-in Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin "İctimai təhlükəsizlik və idarəetmə" ixtisası və Dövlət Sərhəd Xidməti Akademiyasının II qrup ixtisaslarında təhsil almaq istəyən abituriyentlər imtahan vermişlər. İmtahanın idarə olunmasına Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan, Şuşa şəhərlərinin, Abşeron, Bərdə, Yevlax, Şəki, Göyçay, Laçın, Qubadlı, Zəngilan, Lənkəran, Xaçmaz rayonlarının məktəblərindən və Azərbaycan Milli Elmlər Akademiyası əməkdaşlarından 2323 nəfər nəzarətçi-müəllim, 205 nəfər imtahan rəhbəri cəlb olunmuşdur.

I qrup üzrə sənəd verən abituriyentlərin 66.33%-ni oğlanlar, 33.67%-ni isə qızlar təşkil etmişdir. Bu qrup üzrə sənəd verən abituriyentlərin 24734 nəfəri (87.31%-i) ümumi təhsil məktəblərinin builki məzunları,

10nəfəri xarici ölkələrin vətəndaşları, 26 nəfəri ali təhsilli şəxslər, 479 nəfəri isə orta ixtisas məktəblərinin məzunları olmuşdur.

II qrup üzrə sənəd verən abituriyentlərin 67.99%-ni oğlanlar, 32.01%-ni isə qızlar təşkil etmişdir. Bu qrup üzrə sənəd verən abituriyentlərin 12530 nəfəri (86.07%-i) ümumi təhsil məktəblərinin builki məzunları, 5 nəfəri xarici ölkələrin vətəndaşları, 15 nəfəri ali təhsilli şəxslər, 411 nəfəri isə orta ixtisas məktəblərinin məzunları olmuşdur.

III qrup üzrə sənəd verən abituriyentlərin 29.52%-ni oğlanlar, 70.48%-ni isə qızlar təşkil etmişdir. Bu qrup üzrə sənəd verən abituriyentlərin 18930 nəfəri (85.16%-i) ümumi təhsil məktəblərinin builki məzunları, 14 nəfəri xarici ölkələrin vətəndaşları, 50 nəfəri ali təhsilli şəxslər, 627 nəfəri isə orta ixtisas məktəblərinin məzunları olmuşdur.

IV qrup üzrə sənəd verən abituriyentlərin 27.97%-ni oğlanlar, 72.03%-ni isə qızlar təşkil etmişdir. Abituriyentlərin 4493 nəfəri (87.87%-i) ümumi təhsil məktəblərinin builki məzunları, 4 nəfəri xarici ölkələrin vətəndaşları, 29 nəfəri ali təhsilli şəxslər, 86 nəfəri isə orta ixtisas məktəblərinin məzunları olmuşdur.

İmtahanlarda oğlanların ən yüksək nisbi sayı II ixtisas qrupunda (67.99%), qızların ən yüksək nisbi sayı isə IV ixtisas qrupunda (72.03%) olmuşdur.

Sual kitabçaları hər bir abituriyent üçün xüsusi avtomatlaşdırılmış xətt vasitəsi ilə (bu xətt xüsusi olaraq DİM-in keçirdiyi imtahanlar üçün sual kitabçalarının çapı və komplektasiyasını həyata keçirir) fərdi qaydada çap olunub və imtahan zalları üzrə komplektləşdirilib. Tapşırıqlar qəbul imtahanlarının birinci mərhələsi üçün 8 varianta, imtahanların ikinci mərhələsi üçün I–IV ixtisas qruplarının hər biri üzrə ayrılıqda 4 variantda olmaqla Azərbaycan və rus dillərində hazırlanıb. Qəbul imtahanlarının birinci mərhələsində sual kitabçalarının xarici dil blokunda "Abituriyentin elektron ərizəsi"ndə "İmtahan verəcəyi xarici dil" bölməsində seçilən xarici dilə uyğun test tapşırıqları təqdim olunub. Xarici dil fənni blokuna daxil olan alman, fransız və ingilis dili fənləri üzrə test tapşırıqları Azərbaycan və rus bölmələri üçün, rus dili, ərəb və fars dili fənləri üzrə test tapşırıqları isə yalnız Azərbaycan bölməsi üçün hazırlanmışdır.

Beləliklə, aprelin 28-də 16, mayın 12-də 16, mayın 19-da 16, iyunun 23-də 16, iyulun 7-də 16, iyulun 14-də 8 (hərbi liseylər – 4, Orta Hərbi Tibb Məktəbi – 4) adda test kitabçası hazırlanıb. Ümumilikdə, bu imtahanlarda 7880 test tapşırığından istifadə olunub.

I–IV ixtisas qrupları üzrə imtahanlarda 66623 nəfər abituriyent iştirak etmiş, onların 61140-ı Azərbaycan, 5483-i rus bölməsini təmsil etmişdir. İmtahanların gedişinin hər bir məqamı, eləcə də sonrakı proseslər– testlərin ekspertizası və etalonların müəyyənləşdirilməsi, imtahan protokollarının araşdırılması DİM-in internet saytında operativ şəkildə işıqlandırılmışdır. Qəbul imtahanlarının birinci mərhələsi üzrə nəticələr imtahanın keçirilməsindən təxminən 1 ay sonra (mayın 29-da), imtahanların ikinci mərhələsi üzrə nəticələr isə imtahanların keçirilməsindən təxminən 10 gün sonra (mayın 12-də keçirilən imtahanın nəticələri mayın 22-də, mayın 19-da keçirilən imtahanın nəticələri mayın 31-də, iyunun 23-də keçirilən imtahanın nəticələri iyulun 2-də, iyulun 7-də keçirilən imtahanın nəticələri iyulun 19-da) elan edilmişdir. İmtahan nəticələrinin əvvəlki illərdə olduğundan daha gec elan olnumasının səbəbi yeni imtahan modelində təqdim olunan yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə yazı işlərinin qiymətləndirilməsinin uzun müddət tələb etməsi olmuşdur. Nəticələrin elanı DİM-in internet saytı və mobil operatorların telefon xidmətləri vasitəsilə həyata keçirilmişdir. Bununla yanaşı, hər bir abituriyentə internet vasitəsilə cavab kartı və cavab vərəqinin ön, arxa üzünün qrafik təsvirləri, qapalı tipli tapşırıqların doğru cavabları, açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli və qiymətləndirmə şkalası) ilə tanış olmaq imkanı da yaradılmışdır.

DİM hər imtahandan sonra həmin imtahanda istifadə olunan test tapşırıqlarının düzgün cavablarını "Space" televiziyası vasitəsilə elan etmiş, Mərkəzin məsul əməkdaşları və fənn ekspertləri birbaşa efir vaxtında test tapşırıqları, eləcə də imtahanların gedişi ilə bağlı abituriyentləri və pedaqoji ictimaiyyəti maraqlandıran sualları cavablandırmışlar. Bu tədbir həm abituriyentlərin öz ballarını rahat hesablamaları və onları maraqlandıran suallara cavab almaları, həm də ümumilikdə, imtahan prosesinin şəffaflığının təmin edilməsi baxımından əhəmiyyətli olmuşdur. Abituriyentlərin ballarının hesablanması üçün xüsusi proqram hazırlanmış, DİM-in və "Abituriyent" jurnalının saytlarında yerləşdirilmişdir. İstifadə üçün çox sadə olan bu

proqramda abituriyentlər fənlər üzrə düzgün və səhv cavablarını müvafiq mövqelərdə qeyd etməklə avtomatik olaraq nisbi və ümumi balları haqqında məlumat ala və nəticələrini çap edə bilmişlər.

Qəbul imtahanlarında ayrı-ayrı fənlər üzrə istifadə edilmiş test tapşırıqlarının məzmunu və imtahanın gedişi ilə əlaqədar müraciətlərə baxılması üçün DİM tərəfindən apelyasiya komissiyası yaradılmış və o, aşağıdakı tarixlərdə fəaliyyət göstərmişdir:

Qəbul imtahanlarının birinci mərhələsində iştirak edənlər üçün

– 3, 4 və 7 iyun

Qəbul imtahanlarının ikinci mərhələsində iştirak edənlər üçün

Birinci imtahan üzrə

– I və IV qruplar üzrə 30-31 may və 3-5 iyun;

– II və III qruplar üzrə 10-11 iyun;

İkinci imtahan üzrə

– I və IV qruplar üzrə 6 və 8 iyul;

– II və III qruplar üzrə 22-24 iyul.

İxtisas seçimi abituriyentlərin imtahan nəticələri (balları) elan olunduqdan sonra aparılıb

Müsabiqə şərtlərini ödəyən abituriyentlər müsabiqədə iştirak etmək üçün iyulun 24-dən avqustun 6-dək internet vasitəsilə ixtisas seçimi aparıb və ixtisas seçimi ərizələrini təsdiqləyiblər. Test imtahanlarının nəticələrinə əsasən, 50234 abituriyent ali təhsil müəssisələrinin ixtisaslarına keçirilən müsabiqədə iştirak etmək hüququ qazanıb. İxtisas seçimi zamanı abituriyentlərə kömək məqsədilə hər bir ixtisas qrupu üzrə bir sıra məlumatlar, o cümlədən plan yerlərinin sayı, müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan ballarının paylanması haqqında məlumatlar ayrı-ayrı kitabçalar şəklində, eləcə də ali təhsil müəssisələrinin ixtisasları üzrə 2018-ci ildə tələbə qəbulu müsabiqəsində formalaşmış keçid balları "Abituriyent" jurnalının xüsusi buraxılışında dərc edilmişdir.

Qəbul imtahanlarının nəticələrinə əsasən I ixtisas qrupu üzrə 15112, II ixtisas qrupu üzrə 10167, III, IV və V ixtisas qrupları üzrə, müvafiq olaraq, 17468, 4082 və 4768 nəfər müsabiqədə iştirak etmək hüququ əldə edib (1.12 saylı cədvələ bax). Hər ixtisas qrupu üzrə ayrı-ayrılıqda abituriyentlərin topladıqları balların paylanması 6.10-6.19 saylı cədvəllərdə təqdim edilib (bax: səh. 441-445).

Cədvəl 1.12

İXTİSAS QRUPLARI ÜZRƏ QƏBUL PLANLARI VƏ MÜSABİQƏDƏ İŞTİRAK ETMƏK HÜQUQU QAZANMIŞ ABİTURİYENTLƏRİN PAYLANMASI

İxtisas qrupu	Qəbul planı				Müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin sayı		
	Azərbaycan bölməsi	Rus bölməsi	Birgə müsabiqə aparılan ixtisaslar	Cəmi	Azərbaycan bölməsi	Rus bölməsi	Cəmi
I	11075	1122	2994	15191	13706	1406	15112
II	10040	1000	3060	14100	9181	986	10167
III	8845	1005	1410	11260	16275	1193	17468
IV	2894	304	509	3707	3643	439	4082
V	1171	118	2218	3507	4248	520	4768
CƏMİ	**34025**	**3549**	**10191**	**47765**	**45841**	**4393**	**50234**

İxtisas seçimində 46196 nəfər abituriyent iştirak edib. Müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin 8.04%-i (4038 nəfər) arzu etdiyi ixtisaslara qəbul olmaq üçün kifayət qədər yüksək bal toplamadıqlarına, yaxud xarici ölkələrin ali təhsil müəssisələrinə qəbul olduqlarına görə qəbul kampaniyasının ixtisas seçimi mərhələsində iştirak etməyib. Bundan əlavə, ixtisas seçimində 12123 subbakalavr da iştirak etmişdir.

İxtisas seçimi mərhələsində ərizə verən abituriyentlərin 6058 nəfəri, subbakalavrların 432 nəfəri ərizəsində ali təhsil müəssisələrinin yalnız dövlət sifarişi əsasında ayrılmış yerlərini, 17687 abituriyent və 5622 subbakalavr isə yalnız ödənişli əsaslarla ayrılmış yerlərini seçib. Ödənişli əsaslarla ayrılmış yerləri

seçənlərin 795 nəfəri (752 abituriyent və 43 subbakalavr) ərizələrində yalnız özəl təhsil müəssisələrinin ixtisaslarını göstərib. Bu mərhələdə ərizə verən abituriyentlərin 48.60%-i (22451 nəfər), subbakalavrların 50.06%-i (6069 nəfər) ərizəsində həm dövlət sifarişli, həm də ödənişli əsaslarla olan yerləri qeyd etmişdi.

Müsabiqə və yerləşdirmənin nəticələri ixtisas seçimindən dərhal sonra açıqlanıb
İlkin mərhələdə ali təhsil müəssisələrinə 42123 nəfər
qəbul olub, qəbul planı 88.19% dolub.

Müsabiqə və yerləşdirmənin nəticələri avqustun 8-də DİM-in internet saytı, AZERCELL, BAKCELL və NARMOBİLE telefon xidmətləri vasitəsilə elan olunub, avqustun 9-da isə "Abituriyent" jurnalının 7-ci sayında dərc edilib. Burada ixtisaslar üzrə keçid balları da təqdim edilib.

Qəbul imtahanlarının nəticələrinə əsasən birinci mərhələdə ali təhsil müəssisələrinə 42123 nəfər (o cümlədən, 38581 abituriyent və 3542 subbakalavr) qəbul olub və qəbul planı 88.19% yerinə yetirilib. Qəbul olanların 38391 nəfəri Azərbaycan, 3732 nəfəri isə rus bölməsini təmsil edib. Onlardan dövlət sifarişi üzrə qəbul olanların sayı, müvafiq olaraq, 16589 və 1292 nəfərdir. Qəbul olan abituriyentlər və subbakalavrlar haqda ayrı-ayrılıqda və ümumiləşdirilmiş məlumatlar cədvəl 1.13-də təqdim olunmuşdur.

Cədvəl 1.13

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	15191	10455 (6596)	1049 (598)	11504 (7194)	75.73
II	14100	8731 (2781)	875 (199)	9606 (2980)	68.13
III	11260	10208 (3559)	887 (156)	11095 (3715)	98.53
IV	3707	3062 (1919)	220 (90)	3282 (2009)	88.54
V	3507	2686 (1202)	408 (195)	3094 (1397)	88.22
CƏMİ	**47765**	**35142 (16057)**	**3439 (1238)**	**38581 (17295)**	**80.77**
	Subbakalavrlar				
I	15191	1184 (370)	76 (34)	1260 (404)	8.29
II	14100	1887 (112)	146 (1)	2033 (113)	14.42
III	11260	0 (0)	34 (0)	34 (0)	0.30
IV	3707	100 (40)	35 (18)	135 (58)	3.64
V	3507	78 (10)	2 (1)	80 (11)	2.28
CƏMİ	**47765**	**3249 (532)**	**293 (54)**	**3542 (586)**	**7.42**
	Bütövlükdə				
I	15191	11639 (6966)	1125 (632)	12764 (7598)	84.02
II	14100	10618 (2893)	1021 (200)	11639 (3093)	82.55
III	11260	10208 (3559)	921 (156)	11129 (3715)	98.84
IV	3707	3162 (1959)	255 (108)	3417 (2067)	92.18
V	3507	2764 (1212)	410 (196)	3174 (1408)	90.50
CƏMİ	**47765**	**38391 (16589)**	**3732 (1292)**	**42123 (17881)**	**88.19**

Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə əlavə qəbul və qeydiyyat aparıldıqdan sonra
ali təhsil müəssisələrinə ümumilikdə 41693 nəfər qəbul olub,
qəbul planı bütövlükdə 87.29% dolub

Nəticələr elan edildikdən sonra avqustun 15-dən 19-dək ali təhsil müəssisələrinin boş qalan yerlərinə əlavə qəbul elan olunub. Əlavə qəbul elanı, boş qalan plan yerləri haqqında məlumatlar və müsabiqə şərtləri "Abituriyent" jurnalının 8-ci sayında dərc edilərək ictimaiyyətə çatdırılıb. Əlavə yerləşdirmə zamanı əsas qəbulda yüksək müsabiqə şəraiti olan ixtisaslarda müsabiqədən keçməyən yüksək ballı gənclərin ixtisas seçimlərini bir daha dəqiqləşdirmələrinə, boş qalan yerlərdən öz istəklərinə uyğun olanlarını seçmələrinə şərait yaradılıb. Müsabiqəyə buraxılma şərtləri bu mərhələdə də dəyişdirilmədən birinci mərhələdə olduğu kimi saxlanılıb.

Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə əlavə qəbul və orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu müsabiqəsi eyni vaxtda elan olunub. Hər iki müsabiqə üçün abituriyentlərdən ərizə qəbulu internet vasitəsilə həyata keçirilib. Abituriyentlərə internetdə bir ərizə formasında həm ali təhsil müəssisələrinin boş qalan ixtisaslarının, həm də kolleclərin ixtisaslarının 20-dək kodunu istədikləri ardıcıllıqla qeyd etmək imkanı verilib. Bu mərhələdə də müsabiqə ümumi qaydalara müvafiq olaraq abituriyentin seçdiyi ixtisasların ardıcıllığına uyğun şəkildə aparılıb və abituriyent müsabiqədən keçdiyi birinci ixtisasa qəbul olub. Hər iki müsabiqəyə birlikdə 16515 ərizə daxil olub. Ərizələrin yalnız 1496-da ali təhsil müəssisələrinin boş qalan ixtisaslarının kodları qeyd olunub. Beləliklə, ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə əlavə qəbul və qeydiyyat aparıldıqdan sonra ali təhsil müəssisələrinin qəbul planının dolma göstəricisi 88.19%-dən 87.29%-ə düşüb (qəbul olan bəzi şəxslərin qeydiyyatdan keçmədiyinə görə).

Boş qalan plan yerlərinə əlavə yerləşdirmənin nəticələri nəzərə alınmaqla ali təhsil müəssisələrinə qəbul olanların sayı haqqında məlumat aşağıdakı cədvəldə təqdim edilir.

Cədvəl 1.14

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT (ƏLAVƏ YERLƏŞDİRMƏ VƏ QEYDİYYAT NƏZƏRƏ ALINMAQLA)

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	15191	10325 (6539)	1002 (583)	11327 (7122)	74.56
II	14100	8750 (2763)	859 (196)	9609 (2959)	68.15
III	11260	10104 (3549)	873 (152)	10977 (3701)	97.49
IV	3707	2953 (1879)	200 (84)	3153 (1963)	85.06
V	3507	2708 (1202)	404 (194)	3112 (1396)	88.74
CƏMİ	**47765**	**34840 (15932)**	**3338 (1209)**	**38178 (17141)**	**79.93**
	Subbakalavrlar				
I	15191	934 (385)	65 (32)	999 (417)	6.58
II	14100	2177 (100)	130 (1)	2307 (101)	16.36
III	11260	3 (0)	24 (0)	27 (0)	0.24
IV	3707	64 (34)	31 (18)	95 (52)	2.56
V	3507	86 (10)	1 (1)	87 (11)	2.48
CƏMİ	**47765**	**3264 (529)**	**251 (52)**	**3515 (581)**	**7.36**
	Bütövlükdə				
I	15191	11259 (6924)	1067 (615)	12326 (7539)	81.14
II	14100	10927 (2863)	989 (197)	11916 (3060)	84.51
III	11260	10107 (3549)	897 (152)	11004 (3701)	97.73
IV	3707	3017 (1913)	231 (102)	3248 (2015)	87.62
V	3507	2794 (1212)	405 (195)	3199 (1407)	91.22
CƏMİ	**47765**	**38104 (16461)**	**3589 (1261)**	**41693 (17722)**	**87.29**

Əlavə yerləşdirmə və qeydiyyatın nəticələrini nəzərə almaqla ayrı-ayrı ixtisas qruplarında qəbulolma göstəricilərinə nəzər salaq:

I ixtisas qrupu üzrə qəbul imtahanında 26728 nəfər abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 42.10%-i, rus bölməsi üzrə isə 45.52%-i ali təhsil müəssisələrinə qəbul olub. Qəbul planı bütövlükdə (subbakalavrlar da nəzərə alınmaqla) 81.14% yerinə yetirilib. Bu göstərici digər ixtisas qrupları ilə müqayisədə ən aşağı göstəricidir.

II ixtisas qrupu üzrə imtahanda iştirak edən abituriyentlərin sayı 14033 nəfər olub. Onların Azərbaycan bölməsi üzrə 68.90%-i, rus bölməsi üzrə isə 64.44%-i tələbə adına layiq görülüb, qəbul planı 84.51% dolub.

III ixtisas qrupu üzrə qəbul imtahanında 21550 nəfər abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 50.29%-i, rus bölməsi üzrə isə 59.88%-i ali təhsil müəssisələrinə qəbul olub. Qəbul planı 97.73% yerinə yetirilib.

IV ixtisas qrupu üzrə qəbul imtahanında 4939 nəfər abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 67.22%-i, rus bölməsi üzrə isə 36.63%-i tələbə adına layiq görülüb, qəbul planı 87.62% dolub.

V ixtisas qrupu üzrə qəbul imtahanında 7673 nəfər abituriyent iştirak edib. Onların Azərbaycan bölməsi üzrə 39.29%-i, rus bölməsi üzrə isə 51.73%-i tələbə adına layiq görülüb. Qəbul planı 91.22% dolub.

Göründüyü kimi, II və IV ixtisas qrupları istisna olmaqla, qalan bütün qruplarda imtahanda iştirak edənlər arasından ali təhsil müəssisələrinə qəbulolma faizi rus bölməsində daha yüksəkdir, amma müsabiqədə iştirak etmək hüququ qazanan abituriyentlər arasında isə III və V ixtisas qrupları istisna olmaqla, digər qruplarda qəbulolma faizi Azərbaycan bölməsində daha yüksəkdir. Ümumilikdə götürdükdə, Azərbaycan bölməsində ali təhsil müəssisələrinə qəbul olanlar imtahanlarda iştirak edənlərin 54.94%-ni, müsabiqədə iştirak etmək hüququ qazananların isə 76.00%-ni təşkil edir. Rus bölməsində bu göstəricilər, müvafiq olaraq, 58.14 və 75.98%-dir.

Qəbulolma göstəricilərinin təhsil formaları üzrə təhlili göstərir ki, dövlət ali təhsil müəssisələrinə 35721, özəl ali təhsil müəssisələrinə isə 5972 nəfər qəbul olub. Dövlət ali təhsil müəssisələrinin qəbul planı 88.74%, özəl ali təhsil müəssisələrinin planı isə 79.50% dolub.

Bütövlükdə subbakalavrların 16.53%-i dövlət sifarişi üzrə, 83.47%-i isə ödənişli əsaslarla ayrılan yerlərə qəbul olunub. Qəbul olunan subbakalavrların 58.44%-i (2054 nəfər) dövlət, 41.56%-i (1461 nəfər) özəl ali təhsil müəssisələrinə qəbul olunub. 1.14 saylı cədvəldən göründüyü kimi subbakalavrların böyük əksəriyyəti (94.05%-i) I və II qrup ixtisaslarına qəbul olunub. Dövlət sifarişi üzrə qəbul olunanlar arasında bu qrupların payı 89.15%, ödənişli əsaslarla qəbul olunanlar arasında isə 95.03%-dir.

Subbakalavrların böyük hissəsi "İqtisadiyyat" (355 nəfər), "Mühasibat uçotu və audit" (344 nəfər), "Maliyyət" (319 nəfər), "Marketinq" (265 nəfər), "Turizm və otelçilik" (228 nəfər), "Menecment" (177 nəfər), "Kommersiya" (134 nəfər), "İnformasiya texnologiyaları" (126 nəfər), "Biznesin idarə edilməsi" (120 nəfər), "Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi" (118 nəfər) və "Dövlət və bələdiyyə idarəetməsi" (113 nəfər) ixtisaslarına qəbul olunub. Bu ixtisaslara qəbul olunan subbakalavrlar bütövlükdə ali təhsil müəssisələrinə qəbul olunan subbakalavrların 65.41%-ni təşkil edir. Onların 9.57%-i (220 nəfər) dövlət sifarişi üzrə, 90.43%-i (2079 nəfər) ödənişli əsaslarla ayrılan yerlərə qəbul olunub.

Müsabiqə zamanı bir yerə bir neçə subbakalavr iddia etdiyi hallarda onların diplom ballarının orta göstəricisi əsas götürülüb və bu göstəricisi digərlərindən yüksək olan subbakalavr həmin yerə yerləşdirilib. Ali təhsil müəssisələrinə qəbul olunan subbakalavrların orta diplom balı 77.1-ə bərabər olub. Bu göstəriciləri aşağı olan subbakalavrlar əsasən "Nəqliyyatda daşımaların və idarəetmənin təşkili mühəndisliyi" (orta diplom balı 63.1 bal), "Metallurgiya mühəndisliyi" (63.3 bal), "Musiqişünaslıq" (64.6 bal), "Məktəbəqədər təlim və tərbiyə" (65.3 bal) və "Dizayn" (65.4 bal) ixtisaslarına, yüksək olan bakalavrlar isə əsasən "Dirijorluq (xalq calğı alətləri orkestrinin dirijoru, xor dirijorluğu)" (92.1 bal), "Baytarlıq" (88.8 bal), "Statistika" (88.7 bal), "Ekologiya" (86.6 bal) və "Kitabxanaçılıq və informasiya" (85.6 bal) ixtisaslarına qəbul olunub.

Məlum olduğu kimi Təhsil Nazirliyinin müraciəti nəzərə alınaraq "Riyaziyyat", "Fizika", "Kompüter elmləri", "Nəqliyyat tikintisi mühəndisliyi", "İnşaat mühəndisliyi", "İnformasiya texnologiyaları", "Geologiya", "Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi" ixtisasları üzrə müsabiqəyə ən azı 250 bal toplayan abituriyentlər buraxılıb. Nisbətən yüksək müsabiqə şərtlərinin qoyulması səbəbindən qeyd olunan ixtisaslar üçün 2015-ci ildə ayrılan 2273 yerin cəmi 70.00%-i (1591 yer), 2016-cı ildə 2627 yerin cəmi 60.30%-i (1584 yer), 2017-ci ildə 2334 yerin cəmi 77.89%-i (1818 yer), 2018-ci ildə 2611 yerin cəmi 76.94%-i (2009 yer), 2019-cu ildə isə 2511 yerin cəmi 71.17%-i (1787 yer) dolub. 2014-cü ildə il bu rəqəm 96.83% olub (2273 yerə 2201 nəfər qəbul olub). Ayrı-ayrı ixtisaslar üzrə plan yerlərinin dolma faizinə nəzər saldıqda, görürük ki, cari ildə bu ixtisaslar üzrə qəbul planının yerinə yetirilmə faizi 39-96% arasında dəyişir. Müqayisə üçün qeyd edək ki, 2014-cü ildə bu ixtisaslar üzrə qəbul planının yerinə yetirilmə faizi

94%-dən yüksək olub. Onu da qeyd edək ki, 2019-cu ildə bu ixtisaslara 326 nəfər subbakalavr qəbul olunub. Əvvəlki illərdə bu imkanın olmadığını nəzərə alsaq, subbakalavrları nəzərə almadan bu yerlərin dolma faizi 58.18% olardı. Göründüyü kimi müsabiqə şərtlərinin yüksək olması nəticəsində yerlərin müəyyən hissəsini subbakalavrlar tutmuşdur. Bu ixtisaslara qəbul olunan subbakalavrların 55.52%-i (181 nəfər) dövlət sifarişi üzrə ayrılan yerlərə qəbul olunub. Ümumilikdə ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə qəbul olunan subbakalavrların 31.15%-i bu ixtisaslara qəbul olunan subbakalavrlardır. Təbiidir ki, imtahan vermədən ali təhsil müəssisələrinə qəbul olunan subbakalavrların hazırlıq səviyyələri abituriyentlərdən çox aşağıdır və bu cür tələbələrin tədrisi ali təhsil müəssisələri əlavə problem yaradacaq və onların bir mütəxəssis kimi hazırlığı həmin ali təhsil müəssisələrində daha çox vaxt və resurs tələb edəcək.

2019-cu ildə Təhsil Nazirliyinin təqdim etdiyi siyahıya əsasən ödənişli əsaslarla qəbul aparılan bir neçə ixtisasının (bax: səh. 14-15) müsabiqəsinə ümumi balı 150-dən, II mərhələ üzrə balı 50-dən az olmayan abituriyentlər buraxılıb. Nəticədə, 2019-cu ildə həmin ixtisaslara ayrılan plan yerlərinin 75.14 faizi dolub. Bu göstərici I ixtisas qrupunda 96.17, II ixtisas qrupunda 64.66, III ixtisas qrupunda 98.79, IV ixtisas qrupunda isə 76.71 faizə bərabər olub.

Ali təhsil müəssisələrinə ayrı-ayrı təhsil formaları üzrə qəbul olan və qəbul olmayan abituriyentlərin və subbakalavrların paylanma diaqramlarını nəzərdən keçirək (şəkil 1.10, 1.11 və 1.12).

QƏBULUN NƏTİCƏSİ



Şəkil 1.10



Şəkil 1.11



Şəkil 1.12

Ali təhsil müəssisələrinə qəbul imtahanlarında iştirak etmiş abituriyentlərin və müsabiqədə iştirak edən subbakalavrların ümumilikdə 51.65%-i (abituriyentlərin 55.21%-i, subbakalavrların 30.38%-i) ali təhsil müəssisələrinə qəbul olub. Qəbul olanların 42.51%-i dövlət sifarişi əsasında (96.72%-i abituriyentlər, 3.28%-i subbakalavrlar), o cümlədən, 41.05%-i dövlət (97.07%-i abituriyentlər, 2.93%-i subbakalavrlar), 1.46%-i özəl (86.99%-i abituriyentlər, 13.01%-i subbakalavrlar) ali təhsil müəssisələrində, 57.49%-i isə ödənişli təhsil forması üzrə (87.76%-i abituriyentlər, 12.24%-i subbakalavrlar), o cümlədən, 44.63%-i dövlət (91.66%-i abituriyentlər, 8.34%-i subbakalavrlar), 12.87%-i özəl (74.24%-i abituriyentlər, 25.76%-i subbakalavrlar) ali təhsil müəssisələrində təhsil almaq hüququ qazanıb.

Beləliklə, imtahanda iştirak edən abituriyentlərin 44.79%-i (30975 nəfər) ali təhsil müəssisələrinə qəbul olmamışdır. Təqdim edilən rəqəmlər qəbul prosesində həm rəqabəti, həm istəkləri təmin edilməyənlərin sayının nə qədər çox olduğunu, həm də qəbul prosesinin kütləviliyini, ağır və məsuliyyətli iş olduğunu göstərir.

DİM bu işin məsuliyyətini dərk edərək qəbul kampaniyasının tam şəffaf keçməsini təmin etmək məqsədilə onun bütün mərhələlərində görülən tədbirlər barədə ictimaiyyəti müntəzəm olaraq məlumatlandırmışdır. Qəbul imtahanlarında iştirak etmiş hər bir gəncin imtahan nəticələri haqqında məlumatlar arayış formasında imtahanın keçirildiyi vaxtdan 2–3 gün sonra internetdə yerləşdirilmişdir. Arayışda abituriyentlərin hər fənn üzrə ayrı-ayrılıqda düzgün və səhv cavabları, nisbi balları göstərilmişdir. Bunun əsasında onlar öz imtahan nəticələrini ətraflı təhlil etmək imkanına malik olmuşlar.

Abituriyentlərin imtahan balları elan edildikdən sonra onların düzgün ixtisas seçiminə kömək məqsədilə DİM tərəfindən bütün ixtisas qruplarının abituriyentləri üçün "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı vəsaitlər çap edilib. Vəsaitlərdə plan yerlərinin sayı, hər bir qrup üzrə müsabiqə şərtləri, həmçinin müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlərin imtahan ballarının paylanma histoqramları cədvəl şəklində təqdim edilib. Cədvəldən istifadə edən müsabiqə iştirakçıları öz imtahan göstəricilərinin bu bal sıralanmasındakı yerini müəyyən etmək və ötən illərdə qəbul imtahanlarında ayrı-ayrı ixtisaslar üzrə formalaşmış keçid ballarını nəzərə almaqla uğurlu seçim etmək imkanı qazanıblar.

Ötən il olduğu kimi, bu il də DİM-də apelyasiya komissiyası bir neçə mərhələdə fəaliyyət göstərmişdir. İlk olaraq, hər bir ixtisas qrupu üzrə imtahan keçirilən gündən sonra apelyasiyada (birinci imtahanda iştirak edənlər üçün I və IV qruplar üzrə 30-31 may və 3-5 iyun, II və III qruplar üzrə 10-11 iyun, ikinci imtahanda iştirak edənlər üçün I və IV qruplar üzrə 6 və 8 iyul, II və III qruplar üzrə 22-24 iyul) imtahanın gedişi və qəbul imtahanlarında ayrı-ayrı fənlər üzrə istifadə edilmiş test tapşırıqlarının məzmunu ilə əlaqədar müraciətlərə baxılmışdır. Apelyasiya komissiyasının tərkibində şöbə müdirləri və müəllimlərdən ibarət işçi qrup fəaliyyət göstərmiş, testlərlə bağlı suallara mütəxəssislər tərəfindən hərtərəfli izahat verilmişdir.

Hər ixtisas qrupu üzrə abituriyentlərin istəyinə daha çox uyğun olan, ərizələrdə daha çox birinci yerdə göstərilən ən nüfuzlu ixtisaslar müəyyən edilib

Hər bir ixtisas üzrə müsabiqə vəziyyəti təkcə həmin ixtisası seçən abituriyentlərin sayından deyil, həm də həmin ixtisas üçün ayrılmış plan yerlərinin miqdarından asılı olur. Bir qayda olaraq, abituriyentlərin sayının artması müsabiqə vəziyyətinin yüksəlməsinə, plan yerlərinin artması isə müsabiqə vəziyyətinin düşməsinə səbəb olur. Bu baxımdan müsabiqə vəziyyəti ixtisasın nüfuz səviyyəsini tam ifadə edə bilməz. Nəzərə alsaq ki, ərizədə birinci yerdə göstərilən ixtisas abituriyentin istəyinə ən çox uyğun olandır, deməli, ixtisasın nüfuzunu həmin ixtisasın abituriyent ərizələrində birinci yerdə göstərilməsinin sayı əsasında müəyyənləşdirmək daha düzgün olar. Bu qayda ilə hər qrupun ən nüfuzlu ixtisası müəyyənləşdirilmişdir. Məlum olmuşdur ki, bu il abituriyentlər Azərbaycan bölməsində I qrupda ən çox Bakı Dövlət Universitetinin "Riyaziyyat müəllimliyi", II qrupda Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə", III qrupda Azərbaycan Dillər Universitetinin "Xarici dil müəllimliyi (ingilis dili üzrə)", IV qrupda Azərbaycan Tibb Universitetinin "Müalicə işi", V qrupda Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının "Bədən tərbiyəsi və idman" ixtisaslarına üstünlük vermişlər (cədvəl 1.15). I ixtisas qrupundan başqa, digər ixtisas qruplarında rus bölməsi abituriyentlərinin seçimi Azərbaycan bölməsi ilə eyni olmuşdur (cədvəl 1.16). I ixtisas qrupunda rus bölməsinin abituriyentləri Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin "İnformasiya texnologiyaları" ixtisasına üstünlük veriblər. Azərbaycan bölməsində I ixtisas qrupunda "Riyaziyyat müəllimliyi" ixtisasına marağın artmasını Təhsil Nazirliyinin pedaqoji ixtisaslara göstərdiyi qayğı ilə əlaqələndirmək olar.

Cədvəl 1.15

ABİTURİYENT ƏRİZƏLƏRİNDƏ BİRİNCİ YERDƏ ƏN ÇOX GÖSTƏRİLMİŞ DÖVLƏT SİFARİŞLİ ƏYANİ ŞÖBƏ İXTİSASLARI

Azərbaycan bölməsi

İxtisas qrupu	İxtisasın adı	Birinci yerdə göstərmələrin	
		sayı	faizi (bu ixtisasa sənəd verən abituriyentlərin ümumi sayına nəzərən)
I	Riyaziyyat müəllimliyi (Bakı Dövlət Universiteti)	377	42.45
II	Maliyyə (Azərbaycan Dövlət İqtisad Universiteti)	319	36.21
III	Xarici dil müəllimliyi (ingilis dili üzrə, Azərbaycan Dillər Universiteti)	700	40.25
IV	Müalicə işi (Azərbaycan Tibb Universiteti)	773	94.04
V	Bədən tərbiyəsi və idman (Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası)	656	38.54

Cədvəl 1.16

ABİTURİYENT ƏRİZƏLƏRİNDƏ BİRİNCİ YERDƏ ƏN ÇOX GÖSTƏRİLMİŞ DÖVLƏT SİFARİŞLİ ƏYANİ ŞÖBƏ İXTİSASLARI

Rus bölməsi

İxtisas qrupu	İxtisasın adı	Birinci yerdə göstərmələrin	
		sayı	faizi (bu ixtisasa sənəd verən abituriyentlərin ümumi sayına nəzərən)
I	İnformasiya texnologiyaları (Azərbaycan Dövlət Neft və Sənaye Universiteti)	25	19.08
II	Maliyyə (Azərbaycan Dövlət İqtisad Universiteti)	38	33.93
III	Xarici dil müəllimliyi (ingilis dili üzrə, Azərbaycan Dillər Universiteti)	73	43.71
IV	Müalicə işi (Azərbaycan Tibb Universiteti)	39	82.98
V	Bədən tərbiyəsi və idman (Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası)	65	37.79

Oğlan abituriyentlər texniki və iqtisad, qız abituriyentlər isə humanitar ixtisaslara üstünlük veriblər

"Abituriyentin ərizəsi"ni dolduran gənc öz ərizəsində ixtisas qrupunu qeyd etməklə, əslində, özünün bu və ya digər yönümlü ixtisaslara istəyini, marağını ifadə etmiş olur. Bu amil nəzərə alınaraq ixtisas qrupları üzrə abituriyentlərin istəyini ifadə edən kəmiyyət göstəricisi hesablanıb. Bu zaman ixtisas seçimi aparan abituriyentlərin neçə faizinin həmin ixtisas qrupuna müraciət etməsi nəzərə alınıb. Hər bir abituriyentin istəyi nəzərə alınmaqla hesablanan belə göstərici əsasında ölkənin bütün abituriyentlərini təmsil edən ortastatistik abituriyentin (ayrılıqda oğlan və qız) ixtisas qruplarından hər birinə görə istəyi faizlə müəyyən edilib. 1.17 saylı cədvəldə hesablamanın nəticələri təqdim olunur (bu il hər bir abituriyent eyni zamanda həm V, həm I–IV qruplardan birinivə ya ikisini seçə bilmişdir, ona görə qruplar üzrə faizlərin cəmi 100-dən çox alınır).

Cədvəl 1.17

ORTASTATİSTİK OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ İSTƏKLƏRİNİN PAYLANMASI

№	OĞLAN ABİTURİYENT				QIZ ABİTURİYENT			
	Azərb. bölməsi		Rus bölməsi		Azərb. bölməsi		Rus bölməsi	
	Qrup	İstək, %-lə	Qrup	İstək, %-lə	Qrup	İstək, %-lə	Qrup	İstək, %-lə
1	I	49.94	I	52.57	III	46.32	III	37.94
2	II	26.26	II	28.24	I	28.01	I	25.01
3	III	17.96	V	13.01	II	13.00	II	19.37
4	V	13.55	III	12.45	IV	10.43	IV	13.69
5	IV	3.71	IV	5.00	V	7.11	V	12.80

Cədvəldən göründüyü kimi, oğlan və qızların ixtisas qruplarına münasibətləri fərqlidir. Əvvəlki illərdə olduğu kimi, bu il də hər iki bölmənin ortastatistik oğlan abituriyentinin istəyi ən çox "Riyaziyyat, fizika və mühəndislik" (I qrup) və "İqtisadiyyat və idarəetmə" (II qrup) ixtisaslarınadır. Azərbaycan bölməsində oğlanların 76.20%, rus bölməsində isə 80.81%-nin istəyi bu iki ixtisas qrupuna yönəlib. Bu rəqəmlər oğlan abituriyentlərin texniki, iqtisad və idarəetmə ixtisaslarına marağının nə dərəcədə yüksək olduğunu göstərir və qeyd etmək lazımdır ki, bu maraq ildən-ilə heç də zəifləmir. Bununla belə, qeyd etmək lazımdır ki, oğlanların I ixtisas qrupuna istəyi II qrupa nəzərən əhəmiyyətli dərəcədə yüksəkdir. Sual oluna bilər: nə üçün abituriyentlər texniki (I qrup) ixtisaslara, iqtisad və idarəetmə (II qrup) ixtisaslarına nisbətən daha çox maraq göstərdikləri halda, hər iki qrup üzrə DİM-in müəyyənləşdirdiyi minimal tələbləri ödəyərək müsabiqədə iştirak edən abituriyentlərin sayı bir-birinə yaxındır və hər iki qrupda, demək olar ki, bir-birinə yaxın keçid balları formalaşır? Bunun səbəblərindən biri I qrupun abituriyentlərinin birtərəfli hazırlığa malik olmasıdır. Statistik təhlil göstərir ki, I ixtisas qrupunun abituriyentləri, əsasən, bir və ya iki fənn üzrə yaxşı hazırlaşır, digər fənlərə isə səthi yanaşırlar. Digər səbəb isə bu qrupun 3 imtahan fənnindən 3-nün də çətin hesab olunan və abituriyentlərdən xüsusi təfəkkür, məntiqi düşüncə, fəza təsəvvürü bacarığı tələb edən dəqiq və təbiət fənləri ilə bağlı olmasıdır.

Ortastatistik qız abituriyentin humanitar ixtisaslardan ibarət III ixtisas qrupuna istəyi daha yüksəkdir. Azərbaycan bölməsində qız abituriyentlər, həmişə olduğu kimi, "İqtisadiyyat və idarəetmə" ixtisaslarına (II qrup) az maraq göstəriblər. Ancaq rus bölməsinin qız abituriyentlərinin II qrupa daxil olan ixtisaslara istəkləri nisbətən yüksəkdir. Bu, bir tərəfdən, iqtisadiyyat ixtisaslarına tələbatın, əsasən, şəhərlərdə olması və rus bölməsi abituriyentlərinin əksəriyyətinin böyük şəhərləri təmsil etməsi ilə əlaqədardırsa, digər tərəfdən respublikanın regionlarını təmsil edən qızların riyaziyyat fənni üzrə hazırlıqlarının zəif olması ilə bağlıdır. Belə ki, II qrupda riyaziyyat fənni yüksək çəki əmsalına malikdir.

IV ixtisas qrupunda qızların ixtisas maraqları (istəkləri) oğlanların maraqlarından 1.53-2.34 dəfə yüksəkdir. Onu da qeyd edək ki, IV qrup üzrə ixtisas seçimi mərhələsində iştirak edən qız abituriyentlərin sayı oğlanlardan 3.07 dəfə yüksək olub.

Ötən ildəkindən fərqli olaraq cari ildə də V ixtisas qrupuna həm oğlan, həm də qız abituriyentlərin maraqları zəifləyib. Bu daha çox ərizə qəbulu mərhələsi ilə əlaqədardır. Ötən iki ildə abituriyentlər qeydiyyatdan keçmədən V qrupu öz ərizələrində qeyd etmək imkanı əldə ediblər, cari ildə isə V qrupu öz ərizələrində yalnız qabiliyyət imtahanı üçün qeydiyyatdan keçən abituriyentlər seçə biliblər.

Bakı şəhərinin Qaradağ rayonu, Siyəzən, Salyan və Neftçala rayonlarının oğlan abituriyentləri ənənəvi olaraq yüksək faizlə I qrupun ixtisaslarını seçiblər

Respublikanın ayrı-ayrı bölgələrini təmsil edən oğlan və qız abituriyentlərin və subbakalavrların ixtisas qrupları üzrə istəklərinin paylanması müəyyənləşdirilib. Abituriyentləri və subbakalavrları bu və ya digər ixtisas qrupuna nisbətən daha çox meyil göstərilən bölgələr 1.18 saylı cədvəldə təqdim olunub.

Cədvəldən göründüyü kimi, Ağstafa, Neftçala, Salyan, Qusar, Siyəzən, Qazax, Qax, Şabran rayonlarında, eləcə də, Bakı şəhərinin Qaradağ, Suraxanı və Sabunçu rayonlarında və Xaçmaz rayonunda oğlanlar yüksək faizlə (uyğun olaraq, 74.04%, 71.29%, 71.28%, 70.16%, 68.98%, 66.88%, 66.28%, 65.98%, 75.00%, 67.71%, 64.04% və 69.70%) texniki ixtisaslar qrupunu seçiblər. Əvvəlki illərdəki qəbulun nəticələri də göstərir ki, bu bölgələrdə oğlanların texniki ixtisaslara maraqları yüksəkdir və bu, bir ənənəyə çevrilib. Buna səbəb həmin bölgələrdə dəqiq fənlərin, xüsusən riyaziyyat, fizika fənlərinin tədrisi səviyyəsinin yüksək olması, həmçinin texniki elmlərlə bağlılığı olan sənaye müəssisələrinin mövcudluğudur. Şübhəsiz, müəllimin nüfuzu, yüksək təhsili və pedaqoji bacarığı da şagirdlər arasında fənnin daha dərindən öyrənilməsini şərtləndirir. İxtisas seçərkən isə gənclər ən yaxşı bildikləri fənnin daha çox əhəmiyyət kəsb etdiyi ixtisas qrupuna üstünlük verirlər.

Bu il Kəngərli, Lerik, Şuşa, Saatlı rayonlarında qızlar humanitar ixtisaslara daha çox üstünlük veriblər.

Cədvəl 1.18

RESPUBLİKANIN BÖLGƏLƏRİNİ TƏMSİL EDƏN OĞLAN VƏ QIZLARIN İXTİSAS QRUPLARI ÜZRƏ İSTƏKLƏRİNİN PAYLANMASI

İxtisas qrupu	AZƏRBAYCAN BÖLMƏSİ		RUS BÖLMƏSİ	
	Oğlan abituriyent	Qız abituriyent	Oğlan abituriyent	Qız abituriyent
I	Ağstafa rayonu (74.04), Neftçala rayonu (71.29), Salyan rayonu (71.28), Qusar rayonu (70.16), Siyəzən rayonu (68.98), Qazax rayonu (66.88), Qax rayonu (66.28), Şabran rayonu (65.98)	Siyəzən rayonu (49.16), Ucar rayonu (44.75), Salyan rayonu (41.93), Qax rayonu (40.60), Qusar rayonu (40.08), Ağstafa rayonu (38.96), Kürdəmir rayonu (37.27), Balakən rayonu (36.88), Ağdaş rayonu (36.19)	Bakı ş. Qaradağ rayonu (75.00), Xaçmaz rayonu (69.70), Bakı ş. Suraxanı rayonu (67.71), Bakı ş. Sabunçu rayonu (64.04), Bakı ş. Xətai rayonu (61.79), Sumqayıt şəhəri (60.95), Bakı ş. Nizami rayonu (57.67), Qusar rayonu (57.14)	Bakı ş. Suraxanı rayonu (38.52), Qusar rayonu (33.33), Xaçmaz rayonu (32.97), Bakı ş. Sabunçu rayonu (29.71), Sumqayıt şəhəri (29.10), Bakı ş. Xətai rayonu (28.74), Bakı ş. Nərimanov rayonu (25.54)
II	Naxçıvan şəhəri (45.91), Babək rayonu (42.96), Ordubad rayonu (42.50), Şərur rayonu (40.91), Zərdab rayonu (39.51), İmişli rayonu (39.22)	Bakı ş. Yasamal rayonu (27.66), Bakı ş. Səbayel rayonu (25.88), Zaqatala rayonu (24.79), Bakı ş. Nərimanov rayonu (24.77), Bakı ş. Nəsimi rayonu (23.98), Bakı ş. Xətai rayonu (23.90)	Bakı ş. Nərimanov rayonu (38.97), Bakı ş. Nəsimi rayonu (37.94), Bakı ş. Yasamal rayonu (36.04), Bakı ş. Səbayel rayonu (32.38), Bakı ş. Binəqədi rayonu (30.91)	Bakı ş. Yasamal rayonu (29.34), Bakı ş. Xətai rayonu (27.53), Bakı ş. Səbayel rayonu (25.81), Bakı ş. Binəqədi rayonu (25.10), Bakı ş. Nəsimi rayonu (24.45)
III	Yardımlı rayonu (32.14), Saatlı rayonu (31.33), Şərur rayonu (30.52), Lerik rayonu (30.43), Şamaxı rayonu (30.18), Kəlbəcər rayonu (29.00)	Kəngərli rayonu (62.04), Lerik rayonu (60.54), Şuşa rayonu (60.15), Saatlı rayonu (58.22), Culfa rayonu (56.94), Cəlilabad rayonu (56.24), Şamaxı rayonu (56.01), İmişli rayonu (55.62)	Abşeron rayonu (21.25), Gəncə şəhəri (17.51), Bakı ş. Nizami rayonu (16.93), Xaçmaz rayonu (16.67), Bakı ş. Binəqədi rayonu (15.91), Bakı ş. Nərimanov rayonu (14.87), Bakı ş. Suraxanı rayonu (13.54), Sumqayıt şəhəri (11.43)	Abşeron rayonu (43.82), Bakı ş. Nizami rayonu (41.44), Xaçmaz rayonu (40.66), Bakı ş. Sabunçu rayonu (38.86), Bakı ş. Binəqədi rayonu (38.82), Bakı ş. Xəzər rayonu (38.57), Sumqayıt şəhəri (36.57), Bakı ş. Nəsimi rayonu (35.77)
IV	Babək rayonu (11.11), Culfa rayonu (7.59), Tovuz rayonu (7.52), Saatlı rayonu (7.28), Masallı rayonu (7.25), Bərdə rayonu (6.52), Lənkəran rayonu (6.48)	Naxçıvan şəhəri (23.13), Ağcabədi rayonu (19.20), Şəmkir rayonu (16.46), Göygöl rayonu (15.20), Samux rayonu (15.14), Tərtər rayonu (14.44), Qəbələ rayonu (14.41), Tovuz rayonu (14.36), Qax rayonu (14.10)	Qusar rayonu (12.86), Bakı ş. Sabunçu rayonu (8.77), Gəncə şəhəri (8.29), Abşeron rayonu (7.50), Bakı ş. Suraxanı rayonu (7.29), Bakı ş. Səbayel rayonu (6.19), Bakı ş. Nərimanov rayonu (5.13), Bakı ş. Nəsimi rayonu (4.96), Bakı ş. Yasamal rayonu (4.50)	Gəncə şəhəri (22.32), Qusar rayonu (16.67), Bakı ş. Xəzər rayonu (15.71), Bakı ş. Nərimanov rayonu (13.85), Bakı ş. Binəqədi rayonu (12.94), Bakı ş. Yasamal rayonu (12.93), Bakı ş. Səbayel rayonu (12.90)
V	Naxçıvan şəhəri (20.75), Gəncə şəhəri (20.45), Göygöl rayonu (19.03), Tərtər rayonu (18.15), Bakı ş. Binəqədi rayonu (18.08), Qazax rayonu (17.67), Bakı ş. Nəsimi rayonu (17.52), Bakı ş. Səbayel rayonu (17.47)	Gəncə şəhəri (14.25), Samux rayonu (12.84), Göygöl rayonu (12.16), Naxçıvan şəhəri (12.13), Bakı ş. Nərimanov rayonu (10.56), Bakı ş. Nəsimi rayonu (10.54), Bakı ş. Yasamal rayonu (10.46), Bakı ş. Səbayel rayonu (10.24)	Abşeron rayonu (17.50), Bakı ş. Xətai rayonu (16.67), Bakı ş. Sabunçu rayonu (15.79), Bakı ş. Yasamal rayonu (15.62), Bakı ş. Binəqədi rayonu (14.09), Bakı ş. Suraxanı rayonu (13.54), Sumqayıt şəhəri (13.33), Gəncə şəhəri (12.90), Bakı ş. Nərimanov rayonu (12.82), Bakı ş. Nizami rayonu (12.70)	Bakı ş. Səbayel rayonu (18.43), Bakı ş. Yasamal rayonu (17.67), Sumqayıt şəhəri (14.93), Gəncə şəhəri (14.59), Bakı ş. Xətai rayonu (13.77), Bakı ş. Sabunçu rayonu (13.14), Bakı ş. Suraxanı rayonu (13.11)

Qeyd: Seçmədə qəbul kampaniyasında iştirak etmək üçün müraciət edənlərin sayı Azərbaycan bölməsində 100-dən, rus bölməsində isə 50-dən az olmayan bölgələr iştirak edir.

I–IV ixtisas qrupları üzrə qəbul imtahanlarında abituriyentlərin 40.2%-i 200-dən az bal toplamışdır

I–IV ixtisas qrupları üzrə qəbul imtahanlarında iştirak edən və qəbul olan abituriyentlərin bal göstəriciləri aşağıdakı diaqramlarda (bax: şəkil 1.13 və 1.14) təsvir edilib. Qəbulda toplanılması mümkün olan maksimal bal 700-dür. 0-700 bal diapazonunu şərti olaraq (0-200), (200-300), (300-500), (500-700) intervallarına bölərək, ənənəvi "2","3","4","5" qiymətləri ilə analogiyasını yaratsaq, görərik ki, bu il abituriyentlərin 40.2 faizi imtahandan "2", 20.4%-i "3", 28.3%-i "4", 11.1%-i isə "5" qiymət alıb (bax: şəkil 1.13). Ötən il bu göstəricilər, uyğun olaraq, 46.4%, 18.4%, 23.6%, 11.7% olmuşdur. Göründüyü kimi, bu il "2" qiymət alanların faizi nisbətən azalmış, "3" və "4" qiymət alanların faizi artmış, "5" qiymət alanların faizi isə nisbətən azalmışdır. Təbii ki, qəbul imtahanlarında iştirak edən abituriyentlərin topladıqları balların paylanması strukturunda və qəbul planında baş verən dəyişikliklər qəbul olan abituriyentlərin ballarının paylanmasında da öz əksini tapmışdır. Qəbul olanların topladıqları balların paylanma diaqramından (şəkil 1.14) görünür ki, onların 25.4%-ni "3", 49.5%-ni "4", 19.2%-ni isə "5" qiymət alanlar təşkil edib. Ötən il bu göstəricilər, uyğun olaraq 29.7%, 42.7%, 21.0% olub.

V ixtisas qrupu üzrə ərizə verib qəbul imtahanında (cari ilin məzunları üçün tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında) iştirak edən və qəbul olan abituriyentlərin bal göstəriciləri isə aşağıdakı diaqramlarda (bax: şəkil 1.15 və 1.16) təsvir edilib. Bu imtahanlarda toplanılması mümkün olan maksimal bal 300-dür. Şəkil 1.15-dən göründüyü kimi, qəbul (buraxılış) imtahanlarında iştirak edən abituriyentlərin 62.16%-nin topladığı bal 100-dən aşağıdır. Qəbul olan abituriyentlər arasında 60-dan az bal toplayan yoxdur (şəkil 1.16). Qəbul imtahanlarında iştirak edənlərin çoxunun (62.16%) imtahan nəticəsi 100 və daha aşağı bal intervallarında yerləşdiyi halda, qəbul olan abituriyentlərin nəticəsi əsasən 100 və daha yuxarı bal intervallarında olub (57.76%).

Təəssüflə qeyd etmək lazımdır ki, bu il Ağsu, Göygöl, Samux, Sabirabad, Kürdəmir, Saatlı, Ucar, Şabran, Goranboy, Astara, Ağdaş, Daşkəsən və Şamaxı rayonlarının cari il məzunlarını təmsil edən abituriyentlərin 20%-dən çoxunun qəbul imtahanlarında topladığı bal 100-dən aşağı olmuşdur.

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(I–IV qruplar üzrə)



Şəkil 1.13

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(I–IV qruplar üzrə)



Şəkil 1.14

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(V qrup üzrə)



Şəkil 1.15

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(V qrup üzrə)



Şəkil 1.16

Məlum olduğu kimi cari ildə abituriyentlər qəbul imtahanının II mərhələsində iki dəfə iştirak etmək imkanı əldə etmişlər. Eyni ixtisas qrupu üzrə hər iki imtahanda iştirak edən abituriyentlərin imtahan nəticələri təhlil olunarkən (1.1 saylı qrafikə bax) belə məlum olub ki, abituriyentlərin ikinci imtahandakı nəticələri birinci imtahandakı nəticələrindən nisbətən yaxşı olub və bu imtahanların hər ikisində iştirak edən abituriyentlərin nəticələri arasındakı fərqin orta qiyməti 12.4 bala bərabər olub. Abituriyentlərin təxminən 76-77%-nin bu iki imtahanda əldə etdikləri nəticələri arasındakı fərq 50 baldan, 98-99%-nin isə 100 baldan aşağı olub. Qeyd edək ki, nəticələr arasındakı korrelyasiya əmsalı 0.94-ə bərabər olub. Aşağıdakı qrafikdə hər iki imtahanda iştirak edən abituriyentlərin topladıqları balların fərqlərinin paylanması təqdim olunub:

HƏR İKİ İMTAHANDA (EYNİ QRUP ÜZRƏ) İŞTİRAK EDƏN EYNİ ABİTURİYENTLƏRİN İKİNCİ İMTAHANDA TOPLADIQLARI BALLARLA BİRİNCİ İMTAHANDA TOPLADIQLARI BALLARIN FƏRQİNİN PAYLANMASI



Qrafik 1.1

Məlum olduğu kimi, "Abituriyentin ərizəsi" formasına ayrı-ayrı fənlər üzrə attestat qiymətləri də daxil edilir. Ərizədə qeyd olunan qiymətlər əsasında abituriyentlərin orta attestat qiymətləri hesablanaraq, onların qəbul imtahanlarında topladıqları ballarla müqayisəsi aparılmışdır. Aşağıda attestat qiymətlərinə görə müxtəlif səviyyədə yerləşən cari ilin məzunlarının qəbul imtahanlarında topladıqları balların paylanma cədvəli təqdim edilir (bax: səh. 47, cədvəl 1.19). Bu cədvələ əsaslanaraq, attestatda bütün qiymətləri "5" olan abituriyentlərlə bütün qiymətləri "3" olan abituriyentlərin imtahan ballarını müqayisə edək. Tam orta məktəbi bütün fənlərdən "3" qiymətlə başa vuran məzunların 96.67%-nin qəbul imtahanlarındakı nəticələri də çox zəif – 0–200 bal intervalında olub. "5" qiymətlə bitirən məzunların isə yalnız 37.06%-i attestat qiymətlərini doğrulda bilib. Bu da məktəblərdə verilən aşağı qiymətlərin obyektiv olduğunu, yüksək qiymətlərin isə nisbətən şişirdildiyini göstərir.

Əlbəttə, obyektiv qiymətləndirilmə aparılarsa, təhsilin bir pilləsində əldə olunmuş nailiyyətlər digər pilləyə keçiddə nəzərə alınmalıdır. İndiki halda isə ali təhsil müəssisələrinə qəbul zamanı attestat qiymətləri nəzərə alınaraq bunun əsasında abituriyentin nəticəsinə hər hansı bal əlavə edilərsə, əla qiymətlərini doğrultmayan "əlaçılar" öz biliyi hesabına bal toplayanları sıxışdırıb onları ali təhsil müəssisələrinə qəbulda üstələyə bilərlər. Digər tərəfdən, bu cür addımın subyektivliyə bir qədər də yol açmayacağına zəmanət vermək çətindir. Odur ki, biz məktəb və qəbul göstəriciləri arasında yüksək korrelyasiya (r>0.9) olmayanadək attestat qiymətlərinin qəbulda əlavə bal kimi nəzərə alınmasının tərəfdarı deyilik.

Qiymətləndirmə ilə bağlı qeyd olunan problem digər amillərlə yanaşı, həm də tam orta təhsil standartlarının yerlərdə eyni qaydada tətbiq edilməməsindən irəli gəlir. Qiymət meyarlarının məktəblərdə bir-birindən ciddi fərqlənməsi nəticəsində eyni hazırlıqlı şagirdin biliyi bir məktəbdə (rayonda) "əla", digər məktəbdə (rayonda) "kafi" qiymətləndirilir. Dövlət İmtahan Mərkəzi ümumtəhsil müəssisələrində qiymətləndirmənin vahid standartlar əsasında aparılması işinə kömək məqsədilə məktəb proqramlarına uyğun olaraq şagirdlərin biliyinin yoxlanılması və qiymətləndirilməsi üçün fənlər üzrə test kitabları nəşr edib. Kitablar Təhsil Nazirliyi tərəfindən dərs vəsaiti kimi təsdiq edilib. Onlarda qiymətləndirmənin 5 və 9 ballıq sistemdə standartları da təqdim olunub ki, hər bir məktəb bunun əsasında öz şagirdlərinin biliyini vahid qiymətləndirmə sistemi ilə ölçmək imkanı əldə etsin.

Cədvəl 1.19

ATTESTAT QİYMƏTLƏRİ VƏ QƏBUL İMTAHANLARINDA TOPLADIQLARI BALLAR ÜZRƏ ABİTURİYENTLƏRİN PAYLANMASI

SEÇMƏLƏR		CƏMİ	BAL İNTERVALLARI				
			0-100	100-200	200-300	300-500	500-700
İmtahan iştirakçıları	sayı	66623	10726	16066	13616	18836	7379
	faizi	100.0	16.10	24.11	20.44	28.27	11.08
İmtahan iştirakçıları (2019-cu ilin məzunları)	sayı	57892	8232	12730	11810	17854	7266
	faizi	100.0	14.22	21.99	20.40	30.84	12.55
2019-cu ilin məzunları (əlaçılar)	sayı	11195	124	806	1532	4584	4149
	faizi	100.0	1.11	7.20	13.68	40.95	37.06
2019-cu ilin məzunları (orta attestat balı 4.5-5 intervalında yerləşənlər, 4.5 daxil olmaqla)	sayı	17845	660	2808	4073	7765	2539
	faizi	100.0	3.70	15.74	22.82	43.51	14.23
2019-cu ilin məzunları (orta attestat balı 4-4.5 intervalında yerləşənlər, 4 daxil olmaqla)	sayı	16147	2159	4905	4211	4348	524
	faizi	100.0	13.37	30.38	26.08	26.93	3.25
2019-cu ilin məzunları (orta attestat balı 3.5-4 intervalında yerləşənlər)	sayı	6976	1991	2529	1467	940	49
	faizi	100.0	28.54	36.25	21.03	13.47	0.70
2019-cu ilin məzunları (orta attestat balı 3-3.5 intervalında yerləşənlər, 3.5 daxil olmaqla)	sayı	4531	2333	1495	490	210	3
	faizi	100.0	51.49	32.99	10.81	4.63	0.07
2019-cu ilin məzunları (orta attestat balı "3" olanlar)	sayı	1142	929	175	31	6	1
	faizi	100.0	81.35	15.32	2.71	0.53	0.09

Fənlər üzrə məktəb qiymətləri ilə qəbul imtahanlarında toplanılan balların müqayisəsi üçün abituriyentlərin hər bir fənn üzrə topladıqları balların məktəb qiymətləri ilə korrelyasiyası da araşdırılıb. Məlum olub ki, ümumtəhsil müəssisələrində nisbətən obyektiv qiymətləndirmə ana dili, riyaziyyat və kimya

fənləri üzrə aparılır. Bu fənlər üzrə korrelyasiya əmsalı 0.50-0.55 intervalındadır. 2014-cü ildə xarici dil üzrə korrelyasiya əmsalı 0.42-yə bərabər olub. Amma son beş ildə buraxılış imtahanı fənləri siyahısına xarici dil fənni də daxil edildikdən sonra bu göstərici 0.49-a yüksəlib. Ədəbiyyat, tarix, fizika, biologiya və coğrafiya fənləri üzrə korrelyasiya əmsalları 0.37-0.47 intervalındadır.

2014, 2015, 2016, 2017, 2018 VƏ 2019-CU İLLƏRDƏ QƏBUL İMTAHANLARINDA TOPLADIQLARI BALLAR ÜZRƏ ABİTURİYENTLƏRİN PAYLANMASININ MÜQAYİSƏSİ (BÜTÜN MƏZUNLAR NƏZƏRƏ ALINMAQLA)



Şəkil 1.17

Məlum olduğu kimi, 2015-ci ildən V qrup və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul cari ilin məzunları üçün buraxılış imtahanlarının nəticələri əsasında həyata keçirilib. Ona görə də V qrup ixtisaslarına və ya orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər I–IV qruplar üzrə imtahanlarda iştirak etməyiblər. Nəticədə, 2014-cü illə müqayisədə 2015, 2016 və 2017-ci illərdə I–IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən cari il məzunlarının respublika üzrə bütün məzunların sayındakı payı 65.67%-dən müvafiq olaraq 58.71, 59.16 və 63.34%-dək azalmış, 2018 və 2019-cu illərdə isə əksinə olaraq bu pay müvafiq olaraq, 67.33 və 72.41 faizə qədər artmışdır. Ötən illər ərzində xüsusi qabiliyyət tələb edən ixtisaslara (V qrup) və orta ixtisas təhsili müəssisələrinə qəbul olanların əksəriyyətinin qəbul imtahanında 0–100 və 100–200 intervalında bal toplayanlardan ibarət olduqlarını nəzərə alsaq, deyə bilərik ki, 2014-cü illə müqayisədə 2015, 2016, 2017, 2018 və 2019-cu illərdə qəbul imtahanı ballarının paylanma spektrinə daxil olan orta və yüksək bal intervallarında (200–300, 300–500, 500–700) heç bir əhəmiyyətli dəyişiklik baş verməməlidir. Doğrudan da 1.17 saylı şəkildən göründüyü kimi, ciddi dəyişiklik yalnız 0–100 intervalında bal toplayanların nisbi sayındadır. Düzdür 200–300, 300–500 və 500–700 intervallarında bal toplayanların mütləq saylarını təhlil etdikdə görürük ki, 2015, 2016, 2017, 2018 və 2019-cu illərdə bu intervallarda nəticə göstərənlərin sayı 2014-cü illə müqayisədə qismən artıb (2014-cü ildə bu intervallar üzrə nəticə göstərən abituriyentlərin sayı, müvafiq olaraq, 9509, 12863 və 5440-a, 2015-ci ildə 9702, 13182 və 6153-ə, 2016-cı ildə 9713, 13589 və 6501-ə, 2017-ci ildə 9256, 14088 və 6865-ə, 2018-ci ildə 10036, 15049 və 8062-yə, 2019-cu ildə isə 11810, 17854 və 7266-ya bərabər olub).

2017, 2018 və 2019-cu illərdəki artımın əsas səbəbi abituriyentlərin iki dəfə imtahanda iştirakı üçün imkan yaradılması (2019-cu ildə imtahanın II mərhələsində) və yuxarıda verilən diaqramda abituriyentlərin bu iki imtahan əldə etdikləri iki nəticədən ən yüksəyinin nəzərə alınmasıdır. Əgər yay imtahanında (yay imtahanın iştirak etməyənlər üçün yaz imtahanında) əldə olunan nəticələri ötən illərlə müqayisə etsək, fərqin çox cüzi olduğunu görərik. Bildiyimiz kimi, cari ilə kimi abituriyentlərin yalnız bir dəfə qəbul imtahanında iştirak etmək imkanı olmuşdur, ona görə də bu cür müqayisə daha ədalətli olardı. Bu nəticələri təhlil edərkən belə məlum olur ki, abituriyentlərin 11.32%-i 0-100, 16.19%-i 100-200, 14.55%-i 200-300, 21.64%-i 300-500 və 8.70%-i 500-700 bal intervallarında nəticə göstərib. Göründüyü kimi, ötən illərlə müqayisədə 200-300, 300-500 və 500-700 bal intervallarında əhəmiyyətli dəyişiklik olmayıb.

Bundan əlavə, hər bir fənn üzrə attestat qiyməti "kafi" və "əla" olan abituriyentlərin qəbul imtahanlarında müvafiq fəndən topladıqları nisbi balların bal intervalları üzrə paylanma histoqramları təhlil edilib. Məlum olub ki, fənlər üzrə attestat qiymətləri "3" olan abituriyentlərin əksəriyyəti qəbul imtahanlarında da analoji nəticə göstəriblər. Belə ki, bu abituriyentlərin ayrı-ayrı fənlər üzrə 74–98%-i 0–40 intervalında nisbi bal toplamışdır. Deməli, yuxarıda da qeyd etdiyimiz kimi, ümumi təhsil məktəblərində verilən aşağı qiymətlər müəyyən edilmiş vahid standartlara xeyli dərəcədə uyğundur. Ancaq, təəssüf ki, "əla" ilə qiymətləndirmədə bunun əksini görürük (bax: cədvəl 1.20). Bu, özünü fizika (I, IV qruplar), kimya (I, IV qruplar) və riyaziyyat (I, II qruplar) fənləri üzrə qiymətləndirmədə daha qabarıq göstərir. Fizika fənnindən əlaçı abituriyentlərin 29.89%-nin, kimya fənnindən 23.68%-nin və riyaziyyat fənnindən 18.39%-nin uyğun fənlər üzrə qəbul imtahanının II mərhələsində topladıqları nisbi balları 20-dən az olmuşdur. Əlaçı abituriyentlərin 80-100 bal intervalındakı nəticələrinə nəzər saldıqda görürük ki, bu abituriyentlərin fizika fənni üzrə yalnız 9.27%-i, kimya fənni üzrə 17.18%-i və riyaziyyat fənni üzrə isə 13.56%-i 80–100 bal intervalında nəticə göstərərək özlərinin attestat qiymətlərini doğruldublar. Belə zəif nəticə göstərənlərin sayının çox olması bu fənlərin aşağı səviyyədə tədris olunması və qiymətləndirmədə standartlara əməl edilməməsi ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, burada təhlil olunan göstəricilər qiymətləndirmənin respublika üzrə vəziyyətini ifadə edir. Lakin hər bir bölgənin fərqli göstəriciləri də ola bilər. Biz, sadəcə, bu sahədə problemlərin olduğunu və onun təhlil edilərək aydınlaşdırıla bilinməsi imkanlarını göstərdik. Bu baxımdan, hər bir bölgə müvafiq qaydada nəticələrini təhlil edib mövcud problemlərini üzə çıxara və onların həll olunması üçün tədbirlər görə bilər. Bölgələrdə bu işin, hətta müəllimlər səviyyəsində də təhlil edilməsi mümkündür.

Cədvəl 1.20

FƏNLƏR ÜZRƏ ATTESTAT QİYMƏTLƏRİ "ƏLA" OLAN ABİTURİYENTLƏRİN NİSBİ BAL İNTERVALLARINA GÖRƏ PAYLANMASI (2019-CU İLİN MƏZUNLARI)

FƏNN		CƏMİ	BAL İNTERVALLARI				
			0 – 20	20 – 40	40 – 60	60 – 80	80 – 100
I mərhələ üzrə							
Ana dili	sayı	32155	450	3100	7847	12696	8062
	faizi	100.00	1.40	9.64	24.40	39.48	25.07
Riyaziyyat	sayı	24681	2376	5397	6367	5819	4722
	faizi	100.00	9.63	21.87	25.80	23.58	19.13
Xarici dil	sayı	28807	2832	6896	7214	5858	6007
	faizi	100.00	9.83	23.94	25.04	20.34	20.85
II mərhələ üzrə							
Ana dili (III qrup)	sayı	11761	763	1864	2679	3074	3381
	faizi	100.00	6.49	15.85	22.78	26.14	28.75
Ədəbiyyat (III qrup)	sayı	12239	1212	1801	3061	3673	2492
	faizi	100.00	9.90	14.72	25.01	30.01	20.36
Riyaziyyat (I, II qruplar)	sayı	14761	2714	3545	3579	2922	2001
	faizi	100.00	18.39	24.02	24.25	19.80	13.56
Tarix* (II, III qruplar)	sayı	17356	2618	3320	4411	4264	2743
	faizi	100.00	15.08	19.13	25.41	24.57	15.80
Fizika (I, IV qruplar)	sayı	13984	4180	3758	2689	2060	1297
	faizi	100.00	29.89	26.87	19.23	14.73	9.27
Kimya (I, IV qruplar)	sayı	13869	3284	3106	2695	2401	2383
	faizi	100.00	23.68	22.40	19.43	17.31	17.18
Biologiya (IV qrup)	sayı	3507	317	694	920	838	738
	faizi	100.00	9.04	19.79	26.23	23.90	21.04
Coğrafiya (II qrup)	sayı	7901	965	1674	1925	1871	1466
	faizi	100.00	12.21	21.19	24.36	23.68	18.55

* Qeyd: tarix fənnindən göstəricilər Azərbaycan tarixi və ümumi tarix fənlərinin hər ikisindən "əla" qiymət alan abituriyentlərin göstəriciləri əsasında müəyyənləşmişdir.

Abituriyentlərin ballarının paylanma histoqramlarında assimmetriya mövcuddur
Ortastatistik abituriyentə nəzərən zəif nəticə göstərənlər sayca üstünlük təşkil edir

Qəbul imtahanlarının nəticələri əsasında Azərbaycan və rus bölmələri üzrə ayrılıqda abituriyentlərin topladıqları balların I–IV və V ixtisas qrupları üzrə paylanması müəyyənləşdirilib. Onlar cədvəl şəklində tərtib olunub (1.21, 1.22, 1.23 və 1.24 saylı cədvəllərə bax) və histoqramları (1.2, 1.3, 1.4, 1.5 saylı qrafiklərə bax) qurulub.

Qrafiklərdə Azərbaycan və rus bölmələri üzrə ayrılıqda abituriyentlərin I–IV və V ixtisas qrupları üzrə topladıqları balların paylanma histoqramları və ədədi xarakteristikaları: riyazi gözləmə (orta qiymət) – M, abituriyentlərin seçməsini iki bərabər hissəyə ayıran bal (mediana) – Me, abituriyentlərin ballarının paylanmasında rast gəlmə ehtimalı ən yüksək olan bal (moda) təqdim edilib. Təhlil göstərir ki, I–IV ixtisas qruplarında hər iki bölmə üzrə abituriyentlərin ballarının paylanma histoqramları sağtərəfli asimmetriyaya malikdir. Bu o deməkdir ki, abituriyentlərin tam seçimində orta nəticə göstərən (Azərbaycan bölməsində 270.33, rus bölməsində 274.77 bal) abituriyentlərə nəzərən zəif nəticə göstərənlər sayca üstünlük təşkil edir. Bununla belə, Azərbaycan və rus bölmələri abituriyentlərinin histoqramlarında fərqli cəhətlər mövcuddur. Bunlar aşağıdakılardır:

1. Azərbaycan bölməsi ilə müqayisədə rus bölməsində abituriyentlərin ballarının paylanma histoqramlarında asimmetriya zəifdir. Azərbaycan və rus bölmələri abituriyentlərinin orta bal göstəriciləri arasındakı fərq ötən ilə nəzərən 25.12-dən 4.44-ə qədər azalmışdır. Azərbaycan bölməsində abituriyentlərin 59.43, rus bölməsində isə 63.47%-i 200-dən çox bal toplamışdır. Digər tərəfdən, imtahanda iştirak edənlərin yarısının Azərbaycan bölməsində 245.44, rus bölməsində isə 253.60 baldan zəif nəticə göstərməsi, hər iki bölmədə abituriyentlərin hazırlığının günün tələbləri (dövlət tədris proqramları və təhsil standartları) səviyyəsində olmadığını təsdiqləyir.

2. Abituriyentlərin topladıqları balların ortastatistik* abituriyentin topladığı bala (seçmənin riyazi gözləmə qiymətinə) nəzərən səpələnməsi (paylanmanın dəyişkənliyi) ortakvadratik meyillə xarakterizə edilir. Ortakvadratik meyilin qiymətləri bölmələr üzrə test imtahanlarında toplanılan balların paylanmasının ədədi xarakteristikaları cədvəllərində göstərilib. Azərbaycan bölməsi üzrə bu göstərici 161.17, rus bölməsi üzrə 148.85 bala bərabərdir. Əslində, Azərbaycan və rus bölmələri üzrə toplanılan balların riyazi gözləmə (orta) qiymətləri bir-birindən fərqli olduğundan onların ortakvadratik meyillərini bilavasitə müqayisə etmək düzgün deyil. Müqayisə ortakvadratik meyillərin riyazi gözləmə (orta) qiymətlərinə nəzərən faizləri (variasiya əmsalı) əsasında aparılmalıdır. Belə müqayisə isə göstərir ki, Azərbaycan bölməsində abituriyentlərin topladıqları balların səpələnmə göstəricisi riyazi ortanın 59.62%-ni təşkil etdiyi halda, rus bölməsində 54.17%-ni təşkil edir. Azərbaycan bölməsində ortastatistik abituriyentin topladığı bala (riyazi ortaya) nəzərən səpələnmənin yüksək olması bu bölmənin qəbul imtahanlarında iştirak edən abituriyentlərinin bilikləri arasında daha ciddi qütbləşmənin mövcud olduğunu göstərir. Rus bölməsi abituriyentlərinin bilikləri arasında qütbləşmənin nisbətən zəif olmasına, zənnimizcə, Azərbaycan dili fənni üzrə keçirilən imtahanda zəif hazırlıqlı abituriyentlərin kənarlaşdırılması da öz təsirini göstərir. Xatırladırıq ki, rus bölməsində "Azərbaycan dili" imtahanı artıq on birinci ildir ki, əsas imtahanlardan əvvəl keçirilir və bu imtahandan "qeyri-məqbul" alanlar əsas imtahanlara buraxılmırlar.

V ixtisas qrupu üzrə abituriyentlərin tam seçməsində orta bal ətrafında nəticə göstərən (Azərbaycan bölməsində 96.80, rus bölməsində 115.48 bal) abituriyentlərə nəzərən zəif nəticə göstərən abituriyentlər sayca üstünlük təşkil edirlər. Azərbaycan və rus bölmələri abituriyentlərinin histoqramlarında bəzi fərqli cəhətlər mövcuddur. Belə ki, Azərbaycan bölməsi ilə müqayisədə rus bölməsi abituriyentlərinin ballarının paylanma histoqramlarında orta nəticə göstərən abituriyentlər daha çox üstünlük təşkil edir. İmtahanda iştirak edənlərin yarısı Azərbaycan bölməsində 88.72, rus bölməsində isə 106.51 baldan aşağı nəticə göstərib. Onu da qeyd edək ki, rus bölməsində heç bir abituriyent 40 baldan aşağı nəticə göstərməyib. Azərbaycan bölməsi üzrə ortakvadratik meyil 32.94, rus bölməsi üzrə 41.43 bala bərabərdir. Ortakvadratik meyillərin riyazi gözləmə (orta) qiymətlərinə nəzərən faizləri (variasiya əmsalı) əsasında müqayisə göstərir ki, Azərbaycan bölməsində abituriyentlərin topladıqları balların səpələnmə göstəricisi riyazi ortanın 34.03%-ni təşkil etdiyi halda, rus bölməsində yalnız 35.88%-ni təşkil edir. Göründüyü kimi, ortastatistik abituriyentin topladığı bala (riyazi ortaya) nəzərən səpələnmə bir-birinə yaxın və demək olar ki, eyni səviyyədədir.

Qəbul imtahanlarının nəticələri əsasında ixtisas qrupları üzrə də abituriyentlərin topladıqları balların paylanması müəyyənləşdirilib. Onlara uyğun olan statistik sıralar jurnalın əlavələr hissəsində təqdim olunub (cədvəllər 6.10-6.19, bax: səh. 441-445).

* Burada ortastatistik abituriyent dedikdə, I-IV ixtisas qrupları üzrə qəbul imtahanlarında iştirak edən abituriyentlərin bu imtahanda nümayiş etdirdikləri bilik və bacarıq baxımından ümumiləşdirilmiş obrazı nəzərdə tutulur.

Bölmə: Azərbaycan (I–IV qruplar)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə:	270.33	Minimal bal :	0
Ortakvadratik meyil:	161.17	Maksimal bal :	694.6
Moda :	90	Abituriyentlərin sayı :	61140
Mediana :	245.44		

Cədvəl 1.21

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	2	0.00	0.00	220 - 240	2520	4.12	48.88	460 - 480	1313	2.15	86.65
0 - 20	59	0.10	0.10	240 - 260	2520	4.12	53.00	480 - 500	1308	2.14	88.79
20 - 40	939	1.54	1.64	260 - 280	2385	3.90	56.90	500 - 520	1178	1.93	90.72
40 - 60	2560	4.19	5.82	280 - 300	2329	3.81	60.71	520 - 540	1129	1.85	92.57
60 - 80	3215	5.26	11.08	300 - 320	2303	3.77	64.48	540 - 560	1060	1.73	94.30
80 - 100	3308	5.41	16.49	320 - 340	2049	3.35	67.83	560 - 580	866	1.42	95.72
100 - 120	3183	5.21	21.70	340 - 360	1928	3.15	70.98	580 - 600	808	1.32	97.04
120 - 140	2941	4.81	26.51	360 - 380	1893	3.10	74.08	600 - 620	692	1.13	98.17
140 - 160	2973	4.86	31.37	380 - 400	1693	2.77	76.85	620 - 640	554	0.91	99.08
160 - 180	2897	4.74	36.11	400 - 420	1658	2.71	79.56	640 - 660	344	0.56	99.64
180 - 200	2727	4.46	40.57	420 - 440	1517	2.48	82.04	660 - 680	177	0.29	99.93
200 - 220	2560	4.19	44.76	440 - 460	1508	2.47	84.51	680 - 700	44	0.07	100.00

Qrafik 1.2



Bölmə: Rus (I–IV qruplar)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə :	274.77	Minimal bal :	19.7
Ortakvadratik meyil :	148.85	Maksimal bal :	678.7
Moda :	190	Abituriyentlərin sayı :	5483
Mediana :	253.60		

Cədvəl 1.22

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	0	0.00	0.00	220 - 240	290	5.29	46.76	460 - 480	123	2.24	88.84
0 - 20	2	0.04	0.04	240 - 260	261	4.76	51.52	480 - 500	94	1.71	90.55
20 - 40	40	0.73	0.77	260 - 280	248	4.52	56.05	500 - 520	88	1.60	92.16
40 - 60	144	2.63	3.39	280 - 300	234	4.27	60.31	520 - 540	85	1.55	93.71
60 - 80	225	4.10	7.50	300 - 320	232	4.23	64.54	540 - 560	83	1.51	95.22
80 - 100	247	4.50	12.00	320 - 340	233	4.25	68.79	560 - 580	74	1.35	96.57
100 - 120	249	4.54	16.54	340 - 360	199	3.63	72.42	580 - 600	66	1.20	97.77
120 - 140	274	5.00	21.54	360 - 380	168	3.06	75.49	600 - 620	60	1.09	98.87
140 - 160	261	4.76	26.30	380 - 400	170	3.10	78.59	620 - 640	32	0.58	99.45
160 - 180	269	4.91	31.21	400 - 420	160	2.92	81.51	640 - 660	17	0.31	99.76
180 - 200	292	5.33	36.53	420 - 440	154	2.81	84.32	660 - 680	13	0.24	100.00
200 - 220	271	4.94	41.47	440 - 460	125	2.28	86.59	680 - 700	0	0.00	100.00

Qrafik 1.3



Bölmə: Azərbaycan (V qrup)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları			
Riyazi gözləmə :	96.80	Minimal bal :	16.7
Ortakvadratik meyil :	32.94	Maksimal bal :	282.3
Moda :	75	Abituriyentlərin sayı :	6892
Mediana :	88.72		

Cədvəl 1.23

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tez-liklərin cəmi, %-lə
0 - 0	0	0.00	0.00	100 - 110	665	9.65	73.93	210 - 220	21	0.30	99.19
0 - 10	0	0.00	0.00	110 - 120	475	6.89	80.82	220 - 230	17	0.25	99.43
10 - 20	1	0.01	0.01	120 - 130	384	5.57	86.39	230 - 240	18	0.26	99.70
20 - 30	12	0.17	0.19	130 - 140	256	3.71	90.10	240 - 250	12	0.17	99.87
30 - 40	31	0.45	0.64	140 - 150	180	2.61	92.72	250 - 260	3	0.04	99.91
40 - 50	33	0.48	1.12	150 - 160	138	2.00	94.72	260 - 270	4	0.06	99.97
50 - 60	53	0.77	1.89	160 - 170	96	1.39	96.11	270 - 280	1	0.01	99.99
60 - 70	1180	17.12	19.01	170 - 180	71	1.03	97.14	280 - 290	1	0.01	100.00
70 - 80	1219	17.69	36.69	180 - 190	48	0.70	97.84	290 - 300	0	0.00	100.00
80 - 90	1052	15.26	51.96	190 - 200	46	0.67	98.51				
90 - 100	849	12.32	64.28	200 - 210	26	0.38	98.88				

Qrafik 1.4



Bölmə: Rus (V qrup)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları			
Riyazi gözləmə :	115.48	Minimal bal :	40.4
Ortakvadratik meyil :	41.43	Maksimal bal :	263.1
Moda :	85	Abituriyentlərin sayı :	781
Mediana :	106.51		

Cədvəl 1.24

Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tezliklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tezliklərin cəmi, %-lə	Bal intervalları	Abitur. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tezliklərin cəmi, %-lə
0 - 0	0	0.00	0.00	100 - 110	73	9.35	53.27	210 - 220	9	1.15	97.95
0 - 10	0	0.00	0.00	110 - 120	69	8.83	62.10	220 - 230	3	0.38	98.34
10 - 20	0	0.00	0.00	120 - 130	62	7.94	70.04	230 - 240	10	1.28	99.62
20 - 30	0	0.00	0.00	130 - 140	41	5.25	75.29	240 - 250	2	0.26	99.87
30 - 40	0	0.00	0.00	140 - 150	42	5.38	80.67	250 - 260	0	0.00	99.87
40 - 50	1	0.13	0.13	150 - 160	36	4.61	85.28	260 - 270	1	0.13	100.00
50 - 60	1	0.13	0.26	160 - 170	27	3.46	88.73	270 - 280	0	0.00	100.00
60 - 70	79	10.12	10.37	170 - 180	18	2.30	91.04	280 - 290	0	0.00	100.00
70 - 80	88	11.27	21.64	180 - 190	11	1.41	92.45	290 - 300	0	0.00	100.00
80 - 90	89	11.40	33.03	190 - 200	19	2.43	94.88				
90 - 100	85	10.88	43.92	200 - 210	15	1.92	96.80				

Qrafik 1.5



Məlum olduğu kimi 2019-cu ildə ilk dəfə olaraq, orta ixtisas təhsili pilləsi üzrə "subbakalavr" peşə-ixtisas dərəcəsi almış şəxslər (subbakalavrlar) qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq hüququna malik olmuşlar. Onlar yalnız orta ixtisas təhsili səviyyəsində təhsil aldıqları tədris dilinə və bitirdikləri ixtisasa uyğun olan ixtisasları seçə biliblər. Subbakalavrlar xarici dil fənni üzrə əlavə tələblər qoyulan ixtisasları seçə bilməyiblər və qəbul imtahanında iştirak edərək müsabiqə şərtlərini ödəyən abituriyentlərin müsabiqəsi başa çatdıqdan sonra subbakalavrların müsabiqəsi aparılmışdır. Bununla yanaşı subbakalavrlara abituriyent kimi qəbul imtahanında iştirak etmək imkanı da yaradılmışdır. Qəbul imtahanında iştirak etmiş subbakalavrlar isə öz istəklərindən asılı olaraq, həm imtahanda topladığı bal ilə ümumi qaydada, həm də qəbul imtahanlarında iştirak etmədən orta ixtisas təhsili səviyyəsində bitirdiyi ixtisasa uyğun ali təhsil pilləsinin ixtisasları üzrə keçirilən müsabiqədə iştirak edə bilmişlər.

Qəbul imtahanında iştirak edən subbakalavrların bütövlükdə və imtahanın ayrı-ayrı mərhələləri üzrə topladıqlar balların paylanmaları 1.6, 1.7 və 1.8 saylı qrafiklərdə göstərilmişdir. Qrafiklərdən də göründüyü kimi subbakalavrların imtahan nəticələri zəif olmuş və histoqramlar sağtərəfli assimmetriyaya malik olmuşlar.

İmtahanın I mərhələsində iştirak edən 1097 subbakalavrların topladıqları balların riyazi gözləməsi 76.06-ya bərabər olmuş və onların yarısı 73 baldan az bal toplamışdır. V ixtisas qrupuna müsabiqənin imtahanın I mərhələsinin nəticələri əsasında aparıldığını və bu mərhələdə ən azı 60 bal toplayanların müsabiqəyə buraxıldığını nəzərə alsaq, imtahanda iştirak edən subbakalavrların 35.37%-i (388 nəfər) müsabiqə şərtini ödəməmişdir.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏN SUBBAKALAVRLARIN TOPLADIQLARI BALLARIN PAYLANMASI



Qrafik 1.6

1.7 saylı qrafikdə subbakalavrların imtahanın II mərhələsində topladıqları balların paylanması təqdim olunmuşdur. Göründüyü kimi, subbakalavrların yarısı mümkün olan 400 baldan heç 41-ni toplaya bilməmiş və riyazi gözləmə 48.82-yə bərabər olmuşdur. I-IV ixtisas qruplara aid olan ixtisasların müsabiqəsində iştirak etmək üçün qoyulan minimal tələbi (imtahanın II mərhələsində ən azı 100 bal toplayanlar müsabiqəyə buraxılıblar) bu mərhələdə abituriyent kimi iştirak edən subbakalavrların cəmi 10.64%-i (86 nəfər) ödəmiş, qalan 89.36%-i isə 100-dən az bal toplayaraq minimal tələbi ödəyə bilməmişdir.

1.8 saylı qrafikdə də qəbul imtahanının hər iki mərhələsində iştirak edən subbakalavrların topladıqları balların paylanması təqdim olunmuşdur. Onu da qeyd edək ki, subbakalavrların ali təhsil müəssisələrinə qəbulu üçün müsabiqə onların diplom balları əsasında aparılmışdır. Apardığımız araşdırma göstərir ki, qəbul imtahanının I mərhələsində iştirak edən subbakalavrların diplom balları ilə onların imtahanda topladıqları ballar arasında heç bir stoxastik əlaqə yoxdur və korrelyasiya əmsalının qiyməti 0.15-ə bərabərdir. Bu isə diplom ballarının obyektiv olmadığını və subbakalavrların ali təhsil müəssisələrinə onların hazırlıq səviyyələrinə görə deyil, təsadüfi qaydada aparılmasını göstərir.

Subbakalavrların I-IV ixtisas qrupları üzrə əldə etdikləri imtahan nəticələrini tam seçməylə (imtahanda iştirak edən abituriyentlər və subbakalavrlar birlikdə) müqayisə etdikdə, subbakalavrların nəticələrinin həddindən artıq zəif olduğunun şahidi oluruq. I-IV ixtisas qrupları üzrə imtahanda abituriyent kimi iştirak edən subbakalavrların topladıqlar balların riyazi gözləməsi 76.06 bal olduğu halda, tam seçmədə bu göstərici 3.56 dəfə böyük olub (270.70 bal). Onu da qeyd edək ki, imtahanda iştirak edən subbakalavrların yarısı 72.70 baldan aşağı nəticə göstərib, tam seçmə üzrə bu göstrici isə 246.21-ə bərabər olub. Subbakalavrların ixtisas seçimində iştirak etdiyini nəzərə alsaq, onların göstəricilərini ixtisas seçimində iştirak edən abituriyentlərlə müqayisə etmək daha ədalətli olardı və burada biz müqayisənin subbakalavrlar üçün daha acınacaqlı olduğunu görürük. Belə ki, ixtisas seçimində iştirak edən abituriyentlərin qəbul imtahanında topladıqları balların riyazi gözləməsi (353.80) imtahanda iştirak edən subbakalavrların analoji göstəricisindən 4.65 dəfə böyükdür.

Bütün bu qeyd olunanlar onu göstərir ki, imtahan vermədən ali təhsil müəssisələrinə qəbul olmaq imkanı əldə etmiş subbakalavrların hazırlıq səviyyələri imtahanın nəticələri əsasında ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin hazırlıq səviyyələrindən çox aşağıdır. Bu isə öz növbəsində ali təhsil müəssisələrində tədris zamanı müəyyən problemlərin ortaya çıxmasına səbəb ola bilər. Fikrimizcə, ali təhsil müəssisələrində subbakalavr kimi qəbul olanlar üçün xüsusi tədris planı hazırlanmalıdır və onların mütəxəssis kimi hazırlığı bu tədris planı çərçivəsində, onlarla daha intensiv məşğul olmaqla həyata keçirilməlidir.

QƏBUL İMTAHANININ II MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏN SUBBAKALAVRLARIN TOPLADIQLARI BALLARIN PAYLANMASI



Qrafik 1.7

QƏBUL İMTAHANININ HƏR İKİ MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏN SUBBAKALAVRLARIN ÜMUMİLİKDƏ TOPLADIQLARI BALLARIN PAYLANMASI



Qrafik 1.8

Müasir dünyada inkişaf və iqtisadi yüksəliş üçün ən zəruri amillərdən biri ölkələrdə keyfiyyətli təlim-tədrisi təmin edən effektiv təhsil sistemlərinin qurulmasıdır. Təhsil sistemlərində səmərəliliyi təmin edən həlledici amillərdən biri isə işlək qiymətləndirmə sisteminin yaradılması və onun təkmilləşdirilərək inkişaf etdirilməsidir.

Bu baxımdan, klassik test nəzəriyyəsi əsasında qəbul imtahanlarında istifadə edilən testlərin etibarlılığı hesablanmışdır. Məlum olmuşdur ki, fənlər üzrə testlərin etibarlılıq əmsalının Küder-Riçardson (KR-20) və Split-Half metodları vasitəsilə hesablanmış qiymətləri 0.79-0.98 hüdudlarında yerləşir. Etibarlılıq əmsalının aşağı həddi kimi, adətən, 0.70 qiyməti qəbul edildiyindən, əminliklə təsdiq etmək olar ki, bu il qəbul imtahanlarında bütün fənlər üzrə kifayət qədər etibarlı testlərdən istifadə edilmişdir. Qeyd etmək lazımdır ki, testoloji praktikada testlərin etibarlılığı, bir qayda olaraq, 0.8-0.9 intervalında dəyişir.

İxtisas qrupuna aid olan fənlərin çəki əmsalları və fənlər üzrə testlərin etibarlılıq əmsalları nəzərə alınmaqla bütövlükdə hər bir qrupun testinin etibarlılıq əmsalı Mosye (Mosier) düsturu əsasında hesablanmışdır. Bütün ixtisas qrupları üzrə ayrı-ayrılıqda aparılmış hesablamalar nəticəsində məlum olmuşdur ki, qrup testlərinin etibarlılıq əmsalları 0.95-0.98 intervalında yerləşir. Rəqəmlər göstərir ki, bu il qəbul imtahanlarında fənlər üzrə istifadə edilən testlərin kompozisiyası əsasında tərtib edilmiş qrup testləri də yüksək etibarlılıq keyfiyyətinə malik olmuşdur.

Qəbul imtahanlarına hazırlıqda sınaq imtahanlarının xüsusi yeri vardır. Bu imtahanlarda abituriyent imtahan texnologiyası ilə tanış olur, qəbul imtahanında istifadə ediləcək test modeli və imtahan meyarları əsasında öz bilik səviyyəsini qiymətləndirmək imkanı əldə edir. Abituriyentin sınaq imtahanlarında əldə etdiyi nəticələrlə qəbul imtahanındakı nəticələri arasındakı stoxastik əlaqələri müəyyən etmək məqsədilə onların müvafiq imtahan göstəriciləri (ümumi balları və fənlər üzrə nisbi balları) arasında korrelyasiya əmsalları hesablanıb və təhlil edilib. 1.25 saylı cədvəldə abituriyentlərin ən yüksək bal topladıqları sınaq və qəbul imtahanı nəticələri arasında korrelyasiya əmsallarının hesablanmış qiymətləri ixtisas qrupları üzrə təqdim edilib.

Cədvəldən göründüyü kimi, bütün ixtisas qruplarında abituriyentlərin sınaq və qəbul imtahanlarının nəticələri arasında sıx stoxastik əlaqə mövcuddur. Bu əlaqələr həm imtahan fənləri üzrə toplanılan nisbi ballar, həm də ümumi ballar arasında özünü büruzə verir.

Ən yüksək stoxastik əlaqə IV ixtisas qrupunu təmsil edən abituriyentlərin nəticələrində özünü göstərir. Bu qrupda abituriyentlərin sınaq və qəbul imtahanlarındakı ümumi balları arasındakı xətti əlaqənin sıxlıq səviyyəsi çox yüksəkdir və korrelyasiya əmsalı 0.91-ə bərabərdir. Qeyd etmək lazımdır ki, korrelyasiya əmsalı vahidə yaxınlaşdıqca stoxastik əlaqə funksional əlaqəyə yaxınlaşır.

IV ixtisas qrupunda abituriyentlərin ayrı-ayrı imtahan fənlərindən sınaq və qəbul imtahanlarında topladıqları nisbi ballar arasındakı xətti əlaqələrin sıxlığını ifadə edən korrelyasiya əmsalları 0.805-dən (biologiya fənni üzrə) 0.850-yə (kimya fənni üzrə) qədər dəyişir. Göründüyü kimi, fənlər üzrə korrelyasiya əmsalının variasiyası kiçikdir.

Fənlər üzrə nisbətən zəif stoxastik əlaqə II ixtisas qrupunda müşahidə olunur. Burada korrelyasiya əmsalının ən kiçik qiyməti tarix (0.736), ən böyük qiyməti isə coğrafiya fənnində (0.789) müşahidə olunur.

Sınaq və qəbul imtahanlarında abituriyentlərin topladıqları ümumi ballar arasında mövcud olan belə sıx stoxastik əlaqələr imtahanlarda istifadə edilən test modellərinin yüksək etibarlılığa malik olduğunu nümayiş etdirir.

Cədvəl 1.25

SINAQ VƏ QƏBUL (II MƏRHƏLƏ) İMTAHANLARININ NƏTİCƏLƏRİ ARASINDA KORRELYASİYA ƏMSALLARI

№	İXTİSAS QRUPU	Ümumi bal	İMTAHAN FƏNLƏRİ							
			Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	0.897			0.824	0.810	0.828			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	0.874			0.780				0.736	0.789
III	Humanitar, pedaqogika ixtisasları	0.882	0.809	0.756					0.774	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	0.910				0.824	0.850	0.805		

Bu gün gənclərimizin aldıqları təhsilin məzmunu XXI əsrin tələblərinə cavab verməlidir. İnformasiya cəmiyyətinin formalaşdığı müasir dövrdə təhsil müəssisəsi (məktəb və ya universitet) gənclərə düşünməyi, zəruri informasiyanı müstəqil şəkildə əldə etməyi, informasiya bolluğu şəraitində düzgün istiqamət götürməyi, analitik və yaradıcı şəkildə düşünə bilməyi öyrətməlidir. Əlbəttə, bütün bu amillər qəbul imtahanlarının məzmununa da öz tələblərini verir.

DİM hər bir imtahan layihəsini tərtib edərkən, ilk növbədə onun məqsədini müəyyən edir: kimi seçirik?

Tələbə qəbulunda qarşıya qoyulan əsas məqsəd seçdiyi ixtisas üzrə ali təhsil müəssisələrində təhsilalma qabiliyyətinə malik olan abituriyentlərin seçilməsidir. Bu vəzifənin həyata keçirilməsi üçün istifadə edilən test tapşırıqları valid, yəni düzgün seçimetmə keyfiyyətinə malik olmalıdır. Bununla əlaqədar, DİM biliyin qiymətləndirilməsi üzrə beynəlxalq təcrübəyə əsaslanmaqla ardıcıl olaraq test tapşırıqlarının həm məzmununda, həm tərtibində, həm də təqdimat formalarında təkmilləşdirmə işləri aparır. Belə işlərdən biri də son illər qəbul imtahanlarında ayrı-ayrı fənlər üzrə testlərdə nəzəri biliklərin bilavasitə tətbiqinə aid test tapşırıqlarının sayının artırılmasıdır. Nəticədə, qeyri-standart düşüncə və yaradıcılıq tələb edən məsələlər artdıqca abituriyentlərin bir hissəsinin topladığı bal ötən illərlə müqayisədə azalmış, lakin bununla belə, yüksək bal diapazonunda (500–700 bal) biliyin qiymətləndirilməsi və onun əsasında abituriyentlərin sıralanması daha dəqiq aparılmışdır. Bu dəyişiklik qəbul imtahanına hazırlaşarkən əzbərçiliyə üstünlük verən abituriyentlərin imtahan nəticələrinə öz təsirini göstərmişdir. Belə abituriyentlər, adətən, məktəb kursunda öyrənilən fiziki, kimyəvi və bioloji proseslərin, riyazi çevirmələrin məğzini anlamağa cəhd etmir, təbiət hadisələrinin səbəb-nəticə əlaqələrini izah etməkdə çətinlik çəkirlər. Bu gün tələbə adı qazananların, xüsusilə də 500 – 700 arasında bal toplayan gənclərin nəticələrinin təhlili belə qənaətə gəlməyə əsas verir ki, DİM ali təhsil müəssisələrinin I kursları üçün bilik və bacarıqları ali təhsil almağa imkan verən tələbə kontingenti seçmişdir.

Öz gələcəyini düşünən hər bir cəmiyyət var gücünü ona yönəldir ki, bütün təbəqələrdən olan insanların təhsil almaq imkanları maksimal dərəcədə bərabərləşsin. Təhsil sistemi gənclərə şəxsi uğur əldə etməyə, öz bacarıq və səyləri əsasında cəmiyyətdə layiqli yer tutmağa bərabər şanslar verməlidir. Qəbul imtahanlarının nəticələri bir daha təsdiq edir ki, bunun üçün ölkəmizdə real sosial lift qurulub və bu mexanizm uğurla fəaliyyət göstərməkdədir.

DİM 1992–2010-cu illərdə keçirilən qəbul imtahanlarında abituriyentlərə yalnız qapalı tipli test tapşırıqları təqdim edirdi. 2011-ci ildə ilk dəfə olaraq ali təhsil müəssisələrinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə keçirilən qəbul imtahanlarında riyaziyyat fənni üzrə test blokuna qapalı tipli test tapşırıqları ilə yanaşı, 5 açıq tipli test tapşırığı da daxil edilmişdi. Beləliklə, bütün ixtisas qruplarında riyaziyyat fənnindən təqdim edilən testlərin tərkibində 20 test tapşırığı qapalı, 5 test tapşırığı isə açıq tipli olmuşdu. Açıq tipli test tapşırıqlarının mürəkkəblik dərəcəsi orta və çətin idi. 2012–2014-cü illərdə açıq tipli test tapşırıqlarının daxil olduğu fənlər I ixtisas qrupu üzrə fizika və riyaziyyat, II qrup üzrə coğrafiya və riyaziyyat, III qrup üzrə tarix və riyaziyyat, IV qrup üzrə isə kimya və riyaziyyat fənləri olmuşdur. Sadaladığımız fənlərdən təqdim edilən testlərin tərkibində 20 test tapşırığı qapalı, 5 test tapşırığı isə açıq tipli olmuşdur. 2015-ci ildən 2018-ci ilədək bütün ixtisas qruplarında açıq tipli test tapşırıqlarının daxil olduğu fənlərin sayı artırılmışdır. Həmin fənlər bunlardır: I ixtisas qrupu üzrə kimya, II və III qruplar üzrə ana dili, IV qrup üzrə isə biologiya fənni. Açıq tipli test tapşırıqlarının təqdim olunduğu üç fənnin hər birinin test blokunda 21 test tapşırığı qapalı, 4 test tapşırığı isə açıq tipli olmuşdur.

Məlum olduğu kimi 2019-cu ildə ilk dəfə qəbul imtahanı iki mərhələdə keçirilib. Bununla yanaşı, ilk dəfə olaraq imtahanın hər iki mərhələsində abituriyentlərə yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqları da təqdim olunub. Bu cür test tapşırıqları bizə abituriyentlərin bacarıq və vərdişlərinin qiymətləndirilməsi üçün geniş imkanlar yaradır. Belə ki, bu tapşırıqları vasitəsilə abituriyentlərin məktəbdə əldə etdikləri bilikləri real həyatda, praktikada istifadə etmək bacarıqları öyrənilir və qiymətləndirilir. Nəzəri biliklərin real situasiyada tətbiqi kimi vərdişlər gələcək mütəxəssislər üçün ən vacib keyfiyyətlərdən sayılır. Bu məqsədlə abituriyentlərə yazılı şəkildə cavablandırılması üçün I mərhələdə ana dili fənni üzrə 10, riyaziyyat fənni üzrə 7, xarici dil fənni üzrə 7, ümumilikdə 24, II mərhələdə isə hər bir imtahan fənni üzrə 3, ümumilikdə 9 test tapşırığı təqdim olunmuşdur. Bu tip tapşırıqlar 0, 1 və 2 balla qiymətləndirilmişdir. Lakin təəssüflə qeyd etmək lazımdır ki, bu tip tapşırıqlara hətta qapalı test tapşırıqları üzrə yüksək nəticə göstərən abituriyentlərin də bir çoxu zəif cavab verib. Məsələn, I qrupda riyaziyyat fənnindən 22 qapalı tapşırığın ən azı 18-nə (təxminən 81.8%-nə) düzgün cavab verən abituriyentlərin 27.81%-i yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar üzrə toplanıla biləcək maksimal balın yalnız üçdə birinə qədərini toplaya bilib, 14.58%-i isə ümumiyyətlə bu tip test tapşırıqlarının heç birini düzgün cavablandıra bilməyib.

Qeyd etmək lazımdır ki, yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar abituriyentlərin qiymətləndirilməsində geniş imkanlar açdığı kimi, bu tapşırıqların yoxlanılması və qiymətləndirilməsi də çox böyük resurs tələb edir. Qiymətləndirmənin keyfiyyətli və obyektiv aparılması xeyli vaxt və maliyyə tələb edir. Əgər bu tapşırıqların yoxlama prosesini sürətləndirməyə çalışsaq, o zaman yoxlamanın keyfiyyəti aşağı düşər və obyektiv qiymətləndirmədə problemlər yaranar. Nəzərinizə çatdıraq ki, bu tip açıq tapşırıqlar əvvəlcədən təlim keçmiş və seçilmiş markerlər tərəfindən yoxlanılır. Yoxlama prosesi elə qurulmuşdur ki, insan faktoru qiymətləndirməyə heç bir təsir göstərməsin. Bunu apelyasiyada yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar üzrə şikayətlərin az olması da təsdiq edir. Apelyasiyaya müraciət etmiş 772 abituriyentdən (imtahanda iştirak edənlərin 1.16%-i) 130-nun iddiası təmin edilmiş və 137 yazı işinin qiymətlərində müvafiq düzəlişlər edilmişdir. Bundan əlavə fizika fənni üzrə bir tapşırığın qiymətləndirmə meyarında dəyişiklik edilmiş – 1 bal 2 balla əvəz olunmuş və cavabı bu meyara uyğun olan 370 abituriyentin nəticəsində bu dəyişiklik öz əksini tapmışdır. Digər iddialarla bağlı isə, abituriyentlərə tapşırıqların yerinə yetirilməsində yol verdikləri səhvləri ekspertlər tərəfindən izah edilmişdir.

Qəbul imtahanının II mərhələsində abituriyentlərə hər bir imtahan fənni üzrə 22 qapalı, 8 açıq tipli tapşırıq təqdim olunub. Açıq tipli tapşırıqların 5-i cavabları kodlaşdırılan, 3-ü isə yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqlar olub. Qapalı və açıq tipli tapşırıqlar arasındakı xətti əlaqəni ifadə edən korrelyasiya əmsalı ixtisas qrupları və imtahan fənləri üzrə müxtəlifdir. II mərhələdə qapalı və açıq tipli test tapşırıqları arasındakı korrelyasiya əmsalının qiyməti I qrupda riyaziyyatdan 0.79, fizikadan 0.79, kimyadan 0.81, II qrupda riyaziyyatdan 0.78, tarixdən 0.74, coğrafiyadan 0.75, III qrupda Azərbaycan dilindən 0.76, ədəbiyyatdan 0.79, tarixdən 0.76, IV qrupda fizikadan 0.83, kimyadan 0.84, biologiyadan 0.68 olub.

Açıq tipli test tapşırıqlarına, əsasən, qapalı tipli test tapşırıqları üzrə orta və yüksək bal toplayan abituriyentlər cavab vermişlər. Belə abituriyentlərin müxtəlif fənlərdən qapalı tipli test tapşırıqları üzrə düzgün cavabvermə faizi 40-dan yüksək olub. Onlar I ixtisas qrupunda riyaziyyat, fizika və kimya fənləri üzrə, müvafiq olaraq, seçmənin 43.68, 39.47 və 41.14%-ni, II ixtisas qrupunda riyaziyyat, tarix və coğrafiya fənləri üzrə 51.21, 54.39 və 70.68%-ni, III ixtisas qrupunda Azərbaycan dili, ədəbiyyat və tarix fənləri üzrə 72.21, 68.17 və 62.94%-ni, IV ixtisas qrupunda isə fizika, kimya və biologiya fənləri üzrə 57.59, 64.11 və 79.04%-ni təşkil edib.

Təqdim edilən rəqəmlərdən görünür ki, açıq tipli test tapşırıqları, ilk növbədə orta və yüksəkhazırlıqlı abituriyentləri bir-birindən fərqləndirməyə xidmət edib. Məsələn, II ixtisas qrupunda qapalı tipli tapşırıqların ən azı 40%-ni düzgün cavablandıran abituriyentlərin riyaziyyat fənnindən cavabları kodlaşdırılan açıq tipli test tapşırıqlarına verdikləri düzgün cavabların sayına görə paylanmasına nəzər yetirək: onların 23.12%-i açıq tipli test tapşırıqlarının 1-nə, 22.14%-i 2-nə, 17.91%-i 3-nə, 11.49%-i 4-nə, 6.34%-i 5-nə düzgün cavab verib, qalan 19.00%-i isə heç birinə düzgün cavab verə bilməyib. Bu seçmənin yazılı şəkildə cavablandırılması tələb olunan test tapşırıqarı üzrə topladıqları balların sayına görə paylanmasına nəzər yetirdikdə isə bir az fərqli mənzərə ilə qarşılaşırıq: həmin abituriyentlərin 9.22%-i bu tip tapşırıqlar üzrə 1, 24.90%-i 2, 8.01%-i 3, 10.22%-i 4, 3.20%-i 5, 4.82%-i 6 bal toplaya bilib və qalan 39.62%-i isə ümumiyyətlə bal toplaya bilməyib. İdeal halda abituriyentlərin diferensiasiyası üçün açıq tipli test tapşırıqları orta və yüksək hazırlıqlı abituriyentlər seçməsinin səviyyəsinə tam uyğun olsaydı, onları cavabları kodlaşdırılan açıq tipli test taprşırıqları üzrə sayca 6 bərabər hissəyə (altseçməyə), yazılı şəkildə cavablandırılması tələb olunan test tapşırıqları üzər isə 7 bərabər hissəyə bölərdi. Reallıqda açıq tipli test tapşırıqları vasitəsilə tam seçmə, orta və yüksəkhazırlıqlı abituriyentlər seçməsində alınan paylanmaların ideal paylanma ilə müqayisəsi göstərir ki, orta və yüksəkhazırlıqlı abituriyentlər seçməsində alınan paylanma ideala daha yaxındır. Deməli, açıq tipli test tapşırıqları, həqiqətən, orta və yüksəkhazırlıqlı abituriyentləri bir-birindən daha dəqiq fərqləndirməyə imkan vermişdir.

Ortastatistik abituriyent fənlər üzrə məktəb proqramının yalnız 32-55 faizini mənimsəyir

Ali təhsil müəssisələrinə imtahan vermiş abituriyentlərin Azərbaycan və rus bölmələri üzrə ayrılıqda ortastatistik portreti müəyyənləşdirilib. Belə ki, Azərbaycan bölməsində ortastatistik abituriyent I mərhələdə ana dili fənnindən test tapşırıqlarının 52.30, riyaziyyatdan 36.03, ingilis dilindən 38.17%-nə, II mərhələdə ana dilindən 54.26, ədəbiyyatdan 50.80, riyaziyyatdan 33.35, fizikadan 32.01, kimyadan 35.20, biologiyadan 55.33, tarixdən 43.28, coğrafiyadan 47.16%-inə düzgün cavab verib[*].

Rus bölməsində ortastatistik abituriyent isə I mərhələdə ana dili fənnindən test tapşırıqlarının 48.93, riyaziyyatdan 36.08, ingilis dilindən 54.48%-nə, II mərhələdə ana dilindən 54.70, ədəbiyyatdan 46.34, riyaziyyatdan 34.35, fizikadan 32.41, kimyadan 36.32, biologiyadan 48.70, tarixdən 34.91, coğrafiyadan 42.94%-inə düzgün cavablandırıb. Abituriyentlərin cavab göstəricilərindən aydın olur ki, hər iki bölmədə ortastatistik abituriyent fənlər üzrə testlərin yalnız 32-55 faizinə düzgün cavab verib. Test tapşırıqlarının məktəb proqramını tam əhatə etdiyini və qəbul imtahanında iştirak edənlərin məktəbin seçilən şagirdləri olduğunu nəzərə alsaq, belə qənaətə gəlmək olar ki, ortastatistik məzun məktəb proqramının 45–68%-ni mənimsəmir. Bu isə ümumi təhsil müəssisələrimizin böyük qismində tədris prosesinin normal aparılmamasından, tələbkarlığın zəifliyindən, ən başlıcası isə müəllimlərin çoxunun peşəkarlıq səviyyəsinin aşağı olmasından və tədris prosesində yeni təlim üsulları və texnologiyalarından istifadə edə bilməməsindən irəli gəlir. Odur ki, bu sahədə həyata keçirilməsi vacib olan digər tədbirlərlə yanaşı, müəllimlərin müasir elmi əsaslarla ixtisasının artırılması, ali təhsil müəssisələrində pedaqoji kadrların hazırlanması səviyyəsinin yüksəldilməsi və gələcək müəllimlərə lazımi pedaqoji-metodiki bilik və bacarıqların aşılanması məsələləri diqqət mərkəzində olmalıdır.

Qeyd olunanlarla yanaşı, abituriyentləri yüksək nəticələr qazanan qabaqcıl rayonların, məktəblərin, eləcə də öz yüksək nəticələri ilə fərqlənən müəllimlərin qabaqcıl təcrübəsi öyrənilməli və yayılmalıdır. Bunlar haqqında bir qədər sonra daha geniş məlumat veriləcəkdir.

Abituriyentlərin imtahan fənlərinə cavablarının ortastatistik göstəriciləri qruplar üzrə aşağıdakı cədvəllərdə təqdim olunur.

[*] Hər hansı bir seçmə (bölmə və ixtisas qrupları) üzrə ortastatistik abituriyentin ixtiyari fəndən düzgün cavablarının faizi dedikdə, həmin seçməyə daxil olan abituriyentlərin fənn üzrə düzgün cavablarının sayının orta qiymətinin test tapşırıqlarının ümumi sayına nəzərən faizi başa düşülür.

Cədvəl 1.26

AZƏRBAYCAN BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	46.90	38.34	34.24			31.63	30.05	32.93			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	52.46	39.31	40.11			36.30				39.49	46.94
III	Humanitar, pedaqogika ixtisasları	57.06	29.36	40.33	54.18	50.72					45.51	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	64.92	52.16	48.32				42.58	47.58	54.81		
V	İncəsənət, musiqi, idman ixtisasları	43.05	23.65	28.15								

Cədvəl 1.27

RUS BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	45.57	40.71	52.05			34.47	31.07	34.61			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	48.59	36.81	56.41			33.79				32.27	42.74
III	Humanitar, pedaqogika ixtisasları	51.47	26.60	54.87	54.55	46.22					37.07	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	57.57	46.60	60.24				37.33	42.80	48.20		
V	İncəsənət, musiqi, idman ixtisasları	42.91	26.01	46.51								

Test ölçü alətidir. Onun elmi baxımdan düzgün istifadə edilməsi və alınmış nəticələrin düzgün şərhi (interpretasiyası) çox əhəmiyyətlidir. Bu səbəbdən testin tərtib və istifadə edilməsinin bütün mərhələləri testologiyanın tələblərinə uyğun həyata keçirilməlidir.

Müasir test nəzəriyyəsi müəyyən qabiliyyətə malik olan sınaq iştirakçısının test tapşırığına düzgün cavabvermə ehtimalını bir (test tapşırığının çətinlik səviyyəsi), iki (test tapşırığının çətinlik və diskriminasiya

səviyyəsi) və üçparametrli (test tapşırığının çətinlik, diskriminasiya və cavabı təsadüfi şəkildə tapma səviyyəsi) logistik funksiyalarla ifadə olunan riyazi modellər əsasında qiymətləndirir.

Son illər DİM test tapşırıqları bankının parametrləndirilməsi üzrə bir sıra tədbirlər həyata keçirir: test tapşırıqlarının sınaqdan keçirilməsi və sonradan nəticələrinin emalı – test tapşırıqlarının kalibrlənməsi aparılır. Test tapşırıqlarının parametrləndirilməsi iki model – Rasch və ikiparametrli logistik model əsasında həyata keçirilir. Rasch modelində bütün test tapşırıqları eyni diskriminasiya (ayırdetmə) göstəricisinə malikdir. Bu, əslində, çox sərt fərziyyədir və praktikada özünü nadir hallarda doğruldur. İkiparametrli logistik modeldə isə test tapşırıqlarının diksriminasiya göstəriciləri bir-birindən fərqlənir. Bu modelin Rasch modelinə nəzərən üstünlüyü onun empirik (real) məlumatlarla daha yüksək uzlaşma səviyyəsinə malik olmasıdır. İkiparametrli logistik model əsasında bilik və bacarıqların qiymətləndirilməsi BILOG-MG və PARSCALE proqram təminatları əsasında aparılır.

Təbiidir ki, praktikada bütün test tapşırıqları riyazi modellə uzlaşmır və model işlədiləndə onunla uzlaşmayan test tapşırıqları atılmalı olur. Belə hallar, əsasən, test tapşırıqlarında müxtəlif qüsurların, məsələn, üstünlüyə malik distraktorun, yaxud çox zəif diskriminasiya xassəsinin olmasının nəticəsidir.

Model tətbiq edilərkən sınaq iştirakçılarının motivasiya səviyyəsi də nəzərə alınmalıdır. Başqa sözlə, informasiyanın emalı prosesində sınaq iştirakçısının imtahan prosesində mümkün olan ən yüksək nəticəni əldə etmək marağı hesaba alınmalıdır. Bununla əlaqədar olaraq test tapşırıqları parametrləndirildikdə, onlara cavab verməkdən çoxlu sayda imtina edən abituriyentlər sınaq iştirakçıları seçməsindən çıxarılır.

Yeni testlərin tərkibində parametrləndirilmiş tapşırıqlardan istifadə edilməsi testləşdirmə aparılan fənn üzrə qabiliyyət göstəricisi şkalasına yeni test tapşırıqlarının əlavə edilməsinə imkan verir. Beləliklə, kalibrlənmə həyata keçirildikdən sonra eyni tapşırıqlara malik olmayan müxtəlif testlərin nəticələrini müqayisə etmək imkanı yaranır. Bununla yanaşı müxtəlif imtahanlarda eyni imtahan iştirakçılarının olması da, bu imtahanlardakı testlərin nəticələrini müqayisə etmək imkanı verir.

Bu il Azərbaycan dili və riyaziyyat fənlərindən imtahan testləri tərtib edilərkən məhz ikinci metoddan istifadə olunmuşdur. Bu da bütün ixtisas qruplarında imtahan verən abituriyentlərin qabiliyyət səviyyələrinin elmi cəhətdən əsaslandırılmış müqayisəsini aparmağa imkan vermişdir.

DİM-in müxtəlif ixtisas qruplarında tətbiq etdiyi testlər eyni struktura malik deyil və onlar müvafiq qrupların kontingentinin qabiliyyətini mümkün qədər dəqiq üzə çıxarmağa və yoxlamağa istiqamətlənib. Testlərin strukturlarındakı müxtəliflik onların informasiya funksiyalarının təhlil prosesində istifadə edilən test tapşırıqlarının sayına görə normallaşdırılmış qrafiklərində özünü göstərir. Təqdim edilən informasiya funksiyaları (bax: qrafiklər 1.9 və 1.10) müvafiq qabiliyyətə malik abituriyentlər testdən keçirildikdə orta hesabla bir test tapşırığına düşən informasiyanın miqdarını təyin etməyə imkan verir. İnformasiya miqdarı nə qədər çox olarsa, qabiliyyəti ölçmə xətası da bir o qədər az olar. Qrafiklərdən göründüyü kimi, bütün informasiya funksiyaları maksimum nöqtəsinə malikdir və bu nöqtə hansı qabiliyyətə malik olan abituriyentlər testdən keçirildikdə ölçmə xətasının minimal olduğunu göstərir. Məsələn, Azərbaycan dilindən testlərin ən kiçik ölçmə xətası III ixtisas qrupunda qabiliyyət göstəricisi -0.35 loqit olan abituriyentlər üçün təmin edilir (bax: qrafik 1.9).

Qəbul imtahanı testinin məqsədi abituriyentləri ranqlara ayırmaq olduğundan onun ən yüksək ölçmə dəqiqliyi məhz müsabiqədə iştirak edən abituriyentlərin daha çox cəmləşdiyi intervalda əldə edilməlidir. Azərbaycan dili fənni üzrə III ixtisas qrupunda testin informasiya əyrisinin qabiliyyət göstəricilərinin paylanma histoqramı ilə müqayisəsi (1.9 saylı qrafik) də bizə bunu əyani şəkildə göstərir və göründüyü kimi, abituriyentlərin daha çox cəmləşdiyi yerdə onların qabiliyyətləri daha dəqiq qiymətləndirilir. Belə ki, əgər Azərbaycan dili fənni üzrə orta və yüksək qabiliyyətə malik olan abituriyentlər III ixtisas qrupunda sayca daha çox müşahidə olunursa, onda III ixtisas qrupunun Azərbaycan dili testinin informasiya funksiyasının müvafiq intervaldakı qiyməti də maksimal olmalıdır.

Riyaziyyat fənni üzrə I və II ixtisas qruplarında testlərin informasiya əyrilərinin qabiliyyət göstəricilərinin paylanma histoqramları ilə müqayisəsinə (1.10 saylı qrafik) baxdıqda, bir qədər fərqli mənzərənin şahidi oluruq. I və II ixtisas qrupları üzrə informasiya əyrilərindən göründüyü kimi, abituriyentlərə təqdim olunan testlər nəzərdə tutulduğu kimi daha çox orta və yüksək qabiliyyətli abituriyentləri bir-birilərindən fərqləndirmək və həmin hissələrdə onların qabiliyyət göstəricilərini daha dəqiq ölçmək üçün nəzərdə tutulub. Lakin bu ixtisas qrupları üzrə qabiliyyət göstəricilərinin paylanma histoqramına baxdıqda belə məlum olur ki, abituriyentlərin böyük hissəsi riyaziyyat fənni üzrə aşağı və orta qabiliyyət səviyyələrinə malikdirlər. DİM-in qəbul imtahanlarında təqdim olunan testlərin ümumorta təhsil müəssisələrinin tədris proqramları çərçivəsində hazırlandığını nəzərə alsaq, belə nəticəyə gəlmək olar ki, şagirdlərin riyaziyyat fənni üzrə hazırlıq səviyyələri qənaətbəxş deyil.

AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN İNFORMASİYA ƏYRİSİ VƏ ABİTURİYENTLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI



Qrafik 1.9

RİYAZİYYAT FƏNNİNDƏN İXTİSAS QRUPLARI ÜZRƏ İNFORMASİYA ƏYRİLƏRİ VƏ ABİTURİYENTLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI





Qrafik 1.10

1.18 və 1.19 saylı diaqramlarda tam seçmənin 5, 10 və 15%-ni təşkil edən altseçmələr üzrə qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən müvafiq olaraq, Azərbaycan dili və riyaziyyatdan yüksək qabiliyyətə malik olan abituriyentlərin ixtisas qruplarına görə tərkibləri təqdim edilmişdir. Məlum olduğu kimi, II mərhələdə Azərbaycan dili fənni üzrə yalnız III ixtisas qrupunun, riyaziyyat fənni üzrə isə yalnız I və II ixtisas qruplarının abituriyentləri imtahan verdiklərindən II mərhələnin nəticələrinə əsasən abituriyentlərin daha çox hansı ixtisas qruplarını seçdiklərini görmək mümkün deyil. Bu səbəbdən də mənzərəni tam şəkildə görmək üçün qəbul imtahanının I mərhələsənin nəticələri götürülüb.

1.18 saylı diaqramdan göründüyü kimi, Azərbaycan dili fənnindən yüksək qabiliyyətə malik abituriyentlər daha çox III ixtisas qrupunu təmsil edirlər: 5 faizli altseçmədə 40.92%, 10 faizli altseçmədə 41.57% və 15 faizli altseçmədə 41.64%. Azərbaycan dili fənni üzrə yüksək qabiliyyətə malik olan gənclər III qrupla yanaşı, digər ixtisas qruplarında da təmsil olunublar. Onlar müvafiq hazırlıq keçdikləri halda III ixtisas qrupu abituriyentlərinə real rəqabət göstərə bilərdilər. Əgər Azərbaycan bölməsi abituriyentlərinin ixtisas qruplarına görə bölgüsünü nəzərə alsaq (I qrupda – 40.22%, II qrupda – 20.45%, III qrupda – 32.10%, IV qrupda – 7.24%), onda Azərbaycan dili üzrə yüksək qabiliyyətli abituriyentlərin istəklərinin qütbləşməsi aşkar şəkildə nəzərə çarpar. Çünki 5 faizli altseçmədə I və II qrupların abituriyentləri, müvafiq olaraq, cəmi 23.19% və 17.96% təşkil etdiyi halda, III və IV qrupların abituriyentləri, artıq 40.92 və 17.93% təşkil edir. Ötən illə müqayisədə bu il Azərbaycan dilindən yüksək qabiliyyətə malik olan abituriyentlərin nisbi sayı I və II ixtisas qruplarında azalıb (I qrupda 26.45%-dən 23.19%-ə, II qrupda 19.38%-dən 17.96%-ə qədər). III və IV ixtisas qruplarında isə, əksinə, belə abituriyentlərin nisbi sayı artmışdır (III qrupda 37.86%-dən 40.92%-ə, IV qrupda 16.30%-dən 17.93%-ə qədər).

Riyaziyyat fənnində tamamilə fərqli mənzərə müşahidə olunur (bax: 1.19 saylı diaqram). Burada 5 faizli altseçmədə I ixtisas qrupunun abituriyentləri sayca ən çoxdur (48.56%). I, II və IV qrupların abituriyentlərinin nisbi çəkiləri (müvafiq olaraq, 48.56%, 25.03% və 18.48%) onların tam seçmədəki nisbi çəkilərini (müvafiq olaraq, 40.23%, 20.77% və 7.48%) üstələyir. Bütün bunlar onu göstərir ki, I, II və IV ixtisas qruplarını seçən abituriyentlərin içərisində riyazi qabiliyyəti yüksək olanların nisbi çəkisi daha çoxdur. III ixtisas qrupunda, əksinə, bu qrupu seçənlərin (31.51%) içərisində riyazi qabiliyyəti yüksək olanların nisbi çəkisi (7.93%) daha azdır. Qeyd edək ki, ötən illərlə müqayisədə cari ildə riyaziyyat fənnindən yüksək qabiliyyətə malik olan abituriyentlərin ixtisas qruplarına olan meyilləri dəyişməmişdir. 2016-cı ildə belə abituriyentlərin 39.91%-i, 2017-ci ildə 36.32, 2018-ci ildə 38.47%, 2019-cu ildə 48.56% I ixtisas qrupuna göstərmişlər.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ BÖLGÜSÜ



Şəkil 1.18

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN RİYAZİYYAT FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ BÖLGÜSÜ



Şəkil 1.19

Qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən ayrı-ayrı fənlər üzrə oğlan və qız abituriyentlərin qabiliyyət səviyyələrinin paylanmasını ayrılıqda əks etdirən histoqramların (1.11 və 1.12 saylı qrafiklərə bax) müqayisəsi qızların həm Azərbaycan dili, həm də riyaziyyatdan üstünlüyə malik olduğunu göstərir.

Azərbaycan dili üzrə qabiliyyət səviyyəsinin paylanmasını əks etdirən histoqramların (1.11 saylı qrafik) müqayisəsi göstərir ki, oğlanların sayının qızların sayından çox olmasına baxmayaraq, -1.40 loqitdən başlayaraq nisbətən yüksək qabiliyyət intervalında qızlar, -1.40 loqitdən solda yerləşən aşağı qabiliyyət intervalında isə oğlanlar sayca üstünlük təşkil edir. Histoqramlar üzrə hesablamalar göstərir ki, hər 100 qız abituriyentdən 94–95–nin qabiliyyəti -1.40 loqitdən yüksək olduğu halda, hər 100 oğlan abituriyentdən qabiliyyətləri həmin intervalda yerləşənlərin sayı cəmi 85–86 nəfərdir. Beləliklə, bu intervalda fərq 9% təşkil edir.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN AZƏRBAYCAN DİLİ FƏNNİ ÜZRƏ QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI



Qrafik 1.11

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN RİYAZİYYAT FƏNNİ ÜZRƏ QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI



Qrafik 1.12

Riyaziyyat fənni üzrə qabiliyyət səviyyələrinin paylanmasında isə bir qədər başqa mənzərə müşahidə olunur (1.12 saylı qrafikə bax). Burada oğlan abituriyentlərin qabiliyyət göstəriciləri qızların göstəricilərinə yaxın olmuşdur. Azərbaycan dilindən fərqli olaraq riyaziyyat fənni üzrə oğlan və qızların qabiliyyət səviyyələrinin paylanmaları arasındakı fərq kiçikdir.

Qabiliyyətlərin ortakvadratik meyillə ifadə edilmiş vahidlərdə fərqlərini müqayisə etdikdə də həmin nəticəyə gəlmək mümkündür. Azərbaycan dili üzrə ümumi paylanmanın ortakvadratik meyilinin σ_a=1.125 olduğunu nəzərə alsaq, onda fərq aşağıdakı kimi olacaq:

$$\frac{0.365 + 0.172}{1.125} = 0.48\sigma_a$$

Riyaziyyat üzrə ümumi paylanmanın ortakvadratik meyilinin σ_r=1.299 olduğunu nəzərə alanda fərq:

$$\frac{-0.330 + 0.429}{1.299} = 0.08\sigma_r$$

bərabər olacaq.

Beləliklə, oğlan və qız abituriyentlərin qabiliyyət səviyyələri arasındakı fərq müvafiq ortakvadratik meyilin Azərbaycan dilində 48, riyaziyyatda isə 8 faizinə bərabərdir.

1.20 və 1.21 saylı şəkillərdəki diaqramlarda oğlan və qızların tam seçmənin 5, 10 və 15%-ni təşkil edən altseçmələri üzrə Azərbaycan dili və riyaziyyatdan qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən yüksək qabiliyyətə malik olan oğlan və qız abituriyentlərin nisbi sayları faizlə təqdim edilmişdir. Diaqramlardan göründüyü kimi, Azərbaycan dilindən ən yüksək qabiliyyətə malik olan 5 faizli altseçmədə hər 100 abituriyentdən 65-66-sı qız, 34-35-i oğlan, riyaziyyatdan ən yüksək qabiliyyətə malik olan 5 faizli altseçmədə hər 100 abituriyentin 53-54-ü oğlan, 46-47-si qızdır. Altseçmələr genişləndikcə oğlanların və qızların sayları tam seçmədəki tərkibə yaxınlaşır.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN BÖLGÜSÜ



Şəkil 1.20

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN RİYAZİYYAT FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏTLİ OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN BÖLGÜSÜ



Şəkil 1.21

Qəbul imtahanının I mərhələsinin nəticələrinə əsasən yüksək qabiliyyətə malik olan oğlan və qız abituriyentlərin ixtisas qrupları üzrə tərkibinin (bax: cədvəl 1.28 və 1.29) təhlili göstərir ki, Azərbaycan dili üzrə yüksək qabiliyyətə malik olan oğlanların III ixtisas qrupuna istəkləri tam seçməni təmsil edən ortastatistik oğlan abituriyentin həmin qrupa nümayiş etdirdiyi istəkdən yüksəkdir. Doğrudan da, 5 faizli altseçmə səviyyəsində III ixtisas qrupunun oğlan abituriyentlərinin nisbi sayı tam seçməyə nəzərən təxminən 1.4 dəfə artmışdır. Azərbaycan dilindən yüksək qabiliyyətə malik oğlan abituriyentlər III ixtisas qrupu ilə yanaşı, IV ixtisas qrupuna da üstünlük verirlər (nisbi sayı isə təxminən 3.6 dəfə çox olub). Qız abituriyentlərin seçimində də belə tendensiya IV ixtisas qrupunda müşahidə olunur. Burada 5 faizli altseçmə səviyyəsində qız abituriyentlərin istəyi tam seçməyə nəzərən 1.8 dəfə yüksəkdir. Digər tərəfdən, qeyd etmək lazımdır ki, Azərbaycan dili fənni üzrə yüksək qabiliyyətli oğlanların və qızların I qrupun ixtisaslarını seçmə ehtimalı tam seçməyə nəzərən müvafiq olaraq, 1.5 və 1.7 dəfə zəifdir.

Cədvəl 1.28

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏT SƏVİYYƏSİNƏ MALİK OLAN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ PAYLANMASI

Tam seçmə üzrə	Oğlan abituriyentlər					Qız abituriyentlər				
	Altseçmə-nin payı	İxtisas qrupları üzrə paylanması				Altseçmə-nin payı	İxtisas qrupları üzrə paylanması			
		I	II	III	IV		I	II	III	IV
5%	**34.64**	34.50	26.86	25.66	13.65	**65.36**	17.42	13.43	49.42	20.37
10%	**34.93**	34.62	28.49	26.33	11.16	**65.07**	18.49	14.13	50.13	17.82
15%	**35.89**	35.11	28.19	27.24	10.12	**64.11**	38.99	14.09	50.11	17.06
İmtahan iştirakçılarının paylanması	**52.50**	50.84	27.50	18.78	3.78	**47.50**	29.18	13.00	47.37	11.17

Cədvəl 1.29

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNİN NƏTİCƏLƏRİNƏ ƏSASƏN RİYAZİYYAT FƏNNİNDƏN YÜKSƏK QABİLİYYƏT SƏVİYYƏSİNƏ MALİK OLAN OĞLAN VƏ QIZ ABİTURİYENTLƏRİN İXTİSAS QRUPLARI ÜZRƏ PAYLANMASI

Tam seçmə üzrə	Oğlan abituriyentlər					Qız abituriyentlər				
	Altseçmə-nin payı	İxtisas qrupları üzrə paylanması				Altseçmə-nin payı	İxtisas qrupları üzrə paylanması			
		I	II	III	IV		I	II	III	IV
5%	**53.34**	54.22	28.15	5.77	12.45	**46.66**	42.85	21.87	10.53	25.65
10%	**51.53**	53.66	28.49	7.52	11.07	**48.47**	40.88	21.80	14.56	23.51
15%	**50.85**	54.41	28.29	8.23	9.91	**49.15**	39.95	20.34	18.06	22.47
İmtahan iştirakçı-larının paylanması	**52.42**	51.10	27.59	18.28	3.91	**47.58**	28.96	13.62	46.63	11.53

Riyaziyyatdan yüksək qabiliyyətə malik olan oğlan abituriyentlər I və II qrupun ixtisaslarına üstünlük verirlər. Belə ki, riyaziyyatdan yüksək qabiliyyətə malik 5%-li altseçməni təmsil edən abituriyentlərin 82.37%-i ərizələrində bu qrupları seçiblər. Bu altseçmənin istəyini tam seçmə ilə müqayisə etsək görərik ki, yüksək qabiliyyətli abituriyentlərin ixtisas qruplarını seçməkdə göstərdikləri istək tam seçmənin istəyinə uyğundur.

Riyaziyyatdan yüksək qabiliyyətə malik qız abituriyentlər seçməsində bir az fərqli mənzərənin şahidi oluruq. Belə ki, bu cür abituriyentlər daha çox I və IV ixtisas qruplarına üstünlük verirlər və riyaziyyatdan yüksək qabiliyyətə malik 5%-li altseçməni təmsil edən abituriyentlərin müvafiq olaraq, 42.85 və 25.65%-i ərizələrində bu qrupları seçiblər.

Riyaziyyatdan yüksək qabiliyyətə malik həm oğlan, həm qız abituriyentlər III qrupa elə də meyil göstərməyiblər. Oğlan abituriyentlərin tam seçməsinin 18.28, qız abituriyentlərin 46.63%-i bu qrupu seçmələrinə baxmayaraq, riyaziyyatdan yüksək qabiliyyətə malik 5%-li altseçmədə belələrinin nisbi sayı müvafiq olaraq, 3.2 və 4.4 dəfə az olub. IV ixtisas qrupunda isə bunun tam əksini görürük. 1.28 saylı cədvəldən də göründüyü kimi oğlan abituriyentlərin 3.91%-i, qız abituriyentlərin 11.53% IV ixtisas qrupunu seçdiyi halda yüksək qabiliyyətə malik 5%-li altseçmədə belələrinin nisbi sayı tam seçməyə nəzərən müvafiq olaraq, 3.2 və 2.2 dəfə çox olub.

Fənlər üzrə elmi-metodiki təhlil və tövsiyələr

Ali təhsil müəssisələrinə 2019-cu ilin qəbul imtahanları yeni qaydalar əsasında keçirilib. Qaydalara əsasən ümumi təhsil səviyyəsi üzrə buraxılış imtahanı qəbul imtahanının birinci mərhələsinə, ixtisas qrupları üzrə imtahanlar isə ikinci mərhələsinə aid olub.

Bu il fənn kurikulumları üzrə təhsil almış şagirdlər ilk dəfə qəbul imtahanı veriblər. Aşağıda təqdim edilən təhlil qəbul imtahanlarının ikinci mərhələsinə aiddir.

Qəbul imtahanlarında istifadə edilmiş qiymətləndirmə tapşırıqları müvafiq fənn kurikulumlarının təlim nəticələrinə uyğun olub. Qeyd etmək lazımdır ki, ilin əvvəlində "Abituriyent" jurnalının birinci nömrəsində imtahanlarda fənn kurikulumları üzrə mənimsənilmə səviyyəsinin yoxlanılması və qiymətləndirilməsi mümkün olan alt standartlar, dərsliklərdə onların reallaşdırılması üçün verilmiş təlim materiallarına uyğun mövzular əsasında qəbul proqramları və imtahan modellərinə uyğun tapşırıq nümunələri dərc edilərək abituriyentlərə qəbul imtahanlarında hansı tipli, hansı formalı tapşırıqların təklif ediləcəyi barədə məlumat verilib. Fənn kurikulumları üzrə sinif dərslikləri əsasında qiymətləndirmə tapşırıqları kitabçaları nəşr edilib. Abituriyentlərə qəbul imtahanlarında istifadəsi nəzərdə tutulan test modeli ilə tanış olmaq, imtahanın texnologiyasına bələd olmaq, imtahan mühitinə psixoloji cəhətdən alışmaq imkanı yaratmaq məqsədilə ***otk.az*** saytında onlayn, Bakı şəhərində və respublikanın müxtəlif bölgələrində isə kağız üzərində sınaq imtahanları keçirilib. Göstərilənlərin nəticəsidir ki, imtahanlarda istifadə edilmiş tapşırıqlar məzmun və forma baxımından abituriyentlərə tanış olub.

Qəbul imtahanları iki dəfə (yaz və yay sessiyası) keçirilib. İmtahanlarda fənn kurikulumlarının təlim nəticələrinə görə məktəb kursunda əldə edilmiş biliklərin tətbiqi bacarıqlarının yoxlanılmasına imkan verən tapşırıqlardan istifadə olunub. Bu cür tapşırıqlara dair nümunələr DİM tərəfindən siniflər üzrə dərsliklər əsasında hazırlanmış qiymətləndirmə tapşırıqları kitabçalarında kifayət qədər verilib.

İmtahanlarda I ixtisas qrupu üzrə riyaziyyat, fizika, kimya, II ixtisas qrupu üzrə riyaziyyat, coğrafiya, tarix, III ixtisas qrupu üzrə tədris dili, ədəbiyyat, tarix, IV ixtisas qrupu üzrə biologiya, kimya, fizika fənlərinin hər birindən imtahan bloklarına 30 tapşırıq daxil edilib. Bunlardan 22-si qapalı (verilənlərdən bir doğru cavabın müəyyən edilməsi), 5-i cavabı kodlaşdırılan açıq tipli (hesablama, seçim və uyğunluğu müəyyən etmək), 3-ü cavabı yazı ilə ifadə olunan tapşırıqlar olub. Cavabı yazı ilə ifadə olunan tapşırıqlar I ixtisas qrupunda riyaziyyat, fizika və kimya, II ixtisas qrupunda riyaziyyat, coğrafiya, IV ixtisas qrupunda biologiya, kimya, fizika fənlərindən 3 tapşırıqlı situasiya, II və III ixtisas qruplarında tarix fənnindən 3 tapşırıqlı mənbə, III ixtisas qrupunda tədris dili və ədəbiyyat fənlərindən 3 tapşırıqlı mətn olub. Həmçinin imtahanlarda Eyler-Venn diaqramı və klasterdən istifadə olunub.

Qeyd etmək lazımdır ki, ötən illərdə olduğu kimi bu il də qəbul imtahanları üçün sual kitabçaları qapalı şəraitdə ekspertlər tərəfindən hazırlanıb. Qapalı və cavabları kodlaşdırılan açıq tipli tapşırıqların doğru cavab etalonları dəqiqləşdirilib.

İmtahanlar keçirilən günlərdə imtahanlardan dərhal sonra aparılmış müstəqil ekspertiza nəticəsində qapalı və cavabları kodlaşdırıla bilən açıq tapşırıqların etalonları təsdiq edilərək elə həmin günlərdə Dövlət İmtahan Mərkəzinin *youtube* kanalı vasitəsilə canlı yayımla ictimaiyyətə elan olunub.

Cavabları yazı ilə ifadə olunan tapşırıqların isə qiymətləndirilmə meyarları dəqiqləşdirilib və tapşırıqlar müəyyən vaxt ərzində markerlər tərəfindən yoxlanılıb və nəticələr DİM-in internet saytı ilə elan edilib.

Ekspertlərin rəylərinə əsasən tapşırıqların respublikanın ümumtəhsil müəssisələrində qüvvədə olan fənn kurikulumlarının təlim nəticələrinə, seçilmiş alt standartların tələblərinə və dərsliklərdəki materiallar əsasında hazırlanmış qəbul proqramlarına uyğunluğu bir daha təsdiqini tapıb.

Qəbul imtahanlarında istifadə edilmiş tapşırıqların bölmələr üzrə paylanmasında məktəb kursunda fənlər üzrə mövzuların əhəmiyyətlilik dərəcəsi, tədris prosesində bölmələrə ayrılan vaxt və ixtisas qruplarının peşə xüsusiyyətləri nəzərə alınıb.

Qeyd etmək lazımdır ki, abituriyentlərin bilik və bacarıqlarını hərtərəfli yoxlamaq məqsədilə ayrı-ayrı ixtisas qruplarının peşə xüsusiyyətləri nəzərə alınaraq fənlər üzrə imtahan bloklarına qabiliyyət göstəricilərinə görə terminoloji, faktoloji, ümumiləşdirmə, izahat, hesablama, öncəgörmə və təklif olunan fəaliyyət tipli, mürəkkəblik dərəcəsinə görə sadə, orta çətinlikli və çətin tapşırıqlar daxil edilib. Bilik və bacarıqların qiymətləndirilməsində fənn kurikulumları üzrə təlim nəticələrinə verilən tələblər nəzərə alınaraq imtahan bloklarında məntiqi düşünmə və nəzəri biliklərin tətbiqini tələb edən, proses və hadisələrin mahiyyətinin dərk edilməsinə yönələn, səbəb və nəticə əlaqələri əsasında qurulan tapşırıqlara üstünlük verilib.

Ötən illərdə olduğu kimi, bu il də fənlər üzrə seminarlarda tam orta və ali təhsil müəssisələrinin müəllimlərinin, metodistlərin, eləcə də AMEA-nın müvafiq fənlər üzrə mütəxəssislərinin iştirakı ilə qəbul imtahanlarında istifadə edilmiş tapşırıqların imtahan nəticələrinin statistik göstəriciləri əsasında hər bir tapşırıq aid olduğu alt standartın tələblərinə uyğunluğu, mövzu, mürəkkəblik dərəcəsi və analoqların işləməsi baxımından təhlil edilib.

Təhlil onu göstərib ki, tapşırıqlarla abituriyentlərin müvafiq fənn kurikulumunun təlim nəticələrinə uyğun bilik və bacarıqlarını yoxlamaq və obyektiv qiymətləndirmək mümkün olub.

Təhlil nəticəsində abituriyentlərin cavab verməkdə çətinlik çəkdikləri tapşırıqlar müəyyənləşdirilib və həmin tapşırıqlar araşdırılıb, onların izahına dair metodik tövsiyələr hazırlanıb, müvafiq fənlər üzrə test banklarının təkmilləşdirilməsi üçün təkliflər verilib.

Aşağıda ayrı-ayrı fənlər üzrə aparılmış elmi-metodik təhlilin nəticələri təqdim olunur:

Azərbaycan dili fənnindən III ixtisas qrupu üzrə qəbul imtahanlarında istifadə olunmuş tapşırıqlar fənn kurikulumunun 3 (“Oxu”, “Yazı” və “Dil qaydaları”) məzmun xətti üzrə 5 əsas və 65 alt standartın reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Tam (11 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarında “Oxu” və “Yazı” məzmun xətləri standartlarının tələbləri cavabları yazı ilə ifadə olunan açıq və çoxseçimli qapalı tapşırıqlarla yetərincə yoxlandığından, qəbul imtahanlarında daha çox “Dil qaydaları” məzmun xəttinə aid bilik və bacarıqlar qapalı test tapşırıqları vasitəsilə yoxlanılıb. Mətnə aid olan cavabı yazı ilə ifadə edilən 3 tapşırıqla isə “Oxu” və “Yazı” məzmun xətləri üzrə bilik və bacarıqlar yoxlanılıb, qiymətləndirilib.

Fənn kurikulumunun təlim nəticələri əsasında hazırlanmış bu tapşırıqlar abituriyentlərin

- öyrəndiyi söz və ifadələri üslubi xüsusiyyətlərinə görə izah etmək;
- söz və ifadələrə əsasən oxuduğu mətnləri üslubi xüsusiyyətlərinə görə müqayisə edib qiymətləndirmək;
- mətnin hissələrini (giriş, əsas hissə, nəticə), abzasları, cümlələri, onlar arasında bağlama vasitələrini təhlil etməklə məzmunun aydın ifadə olunmasına təsirini izah etmək;
- mövzuya uyğun üslub seçməklə fikirlərini yazılı şərh etmək,
- üslubi tələblər baxımından özünün və başqasının yazısını təkmilləşdirmək;
- qrammatik-semantik xüsusiyyətlərini gözləməklə sözlərdən üslubi imkanlarına görə istifadə etmək;
- nitqin düzgünlüyünü və ifadəliliyini təmin edən durğu işarələrindən istifadə etmək;
- mətnin tərtibatına və üslubuna uyğun düzgün yazı bacarıqları nümayiş etdirmək;

kimi bilik və bacarıqlarının yoxlanılması, qiymətləndirilməsi üçün nəzərdə tutulub.

İmtahan nəticələrinin statistik göstəriciləri onu deməyə əsas verir ki, abituriyentlər ana dilinin qayda-qanunlarını öyrənməyə meyil göstərmiş, onlarda bu sahədə nəzəri və praktik bilikləri əlaqələndirə bilmə qabiliyyəti formalaşmışdır. Bu isə müstəqillik dövründə respublikada dövlət tərəfindən ana dilinə verilən diqqət və qayğı ilə bilavasitə bağlıdır. Gənc nəsil ana dilini daha yaxşı mənimsəməyə, ondan qüsursuz istifadə etməyə böyük önəm verir.

Həm 19 may, həm də 07 iyul tarixli imtahanlarda istifadə edilmiş tapşırıqların mürəkkəblik dərəcəsi və mövzu dairəsi eyni olmağına baxmayaraq, 07 iyul tarixli imtahanların nəticəsi 19 may tarixli imtahanlara nisbətən daha yüksək olub; təbii ki, daha artıq zamanda hazırlaşmaq imkanı olan abituriyentlər yüksək göstəricilərə nail olmuşlar.

Müxtəlif variantlarda eynitipli tapşırıqların cavablandırılma göstəricilərinin yaxın olması tapşırıqların düzgün qurulduğunu deməyə əsas verir. Təhlilin nəticəsi həm də müxtəlif mövzularda olan tapşırıqların abituriyentlər tərəfindən cavablandırılma səviyyəsinin fərqli olduğunu deməyə əsas verir. Bu hal daha çox mövzunun tədrisi və təkrar edilməsi vəziyyəti ilə bağlıdır. Abituriyentlərin daha yaxşı cavablandırdıqları mövzular əvəzlik, cümlələrin üslubi xüsusiyyəti, feilin təsriflənməyən formaları və s.-dir.

19 may tarixli imtahanda abituriyentlərin zəif cavablandırdıqları mövzulardan biri ədəbi dilin normalarıdır. Hər bir insanın, xüsusən də hər bir ziyalının ədəbi dildə danışıb yaza bilməsi zəruridir. Bu baxımdan imtahan blokunda ədəbi dilin normaları ilə bağlı tapşırıqlara müəyyən yer verilmişdir. 19 may tarixli imtahanda ədəbi dilin normaları ilə bağlı A variantı 27 saylı tapşırığa abituriyentlərin 16,18%-i, B variantında eyni saylı tapşırığa 14,47%-i düzgün cavab verib.

10-cu sinif

4.1.2. Sözün qrammatik-məna xüsusiyyətlərini gözləməklə ədəbi dil normalarına riayət edir.

19 may tarixli imtahan, A variantı 27 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.

1. Fonetik norma pozulmuşdur.
2. Leksik norma pozulmuşdur.
3. Qrammatik norma pozulmuşdur.

a. Budaqlar tünd göy gavalıların ağırlığından əyilmişdi.

b. Günəşin şüaları ətrafı işıqlandırırdılar.

c. Uğura gedən yolda yüksək addımlarla irəliləməyi bacarmalısan.

d. Daşqın çay kənarındakı kəndləri çətin vəziyətdə qoymuşdu.

e. Bir çox kitabın cildi cırılmışdı.

Fonetik norma sözlərin düzgün yazılışını tələb edir; **a** bəndində "*tünd göy"* sifətin sintaktik yolla formalaşan çoxaltma dərəcəsindədir və defislə yazılmalıdır (tünd-göy). Bu sözün tərəfləri ayrı yazıldığından fonetik norma pozulmuşdur. İkinci cümlədə qrammatik norma pozulmuşdur, çünki cümlənin mübtədası olan "*Günəşin şüaları"* cansız varlığı bildirdiyi üçün xəbər təkdə olmalıdır. Cümlənin xəbəri cəmdə olduğu üçün mübtəda ilə xəbər arasındakı uzlaşma əlaqəsi, yəni qrammatik norma pozulmuşdur. Üçüncü cümlədə isə leksik norma pozulmuşdur; belə ki, burada "*yüksək addımlarla"* ifadəsi səhvdir, "*iri addımlarla"* olmalı idi. Söz yerində düzgün işlənmədiyi üçün leksik normasının pozulmasına yol verilmişdir. Dördüncü cümlədə "vəziyətdə" sözü düzgün yazılmamışdır, bu sözün düzgün yazılış forması "vəziyyətdə"dir. Buna görə bu cümlədə də fonetik norma pozulmuşdur. Nəhayət, sonuncu – beşinci cümlədə qrammatik normaya riayət edilməmişdir, çünki dilimizin qrammatik qanunlarına görə, "*bir sıra*", "*bir çox*" qeyri-müəyyən saylarından sonra gələn isim cəmdə olmalıdır. Verilən nümunədə *"bir çox kitabların"* olmalı idi.

Doğru cavab: 1 – a, d; 2 – c; 3 – b, e

19 may tarixli imtahanda abituriyentlərin çətinlik çəkdikləri mövzulardan biri də Eyler-Venn diaqramı əsasında iki sözün morfoloji xüsusiyyətlərinə görə müqayisəsidir. Bu vəziyyətin bir səbəbi Eyler-Venn diaqramı üzrə işləmək təcrübəsinin azlığı, digər səbəbi isə mürəkkəb təfəkkür hadisəsi olan müqayisədir.

5-ci sinif

4.1.2. Sözün səs tərkibini, semantik xüsusiyyətlərini, tərkibini, yaranma üsullarını və qrammatik mənasını (ad, əlamət, hərəkət bildirməsini) izah edir.

19 may tarixli imtahan,
A variantı 23 saylı test tapşırığı

Eyler-Venn diaqramına əsasən ***səhvləri*** müəyyən edin.



Açıq tipli bu test tapşırığına abituriyentlərin 7,74%-i doğru cavab verib, 8,28%-i isə cavab verməkdən imtina edib.

"Qorxaq" sözü "*qorx"* feilinə *-aq* leksik şəkilçisini artırmaqla, "*qorxulu"* sözü isə *"qorx"* feilindən *-u* leksik şəkilçisi vasitəsilə yaranmış "*qorxu"* isminə *-lu* leksik şəkilçisini artırmaqla yaranmış düzəltmə

sifətlərdir, yəni "qorxulu" isimdən yaranmışdır. Deməli, 1-ci və 5-ci bəndlərdəki fikirlər səhvdir. Hər iki söz düzəltmədir, buna görə 2-ci bənddəki fikrin ancaq birinci sözə aid edilməsi doğru deyil. Bu sözlərin ikisinin də kökü "*qorx"* feili olduğu üçün 3-cü fikir düzgündür. 4-cü fikir də düzgündür: hər iki söz sifətdir.

Doğru cavab: 1, 2, 5

19 may tarixli imtahanda olduğu kimi, 07 iyul tarixli imtahanda da əksər tapşırıqlara 50%-dən artıq abituriyent doğru cavab verib. Xüsusən sözdə səs və hərfin münasibəti, omonimlik, ayrı-ayrı üslubların xüsusiyyətləri, ara sözlər, cümlə üzvlərinin müəyyənləşdirilməsi ilə bağlı mövzulara aid test tapşırıqları yüksək səviyyədə cavablandırılıb. Əvəzlik, orfoqrafiya, zərflə bağlı test tapşırıqlarının cavablandırılmasında isə abituriyentlər çətinlik çəkiblər.

6-cı sinif

4.1.2. Sözün qrammatik mənasını kontekstə uyğun izah edir.

07 iyul tarixli imtahan, A variantı 18 saylı test tapşırığı

Hal şəkilçili əvəzliklərin məna növünə görə düzgün ardıcıllığını göstərin.

● *Qaraca çoban onun toz qaldırıb getdiyi yollara baxdı.*

● *Beyrək özü içəri girmək istədi.*

● *Qazanın obasında hələ heç kəsin heç nədən xəbəri yox idi.*

● *Bunu görən Qaraca çoban sapanda əl atdı.*

● *Kim at çapacaq, kim ox atacaq?*

1. qeyri-müəyyən əvəzlik 2. şəxs əvəzliyi
3. təyini əvəzlik 4. işarə əvəzliyi 5. sual əvəzliyi

A) 2, 3, 1, 4 B) 4, 1, 2, 5 C) 2, 1, 4 D) 1, 3, 5 E) 4, 3, 1, 2, 5

Əvəzlik mövzusuna aid bu tapşırığa abituriyentlərin 14,92 %-i doğru cavab verib, 38,27 %-i A bəndini, 29,74 %-i B bəndini doğru hesab edərək, 10,07 %-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün ilk növbədə şərtdəki birinci məqama diqqət yetirmək lazımdır. Belə ki, burada yalnız hal şəkilçisi qəbul etmiş əvəzliklərin məna növünü müəyyən etmək lazımdır. İkinci cümlədəki "*özü*" əvəzliyi hal deyil, mənsubiyyət şəkilçisi qəbul edib. Sonuncu cümlədəki "*kim*" sual əvəzliyi isə heç bir şəkilçi qəbul etməyib. Birinci cümlədəki "*onun*" şəxs əvəzliyidir. Üçüncü cümlədəki "*heç kəsin*" qeyri-müəyyən əvəzlikdir. Dördüncü cümlədəki "*bunu*" isə işarə əvəzliyidir.

Doğru cavab: 2, 1, 4

Fənn kurikulumlarının təlim nəticələrinə görə şagirdlərin dil qanunlarını mexaniki şəkildə əzbərləmələri deyil, reallığı məntiqi təfəkkürlə dərk etmələri və ifadə edə bilmələri tələb olunur. Dil materialından düşüncəli şəkildə istifadə etmədən, dil normalarına riayət etmədən fikrin düzgün ifadəsi və bu əsasda normal ünsiyyət qurmaq mümkün deyil. Buna görə də düşüncə, məntiqi əlaqələnmə yolu ilə müəyyənləşdirmə tələb edən tapşırıqlara üstünlük verilir. Bu baxımdan mətn üzərində iş əhəmiyyət kəsb edir. İmtahan nəticələri göstərir ki, bu sahədə hələ problemlər çoxdur.

19 may tarixli imtahanda abituriyentlərin zəif cavablandırdıqları tapşırıqlardan biri də məhz mətnlə bağlıdır. Mətnin ümumi məzmunu ilə ziddiyyət təşkil edən fikrin ifadə olunduğu cümlənin müəyyən edilməsini tələb edən tapşırığa A variantında yalnız abituriyentlərin 32,44%-i, B variantında isə 36,77%-i düzgün cavab verə bilmişdir.

Aşağıda A variantında verilmiş mətn və tapşırıqlar təqdim olunur.

İnsan niyə yaşlanır?

İnsan bədənindəki hüceyrələrin yeddi ildən bir yeniləndiyi elm aləminə məlumdur. Bəs insan nə üçün yaşlanır?

Müasir dövrdə insanların cavan qalmaq istəyi müxtəlif vasitələrlə tamamilə həll olunub. Kosmetik vasitələr, təbabət və sağlamlıq mərkəzləri gənc qalmaq istəyənlərə daim ümid versə də, insanların yaşlanması qaçılmazdır. Yaşlanmaq fırtınalı həyatın limanıdır.

Yaşlanma insan doğulduğu andan bədənin "proqramlaşdırılmış" fəaliyyətidir. Bu, hormonların qarşılıqlı təsiri nəticəsində baş verir. DNT-də baş verən müəyyən proseslər yaşlanmaya bilavasitə təsir edir. Bəs vaxtından tez qocalmanın səbəbi nədir?

Yağlı qida qəbulu, maddələr mübadiləsinin pozulması, artıq çəki yaşlanmanı sürətləndirən amillərdəndir. Hüceyrələrin fəaliyyətinə zərərli təsir edən hər bir maddə: alkoqol, tütün, radioaktiv maddələr və digər zərərli vərdişlər həm birbaşa, həm də immun sistemini zəiflətməklə yaşlanmaya təsir edir. Hər kəs orqanizminə düzgün qulluq göstərməklə və faydalı qida qəbul etməklə vaxtsız yaşlanmanın qarşısını ala bilər.

A variantı 28 saylı tapşırıq

Mətnə əsasən cədvəli tamamlayın.

Mətnin üslubuna uyğun olmayan cümlə	Həmin cümlənin aid olduğu üslub	Cümlənin aid olduğu üslubun səciyyəvi xüsusiyyətləri

Mümkün doğru cavab nümunələri:

Mətnin üslubuna uyğun olmayan cümlə	Həmin cümlənin aid olduğu üslub	Cümlənin aid olduğu üslubun səciyyəvi xüsusiyyətləri
Yaşlanmaq fırtınalı həyatın limanıdır.	Bədii	Obrazlılıq, emosionallıq, məcazilik, bədii təsvir və ifadə vasitələrindən istifadə, ritorik sualdan istifadə, epiqraflardan, sitatlardan geniş istifadə və s.

Bal şkalası	Meyarlar:
1 bal	a. Cədvəlin hər üç hissəsinə uyğun fikir yazılır, yanlış fikir yazılmır.
0,5 bal	b. Cədvəlin ən azı iki hissəsinə uyğun fikir yazılır, yanlış fikir yazılmır. c. Cədvəlin hər üç hissəsinə uyğun nümunə yazılsa da, bir yanlış cavab da yazılır. d. Cədvəlin ən azı iki hissəsinə uyğun fikir yazılsa da, bir yanlış fikir də yazılır. e. Cədvəlin ən azı bir hissəsinə uyğun fikir yazılsa da, yanlış fikir yazılmır.
0 bal	f. Cədvəlin bir hissəsinə uyğun nümunə yazılsa da, yanlış nümunə də yazılır. g. Cədvəlin iki hissəsinə uyğun nümunə yazılsa da, bir neçə yanlış nümunə də yazılır. h. Cədvəlin ən azı bir hissəsinə uyğun fikir yazılsa da, bir yanlış fikir də yazılır. i. Digər bütün hallarda.

Bu tapşırıq 10-cu sinfin 2.1.1. *Mətndəki söz və ifadələri üslubi xüsusiyyətlərinə görə fərqləndirir* və 2.1.2. *Söz və ifadələrə əsasən oxuduğu mətnin üslubunu müəyyənləşdirir* alt standartlarının tələblərinə uyğun olaraq, abituriyentin mətnin üslubi xüsusiyyətlərini fərqləndirmə, müəyyənetmə bacarıqlarını yoxlamaq (qiymətləndirmək) məqsədi daşıyır. Tapşırığın yerinə yetirilməsi üçün mətnin məzmununu mənimsəmək, mətnin və onun tərkibindəki ayrı-ayrı söz və ifadələrin daşıdığı funksiyaları (poetik, terminoloji, informativ) və həmin söz və ifadələrin aid olduğu üslubun xüsusiyyətləri müəyyən etmək, fərqləndirmək bacarığı tələb olunur. Buna görə də "İnsan niyə yaşlanır?" mətninin publisistik üsluba aid olduğunu, mətnin ikinci abzasının sonuncu cümləsinin ("Yaşlanmaq fırtınalı həyatın limanıdır") isə məcazilik ifadə edərək bədii üsluba aid olduğunu müəyyən etmək lazımdır. Bundan əlavə, cədvəl formasında təqdim olunan tapşırığın bir tələbi də həmin cümlənin aid olduğu üslubun (yəni bədii üslubun) səciyyəvi xüsusiyyətlərini müvafiq (III) boş xanaya yazmaqla bağlıdır.

Meyardan da göründüyü kimi, birinci boş xanaya "Yaşamaq fırtınalı həyatın limanıdır" cümləsi, ikinci boş xanaya həmin cümlənin aid olduğu üslubun adı (bədii), üçüncü boş xanaya bədii üslubun xüsusiyyətləri (obrazlılıq, emosionallıq, məcazilik və s.) yazılmalıdır.

Dərslikdə və MMV-də hər iki alt standartın (10-cu sinif 2.1.1; 2.1.2.) əhatə etdiyi bacarıqların, təxminən 30-dan çox mövzunun tədrisi zamanı reallaşdırıldığı göstərilir.

Statistik məlumata əsasən bu tapşırığa abituriyentlərin 43,87%-i düzgün cavab yazıb və tam balla, 4,16%-i yarım balla, 26,26%-i isə 0 balla qiymətləndirilib. 25,60% abituriyent tapşırığı cavablandırmaqdan imtina edib.

A variantı 29 saylı tapşırıq

Mətndə ümumi məzmuna zidd fikrin ifadə olunduğu cümləni müəyyən edib yazın.

Mümkün doğru cavab nümunələri:

Müasir dövrdə insanların cavan qalmaq istəyi müxtəlif vasitələrlə tamamilə həll olunub.

Bal şkalası	**Meyarlar:**
1 bal	a. Mətndəki cümlə müəyyən edilib yazılır, yanlış cümlə yazılmır.
0 bal	b. Mətndəki cümlə müəyyən edilib yazılsa da, yanlış cümlə də yazılır. c. Uyğun cümlə yazılmır.

Tapşırıq 7-ci sinif səviyyəsində *2.2.2. Mətnin tərkib hissələri arasındakı əlaqəni müəyyənləşdirir* alt standartı üzrə formalaşdırılmış bacarıqları yoxlamaq məqsədi daşıyır. Göründüyü kimi, mətnin ümumi məzmunu müxtəlif bioloji amillərin nəticəsində insan orqanizminin yaşlanmasının qaçılmaz olduğu haqqındadır. Lakin ikinci abzasın birinci cümləsindəki fikir bu ümumi fikrə ziddir: "*Müasir dövrdə insanların cavan qalmaq istəyi müxtəlif vasitələrlə tamamilə həll olunub*". Tapşırığa düzgün cavab yazmaq üçün mətnin məzmununu yaxşı mənimsəmək və mətndəki fikirlər arasında məntiqi əlaqələnməni müəyyən edə bilmək bacarığı tələb olunur.

Statistik məlumatdan da göründüyü kimi, bu tapşırığa abituriyentlərin 32,44%-i düzgün cavab yazıb və cavabları tam balla, 49,97% abituriyent 0 balla qiymətləndirilib, 5,73% isə tapşırığı cavablandırmaqdan imtina edib. Dərslikdə və MMV-də bu alt standartın (7 sinif 2.2.2) reallaşdırılması ilə bağlı kifayət qədər material təqdim edilsə də, təəssüf ki, 0 balla qiymətləndirilənlər doğru cavab yazanlardan çox olub.

A variantı 30 saylı tapşırıq

Mətnin məzmununa əsasən cədvəli tamamlayın.

Səbəb	***Nəticə***
	Yaşlanma insan iradəsindən asılı olmur.
Orqanizmə düzgün qulluq edilir.	

Mümkün doğru cavab nümunələri:

Səbəb	***Nəticə***
1. Yaşlanma insan doğulduğu andan bədənin "proqramlaşdırılmış" fəaliyyətidir; 2. Hormonların qarşılıqlı təsiri nəticəsində baş verir. 3. DNT-də baş verən müəyyən proseslər bilavasitə təsir edir. 4. Yağlı qida qəbulu, maddələr mübadiləsinin pozulması, artıq çəki yaşlanmanı sürətləndirir. 5. Hüceyrələrin fəaliyyətinə zərərli təsir edən hər bir maddə: alkoqol, tütün, radioaktiv maddələr və digər zərərli vərdişlər immun sistemini zəiflədir.	Yaşlanma insan iradəsindən asılı olmur.
Orqanizmə düzgün qulluq edilir.	Vaxtsız yaşlanmanın qarşısını alır.

Bal şkalası	Meyarlar:
1 bal	a. Cədvəlin hər iki hissəsinə uyğun fikir yazılır, yanlış fikir yazılmır.
0,5 bal	b. Cədvəlin ən azı bir hissəsinə uyğun fikir yazılır, yanlış fikir yazılmır. c. Cədvəlin hər iki hissəsinə uyğun nümunə yazılsa da, bir yanlış cavab da yazılır.
0 bal	d. Cədvəlin iki hissəsinə uyğun fikir yazılsa da, bir neçə yanlış fikir də yazılır. e. Cədvəlin bir hissəsinə uyğun fikir yazılsa da, digər hissəsinə yanlış fikir yazılır. f. Digər bütün hallarda.

Çətin səviyyəli bu tapşırıq 9-cu sinfin 2.2.3. alt standartına (*Mətndə irəli sürülmüş fikirləri dəyərləndirir*) uyğun olaraq, mətnin məzmununu mənimsəmək, mətndəki səbəb-nəticə əlaqəsini müəyyən etmək, bu amillər əsasında inteqrasiya yaratmaq, eləcə də təhlil, sintez bacarıqlarını yoxlamaq (qiymətləndirmək) məqsədi daşıyır. Dərslikdə və MMV-də bu alt standartla bağlı bacarıqların, təxminən, ondan çox mövzunun tədrisi zamanı reallaşdırılması nəzərdə tutulub.

Tapşırığın yerinə yetirilməsi üçün cədvəldə "Nəticə" kimi təqdim olunan "*Yaşlanma insan iradəsindən asılı olmur*" fikrinin səbəbini yazmaq tələb olunur. Meyardan da göründüyü kimi, "*Yaşlanma insan doğulduğu andan bədənin "proqramlaşdırılmış" fəaliyyətidir*", "*Hormonların qarşılıqlı təsiri nəticəsində baş verir*" və s. məzmunlu hər hansı bir fikir yazılmalıdır. Həm də cədvəldə "Səbəb" hissəsində təqdim olunan "*Orqanizmə düzgün qulluq edir*" fikrinin nəticəsini yazmaq tələb olunur. Meyardan da göründüyü kimi, "Nəticə" hissəsinə "*Vaxtsız yaşlanmanın qarşısını alır*" məzmunlu hər hansı uyğun fikir yazılmalıdır.

Statistik məlumatdan da göründüyü kimi, bu tapşırığa abituriyentlərin 60,82%-i düzgün cavab verərək tam balla; 25,07%-i yanlış cavab verərək 0 balla, 25,07%-i isə tapşırığa qismən düzgün cavab verərək meyarlara əsasən yarım balla qiymətləndirilib.

2018-2019-cu tədris ilində keçirilmiş qəbul imtahanlarında istifadə olunmuş tapşırıqların təhlili göstərir ki, tapşırıqlar tələb olunan səviyyəyə uyğundur, səhvə və dolaşıqlığa malik deyil. Bununla belə, bəzi mövzularda abituriyentlərin cavablarının zəifliyi fənnin tədrisində hələ də müəyyən problemlərin qaldığını göstərir.

Azərbaycan dili istisna olmaqla tədris digər dillərdə aparılan təhsil müəssisələrinin şagirdləri üçün ***Azərbaycan dili (dövlət dili)*** fənnindən imtahanlarda istifadə edilmiş test tapşırıqları fənn kurikulumunun 2 (**"Oxu"** və **"Yazı"**) məzmun xətti üzrə IX sinif səviyyəsində 3 əsas, 22 alt standartın, XI snif səviyyəsində isə 3 əsas və 28 alt standartın reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Tapşırıqlar şagirdlərin:

- oxuduğu mətndə sözlərin mənasını izah etmək;
- orfoepiya qaydalarını, vurğu, intonasiya və fasiləni gözləməklə mətni düzgün oxumaq;
- Azərbaycan dilində olan mətnlər üzərində işləmək, onların məzmunu haqqında mülahizələrini bildirmək;
- yazılı nitqində orfoqrafiya, qrammatika və durğu işarəsi qaydalarını tətbiq etmək;
- öz fikirlərini sərbəst, yazılı ifadə etmək

kimi bilik və bacarıqlarının yoxlanılması, qiymətləndirilməsi üçün nəzərdə tutulub.

Bu tapşırıqlar fənn kurikulumu üzrə mənimsənilmə səviyyəsinin yoxlanılması, qiymətləndirilməsi mümkün olan alt standartların tələbləri və dərsliklər əsasında hazırlanmış proqrama tam uyğun olub.

Qeyd etmək lazımdır ki, həm ümumi (9 illik), həm də tam (11 illik) orta təhsil səviyyəsindən şagirdlər dövlət dilindən imtahan veriblər.

İmtahanlarda dil qaydaları ilə bağlı məntiqi təfəkkürə əsaslanan, praktiki əhəmiyyətli test tapşırıqları ilə yanaşı, oxuyub-anlamanı, dilin praktiki tətbiqini yoxlamaq məqsədilə bədii və publisistik üslublarda olan ontapşırıqlı iki mətndən istifadə olunub. Bu tapşırıqlarla mətndəki əsas fikri müəyyən etmək, faktları tutuşdurmaqla məntiqi nəticə çıxarmaq, fikri ümumiləşdirmək, mətndə verilən bir neçə məlumatdan yeni informasiya əldə etmək və s. kimi bacarıqlar yoxlanılır.

Təklif edilən test tapşırıqlarının məzmunu şagirdlərin nəzəri materialı necə mənimsədiyini, onların praktik dil səviyyəsini, söz ehtiyatını və oxuyub-anlama bacarığını üzə çıxarmağa imkan verib.

İmtahan nəticələrinin təhlili şagirdlərin fənn üzrə hazırlıq səviyyəsinin ilbəil yüksəldiyini söyləməyə əsas verir. Lakin yenə də şagirdlər bəzi test tapşırıqlarının cavablandırılmasında çətinlik çəkiblər.

Test tapşırıqlarının təhlilinə əsasən demək olar ki, ümumtəhsil məktəblərində mətnlərin məzmununun mənimsənilməsi, məzmuna uyğun atalar sözlərinin tapılması, fakt və məlumatlara əsasən planın tərtib edilməsi işi ilə bağlı hələ də bir çox qüsurlar mövcuddur.

Şagirdlərin cavablandırmaqda çətinlik çəkdikləri bəzi tapşırıqların izahlı şərhi təqdim edilir.

IX sinif, 5 may tarixli imtahan, A variantı 18 saylı test tapşırığı

Mətni oxuyun və 11 – 20-ci tapşırıqları yerinə yetirin.

Cavanşir

*Hava açıldıqca Girdiman qalası aydın görünürdü. Girdiman dövlətinin bərəkətli torpaqlarına düşmən çoxdan göz dikmişdi, lakin yurdun igidləri yadellilərə aman vermirdilər. **1** Torpaqlarımızın bir hissəsi düşmən tapdağı altındadır.*

*Səhər açılar-açılmaz şeypur səsləri Girdiman camaatını böyük meydana topladı. **Vətənin göylərini qara buludlar alanda** həmişə belə olardı. Hamı Girdimanın igid sərkərdəsi Varazın nə deyəcəyini gözləyirdi. Hökmdar xalqa üz tutdu. Qocaman sərkərdənin səsindəki titrəyiş fəlakətin böyüklüyündən xəbər verirdi. Varaz dedi:*

– Övladlarım, müqəddəs Girdiman ölkəsi təhlükədədir. Üstümüzə amansız düşmən gəlir. Hər zaman düşmənə layiqli cavab vermişik. Girdiman adı gələndə hamı hörmətlə baş əyib. İndi qocalmışam, əllərim titrəyir. Sərkərdəniz kim olacaq?

*Ağsaçlı qoca hörmətlə: **2***

– Böyük hökmdar, özün göstər. Dostumuzu da, düşmənimizi də tanıyan sənsən, – dedi.

*Varaz bu fikirlə razılaşmadı. Çünki tək qərar vermək istəmədi. **3** Ona görə də xalqa müraciət edərək:*

– Könüllülər meydana çıxsın, – dedi.

Könüllülər arasında hökmdarın oğlu igid Cavanşir də vardı:

– Ata, sərkərdəlik qılıncını mənə verin. Düşmən sərkərdəsinin qılıncını əlindən alacağıma söz verirəm.

***4** Qılınclar parladı. Qoşun hərəkətə gəldi. **5** Əhali rahat nəfəs aldı: Varaz qocalıbsa da, Cavanşir sağ olsun!*

Mətndə ifadə olunan əsas fikrə uyğundur:

A) Ot kökü üstə bitər.

B) Sonrakı peşmançılıq fayda verməz.

C) İgid ölər, adı qalar.

D) Mərdi qova-qova namərd eləmə.

E) Uzaqdan baxana döyüş asan gələr.

Tapşırıq V sinif səviyyəsində *3.1.3. Mətndəki əsas fikrə uyğun fakt və hadisələri müəyyənləşdirir* alt standartının tələbi üzrə formalaşdırılmış bacarıqları yoxlamaq məqsədi daşıyır. Tapşırığın yerinə yetirilməsi üçün əvvəl mətni diqqətlə oxumaq, məzmununu mənimsəmək lazımdır.

Mətnin məzmununu aydın, dəqiq anlayan 24,37% şagird Cavanşirin igidlikdə, mərdlikdə, qorxmazlıqda, cəsurluqda atası Varaza bənzədiyini, onun yolunu davam etdirdiyini başa düşmüş və doğru cavab kimi A bəndini seçmişdir. Yəni "Ot kökü üstə bitər" atalar sözünü mətndə ifadə olunan əsas fikrə uyğun hesab etmişdir. 50,34% şagird C bəndini (İgid ölər, adı qalar), 10,86% şagird isə E bəndini (Uzaqdan baxana döyüş asan gələr) doğru hesab etmişdir.

Doğru cavab: A

IX sinif, 5 may tarixli imtahan, B variantı 25 saylı test tapşırığı

Mətni oxuyun və 21 – 30-cu tapşırıqları yerinə yetirin.

Parça sənəti

XVI–XVII əsrlərdə yüksək inkişaf mərhələsinə Azərbaycanda toxuculuq sənəti çatır. Bu dövrdə Azərbaycanda parça istehsalına başlanmışdır. [1] *Azərbaycanda olmuş məşhur fransız səyyahlarından biri olan Şarden burada yüz növdən artıq müxtəlif parçaların toxunduğunu öz gündəliyində qeyd etmişdir.*

Vaxtilə yüksək qiymətləndirilən bu gözəl sənət nümunələrinə İtaliya, Hollandiya, Fransa, İngiltərə, Rusiya və başqa Avropa ölkələrində böyük ..... olmuşdur.

Azərbaycan parçalarının belə böyük [şöhrət] *qazanmasına səbəb təkcə onların gözəl toxunuşu və davamlı olması deyildi.* [2] *Bu parçaların qiymətli cəhəti bir də ondan ibarət idi ki, bədii xüsusiyyət daşıyan naxışlarla bəzədilirdi. Hətta müharibə və ov səhnələrini təsvir edən parçalar da mövcud idi.* [3]

Alı və zərli adlı parçalar qızıl və gümüş saplarla toxunduğu üçün dünya bazarlarında daha baha qiymətə satılırdı. Belə parçaların saplarını adi toxucular deyil, zərgərlər hazırlayırdılar. [4]

Gül-çiçək rəsmləri ilə bəzədilmiş parçalar Azərbaycan toxuculuq sənətində çoxluq təşkil edirdi. Bu parçaların böyük bir qismi hazırda Azərbaycan Tarixi Muzeyində və Azərbaycan Dövlət İncəsənət Muzeyində nümayiş etdirilir. Moskva, Sankt-Peterburq, həmçinin dünyanın bir çox məşhur muzeylərində də Azərbaycan parçalarının çoxlu qiymətli nümunələri saxlanılır. [5]

Hansı fikir mətnin əsas hissəsinə aiddir?

A) toxuculuq istehsalında rəsmlərdən istifadə edilməsi

B) Azərbaycan parça nümunələrinin muzeylərdə saxlanılması

C) əcnəbilərin Azərbaycan parçaları ilə bağlı qeydləri

D) toxuculuq sənətinin yüksək mərhələyə çatması

E) parçaların eksponat kimi təqdim edilməsi

Bu test tapşırığının yerinə yetirilməsi üçün "Oxu" məzmun xətti ilə bağlı VI sinif səviyyəsində *3.1.3. Mətnin tərkib hissələrini (giriş, əsas hissə, nəticə) müəyyənləşdirir* alt standartının tələbi olan bilik və bacarıqlar nümayiş etdirilməlidir. Belə ki, mətni diqqətlə oxuyan şagird onu tərkib hissələrinə ayırmağı, **giriş, əsas hissə, nəticə**yə görə fərqləndirməyi bacarmalıdır. Mətnin I abzasının giriş, son abzasının nəticə, qalan parçaların **əsas hissə** olduğunu müəyyən edə bilən şagirdlər doğru cavabı dəqiqləşdirməkdə çətinlik çəkməmişlər.

Beləliklə, **C** və **D** bəndlərindəki fikirlər mətnin **giriş** hissəsinə aiddir. (Azərbaycanda toxuculuq sənətinin yüksək mərhələyə çatması, əcnəbilərin Azərbaycan parçaları ilə bağlı öz gündəliklərində qeydlər etməsi). **B** və **E** bəndlərindəki fikirlər isə mətnin **nəticə** hissəsinə aiddir. (Azərbaycan parça nümunələrinin muzeylərdə saxlanılması, parçaların eksponat kimi təqdim edilməsi). **A** bəndindəki fikir isə mətnin **əsas** hissəsinə aiddir. Əsas hissədə yazılıb: "*Bu parçaların qiymətli cəhəti bir də ondan ibarət idi ki, bədii xüsusiyyət daşıyan naxışlarla bəzədilirdi*". A bəndindəki fikir də buna uyğundur: "*toxuculuq istehsalında rəsmlərdən istifadə edilməsi*". Deməli, tapşırığın A bəndindəki cavab doğrudur.

Təəssüf olsun ki, cəmi 10,90% şagird doğru cavabı müəyyən edə bilmiş və **A** bəndini seçmişdir. 47,01% **D** bəndini, 20,29% **B** bəndini, 12,51% **C** bəndini, 3,75% **E** bəndini doğru hesab edərək, yanlış seçim etmişdir.

Doğru cavab: A

IX sinif, 29 may tarixli imtahan, A variantı 6 saylı test tapşırığı

Hansı söz birləşməsinin birinci tərəfi quruluşuna görə digərlərindən fərqlənir?

A) yaşıl yarpaq B) ətirli gül C) təzə çiçəklər

D) məktəb həyəti E) qəhrəmanın arzusu

Tapşırıq sözün quruluşca növləri ilə bağlıdır. İlk baxışda sadə tapşırıq təsiri bağışlasa da, imtahan verən şagirdlərin cavabları göstərir ki, hələ də sözün quruluşunun fərqləndirilməsi ilə bağlı çətinlik çəkən şagirdlər var.

A bəndindəki "*yaşıl yarpaq*" birləşməsində leksik və qrammatik şəkilçi yoxdur, sadə sözlərdir. **C** bəndindəki "*təzə çiçəklər*" birləşməsində birinci sözdə heç bir şəkilçi yoxdur, ikinci sözdə isə *-lər* cəm şəkilçisi var, hər iki söz quruluşca sadədir. **E** bəndindəki "qəhrəmanın arzusu" birləşməsinin birinci tərəfində *-ın* şəkilçisi vardır ki, bu da yiyəlik hal şəkilçisidir, yəni qrammatik şəkilçidir. Qrammatik şəkilçi isə düzəltmə söz yaratmır. **B** bəndindəki "*ətirli gül*" birləşməsindəki "*ətirli*" sözü quruluşca düzəltmədir, isimdən düzəlmiş sifətdir: ətir + li = ətirli (düzəltmə sifətdir). Deməli, tapşırığın A, C, D, E bəndlərindəki birinci söz quruluşca sadə, yalnız **B** bəndindəki söz düzəltmədir.

Tapşırığı cavablandırarkən 45,21% şagird **E** bəndini (qəhrəmanın arzusu), 17,81% isə **D** bəndini (məktəb həyəti) doğru hesab etmişdir. Yalnız 16,44% şagird doğru cavabı müəyyən edə bilmiş və **B** bəndini işarələmişdir.

Doğru cavab: B

XI sinif, 5 may tarixli imtahan, B variantı 1 saylı tapşırıq

"*Doğru*" sözü hansı cümlədə zərf kimi işlənmişdir?

A) İnamla gələcəyə doğru addımlayırıq. B) Doğru danışanın başı uca olar.

C) Doğru yolla gedən yorulmaz. D) Oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı.

E) Doğruya zaval yoxdur.

Bu test tapşırığı ümumiləşdirici xarakter daşıyıb, qrammatik bilik və bacarıqların yoxlanılmasına xidmət edir. Məlumdur ki, Azərbaycan dilində bir sıra sözlər vardır ki, cümlədəki yerindən, daşıdığı mənadan asılı olaraq, bir neçə nitq hissəsi kimi (həm əsas, həm də köməkçi nitq hissəsi kimi) işlənə bilir: sonra, doğru, əvvəl, başqa, qeyri, əlavə, kimi, qabaq, tərəf və s. Məsələn, *1.* ***Sonra*** *görüşərik. 2. Əvvəl yaz,* ***sonra*** *cavab ver* nümunələrindəki "*sonra*" sözü cümlənin əvvəlində, həmcins üzvlərin arasında işləndikdə nitq hissəsi kimi **zərf** olur, **nə vaxt** sualına cavab verir və cümlənin müstəqil **zərfliyi** olur. "*Sonra*" sözü çıxışlıq halda olan sözə qoşulduqda isə **qoşma** hesab edilir və aid olduğu sözlə birlikdə bir cümlə üzvü olur (3. Dərs**dən sonra** görüşərik). Deməli, 1-ci və 2-ci cümlələrdəki "*sonra*" sözü zərf, 3-cü cümlədəki "*sonra*" sözü isə qoşmadır.

Test tapşırığının **A** bəndindəki cümlədə "*doğru*" sözü yönlük halda olan ismə qoşulub, məna kəsb edir, qoşulduğu sözlə birlikdə bir suala cavab verir və cümlə üzvü olur, deməli, **qoşmadır. C** bəndindəki cümlədə "*doğru*" sözü "*yol*" isminə aiddir, onu təyin edir və **sifət**dir. **D** və **E** bəndlərindəki cümlələrdə "*doğrunun*" və "*doğruya*" sözləri **isimləşmiş sifətdir.** Aid olduğu ismin şəkilçisini qəbul edib, onun yerində işlənib, hallanıb, sifətin sualına yox, ismin sualına cavab verib. **B** bəndindəki cümlədə isə "***doğru*****"** sözü feili sifətə aid olduğu üçün nitq hissəsinə görə **zərf** hesab edilir: Doğru (zərf) danışanın (feili sifət) başı uca olar (mürəkkəb feil).

34,88% şagird bu test tapşırığına doğru cavab verib. 37,96% şagird yanlış olaraq, **A** bəndini, 12,07% **C** bəndini, 8,36% **D** bəndini, 4,35% isə **E** bəndini doğru hesab edib.

Doğru cavab: B

XI sinif, 5 may tarixli imtahan, A variantı, 26 saylı test tapşırığı

Mətni oxuyun və 21 – 30-cu tapşırıqları yerinə yetirin.

İpucu vermək

Dilimizdə "ipucu vermək" ifadəsi işlədilir. Bu ifadə çətin, olduqca mürəkkəb vəziyyətdən, ***problemdən*** *çıxış yolunu tapmaq istiqamətində ilk düzgün addımı atmağa kömək etmək, ... mənasında işlədilir.*

İfadə qədim yunan mifologiyası ilə bağlı yaranmışdır. Etiqada görə, bu dünyada hər kəsin həyatı və taleyi sirli iplə göylərə bağlıdır. İndi də dünyanın bir çox dillərində işlənən "ipucu vermək" ifadəsi məhz bu rəvayətdən qaynaqlanaraq yaranmışdır.

Yunan rəvayətlərinin birində deyilir ki, afinalılardan qisas alan Krit çarı Minos ağır xərac istəyir. Hər səkkiz ildən bir şəhər sakinləri adamyeyən – bədheybət Minotavr üçün yeddi oğlan və yeddi qız göndərməli idi. Minotavr isə labirintdə yaşayırdı. Həmin labirintə girən adam çıxış yolunu tapa bilmədiyindən heç cür geri qayıda bilməzdi.

Cəsur və xeyirxah qəhrəman Tesey afinalıları bu dəhşətli cəzadan xilas etmək qərarına gəlir. Dünyada müxtəlif cəza növləri var. Tesey xərac olaraq bədheybət üçün göndərilən yeddi oğlan və yeddi qızla birlikdə Kritə yollanır. 1. O, bədheybətin yaşadığı labirintə gəlir. 2. Çar Minosun qızının gənclərə yazığı gəlir. 3. İgid Teseyə kömək etmək qərarına gəlir. 4. O, qəhrəmana ip yumağı verir, Tesey yumağın bir ucunu labirintin girişinə bağlayıb yumağı özü ilə aparır. 5. Qəhrəman bədheybəti məhv edir. O, labirintdə olan gəncləri ipin köməyi ilə oradan çıxarır.

Mətnin çərçivədəki hissəsinin üslubu ilə bağlı doğru fikirləri müəyyən edin.

1. Şərh etmək, izah etmək bu üslub üçün səciyyəvidir.
2. Danışıq dilinə yaxındır.
3. Bu üslubun əsas göstəricisi terminlərdir.
4. Ədəbi dilin qayda-qanunlarına tabedir.
5. Standart formada və yığcam şəkildədir.

A) 1, 5 B) 2, 5 C) 1, 3 D) 2, 4 E) 3, 4

Bu test tapşırığı məntiqi – izahedici səciyyə daşıyır. Tapşırığı yerinə yetirmək üçün **üslubiyyat**la bağlı kifayət qədər nəzəri biliyə malik olmaq və bu biliyi mətnə tətbiq etmək bacarığı tələb olunur.

Hər hansı bir dilin üslublarını, üslubi imkanlarını öyrənən dilçilik bölməsinə **üslubiyyat** deyilir. Azərbaycan ədəbi dili funksional üslublar sisteminə malikdir. Məhz həmin əlamətlərlə üslublar bir-birindən fərqlənir. Həmin üslublar və onların hər birinin özünəməxsus əlamətləri aşağıdakılardır:

	Funksional üslublar	***Fərdi əlamətləri***	***Ortaq əlamətləri***
1.	Bədii üslub	Obrazlılıq və emosionallıq, sözün poetik funksiyası bu üslub üçün əsasdır. Bədii əsərlərin (şeirin, hekayənin, romanın, dramın və s.) dilidir.	Ədəbi dilin normalarına (fonetik, leksik, qrammatik) tabe olur.
2.	Elmi üslub	Məntiqlilik, ardıcıllıq, konkretlik, termin sıxlığı bu üslub üçün əsas əlamətlərdir. Düsturlardan, qrafik vasitələrdən, sxemlərdən daha çox istifadə olunur.	
3.	Publisistik üslub	Kütləvi anlaşıqlılıq, aydınlıq, təsirlilik bu üslub üçün əsas əlamətlərdir. Olduqca müxtəlif mövqeləri əks etdirir, mətbuatda funksionallaşır. Qəzet, jurnal, radio, televiziya, elmi-kütləvi kitabların dilidir.	
4.	Rəsmi-işgüzar üslub	Standart formalardan, arxaik leksikadan, əski (keçmiş) sintaktik konstruksiyalardan istifadə olunur. Rəsmi və işgüzar sənədlərin dilidir.	
5.	Məişət üslub	Nitqin sərbəstliyi əsas şərtdir. Təbii və dialoji nitqdir.	

Bu cədvələ əsasən mətnin çərçivədəki hissəsinin üslubu ilə bağlı doğru fikirləri müəyyən edək.

Mətnin dili sadə danışıq dilinə yaxındır, hər kəs tərəfindən anlaşılandır. Buna görə də *2. Danışıq dilinə yaxındır* bəndi doğru cavabdır. Bütün funksional üslublar üçün ortaq bir cəhət vardır ki, hamısı ədəbi dilin normalarına tabe olur. Bu mətndə ədəbi dilin normaları gözlənilib və tapşırığın 4-cü bəndindəki fikir də doğrudur. Elmi üslubda müxtəlif anlayışlar arasındakı əlaqəni dərk etmək üçün hər hansı bir termin, mövzu izah edilir. Lakin bu mətndə heç bir fikir şərh olunmayıb. Buna görə 1-ci bənddəki fikir səhvdir. Tapşırığın 3-cü bəndindəki fikir (Bu üslubun əsas göstəricisi terminlərdir) də elmi üsluba aiddir. 5-ci cümlədəki fikir (standart formada və yığcam şəkildədir) rəsmi – işgüzar üsluba aiddir. Mətnin dili isə standart, yığcam ifadələrdən ibarət olmayıb, rəsmi-işgüzar üslubun xüsusiyyətlərinə malik deyil.

26,47% şagird **A** bəndini, 21,01% **B** bəndini, 12,71% **C** bəndini, 11,20% **E** bəndini qeyd etməklə yanlış seçim etmişdir. Yalnız 22,93% şagird tapşırığın doğru cavabını müəyyən edə bilmiş və **D** bəndini qeyd etmişdir.

Doğru cavab: D

Hər bir şagird Azərbaycan Respublikasının dövlət dili olan Azərbaycan dilini, onun normalarını, qayda-qanunlarını gözəl bilməli, buna yazılı və şifahi nitqdə əməl etməlidir. Şagirdlər dərslik və dərs vəsaitlərindən yaradıcı şəkildə istifadə etməli, söz ehtiyatını artırmalı, Azərbaycan dilini hərtərəfli və sistemli şəkildə öyrənməlidirlər.

Azərbaycan bölməsində ***ədəbiyyat*** fənnindən III ixtisas qrupu üzrə qəbul imtahanlarında istifadə edilən test tapşırıqları şifahi xalq ədəbiyyatı, qədim dövr ədəbiyyatı, orta dövr ədəbiyyatı, yeni dövr ədəbiyyatı, Azərbaycan ədəbiyyatında tənqidi realizm və romantizm dövrü, sovet dövrü Azərbaycan ədəbiyyatı, Azərbaycan ədəbiyyatında milli özünüdərkə qayıdış və istiqlalçılıq mərhələsi, müstəqillik dövrü çoxmetodlu Azərbaycan ədəbiyyatı, dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, mövzulararası əlaqə bölmələrini əhatə edib.

Tapşırıqlar ədəbiyyat fənn kurikulumu üzrə 2 məzmun xətti (**“Ədəbiyyat və həyat həqiqətləri”, “Yazılı nitq**), həmçinin 3 əsas və 61 alt standartın reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edir.

Tapşırıqlar abituriyentlərin

- oxuduğu bədii nümunələri bədii-emosional və obrazlı qavradığını nümayiş etdirmək;
- bədii nümunələrin mövzu, süjet, kompozisiya, bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirmək və təqdim etmək;
- bədii nümunələri mövzu, janr, problem baxımından müqayisə etmək;
- bədii nümunələrin məzmununa və ideyasına yarandığı dövrün ictimai-siyasi və əxlaqi-etik dəyərləri kontekstində qiymət vermək;
- bədii nümunələrin məzmun və ideyası ilə bağlı fikirlərini əsaslandırmaqla şərh etmək

kimi bilik və bacarıqlarının yoxlanılması, qiymətləndirilməsi üçün nəzərdə tutulub.

Ötən illərdən fərqli olaraq, abituriyentlər bu il ilk dəfə yeni təhsil proqramına (kurikuluma) uyğun olaraq 5-11-ci siniflər həcmində ədəbi materiallardan hazırlanmış test tapşırıqlarını cavablandırmışlar. Bu baxımdan yanaşdıqda yaxşı haldır ki, 5-11-ci siniflərdə tədris olunan bədii əsərlərin, yaxud bədii parçaların mənimsənilməsində müəyyən qədər irəliləyiş özünü göstərir. Belə ki, 19 may tarixli imtahanda M.Füzulinin “Leyli və Məcnun” poemasının məzmunu ilə bağlı test tapşırıqlarında (A variantı 74, B variantı 72 saylı) nəticələr yüksək olmuşdur (84,86%, 82,63%). Eyni fikri 7 iyul tarixli imtahanda həm “Kitabi-Dədə Qorqud” eposunun “Qazan bəyin oğlu Uruz bəyin dustaq olduğu boy”u ilə bağlı verilən hadisələrin düzgün ardıcıllığının müəyyənləşdirilməsi (A variantı 77, B variantı 69 saylı), həm də M.Ə.Sabirin “Neylərdin, ilahi?!” şeiri ilə bağlı test tapşırıqlarına (A variantı 62, B variantı 76 saylı) da aid etmək olar. Həmin test tapşırıqlarına abituriyentlərin cavabları müvafiq olaraq belə olmuşdur: 47,01%, 70,65% və 64,38%, 71,00%. 7 iyul tarixli imtahanda C.Məmmədquluzadənin “Anamın kitabı” əsəri ilə bağlı ümumiləşdirmə səciyyəli test tapşırığının cavablandırılmasında da eyni vəziyyət müşahidə edilir (A variantı 71, B variantı 61 saylı). Abituriyentlərin test tapşırıqlarına verdiyi düzgün cavablar belə olub: 77,85%, 78,82%.

19 may tarixli imtahanda Nizaminin “Sirlər xəzinəsi” poemasına daxil olan “Sultan Səncər və qarı” mənzum hekayəsi ilə bağlı verilən test tapşırıqlarına (A variantı 84, B variantı 85 saylı) düzgün cavab verənlərin 56,02% və 60,99% təşkil etməsi Nizami irsinin öyrənilməsi sahəsində müəyyən irəliləyişin olduğunu göstərir. 7 iyul tarixli imtahanda “İsgəndərnamə” poeması ilə bağlı test tapşırığında isə daha yüksək nəticə müşahidə edilir (A variantı 66, B variantı 65 saylı). Belə ki, abituriyentlərin bu test tapşırıqlarına düzgün cavabı 81,43% /76,69% nisbətində olub.

19 may tarixli imtahanla müqayisədə (A variantı 80, B variantı 76 saylı test tapşırıqları), 7 iyul tarixli imtahanda (A variantı 67, B variantı 70 saylı test tapşırıqları) dramatik əsərlərin mətni ilə bağlı test tapşırıqlarına düzgün cavab verənlərin nisbətən üstünlük təşkil etməsi bu iki imtahan arasında olan müddətdə abituriyentlərin ədəbi növlərə, xüsusilə dramatik növdə yazılan əsərlərə xüsusi diqqət yetirdiklərinin əyani göstəricisidir. Həmin test tapşırıqlarına abituriyentlərin cavabları müvafiq olaraq belə olub: 19 may tarixli imtahanda 44,02%, 22,16%, 7 iyul tarixli imtahanda isə 71,85%, 72,74%.

Təhlillər göstərir ki, bəzi ədəbi nümunələrə aid test tapşırıqlarının cavablandırılmasında abituriyentlər çətinlik çəkiblər. Ə.Cavadın “Səsli qız” əsəri ilə bağlı test tapşırığının cavablandırılmasında həm 19 may tarixli imtahanda (A variantı 87, B variantı 87 saylı), həm də 7 iyul tarixli imtahanda (A variantı 84, B variantı 86 saylı) abituriyentlərin göstərdiyi nəticələrin aşağı səviyyədə olması bunun əyani sübutudur (müvafiq olaraq: 32,25%, 25,89%; 6,74%, 36,07%). Eyni fikri 19 may tarixli imtahanda İ.Hüseynovun “Zəhər” hekayəsi ilə bağlı istifadə edilmiş test tapşırığına (A variantı 85, B variantı 86 saylı) da aid etmək olar: 12,17%, 31,03%.

Eləcə də abituriyentlərin bəzi sənətkarların yaradıcılığı ilə bağlı test tapşırıqlarının cavablandırılmasında göstərdiyi nəticələr də aşağı səviyyədə olub. 19 may tarixli imtahanda B.Vahabzadənin (A variantı 66 saylı), 7 iyul tarixli imtahanda isə Mir Cəlalın (A variantı 81 saylı) yaradıcılığı ilə bağlı test tapşırıqlarının nəticələri deyilənləri təsdiqləyir: 39,22%; 32, 80%.

9-cu sinif

1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini və konfliktini şərh edir, onlara əsaslandırılmış münasibət bildirir.

19 may tarixli imtahan, A variantı, 66 saylı test tapşırığı

B. Vahabzadənin poemaları ilə bağlı düzgün fikri müəyyənləşdirin.

A) “İstiqlal” – XIX əsrdə xalqımızın azadlıq uğrunda mübarizəsindən bəhs edir.

B) “Təzadlar” – Qarabağ müharibəsi fonunda azadlıq düşüncələrini əks etdirir.

C) “Gülüstan” – milli azadlıq mübarizəsinin qəhrəmanlarının bədii obrazı yaradılmışdır.

D) “Ağlar-güləyən” – ilk poemasıdır, M.Ə. Sabirin bədii obrazı yaradılmışdır.

E) “Xəzan bülbülü” – M. Hadiyə həsr olunmuşdur.

Həm 9-cu, həm də 11-ci sinfin "Ədəbiyyat" dərsliyi əsasında B.Vahabzadənin poema yaradıcılığı ilə bağlı hazırlanmış test tapşırığıdır. Tapşırığın yerinə yetirilməsi üçün şairin yaradıcılığına dərindən bələd olmaq tələb olunur. Məlumdur ki, 9-cu sinifdə xüsusi tədris olunan "İstiqlal" poeması "Gülüstan" poemasının davamı kimi 1999-cu ildə qələmə alınmışdır. Odur ki, A bəndi tapşırığın düzgün cavabı kimi özünü doğrultmur. Eləcə də şair özünün azadlıq düşüncələrini "Təzadlar" poemasında Qarabağ müharibəsi fonunda deyil, Vyetnam müharibəsi fonunda vermişdir (B bəndi). Şairin tarixi mövzuda yazdığı "Gülüstan" poemasında deyil, "Şəhidlər" poemasında milli azadlıq mübarizəsinin qəhrəmanlarının bədii obrazı yaradılmışdır (C bəndi). "Ağlar-güləyən" M.Ə.Sabirə həsr olunsa da, müəllifin ilk poeması deyildir (D bəndi). Şairin ilk poeması M.Hadiyə həsr olunmuş "Xəzan bülbülü"dür (E bəndi). Təəssüf ki, abituriyentlər B.Vahabzadənin poema yaradıcılığına yaxşı bələd olmadıqları üçün doğru cavabı müəyyənləşdirməkdə çətinlik çəkiblər.

Doğru cavab: E

Təhlillər göstərir ki, abituriyentlər bəzən test tapşırığının şərtinə diqqət yetirmədikləri üçün düzgün cavabı müəyyənləşdirməkdə çətinlik çəkmişlər.

10-cu sinif

1.2.4. Bədii nümunələrin mövzusunu, ideya-bədii xüsusiyyətlərini bağlı olduğu dövrün sosial-siyasi, mənəvi dəyərləri baxımından təhlil edir və nəticə çıxarır.

19 may tarixli imtahan, B variantı, 64 saylı test tapşırığı

S.Ə. Şirvaninin "Guş qıl..." şeirinin məzmunu ilə bağlı doğru fikirləri müəyyən edin.

1. Bəndlər şəklində, müxəmməs janrındadır.
2. Şair müğənninin nəfəsini İsa peyğəmbərin nəfəsinə bərabər tutur.
3. Şairə görə, musiqi insanın ölmüş ruhunu yenidən diriltməyə qadirdir.
4. Əruzun rəməl bəhrindədir.
5. Şair oxucunu musiqini haram sayan zahidin boş, "əfsanə" sözlərinə uymamağa səsləyir.

A) 1, 3, 5 B) 2, 3, 4 C) 2, 3, 5 D) 1, 4 E) 2, 4

Tapşırığa abituriyentlərin yalnız 30,65%-i doğru cavab verib, 27,77%-i A bəndini doğru cavab kimi götürüb, 15,98%-i isə cavab verməkdən imtina edib.

Test tapşırığında S.Ə.Şirvaninin 10-cu sinifdə tədris olunan "Guş qıl..." müxəmməsi ilə bağlı verilən bütün fikirlər doğrudur. Lakin tapşırığın düzgün cavabını müəyyənləşdirmək üçün onun şərtinə diqqət yetirmək lazımdır. 1-ci və 4-cü fikirlər əsərin forma xüsusiyyətlərinə aid olduğu üçün doğru cavab hesab edilə bilməz. 2-ci, 3-cü və 5-ci fikirlər şeirin məzmunu ilə bağlı olduğuna görə doğru cavabdır.

Doğru cavab: C

10-cu sinif

1.1.4. ***Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir.***

7 iyul tarixli imtahan, A variantı, 82 saylı test tapşırığı

Füzulinin "Söz" qəzəli haqqında ***yanlış*** fikri müəyyənləşdirin.

A) Bu qəzəl süjetli lirikanın gözəl nümunəsi sayılır.

B) Əsərdə hər bir insanın sözə dəyər verməsinin zəruriliyi də öz əksini tapmışdır.

C) Qəzəldə insanın, sənətkarın həyatında sözün rolu barədə fikirlər də ustalıqla ifadə edilmişdir.

D) Şeirdə söz sənətinin qarşısında qoyulan tələblər də öz əksini tapmışdır.

E) Əruz vəzninin rəməl bəhrində yazılmışdır.

Tapşırığa abituriyentlərin 29,42%-i doğru cavab verib, 25,80%-i cavab verməkdən imtina edib. Test tapşırığının yerinə yetirilməsi üçün M.Füzulinin 8-ci sinifdə tədris edilən "Söz" qəzəlinə bələd olmaq lazımdır. Şair qəzəldə hər bir insanın sözə dəyər verməsinin zəruriliyini onun özünə dəyər verməsi kimi qiymətləndirir (B bəndi). Eləcə də qəzəldə insanın, sənətkarın həyatında sözün rolu və söz sənətinin qarşısında qoyulan tələblər də özünün bədii ifadəsini tapmışdır (C və D bəndləri). Yaradıcılığında ancaq əruz vəznindən istifadə edən Füzuli "Söz" qəzəlini əruzun ədəbiyyatımızda ən işlək bəhrlərindən olan rəməldə yazmışdır (E bəndi). "Söz" qəzəli lirik növdə yazıldığı və onda heç bir süjet əlaməti olmadığı üçün A bəndi səhv fikir hesab edilməlidir. Tapşırığın şərti səhv fikri müəyyənləşdirməyi tələb edir.

Doğru cavab: A

Builki imtahanlarda ədəbiyyat fənnindən ilk dəfə mətn tapşırıqlarından istifadə olunmuş və abituriyentlər bu tapşırıqlara yazılı cavab vermişlər. Digər tapşırıqlarda olduğu kimi, mətn tapşırıqlarının cavablandırılmasında da abituriyentlərin göstərdiyi nəticələr 19 may imtahanına nisbətən 07 iyul imtahanında daha yüksək olmuşdur. Məsələn, 19 may tarixli imtahanda abituriyentlərin göstərdiyi nəticələr A variantı 88, 89 və 90 saylı test tapşırıqları üzrə müvafiq olaraq, 15,88, 63,44 və 33,86%, 7 iyul tarixli imtahanda isə A variantına aid eyni saylı mətn tapşırıqları üzrə nəticələr müvafiq olaraq, 25,97, 67,64 və 69,21% təşkil etmişdir. Təhlillər göstərir ki, mətn tapşırıqları üzrə şagirdlərin göstərdiyi ən aşağı nəticə mətnlərin janrı və ədəbi növlərlə bağlı tapşırıqlardadır.

19 may tarixli imtahan, B variantı

Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və 88 – 90 saylı tapşırıqları <u>Cavab vərəqində</u> yerinə yetirin.

"**Kəsildi**"

Nagah badi-sərsər əsdi üzümə,
Ömür bostanımın tağı kəsildi.
Öz əlimdən xəta dəydi özümə,
Bədəndən qolumun sağı kəsildi.

<u>Qəza tutdu, kədər məni budadı,</u>
Ağlatdı dostları, güldürdü yadı,
Zəhirmara döndü ağzımın dadı,
<u>Əlimdə şərbətim ağı kəsildi.</u>

Könlüm yasdan çıxmır, qəlbim qaradan,
Bu dərdü möhnətdən, bu macəradan.
Dövlət getdi, hörmət qalxdı aradan,
Qapımızdan dost ayağı kəsildi.

Müqərrərdi, qaçmaq olmaz ölümdən,
Fələyin qılıncı dəydi belimdən,
Bir tülək tərlanım getdi əlimdən,
Ürəyimin bəndi, bağı kəsildi.

<u>Qul Ələsgər, işin müşgüldü, müşgül</u>,
Dərdini deməyə yoxdu əhli-dil.
Döy başına, fəğan eylə müttəsil,
<u>Daha deyib-gülmək çağı kəsildi</u>.

(Aşıq Ələsgər)

88. Mətnləri janr xüsusiyyətləri baxımından müqayisə edərək hər hissəyə aid iki xüsusiyyət yazmaqla Eyler-Venn diaqramını doldurun.

"**Küsmüşəm**"

(*ixtisarla*)

Mehribanlıq görməyib bir məhliqadən küsmüşəm,
Gündə yüz al eyləyən qəlbi qaradən küsmüşəm.

Şəninə dedim şirin soz, bir şey ondan dadmadım,
Bu səbəbdən ağzı şəkkər dilrubadən küsmüşəm.

...Gördüm əvvəl ki, binası yarlıq etmək deyil.
Vaqifa, əsli budur mən bu binadən küsmüşəm.

(*M.P.Vaqif*)



Mümkün doğru cavab nümunələri:

"Kəsildi" əsəri:

Qoşma janrındadır;

Heca vəznindədir;

Şeir vahidi bənddir, dördlük şəklindədir;

Birinci bəndin birinci və üçüncü; ikinci və dördüncü misraları bir-birilə həmqafiyədir (abab). Sonrakı bəndlərin birinci, ikinci və üçüncü misraları bir-birilə, dördüncü misra isə birinci bəndin sonuncu misrası ilə həmqafiyədir (cccb, dddb, ...).

Oxşar cəhətləri

Lirik növdədir;

Son beytin (bəndin) misralarından birində (bəzən bir neçəsində) müəllifin adı və ya təxəllüsü verilir;

Nəzmlə yazılmışdır;

Rədifdən istifadə edilmişdir.

"Küsmüşəm" əsəri:

Qəzəl janrındadır;

Şeir vahidi beytdir;

İkilik şəklindədir, ilk beyti "mətlə", son beyti "məqtə" adlanır;

Əruz vəznindədir;

Birinci beytinin misraları həmqafiyə, sonrakı beytlərin birinci misraları sərbəst, ikinci misraları birinci beytlə həmqafiyədir;

Qafiyə quruluşu aa, ba, ca, ... şəklindədir.

Bal şkalası	**Meyarlar:**
1 bal	a. Diaqramın hər üç hissəsinə nümunəyə uyğun iki düzgün fikir yazılır, yanlış fikir yazılmır.
0,5 bal	b. Diaqramın yalnız iki hissəsinə uyğun iki fikir yazılır, yanlış fikir yazılmır. c. Üç hissəyə uyğun iki fikir yazılsa da, hər hansı hissəyə bir yanlış fikir də yazılır. d. Diaqramın iki hissəsinə uyğun fikir yazılsa da, bir hissəyə yanlış fikir də yazılır. e. Diaqramın hər üç hissəsinə nümunəyə uyğun bir düzgün fikir yazılır, yanlış fikir yazılmır.
0 bal	f. Diaqramın hər üç hissəsinə uyğun fikir qeyd edilsə də, bir neçə yanlış fikir də qeyd edilir. g. Sxemin yalnız bir hissəsində uyğun fikir qeyd olunur. h. Diaqramın bir hissəsinə uyğun fikir qeyd edilsə də, bir və ya bir neçə yanlış fikir də qeyd edilir. i. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Ədəbiyyat və həyat həqiqətləri" məzmun xəttinə aid *1.2.1. Müxtəlif vəznli şeirləri (heca, əruz, sərbəst) və süjetli bədii nümunələri (dastan, poema, hekayə, povest, roman, dram, komediya, faciə) janr, dil baxımından müqayisə edir* (10-cu sinif səviyyəsində) alt standartının tələbi üzrə bilik və bacarıqlar yoxlanılır.

Alt standartın tələbinə uyğun olaraq tapşırıq ədəbi janrların müqayisəsi ilə bağlı abituriyentlərin əlaqələndirmə, fərqləndirmə və tətbiqetmə bacarıqlarını müəyyənləşdirmək üçün nəzərdə tutulmuşdur.

Orta çətinlikli , ümumiləşdirmə səciyyəli tapşırıqdır.

"Kəsildi" əsəri qoşma, "Küsmüşəm" əsəri isə qəzəl janrındadır. Tapşırığın şərtində mətnləri janr baxımından müqayisə etmək tələb olunduğundan Eyler-Venn diaqramına mətnlərin məhz janr xüsusiyyətləri baxımından oxşar və fərqli cəhətlərini yazmaq lazım idi. Orta təhsil müəssisələrində əsərlərin janr xüsusiyyətləri üzrə müxtəlif alt standartların tələbi olan bilik və bacarıqlar ədəbiyyat fənn kursunda sadədən mürəkkəbə doğru ardıcıl şəkildə formalaşdırılır. Dərsliklərdə janrlarla bağlı müqayisələr, demək olar ki, əksər mətnlərdə reallaşdırılır. Lakin təəssüf ki, abituriyentlər bu tapşırığın cavablandırılması zamanı çətinlik çəkiblər.

Tapşırığın tələbini tam şəkildə yerinə yetirənlər 13,91%, yarım balla qiymətləndirilənlər 13,70%, 0 balla qiymətləndirilənlər isə 36,68% təşkil etmiş, 35,71% abituriyent tapşırığı cavablandırmaqdan imtina etmişdir.

90. "Kəsildi" şeirində lirik qəhrəman hansı mənəvi dəyərlərin itməsindən kədərlənir? Fikrinizi iki cümlə ilə ifadə edərək yazın.

Mümkün doğru cavab nümunələri:

Şair (lirik qəhrəman) dövrdən, yaşadığı zəmanədən narazılığını bildirir. Hörmət, dostluq, etibar, həmdəm, səmimiyyət və s. kimi mənəvi dəyərlərin itməsindən kədərini ifadə edir.

Bal şkalası	Meyarlar:
1 bal	a. Ən azı iki nümunəyə uyğun ifadə yazılır, yanlış fikir yazılmır.
0,5 bal	b. İki uyğun ifadə yazılsa da, bir yanlış ifadə də yazılır. c. Yalnız bir uyğun ifadə yazılır, yanlış ifadə yazılmır.
0 bal	d. İki uyğun ifadə yazılsa da, bir neçə yanlış ifadə də yazılır. e. Bir uyğun ifadə yazılsa da, yanlış ifadə də yazılır. f. Digər bütün hallarda.

"Ədəbiyyat və həyat həqiqətləri" məzmun xəttinə aid 10-cu sinif *1.1.4. Müxtəlif ədəbi növ və janrda olan bədii nümunələrdə əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərləri müəyyənləşdirir* alt standartının tələbləri üzrə bilik və bacarıqları yoxlamağa xidmət edən tapşırıqdır.

Bu alt standartla bağlı tapşırıqlar bədii nümunələrdə öz əksini tapan mühüm mənəvi, əxlaqi-etik dəyərlərin müəyyənləşdirilməsi ilə bağlı abituriyentlərin tətbiqetmə bacarıqlarını müəyyənləşdirmək üçün nəzərdə tutulmuşdur.

Ümumiləşdirmə və fikrini ifadə etmə bacarıqları tələb edən bu tapşırıq orta çətinliklidir. Seçilmiş alt standart üzrə bacarıqlar, demək olar ki, dərslikdəki bütün mövzuların tədrisində nəzərdə tutulmuşdur. Lakin statistika göstərir ki, abituriyentlər tapşırığın cavablandırılması zamanı nisbətən çətinlik çəkiblər.

Tapşırığa 32,97% abituriyent tam şəkildə cavab vermiş, 19,69% yarım balla, 16,66% 0 balla qiymətləndirilmiş, 27,36% isə cavab verməkdən imtina etmişdir.

Təhlilə əsasən demək olar ki, ümumtəhsil məktəblərində ədəbiyyat fənninin tədrisi ilə bağlı bir sıra problemlər hələ də qalmaqdadır. Bu daha çox aşağı siniflərdə tədris olunan əsərlərlə bağlıdır. Deyilənlər yuxarı siniflərdə həm ayrı-ayrı sənətkarların yaradıcılığının öyrənilməsi, həm də ədəbi mətnlərin düzgün qavranılması və təhlilinə aid olan test tapşırıqlarının cavablandırılmasında da özünü göstərir. Ümumtəhsil müəssisələrində 5-11-ci siniflərdə fənnin tədrisinə diqqətin artırılması tövsiyə olunur.

Экзаменационный тестовый блок по ***русскому языку*** в 2019 году был составлен на основе предметного Куррикулума, включающего в себя 4 содержательные линии (**“Аудирование и говорение”**, **“Чтение”**, **“Письмо”**, **“Языковые правила”**).

Задания составлены на основе только IV содержательной линии (**“Языковые правила”**), охватывающие следующие разделы: *“Фонетика и орфоэпия”, “Лексика и фразеология”, “Морфемика и словообразование”, “Морфология”, “Синтаксис”, “Орфография”, “Пунктуация”*, *“Культура речи”* и сопоставительные задания. В экзаменационном блоке проверялись результаты обучения 21 подстандарта.

Они рассчитаны на выявление следующих навыков и умений.

	Перечень проверяемых умений и навыков. Абитуриенты должны уметь:
1.	производить анализ звукового состава слова, дифференцировать звуки речи русского языка, произносить слова в соответствии с орфоэпическими нормами.
2.	производить лексический анализ слова и определять значение фразеологизмов.
3.	обладать прочными орфографическими навыками.
4.	производить морфемный анализ слова, соотносить предъявленную схему со словом, определять основные способы образования слов.
5.	дифференцировать части речи русского языка, определять принадлежность слова к определённой части речи.
6.	производить пунктуационный анализ предложения.
7.	производить синтаксический анализ простого, простого осложнённого и сложного предложений.
8.	находить пунктуационные, орфографические, речевые ошибки.

Для III группы специальностей были представлены тестовые задания различной степени сложности, которые позволили определить уровень знаний и подготовки учащихся. Для того чтобы выявить степень усвоения учащимися специфических особенностей русского языка, в вопросники были включены 5 заданий открытого типа, а также связный текст, состоящий из 120 слов, с тремя заданиями к нему, где нужно было раскрыть значение выделенного слова; определить стиль текста, указать его характерные признаки, подтвердив их 2-мя примерами из текста; ответить на вопрос по тексту, сформулировав свои мысли в 3-х и более предложениях.

Статистический анализ показал, что абитуриенты успешно справились с заданиями теоретического характера, то есть достаточно хорошо усвоили правила по фонетике, лексикологии, морфологии, синтаксису, орфографии, пунктуации, тогда как допустили ошибки при выборе верных ответов на задания практического характера, связанные с расстановкой знаков препинания в простом и сложном предложениях, с правописанием слов различных частей речи, с определением типов предложений и т.д. Однако наиболее трудными для абитуриентов оказались тестовые задания по таким темам, как “Орфография”, “Состав слова”, “Способы образования слов”, “Главные члены предложения”, “Сложное предложение”, “Союзы и союзные слова в сложноподчинённом предложении”. Предлагается некоторые тестовые задания, в которых абитуриенты допустили ошибки.

Например:

(10 класс – 4.1.2. *Соблюдает лексико-семантические и грамматические нормы языка*.)

Экзамен 19 мая, III группа, вариант A, тестовое задание № 2.

Только суффиксальным способом образуются

A) наречия B) причастия и наречия C) существительные

D) деепричастия и прилагательные E) причастия

Это тестовое задание относится к теме “Способы образования слов”. На это задание 39,48% ответили верно, 11,82% отказались отвечать, а 21,33% предпочли вариант A.

Выделяются морфологические и неморфологические способы образования слов. Морфологический способ включает следующие: приставочный, суффиксальный, приставочно-суффиксальный, бессуффиксный, сложение, сокращение основ. Неморфологический способ: появление омонимов, переход слов из одной части речи в другую, слияние самостоятельных слов словосочетания.

Наречия (A) могут быть образованы различными способами: приставочным *(всюду - повсюду*), суффиксальным (*умный - умно*), приставочно-суффиксальным (*по-азербайджански*), переходом из одной части речи в другую (зимой /сущ./ - зимой /нар./) и др. Существительные (C) - бессуффиксным способом от глаголов и прилагательных (*опросить – опрос; зелёный – зелень*), а также суффиксальным способом: *белый – белизна*. Деепричастия (D) образуются от глаголов с помощью суффиксов -а, -я, -в, -вши, -ши: *кричать – крича, читать – читая, увидеть – увидев*, *поднявшись, испёкши*. Прилагательные (D) образуются и приставочным (*высокий – невысокий*), и суффиксальным (*туман - туманный*), и приставочно-суффиксальным (*приморский – при море)* способами. Причастия (E) образуются от глаголов с помощью суффиксов -ущ-, -ющ-, -ащ-, -ящ-, -вш-, -ш-,-ем-, -им-, -ом- -нн-, -т-, -енн-: *идущий, читающий, спящий, слышащий, читаемый, видимый, услышанный, вымытый, унесенный.*

Верный ответ: E

(5 класс – 4.1.4. *Следует правилам написания сложных слов, гласных и согласных, ъ и ь знаков.***,**
10 класс – 4.1.2. *Соблюдает лексико-семантические и грамматические нормы языка*.**)**

Экзамен 19 мая, III группа, вариант A, тестовое задание № 23.

Буква ***ь*** после шипящих на конце слова пишется в (во)

1. неопределённой форме глагола
2. существительных мужского рода единственного числа
3. 2-ом лице единственного числа глаголов настоящего и будущего времени
4. наречиях
5. глаголах прошедшего времени

Это открытое теоретическое задание относится к теме “Правописание Ь знака после шипящих в различных частях речи”. На это задание 19,02 % ответили верно, 12,97 % отказались отвечать.

Буква *Ь* после шипящих пишется: 1) в существительных женского рода 3-го склонения (*рожь*); 2) во всех глагольных формах: а) в неопределённой форме глагола (*стричь*); б) во 2-ом лице единственного числа настоящего и будущего времени (*читаешь, напишешь*); в) в повелительном наклонении *(назначь*); 3) в наречиях (*сплошь*, кроме слов-исключений: *уж, замуж, невтерпёж*); г) в частицах (*лишь*). Рассмотрев варианты задания, приходим к выводу, что *Ь* пишется в неопределённой форме (1), во 2-ом лице единственного числа глаголов настоящего и будущего времени (3), в наречиях (4). В существительных мужского рода единственного числа и в глаголах прошедшего времени буква *Ь* не пишется.

Верный ответ: 1, 3, 4

(8 класс – 4.1.2. *Определяет синтаксическое назначение слов и словосочетаний*.)

Экзамен 19 мая, III группа, вариант A, тестовое задание № 27.

Укажите предложения соответственно типу сказуемого:

1. простое глагольное сказуемое
2. составное глагольное сказуемое
3. составное именное сказуемое

a. Лето не самое лучшее время года для работы.

b. Рад послушать я песню былую.

c. Широта ума равняется глубине сердца.

d. Теперь он готов был отступить назад и извиниться.

e. Добро неистребимо, и оно сильнее зла.

Это открытое тестовое задание проверяет знания учащихся темы “Главные члены предложения. Типы сказуемых.” На это задание 20,36% ответили верно, а 7,27% отказались отвечать.

Сказуемое бывает простым и составным. Простое глагольное сказуемое выражается глаголом в форме одного из трёх наклонений, глаголами *быть и стать*, фразеологизмами. В предложении *“Широта ума равняется глубине сердца”* простое глагольное сказуемое - *равняется*, оно выражено глаголом в форме настоящего времени изъявительного наклонения.

Составное сказуемое состоит из двух частей: основной и вспомогательной. Основная часть выражает лексическое значение сказуемого, вспомогательная – грамматическое значение. По способу выражения основной части составное сказуемое делится на глагольное и именное. Вспомогательный глагол в составном глагольном сказуемом может обозначать начало, продолжение, конец действия, а также желательность, возможность действия; может быть выражен краткими прилагательными и фразеологизмами. В предложениях “*Рад послушать я песню былую.*” и “*Теперь он готов был отступить назад и извиниться.”* составные глагольные сказуемые соответственно “*рад послушать*” и “*готов был отступить*”.

В составном именном сказуемом могут быть связки *быть, стать, становиться* и др., а именная часть выражается существительным, прилагательным, числительным, местоимением, наречием, причастием, словосочетанием, фразеологизмом. В предложениях “*Лето не самое лучшее время года для работы.”* и “*Добро неистребимо, и оно сильнее зла.”* составные именные сказуемые соответственно *не время, неистребимо, сильнее.*

Верный ответ: 1-c; 2-b, d; 3-a, e

(9 класс – 4.1.2. *Употребляет слова и словосочетания в различных синтаксических назначениях.*)

Экзамен 7 июля, III группа, вариант A, тестовое задание № 6.

В каком предложении ***что*** – союз?

A) Он понял, что может произойти в следующую минуту.

B) Я уже давно знаю, что он подарит тебе.

C) Закаты, что сопровождали нас, сгорели вмиг.

D) Мне не даёт покоя мысль, что я тебя обидел.

E) Мир осинам, что, раскинув ветви, загляделись в розовую водь.

Это тестовое задание относится к теме “Сложноподчинённое предложение. Союзы и союзные слова в сложноподчинённом предложении”. На это задание 26,55% ответили верно, 10,55% отказались отвечать, а некоторые абитуриенты ошиблись, выбрав варианты C (24,36%) и E (25,45%). Союзы и союзные слова находятся в придаточном предложении. Подчинительные союзы членами предложения не являются, к ним нельзя задать вопроса, их можно опустить (предложение станет бессоюзным), а также можно заменить синонимичным союзом. Союзными словами являются относительные местоимения и наречия. Они являются членами предложения, к ним можно задать вопросы, их нельзя опустить, их можно заменить словом из главного предложения, на них обычно падает логическое ударение.

В предложениях (варианты A, B, C, E) слова “*что*” являются союзными словами, потому что их нельзя опустить, к ним можно задать вопросы, на них падает логическое ударение. Так, в вариантах C и E, в которых было допущено большое количество ошибок, в обоих предложениях слово ***что*** можно заменить словом ***который***, что наглядно подтверждает: это союзные слова. (*Закаты, что (которые) сопровождали нас, сгорели вмиг./ Мир осинам, что (которые), раскинув ветви, загляделись в розовую водь*.). В предложении (вариант D) *“Мне не даёт покоя мысль, что я тебя обидел.”* слово “что” - подчинительный союз, его можно опустить.

Верный ответ: D

(5 класс – 4.1.2. *Объясняет звуковой состав, лексические особенности слов, способы их образования и грамматическое значение слов (имена, признаки и действия)*,

10 класс – 4.1.2. *Соблюдает лексико-семантические и грамматические нормы языка*.)

Экзамен 7 июля, III группа, вариант A, тестовое задание № 9.

Укажите слова с ***непроизводной*** основой.

A) стук, как-то B) мощь, по-зимнему C) ход, шахтёр

D) сад, румяный E) запуск, досрочно

Данное тестовое задание относится к теме “Состав слова”. На это задание 21,45 % ответили верно, 29,45% отказались отвечать, 22,55% предпочли другой вариант.

Известно, что основа бывает непроизводной, производной. Непроизводная основа содержит только корень (нет суффиксов и приставок): *дом, книга*. Исключение составляют слова, образованные бессуффиксным способом, например: от слова ***восходить*** образовалось слово ***восход*** путём отбрасывания двух суффиксов (***и*** и ***ть***). Производная основа содержит, кроме корня, другие морфемы (суффикс, приставку или имеет несколько корней): *надомный, книжный, птицелов*. Так, в слове *стук* есть только корень, хотя основа производная ***(стук*** образовалось от слова *стучать* путём отбрасывания 2-х суффиксов ***а+ть***, с чередованием ***ч*** на ***к***); в слове *как-то* тоже производная основа, есть суффикс *то* (вариант А). В словах *мощь, по-зимнему* (вариант В) соответственно непроизводная и производная основы. Слова *ход, шахтёр* (вариант С) также имеют производную основу: слово ***ход*** образовано от слова ***ходить*** бессуффиксным способом путем отбрасывания двух суффиксов (***и+ть***), слово ***шахтёр*** образовано от слова ***шахта*** при помощи суффикса ***-ёр-***. Слова *запуск, досрочно* (вариант Е) имеют производную основу. И только в варианте (D) слова *сад, румяный* имеют непроизводную основу, так как состоят только из корня и окончания и ни от какого слова не образованы.

Верный ответ: D

(9 класс – 4.1.3. *Расставляет знаки препинания в сложных предложениях и в прямой речи*.

11 класс – 4.1.3. *Осознанно применят знаки препинания для обеспечения стилистически правильной, грамотной письменной речи*.)

Экзамен 7 июля, III группа, вариант А, тестовое задание № 19.

Какой знак следует поставить в бессоюзном сложном предложении “*Туман, окутавший горы, начал клубиться и подниматься кверху / тяжелая завеса туч разорвалась, солнышко улыбнулось природе.”* и почему?

A) точка с запятой; части осложнены
B) запятая; части не осложнены
C) тире; в первой части условие
D) двоеточие; во второй части пояснение
E) двоеточие; во второй части причина

Это тестовое задание относится к теме “Бессоюзное сложное предложение. Знаки препинания в бессоюзном сложном предложении”. На это задание 34,55 % ответили верно, 9,09 % отказались отвечать, а 28% в качестве верного ответа выбрали вариант D. В бессоюзном сложном предложении между частями ставятся запятая, точка с запятой, двоеточие и тире. В данном предложении нужно поставить точку с запятой, так как части произносятся с перечислительной интонацией, они менее связаны между собой по смыслу, между ними можно поставить соединительный союз *и,* первое предложение осложнено обособленным определением и однородными сказуемыми.

Верный ответ: A

Экзамен 7 июля, III группа, вариант А, текст и 3 вопроса к нему.

Внимательно ознакомьтесь с представленным текстом и, воспользовавшись информацией, данной в нём, выполните на Листе ответов задания 88-90.

Обследовав дом внутри и снаружи, паук облюбовал себе местечко в замочной скважине.

Какое удобное и надежное убежище! Никто не сможет обнаружить здесь паука. А он, высунувшись из укрытия, будет преспокойно наблюдать за всем происходящим, не подвергая себя никакому риску. “У порога натяну паутину для мух, – рассуждал довольный паук. – На ступеньках лестницы будет другая, покрепче, – для жирных гусениц, а между дверными створками устрою хитрую ловушку для комаров...”

*Паук был вне себя от **радужных** надежд. Замочная скважина, вся обитая железом, казалась ему неприступной крепостью, и более безопасного пристанища он ещё в жизни не видывал.*

Паук с его тонким слухом витал в облаках и поэтому не уловил шума приближающихся шагов.

Вернувшийся домой хозяин звякнул связкой ключей, вставил один из них в замочную скважину и ... раздавил мечтателя.

(*По Леонардо да Винчи*)

(6 класс – 4.1.2. *Объясняет грамматическое значение слова согласно контексту.*)

28. Раскройте значение выделенного слова.

Данное задание проверяет умение абитуриентов определять значение слова по контексту. На него 61,82% дали верный ответ, получив полный балл; 10,18% дали частичный ответ, получив полбалла;

0 баллов получили 18,55%, а 9,45% отказались отвечать. Полный балл получал тот, кто правильно отвечал на вопрос, т.е. подобрал синоним без ошибок. Полбалла получили абитуриенты, которые, наряду с правильным ответом, указали 1 неверный.

Верный ответ: *Слово **радужный** можно объяснить, подобрав синонимы: прекрасный, приятный, сулящий радость, счастье.*

(10 класс-4.1.2. *Соблюдает лексико-семантические и грамматические нормы языка.*

11 класс-4.1.2. *Соблюдая грамматико-семантические особенности, использует слова в зависимости от их стилевой принадлежности.*)

29. Определите стиль текста. Укажите характерные признаки данного стиля, подтвердив их примерами из текста (не менее 2-х).

Данное задание проверяет умение абитуриентов на базе лексики определять стиль текста и обосновывать своё мнение. На него 23,64% ответили верно, получили полный балл; 21,09% дали частичный ответ, получив полбалла; 0 баллов получили 40,73% , а 14,55 % отказались от ответа.

Полный балл получили абитуриенты, верно назвавшие стиль текста, перечислившие 2 характерных признака и подтвердившие свою мысль двумя примерами (одна ошибка допустима). Если же стиль текста был указан верно и были названы 2 признака или 2 примера, или 1 признак и 1 пример, то за такую работу выпускники получали полбалла. В 0 баллов оценивался любой другой ответ.

Верный ответ: *Стиль – художественный. Признаки и примеры:*

1. Воздействие на мысли и чувства читателей через образы (довольный паук).

2. Использование слов в переносном значении (радужные надежды, неприступная крепость, тонкий слух, паук рассуждал, предавался мечтам и т.д.)

3. Наличие фразеологизмов (*был вне себя, витая в облаках*).

(10 класс – 4.1.2. *Соблюдает лексико-семантические и грамматические нормы языка.*

11 класс – 4.1.3. *Осознанно применят знаки препинания для обеспечения стилистически правильной, грамотной письменной речи.*)

30. Ответьте на вопрос. ***Согласны ли вы с тем, что основная мысль текста может быть выражена пословицей “Не убив медведя, шкуру не продавай.”?*** (Сформулируйте мысли своими словами в 3-х и более предложениях, используя в качестве аргумента не менее 2-х фактов и не повторяя выражений из текста).

На данное задание 39,64% ответили верно, получив полный балл; 24,36 – получили полбалла, не полностью ответив на вопрос; 21,09% - отказались от ответа, а 14,91% набрали 0 баллов.

Полный балл получили те, кто написал 3 простых предложения, привёл 2 и более факта и мысль сформулировал без речевых ошибок или допустил всего 1 ошибку. Полбалла получили абитуриенты, написавшие менее 3-х предложений, но раскрывшие мысль и подтвердившие двумя примерами; или написавшие норму (3 и более предложений), но приведшие всего один факт. Также в полбалла оценивалась работа, соответствующая заданию, но включающая более двух речевых ошибок. Во всех остальных случаях работа оценивалась в 0 баллов.

Верный ответ: *Я могу согласиться, если паутину считать “медведем”, а мечты – “шкурой”. Как часто в жизни бывает, что всё спланировано заранее, всё гладко и логично в расчётах, но по какой-то причине задуманное не складывается. Об этом у многих народов есть похожие пословицы: “Цыплят по осени считают”, “Делить шкуру неубитого медведя”. В данной истории Паук сплёл паутину, на его взгляд, в удачном месте. Но это только на его взгляд. На самом деле Паук просто не мог знать, что такое замочная скважина, и он поэтому не смог просчитать риск “удачного предприятия”. В общем, не зная броду, не суйся в воду.*

Научно-методический и статистический анализ результатов вступительных экзаменов показал, что уровень знаний по предмету “Русский язык” в целом удовлетворительный. Немаловажную роль в этом сыграли методические пособия, тестовые сборники по классам, выпускаемые ГЭЦ, образцы тестовых заданий и научно-методические статьи, систематически публикуемые на страницах журнала “Абитуриент”.

Экзаменационный тестовый блок по ***литературе*** впервые был составлен на основе Куррикулума.

В каждом из вариантов экзаменационного блока были задания, соответствующие стандартам двух линий – “*Литература и реалии жизни*” и “*Письменная речь*”, проверялись результаты обучения 19 подстандартов.

Экзаменационный блок был составлен таким образом, чтобы абитуриенты сумели:

- воспроизвести содержание художественного текста, определить героев, основные сюжетные линии;
- охарактеризовать проблематику и идейный смысл произведений;
- определить особенности композиции;
- объяснить сходство и различие произведений классиков азербайджанской, русской и мировой литературы;
- соотнести прочитанное с литературным направлением;
- определить родо-жанровые особенности произведений, авторское отношение к созданному;
- интерпретировать фактический материал;
- применять художественные приёмы и средства;
- охарактеризовать литературных героев;
- объяснить общий смысл данного фрагмента из произведения;
- проявить способность литературного ассоциирования и самостоятельного определения отдельных элементов произведения;
- проявить высокий уровень владения письменной речью;
- применить теоретические знания на практике.

Анализ экзамена по литературе показал, что абитуриенты хорошо ответили на вопросы, касающиеся творчества И.А.Бунина, М.А.Булгакова, М.Дж. Пашаева, И.П.Третьякова, Дж. Мамедгулузаде, а также на задания сопоставительного характера и применения теоретических правил на практике. Большинство абитуриентов не справились с заданиями, касающимися творчества Р.Рзы, А.П.Чехова, Ф.М.Достоевского, а также с заданием, где надо было применить литературное ассоциирование.

Ниже даётся анализ ряда тестовых заданий, которые вызвали у абитуриентов большие затруднения.

(11 класс – 1.2.2. *Различает понятия образ, характер, герой, сравнивает их действия с общественно-политической ситуацией и морально-этическими ценностями.*)

Экзамен 19 мая, III группа, вариант A, тестовое задание № 62.

Растерявшийся проситель является лирическим героем произведения В.В. Маяковского

A) “Необычайное приключение…” B) “Послушайте!”

C) “Прозаседавшиеся” D) “Баку” E) “А вы могли бы?”

Данное задание проверяет знание творчества В.В.Маяковского. На него 31,70% абитуриентов ответили верно, 15,27% предпочли вариант B; отказались отвечать 25,65%.

Чтобы верно ответить на вопрос, надо вспомнить содержание произведений. В стихотворении "Необычайное приключение…" (A) рассказывается о беседе поэта с Солнцем, произошедшей на даче летом 1920 года. В нём поэт вовсе не проситель. Он скорее зол, чем растерян ("*И так однажды разозлясь, что в страхе всё поблекло…*").

Лирический герой стихотворения "Послушайте!" (B) обуреваем эмоциями. Врываясь к Богу, он " *боится, что опоздал, плачет, … а после ходит тревожный, но спокойный …*". Это не растерявшийся проситель.

Герой стихотворения "Прозаседавшиеся" (C) на протяжении целого дня не может попасть на приём, потому что в учреждении одно заседание сменяет другое. Отчаявшись, он врывается в кабинет, "где сидят людей половины". От сильного потрясения герой растерялся ("*от страшной картины свихнулся разум*") и обращаясь к Богу, просит искоренить все заседания. Это и есть верный ответ.

В произведении "Баку…" (D) лирический герой ни о чём не просит, он описывает город, выражает своё отношение к нему. В стихотворении "А вы могли бы…?" (E) герой также не проситель. Он бунтарь, бросающий вызов миру ("*Я сразу смазал карту будня*") и одновременно тонкий романтик, воспринимающий простую водосточную трубу как изысканный музыкальный инструмент ("*А вы ноктюрн сыграть могли бы на флейте водосточных труб*?).

Верный ответ: C

(11 класс – 1.2.2. *Различает понятия образ, характер, герой, сравнивает их действия с общественно-политической ситуацией и морально-этическими ценностями.*)

Экзамен 19 мая, III группа, вариант B, тестовое задание № 79.

О готовности лирического героя мужественно встречать любые неудачи и трудности в жизни говорится в произведении

A) “Я не унижусь перед тобою...” М.Ю. Лермонтова
B) “Русский язык” И.С. Тургенева
C) “О, весна без конца и без краю ...” А.А. Блока
D) “Послушайте!” В.В. Маяковского
E) “Слово” И.А. Бунина

На это задание, основанное на понимании содержания произведений, дали верный ответ 23,37% абитуриентов, 37,57% предпочли вариант A, а 24,26% отказались от ответа.

Чтобы правильно ответить на данный вопрос, нужно вспомнить, что в стихотворении В. В. Маяковского "Послушайте!" (A) говорится о переживаниях лирического героя. Стихотворение имеет двойной смысл, потому что речь идёт не только и не столько о небесных светилах, сколько о творчестве начинающего поэта (его звезде), о его месте на небосклоне поэзии. Но в любом случае поэт ничего не утверждает, а только ставит вопросы "*если звезды зажигают —значит — это кому-нибудь нужно?*". Постановка вопроса – это только первый шаг в решении проблемы, в обретении уверенности в правильности выбранного пути.

В стихотворении И.А. Бунина "Слово" (B) лирический герой призывает бережно относиться к самому ценному достоянию человечества – речи.

Строки стихотворения М.Ю.Лермонтова "Я не унижусь пред тобою…" говорят сами за себя. Поэт категоричен в своём решении сжечь мосты и расстаться с любимой. В нём нет места компромиссу.

Стихотворение А.А.Блока "О, весна без конца и без краю…" (D) оптимистично, оно несёт в себе жизнеутверждающее начало ("*Принимаю! и приветствую звоном щита*!") Поэт принимает жизнь во всех её проявлениях, готов понять и принять всё ("*Принимаю тебя, неудача, и удача, тебе мой привет*…") и мужественно идти по тернистой дороге жизни.

В стихотворении И.С.Тургенева "Русский язык" (E) поэт восторгается родным языком и надеется, что его родина выберет правильный путь развития.

Верный ответ: D

(9 класс – 1.2.2. *Различает жизненную позицию тех или иных героев, сравнивает их*.)

Экзамен 19 мая, III группа, вариант B, тестовое задание № 80.

Эти высказывания о Печорине соответственно принадлежат:

1. *“Нынче мне уж кажется, что он меня не любит. А если это так будет продолжаться, то я сама уйду: я не раба его, я – княжеская дочь!”;*
2. *“Его походка была небрежна и ленива, он не размахивал руками – верный признак некоторой скрытности характера”.*

A) Вере, Вуличу
B) Мери, Вуличу
C) Мери, Вернеру
D) Бэле, проезжему офицеру
E) Бэле, Вере

Данное тестовое задание проверяет знание текста произведения М.Ю.Лермонтова. На него дали верный ответ 25,74% абитуриентов, а 24,85% выбрали вариант B.Отказ незначительный.

Имя главного героя подсказывает нам, что речь идёт о романе "Герой нашего времени". 1-ое высказывание принадлежит Бэле. Этот вывод можно сделать, внимательно прочитав отрывок. В романе всего 2 княжны: Бэла и Мери (Вера получила титул княгини после замужества). К тому же Печорин никогда не признавался Мери, что любит её. Значит, это Бэла.

2-ую характеристику Печорину даёт проезжий офицер (глава "Максим Максимыч"). Это молодой человек того же круга, что и главный герой, человек умный, внимательный, образованный. Поэтому здесь можно видеть не только описание внешности Печорина; повествователь даёт его психологический портрет.

Верный ответ: D

(9 класс – 1.2.2. *Различает жизненную позицию тех или иных героев, сравнивает их.*

10 класс – 1.2.2. *Разбирает образы с точки зрения их поведения, отношения с другими героями, авторской позицией.*

11 класс – 1.2.2. *Различает понятия образ, характер, герой, сравнивает их действия с общественно-политической ситуацией и морально-этическими ценностями.*)

Экзамен 7 июля, III группа, вариант A, тестовое задание № 77.

Решите кластер, указав лишнее.

A) 2, 5 B) 3, 4 C) 2, 4 D) 1, 3 E) 1, 5

Данное задание представляет собой кластер закрытого типа, проверяющий знание героев драматических произведений. На него 22,18% абитуриентов ответили верно, 10,55% предпочли вариант B, 15, 64% выбрали вариант C, а 33,45% - вариант D; отказ незначительный.

Так, Нина Заречная – героиня пьесы А.П.Чехова "Чайка" (1), Лойко Зобар – герой рассказа Максима Горького "Макар Чудра" (2). Джаваир-ханум – персонаж комедии Н.Везирова "Из-под дождя да под ливень" (3), Ромео – персонаж трагедии В.Шекспира "Ромео и Джульетта" (4), а Фархад – герой поэмы Низами "Хосров и Ширин"(5). Таким образом, ни "Макар Чудра" (2), ни "Хосров и Ширин"(5) драматическими произведениями не являются.

Верный ответ: A

(11 класс-1.2.3. *Выражает обоснованное мнение о роли в создании образности изобразительно выразительных средств в стихотворениях и примерах сюжетной литературы.*)

Экзамен 7 июля, III группа, вариант A, тестовое задание № 82.

Приём контраста использован в произведении

A) “Что мне делать?”(Н. Рафибейли) B) “Мама” (М. Мушфик)

C) “Отговорила роща золотая” (С.А. Есенин) D) “Разные глаза” (Р. Рза)

E) “А вы могли бы?” (В.В. Маяковский)

На это задание, проверяющее знание содержание лирических произведений, верно ответили 29,45% абитуриентов; 13,45% предпочли вариант C, а отказались отвечать - 44, 36% .

Стихотворение Нигяр Рафибейли "Что мне делать без тебя?" передаёт переживания лирического героя, тоску и страх перед неизвестностью (A).В стихотворении "Мама" М.Мушфика говорится о чувствах сына, его сердечной боли по матери, безвременно ушедшей в мир иной(B). В стихотворении Сергея Есенина "Отговорила роща золотая…"звучат слова о рано увядшей юности (C). "А вы могли бы…" Вл.Маяковского – одно из ранних его произведений, хотя и небольшое, но насыщенное метафорами и завершающееся риторическим вопросом (E). И только в стихотворении Р.Рзы "Разные глаза" (D) использован приём контраста: глаза гостя видят реалистическую, но негативную картину, а глаза поэта наполнены оптимизмом, верой в светлое будущее его родины.

Верный ответ: D

(11 класс- 1.1.4. ***Выражает обоснованное мнение по поводу отражённых в художественных произведениях значительных национальных и общечеловеческих ценностей.***

1.2.2. ***Различает понятия образ, характер, герой, сравнивает их действия с общественно-политической ситуацией и морально-этическими ценностями.)***

Экзамен 7 июля, III группа, вариант B, тестовое задание № 80.

О категории людей (М. Ибрагимбеков. "Прилетала сова"), которые "*лучше других находят подходящую среду и сразу приспосабливаются к ней*" говорит

A) Шахлар-бек B) Наиля C) Рашид D) Кямил E) Мамед

Данное задание проверяет не столько знание текста повести М.Ибрагимбекова "Прилетала сова", сколько умение логически мыслить. На него только18,7% абитуриентов ответили верно,31,3% выбрали вариант С, а 36,64% отказались отвечать.

В вопросе звучит характеристика одного из героев повести, и ключевым является слово "приспосабливаются". Единственным приспособленцем в произведении Ибрагимбекова является Рашид. Но в задании спрашивается не то, кому соответствует данное определение, а кто даёт данную характеристику. Шахлар-бек (А) не мог такое сказать, потому что на момент повествования его уже не было в живых. Наиля (В), как "любящая и преданная жена" не стала бы так отзываться о своём муже. Сам Рашид (С) вряд ли так себя охарактеризовал бы. Ему хочется предстать перед соседями совершенно в другом свете. Мамед (Е) - сосед, которому Рашид помог достать электрический мотор для колодца, только упоминается в тексте, он не участвует ни в одном диалоге, следовательно, это не его характеристика. И только Кямил (D), откровенный и прямой человек, называет вещи своими именами. Он, будучи писателем, умеет анализировать ситуацию и хорошо разбирается в людях.

Верный ответ: D

Экзамен 7 июля, III группа, Вариант A.

Внимательно ознакомьтесь с представленным текстом и, воспользовавшись информацией, данной в нём, выполните на Листе ответов задания 88-90.

Так вот раз ночью сидим мы и слышим – музыка плывёт по степи. Хорошая музыка!.. Всем нам, мы чуяли, от той музыки захотелось чего-то такого, после чего бы и жить уж не нужно было…! Вот из темноты вырезался конь, а на нём человек сидит и играет, подъезжая к нам. Остановился у костра, перестал играть, улыбаясь, смотрит на нас.

– Эге, Зобар, да это ты! – крикнул ему Данило радостно.

Так вот он, Лойко Зобар! Усы легли на плечи и смешались с кудрями, ***(1) очи, как ясные звёзды***, горят, а улыбка – целое солнце, ей-богу! Точно его ковали из одного куска железа вместе с конём. Стоит весь, как в крови, в огне ***(2) весёлого*** костра и смеётся!

(11 класс – 1.2.1. ***Разбирает стихотворения различных жанров и примеры сюжетной литературы(поэма, рассказ, повесть, роман, драма, комедия, трагедия) с точки зрения языка и стиля, композиции.*****)**

88. Какой элемент композиции использован в данном отрывке?

Данное тестовое задание проверяет умение абитуриентов применять теоретические знания на практике. 40,73% абитуриентов ответили верно, отказались отвечать 25,65%.

Чтобы верно ответить на этот вопрос, надо было внимательно прочитать данный отрывок из рассказа М.Горького "Макар Чудра" и заметить, что практически весь третий абзац – это изображение внешности героя, особенности глаз, улыбки, что делает изображение героя "зримым". А значит, что в данном отрывке использован портрет.

Верный ответ: портрет

(11 класс – 1.1.5. ***Определяет особенности языка и стиля, изобразительно-выразительные средства (символ, метафора, сравнение, эпитет, литота, гипербола, художественный вопрос, ирония, сарказм, инверсия, синекдоха) в стихотворениях различного рода и примерах сюжетной литературы со сложным сюжетом и композицией.***

11 класс – 1.2.3. ***Выражает обоснованное мнение о роли в создании образности изобразительно выразительных средств в стихотворениях и примерах сюжетной литературы.*****)**

89. Определите и напишите виды тропов, выделенных в отрывке.

Тестовое задание проверяет не только умение определять особенности языка произведения, но и обосновывать свой выбор. 44% абитуриентов справились с заданием, а 25,09% отказались выполнять его.

Выполнение задания требует от абитуриента хорошей теоретической подготовки, умения определять в тексте изобразительно-выразительные средства, выявлять такие виды, как сравнение и эпитет.

Верный ответ: сравнение и эпитет

(11 класс – 3.1.2. ***Основываясь на наблюдения и дополнительные сведения, выражает отношение к идее, проблеме, художественным особенностям произведения, обобщает и делает выводы.*****)**

90. Ответьте на вопрос: "*Что вам помогло определить элемент композиции?*".
(Сформулируйте свои мысли, используя в качестве доказательств не менее двух фактов.)

В данном тестовом задании от абитуриента требуется не только проявить теоретические знания, но и обосновать их грамотно. Всего 5,45% абитуриентов справились с заданием, отказались отвечать 36%.

Малый процент верных ответов и большой процент отказа выполнять это задание связан с тем, что абитуриенты затрудняются грамотно и в нескольких предложениях обосновывать свою мысль. Повышенный уровень сложности задания требует не только умение определять по тексту те или иные понятия и выбирать в качестве аргументов не менее 2-х фактов (усы…, очи…, улыбки…), но и выбрать оригинальный способ верного, грамотного оформления мыслей, проявляя тем самым системные знания и умения не только по литературе, но и по русскому языку.

Верный ответ: Известно, что портрет – это изображение внешности героя, его лица, фигуры, одежды, мимики… Зная это, по данному отрывку можно определить, что в нём использован именно этот элемент композиции. Автор показал внешность Лойки Зобара посредством следующего описания: усы легли на плечи и смешались с кудрями; очи, как ясные звёзды; улыбка – целое солнце… То есть, герой получился «зримым» и это несложно было определить.

Tarix fənnindən qəbul imtahanlarında həm II, həm də III ixtisas qrupu üzrə istifadə edilmiş tapşırıqlar fənn kurikulumunun 5 ("**Tarixi zaman**", "**Tarixi məkan**", "**Dövlət**", "**Şəxsiyyət**", "**Mədəniyyət**") məzmun xətti üzrə 149 (Azərbaycan tarixindən 88, ümumi tarixdən 61) alt standartın reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Tapşırıqlar məzmun xətləri üzrə təlim nəticələrinə uyğun hazırlanıb və abituriyentlərin

1. Azərbaycanın tarixi keçmişi və müasir dövrü haqqında zəruri biliklərə malik olduğunu nümayiş etdirmək;
2. tarixi hadisə və proseslərin mahiyyətini konkret dövrün xüsusiyyətləri baxımından təhlil etmək, bir-biri ilə oxşar və fərqli cəhətlərini müəyyən etmək;
3. mənbələr əsasında müxtəlif tarixi dövrləri təhlil etmək;
4. tarixi hadisə, proses və təzahürlərin səbəb-nəticə əlaqələrini müəyyən etmək və tarixi dövr baxımından qiymətləndirmək;
5. dünya tarixinin hadisə və proseslərini Azərbaycan tarixinin eyni dövrləri ilə müqayisə etmək və təhlillər aparmaq;
6. müxtəlif tarixi hadisələri konkret məkan baxımından müqayisə etmək;
7. cəmiyyət və dövlətlərin inkişafında islahat və inqilabların rolunu fərqləndirmək, aqrar (ənənəvi), sənaye və informasiya cəmiyyətlərini müqayisə etmək;
8. tarixi hadisə və proseslərin gedişində şəxsiyyətlərin rolunu qiymətləndirmək;
9. müxtəlif cəmiyyətlərdə mədəniyyətin inkişaf xüsusiyyətlərini fərqləndirmək;
10. tarixdə ayrı-ayrı dövlətlərin yaranması, inkişafı, tənəzzülü ilə bağlı bilik və bacarıqları nümayiş etdirmək;
11. tarixi termin və anlayışların izahını vermək, fərqləndirmək;
12. hadisələrin xronoloji ardıcıllığını müəyyən etmək;
13. tarixin ayrı-ayrı dövrlərində baş vermiş hadisələri xəritə və cədvəl formasında vermək;
14. Azərbaycan və dünya tarixində mühüm rol oynamış dövlət və elm xadimlərinin fəaliyyətinin səciyyəvi xüsusiyyətlərini müəyyən etmək üzrə bilik və bacarıqlarının aşkara çıxarılması və qiymətləndirilməsinə yönəlib.

Builki qəbul imtahanlarında II ixtisas qrupu üzrə istifadə edilmiş tapşırıqlar həm Azərbaycan tarixinə, həm də ümumi tarix fənlərinə aid olub. Tapşırıq bloklarında fənn kurikulumunun təlim nəticələrinə uyğun olaraq tarixi proses və hadisələr arasında səbəb-nəticə, məkan-zaman əlaqələri, tarixi proses və hadisələrin ümumiləşdirilməsi, müqayisəsi, qanunauyğunluqları, izahat, nəzəri biliklərin tətbiqi və təhlili ilə bağlı bilik və bacarıqları ölçməyə imkan verən tapşırıqlar üstünlük təşkil edib.

İmtahan nəticələrinin statistik göstəriciləri əsasında aparılan təhlili göstərib ki, abituriyentlərin əksəriyyəti "Osmanlı dövləti", "Azərbaycan ibtidai icma dövründə", "Azərbaycan XIV-XV əsrlərdə" bölmələrinə aid test tapşırıqlarına yaxşı, məntiqi düşüncə və nəzəri biliklərin tətbiqini tələb edən bəzi test tapşırıqlarına həm II, həm də III ixtisas qruplarında müəyyən qədər zəif cavab veriblər.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

Qeyd etmək lazımdır ki, hər bir tapşırıq aid olduğu alt standartın tələblərinin yoxlanılması və qiymətləndirilməsi üçün nəzərdə tutulub.

Azərbaycan tarixi, 9-cu sinif

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.

3.1.1. Müstəmləkə rejimi, müstəqillik şəraitində inzibati, sosial-iqtisadi həyatda baş verən dəyişiklikləri təhlil edir.

19 may tarixli imtahan, II ixtisas qrupu, A variantı, 82 saylı test tapşırığı (III ixtisas qrupu, B variantı, 52 saylı test tapşırığı)

Şimali və Cənubi Azərbaycanın I Dünya müharibəsi illəri tarixinə aid ümumi cəhət:

A) Milli hökumətin təşkil edilməsi

B) Dövlət Dumalarına seçkilərin keçirilməsi

C) konstitusiyanın qəbul edilməsi

D) ölkəyə muxtariyyət verilməsi uğrunda mübarizə aparılması

E) Əyalət əncümənlərinin fəaliyyətə başlaması

9 və 11-ci sinifdə tədris olunan "Azərbaycan tarixi" dərsliyində "Azərbaycan Birinci dünya müharibəsi illərində" mövzularına aid test tapşırığına abituriyentlərin 33,24 %-i (III ixtisas qrupunda 36,5 %) doğru cavab verib, 33,33 %-i isə cavab verməkdən imtina edib. Test tapşırığının yerinə yetirilməsi üçün Azərbaycanın Birinci dünya müharibəsi illərində tarixinə aid siyasi proseslərə dərindən bələd olmaq, həmçinin fənlərarası ("Azərbaycan tarixi" və "Ümumi tarix") inteqrasiyaya əsasən müvafiq bilikləri əlaqələndirmək və tarixi hadisələri ümumiləşdirmək lazımdır. Nəticədə, Birinci dünya müharibəsi illərində Şimali və Cənubi Azərbaycanda ölkəyə muxtariyyət verilməsi uğrunda mübarizə aparıldığının doğru cavab olduğunu müəyyən etmək olar. Digər cavablar Şimali və Cənubi Azərbaycanın I Dünya müharibəsi illəri tarixinə aid ümumi cəhət deyil.

Doğru cavab: D

Ümumi tarix, 10-cu sinif

2.1.2. Dünya ölkələrində baş verən geosiyasi dəyişiklikləri müxtəlif formalarda (xəritə, sxem, cədvəl) təqdim edir.

19 may tarixli imtahan, II ixtisas qrupu, C variantı, 75 saylı test tapşırığı (III ixtisas qrupu, B variantı, 45 saylı test tapşırığı)

Uyğunluğu müəyyən edin.

	Hadisələr	Nəticələr
1.	"Xalqların böyük köçü"	Avropada quldarlıq quruluşunun feodal münasibətləri ilə əvəz olunması
2.	İngiltərədə ilk parlamentin fəaliyyətə başlaması	Tüdorlar sülaləsinin hakimiyyətə gəlməsi
3.	Verden müqaviləsi	Fransa, Almaniya və İtaliya krallıqlarının yaranması
4.	Manufakturaların yaranması	Kapitalist münasibətlərinin inkişafının ləngiməsi
5.	Səlahəddin Əyyubinin Qüdsü azad etməsi	Üçüncü səlib yürüşünün baş verməsi

A) 1, 3, 4 B) 1, 3, 5 C) 2, 3, 5 D) 2, 4, 5 E) 1, 2, 4

Təqdim olunan test tapşırığı formaca yeni test tapşırığı modellərindən biri olmaqla hadisələrin səbəb-nəticə əlaqələrini müəyyən etməklə bağlı bilik və bacarıqları yoxlayır. 7 və 10-cu sinifdə tədris edilən "Ümumi tarix" dərsliyində "Avropa ölkələri orta əsrlərdə" mövzuları əsasında tərtib edilmiş test tapşırığına abituriyentlərin 43,52%-i (III ixtisas qrupunda 48,91%) doğru cavab verib, 20,14%-i isə cavab verməkdən imtina edib. Statistik nəticələrin təhlilinə əsasən test tapşırığından orta çətinlik dərəcəsinə malik olduğu müəyyən edilib. Test tapşırığında verilən hadisələrin müvafiq doğru nəticələri aşağıdakılardır: "Xalqların böyük köçü" nəticəsində Avropada quldarlıq quruluşu feodal münasibətləri ilə əvəz olunmuş, Verden müqaviləsi nəticəsində Fransa, Almaniya və İtaliya krallıqları yaranmış və Səlahəddin Əyyubinin Qüdsü azad etməsi nəticəsində Üçüncü səlib yürüşü baş vermişdir. Digər bəndlərdə hadisələrin nəticələri doğru qeyd edilməyib.

Doğru cavab: B

Ümumi tarix, 6-cı sinif

3.1.1. Qədim dövlətlərin (Misir, Şumer, Babil, Aşşur, İskit, Midiya, Əhəməni, Hun, Çin, Parfiya, Hindistan, Yunanıstan və Roma dövlətləri) yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri təsvir edir.

19 may tarixli imtahan, II ixtisas qrupu, A variantı, 85 saylı test tapşırığı (III ixtisas qrupu, B variantı 53 saylı test tapşırığı)

E.ə. VI əsrin əvvəlləri Qədim Romanın idarəçilik sistemini xarakterizə edir:

1. Respublika idarəçilik sisteminin mövcudluğu
2. Xalq yığıncağı tərəfindən seçilən konsullar tərəfindən idarə edilməsi
3. Hökmdar tərəfindən idarə edilməsi
4. Plebeylərə xalq tribunu seçmək hüququnun verilməsi
5. Patrisilərin ağsaqqallar şurasının Senat adlandırılması

6 və 10-cu siniflərdə "Ümumi tarix" dərsliyində tədris edilən "Qədim Roma" mövzuları əsasında tərtib edilmiş test tapşırığına abituriyentlərin 4,88%-i (III ixtisas qrupunda 6,94%) doğru cavab verib, 32,38%-i isə cavab verməkdən imtina edib.

Ümumi tarix fənninin "Dövlət" məzmun xətti üzrə müvafiq standartlarına əsaslanan test tapşırığının təhlili göstərir ki, abituriyentlər Qədim Roma dövlətinin idarəçiliyinə aid bilik və bacarıqlarını tətbiq etməkdə çətinlik çəkiblər. Məlum olduğu kimi, hökmdar tərəfindən idarə edilməsi və patrisilərin ağsaqqallar şurasının Senat adlandırılması e.ə. VI əsrin əvvəlləri Qədim Romanın idarəçilik sistemini xarakterizə edir. Digər bəndlərdəki cavablar isə yanlışdır.

Doğru cavab: 3,5

Azərbaycan tarixi-9

1.1.1. Mühüm tarixi hadisə, proses və təzahürləri zaman baxımından qiymətləndirir.

1.1.2. Mühüm hadisə, proses və təzahürlərə dair xronoloji cədvəllər hazırlayır.

2.1.1. Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini dəyərləndirir.

7 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı, 86 saylı test tapşırığı (III ixtisas qrupu, B variantı, 56 saylı test tapşırığı)

Xronoloji ardıcıllığı müəyyən edin.

1. Qars müqaviləsinin bağlanması
2. Naxçıvan MSSR-in yaradılması
3. SSRİ-nin yaranması
4. ZSFSR-in yaranması

9 və 11-ci sinifdə tədris edilən "Azərbaycan tarixi" dərsliyində "Azərbaycan XX əsrin 20-30-cu illərində" mövzularına aid test tapşırığına abituriyentlərin 13,98 %-i (III ixtisas qrupunda 20,51%) doğru cavab verib, 22,64%-i isə cavab verməkdən imtina edib. Test tapşırığı "Tarixi zaman" və "Tarixi məkan" məzmun xəttinin müvafiq standartlarına uyğun bilik və bacarıqları yoxlamaq məqsədi daşıyır. RSFSR-in iştirakı ilə Cənubi Qafqaz dövlətləri ilə Türkiyə arasında Qars müqaviləsi 1921-ci ildə, ZSFSR-in yaradılması 1922-ci ilin martında, SSRİ-nin təşkili 1922-ci ilin dekabrında, Naxçıvan MSSR-in yaradılması isə 1924-cü ildə

olmuşdur. Hadisələrin bəzisinin tarixini bilmədən, geosiyasi dəyişikliklərə dair mühakimə yürütməklə də tapşırığı cavablandırmaq mümkündür. Belə ki, SSRİ yaradılanda tərkibinə ZSFSR də daxil edilmişdi. Həmçinin Türkiyə ilə Qars müqaviləsinin imzalanmasında Cənubi Qafqazın Sovet respublikaları ayrılıqda iştirak edirdilər, hələ ZSFSR yaradılmamışdı. Ona görə də ZSFSR-in yaranmasını Qars müqaviləsinin bağlanmasından sonraya, SSRİ-nin yaranmasından isə əvvələ aid etmək düzgündür.

Doğru cavab: 1, 4, 3, 2

Ümumi tarix, 9-cu sinif

1.1.3. Mühüm tarixi faktların zaman əlaqəsini göstərən sinxron cədvəllər hazırlayır.

2.1.1. Kapitalist münasibətlərinin inkişaf prosesində və müasir dünyada ölkələrin və xalqların sosial, siyasi, iqtisadi və mədəni həyatında baş verən dəyişiklikləri məkan baxımdan qiymətləndirir.

7 iyul tarixli imtahan, II ixtisas qrupu, B variantı, 87 saylı test tapşırığı (III ixtisas qrupu, A variantı, 57 saylı test tapşırığı)

Göstərilən dövlətlərin XX əsrin 20-ci illəri tarixinə aid xüsusiyyətləri müəyyən edin.

1. Türkiyə
2. Almaniya

a. Millətlər Cəmiyyətinə üzv qəbul olunması
b. Polşanın bölüşdürülməsində iştirak etməsi
c. Respublika elan edilməsi
d. Hərbi kommunizm siyasətinin tətbiqi
e. Lozannada Antanta ilə sülh müqaviləsi bağlanması

9 və 11-ci sinifdə tədris olunan "Ümumi tarix" dərsliklərində "Dünya dövlətləri XX əsrin 20–40-cı illərində" mövzusuna aid açıq tipli (uyğunluğu müəyyən etmək) tapşırığa abituriyentlərin II qrup üzrə 8,39%-i (III ixtisas qrupu üzrə 13,18 %) doğru cavab verib. İmtina edənlər isə II ixtisas qrupu üzrə 26,96%, III ixtisas qrupu üzrə isə 26,38% olub.

Müvafiq mövzularla bağlı bilik və bacarıqlara malik olan abituriyentlər 1923-cü ildə Lozannada Antanta ilə sülh müqaviləsi bağlayan Türkiyənin həmin ildə respublika (Cümhuriyyət) elan edildiyini müəyyən edə bilərdilər. Hərbi kommunizm siyasətinin tətbiqi SSRİ tarixinə, Almaniya ilə SSRİ-nin Polşanı bölüşdürmələri XX əsrin 30-cu illərinə aiddir. Almaniyanın Millətlər Cəmiyyətinə üzv qəbul olunması isə 1926-cı baş vermişdir.

Doğru cavab: 1-c, e; 2-a

Qəbul imtahanlarında tətbiq edilən forma və məzmunca yeniliklərdən biri də tarixi mənbə üzərində işlə bağlı tapşırıqlar olmuşdur. Mənbələrlə bağlı tapşırıqlar məlumatın əldə edilməsi, nəticə çıxarma, təhlil, müqayisə və səbəb-nəticə əlaqələrini müəyyənetmə bacarıqlarını yoxlamaq məqsədi daşıyır.

7 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı, 88-90 saylı situasiya tapşırıqları (III ixtisas qrupu, B variantı, 58-60 saylı situasiya tapşırıqları)

Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və tapşırıqları yerinə yetirin.

Yoxsullarla varlılar arasındakı ziddiyyətlərin yüksək səviyyəyə çatmasına və dövlətin tamamilə sarsılmasına görə elə təsəvvür yaranırdı ki, o yalnız tiraniyanın qurulması ilə sakitləşə və sabit vəziyyətə gələ bilər. Onda afinalıların ən düşüncəliləri ondan (Solondan) dövlət işləri ilə məşğul olmağı və meydana gəlmiş qarşıdurmanı sona çatdırmağı xahiş etdilər ... Lakin Solon onların heç birini razı salmadı: o, varlıları yoxsulların borc öhdəliklərini ləğv etməsilə məyus etdi, onlardan da çox yoxsullarda narazılıq oyatdı.

Ümumi tarix, 6-cı sinif

3.1.1. Qədim dövlətlərin (Misir, Şumer, Babil, Aşşur, İskit, Midiya, Əhəməni, Hun, Çin, Parfiya, Hindistan, Yunanıstan və Roma dövlətləri) yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri təsvir edir.

II ixtisas qrupu, A variantı, 88 saylı tapşırıq (III ixtisas qrupu, B variantı, 58 saylı tapşırıq)

Afinada mənbədə qeyd olunan islahatlardan sonra yaranmış idarəetmə formasını müəyyən edərək yazın.

6 və 10-cu sinifdə tədris olunan "Ümumi tarix" fənni üzrə "Dövlət" məzmun xəttinin müvafiq standartlarına uyğun bilik və bacarıqları yoxlamaq məqsədi daşıyan, bu tapşırığa abituriyentlərin 17,28%-i (III ixtisas qrupunda 24,74%) doğru cavab verib, 41,02%-i isə cavab verməkdən imtina edib. Abituriyentlər təqdim edilmiş mənbəni diqqətlə oxuyub təhlil etməli, həmçinin müvafiq dərsliklər əsasında mənimsədiyi biliklərlə əlaqələndirmək və nəticə çıxarmaq bacarığı nümayiş etdirməlidirlər. Afinada mənbədə qeyd olunan islahatlardan sonra yaranmış idarəetmə forması tiranlıq, daha sonra demokratiya olmuşdu.

Doğru cavab: tiranlıq, demokratiya (və digər bənzər cavablar)

Ümumi tarix, 6-cı sinif

2.1.1. Ən qədim insan məskənlərinin, ilk sivilizasiyaların, dövlətlərin yaranması və inkişaf amillərini izah edir.

II ixtisas qrupu, A variantı, 89 saylı tapşırıq (III ixtisas qrupu, B variantı, 59 saylı tapşırıq)

Mənbədə göstərilən islahatlardan sonra cəmiyyətdə davam edən gərginliyin Afina dövlətinin polis sisteminin sonrakı inkişafına necə təsir göstərdiyini yazın.

6 və 10-cu sinifdə tədris olunan "Ümumi tarix" fənni üzrə "Tarixi məkan" məzmun xəttinin müvafiq standartlarına uyğun bilik və bacarıqları yoxlamaq məqsədi daşıyan, bu tapşırığa abituriyentlərin 3,38%-i doğru cavab verib, 46,64%-i isə cavab verməkdən imtina edib. Abituriyentlər təqdim edilmiş mənbəni diqqətlə oxuyub təhlil etməli, həmçinin müvafiq dərsliklər əsasında mənimsədiyi biliklərlə əlaqələndirmək və nəticə çıxarmaq bacarığı nümayiş etdirməlidirlər. Beləliklə, mənbədə göstərilən islahatlardan sonra tiranların öz vədlərini yerinə yetirməmələrinin nəticəsində tiranlığa son qoyulması və quldarlıq demokratiyasının yaranmasına uyğun cavabları qeyd etmək tələb edilirdi.

Doğru cavab: Tiranların öz vədlərini yerinə yetirməmələrinin nəticəsində quldarlıq demokratiyası yarandı. Tiranlığa son qoyuldu (və digər bənzər cavablar)

Ümumi tarix, 6-cı sinif

2.1.1. Ən qədim insan məskənlərinin, ilk sivilizasiyaların, dövlətlərin yaranması və inkişaf amillərini izah edir.

Ümumi tarix, 10-cu sinif

1.1.2. Ölkələrdə baş verən oxşar sosial-iqtisadi hadisə və prosesləri zaman baxımından tarixi şəraitlə əlaqədə müqayisə edir və dəyərləndirir.

II ixtisas qrupu, A variantı, 90 saylı tapşırıq (III ixtisas qrupu, B variantı, 60 saylı tapşırıq)

Tarixi biliklərinizə əsasən yoxsulların Solon islahatlarından narazı qalmasının iki əsas səbəbini yazın.

6 və 10-cu sinifdə tədris olunan "Ümumi tarix" fənni üzrə "Tarixi məkan" və "Tarixi zaman" məzmun xəttinin müvafiq standartlarına uyğun bilik və bacarıqları yoxlamaq məqsədi daşıyan, bu tapşırığa abituriyentlərin 8,42 %-i (III ixtisas qrupunda 11,8 %) doğru cavab verib, 30,06 %-i isə cavab verməkdən imtina edib. Abituriyentlər təqdim edilmiş mənbəni diqqətlə oxuyub təhlil etməli, həmçinin müvafiq dərsliklər əsasında mənimsədiyi biliklərlə əlaqələndirmək və nəticə çıxarmaq bacarığı nümayiş etdirməlidirlər. Tiranların demosun vəziyyətinin yaxşılaşdırılması ilə bağlı verdikləri vədlərə əməl etməmələri, yoxsulların zəruri torpaqla təmin edilməməsi və onların vəzifə tutmalarına imkan verilməməsi onların narazılığına səbəb oldu.

Doğru cavab: Tiranların öz vədlərini yerinə yetirməmələrinin nəticəsində quldarlıq demokratiyası yarandı. Tiranlığa son qoyuldu. (və digər bənzər cavablar)

7 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı, 88-90 saylı situasiya tapşırıqları (III ixtisas qrupu, B variantı, 58-60 saylı situasiya tapşırıqları)

Sizə təqdim olunmuş mətni diqqətlə oxuyun və tapşırıqları yerinə yetirin.

Yoxsullarla varlılar arasındakı ziddiyyətlərin yüksək səviyyəyə çatmasına və dövlətin tamamilə sarsılmasına görə elə təsəvvür yaranırdı ki, o yalnız tiraniyanın qurulması ilə sakitləşə və sabit vəziyyətə gələ bilər. Onda afinalıların ən düşüncəliləri ondan (Solondan) dövlət işləri ilə məşğul olmağı və meydana gəlmiş qarşıdurmanı sona çatdırmağı xahiş etdilər ... Lakin Solon onların heç birini razı salmadı: o, varlıları yoxsulların borc öhdəliklərini ləğv etməsilə məyus etdi, onlardan da çox yoxsullarda narazılıq oyatdı.

88. Afinada mənbədə qeyd olunan islahatlardan sonra yaranmış idarəetmə formasını müəyyən edərək yazın.

Cavab: Tiranlıq, oliqarx despotik idarə etmə, demokratiya, xalq hakimiyyəti (demosun hakimiyyəti), demokratik quruluş.

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyar
1 bal	A) Tiranlıq, oliqarx despotik idarə etmə; Demokratiya, xalq hakimiyyəti (demosun hakimiyyəti), demokratik quruluş.
0,5 bal	B) Hakimiyyətin aristokratiyanın əlində olması (qalması); Tək hakimiyyətlik, sərt idarə; 1 doğru 1 yanlış cavab.
0 bal	C) Demokratik respublika, respublika polis sistemi, ağsaqqallar şurası, strateqlər seçilməsi, monarxiya, aristokratik respublika, aristokratiya, aristokratiyanın əlinə keçdi. D) Digər bütün hallarda. 1 (1 ballıq düz) + 1 səhv = 0 bal.

Tapşırıq vasitəsilə abituriyentlərin "Dövlət" məzmun xəttinin 6_3.1.1. (*Qədim dövlətlərin (Misir, Şumer, Babil, Aşşur, İskit, Midiya, Əhəməni, Hun, Çin, Parfiya, Hindistan, Yunanıstan və Roma dövlətləri) yaranmasını, idarəetmə qaydalarını, sosial-iqtisadi münasibətləri təsvir edir*.) alt standartı üzrə tələblərin mənimsənilmə səviyyəsi yoxlanılır.

Qəbul imtahanlarında ilk dəfə tətbiq edilən modellərdən biri olan bu tapşırığı abituriyentlərin 17,28 %-i (III ixtisas qrupunda 24,74 %) tam yerinə yetirib və onların işi maksimum balla qiymətləndirilib. Abituriyentlərin 2,01 %-nin cavabı maksimum balın yarısı ilə, 39,69 %-nin cavabı 0 balla qiymətləndirilib, 41,02 %-i isə cavab verməkdən imtina edib.

Abituriyentlər təqdim edilmiş mənbəni diqqətlə oxuyub təhlil etməli, həmçinin müvafiq dərsliklər əsasında mənimsədiyi biliklərlə əlaqələndirmək və nəticə çıxarmaq bacarığı nümayiş etdirməlidirlər. Afinada mənbədə qeyd olunan islahatlardan sonra yaranmış idarəetmə forması tiranlıq, daha sonra demokratiya olmuşdu.

89. Mənbədə göstərilən islahatlardan sonra cəmiyyətdə davam edən gərginliyin Afina dövlətinin polis sisteminin sonrakı inkişafına necə təsir göstərdiyini yazın.

Cavab: İlk demokratik dövlət quruldu; Quldarlıq demokratiyası yarandı; Tiranlıq (tiranya) idarə üsulu qurulur; Aristokrat (zadəgan) və demos (yoxsullar) arasında gərginliyi aradan qaldırdı; Strateqlər seçilməyə başladı; Ziddiyyət tam aradan qalxmır; Yoxsullar vəzifə tutmaq hüququ əldə etdi (Demosun bütün vəzifələri tuta bilməsi).

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyar
1 bal	A) – İlk demokratik dövlət quruldu; – Quldarlıq demokratiyası yarandı; – Tiranlıq (tiranya) idarə üsulu qurulur; – Aristokrat (zadəgan) və demos (yoxsullar) arasında gərginliyi aradan qaldırdı; – Strateqlər seçilməyə başladı; – Ziddiyyət tam aradan qalxmır; – Yoxsullar vəzifə tutmaq hüququ əldə etdi (Demosun bütün vəzifələri tuta bilməsi).

Bal şkalası	Meyar
0,5 bal	B) – Solon islahatlarının şərtləri və nəticələri; – Zadəganların (Aristokratların) iqtisadi qüdrəti sarsıldı; – Yoxsulların vəziyyətini nisbətən yüngülləşdirdi. (Yoxsulların yaşayışı yaxşılaşdı); – Aristokratlar və demos arasında mübarizə davam edir; – Varlı və yoxsullar arasında narazılıq artdı; – Aristokrat və demos arasında münaqişənin artması (davam etməsi); – Sosial təbəqələşmə qalırdı; – Çoxluğun azlığın zülmü (hakimiyyəti) altında qalması; – Varlılar arasında Solona qarşı narazılıq yarandı; – 1 (2 ballıq doğru) + 1 səhv = 1 bal.
0 bal	C) – Məqsəd bildirən ifadələr; – Polis sistemi yarandı və ya ləğv edildi (süqut etdi); – Daha da gərginləşdi; – 1 (1 ballıq doğru) + 1 səhv = 0 bal; – Digər bütün hallarda.

Tapşırıq vasitəsilə abituriyentlərin "Tarixi məkan" məzmun xəttinin 6_2.1.1. (*Ən qədim insan məskənlərinin, ilk sivilizasiyaların, dövlətlərin yaranması və inkişaf amillərini izah edir.*) alt standartı üzrə tələblərin mənimsənilmə səviyyəsi yoxlanılır. "Ümumi tarix" fənni üzrə müvafiq standarta uyğun bilik və bacarıqları yoxlamaq məqsədi daşıyan, bu tapşırığa abituriyentlərin 3,38 %-i tam doğru cavab verib və onların cavabı maksimum balla qiymətləndirilib. Abituriyentlərin 9,11 %-nin cavabı maksimum balın yarısı ilə qiymətləndirilib, 46,64 %-i isə cavab verməkdən imtina edib.

Abituriyentlər təqdim edilmiş mənbəni diqqətlə oxuyub təhlil etməli idilər, çünki mənbədə göstərilən islahatlardan sonra tiranların öz vədlərini yerinə yetirməmələrinin nəticəsində tiranlığa son qoyulması və quldarlıq demokratiyasının yaranmasına uyğun cavabları qeyd etmək tələb edilirdi.

90. Tarixi biliklərinizə əsasən yoxsulların Solon islahatlarından narazı qalmasının iki əsas səbəbini yazın.

Cavab: Pay torpağı (zəruri torpaqla) ilə təmin edilməməsi; Vəzifə tutmaq imkanı qazanmadılar; İdarəetmədə iştirak hüququ qazanmadılar; Tamhüquqlu vətəndaş olmaq problemi həll edilmədi; Tamhüquqlu vətəndaş olmadılar; Dövlət işinə qarışa bilməmələri;

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyar
1 bal	A) – Pay torpağı (zəruri torpaqla) ilə təmin edilməməsi; – Vəzifə tutmaq imkanı qazanmadılar; – İdarəetmədə iştirak hüququ qazanmadılar; – Tamhüquqlu vətəndaş olmaq problemi həll edilmədi; – Tamhüquqlu vətəndaş olmadılar; – Dövlət işinə qarışa bilməmələri; – 1 (2 ballıq düz)+1 (1 ballıq düz) = 2 bal; **Qeyd: Səhv cavab olmadan yuxarıda göstərilən cavab nümunələrin ən azı istənilən 2-si olan bütün hallarda nəticə 2 balla qiymətləndirilir.**

Bal şkalası	Meyar
0,5 bal	B) – Varlıların zülmündən tam xilas olmadı; – Torpaqlar bölünmədi; – Varlıların yoxsullardan daha çox imtiyazı olması; – Mahiyyətcə eyni mənalı 2 doğru cavab = 1 bal; – 1 doğru (2 ballıq) + 1 yanlış = 1.
0 bal	C) – Cəmiyyətdə mövqe tuta bilmədilər; – Maaş ala bilməmələri (vəzifə tutduqda); – Digər bütün hallarda.

6 və 10-cu sinifdə tədris olunan "Ümumi tarix" fənni üzrə "Tarixi məkan" və "Tarixi zaman" məzmun xəttinin *2.1.1.* (*Ən qədim insan məskənlərinin, ilk sivilizasiyaların, dövlətlərin yaranması və inkişaf amillərini izah edir.*) və *1.1.2. (Ölkələrdə baş verən oxşar sosial-iqtisadi hadisə və prosesləri zaman baxımından tarixi şəraitlə əlaqədə müqayisə edir və dəyərləndirir.)* standartlarına uyğun bilik və bacarıqları yoxlamaq məqsədi daşıyan bu tapşırığı abituriyentlərin 8,42 %-i (III ixtisas qrupunda 11,8 %) tam yerinə yetirib və onların cavabı maksimum balla qiymətləndirilib. Abituriyentlərin 15,79 %-nin cavabı maksimum balın yarısı ilə qiymətləndirilib, 39,28 %-i isə cavab verməkdən imtina edib.

Abituriyentlər təqdim edilmiş mənbəni diqqətlə oxuyub təhlil etməli, həmçinin müvafiq dərsliklər əsasında mənimsədiyi biliklərlə əlaqələndirmək və nəticə çıxarmaq bacarığı nümayiş etdirməlidirlər. Tiranların demosun vəziyyətinin yaxşılaşdırılması ilə bağlı verdikləri vədlərə əməl etməmələri, yoxsulların zəruri torpaqla təmin edilməməsi və onların vəzifə tutmalarına imkan verilməməsi onların narazılığına səbəb oldu.

Beləliklə, qəbul imtahanının nəticələri göstərir ki, abituriyentlər imtahana hazırlıq dövründə tarixi prosesləri öyrənərkən mövzulararası əlaqələndirmə və hadisələri səbəb-nəticə əlaqələri çərçivəsində təhlil edərək yekun ümumiləşdirmə aparmaq, məntiqi nəticə çıxarmaq və mühakimə yürütmək bacarığına daha da dərindən yiyələnməlidirlər.

Coğrafiya fənnindən qəbul imtahanında istifadə edilmiş tapşırıqlar fənn kurikulumunun 3 (**"Coğrafi məkan"**, **"Təbiət"**, **"Cəmiyyət"**) məzmun xətti üzrə 6 əsas və 118 alt standartın reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edir.

Tapşırıqlar ilə abituriyentlərin

– kainatda Yerin mövqeyini, hərəkətinin coğrafi nəticələrini təsvir etmək;

– səma cisimlərinin qarşılıqlı təsirini əlaqələndirmək;

– Yerin sutkalıq və illik hərəkətini Yerdə həyatın mövcudluğu ilə əlaqələndirmək;

– əhalinin dinamikasını ölkələrin iqtisadi inkişaf səviyyəsi ilə əlaqələndirmək;

– coğrafi təbəqələrin inkişaf mərhələlərini izah etmək;

– ərazilərin tektonik quruluşunun və təbii proseslərin ölkələrin iqtisadiyyatında rolunu izah etmək kimi bilik və bacarıqlarının aşkara çıxarılması və qiymətləndirilməsi nəzərdə tutulub.

İmtahanlarda nəzəri biliklərin tətbiqinə əsaslanan və məntiqi düşüncə, təhliletmə bacarığı tələb olunan xəritə-sxem, qrafik, diaqram və hesablama xarakterli tapşırıqlara bu il də üstünlük verilmişdir. Abituriyentlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması və qiymətləndirilməsi məqsədilə bloka mürəkkəblik dərəcəsinə görə sadə, orta və çətin tapşırıqlar daxil edilib.

İmtahan nəticələrinin statistik göstəricilər əsasında aparılan təhlili göstərib ki, abituriyentlər "Dünya təsərrüfatı", "Azərbaycanın relyefi, faydalı qazıntıları", "Materiklərin daxili suları", "Dünyanın təbii ehtiyatlarının yerləşməsi" və s. mövzulara aid tapşırıqlara daha yaxşı cavab veriblər. Lakin xəritə-sxem şəklində verilmiş, nəzəri bilikləri tətbiq etmək, nəticə çıxarmaq bacarığı tələb olunan, ölkələrin və ya regionların fiziki-coğrafi və iqtisadi-coğrafi səciyyəsini müəyyən edən, həmçinin hesablama xarakterli bəzi məsələlərin təhlilinə aid tapşırıqları nisbətən zəif cavablandırmışlar.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

8-ci sinif

2.1.3. İqliməmələgətirən amilləri və dünyanın iqlimində baş verən dəyişiklikləri izah edir.

19 may tarixli imtahan, A variantı, 37 saylı test tapşırığı

Xəritə sxemdə rəqəmlərə uyğun gələn iqlim tipləri:



A) 1 – Qışı quraq keçən soyuq, 2 – yayı quraq keçən soyuq, 3 – qışı quraq keçən mülayim-isti

B) 1 – Yayı quraq keçən soyuq, 2 – qışı mülayim keçən yarımsəhra və quru çöl, 3 – yağıntıları bərabər paylanan mülayim-isti

C) 1 – Yayı quraq keçən soyuq, 2 – qışı quraq keçən mülayim-isti, 3 – yayı quraq keçən mülayim-isti

D) 1 – Qışı quraq keçən soyuq, 2 – yağıntıları bərabər paylanan mülayim-isti, 3 – yayı quraq keçən mülayim-isti

E) 1 – Yayı quraq keçən soyuq, 2 – yayı quraq keçən mülayim-isti, 3 – qışı soyuq keçən yarımsəhra və quru çöl

Azərbaycan Respublikasında iqlim rayonlaşmasına və iqlim tiplərinin yayıldığı ərazilərin müəyyən edilməsi tələb olunan bu tapşırıq "Azərbaycanın iqlimi" bölməsinə aiddir. Tapşırığa abituriyentlərin 36,21%-i doğru cavab verib, 13,20%-i isə cavab verməkdən imtina edib. Bu onu göstərir ki, abituriyentlərin bir çoxu əvvəlki illərdə olduğu kimi, yenə də iqlim tiplərinin yayıldığı ərazilərin öyrənilməsində müəyyən çətinlik çəkir və bu mövzunu tam mənimsəyə bilmirlər.

Tapşırığın yerinə yetirilməsi üçün Azərbaycan Respublikasının iqlim xəritəsini təhlil etmək lazımdır. Xəritədən müəyyən etmək olur ki, Naxçıvan MR dağlıq ərazilərində yayı quraq keçən soyuq iqlim tipi (1), Gəncə rayonunda qışı quraq keçən mülayim-isti iqlim tipi (2), Lənkəran ovalığında yayı quraq keçən mülayim-isti iqlim tipi (3) əmələ gəlir.

Doğru cavab: C

7-ci sinif

1.3.2. Kartoqrafik elementlərə əsasən sadə hesablamalar aparır

19 may tarixli imtahan, A variantı, 54 saylı test tapşırığı

1:40 000 000 miqyaslı xəritədə 2 sm^2 sahə tutan bataqlıq 1:10 000 000 miqyaslı xəritədə neçə sm^2 olar?

"Plan və xəritə" bölməsinə aid hesablama xarakterli açıq tipli bu test tapşırığına abituriyentlərin 17,09%-i doğru cavab verib, 23,90%-i isə cavab verməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün abituriyentlər, ilk növbədə bataqlığın yer səthində olan həqiqi sahəsini müəyyən etməlidirlər.

1: 40 000 000

1 sm-də 400 km

Sahə miqyası isə 1 sm^2 = 160000 km^2 olar.

Bu halda:

S_{yer} = 160000 x 2 = 320000 km^2

Sonrakı mərhələdə ikinci xəritədə bataqlığın sahəsini müəyyən etmək olar:

1:10 000 000

1 sm-də 100 km

1 sm^2 = 10000 km^2

İkinci xəritədə bataqlığın sahəsini tapmaq üçün:

$S_{xəritə}$ = 320000 : 10000 = 32 sm^2

Doğru cavab: 32

7-ci sinif

3.2.3. Dünya təsərrüfatının quruluşuna təsir edən təbii və iqtisadi amilləri şərh edir

19 may tarixli imtahan, A variantı, 57 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.

1. Qazaxıstan
2. Türkiyə
3. Türkmənistan

a. ərazisindən axan çaylar iki okean hövzəsinə aiddir
b. ərazisində qütb gecə-gündüzləri müşahidə edilir
c. sahəsinə görə ən böyük türk dövlətidir
d. ərazisində Avrasiyanın ən hündür və ən alçaq nöqtələri yerləşir
e. ərazisində axan çaylar yalnız daxili (axarsız) hövzəyə aiddir

Uyğunluğun müəyyən edilməsinə aid açıq tipli test tapşırığı "Türk dünyası ölkələrinin coğrafiyası" bölməsinə aiddir. Tapşırıqda türk dövlətlərinə aid xüsusiyyətlərin müəyyən edilməsi tələb olunur. Bu tapşırığa abituriyentlərin 23,44%-i doğru cavab verib, 23,51%-i cavab verməkdən imtina edib.

Statistik məlumatların təhlili göstərmişdir ki, abituriyentlərin əksəriyyəti hələ də konkret ölkələrin xüsusiyyətlərinin müəyyən edilməsində çətinlik çəkirlər.

Tapşırığın yerinə yetirilməsi üçün aşağıdakı uyğunluğu bilmək lazımdır: Qazaxıstan sahəsinə görə ən böyük müstəqil türk dövlətidir (c); Türkiyə ərazisindən axan çaylar Atlantik və Hind okeanlarının hövzəsinə aiddir. (a); Türkmənistandan axan çaylar daxili axarsız hövzə hesab olunan Xəzər dənizinə tökülür (e).

Doğru cavab: 1 –c; 2 – a; 3 – e

7-ci sinif

3.1.1. Əhalinin regionlar üzrə paylanmasını şərh edir.

11-ci sinif

1.3.2. Kartoqrafik təsvirlər əsasında hər hansı ərazinin fiziki-iqtisadi təsvirini verir.

19 may tarixli imtahan, B variantı, 40 saylı test tapşırığı

Xəritə-sxemdə verilən Azərbaycan Respublikası iqtisadi-coğrafi rayonlarının əhalisinin sayını artma sırasına görə düzün.



1. 2. 3. 4.

A) 2, 4, 1, 3 B) 4, 3, 2, 1 C) 4, 3, 1, 2 D) 4, 1, 3, 2 E) 2, 1, 3, 4

Test tapşırığı xəritə-sxem xarakterlidir. Azərbaycanın iqtisadi rayonlarının müqayisə edilməsi tələb olunan bu tapşırıq "Azərbaycanın iqtisadi rayonları" bölməsinə aiddir. Abituriyentlər iqtisadi rayonları onların əhalisinin sayının artma sırasına görə ardıcıl sıralamalıdır. Bu tapşırığa abituriyentlərin 36,3%-i düzgün cavab verib, 8,16%-i cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün Abşeron, Aran, Gəncə-Qazax iqtisadi rayonlarında əhalinin sayının daha çox olmasını bilmək lazımdır. Tapşırığa cavab vermək üçün xəritə-sxemdə göstərilən rayonlar tərsinə ardıcıllıqla düzülməlidir.

Doğru cavab: D

7-ci sinif

3.2.3. Dünya təsərrüfatının quruluşuna təsir edən təbii və iqtisadi amilləri şərh edir.
19 may tarixli imtahan, B variantı, 57 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.
1. Qırğızıstan
2. Azərbaycan
3. Özbəkistan
a. qədim platforma üzərində yerləşir
b. dünyanın ən böyük gölünün qərb sahilində yerləşir
c. ərazisinin böyük hissəsi dağlıq relyefə malikdir
d. ərazisində səhra və yarımsəhralar geniş sahə tutur
e. paytaxtı ölkənin iqtisadi mərkəzi deyil

Uyğunluğun müəyyən edilməsinə aid açıq tipli test tapşırığı "Türk dünyası ölkələrinin coğrafiyası" bölməsinə aiddir və türk dövlətlərinin xüsusiyyətlərinin müəyyən edilməsi ilə bağlıdır. Bu tapşırığa abituriyentlərin 11,79%-i doğru cavab verib, 22,86%-i cavab verməkdən imtina edib.

Bu tapşırığı həll etmək üçün abituriyentlər aşağıdakı uyğunluğu bilməlidir: Qırğızıstanın ərazisinin çox hissəsi dağlıq ərazilərdə yerləşir (c); Azərbaycan Dünyanın ən böyük gölünün qərb sahilində yerləşir (b); Özbəkistanın ərazisinin çox hissəsini səhra və yarımsəhralar tutur (d).

Doğru cavab: 1 –c; 2 – b; 3 - d

10-cu sinif
2.1.5. Quru sularının xüsusiyyətlərinə dair layihələr hazırlayır, təqdim edir.
07 iyul tarixli imtahan, A variantı, 50 saylı test tapşırığı

Çayların mənsəblərinin mütləq hündürlüklərinin azalmasına görə düzgün sırasını müəyyən edin.
A) Türyançay, Lənkərançay, Oxçuçay
B) Qusarçay, Ordubadçay, Qanıx
C) Arpaçay, Həkəri, Ataçay
D) Naxçıvançay, Viləş, Ağstafaçay
E) Göyçay, Əlincəçay, Köndələnçay

Test tapşırığı orta məktəbdə tədris olunan "Hidrosfer" bölməsinin "Azərbaycanın çayları" mövzusuna aiddir. Abituriyentlərin 33,76%-i bu tapşırığa düzgün cavab verib, 34,45%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün Azərbaycanın relyefini və çaylarının keçdiyi ərazilərin oroqrafik vahidlərini müəyyən etmək lazımdır. Bunlara əsasən çayların mənsəblərini hündürlüklərin azalma sırası ilə düzmək olar. Xəzər dənizindən qərbə doğru ərazilərin mütləq hündürlüyü artır. Bunu nəzərə alaraq müəyyən etmək olar ki, sıranın sonunda Xəzər dənizinə tökülən çay yer almalıdır (Ataçay). Ataçaydan əvvəl Araz çayına tökülən çayı yerləşdirmək olar (Həkəri çayı). Naxçıvan MR-də aşağı ərazilər 600 m mütləq hündürlüyə malikdir və Arpaçayın mənsəbi bu hündürlüyə uyğun gəlir.

Doğru cavab: C

10-cu sinif
2.1.6. Quru sularının xüsusiyyətlərinə dair hesablamalar aparır.
07 iyul tarixli imtahan, A variantı, 56 saylı test tapşırığı

Çayın orta meylliliyi 2,5 $\frac{m}{km}$, uzunluğu isə 1200 km-dir. Çayın mənsəbində atmosfer təzyiqi 760 mm c.s. olarsa, mənbəyinin mütləq hündürlüyünü metrlə hesablayın.

"Hidrosfer" bölməsinə aid hesablama xarakterli və açıq tipli bu test tapşırığına abituriyentlərin 26,35%-i doğru cavab verib, 34,93%-i isə cavab verməkdən imtina edib. Əvvəlki illərdə də bu tipli test tapşırıqlarının

təklif olunmasına baxmayaraq, abituriyentlər onun həllində çətinlik çəkmişdilər. Test tapşırığının yerinə yetirilməsi üçün çayların orta meyilliyinin müəyyən edilməsi qaydalarından istifadə etməlidirlər. Eyni zamanda nəzərə almalıdır ki, çayın mənsəbi okean səviyyəsində yerləşir və burada normal atmosfer təzyiqi olur (760 mm c. st). Bunları nəzərə alaraq çayın mənbəyinin hündürlüyünü müəyyən etmək olar: 2,5 x 1200 = 3000 m.

Doğru cavab: **3000**

10-cu sinif

3.2.1. Ölkələrin geosiyasi mövqeyini qiymətləndirir,

11-ci sinif

3.1.1. Əhalinin tərkibini təhlil edir.

07 iyul tarixli imtahan, B variantı, 52 saylı test tapşırığı

Qırğızıstan Respublikasına aid olan xüsusiyyətlər:

1. Dağlıq relyef üstünlük təşkil edir.
2. Çayları Aral, Balxaş və Xəzər hövzələrinə aiddir.
3. Əhalinin çox hissəsi türk dil qrupunun qıpçaq qoluna aiddir.
4. Qazaxıstan, Monqolustan və Pakistan ilə həmsərhəddir.
5. MDB təşkilatının üzvüdür.
6. Tropik və subtropik iqlim qurşaqlarında yerləşir.

A) 2, 4, 6 B) 1, 3, 5 C) 1, 4, 5 D) 2, 3, 6 E) 1, 5, 6

Bu test tapşırığı "Türk dünyası ölkələrinin coğrafiyası" bölməsinə aiddir. Burada müstəqil türk dövlətləri olan Qırğızıstana aid xüsusiyyətlərin müəyyən edilməsi tələb olunur. Test tapşırığına abituriyentlərin 40,64%-i doğru cavab verib, 17,27%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün verilmiş ölkəyə aid olan fiziki-coğrafi və iqtisadi-coğrafi xüsusiyyətləri bilmək lazımdır: ölkənin ərazisi Tyan-Şan dağlarında yerləşir (1); əhali türk dil qrupunun qıpçaq qoluna aiddir (3); ölkə MDB təşkilatının üzvüdür (5). Deməli, test tapşırığında 1, 3, 5-ci bəndlərdə verilən fikirlər Qırğızıstan Respublikası üçün səciyyəvidir.

Doğru cavab: 1, 3, 5

11-ci sinif

1.3.2. Kartoqrafik təsvirlər əsasında hər hansı bir ərazinin fiziki-iqtisadi təsvirini verir.

07 iyul tarixli imtahan, B variantı, 57 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.

a. Metallurgiya sənayesi inkişaf etmişdir.
b. Üç ölkə ilə həmsərhəddir.
c. Əhali həm dağlıq, həm də düzənlik ərazilərdə məskunlaşmışdır.
d. Yodlu-bromlu sularla zəngindir.
e. Pambıq əkinləri geniş sahə tutur.

Azərbaycanın iqtisadi rayonlarının müqayisə edilməsi tələb olunan tapşırıq ümumtəhsil məktəblərində tədris edilən "Azərbaycanın iqtisadi rayonları" bölməsinə aiddir. Açıq tipli bu uyğunluq tapşırığı xəritə-sxem xarakterlidir. Tapşırığa abituriyentlərin 38,7%-i doğru cavab verib, 8,84%-i isə cavab verməkdən imtina edib.

Təqdim olunan tapşırıqda xəritə-sxemin verilməsi onun həllini asanlaşdırmalı idi. Verilən əlamətlərin təhlili göstərir ki, Gəncə-Qazax (I) ölkənin metallurgiya bazalarından biridir (a), iqtisadi rayon dağlıq və

düzənlik ərazilərdə yerləşir (c). Aranda təbii-iqlim şəraiti pambıqçılığın inkişafına əlverişli şərait yaradır (e), neft qaz yataqları olan ərazilərdə zəngin yodlu-bromlu sular vardır (d).

Doğru cavab: 1 – a, c; 2 – d, e

19 may tarixli imtahan, II ixtisas qrupu, A variantı, situasiya tapşırıqları (58, 59, 60)

Situasiya: Alternativ, tükənməyən enerji mənbələrinin axtarışı ilə məşğul olan ekspedisiya üzvləri 22 iyun tarixində London şəhərindən (0°-u.) 180°-lik azimutla hərəkətə başladılar. Həmin gün saat 12:00-da (günorta) Şimal yarımkürəsində B məntəqəsinə çatan ekspedisiya üzvləri ekstremal təbii şəraitlə qarşılaşdılar və cisimlərin kölgəsinin müşahidə olunmadığını müəyyən etdilər.

58. B məntəqəsinin coğrafi koordinatlarını və 22 iyunda məntəqəyə Günəşin düşmə bucağını müəyyən edib yazın.

İzah*:* Tapşırığın yerinə yetirilməsi üçün abituriyentlər bilməlidirlər ki, 22 iyunda Günəş Şimal tropikində (23,5º şm.e.) zenitdə olur, yəni düz bucaq altında düşür. Bu halda həmin enliklərdə şaquli basdırılmış dirəyin (qnomonun) kölgəsi olmur.

Tapşırığın şərtinə görə ekspedisiya üzvləri 22 iyun tarixində London şəhərindən (0°-u.) 180°-lik azimutla hərəkət edirsə, onlar cənuba istiqamətində, yəni Şimal tropikinə doğru gedirlər. Çatdıqları B məntəqəsində Şimal yarımkürəsində, gündüz saat 12:00-də Günəş zenitdə olduğuna görə qnomonun kölgəsi də olmayacaq. Ona görə doğru cavab 23,5º şm.e., 0º u olur.

Doğru cavab: *Doğru cavab: coğrafi koordinat- (23,5° şm.e. 0° u.);*
Günəşin düşmə bucağı- 90° (düz bucaq)

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	a. “B” məntəqəsinin coğrafi koordinatını (coğrafi enlik və coğrafi uzunluq rəqəmlə və ya koordinat sistemi vasitəsilə) və məntəqəyə günəşin düşmə bucağını düzgün müəyyən edib yazıb.
0,5 bal	b. “B” məntəqəsinin coğrafi koordinatını (coğrafi enlik və coğrafi uzunluq rəqəmlə və ya koordinat sistemi vasitəsilə) və ya məntəqəyə günəşin düşmə bucağını düzgün müəyyən edib yazıb
0 bal	c. A və B bəndindən başqa digər bütün hallar.

Tapşırıq vasitəsilə “Coğrafi məkan” məzmun xəttinin 8_1.2.1. (*Günəş şüalarının Yer kürəsinə düşmə bucağının dəyişməsini hesablayır)* alt standartı üzrə tələblərin mənimsənilmə səviyyəsi yoxlanılır.

Təqdim olunan bu tapşırıq 8-ci sinifdə tədris olunan “Yerin Günəş və öz oxu ətrafında hərəkəti” mövzusuna aiddir, hesablama xarakterlidir. Abituriyentlərin 15,75%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla qiymətləndirilib. 18,60% abituriyentin yazı işi 0,5 balla, 15,85% abituriyentin yazı işi 0 balla qiymətləndirilib, 49,80% abituriyent isə tapşırığı yerinə yetirməkdən imtina edib.

59. B məntəqəsinin yerləşdiyi təbii zonanı və burada alternativ enerji mənbəyi əsasında tikilməsi məqsədəuyğun olan elektrik stansiyasını müəyyən edib yazın.

İzah*:*Tapşırıq 9-cu sinfin tədris materiallarını əhatə edir. Abituriyentlər bilməlidir ki, Şimal tropiki (23,5º şm.e.) tropik qurşağın səhra və yarımsəhra zonalarından keçir. Bu enliklərdə Günəş uzun müddət zenitdə olduğuna görə günəşli saatların miqdarı çoxdur. Ona görə günəş enerjisindən istifadə edilməsi imkanları böyükdür. Eyni zamanda sahil rayonlarında külək enerjisi potensialı da mövcuddur.

Doğru cavab: səhra və yarımsəhralar; günəş və ya külək elektrik stansiyaları

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	a. “B” məntəqəsinin yerləşdiyi təbii zonanın adını və tikilməsi daha məqsədə uyğun olan ən azı bir alternativ elektrik stansiyasını adını düzgün müəyyən edib yazıb.
0,5 bal	b. “B” məntəqəsinin yerləşdiyi təbii zonanın adını və ya tikilməsi daha məqsədə uyğun olan ən azı bir alternativ elektrik stansiyasının adını düzgün müəyyən edib yazıb.
0 bal	c. A və B bəndindən başqa digər bütün hallar.

Tapşırıq vasitəsilə “Coğrafi məkan” məzmun xəttinin 11_1.2.1. (*Yerin hərəkətinin coğrafi nəticələrinin regionlar üzrə iqtisadiyyata təsirini əsaslandırır*) alt standartı üzrə tələblərin mənimsənilmə səviyyəsi yoxlanılır.

Abituriyentlərin 17,55%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla qiymətləndirilib. 20,83% abituriyentin yazı işi 0,5 balla, 14,80% abituriyentin yazı işi 0 balla qiymətləndirilib, 46,82% abituriyent isə tapşırığı yerinə yetirməkdən imtina edib.

60. B məntəqəsində alternativ mənbədən enerji əldə olunmasına imkan yaradan üç təbii amili yazın.

***İzah**:* Tapşırıq 9-10-cu siniflərin tədris materiallarını əhatə edir. Tapşırığın yerinə yetirilməsi üçün tropik enliklərin təbii şəraitini – iqlimi, təbii zonaların coğrafi şəraitini bilmək lazımdır. Bu enliklərdə Günəş uzun müddət böyük bucaq altında düşür, ildə bir dəfə zenitdə olur. Ona görə günəşli saatların miqdarı çoxdur, günəş radiasiyası böyük kəmiyyətlər alır. Yüksək təzyiq sahəsi olduğuna görə buludluluq aşağıdır. Nəticədə, havanın temperaturu kifayət qədər yuxarı qalxır, iyulun orta temperaturu 28-30ºC-dən çoxdur. Buludluluğun aşağı olması Günəşin üfüqdə görünməsinə, düz radiasiyanın böyük olmasına gətirib çıxarır.

***Doğru cavab**:* Amillər:

İl ərzində günəş şüalarının düşmə bucağının kəmiyyətinin böyük olması; Yüksək buxarlanma qabiliyyəti:

yüksək temperatur

günəşli günlərin sayı çox

günəşli saatların sayı çox

düz radiasiyanın üstünlüyü

buludsuz günlərin sayı çox

səhralarda əsən daimi küləklər

küləyin orta illik sürətinin 4,5 m/san olması

Bal şkalası	Meyarlar
1 bal	a. Üç təbii amili düzgün yazıb.
0,5 bal	b. İki təbii amili düzgün yazıb (səhv cavab nəzərə alınmır). c. Bir təbii amili düzgün yazıb. Səhv cavab yoxdur
0 bal	d. Bir təbii amili düzgün yazmaqla yanaşı səhv cavab yazılıbsa. e. Digər başqa hallarda.

Tapşırıq vasitəsilə “Təbiət” məzmun xəttinin 9_2.1.3. (*Atmosferdə baş verən hadisə və proseslərin iqtisadi həyata təsirini təhlil edir)*, 10_2.1.3. (*İqlim dəyişmələrinə və iqlim ehtiyatlarından istifadəyə dair təqdimatlar edir)* alt standartları üzrə tələblərin mənimsənilmə səviyyəsi yoxlanılır.

Tapşırığın yerinə yetirilməsi yaradıcı əmək, öyrəndiklərini tətbiq etmək bacarığı, proqnoz vermək, təbii şəraitin imkanları və təbii ehtiyatlardan istifadə yollarını müəyyən etməyi tələb edir. Abituriyentlərin 2,65%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla qiymətləndirilib. 12,54% abituriyentin yazı işi 0,5 balla, 39,52% abituriyentin yazı işi 0 balla qiymətləndirilib, 45,28% abituriyent isə tapşırığı yerinə yetir

Riyaziyyat fənnindən I və II ixtisas qrupları üzrə qəbul imtahanlarında istifadə edilmiş tapşırıqlar fənn kurikulumu əsasında 5 (**“Ədədlər və əməllər”**, **“Cəbr və funksiyalar”**, **“Həndəsə”**, **“Ölçmə”**, **“Statistika və ehtimal**”) məzmun xətti üzrə 12 əsas və 187 alt standartın reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edib.

Tapşırıqlar məzmun xətləri üzrə təlim nəticələrinə uyğun hazırlanıb və abituriyentlərin

– ədədlər üzərində dəqiq və təqribi hesablamalar aparmaq;

– həyati məsələlərin həllində riyazi bilikləri tətbiq etmək;

– riyazi anlayışlara aid alqoritmləri yerinə yetirmək;

– rasional ifadələr üzərində eynilik çevrilmələri aparmaq;

– tənlik və bərabərsizlikləri həll etmək;

– riyazi kəmiyyətlər arasındakı asılılıqların qrafiki təsvirini mənimsəmək;

– həndəsi fiqurlarla, koordinatlar və vektorlarla əməliyyatların yerinə yetirilməsi;

– müstəvi fiqurların və fəza cisimlərinin xassələrini praktik həndəsi məsələlərin həllinə tətbiq etmək;

– statistik məlumatları toplamaq, araşdırmaq, sistemləşdirmək və nəticəsini təqdim etmək;

– statistik və ehtimal əsasında hadisənin başvermə mümkünlüyünü proqnozlaşdırmaq;

– ətraf aləmdəki ehtimal və statistikanın qanunauyğunluqlarının mövcudluğu haqqında məlumatları izah etmək, ehtimalın klassik modelinə əsasən hadisələrin baş verməsini proqnozlaşdırmaq üzrə bilik və bacarıqlarının aşkara çıxarılması və qiymətləndirilməsinə yönəlib.

Təhlil göstərir ki, hər iki ixtisas qrupu üzrə abituriyentlərin müəyyən hissəsi natural ədədlər, adi və onluq kəsrlər, rasional kəsrlər, kvadrat köklər, tənliklər sistemi, funksiyalar və qrafiklər, üstlü və loqarifmik tənliklər, sadə həndəsi fiqurlar, dördbucaqlılar mövzularına aid tapşırıqlara yaxşı cavab veriblər. Bununla yanaşı, bir qisim abituriyentlər bərabərsizliklər, triqonometrik funksiyalar və tənliklər, loqarifmik funksiya, funksiyanın törəməsi, üçbucaqlar, fiqurların sahəsi, hərəkət, koordinatlar üsulu, çoxüzlülər, fırlanma cisimləri mövzularına aid tapşırıqları zəif cavablandırıblar.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

Qeyd etmək lazımdır ki, hər bir tapşırıq aid olduğu alt standartın tələblərinin yoxlanılması və qiymətləndirilməsi üçün nəzərdə tutulub.

8-ci sinif 3.1.3. ***Pifaqor teoremini tətbiq edir, iti bucağın triqonometrik funksiyalarının tərifl ərini bilir və bəzi bucaqların triqonometrik funksiyalarının qiymətini tapır.***

9-cu sinif 3.1.4. ***Dairənin daxilinə və xaricinə çəkilmiş dördbucaqlının xassələrini məsələlər həllinə tətbiq edir.***

3.2.3. ***Verilmiş iki nöqtə arasındakı məsafə düsturunu bilir, mərkəzinin koordinatlarına və radiusuna görə çevrənin tənliyini yazır.***

12 may tarixli imtahan, I ixtisas qrupu, A variantı, 2 saylı test tapşırığı

$5x-12y=60$ düz xəttinin və koordinat oxlarının əmələ gətirdiyi üçbucağın daxilinə çəkilmiş çevrənin tənliyini yazın.

A) $(x-3)^2+(y+3)^2=16$

B) $(x+2)^2+(y-2)^2=16$ C) $(x+4)^2+(y-2)^2=4$

D) $(x-2)^2+(y+4)^2=36$ E) $(x-2)^2+(y+2)^2=4$

"*Koordinatlar metodu*" bölməsinə aid bu tapşırığa abituriyentlərin 15,40%-i doğru cavab verib, 47,89%-i isə cavab verməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün mövzu üzrə qazanılmış bilikləri tətbiq etmək bacarığı tələb olunur. $5x-12y=60$ düz xəttinin koordinat oxlarını kəsdiyi nöqtələr uyğun olaraq $(0;-5)$ və $(12;0)$ -dır. $5x-12y=60$ düz xəttinin və koordinat oxlarının əmələ gətirdiyi üçbucaq katetləri 5 və 12 olan düzbucaqlı üçbucaq olacaq. Katetləri verilmiş düzbucaqlı üçbucağın hipotenuzunu tapmaq üçün Pifaqor teoremindən istifadə edilir,



$c^2=5^2+12^2 \Rightarrow c=13$ alınır.

Məlumdur ki, düzbucaqlı üçbucağın daxilinə çəkilmiş çevrənin radiusu $r=\frac{a+b-c}{2}=\frac{5+12-13}{2}=2$ olar. Şəkildən göründüyü kimi, bu çevrənin mərkəzi IV rübdə olduğundan, koordinatları $(2;-2)$ olar. Beləliklə, çevrənin mərkəzinin koordinatları və radiusu çevrənin tənliyində nəzərə alınarsa, $(x-2)^2+(y+2)^2=4$ olar.

Doğru cavab: E.

Doğru cavab faizinin aşağı olmasını abituriyentlərin koordinatlar metodu mövzusundan zəruri bilik və bacarıqlarının zəif olması ilə əlaqələndirmək olar.

8-ci sinif 3.1.3. ***Pifaqor teoremini tətbiq edir, iti bucağın triqonometrik funksiyalarının tərifl ərini bilir və bəzi bucaqların triqonometrik funksiyalarının qiymətini tapır.***

12 may tarixli imtahan, I ixtisas qrupu, A variantı, 14 saylı test tapşırığı

Bərabəryanlı ABC üçbucağında $AB=AC$ və $\text{tg}\angle A=\frac{4}{3}$ olarsa, $\text{tg}\angle B$ -ni tapın.

A) 1 B) $\sqrt{2}$ C) 2 D) $\frac{1}{2}$ E) $\frac{\sqrt{2}}{2}$

8-ci sinifdə tədris olunan "*Üçbucaqlar*" bölməsinə aid bu tapşırığa abituriyentlərin 10,07%-i doğru cavab verib, 41,46%-i isə cavab verməkdən imtina edib.

Bərabəryanlı ABC üçbucağında C təpəsindən AB tərəfinə CM perpendikulyar çəkilir. $\text{tg}\angle A=\frac{CM}{AM}=\frac{4}{3}$ olduğundan, $CM=4k$, $AM=3k$ olar. AMC üçbucağına Pifaqor teoremi tətbiq edildikdə, $AC=5k$ olduğu tapılır. ABC üçbucağı bərabəryanlı olduğundan, $BM=2k$ olar. BMC düzbucaqlı üçbucağından $\text{tg}\angle B=\frac{CM}{BM}=\frac{4k}{2k}=2$ alınır.



Doğru cavab: C

Abituriyentlərin zəif nəticə göstərmələrini onların tapşırığın həlli üçün lazım olan faktları bilməmələri və təhlil etmə qabiliyyətlərinin zəif olması ilə əsaslandırmaq olar.

8-ci sinif 2.2.1. *Rasional ifadələr üzərində əməlləri yerinə yetirir*.

12 may tarixli imtahan, I ixtisas qrupu, B variantı, 25 saylı test tapşırığı

m-in neçə tam qiymətində $\frac{7m+28}{m^2+9m+20}$ ifadəsinin qiyməti tam ədəddir?

8-ci sinifdə tədris olunan "*Rasional kəsrlər*" bölməsinə aid açıq tipli bu tapşırığa abituriyentlərin 9,56%-i doğru cavab verib, 37,49%-i isə cavab verməkdən imtina edib.

$m\neq -4$ olduqda, $\frac{7m+28}{m^2+9m+20}=\frac{7(m+4)}{(m+4)(m+5)}=\frac{7}{(m+5)}$ alınır. Sonuncu ifadənin tam ədəd olması üçün $(m+5)$ ifadəsi 7 ədədinin tam böləni olmalıdır, yəni $m\neq -4$ şərtini nəzərə almaqla $m+5=\pm 7$ və $m+5=\pm 1$ olmalıdır. Beləliklə, m-in 3 tam qiymətində, yəni $m=-12;-6;2$ qiymətlərində verilmiş ifadənin qiyməti tam ədəd olur.

***Doğru cavab:* 3**

Nəticənin aşağı olmasının abituriyentlərin kvadrat üçhədlini vuruqlara ayırmaqda çətinlik çəkmələri və $m\neq -4$ şərtini nəzərə almadıqları ilə əlaqələndirmək olar.

10-cu sinif 2.3.1. *Triqonometrik tənlik və bərabərsizlikləri həll edir*.

19 may tarixli imtahan, II ixtisas qrupu, A variantı, 23 saylı test tapşırığı

$\cos^2 2x=1$ tənliyinin $[0°;180°]$ parçasına daxil olan kökləri cəminin dərəcə ölçüsünü tapın.

10-cu sinifdə tədris olunan "*Triqonometrik tənliklər*" bölməsinə aid açıq tipli bu tapşırığa abituriyentlərin 10,84%-i doğru cavab verib, 51,24%-i isə cavab verməkdən imtina edib.

$\cos^2 2x=1,$

$\frac{1+\cos 4x}{2}=1,$

$\cos 4x=1$

$4x=2\pi k,\ k\in Z,$

$x=\frac{\pi k}{2},\ k\in Z,$

$x=90°k,\ k\in Z.$

$[0°;180°]$ parçasına daxil olan köklər 0º, 90º və 180º -dir. Kökləri cəminin dərəcə ölçüsü 90 + 180 =270 olar.

Doğru cavab: 270

Zəif nəticənin səbəbi kimi abituriyentlərin triqonometrik tənlikləri həlletmə bacarıqlarının zəif olmasını göstərmək olar.

11-ci sinif 2.1.2. ***Elementar funksiyaların törəmələri cədvəlinin və törəmənin hesablanması qaydalarının köməyi ilə bəzi funksiyaların törəməsini tapır.***

19 may tarixli imtahan, II ixtisas qrupu, A variantı, 27 saylı test tapşırığı

Uyğunluğu müəyyən edin.

1. $y=\cos 2x$
2. $y=\sin x^2$
3. $y=\sin 2x$

a. törəməsi dövri funksiya deyil

b. $x=\frac{\pi}{4}$ böhran nöqtələrindən biridir

c. $x=\frac{\pi}{2}$ böhran nöqtələrindən biridir

d. törəməsi $y'=-2\sin 2x$-dir

e. törəməsi $y'=-2\cos 2x$-dir

11-ci sinifdə tədris olunan "*Törəmə və tətbiqləri*" bölməsinə aid uyğunluğun müəyyən edilməsi tələb olunan bu tapşırığa abituriyentlərin 10,45%-i doğru cavab verib, 36,48%-i isə cavab verməkdən imtina edib.

1. $y=\cos 2x$

$y'=-2\sin 2x$

$-2\sin 2x=0$

$2x=\pi k,\ k\in Z$

$x=\frac{\pi k}{2},\ k\in Z$

2. $y=\sin x^2$

$y'=2x\cos x^2$

3. $y=\sin 2x$

$y'=2\cos 2x$

$\cos 2x=0$

$2x=\frac{\pi}{2}+\pi k,\ k\in Z$

$x=\frac{\pi}{4}+\frac{\pi k}{2},\ k\in Z$

Cavab: 1-c, d; 2-a; 3-b

Düzgün cavab faizinin aşağı olmasını abituriyentlərin triqonometrik funksiyaların törəmələrini tapmaqda çətinlik çəkmələri ilə əlaqələndirmək olar.

11-ci sinif 2.1.2. ***Elementar funksiyaların törəmələri cədvəlinin və törəmənin hesablanması qaydalarının köməyi ilə bəzi funksiyaların törəməsini tapır.***

23 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 2 saylı test tapşırığı

$y=\frac{e^x+1}{1-e^x}$ funksiyasının törəməsinin x_0=ln2 nöqtəsində qiymətini hesablayın.

A) 8 B) 4 C) 2 D) 3 E) 5

11-ci sinifdə tədris olunan "*Törəmə və tətbiqləri*" bölməsinə aid bu tapşırığa abituriyentlərin 20,63%-i doğru cavab verib, 55,20%-i isə cavab verməkdən imtina edib.

Test tapşırığının yerinə yetirilməsi üçün nisbətin törəməsinin x_0 nöqtəsindəki qiymətini hesablamaq lazımdır.

$$y'=\left(\frac{e^x+1}{1-e^x}\right)'=\frac{\left(e^x+1\right)'\left(1-e^x\right)-\left(e^x+1\right)\left(1-e^x\right)'}{\left(1-e^x\right)^2}=\frac{e^x\left(1-e^x\right)+\left(e^x+1\right)e^x}{\left(1-e^x\right)^2}=\frac{2e^x}{\left(1-e^x\right)^2}$$

$$y'\left(x_0\right)=y'\left(\ln 2\right)=\frac{2e^{\ln 2}}{\left(1-e^{\ln 2}\right)^2}=\frac{4}{\left(1-2\right)^2}=4$$

Doğru cavab: B

Zəif nəticənin səbəbi kimi abituriyentlərin tapşırığın həlli üçün lazım olan nisbətin və üstlü funksiyaların müəyyən nöqtədə törəməsinin hesablama qaydasını zəif mənimsəmələrini göstərmək olar.

11-ci sinif 3.1.5. ***Fırlanmadan alınan fiqurları tanıyır.***

3.2.4. ***Konusun, kəsik konusun yan səthlərinin, tam səthlərinin və həcmlərinin tapılmasına aid məsələlər həll edir.***

23 iyun tarixli imtahan, I ixtisas qrupu, B variantı, 26 saylı test tapşırığı

Katetləri 16 və 12 olan düzbucaqlı üçbucağın kiçik katet ətrafında fırlanmasından alınan cismin oturacağının sahəsi yan səthinin sahəsinin neçə faizini təşkil edir?



11-ci sinifdə tədris olunan "*Fırlanma cisimləri*" bölməsinə aid açıq tipli bu tapşırığa abituriyentlərin 14,75%-i doğru cavab verib, 44,35%-i isə cavab verməkdən imtina edib.

Məlumdur ki, düzbucaqlı üçbucağın bir kateti ətrafında fırlanmasından alınan fəza cismi konusdur. Tapşırığın şərtinə əsasən düzbucaqlı üçbucaq kiçik kateti ətrafında fırlanır, bu o deməkdir ki, alınan konusun hündürlüyü H=12, radiusu R=16 olur. Konusun doğuranı $l=\sqrt{H^2+R^2}=\sqrt{144+256}=20$ olar. Onda,

$\frac{S_{ot}}{S_{yan}}\cdot 100\%=\frac{\pi R^2}{\pi Rl}\cdot 100\%=\frac{R}{l}\cdot 100\%=\frac{16}{20}\cdot 100\%=80\%$ alınar.

Doğru cavab: 80.

Doğru cavab faizinin aşağı olmasını abituriyentlərin düzbucaqlı üçbucağın kateti ətrafında fırlanmasından alınan fəza cismi haqqında təsəvvürlərinin zəif olması ilə əlaqələndirmək olar.

8-ci sinif 3.1.4. ***Üçbucağın, paraleloqramın, rombun, trapesiyanın sahəsini hesablayır.***

7 iyul tarixli imtahan, II ixtisas qrupu, A variantı,

23 saylı test tapşırığı



$ABCD$ kvadratının daxilində elə K nöqtəsi götürülmüşdür ki, MK=KA=KD=15 və BM=MC. Kvadratın sahəsini tapın.

8-ci sinifdə tədris olunan "*Fiqurların sahəsi*" bölməsinə aid açıq tipli bu tapşırığa abituriyentlərin 6%-i doğru cavab verib, 31,67%-i isə cavab verməkdən imtina etmişdir.



$MCDK$ düzbucaqlı trapesiyasında KE hündürlüyünü çəkib, $BM=MC$=x əvəzləməsi edilərsə, ED=$2x-15$ olar. Düzbucaqlı KED üçbucağına Pifaqor teoremi tətbiq edilsə,

$x^2+(2x-15)^2=15^2\Rightarrow 5x^2-60x=0\Rightarrow x=12$ alınar.

Beləliklə, kvadratın tərəfi 24, sahəsi isə 576 olar.

Doğru cavab: 576

Doğru cavab faizinin aşağı olmasını abituriyentlərin Pifaqor teoremini düzgün tətbiq edə bilməmələri ilə əlaqələndirmək olar.

10-cu sinif 3.1.3. ***Fəzada düz xətlə müstəvi arasındakı bucağın, iki müstəvi arasındakı bucağın necə təyin olunduğunu bilir və məsələlər həllində onlardan istifadə edir.***

3.1.5. ***Çoxüzlülərin növlərini tanıyır.***

7 iyul tarixli imtahan, II ixtisas qrupu, B variantı, 19 saylı test tapşırığı

Düzgün üçbucaqlı piramidanın oturacağının tərəfi ilə apofeminin uzunluqları eynidir. Oturacağa bitişik ikiüzlü bucağı tapın.

A) 60° B) $\arccos\frac{\sqrt{3}}{6}$ C) $\arccos\frac{1}{3}$ D) 30° E) $\arccos\frac{\sqrt{3}}{3}$

10-cu sinifdə tədris olunan "*Çoxüzlülər, onların səthi və həcmi*" bölməsinə aid bu tapşırığa abituriyentlərin 9,85%-i doğru cavab verib, 51,49%-i isə cavab verməkdən imtina edib.

Məlumdur ki, tərəfi a olan düzgün üçbucağın daxilinə çəkilmiş çevrənin radiusu $KH=\frac{a}{2tg60^0}=\frac{a}{2\sqrt{3}}$-dir.



Düzgün üçbucaqlı piramidanın oturacağına bitişik ikiüzlü bucaq, $SK=a$ apofem ilə ABC üçbucağının daxilinə çəkilmiş çevrənin radiusu arasındakı bucaq kimi başa düşülür. Ona görə də $\cos\alpha=\frac{KH}{KS}=\frac{\frac{a}{2\sqrt{3}}}{a}=\frac{1}{2\sqrt{3}}=\frac{\sqrt{3}}{6}\Rightarrow\alpha=\arccos\frac{\sqrt{3}}{6}$ alınır.

Doğru cavab: B

Doğru cavab faizinin aşağı olmasına səbəb abituriyentlərin fəza fiqurları barədə təsəvvürlərinin zəif olmasıdır.

12 may tarixli imtahan, I ixtisas qrupu, A variantı, situasiya tapşırıqları (28, 29, 30)

Situasiya: İstixananın aşağı hissəsi hündürlüyü 4 m, həcmi 960 m^3 olan düzbucaqlı paralelepiped, yuxarı hissəsi isə radiusu 3 m olan yarımsilindr formasındadır. İstixananın əhatə etdiyi torpaq sahəsinin hər 1 m^2-nə 8 şitil əkilmişdir.



28. Bir şitilin qiyməti 4 qəpik olarsa, istixanaya əkilən şitillərə neçə manat xərclənib?

Həlli:

I üsul: İstixananın aşağı hissəsi hündürlüyü c=4 m, həcmi 960 m^3 olan düzbucaqlı paralelepiped olduğundan bu paralelepipedin oturacağının sahəsi $S_{ot}=\frac{V}{c}=\frac{960}{4}=240\,(m^2)$ olar. Hər 1 m^2-nə 8 şitil əkildiyindən istixanada cəmi $240\cdot8=1920$ ədəd şitil əkilmişdir. 1 şitilin qiyməti 4 qəpik olduğundan, əkilən şitillərə $1920\cdot4=7680$ (qəpik)=76,8 (manat) pul xərclənər.

II üsul: Şərtə görə istixananın aşağı hissəsi hündürlüyü c=4 m, eni isə radiusu 3 m olan yarımsilindrin diametrinə bərabər olduğundan b=6 (m) və $V=abc$ düsturundan istifadə edərək, $a=\frac{960}{6\cdot4}=40\,(m)$ tapılır. Xərclənən pul $40\cdot6\cdot8\cdot4=7680$ qəpik olar.

Doğru cavab: 76,8 (manat) və ya 7680 (qəpik)

Bal şkalası	Meyarlar
1 bal	a. Hər hansı həll metodundan istifadə edərək bütün həll prosesini doğru yerinə yetirərək cavabı 76,8 (manat) və ya 7680 (qəpik) tapır.
0,5 bal	b. Bütün həll prosesini doğru yerinə yetirərək hər hansı mexaniki səhvə görə doğru cavabı ala bilmir. c. Paralelepipedin oturacağının sahəsini və şitillərin sayını doğru tapır məsələnin həllini sona çatdıra bilmir.
0 bal	d. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Ədədlər və əməllər" məzmun xəttinin 5_1.2.1. (*Natural ədədlər üzərində hesab əməllərini yerinə yetirir*) və "Həndəsə" məzmun xəttinin 5_3.1.4. (*Paralelepipedin və kubun səthinin sahəsini və həcmini hesablayır*) alt standartları üzrə tələblərin mənimsənilmə səviyyəsi yoxlanılır.

Abituriyentlərin 17,09%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla qiymətləndirilib. 5,55% abituriyentin yazı işi 0,5 balla, 23,12% abituriyentin yazı işi 0 balla qiymətləndirilib, 54,24% abituriyent isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini onların qeyd edilən faktları bilməməsi, həmçinin təhliletmə bacarıqlarının zəif olması ilə əlaqələndirmək olar.

29. İstixananın səthinin tam örtülməsinə ən azı neçə m^2 polietilen örtük lazımdır?

Həlli:

Şərtə görə istixananın eni, radiusu 3 m olan yarımsilindrin diametrinə bərabər olduğundan b=6 (m), bu istixananın uzunluğu $a = \frac{S_{ot}}{b} = \frac{240}{6} = 40$ (m) olar. İstixananın səthinin tam örtülməsi üçün lazım olan ən az polietilen örtük düzbucaqlı paralelepipedin yan səthinin sahəsi $S_{yan} = P_{ot} \cdot c = 92 \cdot 4 = 368\ (m^2)$ və silindrin tam səthinin yarısının $\frac{1}{2} S_{tam} = 40 \cdot 3 \cdot \pi + 9\pi = 129\pi\ (m^2)$ cəminə bərabərdir.

Doğru cavab: $(368+129\pi)\ (m^2)$

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	a. Bütün həll prosesini doğru yerinə yetirərək cavabı $(368+129\pi)(m^2)$ və ya $\pi = 3$ götürməklə $755(m^2)$ tapır.
0,5 bal	b. Bütün həll prosesini doğru yerinə yetirərək hər hansı mexaniki səhvə görə doğru cavab ala bilmir. c. Düzbucaqlı paralelepipedin və silindrin tam səthini tapır. d. Düzbucaqlı paralelepipedin tam səthini, silindrin isə tam səthinin sahəsinin yarısını tapır. e. Düzbucaqlı paralelepipedin yan səthini, silindrin isə tam səthinin sahəsinin tapır.
0 bal	f. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Həndəsə" məzmun xəttinin 10_3.2.3. (*Prizmanın yan səthinin, tam səthinin və həcminin tapılmasına aid məsələləri həll edi*r) və 11_3.2.3. (*Silindrin yan səthinin, tam səthinin və həcminin tapılmasına aid məsələlər həll edir*) alt standartları üzrə tələblərin mənimsənilmə səviyyəsi yoxlanılır.

Abituriyentlərin 2,27%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla qiymətləndirilib. 4,89% abituriyentin yazı işi 0,5 balla, 21,12% abituriyentin yazı işi 0 balla qiymətləndirilib, 71,72% abituriyent isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini fəza cisimləri haqqında təsəvvürlərinin zəif olması ilə əlaqələndirmək olar.

30. Əkilmiş şitillərin bəziləri qurudu, qalanları isə böyüdü. Təsadüfən seçilmiş bir şitilin böyümə hadisəsinin ehtimalı 0,85 olarsa, qurumuş şitillərin sayını tapın.

Həlli:

I üsul: Təsadüfən seçilmiş bir şitilin böyümə hadisəsinin ehtimalı 0,85 olduğundan qurumuş şitillərin sayı $1920 \cdot (1-0,85) = 288$ olar.

II üsul: Təsadüfən seçilmiş bir şitilin böyümə hadisəsinin ehtimalı 0,85 olduğundan onların sayı $1920 \cdot 0,85 = 1632$ tapır və qurumuş şitillərin sayı $1920 - 1632 = 288$ alır.

III üsul: Təsadüfən seçilmiş bir şitilin böyümə hadisəsinin ehtimalı 0,85 olduğundan qurumuş şitillərin sayı $\frac{x}{1920}=\frac{15}{100}\Rightarrow x=288$ tapır.

IV həll. Təsadüfən seçilmiş bir şitilin böyümə hadisəsinin ehtimalı 0,85 olduğundan onların sayı $\frac{x}{1920}=\frac{85}{100}\Rightarrow x=1632$ və qurumuş şitillərin sayı $1920-1632=288$ alır.

Cavab: 288

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	a. Hər hansı həll üsulundan istifadə edərək bütün həll prosesini doğru yerinə yetirərək cavabı tapır.
0,5 bal	b. Bütün həll prosesini doğru yerinə yetirərək hər hansı mexaniki səhvə görə doğru cavab ala bilmir. c. II və IV həllərdən istifadə edərək böyümüş şitillərin sayını tapır, lakin qurumuş şitillərin sayını tapmır.
0 bal	d. Digər bütün hallarda.

Tapşırıq vasitəsilə "Statistika və ehtimal" məzmun xəttinin 7_5.2.1. (*Aparılan sınaqda elementar hadisələrin sayını tapır və onun əsasında hadisənin ehtimalını hesablayır)* alt standartı üzrə tələblərin mənimsənilmə səviyyəsi yoxlanılır.

Abituriyentlərin 10,61%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla qiymətləndirilib. 2,88% abituriyentin yazı işi 0,5 balla 11,60% abituriyentin yazı işi 0 balla qiymətləndirilib, 74,91% abituriyent isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini onların qeyd edilən faktları bilməməsi ilə əlaqələndirmək olar. Həmçinin tapşırığın həllində istifadə edilən 1920 ədədi 28-ci tapşırığın həlli vasitəsi ilə alındığından bu tapşırıqdan imtina edənlərin sayını artırıb.

Fizika fənnindən qəbul imtahanlarında istifadə olunmuş tapşırıqlar 3 **("Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar", "Maddə və sahə, qarşılıqlı təsir, əlaqəli sistemlər", "Eksperimental fizika və müasir həyat")** məzmun xətti üzrə 5 əsas standartın və 73 alt standartın reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edir.

Tapşırıqlar "Mexanika", "Molekulyar fizika və termodinamika", "Elektrodinamika", "Optika" , "Kvant fizikası", "Atom və nüvə fizikası" bölmələrini əhatə edib.

Tapşırıqlarla abituriyentlərin:

– hadisələri (mexaniki, istilik, elektrik) fərqləndirmək, onlara aid məsələlər həll etmək;

– qravitasiya sahəsini xarakterizə edən kəmiyyətləri izah etmək, onlara aid məsələlər həll etmək;

– istilik və elektromaqnit (istilik) hadisələrinin mahiyyətini, qanunauyğunluqlarını izah etmək, məsələlər həll etmək;

– elektromaqnit (maqnit, işıq), atom və nüvə hadisələrini, onların başvermə səbəblərini bilmək;

– elektromaqnit, atom, nüvə hadisələrinin qanun və qanunauyğunluqlarını izah etmək, onlara aid məsələlər qurmaq kimi bacarıqlarının yoxlanılması və qiymətləndirilməsi nəzərdə tutulub.

Abituriyentlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması və qiymətləndirilməsi məqsədilə bloklara mürəkkəblik dərəcəsinə görə sadə, orta və çətin, nominasiyalara görə isə vahid, düstur, tərif, təcrübə, cihaz, qrafik, keyfiyyət, hesablama xarakterli tapşırıqlar daxil edilib. Qəbul imtahanları eyni gündə keçirildiyi üçün I və IV ixtisas qrupları üzrə bütün tapşırıqlar eynidir.

Bu ildə imtahanlarda keyfiyyətyönlü tapşırıqlara üstünlük verilmiş və faktoloji biliyə əsaslanan tapşırıqların sayı hər iki ixtisas qrupunda minimuma endirilmişdir.

Qəbul imtahanlarının nəticələrinin statistik təhlili göstərmişdir ki, abituriyentlərin əksəriyyəti I ixtisas qrupu üzrə "Elektrik yükü. Elektrik sahəsi", "Elektrik tutumu", "Müxtəlif mühitdə elektrik cərəyanı", "Maqnit induksiyası", "Dalğa optikası", "Kvant fizikası", "Atom və nüvə fizikası", "Ağırlıq qüvvəsi. Ümumdünya cazibə qanunu", IV ixtisas qrupu üzrə isə "Elektrik tutumu", "Müxtəlif mühitdə elektrik cərəyanı", "Dalğa optikası", "Kvant fizikası", "Nyuton qanunları" mövzularına aid test tapşırıqlarına ya zəif cavab vermiş, ya da cavab verməkdən imtina etmişlər.

Nominasiyalar üzrə də statistik təhlil aparılmış və müəyyən edilmişdir ki, abituriyentlərin müəyyən hissəsi faktoloji materiala əsaslanan düstur və vahidlərə aid tapşırıqlara daha yaxşı, fiziki hadisə və proseslərin mahiyyətinin açılmasına yönəlmiş qrafik, keyfiyyət və hesablama tipli, həmçinin fiziki cihaz və qurğulara aid tapşırıqlara isə nisbətən zəif cavab vermişdir. Bu tipli tapşırıqlarda, adətən, kəmiyyətlər arasında asılılığı müəyyən etmək, müxtəlif parametrlərin dəyişməsinin fiziki proseslər gedən sistemin tam enerjisinə təsirini araşdırmaq və bu prosesin gedişində kəmiyyətlərin necə dəyişəcəyi barədə nəticə çıxarmaq lazım gəlir.

Təhlil göstərir ki, abituriyentlərin bir qismi Eyler-Venn diaqramı vasitəsilə fiziki kəmiyyətlərin ölçülməsi üçün istifadə olunan cihaz və vasitələr, onların iş prinsiplərinin oxşar və fərqli cəhətlərinin ayırd edilməsinə aid tapşırıqlara cavab verməkdə çətinlik çəkiblər. Aşağıda abituriyentlərin zəif cavablandırdıqları tapşırıqların izahları təqdim olunur.

9-cu sinif

1.1.1. Elektromaqnit (maqnit, işıq), atom və nüvə hadisələrini, onların baş vermə səbəblərini şərh edir.

1.1.4. Elektromaqnit (maqnit, işıq), atom və nüvə hadisələrinin qanunauyğunluqlarına dair topladığı məlumatları şərh edir.

12 may tarixli imtahan, I ixtisas qrupu, A variantı, 31 saylı test tapşırığı

Düzxətli cərəyanlı naqilin maqnit sahəsinin *A* nöqtəsində yerləşdirilmiş sərbəst dönə bilən maqnit əqrəbinin vəziyyəti hansı şəkildə düzgün göstərilmişdir (naqildə cərəyan şəkil müstəvisindən perpendikulyar istiqamətdə bizə doğru yönəlmişdir)?



Maqnit sahəsi, maqnit induksiyasına aid test tapşırığına abituriyentlərin 20,97%-i doğru cavab verib, 16,46%-i isə cavab verməkdən imtina edib. Abituriyentlərin 22,98%-i doğru olmayan A cavab bəndinə üstünlük veriblər. Tapşırığın yerinə yetirilməsi üçün cərəyanlı naqilin maqnit sahəsinin induksiya vektorunun *A* nöqtəsində istiqamətini müəyyən etmək lazımdır. Təsvir olunmuş naqildə cərəyan şəkil müstəvisindən perpendikulyar istiqamətdə bizə doğru yönəldiyindən burğu qaydası ilə müəyyən etmək olar ki, maqnit sahəsinin induksiya vektorunun *A* nöqtəsində istiqaməti saat əqrəbinin hərəkətinin əksinə yönəlir. Müəyyən etmək olar ki, həmin nöqtədə yerləşdirilmiş sərbəst dönə bilən maqnit əqrəbinin şimal qütbü də maqnit induksiya vektoru istiqamətdə yönələr. Lakin nəticələr onu göstərir ki, abituriyentlərin böyük əksəriyyəti cərəyanlı naqilin ya maqnitin şimal qütbünü, ya da cənub qütbünü cəzb etməsini düzgün hesab ediblər.

Doğru cavab: D

11-ci sinif

3.1.1. Elektromaqnit, atom və nüvə hadisələrinə dair qanun və qanunauyğunluqları təcrübələrlə yoxlayır, nəticələrini təqdim edir.

12 may tarixli imtahan, I ixtisas qrupu, B variantı, 44 saylı test tapşırığı

Eyler-Venn diaqramında uyğun bəndləri müəyyən edin.



1. İş prinsipi p-n keçidinə əsaslanır.
2. Gərginliyi artırdıqda onun müəyyən qiymətində cərəyan şiddəti dəyişmir.
3. Dəyişən elektrik cərəyanını düzləndirmək üçün istifadə edilir.

4. İş prinsipi termoelektron emissiyası hadisəsinə əsaslanır.

5. Bir tərəfli keçiriciliyə malikdir.

	I	II	III
A)	1	3, 4	2, 5
B)	1, 3	5	2, 4
C)	2, 3	4, 5	1
D)	2, 4	3, 5	1
E)	2, 4	5	1, 3

Müxtəlif mühitdə elektrik cərəyanı mövzusuna aid yeni tipli test tapşırığına abituriyentlərin 19,64%-i doğru cavab verib, 22,72%-i cavab verməkdən imtina edib. Düzgün olmayan E (32,60%) bəndinin nəticəsi düzgün cavabın nəticələrini üstələmişdir. Tapşırıqda Eyler-Venn diaqramında təsvir olunmuş vakuum və yarımkeçirici diodların oxşar və fərqli xüsusiyyətlərini aydınlaşdırmaq tələb olunur. İş prinsipinin p-n keçidinə əsaslanma xüsusiyyəti yarımkeçirici dioda (1), gərginliyi artırdıqda onun müəyyən qiymətində cərəyan şiddəti dəyişməməsi (2) və iş prinsipi termoelektron emissiyası hadisəsinə əsaslanma xüsusiyyətləri vakuum dioduna (4), dəyişən elektrik cərəyanını düzləndirmək üçün istifadə edilmə və birtərəfli keçiriciliyə malik olma xüsusiyyətləri isə hər iki cihaza (3,5) aiddir. Abituriyentlər bu xüsusiyyətləri ayırd etməkdə çətinlik çəkiblər.

Doğru cavab: D

11-ci sinif

1.1.1. Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsini şərh edir.

3.1.1. Elektromaqnit, atom və nüvə hadisələrinə dair qanun və qanunauyğunluqları təcrübələrlə yoxlayır, nəticələrini təqdim edir.

12 may tarixli imtahan, IV ixtisas qrupu, A variantı, 68 saylı test tapşırığı



Yüklənərək cərəyan mənbəyindən ayrılmış müstəvi kondensator elektrometrə birləşdirilmişdir. Kondensatorun lövhələri arasındakı məsafəni 2 dəfə artıranda elektrometrin göstərişi necə dəyişər?

A) 2 dəfə artar B) 4 dəfə azalar C) 4 dəfə artar

D) dəyişməz E) 2 dəfə azalar

11-ci sinifdə tədris olunan "Elektrik tutumu*"* mövzusuna aid test tapşırığına abituriyentlərin 27%-i doğru cavab verib, 17,60%-i cavab verməkdən imtina edib. Düzgün olmayan E (28,58%) bəndinə isə daha çox abituriyentlər cavab verib. Məlumdur ki, yüklənərək cərəyan mənbəyindən ayrılmış müstəvi kondensatorun yükü sabit qalır və kondensatorun lövhələri arasındakı potensiallar fərqi $U=\frac{q}{C}=\frac{qd}{S\varepsilon\varepsilon_0}$ düsturuna əsasən lövhələrarası məsafə ilə düz mütənasib olur. Nəticələrdən aydın olur ki, doğru olmayan B bəndini qeyd edən abituriyentlər yanlış olaraq elektrometrin göstərişi əvəzinə kondensatorun tutumunu nəzərdə tutmuşlar.

Doğru cavab: A

9-cu sinif

1.1.1. Elektromaqnit (maqnit, işıq), atom və nüvə hadisələrini, onların baş vermə səbəblərini şərh edir.

23 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 51 saylı test tapşırığı

Mütləq sındırma əmsalı n=1,5 olan mühitdən mütləq sındırma əmsalları n_1=1,3 və n_2=1,6 olan mühitlərə monoxromatik işıq şüaları keçir. Eyler-Venn diaqramında uyğun bəndləri qeyd edin (düşmə bucağı $\alpha \neq 0$).



1. Tezliyi dəyişmir

2. Mühitdə dalğa uzunluğu artır

3. Mühitdə dalğa uzunluğu azalır

4. Düşmə bucağı sınma bucağından böyükdür

	I	II	III
A)	1, 2	4	3
B)	3, 4	1	2
C)	2, 4	1	3
D)	3	1, 4	2
E)	2	1	3, 4

9-cu sinfində tədris olunan həndəsi optikanın sınma qanununa aid bu test tapşırığına abituriyentlərin cavabları qənaətbəxş olmamışdır. Düzgün cavab olan E bəndinə 21,43 % abituriyent cavab verib, 38,07 % - isə cavab verməkdən imtina edib.

Test tapşırığının düzgün cavablandırılması üçün işığın sınma qanunundan alınan əsas nəticələri bilmək kifayətdir. Birinci mülahizə - işığın tezliyinin bir mühitdən digərinə keçdikdə dəyişməməsi hər iki hala aiddir. Deməli, 1-ci bəndi diaqramda II sahəsinə aid edilməlidir. Eləcə də sınma qanunundan alınır ki, işıq optik sıxlığı böyük olan mühitə keçəndə dalğa uzunluğu azalır, kiçik olan mühitə keçəndə isə artır. Odur ki, 2-ci bəndi I, 3-cü bəndi isə III sahəsinə aid edilməlidir. İşıq optik sıxlığı böyük olan mühitə keçdikdə düşmə bucağı kiçildiyindən 4-cü bənd də diaqramın III sahəsinə aiddir.

Düzgün cavab: E

10-cu sinif

1.1.2. Mexaniki və istilik hadisələrinin qanun və qanunauyğunluqlarına aid (qrafik, kəmiyyət və keyfiyyət tipli) məsələlər qurur və həll edir.

23 iyun tarixli imtahan, IV ixtisas qrupu, B variantı, 82 saylı test tapşırığı

Cismin yerdəyişməsinin proyeksiyasının zamandan asılılıq qrafiki verilmişdir. Hansı qrafik bu cismə təsir edən qüvvələrin əvəzləyicisinin proyeksiyasının zamandan asılılığına uyğundur?





Kinematikanın və dinamikanın əsasları mövzusuna aid olan bu test tapşırığına abituriyentlərin 13,88 %-i doğru cavab verib, 8,26 %-i cavab verməkdən imtina edib. Yanlış olan B bəndini 55,84 % abituriyent düzgün hesab etmişdir. Nyutonun II qanununa görə cismə təsir edən qüvvələrin əvəzləyicisinin proyeksiyasının zamandan asılılığı ilə cismin təcilinin proyeksiyasının zamandan asılılığı eyni xarakterlidir. 10-cu sinfin "Fizika" dərsliyində də göstərildiyi kimi, qrafikin I və III hissəsində təcilin proyeksiyası müsbət, II hissəsində isə təcil sıfıra bərabərdir.

Cavab: D

12 may tarixli imtahan, I ixtisas qrupu, A variantı, situasiya tapşırıqları (58, 59, 60)

Situasiya: Çıxış işi 2 eV olan metalın üzərinə 6,8 eV enerjili fotonlar düşür. Ampermetr qapalı dövrədə fotocərəyan şiddətinin sıfıra bərabər olduğunu göstərir

$\left(h = 6,4 \cdot 10^{-34}\,\text{C} \cdot \text{san}, 1\ \text{eV}=1,6 \cdot 10^{-19}\,\text{C}, c = 3 \cdot 10^{8}\,\frac{\text{m}}{\text{san}}\right)$.



U=const

58. Ampermetrin göstərişinin sıfıra bərabər olmasını izah edin.

***İzah*:** Katod cərəyan mənbəyinin müsbət, anod isə mənfi qütbünə birləşdirildikdə və elektrodlar arasındakı potensiallar fərqi modulca saxlayıcı gərginliyin qiymətindən böyük olduqda, fotocərəyan şiddəti sıfıra bərabər olur. Bu zaman ampermetrin göstərişi sıfır olur.

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	a. Ampermetrin göstərişinin sıfıra bərabər olması üçün katodun cərəyan mənbəyinin müsbət, anodun mənfi qütbünə birləşdirmək, yəni əks gərginlik vermək lazım olduğu və bunun nəticəsində elektrodlar arasındakı potensiallar fərqinin modulca saxlayıcı gərginliyin qiymətindən böyük olması qeyd olunmuşdur. b. Ampermetrin göstərişinin sıfıra bərabər olması üçün katodun cərəyan mənbəyinin müsbət, anodun mənfi qütbünə birləşdirmək, yəni əks gərginlik vermək lazım olduğu qeyd olunmuş, bunun nəticəsində fotoelektronlar elektrik sahəsinin təsiri ilə yenidən katoda qayıtması qeyd olunmuşdur.
0,5 bal	c. Ampermetrin göstərişinin sıfıra bərabər olması üçün katodun cərəyan mənbəyinin müsbət, anodun mənfi qütbünə birləşdirmək, yəni əks gərginlik vermək lazım olduğu qeyd olunmuş, lakin ampermetrin göstərişinin sıfıra bərabər olmasının səbəbi mükəmməl izah olunmamış və ya izah olunmamışdır.
0 bal	d. a-c bəndlərindən başqa digər bütün hallarda

Tapşırıq 11-ci sinifdə tədris edilən "İşıq kvantları" bölməsinə aiddir. Tapşırıq vasitəsilə "Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar" məzmun xəttinin 11_1.1.1. (*Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsini şərh edi*r), və "Eksperimental fizika və müasir həyat" məzmun xəttinin 11_3.1.1. (*Elektromaqnit, atom və nüvə hadisələrinə dair qanun və qanunauyğunluqları təcrübələrlə yoxlayır, nəticələrini təqdim edir*) alt standartları üzrə tələblərin mənimsənilmə səviyyəsi yoxlanılır. Abituriyentlərin 0,22%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla qiymətləndirilib. 1,45% abituriyentin yazı işi 0,5 balla, 29,37% abituriyentin yazı işi 0 balla qiymətləndirilmiş 68,96% abituriyent isə tapşırığı yerinə yetirməkdən imtina etmişdir. Bu tapşırığı yerinə yetirmək üçün katodu cərəyan mənbəyinin müsbət, anodu isə mənfi qütbünə birləşdirdikdə və elektrodlar arasındakı potensiallar fərqi modulca saxlayıcı gərginliyin qiymətindən böyük olduqda fotocərəyan şiddətinin sıfıra bərabər olduğunu bilmək lazımdır.

59. Katodun səthindən qopan fotoelektronların maksimal kinetik enerjisini hesablayın.

***İzah*:** Fotoeffektin Eynşteyn düsturundan $E_{k,\max} = h\nu - A_ç = 6,8\text{-}2 = 4,8$ eV

Cavab: 4,8 eV

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	a. Fotoelektronların maksimal kinetik enerjisini hesablamaq üçün fotoeffektin Eynşteyn düsturu düzgün yazılmış və $E_{k,\max}$ *=4,8 eV* və ya $E_{k,\max}$ *=4,8* C olduğu tapılmışdır.
0,5 bal	b. Fotoelektronların maksimal kinetik enerjisini hesablamaq üçün fotoeffektin Eynşteyn düsturu düzgün yazılmış və $E_{k,\max}$ *=4,8* və ya $E_{k,\max}$ = qiymətləri tapılmışdır, lakin kəmiyyətin vahidi qeyd olunmamışdır.
0 bal	c.a-b bəndlərindən başqa digər bütün hallarda

Tapşırıq 11-ci sinifdə tədris edilən "İşıq kvantları" bölməsinə aiddir. Tapşırıq vasitəsilə "Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar" məzmun xəttinin 11_1.1.2. (*Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsinə aid (qrafik, kəmiyyət və keyfiyyət tipli) məsələlər qurur və həll edir)* və "Eksperimental fizika və müasir həyat" məzmun xəttinin 11_3.1.2. (*Elektromaqnit, atom və nüvə hadisələrini xarakterizə edən fiziki kəmiyyətlər arasındakı asılılıqları müəyyənləşdirir*) alt standartları üzrə tələblərin mənimsənilmə səviyyəsi yoxlanılır. Abituriyentlərin 12,88%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla qiymətləndirilib. 2,49% abituriyentin yazı işi 0,5 balla, 9,05% abituriyentin yazı işi 0 balla qiymətləndirilib, 75,59% abituriyent isə tapşırığı yerinə yetirməkdən imtina edib.

60. Fotoeffektin qırmızı sərhədinə uyğun dalğa uzunluğunu hesablayın.

***İzah*:** Fotoeffektin qırmızı sərhədinə uyğun dalğa uzunluğu $\lambda_{\max} = \dfrac{hc}{A_ç}$ ifadəsi ilə müəyyən olunur.

Kəmiyyətlərin verilən qiymətlərini ifadədə yerinə yazaraq hesablamaq olar:

$$\lambda_{\max} = \frac{6{,}4 \cdot 10^{-34} \cdot 3 \cdot 10^{8}}{2 \cdot 1{,}6 \cdot 10^{-19}} = 6 \cdot 10^{-7} \text{ m} = 600 \text{ nm}$$

Cavab: $6 \cdot 10^{-7}$ ***m və ya 600 nm***

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1 bal	a.Fotoeffektin qırmızı sərhədinə uyğun dalğa uzunluğunun çıxış işi ilə əlaqə düsturu düzgün yazılmış, hesablamalar düzgün aparılmış və vahid çevirmələri düzgün aparılaraq $\lambda_{\max}$ =600 nm vəya $\lambda_{\max} = 6 \cdot 10^{-7}$ m olduğu tapılmışdır. b.Fotoeffektin qırmızı sərhədinə uyğun tezliyinin çıxış işi ilə əlaqə düsturu düzgün yazılmış, hesablamalar düzgün aparılmış və vahid çevirmələri düzgün aparılaraq tezliyin qiymətinə əsasən dalğa uzunluğunun $\lambda_{\max}$ =600 nm vəya $\lambda_{\max} = 6 \cdot 10^{-7}$ m olduğu tapılmışdır.
1/2 bal	c. Fotoeffektin qırmızı sərhədinə uyğun dalğa uzunluğunun çıxış işi ilə əlaqə düsturu düzgün yazılmış, hesablamalar düzgün aparılmış və vahid çevirmələri düzgün aparılmış, lakin cavab düzgün yazılmamışdır.
0 bal	c.a-b bəndlərindən başqa digər bütün hallarda

Tapşırıq 11-ci sinifdə tədris edilən "İşıq kvantları" bölməsinə aiddir. Tapşırıq vasitəsilə abituriyentlərin "Fiziki hadisələr, qanunauyğunluqlar, qanunlar" məzmun xəttinin 11_1.1.2. (*Elektromaqnit, atom və nüvə hadisələrinin qanun və qanunauyğunluqlarla əlaqəsinə aid (qrafik, kəmiyyət və keyfiyyət tipli) məsələlər qurur və həll edir)* və "Eksperimental fizika və müasir həyat" məzmun xəttinin 11_3.1.1. (*Elektromaqnit, atom və nüvə hadisələrinə dair qanun və qanunauyğunluqları təcrübələrlə yoxlayır, nəticələrini təqdim edir*) alt standartları üzrə tələblərin mənimsənilmə səviyyəsi yoxlanılır. Abituriyentlərin 5,35%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla qiymətləndirilib. 4,17% abituriyentin yazı işi 0,5 balla, 13,41% abituriyentin yazı işi 0 balla qiymətləndirilib, 77,07% abituriyent isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Təhlil göstərmişdir ki, hər iki ixtisas qrupunda abituriyentlərin bir çoxu hesablama tələb olunan və keyfiyyət tipli tapşırıqlara cavab verməkdə çətinlik çəkmişdir. Statistik göstəricilər onu da deməyə əsas verir ki, hər iki ixtisas qrupunun abituriyentlərinin əksəriyyəti yeni tipli, yəni yazılı şəkildə cavablandırılması tələb olunan tapşırıqları yerinə yetirməyə cəhd etmirlər və imtina edirlər.

Kimya fənnindən qəbul imtahanlarında istifadə olunmuş tapşırıqlar 4 **("Maddə və maddi aləm", "Kimyəvi hadisələr", "Eksperiment və modelləşdirmə", "Kimya və həyat")** məzmun xətti üzrə 10 əsas və 33 alt standartın reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edir.

Tapşırıqlar "Ümumi kimya", "Qeyri-üzvi kimya" və "Üzvi kimya" bölmələrinə aid olub.

Tapşırıqlar ilə abituriyentlərin:

– maddələrin quruluşunu, xassələrini, onların çevrilmələrinin səbəbini bilmək;

– maddələrin, qarışıqların tərkibinə, kimyəvi qanunlara aid hesablamalar aparmaq;

– atomun quruluşu, valentlik, kimyəvi elementlərin oksidləşmə dərəcəsi və ionların yükünü, kimyəvi rabitələrin və kristal qəfəslərin tipini, quruluş formuluna görə izomerliyi və homoloqları, suda məhlulların mühitini, oksidləşdirici və reduksiyaediciliyini müəyyən etmək;

– D.İ. Mendeleyevin dövri sisteminə və atomun quruluşuna əsasən kimyəvi elementlərin və onların birləşmələrinin kimyəvi xassələrini xarakterizə etmək;

− qeyri-üzvi və üzvi birləşmələrə aid reaksiyaların qanunauyğunluqlarını bilmək və hesablamalar aparmaq;

– metallar, qeyri-metallar və onların birləşmələrinə reaksiyaların qanunauyğunluqlarını bilmək və hesablamalar aparmaq;

– oksigenli, azotlu üzvi birləşmələrə, polimerlərə üzrə aid reaksiyaların qanunauyğunluqlarını bilmək və hesablamalar aparmaq bilik və bacarıqlarının yoxlanılması və qiymətləndirilməsi nəzərdə tutulmuşdur.

İmtahanlarda abituriyentlərin hazırlıq səviyyəsini hərtərəfli yoxlamaq məqsədi I və IV ixtisas qrupları üzrə kimyəvi hadisə və proseslərin mahiyyətinin dərkinə yönəlmiş, məntiqi düşüncəyə əsaslanan, nəzəri biliklərin tətbiqini tələb edən cədvəl, qrafik və sxem formasında verilmiş tapşırıqlara üstünlük verilmişdir. Tapşırıqlar qabiliyyət göstəricilərinə görə: terminoloji, faktoloji, ümumiləşdirmə, izahat, hesablama, öncəgörmə və təklif olunan fəaliyyət tipli, çətinlik dərəcələrinə görə isə sadə, orta və çətin olmuşdur.

İmtahan nəticələrinin statistik göstəricilərinə əsasən təhlil göstərmişdir ki, həm I, həm də IV ixtisas qrupunda abituriyentlərin bir çoxu məntiqi yanaşma, ümumiləşdirmə, hesablama tələb olunan tapşırıqlara, həmçinin qeyri-üzvi, üzvi maddələrin xassələrinə və üzvi kimyanın axırıncı mövzularına (mürəkkəb efirlər, karbohidratlar, azotlu üzvi birləşmələr, irimolekullu birləşmələr) aid test tapşırıqlarına cavab verməkdə çətinlik çəkmişdir.

Qeyd etmək lazımdır ki, abituriyentlərin imtahanda zəif cavablandırdıqları test tapşırıqlarının hər biri ekspertlər tərəfindən ciddi araşdırılmışdır. Ekspertlərin rəyinə görə, abituriyentlər imtahana hazırlaşarkən həmin mövzuları səthi öyrənirlər. Bu mövzular isə bir-biri ilə sıx əlaqəlidir və ciddi təhlil tələb edir.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

11-ci sinif

2.2.1. Oksigenli, azotlu üzvi birləşmələr və polimerlərə aid reaksiyaların tənliklərini tərtib edir.

2.2.2. Oksigenli, azotlu üzvi birləşmələr və polimerlərə aid reaksiyaların tənliklərinə əsasən hesablamalar aparır.

12 may tarixli imtahan, I ixtisas qrupu, A variantı, 85 saylı test tapşırığı



X maddəsinin molekulunda karbon atomlarının sayı ümumi atomların sayının neçə faizini təşkil edir?

11-ci sinifdə tədris olunan "Karbohidratlar" mövzusu üzrə karbohidratların xassələrinə aid biliklərin yoxlanılmasına imkan verən bu tapşırığa abituriyentlərin 18,81 %-i doğru cavab verib, 60,73 %-i cavab verməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün qlükozanın qıcqırma reaksiyaları əsasında ümumiləşmə aparmağı bacarmaq lazımdır. Süd turşusu və etanol qlükozanın qıcqırmasından alınır. Deməli, X karbohidratı qlükozadır. Qlükoza molekulunda – $C_6H_{12}O_6$ – karbon atomlarının sayı 6, atomların ümumi sayı isə 24-dür.

24 ——— 100 %-dir

6 ——— x %. x =25 %

Karbohidratların kimyəvi xassələri, qlükozanın qıcqırma reaksiyaları 11-ci sinif dərsliyində aydın şəkildə verilmişdir. Abituriyentlərin bu suala zəif cavab verməsi onların bu mövzunu tam öyrənmədiklərini göstərir.

Doğru cavab: 25

8-ci sinif

2.1.1. Kimyəvi reaksiyaları təsnif edir, qanunauyğunluqlarını izah edir.

12 may tarixli imtahan, I ixtisas qrupu, B variantı, 64 saylı test tapşırığı

$2Cl^- - 2e \longrightarrow Cl_2^0$ elektron tənliyinə uyğun gələn reaksiya sxemlərini göstərin.

I. $HCl + MnO_2 \longrightarrow$

II. $HCl + Na_2CO_3 \longrightarrow$

III. $HCl + KClO_3 \longrightarrow$

A) I, III B) yalnız I C) I, II D) II, III E) yalnız III

8-ci sinifdə tədris olunan "Oksidləşmə-reduksiya reaksiyaları" mövzusu üzrə elektron tənliklərinin tərtibinə aid bacarıqları yoxlamağa imkan verən bu tapşırığa abituriyentlərin 25,04 %-i doğru cavab verib, 32,04 %-i cavab verməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün oksidləşmə-reduksiya reaksiyaları üzrə elektron tənliklərini tərtib etməyi bacarmaq lazımdır.

I. $HCl + MnO_2 \rightarrow MnCl_2 + Cl_2 + H_2O$ - $2Cl^- - 2e \rightarrow Cl^0_2$

II. $HCl + Na_2CO_3 \rightarrow NaCl + CO_2 + H_2O$ - oksidləşmə dərəcəsi dəyişmir

III. $HCl + KClO_3 \rightarrow KCl + Cl_2 + H_2O$ - $2Cl^- - 2e \rightarrow Cl^0_2$

Doğru cavab: A

11-ci sinif

2.2.2. Oksigenli, azotlu üzvi birləşmələr və polimerlərə aid reaksiyaların tənliklərinə əsasən hesablamalar aparır.

12 may tarixli imtahan, IV ixtisas qrupu, A variantı, 54 saylı test tapşırığı

Molyar kütləsi 89 q/mol olan aminturşunun polikondensləşməsindən 2,7 q su ayrılarsa, neçə qram tetrapeptid alınar? $M_r(H_2O)=18$

11-ci sinifdə tədris edilən "Azotlu üzvi birləşmələr" mövzusuna aid olan, aminturşuların tərkibinə və xassələrinə aid hesablama aparmaq bacarığını yoxlamağa imkan verən bu tapşırığa abituriyentlərin 17,50 %-i doğru cavab verib, 45,90 %-i cavab verməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün aminturşunun polikondensləşmə reaksiyasının mahiyyətini bilmək və onun əsasında hesablama aparmağı bacarmaq lazımdır. Molyar kütləsi 89 q/mol olan aminturşunun əmələ gətirdiyi tetrapeptidin molyar kütləsi=89·4 - 3·18=356 – 54 =302 q/mol olar.

54 q su ayrılanda ——— 302 q tetrapeptid alınır

2,7 q su ayrılanda ——— x q tetrapeptid alınar

x = 15,1 q

Peptidlərin alınması reaksiyaları 11-ci sinif "Kimya" dərsliyində aydın şəkildə verilmişdir. Tapşırığın yerinə yetirilməsi üçün peptidlərin alınması reaksiyalarını bilmək lazımdır.

Doğru cavab: 15,1

11-ci sinif

2.2.1. Oksigenli, azotlu üzvi birləşmələr və polimerlərə aid reaksiyaların tənliklərini tərtib edir.

2.2.2. Oksigenli, azotlu üzvi birləşmələr və polimerlərə aid reaksiyaların tənliklərinə əsasən hesablamalar aparır.

23 iyun tarixli imtahan, I ixtisas qrupu, A variantı, 68 saylı test tapşırığı

2.2.1. Oksigenli, azotlu üzvi birləşmələr və polimerlərə aid reaksiyaların tənliklərini tərtib edir.

2.2.2. Oksigenli, azotlu üzvi birləşmələr və polimerlərə aid reaksiyaların tənliklərinə əsasən hesablamalar aparır.

Maddə	**Makromolekulunda olan karbon atomlarının sp^3 hibrid orbitallarının sayı**	**Polimerləşmə dərəcəsi**
Polipropilen	24000	*n*

n-i hesablayın.

A) $4\cdot10^3$ B) $2\cdot10^5$ C) $3\cdot10^4$ D) $2\cdot10^3$ E) $2\cdot10^4$

11-ci sinifdə tədris olunan "İrimolekullu birləşmələr" mövzusu üzrə irimolekullu birləşmələrin quruluşuna aid bilikləri yoxlamağa imkan verən bu tapşırığa abituriyentlərin 22,18 %-i doğru cavab verib, 49,07 %-i cavab verməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün polipropilenin quruluşu və karbon atomlarının hibrid halı əsasında hesablama aparmağı bacarmaq lazımdır. Polipropilen molekulunda karbon atomlarının hamısı sp^3 hibrid vəziyyətindədir. Polipropilen molekulunda $[-CH_2-CH(CH_3) -]_n$ karbon atomlarının sp^3 hibrid orbitallarının sayı = 3·4·n olar. Onda 12n=24000; n=2000=$2\cdot10^3$ olar.

İrimolekullu birləşmələrin quruluşu 11-ci sinif "Kimya" dərsliyində aydın şəkildə verilmişdir. Karbon atomlarının hibridləşməsi 8-ci sinifdə kimyəvi rabitə mövzusunda verilməklə yanaşı, üzvi kimyanın demək olar ki, bütün mövzularında izah edilir. Bu bir daha göstərir ki, abituriyentlər nəinki irimolekullu birləşmələri, həmçinin üzvi kimya kursunun bir çox mövzularını səthi öyrənirlər.

Doğru cavab: D

11-ci sinif

2.2.1. Oksigenli, azotlu üzvi birləşmələr və polimerlərə aid reaksiyaların tənliklərini tərtib edir.

2.2.2. Oksigenli, azotlu üzvi birləşmələr və polimerlərə aid reaksiyaların tənliklərinə əsasən hesablamalar aparır.

23 iyun tarixli imtahan, I ixtisas qrupu, B variantı, 86 saylı test tapşırığı

2.2.1. Oksigenli, azotlu üzvi birləşmələr və polimerlərə aid reaksiyaların tənliklərini tərtib edir.

2.2.2. Oksigenli, azotlu üzvi birləşmələr və polimerlərə aid reaksiyaların tənliklərinə əsasən hesablamalar aparır.

Maddə	**Aminturşunun molekulunda olan hidrogen atomlarının sayı**	**Aminturşudan əmələ gələn dipeptid molekulunda olan hidrogen atomlarının sayı**
Monoamin-monokarbon turşusu	7	*x*

x-i hesablayın.

11-ci sinifdə tədris edilən "Azotlu üzvi birləşmələr" mövzusuna aid olan, aminturşuların tərkibinə və xassələrinə aid hesablama aparmaq bacarığını yoxlamağa imkan verir. Tapşırığa abituriyentlərin 6,68 %-i doğru cavab verib, 54,83 %-i cavab verməkdən imtina etmişdir. Tapşırığın yerinə yetirilməsi üçün monoaminmonokarbon turşusunun dipeptid əmələ gətirmə reaksiyasının mahiyyətini bilmək lazımdır. Molekulunda 7 hidrogen olan aminturşunun əmələ gətirdiyi dipeptidin molekulunda hidrogen atomlarının sayı = 7+7-2=12 olar.

Doğru cavab: 12

9-cu sinif

2.2.2. Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərinə əsasən hesablamalar aparır.

23 iyun tarixli imtahan, IV ixtisas qrupu, A variantı, 49 saylı test tapşırığı

38 q Fe_2O_3 -ü hidrogen axınında $Fe_2O_3+3H_2 \xrightarrow{t} 2Fe+3H_2O$ tənliyi üzrə natamam reduksiya etdikdə alınan bərk qalığın kütləsi 35 q oldu. Alınan bərk qalıqda dəmir bəsit maddəsinin kütlə payını (%-lə) hesablayın. $M_r(Fe_2O_3)=160$, $A_r(Fe)=56$

A) 10 B) 25 C) 15 D) 20 E) 30

9-cu sinifdə tədris edilən "Əlavə yarımqrup metalları" mövzusu üzrə metalların alınmasına aid bilikləri və hesablama bacarığını yoxlamağa imkan verən bu tapşırığa abituriyentlərin 21,61 %-i doğru cavab verib, 55,70 %-i cavab verməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün dəmirin oksidlərindən reduksiya tənliyi əsasında hesablama aparmağı bacarmaq lazımdır. Oksidin kütləsinin azalması çıxarılan oksigenin hesabına baş verir. Tənlikdən görünür ki,

3·16 q O çıxarıldıqda ————2·56 q Fe alınır

3 q O çıxarıldıqda ————— x q Fe alınar; x=7 q

ω(Fe)= 7·100/35= 20 %

Əlavə yarımqrup metallarının alınma üsulları 9-cu sinif "Kimya" dərsliyində verilmişdir, tənliklər üzrə hesablamalar isə 7-ci sinifdə izah olunmuşdur. Bununla yanaşı, demək olar ki, kimya kursunun əksər mövzularında tənliklər üzrə hesablamalar aparılır. Abituriyentlərin bu suala zəif cavab verməsi göstərir ki, onlar hesablama tələb edən tapşırıqlarla az işləyirlər.

Doğru cavab: D

12 may tarixli imtahan, I ixtisas qrupu, A variantı, situasiya tapşırıqları (88, 89, 90)

Situasiya: Qızılın ərintisini X metalından təmizləmək üçün kimyaçı ərinti nümunəsindən bir qədər götürərək iki sınaq şüşəsinə yerləşdirdi. Sorucu şkafda birinci sınaq şüşəsinə xlorid turşusu, ikincisinə isə qatı sulfat turşusu əlavə edərək qızdırdı. Birinci sınaq şüşəsində heç bir dəyişiklik baş vermədi, ikincisindən isə kəskin iyli, boğucu Y qazı ayrıldı. Sonra ikinci sınaq şüşəsinə NaOH-ın suda məhlulunu əlavə etdi, bu zaman göy rəngli çöküntü alındı.

88. X metalının və Y qazının formulunu yazın.

Doğru cavab: X-Cu, Y-SO_2

Qiymətləndirmə meyarları

1 bal	a. X metalının və Y qazının formulu doğru yazılıb.
1/2 bal	b. X metalının formulu doğru yazılıb, lakin Y qazının formulu səhv yazılıb və ya yazılmayıb. c. Y qazının formulu doğru yazılıb, lakin X metalının formulu səhv yazılıb və ya yazılmayıb.
0 bal	d. a-c bəndlərindən başqa bütün digər hallarda.

Tapşırıq 9-cu sinifdə tədris edilən "Əlavə yarımqrup elementləri" mövzusuna aiddir. Tapşırıqda "Maddə və maddi aləm" məzmun xəttinin 9_1.1.1. (*Maddələrin (metallar, qeyri–metallar və onların birləşmələri, sadə üzvi birləşmələr) quruluşunu, fiziki xassələrini şərh edir*) və "Kimyəvi hadisələr" məzmun xəttinin 9_2.1.1 (*Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiyaların qanunauyğunluqlarını izah edir*) alt standartları üzrə tələblərin mənimsənilmə səviyyəsi yoxlanılır.

Abituriyentlərin 12,05%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla qiymətləndirilib. 6,15% abituriyentin yazı işi 0,5 balla, 16,88% abituriyentin yazı işi 0 balla qiymətləndirilmiş, 64,82% abituriyent isə tapşırığı yerinə yetirməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün "Əlavə yarımqrup elementləri" mövzusundan xlorid və qatı sulfat turşuları ilə reaksiyaya daxil olan metalları, eləcə də qatı sulfat turşusu ilə qarşılıqlı təsirdə olaraq kəskin iyli qaz ayıran və duzu NaOH məhlulu ilə qarşılıqlı təsirdə olaraq göy rəngli çöküntü əmələ gətirən metalı bilmək lazımdır. Ərintinin üzərinə xlorid turşusu əlavə etdikdə onunla qarşılıqlı təsirdə olmayan metal

elektrokimyəvi gərginlik sırasında hidrogendən sağda yerləşir. Qatı sulfat turşusu ilə qarşılıqlı təsir zamanı alınan kəskin iyli, boğucu Y qazı isə kükürd-dioksiddir (SO_2). Ərintinin qatı sulfat turşusu ilə reaksiya məhsulunun üzərinə NaOH məhlulu əlavə edildikdə alınan göy rəngli çöküntü mis(II) hidroksiddir. Bu da qızılın ərintisinin tərkibində Cu metalının olduğunu göstərir.

89. Y qazının əmələ gəlməsi reaksiyasının tənliyini yazın və əmsallaşdırın.

Doğru cavab: $Cu + 2H_2SO_4 \xrightarrow{t} CuSO_4 + SO_2 \uparrow + 2H_2O$

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1 bal	a. Y qazının əmələ gəlməsi reaksiyasının tənliyi doğru yazılıb və doğru əmsallaşdırılıb
0,5 bal	b. Y qazının əmələ gəlməsi reaksiyasının tənliyi doğru yazılıb, lakin əmsallaşdırılmayıb və ya səhv əmsallaşdırılıb.
0 bal	c. a, b bəndlərindən başqa bütün digər hallarda.

Tapşırıq IX sinif "Kimya" dərsliyindən "Əlavə yarımqrup elementləri" mövzusuna aiddir. Tapşırıqda "Kimyəvi hadisələr" məzmun xəttinin 9_2.2.1 (*Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərini tərtib edir*) alt standartı üzrə tələblərin mənimsənilmə səviyyəsi yoxlanılır. Abituriyentlərin 7,85%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla qiymətləndirilib. 2,06% abituriyentin yazı işi 0,5 balla, 18,72% abituriyentin yazı işi 0 balla qiymətləndirilmiş, 71,36% abituriyent isə tapşırığı yerinə yetirməkdən imtina etmişdir.

Tapşırığın yerinə yetirilməsi üçün abituriyent misin qatı sulfat turşusu ilə reaksiyasının tənliyini yazmalı və oksidləşmə-reduksiya reaksiyasını əmsallaşdırmağı bacarmalıdır.

90. 0,5 mol göy rəngli çöküntü alınarsa, reaksiyaya neçə qram 40%-li NaOH məhlulu sərf olunar?
M_r(NaOH)=40

Doğru cavab: Reaksiyanın tənliyinə əsasən 0,5 mol göy rəngli çöküntünün [$Cu(OH)_2$] alınması üçün neçə qram NaOH lazım olduğu hesablanılır.

$CuSO_4 + 2NaOH \rightarrow Cu(OH)_2 + Na_2SO_4$

1 mol $Cu(OH)_2$ ----------80 q NaOH

0,5 mol ----------x q x= 40q NaOH

40%-li NaOH məhlulunun kütləsi hesablanılır.

40 q ---------- 40%

x q ----------100% x= 100 q (məhlul)

Qiymətləndirmə meyarları

Bal şkalası	Meyarlar
1 bal	a. Reaksiyaya daxil olan 40%-li NaOH məhlulunun kütləsi doğru hesablanılıb.
1/2 bal	b. Reaksiyaya sərf olunan NaOH-ın kütləsi doğru hesablanılıb, lakin 40%-li NaOH məhlulunun kütləsi səhv hesablanılıb və ya hesablanmayıb.
0 bal	c. a, b bəndlərindən başqa bütün digər hallarda.

Tapşırıq IX sinif "Kimya" dərsliyindən "Əlavə yarımqrup elementləri" mövzusuna aiddir.

Tapşırıqda "Kimyəvi hadisələr" məzmun xəttinin 9_2.2.2 (*Metallar, qeyri-metallar və onların birləşmələrinə, sadə üzvi birləşmələrə aid reaksiya tənliklərinə əsasən hesablamalar aparır*) alt standartı üzrə tələblərin mənimsənilmə səviyyəsi yoxlanılır. Abituriyentlərin 4,92%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla qiymətləndirilib. 2,61% abituriyentin yazı işi 0,5 balla, 15,43% abituriyentin yazı işi 0 balla qiymətləndirilmiş, 77,04% abituriyent isə tapşırığı yerinə yetirməkdən imtina edib.

Tapşırığın yerinə yetirilməsi üçün əvvəlcə misin qatı sulfat turşusu ilə reaksiyasından alınan $CuSO_4$ duzu ilə NaOH məhlulu arasında reaksiyanın tənliyini yazmağı və 0,5 mol göy rəngli çöküntü, yəni $Cu(OH)_2$-in alınması sərf olunan NaOH-in kütləsini hesablamağı bacarmaq lazımdır. Bundan sonra isə 0,5 mol $Cu(OH)_2$-in alınması üçün tələb olunan və tərkibində 40 qram NaOH olan məhlulun kütləsi hesablanmalıdır.

Təhlil göstərmişdir ki, ötən illərdə olduğu kimi, abituriyentlərin bir çoxu məntiqi yanaşma, ümumiləşdirmə, hesablama tələb olunan tapşırıqlara cavab verməkdə çətinlik çəkmişdir. Statistik göstəricilər onu da deməyə əsas verir ki, hər iki ixtisas qrupu üzrə abituriyentlərin əksəriyyəti həm qeyri-üzvi, həm də üzvi maddələrin xassələrini və üzvi kimyanın sonuncu mövzularını (karbohidratlar, azotlu üzvi birləşmələr, irimolekullu birləşmələr) dərindən öyrənmir. Qəbul imtahanlarına hazırlaşanların bu mövzulara ciddi fikir vermələri tövsiyə edilir.

"Biologiya" fənnindən qəbul imtahanında istifadə edilmiş tapşırıqlar fənn kurikulumu əsasında 4 **("Canlıların quruluşu və müxtəlifliyi", "Bioloji proseslər", "İnsan və onun sağlamlığı", "Canlılar və ətraf mühit")** məzmun xətti üzrə 6 əsas standartın və 72 alt standartın reallaşdırılması ilə bağlı təlim materiallarını əhatə edir.

İmtahanlarda canlı aləmdə baş verən bioloji hadisə və proseslərin mahiyyətinin dərk olunmasını tələb edən bitki və heyvanların təsnifatı, fizioloji və ekoloji xüsusiyyətləri, habelə onların həyat fəaliyyəti sahəsində bilik və bacarıqlarını yoxlayan, ümumiləşdirmə və məntiqi düşüncəyə istinad edərək qazanılmış biliklərin tətbiqinə əsaslanan tapşırıqlardan istifadə olunub.

Tapşırıqlar məzmun xətləri üzrə təlim nəticələrinə uyğun olaraq "Botanika", "Zoologiya", "İnsan" və "Ümumi biologiya" bölmələrini əhatə edib və abituriyentlərin:

– bioloji prosesləri, orada baş verən dəyişiklikləri bilmək, riyazi üsullarla əsaslandırmaq;

– canlılarda maddələr mübadiləsinin qanunauyğunluqlarını izah etmək;

– insanın fərdi və tarixi inkişafını əlaqələndirmək;

– insan orqanizminin xüsusiyyətlərini bilmək;

– irsiyyətin qanunauyğunluqlarını məsələ həlli yolu ilə əsaslandırmaq kimi bilik və bacarıqlarının yoxlanılması, qiymətləndirilməsi üçün nəzərdə tutulub.

Statistik göstəricilər üzrə təhlil göstərir ki, abituriyentlərin bir çoxu bitkilərin vegetativ orqanlarının inkişaf xüsusiyyətləri, bakteriyaların çoxalması, insanın ifrazat sistemi və dayaq-hərəkət aparatı, ekosistemlərin müxtəlif nümayəndələrinin qida zəncirindəki rolu və qidalanma üsullarına aid ümumiləşdirmə və izahatyönlü, habelə təklif olunan fəaliyyət tipli test tapşırıqlarına yaxşı cavab verib. Bununla yanaşı, bir sıra abituriyentlər insanın cinsiyyət sistemi və bununla bağlı olaraq onun ontogenezinin ilkin prosesləri, habelə insanın qan qruplarının tərkibi və genotipi, eləcə də xordalı heyvanların qan dövranının xüsusiyyətləri, zülal biosintezinin mexanizmi və kəmiyyətlərinə dair nəzəri biliklərin tətbiqi tələb olunan, mövzulararası əlaqəyə aid, hesablama tipli test tapşırıqlarının yerinə yetirilməsində çətinlik çəkib.

Aşağıda abituriyentlərin zəif nəticə göstərdikləri bəzi tapşırıqların izahı təqdim olunur.

7-ci sinif

2.1.1. Müxtəlif canlılarda gedən həyati prosesləri fərqləndirir.

12 may tarixli imtahan, A variantı, 3 saylı test tapşırığı

Xanı balığı və göl qurbağasının qan dövranları üçün ümumi ***olmayan*** xüsusiyyətlər:

1. qanın ürəkdən arteriya damarı ilə çıxması
2. qanın tənəffüs orqanlarından vena damarları ilə bilavasitə ürəyə qayıtması
3. venoz qanın vena damarları ilə ürəyə qayıtması
4. qanın tənəffüs orqanlarından arteriya damarına keçməsi

A) 3, 4 B 2, 4 C) 1, 4 D) 1, 3 E) 1, 2

"Xordalılar. Balıqlar. Suda-quruda yaşayanlar. Sürünənlər" bölməsinə aid, bu test tapşırığına abituriyentlərin 38,45 %-i doğru cavab verib, 19,55%-i isə cavab verməkdən imtina edib. 7-ci sinif "Biologiya" dərsliyində tədris olunan müvafiq materialdan məlumdur ki, ikikameralı ürəyə və bir qan dövranına malik balıqların qan-damar sistemi, üç kameralı ürəyə və iki qan dövranına malik suda-quruda yaşayanların müvafiq sistemindən bir sıra xüsusiyyətlərinə görə fərqlənir. Eyni zamanda nəzərə almaq lazımdır ki, heyvanlar aləminin nümayəndələrində və o cümlədən xanı balığında, həm də göl qurbağasında

ürək boşluğundan çıxan qan arteriya damarına ötürülür, orqanlardan qayıdan qan isə ürəyə vena damarları ilə daxil olur. Beləliklə, tapşırığın şərtində 1 və 3-cü bəndlərin xanı balığı və göl qurbağasının qan dövranları üçün ümumi olması müəyyən edilir. Suda-quruda yaşayanlarda iki qan dövranı olduğu üçün onlarda, balıqlardan fərqli olaraq, oksigenlə zənginləşmiş qan tənəffüs orqanlarından ürəyə vena damarı ilə qayıdır və yenidən ürəkdən böyük qan dövranına çıxır. Balıqlarda isə tənəffüs orqanlarından çıxan arterial qan ürəyə qayıtmadan, orqanlara gedir. Bu səbəbdən də 2 və 4-cü bəndlər göstərilən canlıların qan dövranları üçün ümumi deyil.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini onların xanı balığı və göl qurbağasının qan dövranları üçün qeyd edilən xüsusiyyətləri ümumiləşdirə bilməməsi ilə əlaqələndirmək olar.

Doğru cavab: B

9-cu sinif

2.1.3. Bioloji proseslərin mahiyyəti və məzmununu, baş verən dəyişiklikləri riyazi üsullarla əsaslandırır.

12 may tarixli imtahan, A variantı, 5 saylı test tapşırığı

150 amin turşusu halqasından ibarət polipeptid zəncirin sintezinə sərf olunan vaxt ərzində, nisbi sakitlik halında insanın tənəffüs yollarına neçə sm^3 O_2 daxil olduğunu müəyyənləşdirin (bir amin turşusunun zəncirə birləşməsinə 0,2 saniyə vaxt sərf olunur).

A) 105 B) 80 C) 25 D) 120 E) 840

"Fənlərarası əlaqə" bölməsinə aid, hesablama tipli bu test tapşırığına abituriyentlərin 32,96%-i doğru cavab verib, 38,08%-i isə cavab verməkdən imtina edib. 9-10-cu siniflər üçün "Biologiya" dərsliklərindəki materialdan məlumdur ki, zülalların sintezi zamanı bir amin turşunun zəncirə birləşməsinə saniyənin 1/5-1/6–i qədər vaxt tələb olunur (bir amin turşusunun zəncirə birləşməsinə 0,2 saniyə vaxt sərf olunur). Deməli, 150 amin turşusu halqasından ibarət zülalın sintezinə 150 x 0,2=30 saniyə vaxt tələb olunur. Digər tərəfdən, 8-ci sinfin "Biologiya" dərsliyindən məlumdur ki, nisbi sakitlik halında insan bir dəqiqədə 16 tənəffüs hərəkəti edir və hər bir tənəffüs hərəkəti zamanı 500 sm^3 hava udur. Tənəffüs yollarına daxil olan havanın 21%-ni isə O_2 təşkil edir. Beləliklə:

500 – 100% x=105 sm^3

x – 21%

30 saniyədə 8 tənəffüs hərəkətinin baş verdiyi nəzərə alınarsa, 8 x 105= 840 sm^3 olar.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini onların riyazi hesablama bacarıqlarının zəif olmaları ilə əlaqələndirmək olar.

Doğru cavab: E

8-ci sinif

2.1.1. İnsan orqanizmində baş verən bioloji prosesləri izah edir.

10-cu sinif

2.1.1. Bioloji proseslərin mexanizmini şərh edir, məruzə və təqdimatlar hazırlayır.

23 iyun tarixli imtahan, A variantı, 24 saylı test tapşırığı

"Mitoxondri hüceyrə tənəffüsündə iştirak edir." Bu ifadə sadalananlardan hansı canlılara aid edilə ***bilməz***?

1. xlorella
2. tozağacı göbələyi
3. göy-yaşıl yosun
4. qaraciyər sorucusunun kirpikli sürfəsi
5. yetkin insan askaridi

"Fənlərarası əlaqə" bölməsinə aid olan bu test tapşırığına abituriyentlərin 22,15%-i doğru cavab verib, 5,32%-i isə cavab verməkdən imtina edib. Tapşırığın yerinə yetirilməsi üçün tam orta məktəb biologiya kursunun "Bitkilər", "Heyvanlar", "Sitologiya" və Hüceyrə biokimyası" bölmələrindəki materialı tam mənimsəyib ümumiləşdirmə aparmaq lazımdır. Məlumdur ki, təbiətdə aerob orqanizmlərlə yanaşı anaeroblar da mövcuddur. Aerob eukariot orqanizmlərin hüceyrələrindəki mitoxondrilərdə enerji hasilatı ilə müşayiət

olunan üzvi maddələrin oksidləşməsi prosesləri baş verir. Buna görə də mitoxondri hüceyrənin tənəffüs orqanoidi hesab edilir. Bir sıra parazit qurdlar, məsələn yetkin askarid, qaraciyər sorucusu oksigensiz mühitdə yaşayaraq tənəffüs etmirlər. Lakin bu qurdların sürfələrinin inkişafı üçün oksigen zəruri olduğundan bu canlılarda mitoxondrilər intensiv fəaliyyət göstərir. Bakteriyaların bir çoxu tənəffüs etsə də, bütünlüklə mitoxondridən məhrumdurlar.

Abituriyentlərin tapşırığa zəif cavab vermələrini onların anaerob və aerob orqanizmləri tam bilməmələri ilə əlaqələndirmək olar.

Doğru cavab: 3,5

23 iyun tarixli imtahan, B variantı, situasiya tapşırıqları (28, 29, 30)

Situasiya: İnsanın qan qrupları eritrositlərdə və qan plazmasında olan xüsusi zülallarla əlaqədardır. Müəyyən olunmuşdur ki, qanın eritrositlərində A və B antigenləri (aqlütinogenləri), qan plazmasında isə anti-A və anti-B antitelləri (aqlütininləri) vardır. Bu maddələrin müxtəlif kombinasiyalarından asılı olaraq insanlarda 4 qan qrupu mövcud olur. İnsan qanında normada eyni adlı antigen və antitellər (A və anti-A ; B və anti-B) bir yerdə ola bilməz.

İnsanın qan qrupları	**Qan plazmasında antitellərin (aqlütininlərin) mövcudluğu**	
	anti-A	**anti-B**
X	+	–
Y	–	–
Z	+	+
K	–	+

28. X və Z qan qruplarının genotip və fenotiplərini, həmçinin onların sayını müəyyən edin.

***İzah*:** Verilmiş cədvələ görə X – III(B), Y – IV(AB), Z – I(0), K – II(A) qan qruplarıdır. X B qrupu olduğuna görə iki genotip - BB və BO, Z 0 qrupu olduğuna görə bir genotip – 00 əmələ gətirir, hərəsinin isə bir fenotipi olur.

Doğru cavab: X – III qan qrupu 2 genotip (BB, BO) və bir fenotip (B), Z – I qan qrupu bir genotip (00), bir fenotip (0) əmələ gətirir.

Qiymətləndirmə meyarı:

Bal şkalası	**Meyarlar**
1 bal	X (B) və Z (0) qan qruplarını, genotiplərini, fenotiplərini və saylarını düzgün təyin etmişdir. Əgər qan qrupları I^BI^0, I^BI^B və ya I^0I^0 kimi işarə edilmişsə, cavab doğru sayılır.
0,5 bal	Ya X-i, ya da Z-i doğru təyin etməyib, lakin fenotipləri və genotipləri yazdığına uyğun olaraq düzgün müəyyən edib. X-i və Z-i düzgün təyin edib, lakin fenotip və ya genotiplərin sayında səhvə yol veribsə. X-i və Z-i düzgün təyin edib, lakin yalnız fenotipləri və ya genotipləri qeyd edib, sayını göstərməyib
0 bal	X-i və Z-i düzgün təyin etməyib, fenotip və genotipləri qeyd etməyib. X-i və Z-i düzgün təyin etməyib,yalnız fenotip və genotip sayını göstəribsə Qalan bütün hallarda

Tapşırıq 10-cu sinifdə tədris edilən "Genetika" bölməsinə aiddir. Tapşırıq vasitəsilə "Bioloji proseslər" məzmun xəttinin 10_2.1.3. (*Bioloji proseslərdə baş verən dəyişikliklərin mexanizmini müxtəlif üsullarla əsaslandırır*) alt standartı üzrə tələblərin mənimsənilmə səviyyəsi yoxlanılır. Abituriyentlərin 11,01%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla qiymətləndirilib. 9,03% abituriyentin yazı işi 0,5 balla, 46,37% abituriyentin yazı işi 0 balla qiymətləndirilib, 33,59% abituriyent isə tapşırığı yerinə yetirməkdən imtina edib. Abituriyentlərin tapşırığa zəif cavab vermələrini fenotip və genotip anlayışlarını tam qavraya bilməməsi ilə əlaqələndirmək olar.

29. Cədvələ əsasən hansı qan qruplarına (X, Y, Z, K) malik ata və ananın uşaqlarında valideynlərin qan qruplarına malik olma ehtimalı bütün hallarda sıfıra bərabərdir?
Cavabınızı Pennet cədvəli qurmaqla əsaslandırın.

***İzah*:** Bu hal yalnız valideynlər Z (I) və Y(IV) qan qruplarına malik olarsa mümkündür.

	A	B
O	AO	BO

Doğru cavab: Z və Y

Qiymətləndirmə meyarı:

Bal şkalası	**Meyarlar**
1bal	Qan qruplarını (Z və Y) düzgün təyin edib, Pennet cədvəlini düzgün qurub. Əgər qan qrupları I^0I^0, I^AI^B kimi işarə edilmişsə, cavab doğru sayılır.
0,5 bal	Qan qruplarını (Z,Y) düzgün təyin edib, Pennet cədvəlini qurmayıb. Qan qruplarını (Z,Y) düzgün təyin edib, Pennet cədvəlini səhv qurub. I və IV qan qrupunu düzgün təyin edib, lakin Z və Y olduğunu qeyd etməyib, Pennet cədvəlini düzgün qurub.
0 bal	Qalan bütün hallarda

Tapşırıq 10-cu sinifdə tədris edilən "Genetika" bölməsinə aiddir. Tapşırıq vasitəsilə "Bioloji proseslər" məzmun xəttinin 10_2.1.3. (*Bioloji proseslərdə baş verən dəyişikliklərin mexanizmini müxtəlif üsullarla əsaslandırır*) alt standartı üzrə tələblərin mənimsənilmə səviyyəsi yoxlanılır. Abituriyentlərin 16,08%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla qiymətləndirilib. 3,52% abituriyentin yazı işi 0,5 balla, 42,40% abituriyentin yazı işi 0 balla qiymətləndirilmiş, 38,00% abituriyent isə tapşırığı yerinə yetirməkdən imtina etmişdir. Abituriyentlərin tapşırığa zəif cavab vermələrini onların təhliletmə bacarıqlarının zəif olması ilə əlaqələndirmək olar.

30. Sxemə əsasən hansı qanköçürmələrin düzgün olduğunu müəyyən edin. Cavabınızı əsaslandırın.



***İzah*:**



Bu sxemə əsasən, 1, 2, 4 mümkün qanköçürmələrdir.

Doğru cavab: 1, 2, 4

Qiymətləndirmə meyarı:

Bal şkalası	Meyarlar
1bal	Mümkün qanköçürmələri (1,2,4) düzgün qeyd edir və əsaslandırır
0,5 bal	Yazdıqları qanköçürmələrdən yalnız biri səhv olarsa, cavab əsaslanarsa Qanköçürmələr düzgün müəyyən edilib, əsaslanmada səhvə yol verib Qanköçürmənin ümumi sxemini düzgün göstərib, lakin X, Y, Z, K ilə əlaqələndirməyib, tapşırığa tətbiq edə bilməyib
0 bal	Qalan bütün hallarda

Tapşırıq 8-ci sinifdə tədris edilən "Qan və qan dövranı" bölməsinə aiddir. Tapşırıq vasitəsilə "Bioloji proseslər" məzmun xəttinin 8_2.1.1. (*İnsan orqanizmində baş verən bioloji prosesləri izah edir*) alt standartı üzrə tələblərin mənimsənilmə səviyyəsi yoxlanılır.

Abituriyentlərin 17,95%-i tapşırıq üzrə yazı işini tam yerinə yetirib və onların işi 1 balla qiymətləndirilib. 4,52% abituriyentin yazı işi 0,5 balla, 55,62% abituriyentin yazı işi 0 balla qiymətləndirilib, 21,92% abituriyent isə tapşırığı yerinə yetirməkdən imtina edib. Tapşırığa zəif cavab vermələrini abituriyentlərin qan qruplarına və qanköçürməyə aid faktları bilməməsi ilə əlaqələndirmək olar.

Qəbul imtahanlarının nəticələrinin təhlili "Biologiya" fənninin tədrisi metodikasının daha da təkmilləşdirilməsini və xüsusilə də mənimsənilmiş mövzuların müntəzəm olaraq təkrarlanmasına geniş yer verilməsini tələb edir. Abituriyentlər dərslikdəki materialı öyrənməklə yanaşı, ümumiləşmə aparmaq, mənimsədikləri bilikləri sistemləşdirmək bacarıqlarını daha da inkişaf etdirməlidirlər.

I–IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən abituriyentlərin 17.7%-i (11809 nəfər) imtahan verdikləri fənlərin ən azı birindən sıfır bal toplayıb

I–IV ixtisas qrupları üzrə qəbul imtahanlarında iştirak edən abituriyentlərin 17.7%-i imtahan verdikləri fənlərin biri və ya bir neçəsi üzrə test suallarına ya cavab verməmiş, yaxud da cavabları təhlil aparmadan təsadüfi qaydada seçmişdir. Təbii ki, belə abituriyentlərin yanlış cavablarının sayı düzgünlərin sayından qat-qat çox olmuş, nəticədə düzgün cavabların yanlış cavablar nəzərə alınmaqla təshih edilmiş qiyməti sıfırdan kiçik alınmış və qəbul qaydalarına əsasən sıfıra bərabər qəbul olunmuşdur. Təəssüf ki, gənclər arasında birtərəfli hazırlıqla ali təhsil müəssisələrinə qəbul olmaq arzusunda olanlar hələ də var. DİM imtahan fənləri üzrə də minimal tələblər qoyub və məhdudiyyətlər tətbiq edirdi. Cari ildə isə imtahan fənləri üzrə heç bir məhdudiyyət tətbiq edilməmişdir.

DİM şagird və abituriyentlərin nəinki imtahan fənlərinə, həmçinin ümumtəhsil məktəblərində tədris olunan digər fənlərə lazımi diqqət göstərməsinin tərəfdarıdır. Sirr deyil ki, hazırda məktəblərdə yuxarı sinif şagirdlərinin, əsasən, seçdikləri ixtisas qrupuna aid fənlərə üstünlük verməsi, digər fənləri isə, heç olmasa, proqramın minimum tələbləri səviyyəsində öyrənməməsi, məktəb rəhbərlərinin də bu vəziyyətə göz yumması halları mövcuddur. Məktəb rəhbərləri, eləcə də müəllimlər şagirdlərin bütün fənlər üzrə ən azı minimum proqram həcmində bilik almasına nail olmalı, imtahana düşən fənləri yaxşı bildiklərinə görə digər fənləri lazımınca öyrənməmələrinə güzəşt etməməlidirlər.

Aşağıdakı cədvəllərdə ayrı-ayrı fənlər üzrə sıfır bal toplayan abituriyentlərin faizi təqdim edilib.

Cədvəl 1.30

İMTAHAN FƏNLƏRİNDƏN SIFIR (0) BAL TOPLAMIŞ AZƏRBAYCAN BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN FAİZİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ 0.000 BAL TOPLAMIŞ ABİTURİYENTLƏRİN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	0.09	0.73	0.25			13.01	11.99	14.16			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	0.06	0.54	0.18			10.49				7.12	4.84
III	Humanitar, pedaqogika ixtisasları	0.04	0.88	0.21	1.96	3.87					4.80	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	0.05	0.27	0.14				5.53	5.94	2.19		
V	İncəsənət, musiqi, idman ixtisasları	0.00	0.38	0.06								

Cədvəl 1.31

İMTAHAN FƏNLƏRİNDƏN SIFIR (0) BAL TOPLAMIŞ RUS BÖLMƏSİ ABİTURİYENTLƏRİNİN FAİZİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ 0.000 BAL TOPLAMIŞ ABİTURİYENTLƏRİN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	0.05	0.36	0.14			9.40	9.63	11.54			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	0.00	0.83	0.08			8.63				7.50	4.50
III	Humanitar, pedaqogika ixtisasları	0.00	1.30	0.07	1.37	3.29					6.10	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	0.00	0.00	0.00				5.68	6.04	1.28		
V	İncəsənət, musiqi, idman ixtisasları	0.00	0.38	0.00								

Cədvəllərdə sıfır bal toplayanların faizi qruplar üzrə verilib. Ümumilikdə, I mərhələdə sıfır bal toplayanlar çox azdır. Bunun əsas səbəbi kimi bu mərhələdə II mərhələdən fərqli olaraq qapalı tipli test tapşırıqları üzrə yanlış cavablara görə cərimə tətbiq olunmaması və bu cavabların ümumi bala təsir göstərməməsidir. Nəticədə, abituriyentlər I mərhələdə daha cəsarətli davranırlar və hətta cavablarını bilmədikləri test tapşırıqlarını da cavablandırırlar ki, bu da öz növbəsində təsadüfi şəkildə düzgün cavabların qeyd olunması ehtimalını artırır.

II mərhələdə ana dili və biologiya fənləri üzrə sıfır bal toplayan abituriyentlərin faizi digər fənlərə nisbətən azdır. Sıfır bal toplayanlar ən çox kimya, riyaziyyat və fizika fənləri üzrədir. Bu fənlər üzrə abituriyentlərin nəticələrinin aşağı olması və sıfır bal toplayanların sayının çoxluğu bir sıra məktəblərdə həmin fənlərin tədrisinə, eləcə də bu fənlər üzrə qəbula hazırlıq prosesinə laqeyd münasibətin nəticəsidir. İstənilən halda, bunun real səbəbləri aydınlaşdırılmalı və həmin fənlərə münasibətin dəyişdirilməsi üçün tədbirlər görülməlidir.

II mərhələdə imtahan fənlərindən sıfır bal toplayan abituriyentlər Azərbaycan bölməsində çoxluq təşkil edir. Bu bölmə üzrə I ixtisas qrupunda bütün fənlər üzrə, II qrupda riyaziyyat və tarix, III qrupda tarix, IV qrupda fizika və kimya fənlərindən sıfır bal toplayanlar daha çoxdur. Rus bölməsində də qruplar üzrə vəziyyət eyni ilə Azərbaycan bölməsindəki kimidir.

Məlum olduğu kimi 2019-cu ildə müsabiqə şərti kimi imtahan fənləri üzrə heç bir məhdudiyyət qoyulmamışdır. Ali təhsil müəssisələrinə I-IV ixtisas qrupları üzrə qəbul olanlar arasında 3766 nəfərin heç olmasa, bir imtahan fənni üzrə nisbi balı 10-dan az olmuşdur, 460 nəfərin iki, 26 nəfərin isə üç imtahan fənni üzrə nisbi balı 10-dan az olmuşdur. Ən azı 1 fənn üzrə nisbi balı 10-dan az olan abituriyentlərin 33.40%-i, 2 fənn üzrə nisbi balı 10-dan az olanların 56.30, 3 fənn üzrə nisbi balı 10-dan az olanların isə 53.85%-i 200-dən az bal toplayıb.

Qəbul olanlar arasında I mərhələdə ana dili fənni üzrə 21, riyaziyyat fənni üzrə 597 və xarici dil fənni üzrə 277 abituriyentin topladığı nisbi balı 10-dan az olub. II mərhələdə ana dili fənni üzrə 2, ədəbiyyat fənni üzrə 24, riyaziyyat fənni üzrə 1081, fizika fənni üzrə 775, kimya fənni üzrə 538, biologiya fənni üzrə 6, tarix fənni üzrə 818, coğrafiya fənni üzrə 113 abituriyentin topladığı nisbi balı 10-dan az olub.

Bu il qəbul imtahanlarının II mərhələsində Azərbaycan bölməsi abituriyentlərinin ana dili, riyaziyyat, fizika və kimya fənləri istisna olmaqla, digər bütün fənlər üzrə göstəriciləri rus bölməsi abituriyentlərinin göstəricilərindən yüksəkdir. Belə üstünlük özünü biologiya və tarix fənləri üzrə daha qabarıq şəkildə göstərib. I mərhələdə isə ana dili fənni üzrə Azərbaycan, ingilis dili fənni üzrə rus bölməsinin abituriyentlərinin göstəriciləri yüksək olmuşdur. Riyaziyyat fənni üzrə hər iki bölmədə abituriyentlərin göstəriciləri demək olar ki, bərabər olub. Aşağıda Azərbaycan və rus bölmələri abituriyentlərinin fənlər üzrə düzgün cavablarının müqayisəsini ifadə edən 1.22 saylı şəkli təqdim edilir.

AZƏRBAYCAN VƏ RUS BÖLMƏLƏRİ ABİTURİYENTLƏRİNİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ DÜZGÜN CAVABLARININ (FAİZLƏ) MÜQAYİSƏSİ DİAQRAMI



Şəkil 1.22

Müsabiqə şərtlərini ödəyərək ixtisas seçimində iştirak edən abituriyentlər seçməsi üzrə Azərbaycan və rus bölmələri abituriyentlərinin II mərhələdə imtahan fənləri üzrə düzgün cavablarının müqayisəsi göstərir ki, burada artıq bütün fənlər üzrə Azərbaycan bölməsinin abituriyentlərinin göstəriciləri daha üstündür (bax: şəkil 1.23). I mərhələdə isə riyaziyyat fənni üzrə də Azərbaycan bölməsinin abituriyentlərinin üstünlüyü nəzərə çarpır.

AZƏRBAYCAN VƏ RUS BÖLMƏLƏRİNİN MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİNİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ DÜZGÜN CAVABLARININ (FAİZLƏ) MÜQAYİSƏSİ DİAQRAMI



Şəkil 1.23

Ölkənin ayrı-ayrı bölgələrini təmsil edən abituriyentlərin imtahan fənləri üzrə cavablarının təhlili göstərir ki, fənlər üzrə ən yüksək nəticə, əsasən, birbaşa Təhsil Nazirliyinin tabeliyində olan liseylərə və özəl liseylərə məxsusdur. Fənlər üzrə şəhər və rayon təhsil şöbələrinin göstəricilərinin təhlilindən aydın olur ki, kənd rayonlarının bir çox fənlər üzrə göstəriciləri Bakı və Sumqayıt şəhərlərinin göstəricilərini qabaqlayır. Belə rayonlara misal olaraq Qəbələ, İsmayıllı, Neftçala, Qax, Şəki və Oğuz rayonlarını göstərmək olar. Bunun obyektiv səbəblərindən biri kimi qəbul imtahanlarında bu şəhərlərin məzunlarının daha çox hissəsinin, rayonların isə yalnız hazırlıqlı məzunlarının iştirak etməsini göstərmək olar. Məsələn, bu il Bakı şəhəri üzrə məzunların 86.15%-i, Sumqayıt şəhəri üzrə 91.01%-i qəbul imtahanlarında iştirak etmişdir. Yüksək göstəricili rayonlar üzrə isə məzunların ən yaxşı halda 62–79%-i ali təhsil müəssisələrinə sənəd vermişdir.

Aşağıdakı cədvəllərdən göründüyü kimi, Azərbaycan bölməsində ana dili, ədəbiyyat və biologiya fənləri üzrə Mingəçevir şəhərinin, coğrafiya fənni üzrə Sumqayıt şəhərinin, riyaziyyat fənni üzrə Qax rayonunun, fizika fənni üzrə İmişli rayonunun, kimya fənni üzrə Naxçıvan şəhəri, tarix fənni üzrə Neftçala rayonunun abituriyentləri üstünlük əldə etmişdir.

Rus bölməsi abituriyentlərinin böyük əksəriyyətini Bakı, Sumqayıt və Gəncə şəhərlərinin məzunları təşkil etdiyindən yüksək göstəricilər də bu şəhərlər arasında paylanıb (bax: səh. 136, cədvəl 1.41).

Müəyyən bölgələrin ayrı-ayrı fənlər üzrə qəbul imtahanlarındakı yüksək göstəriciləri artıq ənənə halını almışdır. Məsələn, Azərbaycan bölməsi üzrə ana dili fənnindən Qəbələ rayonu, riyaziyyat fənnindən Sumqayıt şəhəri və Qax rayonu, kimyadan Şəki və Neftçala rayonları, fizikadan Qax və Şəki rayonları, biologiyadan Şəki rayonu, tarixdən Sumqayıt şəhəri, coğrafiyadan Qəbələ rayonu bütün illərdə ən yüksək göstəricili bölgələr sırasındadır. Şübhəsiz, bu göstəricilər müvafiq şəhər və rayonların təhsil orqanları və müəssisələrinin səmərəli fəaliyyətinin nəticəsidir. Onların iş təcrübəsini respublika miqyasında yaymaq müvafiq elmi-metodik mərkəzlərin və mütəxəssislərin ümdə vəzifələrindən biri olmalıdır. Bundan bütövlükdə respublikanın təhsil sistemi qazanar.

Ayrı-ayrı fənlər üzrə ən yüksək nəticə göstərən təhsil şöbələri və liseylərin siyahısı 1.32-1.39 saylı cədvəllərdə təqdim edilir. Statistik rəqəmlərin etibarlı olması və reallığı dürüst əks etdirməsi məqsədilə cədvəllərdə abituriyentlərinin sayı 100-dən az olmayan rayonlar verilib. Biologiya fənlni üzrə imtahan verən abituriyentlərin sayının nisbətən az olmasını nəzərə alaraq, müvafiq cədvələ abituriyentlərinin sayı 50-dən az olmayan rayonlar daxil edilib.

ABİTURİYENTLƏRİ II MƏRHƏLƏDƏ İMTAHAN FƏNLƏRİ ÜZRƏ YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ TƏHSİL ŞÖBƏLƏRİ VƏ LİSEYLƏR (2019-CU İL MƏZUNLARI)

Azərbaycan bölməsi

Fənn: **Ana dili** Cədvəl 1.32

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (TN tabeli və özəl)	277	70.50	23.48	6.03
Mingəçevir şəhəri	182	67.75	26.71	5.54
Sumqayıt şəhəri	599	64.56	28.99	6.45
Qəbələ rayonu	164	63.23	29.40	7.37
Qubadlı rayonu	132	63.22	29.59	7.19
Salyan rayonu	129	60.79	30.21	9.00
Şirvan şəhəri	140	59.89	33.10	7.01
Bakı şəhəri	4353	59.47	31.46	9.08
Tovuz rayonu	216	59.18	33.22	7.60
Samux rayonu	103	59.05	33.45	7.50

Fənn: **Ədəbiyyat** Cədvəl 1.33

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (TN tabeli və özəl)	277	65.75	23.47	10.79
Mingəçevir şəhəri	182	65.15	25.84	9.01
Sumqayıt şəhəri	599	61.21	26.78	12.01
Qubadlı rayonu	132	61.18	26.31	12.51
Qəbələ rayonu	164	60.66	28.82	10.51
Şirvan şəhəri	140	59.87	28.59	11.54
Oğuz rayonu	108	57.63	33.22	9.15
Bakı şəhəri	4353	56.93	28.39	14.67
Salyan rayonu	129	56.87	28.64	14.49
Tovuz rayonu	216	56.66	29.98	13.36

Fənn: **Riyaziyyat** Cədvəl 1.34

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (TN tabeli və özəl)	832	60.37	20.94	18.69
Qax rayonu	200	43.65	28.08	28.27
Sumqayıt şəhəri	1613	42.53	28.36	29.11
Ordubad rayonu	112	41.29	32.06	26.65
İsmayıllı rayonu	310	40.71	32.49	26.79
Lerik rayonu	146	38.71	32.54	28.75
Naxçıvan şəhəri	352	38.65	28.85	32.50
Qubadlı rayonu	241	37.91	30.03	32.06
Bakı şəhəri	9020	37.44	28.79	33.76
Gədəbəy rayonu	219	37.12	34.30	28.57

Fənn: **Fizika** Cədvəl 1.35

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (TN tabeli və özəl)	637	56.61	27.14	16.25
İmişli rayonu	176	40.24	36.42	23.35
İsmayıllı rayonu	275	38.18	37.62	24.20
Qax rayonu	190	38.09	34.75	27.16
Sumqayıt şəhəri	1284	37.49	34.94	27.57
Siyəzən rayonu	185	36.97	35.07	27.96
Neftçala rayonu	189	36.81	34.87	28.31
Naxçıvan şəhəri	195	36.80	36.39	26.81
Bərdə rayonu	293	36.64	34.00	29.36
Şəki rayonu	595	36.53	39.13	24.34

Fənn: **Kimya** Cədvəl 1.36

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (TN tabeli və özəl)	637	62.85	19.74	17.41
Naxçıvan şəhəri	195	44.44	27.99	27.57
Sumqayıt şəhəri	1284	42.98	28.21	28.80
Neftçala rayonu	189	42.36	28.97	28.67
Masallı rayonu	364	40.73	32.40	26.87
Şəki rayonu	595	40.55	31.88	27.57
İmişli rayonu	176	40.41	30.25	29.34
İsmayıllı rayonu	275	40.41	30.63	28.96
Bərdə rayonu	293	40.09	27.88	32.03
Quba rayonu	367	39.28	29.53	31.19

Fənn: **Biologiya** Cədvəl 1.37

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (TN tabeli və özəl)	163	71.57	23.05	5.37
Mingəçevir şəhəri	54	67.73	25.36	6.90
Sumqayıt şəhəri	130	66.74	26.83	6.43
Qəbələ rayonu	61	65.28	28.32	6.41
Bakı şəhəri	701	60.55	30.50	8.94
Şirvan şəhəri	56	60.34	30.19	9.47
Bərdə rayonu	78	60.22	28.28	11.50
Şəki rayonu	100	59.79	32.42	7.79
Naxçıvan şəhəri	52	58.68	32.11	9.21
Abşeron rayonu	123	58.24	33.68	8.08

Fənn: **Tarix** Cədvəl 1.38

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (TN tabeli və özəl)	635	56.61	25.36	18.03
Neftçala rayonu	122	54.05	30.33	15.62
Sumqayıt şəhəri	1058	53.65	28.26	18.09
Ağstafa rayonu	166	53.23	29.26	17.51
Şirvan şəhəri	237	52.56	30.60	16.84
Mingəçevir şəhəri	279	52.51	29.29	18.19
Qubadlı rayonu	224	51.52	28.88	19.60
Qəbələ rayonu	333	50.80	31.60	17.60
Oğuz rayonu	156	50.78	33.76	15.46
Kürdəmir rayonu	184	49.79	30.35	19.86

Fənn: **Coğrafiya** Cədvəl 1.39

TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Abit-in sayı	Cavablar (ümumi saya nisbətən, %-lə)		
		Düzgün	Yanlış	İmtina
Liseylər (TN tabeli və özəl)	358	61.56	25.94	12.50
Sumqayıt şəhəri	459	58.78	27.95	13.26
Qəbələ rayonu	169	57.97	31.04	10.99
Bakı şəhəri	3070	52.90	29.94	17.16
Zaqatala rayonu	104	51.60	34.00	14.39
Şəki rayonu	128	50.14	35.37	14.49
Masallı rayonu	164	49.37	34.89	15.74
Şərur rayonu	113	48.43	35.02	16.55
Laçın rayonu	177	48.31	33.03	18.66
Naxçıvan şəhəri	209	48.31	32.42	19.27

İmtahan fənləri üzrə bütövlükdə müqayisə apardıqda,
bu il (TN tabeli liseylərə və özəl liseylər istisna olmaqla) Azərbaycan bölməsində Sumqayıt şəhəri, rus bölməsində isə Abşeron rayonu ən yüksək nəticə göstərib

Hər bir imtahan fənni üzrə yüksək nəticə göstərən təhsil şöbələri və liseylər barədə yuxarıdakı cədvəllərdə məlumat verilib. İndi isə imtahan fənləri üzrə bütövlükdə yüksək nəticə nümayiş etdirmiş bölgələrin göstəricilərinə nəzər yetirək. Bu göstəricilər bölmələr üzrə 1.40 və 1.41 saylı cədvəllərdə təqdim edilib. Cədvəllərdən göründüyü kimi, bu il ən yüksək nəticəni Azərbaycan bölməsində Sumqayıt şəhəri, rus bölməsində isə Abşeron rayonunun abituriyentləri əldə edib. Adları aşağıdakı cədvəllərə daxil olan şəhər və rayonların çoxunun məktəb məzunları qəbul imtahanlarında stabil olaraq yüksək nəticələr göstərirlər. Əlbəttə, bunda həmin şəhər və rayonlarda dərs deyən müəllimlərin, şəhər və rayon rəhbərliyinin və təhsil şöbəsi işçilərinin mühüm rolu vardır. Ümumiyyətlə, gənclərimizdə oxumaq, öyrənmək həvəsi və potensialı olduqca yüksəkdir. Bunun reallaşdırılması isə birinci növbədə təhsil işçilərindən asılıdır. Burada təhsil işinin düzgün qurulması, müəllimlərin işə vicdanlı münasibəti, günün tələblərinə uyğun dərslik və dərs vəsaitlərinin hazırlanması və vaxtlı-vaxtında şagirdlərə çatdırılması mühüm amillərdir.

Cədvəl 1.40

TƏHSİL ŞÖBƏLƏRİ VƏ LİSEYLƏRİN II MƏRHƏLƏDƏ İMTAHAN FƏNLƏRİ ÜZRƏ BÜTÖVLÜKDƏ GÖSTƏRİCİLƏRİ

(2019-cu il məzunları, ilk 15 yüksək göstəricili təhsil şöbələri)

Azərbaycan bölməsi

№	TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Fənlər üzrə göstəricilər, %-lə								Göstəricilər vektorunun norması
		Ana d.	Ədəb.	Riyaz.	Fizika	Kimya	Biol.	Tarix	Coğr.	
1	Liseylər (TN tabeli və özəl)	70.50	65.75	60.37	56.61	62.85	71.57	56.61	61.56	314.9630
2	Sumqayıt şəhəri	64.56	61.21	42.53	37.49	42.98	66.74	53.65	58.78	253.0621
3	Neftçala rayonu	62.63	59.47	36.24	36.81	42.36	51.99	54.05	60.61	246.2557
4	Şahbuz rayonu	57.40	55.08	42.23	35.61	40.26	--	52.71	64.12	245.0222
5	Qax rayonu	60.37	59.18	43.65	38.09	39.25	58.36	47.62	56.67	242.8341
6	Qəbələ rayonu	63.23	60.66	37.09	33.68	36.11	65.28	50.80	57.97	236.3984
7	Qubadlı rayonu	63.22	61.18	37.91	33.26	37.84	59.82	51.52	54.41	236.3026
8	Oğuz rayonu	58.59	57.63	37.05	34.16	38.35	46.46	50.78	60.29	235.6057
9	Kəngərli rayonu	52.69	48.78	34.46	40.56	44.41	--	51.34	57.81	235.3536
10	Ordubad rayonu	54.94	52.96	41.29	39.34	47.74	63.33	39.69	52.66	234.7432
11	Siyəzən rayonu	59.27	51.70	36.44	36.97	38.67	64.94	52.14	58.01	234.4478
12	İsmayıllı rayonu	55.57	54.78	40.71	38.18	40.41	57.95	46.51	52.87	232.7213
13	Mingəçevir şəhəri	67.75	65.15	31.33	34.17	37.04	67.73	52.51	45.05	231.7247
14	Naxçıvan şəhəri	57.61	54.24	38.65	36.80	44.44	58.68	43.08	48.31	228.3448
15	Bakı şəhəri	59.47	56.93	37.44	33.87	37.35	60.55	48.16	52.90	227.9066

Qeyd: Seçmədə hər fənn üzrə abituriyentlərinin sayı 20-dən az olmayan bölgələr iştirak edir.

Cədvəl 1.41

TƏHSİL ŞÖBƏLƏRİ VƏ LİSEYLƏRİN II MƏRHƏLƏDƏ İMTAHAN FƏNLƏRİ ÜZRƏ BÜTÖVLÜKDƏ GÖSTƏRİCİLƏRİ (2019-cu il məzunları)

Rus bölməsi

№	TƏHSİL ŞÖBƏSİ VƏ LİSEYLƏR	Fənlər üzrə göstəricilər, %-lə								Göstəricilər vektorunun norması
		Ana d.	Ədəb.	Riyaz.	Fizika	Kimya	Biol.	Tarix	Coğr.	
1	Liseylər (TN tabeli və özəl)	70.35	61.91	53.26	51.86	59.38	66.88	44.68	53.48	347.1538
2	Abşeron rayonu	64.05	57.92	35.75	35.01	33.97	44.24	41.14	45.32	265.4516
3	Bakı şəhəri	57.40	48.34	36.52	33.71	37.66	49.09	35.80	45.11	252.5931
4	Sumqayıt şəhəri	60.61	53.50	34.54	30.12	29.71	43.94	35.72	46.10	245.7203
5	Gəncə şəhəri	53.19	51.84	29.44	28.89	32.04	46.60	41.63	42.62	237.8413
6	Qusar rayonu	51.95	46.75	29.47	29.18	36.36	48.48	29.03	31.57	218.0030
7	Xaçmaz rayonu	51.59	40.19	25.94	24.46	25.76	---	33.71	26.36	193.5688
8	Şirvan şəhəri	38.99	31.72	15.95	24.85	23.64	---	28.51	29.04	165.4449

Qeyd: Seçmədə hər fənn üzrə abituriyentlərinin sayı 10-dan az olmayan bölgələr iştirak edir.

500-dən yuxarı bal toplayanlar imtahan verənlərin 11.08 faizini təşkil edir.

Yüksək ballılar arasında respublikanın əksər bölgələrinin təmsilçiləri vardır.

Bu il ali təhsil müəssisələrinə qəbul imtahanlarında 7379 abituriyent 500-dən, o cümlədən 1935 abituriyent 600-dən yuxarı bal toplamışdır. 600 və ondan yuxarı bal toplayanların ixtisas qrupları üzrə paylanmasına gəlincə, qeyd etmək lazımdır ki, onların 28.54%-i (554 nəfəri) I qrupun, 20.81%-i (404 nəfəri) II qrupun, 31.17%-i (605 nəfəri) III qrupun, 19.47%-i (378 nəfəri) IV qrupun abituriyentləridir.

Yüksək ballılar respublikanın 73 bölgəsini təmsil edir (cədvəl 1.42). Onların nisbi sayına görə Sumqayıt, Mingəçevir və Bakı şəhərləri, Qax və Şahbuz rayonlarının göstəriciləri daha yüksək olub. Bu bölgələrdən ali təhsil müəssisələrinə sənəd verən hər 100 nəfər gəncin 14–18-i imtahanlarda 500-dən yuxarı bal toplayıb.

500-700 arasında bal toplayan abituriyentlərin əksəriyyəti ən nüfuzlu ixtisaslara qəbul olub. Onlardan ən yüksək nəticə göstərən 102 nəfər Prezident təqaüdünə layiq görülüb.

Cədvəl 1.42

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARINDA YÜKSƏK NƏTİCƏ GÖSTƏRMİŞ ABİTURİYENTLƏRİN BÖLGƏLƏR ÜZRƏ SAYI

№	BÖLGƏ	Bölgə üzrə abituriyentlərin ümumi sayı	500-700 intervalında bal toplayanların sayı	600-700 intervalında bal toplayanların sayı	500-dən yuxarı bal toplayanların faizi (bölgə üzrə abituriyentlərin ümumi sayına nəzərən)
1	Bakı şəhəri	21083	2959	885	14.04
2	Sumqayıt şəhəri	2793	501	149	17.94
3	Gəncə şəhəri	2311	249	78	10.77
4	Abşeron rayonu	2187	236	61	10.79
Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında ayrılmış yerlərə və ödənişli təhsil forması üzrə qəbul olanların fənlər üzrə cavablarının ortastatistik göstəriciləri arasında ən böyük fərq hər iki bölmədə həm I, həm II mərhələ üzrə II ixtisas qrupunda müşahidə olunur. Bu ixtisas qrupunda ödənişli təhsil forması üzrə qəbul olanların cavablarının göstəriciləri dövlət sifarişi əsasında qəbul olanların cavablarından Azərbaycan bölməsində I mərhələ üzrə 1.35-1.78, II mərhələ üzrə 1.52-1.86, rus bölməsində isə I mərhələ üzrə 1.32-1.84, II mərhələ üzrə 1.59-1.89 dəfə aşağıdır.

Ali təhsil müəssisələrinə dövlət sifarişi əsasında ayrılmış yerlərə və ödənişli təhsil forması üzrə ayrılmış yerlərə qəbul olan abituriyentlərin ayrılıqda ortastatistik bal göstəricilərinin (bax: cədvəl 1.2.9) müqayisəsi də biliklər arasında ən böyük fərqin hər iki bölmə üzrə II qrupda olduğunu təsdiq edir.

Ümumilikdə götürdükdə, dövlət sifarişi əsasında ayrılmış yerlərə qəbul olan ortastatistik abituriyentin* bal göstəricisi ödənişli təhsil forması üzrə ali təhsil müəssisəsinə qəbul olan ortastatistik abituriyentin bal göstəricisindən 1.34-1.38 dəfə yüksəkdir.

* Burada ortastatistik abituriyent – ixtisas qrupu daxilində təhsil formasından (dövlət sifarişi əsasında yaxud ödənişli) asılı olaraq müəyyən seçməyə daxil olan abituriyentlərin ümumiləşdirilmiş obrazıdır. Ortastatistik abituriyentin imtahan fənni

Cədvəl 1.2.5

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

AZƏRBAYCAN BÖLMƏSİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	67.90	66.52	55.26			56.13	52.50	59.67			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	74.75	69.90	66.29			67.39				65.97	76.17
III	Humanitar, pedaqogika ixtisasları	79.37	51.40	66.38	82.95	78.64					73.47	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	76.55	69.18	62.35				58.87	66.52	70.21		

Cədvəl 1.2.6

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ ÖDƏNİŞLİ TƏHSİL FORMASI ÜZRƏ AYRILAN YERLƏRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

AZƏRBAYCAN BÖLMƏSİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	55.99	47.71	39.98			38.14	34.77	40.65			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	55.52	39.30	40.27			36.28				42.03	50.18
III	Humanitar, pedaqogika ixtisasları	66.96	33.46	47.87	66.01	63.71					57.06	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	65.76	48.68	43.58				37.02	42.05	53.23		

üzrə topladığı bal dedikdə, onun təmsil etdiyi seçməyə daxil olan abituriyentlərin həmin fəndən topladıqları nisbi balların orta qiyməti nəzərdə tutulur. Abituriyentin ümumi balı hesablanarkən onun hər bir fənn üzrə topladığı nisbi balı fənlərin müvafiq çəki əmsallarına vurulmaqla cəmlənir.

Cədvəl 1.2.7

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

RUS BÖLMƏSİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	57.22	59.67	70.36			51.88	46.77	53.94			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	68.34	68.06	83.70			65.60				60.15	73.55
III	Humanitar, pedaqogika ixtisasları	69.95	45.97	79.52	80.83	74.51					65.62	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	65.83	56.96	70.53				48.81	53.90	56.82		

Cədvəl 1.2.8

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ ÖDƏNİŞLİ TƏHSİL FORMASI ÜZRƏ AYRILAN YERLƏRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİNİN TEST TAPŞIRIQLARINA DÜZGÜN CAVABLARININ ORTASTATİSTİK GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

RUS BÖLMƏSİ

№	İXTİSAS QRUPU	FƏNLƏR ÜZRƏ DÜZGÜN CAVABLARIN FAİZİ										
		I mərhələ			II mərhələ							
		Ana dili	Riya-ziyyat	İngilis dili	Ana dili	Ədə-biyyat	Riya-ziyyat	Fizika	Kimya	Bio-logiya	Tarix	Coğ-rafiya
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	49.53	43.69	59.19			35.97	31.51	37.30			
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	51.64	36.96	59.88			34.72				34.40	46.29
III	Humanitar, pedaqogika ixtisasları	57.65	28.80	62.52	62.14	54.46					43.81	
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	57.90	45.59	60.73				33.33	39.12	47.90		

Cədvəl 1.2.9

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ DÖVLƏT SİFARİŞİ ƏSASINDA AYRILAN YERLƏRƏ VƏ ÖDƏNİŞLİ TƏHSİL FORMASI ÜZRƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN ORTASTATİSTİK BAL GÖSTƏRİCİLƏRİ

(xüsusi qabiliyyət tələb edən ixtisaslar istisna olmaqla)

№	İXTİSAS QRUPU	AZƏRBAYCAN BÖLMƏSİ			RUS BÖLMƏSİ		
		Ortastatistik abituriyentin topladığı ballar		Ballar nisbəti	Ortastatistik abituriyentin topladığı ballar		Ballar nisbəti
		dövlət sifarişi əsasında qəbul olan	ödənişli əsaslarla qəbul olan		dövlət sifarişi əsasında qəbul olan	ödənişli əsaslarla qəbul olan	
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	398.44	276.34	1.44	374.79	274.34	1.37
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	483.54	291.30	1.66	480.31	289.35	1.66
III	Humanitar, pedaqogika ixtisasları	501.82	382.28	1.31	479.56	347.24	1.38
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	464.06	321.23	1.44	394.55	309.36	1.28
Bütövlükdə		**447.94**	**324.14**	**1.38**	**413.40**	**308.77**	**1.34**

1.3. Dövlət və özəl ali təhsil müəssisələrinə tələbə qəbulunun müqayisəli təhlili

Qanunvericiliyə uyğun fəaliyyət göstərən özəl ali təhsil müəssisələrinə tələbə qəbulunun təşkili və keçirilməsi 1995-ci ildən Tələbə Qəbulu üzrə Dövlət Komissiyasına (indiki Dövlət İmtahan Mərkəzinə) həvalə olunub. Bununla əlaqədar Mərkəz hər il, bir qayda olaraq, özəl ali təhsil müəssisələrinin nümayəndələrinin iştirakı ilə keçirilən müşavirələrdə bütövlükdə ali təhsil müəssisələrinə əvvəlki illərdə aparılmış tələbə qəbulunun müxtəlif parametrlər üzrə nəticələri, o cümlədən özəl ali təhsil müəssisələrinə qəbulun nəticələri barədə ətraflı məlumat verir, tövsiyələrini bildirir.

Özəl ali təhsil müəssisələrinə tələbə qəbulu, əvvəlki illərdə olduğu kimi, bu il də dövlət ali təhsil müəssisələrinə qəbulla birgə elan olunmuşdu. Abituriyentlərə ərizələrində dövlət ali təhsil müəssisələrinin ixtisasları ilə yanaşı, özəl təhsil müəssisələrinin də ixtisaslarını qeyd etmək imkanı verilmişdi. Həmin ixtisaslara müsabiqənin aparılması şərtləri dövlət ali təhsil müəssisələrinin müvafiq ixtisasları ilə eyni olmuşdur. 2010-cu ildən ali təhsil müəssisələrində tətbiq olunan yeni qaydalara əsasən, özəl ali təhsil müəssisələrinə dövlət sifarişi ilə mütəxəssis hazırlığında iştirak etmək imkanı yaradılmışdır.

Bu təhsil müəssisələrinə cari ildə 7512 plan yeri ayrılmışdı. Özəl ali təhsil müəssisələrinin qəbul planı ötən illə müqayisədə bu il 11.62% (782 yer) artmışdır. Ayrılmış plan yerlərinin 56.94%-i Azərbaycan, 0.53%-i rus, 42.53%-i isə hər iki bölmə abituriyentlərinin birgə müsabiqəsi üçün nəzərdə tutulmuşdu. Qruplar üzrə götürdükdə planın 12.65%-i birinci, 50.05%-i ikinci, 29.51%-i üçüncü, 6.12%-i dördüncü, 1.66%-i isə beşinci ixtisas qrupuna aid olub. Ötən illərdə olduğu kimi, bu il də qəbul planının əsas hissəsi (79.57%-i) II və III qrup ixtisasları üçün nəzərdə tutulmuşdu. Özəl ali təhsil müəssisələrinin I ixtisas qrupu üzrə qəbul planı dövlət ali təhsil müəssisələrinin müvafiq qrup üzrə qəbul planının 6.67, IV qrup üzrə 14.17, V qrup üzrə 3.70%-nə bərabər olduğu halda, II qrup üzrə 36.36, III qrup üzrə 24.52%-nə bərabər olub. Bütün qruplar üzrə ümumilikdə götürdükdə isə özəl ali təhsil müəssisələrinin qəbul planı dövlət ali təhsil müəssisələrinin qəbul planının 18.66%-i qədər olmuşdur.

Özəl ali təhsil müəssisələrinə sənədlərin qəbulu dövlət ali təhsil müəssisələri ilə birgə və eyni qaydalar əsasında aparılmışdır. DİM sənəd qəbulu mərhələsində bu təhsil müəssisələri rəhbərlərinin peşəyönümü işi aparmaqla bağlı müraciətlərini nəzərə alaraq, onların dövlət qeydiyyatından keçmiş ixtisasları barədə "Abituriyent" jurnalında geniş məlumatların verilməsini təmin etmişdir.

Sənəd qəbulunun nəticələrinin təhlili göstərir ki, müsabiqədə iştirak edən abituriyentlərin 34.51%-i (15941 nəfər), subbakalavrların isə 50.74%-i (6151 nəfər) öz ərizələrində özəl təhsil müəssisələrinin ixtisaslarını da qeyd etmişdir. Azərbaycan bölməsində özəl təhsil müəssisələrinin ixtisaslarını abituriyentlərin 34.53%-i (14668 nəfər), subbakalavrların 50.00%-i (5833 nəfər), rus bölməsində isə abituriyentlərin 34.27%-i (1273 nəfər), subbakalavrların 69.55%-i (322 nəfər) seçmişdir. Abituriyentlərin 873 nəfəri, subbakalavrların isə 55 nəfəri öz ərizələrində yalnız özəl ali təhsil müəssisələrinin ixtisaslarını qeyd etmişdir.

İxtisas qrupları üzrə dövlət və özəl ali təhsil müəssisələrinin qəbul planı, həmin ali təhsil müəssisələrinin ixtisaslarını seçmiş abituriyentlərin sayı və müsabiqə vəziyyəti haqqında məlumat 1.3.1 – 1.3.3 saylı cədvəllərdə təqdim olunur. Cədvəllərdən göründüyü kimi, ixtisas qrupları üzrə özəl ali təhsil müəssisələrinə ərizələrin sayı plan yerlərinin sayından çox olsa da, III ixtisas qrupu istisna olmaqla digər bütün ixtisas qruplarının hər birində müsabiqə şəraitinin yaranma ehtimalı yoxdur. Çünki abituriyentlər bu təhsil müəssisələrinin ixtisaslarını ərizələrində axırıncı yerlərdə göstərmişlər. Xatırladaq ki, ehtimal olunan müsabiqənin hesablanması qaydasında abituriyentin seçdiyi ixtisasları öz ərizəsində hansı yerdə qeyd etməsi amili nəzərə alınır. Əgər subbakalavrları da nəzərə alsaq, yalnız I və III ixtisas qruplarında müsabiqə şəraitinin olduğunu görərik.

Özəl ali təhsil müəssisələrində yalnız III ixtisas qrupu üzrə müsabiqə şəraiti mövcud olduğu halda, dövlət ali təhsil müəssisələrində, I və II ixtisas qrupları istisna olmaqla, digər bütün ixtisas qruplarında müsabiqə şəraiti mövcud olmuşdur. Əgər subbakalavrları da nəzərə olsaq, o zaman özəl ali təhsil müəssisələrində I və III ixtisas qrupları üzrə, dövlət ali təhsil müəssisələrində isə bütün ixtisas qrupları üzrə müsabiqə şəraitinin mövcud olduğunu görərik.

Dövlət ali təhsil müəssisələrində ən zəif müsabiqə (0.886) II, ən yüksək müsabiqə (1.580) isə III ixtisas qrupunda olub. Subbakalavrları da nəzərə alsaq, dövlət ali təhsil müəssisələrində ən zəif müsabiqə (1.161) I, ən yüksək müsabiqə (1.861) isə III ixtisas qrupunda olub.

Cədvəl 1.3.1

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI

№	İXTİSAS QRUPU	Dövlət ali təhsil müəssisələri				Özəl ali təhsil müəssisələri			
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	10610	1122	2509	14241	465	0	485	950
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	7810	970	1560	10340	2230	30	1500	3760
III	Humanitar, pedaqogika ixtisasları	7453	995	595	9043	1392	10	815	2217
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	2744	304	199	3247	150	0	310	460
V	İncəsənət, musiqi, idman ixtisasları	1131	118	2133	3382	40	0	85	125
CƏMİ		**29748**	**3509**	**6996**	**40253**	**4277**	**40**	**3195**	**7512**

Cədvəl 1.3.2

MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN ƏRİZƏLƏRİNİN SAYI

№	İXTİSAS QRUPU	Dövlət ali təhsil müəssisələri			Özəl ali təhsil müəssisələri		
		Azərb. bölməsi	Rus bölməsi	Bütövlükdə	Azərb. bölməsi	Rus bölməsi	Bütövlükdə
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	11961	1103	13064	2923	308	3231
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	8581	859	9440	3076	360	3436
III	Humanitar, pedaqogika ixtisasları	14040	1027	15067	7225	391	7616
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	3137	222	3359	1085	101	1186
V	İncəsənət, musiqi, idman ixtisasları	4429	539	4968	385	118	503
CƏMİ		**41643**	**3680**	**45323**	**14668**	**1273**	**15941**

Cədvəl 1.3.3

ƏRİZƏ QƏBULU MƏRHƏLƏSİNDƏ İXTİSAS QRUPLARI ÜZRƏ MÜSABİQƏ VƏZİYYƏTİ
(subbakalavrlar istisna olmaqla)

№	İXTİSAS QRUPU	Dövlət ali təhsil müəssisələri				Özəl ali təhsil müəssisələri			
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə
I	Riyaziyyat, fizika, mühəndislik, memarlıq, dizayn, aqrar ixtisasları	0.977	0.777	1.364	0.893	1.175	---	0.983	0.900
II	İqtisadiyyat, idarəetmə, beynəlxalq münasibətlər, regionşünaslıq, sosiologiya və coğrafiya ixtisasları	0.966	0.696	1.341	0.886	0.296	0.716	0.390	0.274
III	Humanitar, pedaqogika ixtisasları	1.723	0.954	3.052	1.580	1.528	0.496	1.497	1.202
IV	Tibb, kimya, biologiya, psixologiya, aqrar ixtisasları	1.081	0.667	1.871	1.007	0.667	---	0.882	0.666
V	İncəsənət, musiqi, idman ixtisasları	1.657	1.292	1.723	1.412	0.382	---	0.844	0.696
CƏMİ		**1.194**	**0.811**	**1.621**	**1.095**	**0.806**	**0.661**	**0.822**	**0.658**

İmtahanların nəticələrinə əsasən, özəl ali təhsil müəssisələrinin plan yerlərinin dolma göstəricisi 79.50% olub. Ayrı-ayrı ixtisas qruplarında plan yerlərinin dolma faizləri fərqlidir. Bu göstəricilər I qrupda 80.74, II qrupda 68.40, III qrupda 98.42, IV qrupda 71.96, V qrupda isə 96.00%-ə bərabərdir. Qeyd etmək lazımdır ki, ixtisas seçimində iştirak edən abituriyentlərin bir hissəsi (I qrupda 44 nəfər, II qrupda 5 nəfər, III qrupda 5 nəfər, IV qrupda 13 nəfər) özəl ali təhsil müəssisələri ilə müqayisədə dövlət orta ixtisas təhsili müəssisələrinə üstünlük verib. Abituriyentlərin belə gözlənilməz seçim etmələrinin bir çox səbəbləri vardır. Bunların sırasında təhsil haqqını, diplomun əmək bazarındakı dəyərini, ali təhsil müəssisəsində təhsilin səviyyəsini və s. göstərmək mümkündür.

Özəl ali təhsil müəssisələrindən fərqli olaraq dövlət ali təhsil müəssisələrinin plan yerlərinin dolma faizi ümumilikdə 88.74% olub. Ən yüksək göstərici III ixtisas qrupunda (97.56%), ən aşağı göstərici isə I ixtisas qrupunda (81.17%) qeydə alınıb.

Özəl və dövlət ali təhsil müəssisələrinə qruplar və bölmələr üzrə qəbulolma göstəriciləri 1.3.4 və 1.3.5 saylı cədvəllərdə təqdim edilib.

Cədvəl 1.3.4

ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	950	607 (125)	68 (5)	675 (130)	71.05
II	3760	1128 (103)	103 (11)	1231 (114)	32.74
III	2217	2152 (219)	29 (5)	2181 (224)	98.38
IV	460	299 (57)	6 (2)	305 (59)	66.30
V	125	92 (1)	27 (0)	119 (1)	95.20
CƏMİ	**7512**	**4278 (505)**	**233 (23)**	**4511 (528)**	**60.05**
	Subbakalavrlar				
I	950	92 (40)	0 (0)	92 (40)	9.68
II	3760	1265 (32)	76 (0)	1341 (32)	35.66
III	2217	1 (0)	0 (0)	1 (0)	0.05
IV	460	26 (7)	0 (0)	26 (7)	5.65
V	125	1 (0)	0 (0)	1 (0)	0.80
CƏMİ	**7512**	**1385 (79)**	**76 (0)**	**1461 (79)**	**19.45**

Cədvəl 1.3.4 (ardı)

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Bütövlükdə				
I	950	699 (165)	68 (5)	767 (170)	80.74
II	3760	2393 (135)	179 (11)	2572 (146)	68.40
III	2217	2153 (219)	29 (5)	2182 (224)	98.42
IV	460	325 (64)	6 (2)	331 (66)	71.96
V	125	93 (1)	27 (0)	120 (1)	96.00
CƏMİ	**7512**	**5663 (584)**	**309 (23)**	**5972 (607)**	**79.50**

Cədvəl 1.3.5

DÖVLƏT ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT

İxtisas qrupu	Qəbul planı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)			Qəbulolma Faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
	Abituriyentlər				
I	14241	9718 (6414)	934 (578)	10652 (6992)	74.80
II	10340	7622 (2660)	756 (185)	8378 (2845)	81.03
III	9043	7952 (3330)	844 (147)	8796 (3477)	97.27
IV	3247	2654 (1822)	194 (82)	2848 (1904)	87.71
V	3382	2616 (1201)	377 (194)	2993 (1395)	88.50
CƏMİ	**40253**	**30562 (15427)**	**3105 (1186)**	**33667 (16613)**	**83.64**
	Subbakalavrlar				
I	14241	842 (345)	65 (32)	907 (377)	6.37
II	10340	912 (68)	54 (1)	966 (69)	9.34
III	9043	2 (0)	24 (0)	26 (0)	0.29
IV	3247	38 (27)	31 (18)	69 (45)	2.13
V	3382	85 (10)	1 (1)	86 (11)	2.54
CƏMİ	**40253**	**1879 (450)**	**175 (52)**	**2054 (502)**	**5.10**
	Bütövlükdə				
I	14241	10560 (6759)	999 (610)	11559 (7369)	81.17
II	10340	8534 (2728)	810 (186)	9344 (2914)	90.37
III	9043	7954 (3330)	868 (147)	8822 (3477)	97.56
IV	3247	2692 (1849)	225 (100)	2917 (1949)	89.84
V	3382	2701 (1211)	378 (195)	3079 (1406)	91.04
CƏMİ	**40253**	**32441 (15877)**	**3280 (1238)**	**35721 (17115)**	**88.74**

1.3.1 və 1.3.2 saylı şəkillərdə I–IV ixtisas qrupları üzrə özəl və dövlət ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin topladıqları balların paylanma diaqramları təsvir olunub. Göründüyü kimi, dövlət ali təhsil müəssisələrinə qəbul olanların 21.46%-nin, özəl ali təhsil müəssisələrinə qəbul olanların isə cəmi 3.15%-nin balı 500-700 intervalında yerləşir. Dövlət ali təhsil müəssisələrinə qəbul olanların əksəriyyətinin imtahan nəticələri orta (300-500) bal diapazonunda yerləşdiyi halda, özəl ali təhsil müəssisələrinə qəbul olanların nəticələri, əsasən, aşağı (200-300) bal diapazonunda yerləşir.

Eyni mənzərəni V ixtisas qrupu üzrə qəbul olan abituriyentlər arasında da görürük. Belə ki, V ixtisas qrupu üzrə dövlət ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin 13.29% ən azı 150 bal topladığı halda, belələri özəl ali təhsil müəssisələrinə qəbul olanlar arasında 0.94%-dir (1.3.3 və 1.3.4 saylı şəkillərə bax). Özəl və dövlət ali təhsil müəssisələrinə qəbul olan abituriyentlərin imtahan göstəriciləri arasındakı belə fərq qəbul aparılan bütün illər üçün xarakterikdir.

ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(I-IV ixtisas qrupları üzrə)



Şəkil 1.3.1

DÖVLƏT ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(I-IV ixtisas qrupları üzrə)



Şəkil 1.3.2

ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(V qrup üzrə)



Şəkil 1.3.3

DÖVLƏT ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI
(V qrup üzrə)



Şəkil 1.3.4

Abituriyentlərin imtahan fənlərinə cavablarının təhlili göstərir ki, özəl ali təhsil müəssisələrinə qəbul olanların göstəriciləri dövlət ali təhsil müəssisələrinə qəbul olanların göstəricilərindən aşağıdır. Belə nəticə göstərənlər sonradan birinci kursun tədris proqramını mənimsəməkdə çətinlik çəkirlər. Ona görə də özəl ali

təhsil müəssisələri birinci kurs tələbələri üçün genişləndirilmiş tədris proqramları hazırlamalı və həmin proqramları tədrisin intensivləşdirilməsi hesabına həyata keçirməlidirlər.

Dövlət və özəl ali təhsil müəssisələrinə qəbul olmuş abituriyentlərin bilikləri arasındakı fərqin əyani müqayisəsi üçün 1.3.5 və 1.3.6 saylı şəkillər təqdim edilir. Şəkildəki diaqramlardan göründüyü kimi, həm Azərbaycan bölməsində, həm də rus bölməsində bütün fənlər üzrə üstünlük dövlət ali təhsil müəssisələrinə qəbul olan gənclərin tərəfindədir.

DÖVLƏT VƏ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ ORTASTATİSTİK NƏTİCƏLƏRİ (XÜSUSİ QABİLİYYƏT TƏLƏB EDƏN İXTİSASLAR İSTİSNA OLMAQLA)

AZƏRBAYCAN BÖLMƏSİ



Şəkil 1.3.5

DÖVLƏT VƏ ÖZƏL ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN İMTAHAN FƏNLƏRİ ÜZRƏ ORTASTATİSTİK NƏTİCƏLƏRİ (XÜSUSİ QABİLİYYƏT TƏLƏB EDƏN İXTİSASLAR İSTİSNA OLMAQLA)

RUS BÖLMƏSİ



Şəkil 1.3.6

1.4 Xüsusi təyinatlı təhsil müəssisələrinə tələbə qəbulu

Dövlət İmtahan Mərkəzi 2019-cu il mayın 12-də və iyulun 23-də Polis Akademiyası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyası, Dövlət Sərhəd Xidmətinin Akademiyası, H.Əliyev adına Ali Hərbi Məktəbi və Fövqəladə Hallar Nazirliyinin Akademiyasına, mayın 19-da və iyulun 7-də Polis Akademiyası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyası, Dövlət Sərhəd Xidmətinin Akademiyası və Daxili Qoşunların Ali Hərbi Məktəbinə, iyulun 14-də Orta Hərbi Tibb Məktəbi, C.Naxçıvanski adına Hərbi lisey və H.Əliyev adına Hərbi liseyə test üsulu ilə qəbul imtahanı keçirib.

Azərbaycan Ali Hərbi Məktəbinə və hərbi liseylərə qəbul ixtisaslar üzrə deyil, ümumiləşmiş şəkildə, Orta Hərbi Tibb Məktəbinə qəbul "Feldşer" ixtisası, Polis Akademiyasına "Hüquqşünaslıq" və "İnformasiya təhlükəsizliyi", Daxili Qoşunların Ali Hərbi Məktəbinə "İctimai təhlükəsizlik və idarəetmə", Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasına "Hüquqşünaslıq" və "İnformasiya təhlükəsizliyi", Fövqəladə Hallar Nazirliyinin Akademiyasına "Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi" və "Yanğın təhlükəsizliyi mühəndisliyi", Dövlət Sərhəd Xidmətinin Akademiyasına isə I və II qrup ixtisasları üzrə aparılıb.

H.Əliyev adına Ali Hərbi Məktəb, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Polis Akademiyasının "İnformasiya təhlikəsizliyi" ixtisası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "İnformasiya təhlikəsizliyi" ixtisası və Dövlət Sərhəd Xidmətinin Akademiyasının I qrup ixtisaslarında təhsil almaq istəyən abituriyentlər mülki ali təhsil müəssisələrinin I qrupunun, Polis Akademiyasının "Hüquqşünaslıq" ixtisası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "Hüquqşünaslıq" ixtisası və Daxili Qoşunların Ali Hərbi Məktəbində təhsil almaq istəyənlər III qrupun, Dövlət Sərhəd Xidmətinin Akademiyasının II qrup ixtisaslarında təhsil almaq istəyənlər isə II qrupun abituriyentləri ilə birgə imtahan vermişlər.

Sənədlərin qəbulu xüsusi təyinatlı təhsil müəssisələrində aparılmış və abituriyentlər test imtahanından əvvəl həmin təhsil müəssisələrinin ixtisas-peşə tələblərinə uyğun xüsusi yoxlamalardan keçmişlər.

Xüsusi təyinatlı ali təhsil müəssisələrinə sənəd verən abituriyentlərin hamısı I mərhələdə ana dili, riyaziyyat və xarici dil fənlərindən imtahan vermişlər. II mərhələdə H.Əliyev adına Ali Hərbi Məktəb, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Polis Akademiyasının "İnformasiya təhlikəsizliyi" ixtisası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "İnformasiya təhlikəsizliyi" ixtisası və Dövlət Sərhəd Xidmətinin Akademiyasının I qrup ixtisaslarına sənəd verənlər riyaziyyat, fizika və kimya, Polis Akademiyasının "Hüquqşünaslıq" ixtisası, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyasının "Hüquqşünaslıq" ixtisası və Daxili Qoşunların Ali Hərbi Məktəbinə sənəd verənlər ana dili, tarix və ədəbiyyat, Dövlət Sərhəd Xidmətinin Akademiyasının II qrup ixtisaslarına sənəd verənlər riyaziyyat, coğrafiya və tarix fənlərindən imtahan vermişlər. Orta Hərbi Tibb Məktəbinə sənəd verənlər kimya, ana dili, hərbi liseylərə sənəd verənlər isə ana dili, riyaziyyat, fizika və kimya fənlərindən test imtahanı vermişlər. Xüsusi təyinatlı ali təhsil müəssisələrinə qəbul ola bilməyən abituriyentlərə, müsabiqə şərtlərini ödədikləri halda, imtahan verdikləri ixtisas qrupuna daxil olan mülki ali təhsil müəssisələrinin ixtisasları üzrə müsabiqədə iştirak etmək imkanı verilmişdir.

Azərbaycan Ali Hərbi Məktəbi, Orta Hərbi Tibb Məktəbi və hərbi liseylərdə təhsil almaq istəyən abituriyentlər üçün test tapşırıqları yalnız Azərbaycan dilində, Daxili Qoşunların Ali Hərbi Məktəbində, Polis Akademiyasında, Dövlət Təhlükəsizlik Xidmətinin, Fövqəladə Hallar Nazirliyinin və Dövlət Sərhəd Xidmətinin Akademiyalarında təhsil almaq istəyən abituriyentlər üçün isə Azərbaycan və rus dillərində təqdim olunmuşdur.

Xüsusi təyinatlı təhsil müəssisələrinə qəbul Dövlət İmtahan Mərkəzi tərəfindən təsdiq olunmuş ali təhsil müəssisələrinə, ümumi və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanı proqramları əsasında aparılmışdır.

İmtahan nəticələrinin statistik təhlili nəticəsində abituriyentlərin ortastatistik portreti müəyyənləşdirilib.

Polis Akademiyasının və Dövlət Təhlükəsizlik Xidməti Akademiyasının "Hüquqşünaslıq" ixtisaslarını və Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin ixtisasını seçən ortastatistik abituriyent ana dilindən test tapşırıqlarının 66.81/68.08, ədəbiyyatdan 64.61, riyaziyyatdan 44.62, tarixdən 65.76, ingilis dilindən isə 50.90%-ni düzgün cavablandırıb.

Azərbaycan Ali Hərbi Məktəbinin, Dövlət Sərhəd Xidməti Akademiyasının, Fövqəladə Hallar Nazirliyi Akademiyasının, Dövlət Təhlükəsizliyi Xidmətinin Akademiyasının və Polis Akademiyasının I qrup ixtisaslarını seçən ortastatistik abituriyentin düzgün cavablarının faizi ana dilindən 44.54, riyaziyyatdan 37.02/29.93, fizikadan 27.90, kimyadan 31.26, ingilis dilindən 28.80 olub.

Orta Hərbi Tibb Məktəbi abituriyentlərinin düzgün cavablarının faizi ana dilindən 45.89, kimyadan 46.79, hərbi liseylərin abituriyentlərinin düzgün cavablarının faizi isə ana dilindən 39.37, riyaziyyatdan 36.21, fizikadan 37.58, kimyadan 29.46 olub.

1.5 Bölgələr üzrə 2019-cu il məzunlarının qəbul imtahanlarındakı nəticələrinin təhlili*

Burada ölkəmizin ayrı-ayrı bölgələrini təmsil edən məzunların imtahan nəticələrinin məktəb və rayon (şəhər) səviyyəsində elmi-statistik təhlili verilir. Bu təhlillər əsasında onların imtahan fənləri üzrə nəticələri, müxtəlif ixtisas qruplarına meyl və maraqları, ali məktəblərə qəbulolma göstəriciləri, habelə yüksək və zəif göstəricili məktəblər müəyyənləşdirilmişdir. Bu, ilk növbədə hər bir təhsil şöbəsi və məktəbin öz nəticələri haqqında dolğun məlumat əldə etməsi məqsədinə xidmət edir.

Materiallarda hər bölgə üzrə məzunların buraxılış imtahanındakı göstəriciləri bölgənin tam seçməsi üzrə təqdim edilmişdir. Bölgənin məzunlarının qəbul imtahanlarında ümumi və fənlər üzrə ayrılıqda əldə etdikləri nəticələr kimi isə onların I–IV qruplar üzrə keçirilən imtahanlarda topladıqlar ballar götürülmüşdür. V qrup üzrə müsabiqə buraxılış imtahanının nəticəsi əsasında aparıldığı üçün bu qrup üzrə abituriyentlərin göstəriciləri ayrıca verilməmişdir.

Bakı şəhəri:

2019-cu ildə şəhərin ümumtəhsil müəssisələrini 20320 şagird bitirib və onların 20106 nəfəri buraxılış imtahanında iştirak edib.

Şəhərin məzunlarının buraxılış imtahanında topladıqları orta bal tədris dili fənni üzrə 49.82, riyaziyyat fənni üzrə 35.72, xarici dil fənni üzrə topladıqları orta bal 45.65, hər üç fənn üzrə birlikdə 131.2-yə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 9.36%, 11.23%, 29.79%, 16.33% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 23.73%-i 30 və daha az, 56.09%-i 30-70 intervalında, 20.18%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 49.49%, 39.18% və 11.33%, xarici dil fənni üzrə isə 39.36%, 35.47% və 25.17% olmuşdur. Ümumilikdə 20159 nəfər attestat alıb.

Attestat alanların 84.24%-i (16981 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 10.27%-i (2070 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib.

Respublika üzrə rayonun (şəhərin) fərqlənən məktəblərini müəyyən etmək üçün aşağıdakı meyarlar əsas götürülmüşdür:

- Ali təhsil müəssisələrinə I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən məzunlarının sayı 10-dan və iştiraketmə faizi 50-dən az olmamalı və yaxud məzunlarının sayı 5-dən və iştiraketmə faizi 80-dən az olmamalı;
- Rayon və şəhər məktəblərinin məzunlarının I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal müvafiq olaraq 300 və 350 baldan az olmamalı;
- Məktəbin məzunlarının buraxılış imtahanında ana dili və riyaziyyat fənləri üzrə birlikdə və ayrı-ayrılıqda topladıqları orta bal ən azı respublika üzrə orta göstəriciyə bərabər olmalıdır.

Rayon (şəhər) üzrə fərqlənən məktəbləri müəyyən etmək üçün aşağıdakı meyarlar əsas götürülmüşdür:

- Ali təhsil müəssisələrinə I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edən məzunlarının sayı 10-dan və iştiraketmə faizi 50-dən az olmamalı və yaxud məzunlarının sayı 5-dən və iştiraketmə faizi 80-dən az olmamalı;
- Rayon (şəhər) məktəblərinin məzunlarının I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal ən azı respublika üzrə orta göstəriciyə bərabər olmalı;
- Məktəbin məzunlarının buraxılış imtahanında ana dili və riyaziyyat fənləri üzrə birlikdə və ayrı-ayrılıqda topladıqları orta bal ən azı rayon (şəhər) üzrə orta göstəriciyə bərabər olmalıdır.

Hər il respublikada bütün fənlər üzrə ən yüksək nəticələri liseylərin məzunları əldə edirlər və onların nəticələri bölgələrin məzunlarının nəticələrindən kəskin şəkildə fərqlənir. Qeyd olunan hal respublikadakı real mənzərəni görməyə imkan vermir və bu səbəbdən fənlər üzrə respublikanın ən yüksək nəticə göstərən bölgələri haqqında məlumat müəyyən edilərkən TN tabeli və özəl liseylərin göstəriciləri nəzərə alınmır.

Qəbul imtahanlarının nəticələrinə əsasən şəhərin 11104 məzunu (imtahanlarda iştirak edənlərin 63.43%-i) tələbə adını qazanıb. Onların 42.57%-i (4727 nəfəri) dövlət, 1.34%-i (149 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 44.22%-i (4910 nəfəri) dövlət, 11.87%-i (1318 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Şəhərin məzunlarının 2314 nəfəri 500-dən, o cümlədən 611 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət İqtisad Universiteti və Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olub.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 11.65% (1978 nəfər), 100-200 intervalında 21.25% (3609 nəfər), 200-300 intervalında 20.48% (3478 nəfər), 300-500 intervalında 32.99% (5602 nəfər), 500-dən yuxarı 13.63% (2314 nəfər). Beləliklə, şəhərin abituriyentlərinin yalnız 46.62%-i 300-dən yuxarı bal toplayıb.

Şəhərin attestat qiymətləri əla olan abituriyentlərindən 3.08%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 52.84%-dir.

Qəbul imtahanlarında 309 məktəbin məzunları iştirak edib.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il şəhərin 23, 33, 34, 54, 92, 98, 129, 144, 189-190, 207, 240, 270, 313, 326, 329 saylı tam orta məktəbləri, 62, 72, 83, 261, 264 saylı məktəb-liseyləri, 287 saylı "Zəkalar" liseyi, Texniki humanitar lisey, 160 saylı klassik gimnaziya, 291 saylı Ekologiya liseyi və 147 saylı texniki-humanitar təmayüllü lisey daxil olub.

Azərbaycan bölməsi:

Ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Abituriyentlərin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 299.11-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 4.9% yuxarıdır.

Rus bölməsi:

Şəhərin abituriyentlərinin göstəriciləri I-IV qruplarda biologiya və tarix fənlər üzrə respublikanın orta göstəricilərindən aşağıdır. Fərq biologiyadan - 0.45%-i, tarixdən - 2.04% təşkil edir.

Şəhərin ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya və coğrafiya fənləri üzrə göstəriciləri respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Riyaziyyat, kimya və coğrafiya fənləri üzrə şəhərin göstəriciləri respublika üzrə ən yüksək göstəriciyə bərabərdir.

Abituriyentlərin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 290.01-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 1.8% yuxarıdır.

Naxçıvan şəhəri:

2019-cu ildə şəhərin ümumtəhsil müəssisələrini 747 şagird bitirib və onların 746 nəfəri buraxılış imtahanında iştirak edib.

Şəhərin məzunlarının buraxılış imtahanında topladıqları orta bal tədris dili fənni üzrə 48.70, riyaziyyat fənni üzrə topladıqları orta bal 35.05, xarici dil fənni üzrə 40.28, hər üç fənn üzrə birlikdə 124.02-yə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 6.88%, 9.13%, 14.52%, 9.97% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 25.47%-i 30 və daha az, 52.68%-i 30-70 intervalında, 21.85%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 51.34%, 37.94% və 10.72%, xarici dil fənni üzrə isə 46.92%, 34.58% və 18.50% olmuşdur. Ümumilikdə 747 nəfər attestat alıb.

Attestat alanların 89.69%-i (670 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 12.32%-i (92 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 90.36%-i (675 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən şəhərin 489 məzunu (imtahanlarda iştirak edənlərin 72.44%-i) tələbə adını qazanıb. Onların 35.58%-i (174 nəfəri) dövlət, 1.02%-i (5 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 47.44%-i (232 nəfəri) dövlət, 15.95%-i (78 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Şəhərin abituriyentlərinin I-IV qruplarda tarix və coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq tarixdən - 5.94%, coğrafiyadan - 2.92% təşkil edir.

Ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya və biologiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Şəhərin məzunlarının 98 nəfəri 500-dən, o cümlədən 22 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universiteti və "Naxçıvan" Universitetinə (Naxçıvan şəhəri) qəbul olub.

Şəhərin abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 297.695-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 4.4% yuxarıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 11.49% (77 nəfər), 100-200 intervalında 22.39% (150 nəfər), 200-300 intervalında 20.15% (135 nəfər), 300-500 intervalında 31.34% (210 nəfər), 500-dən yuxarı 14.63% (98 nəfər). Beləliklə, şəhərin abituriyentlərinin yalnız 45.97%-i 300-dən yuxarı bal toplayıb.

Şəhərin attestat qiymətləri əla olan abituriyentlərindən 4.21%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 47.37%-dir.

Qəbul imtahanlarında 20 məktəbin məzunları iştirak edib.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il şəhərin Naxçıvan şəhər qızlar liseyi, Naxçıvan Qarnizonu tam orta məktəbi və Heydər Əliyev adına tam orta məktəbi daxil olub.

Bu il şəhərin ən yaxşı məktəbləri sırasında 12 saylı tam orta məktəbi qeyd etmək olar.

Naxçıvan MR Babək rayonu:

2019-cu ildə rayonun ümumtəhsil müəssisələrini 484 şagird bitirib və onların hamısı buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (37.16) respublika üzrə orta göstəricidən 18.44%, riyaziyyat fənni üzrə topladıqları orta bal (26.77) respublika üzrə orta göstəricidən 16.64%, xarici dil fənni üzrə topladıqları orta bal (31.61) respublika üzrə orta göstəricidən 10.15%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (95.53) respublika üzrə orta göstəricidən 15.30% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 46.90%-i 30 və daha az, 42.36%-i 30-70 intervalında, 10.74%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 67.56%, 28.10% və 4.34%, xarici dil fənni üzrə isə 60.54%, 31.82% və 7.64% olmuşdur. Ümumilikdə 484 nəfər attestat alıb.

Attestat alanların 75.21%-i (364 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 6.20%-i (30 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 76.03%-i (368 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 220 məzunu (imtahanlarda iştirak edənlərin 59.78%-i) tələbə adını qazanıb. Onların 36.36%-i (80 nəfəri) dövlət, 0.91%-i (2 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 47.73 %-i (105 nəfəri) dövlət, 15.00 %-i (33 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat, riyaziyyat, kimya, biologiya, tarix və coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 1.15%, ədəbiyyatdan - 2.96%, riyaziyyatdan - 21.59%, kimyadan - 12.92%, biologiyadan - 11.79%, tarixdən - 8.86%, coğrafiyadan - 14.88 % təşkil edir.

Fizika fənni üzrə göstərici respublika üzrə orta göstəricidən yuxarıdır.

Rayonun məzunlarının 35 nəfəri 500-dən, o cümlədən 7 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutu və "Naxçıvan" Universitetinə (Naxçıvan şəhəri) qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 258.797-yə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 9.3% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 18.13% (66 nəfər), 100-200 intervalında 27.47% (100 nəfər), 200-300 intervalında 16.76% (61 nəfər), 300-500 intervalında 28.02% (102 nəfər), 500-dən yuxarı 9.62% (35 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 37.64 %-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 1.56%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 51.56%-dir.

Qəbul imtahanlarında 32 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən V.Zeynalov adına Gərməçataq, Xəlilli və Məmmədrza Dizə kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun Y.Sadiqov adına Yarımca kənd tam orta məktəbi daxil olub.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında Z.P.Vəliyev adına Kərimbəyli kənd tam orta məktəbini və Babək qəsəbə 2 saylı tam orta məktəbini qeyd etmək olar.

Naxçıvan MR Culfa rayonu:

2019-cu ildə rayonun ümumtəhsil müəssisələrini 351 şagird bitirib və onların 350 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (41.18) respublika üzrə orta göstəricidən 9.62% aşağı, riyaziyyat fənni üzrə topladıqları orta bal (32.30) respublika üzrə orta göstəricidən 0.57% yuxarı, xarici dil fənni üzrə topladıqları orta bal (34.19) respublika üzrə orta göstəricidən 2.80%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (107.67) isə respublika üzrə orta göstəricidən 4.54% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 38.57%-i 30 və daha az, 52.86%-i 30-70 intervalında, 8.57%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 55.71%, 36.00% və 8.29%, xarici dil fənni üzrə isə 54.86%, 33.71% və 11.43% olmuşdur. Ümumilikdə 351 nəfər attestat alıb.

Attestat alanların 80.63%-i (283 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 2.28%-i (8 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 80.63%-i (283 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 177 məzunu (imtahanlarda iştirak edənlərin 62.54%-i) tələbə adını qazanıb. Onların 38.98%-i (69 nəfəri) dövlət, 0.56%-i (1 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 36.72%-i (65 nəfəri) dövlət, 23.73%-i (42 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat və tarix fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 4.45%, ədəbiyyatdan - 6.05%, tarixdən - 6.40% təşkil edir.

Riyaziyyat, fizika, kimya və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 28 nəfəri 500-dən, o cümlədən 9 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti (Naxçıvan şəhəri) və Naxçıvan Müəllimlər İnstitutuna qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 283.225-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 0.7% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 9.54% (27 nəfər), 100-200 intervalında 24.38% (69 nəfər), 200-300 intervalında 22.26% (63 nəfər), 300-500 intervalında 33.92% (96 nəfər), 500-dən yuxarı 9.89% (28 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 43.82%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 200 baldan aşağı nəticə göstərən yoxdur. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 50.00%-dir.

Qəbul imtahanlarında 28 məktəbin məzunları iştirak edib.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun Şəhid Elsevər Eldaroğlu adına Qazançı kənd tam orta məktəbi və Şəhid Məmməd Zeynalabdin adına Saltaq kənd tam orta məktəbi daxil olub.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında Məhərrəm Əsgəroğlu adına 2 saylı şəhər tam orta məktəbini qeyd etmək olar.

Naxçıvan MR Kəngərli rayonu:

2019-cu ildə rayonun ümumtəhsil müəssisələrini 158 şagird bitirib və onların hamısı buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (38.21) respublika üzrə orta göstəricidən 16.13%, riyaziyyat fənni üzrə topladıqları orta bal (26.76) respublika üzrə orta göstəricidən 16.67%, xarici dil fənni üzrə topladıqları orta bal (32.49) respublika üzrə orta göstəricidən 7.64%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (97.46) respublika üzrə orta göstəricidən 13.58% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 41.77%-i 30 və daha az, 50.00%-i 30-70 intervalında, 8.23%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 69.62%, 25.32% və 5.06%, xarici dil fənni üzrə isə 60.13%, 29.11% və 10.76% olmuşdur. Ümumilikdə 158 nəfər attestat alıb.

Attestat alanların 70.25%-i (111 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 1.90%-i (3 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 70.89%-i (112 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 74 məzunu (imtahanlarda iştirak edənlərin 66.07%-i) tələbə adını qazanıb. Onların 33.78%-i (25 nəfəri) dövlət ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 36.49%-i (27 nəfəri) dövlət, 29.73%-i (22 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat və riyaziyyat fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 6.56%, ədəbiyyatdan - 8.68%, riyaziyyatdan - 3.01% təşkil edir.

Fizika, kimya və tarix fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 9 nəfəri 500-dən çox bal toplayıb. 600-dən yuxarı bal toplayan yoxdur.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti (Naxçıvan şəhəri) və Naxçıvan Müəllimlər İnstitutuna qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 295.967-yə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 3.8% yuxarıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 5.41% (6 nəfər), 100-200 intervalında 19.82% (22 nəfər), 200-300 intervalında 29.73% (33 nəfər), 300-500 intervalında 36.94% (41 nəfər), 500-dən yuxarı 8.11% (9 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 45.05%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 200 baldan aşağı nəticə göstərən yoxdur. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 22.50%-dir.

Qəbul imtahanlarında 12 məktəbin məzunları iştirak edib.

Naxçıvan MR Ordubad rayonu:

2019-cu ildə rayonun ümumtəhsil müəssisələrini 236 şagird bitirib və onların hamısı buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (49.88) respublika üzrə orta göstəricidən 9.49%, riyaziyyat fənni üzrə topladıqları orta bal (35.42) respublika üzrə orta

göstəricidən 10.29% yuxarı, xarici dil fənni üzrə topladıqları orta bal (33.49) respublika üzrə orta göstəricidən 4.80% aşağı, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (118.79) respublika üzrə orta göstəricidən 5.32% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 21.19%-i 30 və daha az, 59.75%-i 30-70 intervalında, 19.07%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 49.58%, 39.83% və 10.59%, xarici dil fənni üzrə isə 55.51%, 38.14% və 6.36% olmuşdur. Ümumilikdə 236 nəfər attestat alıb.

Attestat alanların 87.29%-i (206 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 4.24%-i (10 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 89.41%-i (211 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 148 məzunu (imtahanlarda iştirak edənlərin 70.14%-i) tələbə adını qazanıb. Onların 37.84%-i (56 nəfəri) dövlət ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 37.84%-i (56 nəfəri) dövlət, 24.32%-i (36 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat, tarix fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 2.57%, ədəbiyyatdan - 0.86%, tarixdən - 13.34% təşkil edir.

Riyaziyyat, fizika, kimya və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Kimya fənni üzrə rayonun göstəricisi respublika üzrə ən yüksək göstəriciyə bərabərdir.

Rayonun məzunlarının 25 nəfəri 500-dən, o cümlədən 2 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Naxçıvan Dövlət Universiteti, "Naxçıvan" Universiteti (Naxçıvan şəhəri), və Naxçıvan Müəllimlər İnstitutuna qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 294.094-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 3.1% yuxarıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 10.19% (21 nəfər), 100-200 intervalında 19.42% (40 nəfər), 200-300 intervalında 24.27% (50 nəfər), 300-500 intervalında 33.98% (70 nəfər), 500-dən yuxarı 12.14% (25 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 46.12%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 200 baldan aşağı nəticə göstərən yoxdur. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 42.11%-dir.

Qəbul imtahanlarında 33 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən N.Tusi adına Bist kənd tam orta məktəbinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında M.Füzuli adına İnternat tam orta məktəbini qeyd etmək olar.

Naxçıvan MR Sədərək rayonu:

2019-cu ildə rayonun ümumtəhsil müəssisələrini 62 şagird bitirib və onların hamısı buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (37.38) respublika üzrə orta göstəricidən 17.96% aşağı, riyaziyyat fənni üzrə topladıqları orta bal (34.27) respublika üzrə orta göstəricidən 6.72% yuxarı, xarici dil fənni üzrə topladıqları orta bal (29.23) respublika üzrə orta göstəricidən 16.90%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (100.88) respublika üzrə orta göstəricidən 10.55% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 41.94%-i 30 və daha az, 50.00%-i 30-70 intervalında, 8.06%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 40.32%, 54.84% və 4.84%, xarici dil fənni üzrə isə 53.23%, 43.55% və 3.23% olmuşdur. Ümumilikdə 62 nəfər attestat alıb.

Attestat alanların 58.06%-i (36 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 12.90%-i (8 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 66.13%-i (41 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 29 məzunu (imtahanlarda iştirak edənlərin 70.73%-i) tələbə adını qazanıb. Onların 27.59%-i (8 nəfəri) dövlət, 3.45%-i (1 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 37.93%-i (11 nəfəri) dövlət, 31.03%-i (9 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda tarix fənni üzrə göstəricisi respublikanın orta göstəricidən aşağıdır. Fərq 27.91% təşkil edir.
Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 271.711-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 4.7% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 21.53% (79 nəfər), 100-200 intervalında 20.98% (77 nəfər), 200-300 intervalında 17.44% (64 nəfər), 300-500 intervalında 26.43% (97 nəfər), 500-dən yuxarı 13.62% (50 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 40.05%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 10.14%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 40.58%-dir.

Qəbul imtahanlarında 36 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Alpoud kənd 2 saylı, N.Abdullayev adına Alpı, M.Əliyev adına Küçəkənd, N.İsmayılov adına Əlikənd, Ə.Məmmədov adına Müsüslü və T.Cavadov adına Yuxarı Şilyan kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Təzə Şilyan kənd tam orta məktəbi abituriyentlərinin I-IV qruplar üzrə topladığı orta bal 100-dən aşağıdır.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında 2 saylı şəhər tam orta məktəbini qeyd etmək olar.

Yardımlı rayonu:

2019-cu ildə rayonun ümumtəhsil müəssisələrini 609 şagird bitirib və onların 582 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında topladıqları orta bal tədris dili fənni üzrə 32.53, riyaziyyat fənni üzrə 25.75, xarici dil fənni üzrə 19.34, hər üç fənn üzrə birlikdə 77.63-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 28.60%, 19.80%, 45.01%, 31.17% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 57.22%-i 30 və daha az, 31.79%-i 30-70 intervalında, 11.00%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 66.67%, 24.57% və 8.76%, xarici dil fənni üzrə isə 81.96%, 16.84% və 1.20% olmuşdur. Ümumilikdə 584 nəfər attestat alıb.

Attestat alanların 47.09%-i (275 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 1.37%-i (8 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 47.26%-i (276 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 144 məzunu (imtahanlarda iştirak edənlərin 52.17%-i) tələbə adını qazanıb. Onların 48.61%-i (70 nəfəri) dövlət, 4.17%-i (6 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 40.28%-i (58 nəfəri) dövlət, 6.94%-i (10 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, tarix və coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 20.45%, ədəbiyyatdan - 17.68%, riyaziyyatdan - 2.52%, fizikadan - 10.79%, kimyadan - 13.81%, tarixdən - 5.10%, coğrafiyadan - 3.35% təşkil edir.

Rayonun məzunlarının 14 nəfəri 500-dən, o cümlədən 1 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Lənkəran Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Bakı Dövlət Universiteti və Sumqayıt Dövlət Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 255.754-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 10.3% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 15.27% (42 nəfər), 100-200 intervalında 23.27% (64 nəfər), 200-300 intervalında 24.73% (68 nəfər), 300-500 intervalında 31.64% (87 nəfər), 500-dən yuxarı 5.09% (14 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 36.73%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 19.05%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 8.57%-dir.

Qəbul imtahanlarında 44 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Honuba, Gavran və Ərsilə kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Rayonun Dağüzü kənd tam orta məktəbinin qəbul imtahanlarında iştirak edən abituriyentlərinin sayı, məzunlarının sayının 10%-ni belə təşkil etmir.

Arvana və Bürzünbül kənd tam orta məktəblərinin bir məzunu belə ali təhsil müəssisələrinə qəbul üçün sənəd verməmişdir.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında Çayüzü kənd tam orta məktəbini qeyd etmək olar.

Yevlax rayonu:

2019-cu ildə rayonun ümumtəhsil müəssisələrini 1008 şagird bitirib və onların 983 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (36.64) respublika üzrə orta göstəricidən 19.59%, riyaziyyat fənni üzrə topladıqları orta bal (23.48) respublika üzrə orta göstəricidən 26.89%, xarici dil fənni üzrə topladıqları orta bal (25.92) respublika üzrə orta göstəricidən 26.30%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (86.04) respublika üzrə orta göstəricidən 23.72% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 48.12%-i 30 və daha az, 41.20%-i 30-70 intervalında, 10.68%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 72.74%, 22.18% və 5.09%, xarici dil fənni üzrə isə 71.52%, 21.97% və 6.51% olmuşdur. Ümumilikdə 985 nəfər attestat alıb.

Attestat alanların 58.48%-i (576 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 3.96%-i (39 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 59.19%-i (583 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 288 məzunu (imtahanlarda iştirak edənlərin 49.40%-i) tələbə adını qazanıb. Onların 46.18%-i (133 nəfəri) dövlət, 1.74%-i (5 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 44.79%-i (129 nəfəri) dövlət, 7.29%-i (21 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, tarix və coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 7.69%, ədəbiyyatdan - 8.51%, riyaziyyatdan - 16.70%, fizikadan - 10.62%, kimyadan - 10.24%, biologiyadan - 11.06%, tarixdən - 9.34%, coğrafiyadan - 14.59% təşkil edir.

Rayonun məzunlarının 40 nəfəri 500-dən, o cümlədən 5 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universiteti və Mingəçevir Dövlət Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 241.962-yə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 15.2% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 19.27% (111 nəfər), 100-200 intervalında 27.43% (158 nəfər), 200-300 intervalında 21.70% (125 nəfər), 300-500 intervalında 24.65% (142 nəfər), 500-dən yuxarı 6.94% (40 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 31.60%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 21.89%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 16.42%-dir.

Qəbul imtahanlarında 40 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Rüstəmli kənd tam orta məktəbinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Zaqatala rayonu:

2019-cu ildə rayonun ümumtəhsil müəssisələrini 1060 şagird bitirib və onların 1056 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (47.01) respublika üzrə orta göstəricidən 3.19% yuxarı, riyaziyyat fənni üzrə topladıqları orta bal (28.92) respublika üzrə orta göstəricidən 9.94% aşağı, xarici dil fənni üzrə topladıqları orta bal (29.75) respublika üzrə orta göstəricidən 15.41% aşağı, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (105.69) respublika üzrə orta göstəricidən 6.29% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 33.24%-i 30 və daha az, 43.66%-i 30-70 intervalında, 23.11%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 66.29%, 22.92% və 10.80%, xarici dil fənni üzrə isə 62.78%, 30.30% və 6.91% olmuşdur. Ümumilikdə 1056 nəfər attestat alıb.

Attestat alanların 58.24%-i (615 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 4.36%-i (46 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 59.56%-i (629 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 351 məzunu (imtahanlarda iştirak edənlərin 55.80%-i) tələbə adını qazanıb. Onların 53.85%-i (189 nəfəri) dövlət, 4.27%-i (15 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 32.48%-i (114 nəfəri) dövlət, 9.40%-i (33 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, ədəbiyyat, riyaziyyat və tarix fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 10.50%, ədəbiyyatdan - 16.49%, riyaziyyatdan - 0.66%, tarixdən - 20.36% təşkil edir.

Fizika, kimya, biologiya və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 67 nəfəri 500-dən, o cümlədən 16 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Azərbaycan Dövlət İqtisad Universiteti və Bakı Dövlət Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 278.84-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 2.2% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 10.89% (67 nəfər), 100-200 intervalında 28.29% (174 nəfər), 200-300 intervalında 22.60% (139 nəfər), 300-500 intervalında 27.32% (168 nəfər), 500-dən yuxarı 10.89% (67 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 38.21%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 7.73%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 31.49%-dir.

Qəbul imtahanlarında 49 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Aşağı Çardaxlar, Çobankol, Zəyəm və Çökəkoba kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun humanitar təmayüllü gimnaziya və Akademik Z.Əliyeva adına Texniki fənlər liseyi daxil olub.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında Yuxarı Çardaxlar kənd tam orta məktəbini qeyd etmək olar.

Zəngilan rayonu:

2019-cu ildə rayonun ümumtəhsil müəssisələrini 477 şagird bitirib və onların 473 nəfəri buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında topladıqları orta bal tədris dili fənni üzrə 49.35, riyaziyyat fənni üzrə 32.97, xarici dil fənni üzrə 40.54, hər üç fənn üzrə birlikdə 122.86-ya bərabərdir. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 8.32%, 2.65%, 15.27%, 8.93% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 23.26%-i 30 və daha az, 57.29%-i 30-70 intervalında, 19.45%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 55.60%, 36.15% və 8.25%, xarici dil fənni üzrə isə 43.76%, 42.28% və 13.95% olmuşdur. Ümumilikdə 475 nəfər attestat alıb.

Attestat alanların 87.79%-i (417 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 8.21%-i (39 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 89.26%-i (424 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 270 məzunu (imtahanlarda iştirak edənlərin 63.68%-i) tələbə adını qazanıb. Onların 19.26%-i (52 nəfəri) dövlət, 0.37%-i (1 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 68.52%-i (185 nəfəri) dövlət, 11.85%-i (32 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda riyaziyyat, fizika, kimya və coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq riyaziyyatdan - 2.99%, fizikadan - 2.88%, kimyadan - 1.70%, coğrafiyadan - 0.63% təşkil edir.

Ana dili, ədəbiyyat və tarix fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 42 nəfəri 500-dən, o cümlədən 9 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Bakı Dövlət Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 287.129-a bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 0.7% yuxarıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 12.95% (54 nəfər), 100-200 intervalında 18.47% (77 nəfər), 200-300 intervalında 23.02% (96 nəfər), 300-500 intervalında 35.49% (148 nəfər), 500-dən yuxarı 10.07% (42 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 45.56%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 14.29%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 21.43%-dir.

Qəbul imtahanlarında 31 məktəbin məzunları iştirak edib.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il rayonun 26, 28, 34 və 36 saylı tam orta məktəbləri daxil olub.

Zərdab rayonu:

2019-cu ildə rayonun ümumtəhsil müəssisələrini 419 şagird bitirib və onların hamısı buraxılış imtahanında iştirak edib.

Rayonun məzunlarının buraxılış imtahanında tədris dili fənni üzrə topladıqları orta bal (39.59) respublika üzrə orta göstəricidən 13.10%, riyaziyyat fənni üzrə topladıqları orta bal (24.96) respublika üzrə orta göstəricidən 22.29%, xarici dil fənni üzrə topladıqları orta bal (24.24) respublika üzrə orta göstəricidən 31.07%, hər üç fənn üzrə birlikdə topladıqları orta bal (88.79) respublika üzrə orta göstəricidən 21.27% aşağıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 42.24%-i 30 və daha az, 44.87%-i 30-70 intervalında, 12.89%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 69.93%, 23.87% və 6.21%, xarici dil fənni üzrə isə 74.70%, 20.53% və 4.77% olmuşdur. Ümumilikdə 419 nəfər attestat alıb.

Attestat alanların 63.96%-i (268 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 2.86%-i (12 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 64.20%-i (269 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən rayonun 159 məzunu (imtahanlarda iştirak edənlərin 59.11%-i) tələbə adını qazanıb. Onların 39.62%-i (63 nəfəri) dövlət, 1.89%-i (3 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 42.77%-i (68 nəfəri) dövlət, 15.72%-i (25 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplarda ana dili, riyaziyyat, fizika, tarix və coğrafiya fənləri üzrə göstəriciləri respublikanın orta göstəricilərindən aşağıdır. Fərq ana dilindən - 4.01%, riyaziyyatdan - 13.26%, fizikadan - 1.73%, tarixdən - 4.91%, coğrafiyadan - 6.28% təşkil edir.

Ədəbiyyat və kimya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Rayonun məzunlarının 20 nəfəri 500-dən, o cümlədən 5 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Mingəçevir Dövlət Universiteti və Azərbaycan Dövlət Pedaqoji Universitetinə qəbul olub.

Rayonun abituriyentlərinin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 262.811-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 7.9% aşağıdır.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 16.42% (44 nəfər), 100-200 intervalında 22.39% (60 nəfər), 200-300 intervalında 21.27% (57 nəfər), 300-500 intervalında 32.46% (87 nəfər), 500-dən yuxarı 7.46% (20 nəfər). Beləliklə, rayonun abituriyentlərinin yalnız 39.93%-i 300-dən yuxarı bal toplayıb.

Rayonun attestat qiymətləri əla olan abituriyentlərindən 4.76%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə cəmi 25.40%-dir.

Qəbul imtahanlarında 27 məktəbin məzunları iştirak edib. Bu məktəblərdən Y.Məmmədəliyev adına Bəyimli qəsəbə və Z.Məmmədov adına Gəndəbil kənd tam orta məktəblərinin bir abituriyenti belə ali təhsil müəssisəsinə qəbul olmayıb.

M.Əzizbəyov adına Dəkkəoba kənd tam orta məktəbinin bir məzunu belə ali təhsil müəssisələrinə qəbul üçün sənəd verməmişdir.

Bu il rayonun ən yaxşı məktəbləri sırasında S.Ə.Şirvani adına İsaqbağı və M.Rahim adına Pərvanlı kənd tam orta məktəblərini qeyd etmək olar.

Liseylər (TN tabeli və özəl):

2019-cu ildə TN tabeli və özəl liseyləri 2099 şagird bitirib və onların 2094 nəfəri buraxılış imtahanında iştirak edib.

Liseylərin məzunlarının buraxılış imtahanında topladıqları orta bal tədris dili fənni üzrə 66.61, riyaziyyat fənni üzrə 56.46, xarici dil fənni üzrə 71.19, hər üç fənn üzrə birlikdə 195.26-ya bərabərdir. Bu, respublika üzrə orta göstəricidən müvafiq olaraq 46.20%, 75.81%, 102.38%, 73.12% yuxarıdır.

Buraxılış imtahanında tədris dili fənni üzrə məzunların 6.09%-i 30 və daha az, 46.29%-i 30-70 intervalında, 47.62%-i 70-dən çox bal toplamışdır. Riyaziyyat fənni üzrə bu göstəricilər müvafiq olaraq, 20.92%, 41.74% və 37.34%, xarici dil fənni üzrə isə 11.46%, 25.26% və 63.28% olmuşdur. Ümumilikdə 2094 nəfər attestat alıb.

Attestat alanların 76.70%-i (1606 nəfəri) I-IV qruplar üzrə qəbul imtahanlarında iştirak edib, 7.21%-i (151 nəfəri) isə buraxılış imtahanlarının nəticələri əsasında V qrupa daxil olan ixtisaslar üzrə müsabiqədə iştirak etmək üçün ərizə verib. Ümumilikdə attestat alanların 79.85%-i (1672 nəfəri) ali təhsil müəssisələrinə qəbul kampaniyasında iştirak edib.

Qəbul imtahanlarının nəticələrinə əsasən liseylərin 1212 məzunu (imtahanlarda iştirak edənlərin 72.49%-i) tələbə adını qazanıb. Onların 52.06%-i (631 nəfəri) dövlət, 1.16%-i (14 nəfəri) özəl ali təhsil müəssisələrinə dövlət sifarişi üzrə, 38.78%-i (470 nəfəri) dövlət, 8.00%-i (97 nəfəri) özəl ali təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul olub.

Liseylərin məzunlarının 621 nəfəri 500-dən, o cümlədən 272 nəfəri 600-dən yuxarı bal toplayıb.

Abituriyentlərin ən çoxu Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə qəbul olub.

Abituriyentlərin göstəriciləri bal intervalları üzrə aşağıdakı kimi paylanıb:

0-100 intervalında 2.12% (34 nəfər), 100-200 intervalında 8.41% (135 nəfər), 200-300 intervalında 13.57% (218 nəfər), 300-500 intervalında 37.24% (598 nəfər), 500-dən yuxarı 38.67% (621 nəfər). Beləliklə, liseylərin abituriyentlərinin 75.90%-i 300-dən yuxarı bal toplayıb.

Liseylərin attestat qiymətləri əla olan abituriyentlərindən 2.00%-i 200 baldan aşağı nəticə göstərib. 500 baldan yuxarı nəticə göstərərək məktəb nailiyyətlərini təsdiq edənlər isə 71.94%-dir.

Qəbul imtahanlarında 47 liseyin məzunları iştirak edib.

Respublika üzrə yaxşı məktəblərin sırasına bu il Bakı Türk liseyi, Akademik Z.Əliyeva adına lisey, BDU-nun nəzdində "Gənc istedadlar" liseyi, Kimya-biologiya təmayüllü lisey, "Ankara Məktəbi" məktəb-liseyi, "Kaspi" liseyinin Xətai filialı, Fizika, riyaziyyat və informatika təmayüllü lisey, H.Əliyev adına Müasir Təhsil Kompleksi, Fizika-riyaziyyat təmayüllü lisey, Bakı Avropa liseyi, Bakı MODERN məktəbi, S.Bəhlulzadə adına Xarici dillər təmayüllü gimnaziya, Heydər Əliyev adına lisey, Kaspi liseyi, İ.Əfəndiyev adına "Elitar" gimnaziya, Humanitar fənlər təmayüllü məktəb-lisey, T.İsmayılov adına "İntellekt" məktəb-liseyi, ERA tam orta məktəbi, S.C.Pişəvəri adına Humanitar fənlər gimnaziyası, "İstanbul liseyi" MMC, Bakı Slavyan Universitetinin Məktəb-Lisey kompleksi, 289 saylı orta məktəb "Zəngi" liseyi və "Zirvə" liseyi daxil olub.

Azərbaycan bölməsi:

Ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, tarix və coğrafiya fənləri üzrə göstəricilər respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Abituriyentlərin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 433.61-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 52.0% yuxarıdır.

Rus bölməsi:

Liseylərin ana dili, ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, tarix və coğrafiya fənləri üzrə göstəriciləri respublika üzrə orta göstəricilərdən yuxarıdır.

Abituriyentlərin I-IV qruplar üzrə qəbul imtahanlarında topladıqları orta bal 405.261-ə bərabərdir. Bu, respublika üzrə orta göstəricidən 42.3% yuxarıdır.

2. ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL

Azərbaycan Respublikası Prezidentinin 6 aprel 2005-ci il tarixli 219 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Tələbə Qəbulu üzrə Dövlət Komissiyası haqqında Əsasnamə"yə uyğun olaraq, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq ölkəmizin bütün ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul 2005-2015-ci illərdə TQDK tərəfindən həyata keçirilib. 2016-cı ildən isə ali təhsilin bu səviyyəsi üzrə qəbulu Dövlət İmtahan Mərkəzi mərkəzləşdirilmiş qaydada aparır.

Hər il magistratura səviyyəsinə qəbul imtahanlarına hazırlıq məqsədi ilə ali təhsil müəssisələrinin ixtisaslarının tədris planları təhlil olunur və onlar klasterləşdirilir. Müəyyən edilmiş hər bir ixtisaslaşma istiqaməti üzrə qəbul proqramları hazırlanır, test sualları tərtib olunur və onların qapalı şəraitdə ekspertizası keçirilir. Qəbul proqramları "Magistr" jurnalında çap edilərək bakalavrların istifadəsinə verilir. İmtahanların məzmununu təşkil edən bütün bu materialları DİM-in mütəxəssislərinin təşkilatçılığı ilə respublikanın ali təhsil müəssisələrinin müvafiq ixtisas kafedralarının professor-müəllim heyəti hazırlayır.

Azərbaycan Respublikası Prezidentinin "Ali təhsil müəssisələrində yeni maliyyələşdirmə mexanizminin tətbiq edilməsi barədə" 10 fevral 2010-cu il tarixli Fərmanına əsasən 2010/2011-ci tədris ilindən başlayaraq, respublikanın ali təhsil müəssisələrində magistr hazırlığına sərf olunan dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirmə dövlət sifarişi əsasında adambaşına maliyyələşdirmə prinsipi ilə reallaşdırılır. Bu prinsipə əsasən müəyyən bir ixtisaslaşma üzrə dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən tələbə yerlərinə müsabiqə ayrı-ayrı ali təhsil müəssisələri çərçivəsində deyil, bütövlükdə həmin ixtisaslaşma üzrə dövlət sifarişini yerinə yetirən bütün ali təhsil müəssisələri üzrə birlikdə həyata keçirilir. Bu o deməkdir ki, müəyyən ixtisaslaşma üzrə dövlət sifarişi əsasında kadr hazırlığı üçün ali təhsil müəssisəsinə dövlət büdcəsindən ayrılan maliyyə vəsaiti yalnız birgə müsabiqədən keçərək həmin ali təhsil müəssisəsinin magistraturasına qəbul olan bakalavrların sayından asılı olaraq verilir. Beləliklə, ali təhsil müəssisəsinə dövlət sifarişi üzrə qəbul olan bakalavrın təhsili üçün nəzərdə tutulan vəsait həmin ali təhsil müəssisəsinin hesabına köçürülür.

2019-cu ildə respublikanın 33 dövlət və 10 özəl ali təhsil müəssisəsinin magistratura səviyyəsinə qəbul aparılıb. Qəbul aparılan ixtisaslaşmalar 75 proqram üzrə qruplaşdırılıb. Qəbul "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul qaydaları" ilə tənzimlənib. Qaydalara əsasən, magistratura səviyyəsinə qəbul olmaq hüququna bakalavrlar və digər ali təhsilli şəxslər malikdirlər.

Magistratura səviyyəsinə sənədlərin qəbulu internet vasitəsilə aparılıb. İmtahanda iştirak etmək üçün bakalavrlar 2019-cu il fevralın 1-dən 11-dək DİM-in internet saytının *ekabinet.dim.gov.az* səhifəsində "Şəxsi kabinet" yaradıblar. Bundan sonra onlar ərizə vermək üçün tələb olunan məbləği (müsabiqə ödənişli olub) "Şəxsi kabinet"lərindəki hesablarına əlavə ediblər. Daha sonra bakalavrlar "Şəxsi kabinet"lərinin istfadəçi adı və parolundan istifadə etməklə DİM-in internet saytının müvafiq səhifəsinə (*http://eservices.dim.gov.az/erizemag/erize*) daxil olub "Bakalavrın elektron ərizəsi" formasını doldurub təsdiq ediblər. Qəbul imtahanı iki mərhələdə keçirilib. Birinci mərhələdə bakalavrların məntiqi təfəkkürü, informatika və xarici dili bilmə səviyyələri test üsulu ilə yoxlanılıb, bakalavrlara məntiqi təfəkkür üzrə 50, xarici dil üzrə 25 və informatika üzrə 25 test tapşırığı təqdim olunub. Hər bir blok üzrə son 5 sual açıq formalı test tapşırıqlarından ibarət olub. İmtahan suallarının cavablandırılmasına 2.5 saat vaxt ayrılıb. Bakalavrların hər düzgün cavabı bir balla qiymətləndirilib.

Tədrisi Azərbaycan dilində olan ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlara ingilis, alman, fransız və ya rus dilini, tədrisi rus dilində olan ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlara ingilis, alman və ya fransız dilini, tədrisi ingilis (alman) dilində olan ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlara isə qəbul imtahanının birinci mərhələsində xarici dil kimi yalnız ingilis (alman) dilini seçmək imkanı verilib. Filologiya ixtisasının Azərbaycan dili və Azərbaycan ədəbiyyatı və tarix ixtisasının tədrisi Azərbaycan dilində olan ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlara (HS 020100 Azərbaycan dili, HS 020200 Azərbaycan dili və ədəbiyyatı, 050101 Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, HS 070100 Tarix, 050206 Tarix və 050113 Tarix müəllimliyi ixtisasları üzrə bakalavr dərəcəsi olanlara) xarici dil kimi ərəb və ya fars dilini də seçmək imkanı verilib.

Filologiya (xarici dil və ədəbiyyat), xarici dil və ədəbiyyat müəllimliyi, xarici dil müəllimliyi və tərcümə ixtisasları üzrə ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrlara (HS 020000 Filologiya (xarici dil və ədəbiyyat) və HS 040000 Dilşünaslıq (xarici dillər üzrə) istiqamətləri üzrə, həmçinin 050201 Filologiya (xarici dil və ədəbiyyat), 050102 Xarici dil və ədəbiyyat müəllimliyi, 050103 Xarici dil müəllimliyi və 050203 Tərcümə ixtisasları üzrə bakalavr dərəcəsi olanlar nəzərdə tutulur), ixtisaslaşma dili istisna olmaqla, xarici dil kimi yuxarıda göstərilən digər xarici dilləri seçmək imkanı verilib.

Regionşünaslıq (Amerikaşünaslıq), regionşünaslıq (ABŞ və Kanada üzrə), ölkəşünaslıq (Böyük Britaniyaşünaslıq) ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar xarici dil kimi yalnız ingilis dilini, ölkəşünaslıq (Almaniyaşünaslıq) ixtisaslaşmasına qəbul olmaq istəyən bakalavrlar yalnız alman dilini, ölkəşünaslıq (Fransaşünaslıq) ixtisaslaşmasına qəbul olmaq istəyən bakalavrlar isə yalnız fransız dilini seçə bilərdilər.

Birinci mərhələnin nəticələrinə görə DİM tərəfindən müəyyən olunmuş şərtləri (bax: cədvəl 2.1) ödəyən bakalavrlar ikinci mərhələyə buraxılıblar.

İkinci mərhələyə buraxılan bakalavrlar müəyyən olunmuş tarixdə elektron ərizələrinə daxil olub, bitirdikləri bakalavr ixtisasına uyğun qəbul proqramını seçərək onu təsdiq ediblər.

Qəbul aparılan ixtisaslaşmalar imtahanın məzmununu müəyyən edən qəbul proqramları üzrə qruplaşdırılıb. Hər bir bakalavrın seçdiyi magistr ixtisaslaşması (qəbul proqramı) onun bitirdiyi bakalavr ixtisasına müvafiq olub. İxtisaslaşma seçiminə kömək məqsədi ilə bakalavrların bitirdikləri ixtisaslara müvafiq "Magistratura səviyyəsi üzrə ixtisaslaşma seçimi cədvəli" tərtib edilərək "Magistr" jurnalının 3-cü sayında çap olunub və bununla hər bir bakalavrın bitirdiyi ixtisasa uyğun olaraq verilən ixtisaslaşma seçimi imkanlarından istifadə etməsinə şərait yaradılıb.

Cari ildə ilk dəfə olaraq qəbul imtahanının birinci mərhələsində bakalavrlara xarici dil fənnindən dinləmə mətnləri üzrə test tapşırıqları təqdim olunmuşdur. Hər bir xarici dil fənni üzrə dinləmə mətnləri əvvəlcədən DİM-in səsyazma studiyasında səsləndirilmiş və arxivləşdirilmişdir. İmtahanda bakalavrlara 1 dinləmə mətni və bu mətnə aid 5 test tapşırığı verilmişdir. Dinləmə mətninin audiofaylı bir audioqurğuya yazılmış və hər audio-qurğu yalnız bir imtahan zalına aid olmuşdur. Dinləmə mətni bütün imtahan zallarında imtahanın əvvəlində səsləndirilmişdir. İmtahan başlandıqda audioqurğu yerləşdiyi zərfdən çıxarılmış və işə salınmışdır. İmtahan zallarındakı bakalavrlar 2 dəqiqə ərzində həmin dinləmə mətni üzrə onlara təqdim olunan tapşırıqlarla tanış olmuşlar. Dinləmə mətni bütün zallarda arada 2 dəqiqəlik fasilə olmaqla 2 dəfə səsləndirilmişdir. Bundan sonra isə bakalavrlar həm onlara təqdim olunan dinləmə mətni üzrə, həm də digər tapşırıqları cavablandırmışlar.

Jurnalistika üzrə ixtisaslaşmalara qəbul olmaq istəyən və qəbul imtahanının birinci mərhələsində ən azı 50 bal toplayan bakalavrlar 2019-cu il aprelin 16-dan 25-dək DİM-in internet saytının müvafiq səhifəsində (*eservices.dim.gov.az/erizemag/erize*) jurnalistika üzrə ixtisaslaşmalara qəbul olmaq istəyən bakalavrların qeydiyyatı üçün nəzərdə tutulmuş bölməyə daxil olaraq anket sorğusunu doldurmaqla qeydiyyatdan keçiblər. Qeydiyyatdan keçən bakalavrlar DİM-in elan etdiyi vaxtda "Bakalavrın qabiliyyət imtahanına buraxılış vərəqəsi"ni çap edərək mayın 1-dən 3-dək vərəqədə göstərilən vaxtda qabiliyyət imtahanında iştirak ediblər. Qabiliyyət imtahanında bakalavrların yaradıcılıq qabiliyyətlərinin aşkara çıxarılması üçün müsahibə aparılıb və həmin müsahibədən uğurla keçənlər ikinci mərhələdə 44 saylı proqram üzrə imtahan verərək inşa (esse) yazıblar. Bitirdikləri bakalavr ixtisasından asılı olmayaraq bütün bakalavrlara jurnalistika ixtisaslaşmaları üzrə təhsil almaq imkanı yaradılıb. Ümumilikdə, jurnalistika üzrə ixtisaslaşmaları seçmək məqsədilə qabiliyyət imtahanında iştirak etmək üçün 15 nəfər bakalavr müraciət edib. Qabiliyyət imtahanının nəticələrinə əsasən, onların hamısı proqram seçimi zamanı 44-cü proqramı seçmək hüququ əldə edib və jurnalistika ixtisaslaşmaları üzrə magistraturaya qəbul olub. Qeyd edək ki, qəbul olan bakalavrlardan 10 nəfər bakalavriat səviyyəsində təhsilini "Jurnalistika", 1 nəfər "Dil və ədəbiyyat müəllimliyi", 1 nəfər "Politologiya", 1 nəfər "Filologiya" və 2 nəfər "Kitabxanaçılıq və informasiya" ixtisası üzrə bitirib.

İkinci mərhələdə bakalavrların ixtisas üzrə bilikləri onlara 50 test tapşırığı təqdim olunmaqla yoxlanılıb. Hər bir proqram üzrə son 5 sual açıq formalı test tapşırıqlarından ibarət olub. Bununla bərabər, aşağıdakı qəbul proqramlarını seçən bakalavrlar ixtisas üzrə test tapşırıqlarını cavablandırmaq əvəzinə yazılı imtahan veriblər (hər bir proqrama daxil olan ixtisaslaşmaların siyahısı 2.4 saylı cədvəldə təqdim edilib):

– 41 saylı proqramı seçən bakalavrlar təqdim olunmuş mövzu üzrə inşa (esse) yazıblar. Yazı işi bakalavrların ərizələrində qeyd etdikləri ixtisaslaşma dilində yerinə yetirilib;

– 43 saylı proqramı seçən bakalavrlar təqdim olunmuş mətni imtahanın birinci mərhələsini verdikləri dildən (Azərbaycan və ya rus dilindən) ərizələrində qeyd etdikləri ixtisaslaşma dilinə yazılı tərcümə ediblər;
– 44 saylı proqramı seçən bakalavrlar təqdim olunmuş mövzu üzrə inşa (esse) yazıblar. Yazı işi bakalavrların imtahanın birinci mərhələsini verdikləri dildə (Azərbaycan və ya rus dilində) yerinə yetirilib;
– 25, 30, 51, 52, 57, 60, 61, 62, 63, 64, 65 və 74 saylı proqramları seçən bakalavrlar onlara təqdim edilən 3 suala yazılı formada cavab veriblər. Yazı işi bakalavrların imtahanın birinci mərhələsini verdikləri dildə (Azərbaycan və ya rus dilində) yerinə yetirilib;
– xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə ixtisas magistraturasına qəbul olmaq istəyən bakalavrlar 2019/2020-ci tədris ili üçün ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul imtahanının ikinci mərhələsində ixtisas üzrə test tapşırıqlarını cavablandırmaq əvəzinə qabiliyyət imtahanı veriblər. Bu ixtisaslaşmalar üzrə magistratura imtahanının 1-ci mərhələsinin müsabiqə şərtini ödəmiş bakalavrlar proqram seçimi zamanı 37, 50, 53 və 74 saylı proqramları seçdikləri halda, magistraturaya qəbul imtahanının II mərhələsində müvafiq proqramlar üzrə test imtahanında və ya yazılı imtahanda, xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə ixtisas magistraturasına aid 68, 69 və 70 saylı qəbul proqramlarını seçdikləri halda isə qabiliyyət imtahanında iştirak ediblər. Qabiliyyət imtahanları DİM-in təşkil etdiyi Qabiliyyət İmtahanı Komissiyaları (QİK-lər) tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilib. Qabiliyyət imtahanının nəticəsinin qiymətləndirilməsi 10 ballıq şkala ilə aparılıb və bu nəticə magistraturaya qəbul qaydalarına əsasən 50 ballıq qiymətləndirmə şkalasına çevrilib. Qabiliyyət imtahanında 5 və daha yüksək bal almış bakalavrlar imtahanın ikinci mərhələsi üzrə müsabiqə şərtini ödəmiş hesab olunublar və ixtisaslaşma seçimində müvafiq ixtisaslaşmaları seçiblər.

İmtahanın II mərhələsində sualların cavablandırılmasına 1.5 saat vaxt ayrılıb. Yazı işləri 5 ballıq şkala üzrə qiymətləndirilib və bu nəticə magistraturaya qəbul qaydalarına əsasən 50 ballıq qiymətləndirmə şkalasına çevrilib.

Müsabiqəyə qəbul imtahanından iki mərhələ üzrə topladıqları ümumi balı (ballarının cəmi) ilə yanaşı, ixtisas üzrə balı da DİM tərəfindən müəyyən olunan şərtləri (bax: cədvəl 2.1) ödəyən bakalavrlar buraxılıblar.

Hər bir bakalavra ərizəsində göstərdiyi imtahan proqramına aid və bitirdiyi bakalavr ixtisasına müvafiq 20-dək ixtisaslaşma kodunu seçmək imkanı verilib.

Bakalavrlar seçdikləri ixtisaslaşmaları müəyyən olunmuş tarixdə istədikləri ardıcıllıqla öz elektron ərizə formalarına daxil edib, hər bir ixtisaslaşma üzrə dövlət sifarişi əsasında və ya ödənişli əsaslarla təhsil almaq istədiklərini qeyd edərək təsdiqləyiblər.

Magistraturada dövlət hesabına təhsil almış magistrlər, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər (qüvvədə olan qanunvericilikdə və dövlətlərarası razılaşmalarda digər hallar nəzərdə tutulmayıbsa,) dövlət sifarişi üzrə ayrılmış yerləri seçə bilməzdilər.

Seçilmiş ixtisaslaşmaların ərizə formalarında göstərilən ardıcıllığı müsabiqə zamanı hüquqi əsas kimi qəbul olunub və bakalavrlar topladıqları ballara əsasən müsabiqədən keçdikləri ixtisaslaşmaların birincisinə yerləşdiriliblər.

Müsabiqə zamanı ümumi balı eyni olan iki və daha çox bakalavrı fərqləndirmək üçün aşağıda qeyd edilən ardıcıllıqla əlavə göstəricilər nəzərə alınıb:

- bakalavriat səviyyəsi üzrə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG);
- ixtisas üzrə biliyin qiymətləndirilməsi imtahanından toplanılan bal;
- ümumi intellekt səviyyəsini *(məntiqi təfəkkürü)* yoxlayan testdən toplanılan bal;
- xarici dil üzrə testdən toplanılan bal.

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının magistraturasının tədrisi ingilis dilində olan ixtisaslaşmalarına, "ADA" Universitetinin və M.V.Lomonosov adına MDU-nun Bakı filialının magistraturalarına qəbul olmaq istəyən bakalavrlar qəbul imtahanının ikinci mərhələsi əvəzinə, həmin ali təhsil müəssisələrinin müəyyən etdiyi qəbul prosedurlarından keçiblər.

Cədvəl 2.1

Müsabiqə şərtləri

Magistratura üzrə ixtisaslar qrupunun (ixtisasın) adı	İmtahanın birinci mərhələsinin nəticələrinə qoyulan minimal tələblər*			İmtahanın ikinci mərhələsinin nəticəsinə qoyulan minimal tələblər		Ümumi bala qoyulan minimal tələblər	
	Fənlər üzrə minimal tələb		Mərhələ üzrə minimal tələb	Dövlət sifarişli yerlər üçün	Ödənişli yerlər üçün	Dövlət sifarişli yerlər üçün	Ödənişli yerlər üçün
	Fənnin adı	Minimal bal					
Təhsil ixtisasları qrupu Texniki və texnoloji ixtisaslar qrupu Səhiyyə, rifah və xidmət ixtisasları qrupu (Bədən tərbiyəsi və idman ixtisasından başqa)	Ümumi intellekt səviyyəsi (məntiqi təfəkkür)	15	**40 bal**	**25 bal**	**20 bal**	**65 bal**	**60 bal**
	İnformatika	5					
	Xarici dil	5					
Humanitar və sosial ixtisaslar qrupu	Ümumi intellekt səviyyəsi (məntiqi təfəkkür)	15	**50 bal**	**25 bal**	**20 bal**	**75 bal**	**70 bal**
	İnformatika	5					
	Xarici dil	5					
Təbiət ixtisasları qrupu İqtisadiyyat və idarəetmə ixtisasları qrupu	Ümumi intellekt səviyyəsi (məntiqi təfəkkür)	15	**45 bal**	**25 bal**	**20 bal**	**70 bal**	**65 bal**
	İnformatika	5					
	Xarici dil	5					
Mədəniyyət və incəsənət ixtisasları qrupu Kənd təsərrüfatı ixtisasları qrupu Xüsusi təyinatlı ixtisaslar qrupu Bədən tərbiyəsi və idman ixtisası	Ümumi intellekt səviyyəsi (məntiqi təfəkkür)	10	**30 bal**	**20 bal**	**15 bal**	**50 bal**	**45 bal**
	İnformatika	5					
	Xarici dil	5					

*** Tədrisi ingilis (alman) dilində olan ixtisaslaşmaların müsabiqəsində, bunlarla yanaşı, aşağıdakı şərtləri ödəyən bakalavrlar iştirak ediblər:**

- təhsili ödənişli əsaslarla həyata keçirilən ixtisaslaşmalar üzrə – imtahanın birinci mərhələsində ingilis (alman) dilindən topladıqları bal 15-dən az olmayan bakalavrlar;
- təhsili dövlət sifarişi əsasında həyata keçirilən ixtisaslaşmalar üzrə – imtahanın birinci mərhələsində ingilis (alman) dilindən topladıqları bal 20-dən az olmayan bakalavrlar.

Bu il ali təhsil müəssisələrinin magistratura səviyyəsinə ümumilikdə 8204 plan yeri ayrılmışdı. Bunlardan 5715 yer (69.66%) Azərbaycan bölməsi, 278 yer (3.39%) rus bölməsi, qalan 2211 yer (26.95%) isə hər iki bölmənin birgə müsabiqəsi üçün nəzərdə tutulmuşdu. Əvvəlki illə müqayisədə magistraturaya qəbul planı 2.02% (169 yer) azalmışdır. Dövlət sifarişi əsasında qəbul aparılan yerlər (3107 yer) qəbul planının 37.87%-ni təşkil etmişdir (şəkil 2.1). Qəbul planı üzrə yerlərin 7227-si dövlət, 977-si isə özəl ali təhsil müəssisələrinin payına düşmüşdür (şəkil 2.2).

QƏBUL PLANI



Şəkil 2.1



Şəkil 2.2

Plan yerlərinin təhsil formaları üzrə bölgüsünün müqayisəsi göstərir ki, 2019-cu ildə Azərbaycan və rus bölmələri üçün ayrılıqda olan plan yerləri hər iki bölmənin birgə müsabiqəsi üçün ayrılan yerlərin hesabına artıb. Belə ki, ötən illə müqayisədə Azərbaycan bölməsində plan yerlərinin ümumi plandakı nisbi çəkisi 66.89%-dən 69.66%-ə qədər, rus bölməsində isə 2.53%-dən 3.39%-ə qədər artıb, hər iki bölmənin birgə müsabiqəsi üçün ayrılan yerlərin nisbi çəkisi isə 30.57%-dən 26.95%-ə qədər azalıb.

Aşağıdakı cədvəldən göründüyü kimi, magistraturaya qəbul planında ən çox yer Azərbaycan Dövlət İqtisad Universitetinin payına düşüb. Bu təhsil müəssisəsinin qəbul planı dövlət ali təhsil müəssisələri üzrə ümumilikdə ayrılmış plan yerlərinin 21.99%-ni təşkil edib. Azərbaycan Dövlət İqtisad Universitetinin magistraturasına ayrılmış qəbul planı bu təhsil müəssisəsinin bakalavriat səviyyəsinə ayrılmış plan yerlərinin 42.62%-nə bərabər olub. Bu, həmin təhsil müəssisəsində magistr hazırlığının, həm də müxtəlif beynəlxalq layihələr əsasında aparılması ilə bağlıdır.

Cədvəl 2.2

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİ ÜZRƏ QƏBUL PLANLARI

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	QƏBUL PLANI			
		Azərbaycan bölməsinin bakalavrları üçün	Rus bölməsinin bakalavrları üçün	Hər iki bölmənin bakalavrlarının birgə müsabiqəsi üçün	Cəmi
1	Bakı Dövlət Universiteti	712	58	199	969
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	393	44	305	742
3	Azərbaycan Texniki Universiteti	378	11	25	414
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	207	0	24	231
5	Azərbaycan Tibb Universiteti	0	0	30	30
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	308	0	31	339
7	Azərbaycan Dövlət İqtisad Universiteti	1052	115	422	1589
8	Azərbaycan Dillər Universiteti	281	0	52	333
9	Bakı Slavyan Universiteti	107	14	14	135
10	Bakı Mühəndislik Universiteti	200	0	82	282
11	Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	81	15	6	102
12	Bakı Musiqi Akademiyası	0	0	50	50
13	Azərbaycan Milli Konservatoriyası	0	0	45	45
14	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	0	0	151	151
15	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	0	0	49	49
16	Azərbaycan Turizm və Menecment Universiteti	170	5	0	175
17	Bakı Xoreoqrafiya Akademiyası	9	0	5	14
18	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası	0	0	30	30
19	Milli Aviasiya Akademiyası	48	13	9	70
20	Azərbaycan Dövlət Dəniz Akademiyası	32	1	3	36
21	Bakı Ali Neft Məktəbi	0	0	65	65
22	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	10	0	0	10
23	Azərbaycan Milli Elmlər Akademiyası	0	0	138	138
24	Naxçıvan Dövlət Universiteti	246	0	0	246
25	Naxçıvan Müəllimlər İnstitutu	55	0	0	55
26	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	204	0	8	212
27	Gəncə Dövlət Universiteti	223	0	0	223
28	Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	81	0	39	120
29	Sumqayıt Dövlət Universiteti	203	2	2	207
30	Mingəçevir Dövlət Universiteti	36	0	0	36

Cədvəl 2.2 (ardı)

№	ALİ TƏHSİL MÜƏSSİSƏSİ	QƏBUL PLANI			
		Azərbaycan bölməsinin bakalavrları üçün	Rus bölməsinin bakalavrları üçün	Hər iki bölmənin bakalavrlarının birgə müsabiqəsi üçün	Cəmi
31	Lənkəran Dövlət Universiteti	104	0	0	104
32	Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası	10	0	0	10
33	Fövqəladə Hallar Nazirliyinin Akademiyası	15	0	0	15
34	Azərbaycan İlahiyyat İnstitutu	8	0	0	8
35	Azərbaycan Kooperasiya Universiteti	110	0	0	110
36	"Azərbaycan" Universiteti	106	0	20	126
37	Qərbi Kaspi Universiteti	0	0	104	104
38	Xəzər Universiteti	79	0	109	188
39	Bakı Avrasiya Universiteti	81	0	0	81
40	Bakı Qızlar Universiteti	16	0	0	16
41	"Odlar Yurdu" Universiteti	60	0	149	209
42	Bakı Biznes Universiteti	69	0	45	114
43	"Naxçıvan" Universiteti (Naxçıvan şəhəri)	21	0	0	21
	Cəmi	**5715**	**278**	**2211**	**8204**

Magistraturaya bütövlükdə 12684 nəfər bakalavr ərizə verib (2018-ci ildə bu rəqəm 12387 olub). Ərizələrin 90.68%-i (11502-si) Azərbaycan, 9.32%-i (1182-si) isə rus bölməsi üzrə olub. Sənəd verənlərin 43.42%-ni (5508 nəfər) oğlanlar, 56.58%-ni (7176 nəfər) isə qızlar təşkil edib. Onların da 7313 nəfəri (57.66%-i) bakalavriat səviyyəsinin builki məzunlarıdır və ali təhsil müəssisələrinə, əsasən, 2015-ci ildə daxil olanlardır. Həmin ildə 31699 nəfər gənc tələbə adını qazanmışdı.

Magistraturaya qəbul imtahanının I mərhələsi fevralın 24-də Bakı, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəran şəhərlərində keçirilib. Sual kitabçaları hər bir bakalavr üçün xüsusi avtomatlaşdırılmış xətt vasitəsilə (bu xətt xüsusi olaraq DİM-in keçirdiyi imtahanlarda sual kitabçalarının çapı və komplektləşdirilməsini həyata keçirir) fərdi qaydada çap olunub və imtahan zalları üzrə komplektləşdirilib. Sual kitabçasının xarici dil blokunda seçilən xarici dil üzrə test tapşırıqları təqdim olunub. Bütün fənlər üzrə tapşırıqlar 4 variantda hazırlanıb.

İmtahanda 12545 nəfər bakalavr iştirak edib. İmtahan materialları iki gün ərzində emal edilib. Nəticələr fevralın 26-da DİM-in internet saytında elan olunub.

II mərhələyə buraxılan bakalavrlar aprelin 26-dan mayın 7-dək internetdə öz ərizələrinə daxil olaraq bitirdikləri bakalavr ixtisasına uyğun qəbul proqramını seçiblər. Qəbul imtahanının II mərhələsi mayın 26-da Bakı, Naxçıvan və Gəncə şəhərlərində keçirilib. Sual kitabçaları hər bir bakalavr üçün xüsusi avtomatlaşdırılmış xətt vasitəsilə fərdi qaydada 1 variantda çap olunub və imtahan zalları üzrə komplektləşdirilib. İmtahanda köçürmə hallarının qarşısının alınması üçün eyni proqram üzrə imtahan verən bakalavrların imtahan zallarında bir-birindən aralı oturması təmin edilib.

İkinci mərhələdə 8705 nəfər (birinci mərhələdə iştirak edənlərin 69.39%-i) iştirak edib (bax: şəkil 2.3). Onların 43.42%-ni oğlanlar, 56.58%-ni isə qızlar təşkil ediblər. İkinci mərhələdə iştirak edənlərin 63.70%-i (5545 nəfər) bakalavriat səviyyəsinin builki məzunlarıdır.

QƏBUL İMTAHANININ MƏRHƏLƏLƏRİ ÜZRƏ NƏTİCƏLƏR	
I mərhələdən sonra	**II mərhələdən sonra**
	
Şəkil 2.3	Şəkil 2.4

İmtahan materialları iki gün ərzində emal edilib. İmtahanın nəticələri mayın 28-də DİM-in internet saytında elan olunub. Nəticələr elan olunduqdan sonra bakalavrlar iyunun 7-dən 18-dək qəbul aparılan ixtisaslaşmaların müsabiqəsində iştirak etmək üçün DİM-in internet saytının müvafiq səhifəsində öz ərizələrinə daxil olaraq ixtisaslaşma seçimi aparıblar. Qəbulun nəticələri iyunun 19-da DİM-in internet saytında elan olunub və "Magistr" jurnalının 5-ci sayında dərc edilib. Bakalavrların 1195 nəfəri ərizələrində yalnız dövlət sifarişi əsasında ayrılan yerləri, 3115 nəfəri isə yalnız ödənişli ixtisaslaşmaları seçib. Sonunculardan 10 nəfəri ərizələrində yalnız özəl ali təhsil müəssisələrinin ixtisaslaşmalarını göstərib. 3230 nəfər ərizəsində həm ödənişli təhsil forması üzrə olan, həm də dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən ixtisaslaşmaları qeyd edib.

Nəticələrə əsasən magistraturaya 6400 nəfər (ikinci mərhələdə iştirak edənlərin 73.52%-i) qəbul olub (bax: şəkil 2.4). İkinci mərhələdə iştirak edən bakalavrların Azərbaycan bölməsi üzrə 73.86%-i, rus bölməsi üzrə isə 69.86%-i qəbul olub. Ümumilikdə isə qəbul planı 78.01% dolub. Qəbul olanların 44.05%-ni (2819 nəfər) oğlanlar, 55.95%-ni (3581 nəfər) isə qızlar təşkil edib, 65.91%-i (4218 nəfər – 53.44% (2254 nəfər) oğlan, 46.56% (1964 nəfər) qız) cari ilin məzunlarıdır.

Magistraturaya dövlət sifarişi üzrə ayrılmış yerlərə qəbul olan 2803 nəfərin 44.35%-ni (1243 nəfər) oğlanlar, 55.65%-ni (1560 nəfər) qızlar təşkil ediblər, 73.14%-i (1075 nəfər - 52.44% oğlan, 975 nəfər - 47.56% qız) cari ilin məzunlarıdır.

Qəbul olan bakalavrların ayrı-ayrı təhsil formaları üzrə paylanması 2.5 saylı şəkildə və 2.3 saylı cədvəldə təqdim olunur. 2.3 saylı cədvəldən göründüyü kimi, qəbul planı dövlət ali təhsil müəssisələri üzrə 82.59%, özəl ali təhsil müəssisələri üzrə isə 44.11% dolub.

QƏBUL OLAN BAKALAVRLARIN TƏHSİL FORMALARI ÜZRƏ PAYLANMASI



Şəkil 2.5

Cədvəl 2.3

MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL OLAN BAKALAVRLARIN SAYI HAQQINDA MƏLUMAT

Ali TƏHSİL MÜƏSSİSƏLƏRİ	Qəbul planı	Qəbul edilibdir (o cümlədən dövlət sifarişi əsasında)			Qəbulolma faizi
		Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
Dövlət	7227	5466 (2566)	503 (158)	5969 (2724)	82.59
Özəl	977	417 (78)	14 (1)	431 (79)	44.11
C Ə M İ	**8204**	**5883 (2644)**	**517 (159)**	**6400 (2803)**	**78.01**

2.4 saylı cədvəldə magistraturaya tələbə qəbulunun qəbul proqramları üzrə nəticələri təqdim edilmişdir. Cədvəldə imtahanın birinci mərhələsindən sonra keçirilən proqram və ixtisaslaşma seçimində (imtahanın ikinci mərhələsində) iştirak edən bakalavrların (ərizələrin) sayı da təqdim edilmişdir. Buradan göründüyü kimi, 3, 4, 5, 6, 7, 8, 9, 10, 11, 12, 13, 15, 19, 20, 21, 23, 25, 26, 30, 31, 33, 36, 38, 39, 41, 43, 44, 45, 46, 47, 50, 51, 52, 54, 55, 56, 59, 61, 62, 68, 69, 70, 72, 73, 74 və 75 saylı proqramlara aid olan ixtisaslaşmalar üzrə təqdim edilən ərizələrin sayı ayrılmış plan yerlərinin sayından azdır. Sadalanan 46 proqram magistratura səviyyəsinə qəbul aparılan bütün proqramların 61.33%-ni təşkil edir. Beləliklə, qəbul imtahanının I mərhələsindən sonra artıq qəbul proqramlarının əksəriyyəti üzrə qəbul planının kəsirdə qalacağı bəlli olmuşdu. İmtahanın II mərhələsindən sonra isə daha bir neçə proqram üzrə qəbul planının kəsirdə qaldığı məlum oldu. Cədvəldən göründüyü kimi, yalnız 2 (060606 Neft-qaz mühəndisliyi), 17 (060640 Geodeziya və xəritəçilik mühəndisliyi, 060705 Yer quruluşu, torpaq və şəhər kadastrı), 29 (060605 Dağ-mədən mühəndisliyi), 48 (060209 Psixologiya), 57 (060804 Nəqliyyat servisi (nəqliyyat növləri üzrə)), 60 (060652 Kosmik texnika və texnologiyalar mühəndisliyi), 63 (XTM 060003 Pirotexniki vasitələrin texnologiyası), 64 (XTM 060004 Çoxkanallı radiorele və troposfer rabitənin yerüstü aparatlarının hazırlanması, istismarı və təmiri), 65 (XTM 060005 Kompozisiya materiallarından müdafiə təyinatlı məmulatların layihələndirilməsi və istehsalı), 66 (060606 Neft-qaz mühəndisliyi), 67 (060641 Kimya mühəndisliyi) və 71 (060650 Yanğın təhlükəsizliyi mühəndisliyi) saylı proqramlara aid olan ixtisaslaşmalar üzrə qəbul planı tam dolmuşdur. Qalan 63 proqram üzrə qəbul planı bu və ya digər səviyyədə kəsirdə qalmışdır. Bunlardan 10 proqram üzrə isə plan yerlərinin 50%-dən çoxu, 1 proqram (060311 Aktyor sənəti) üzrə isə plan yerləri tam boş qalmışdır.

Ən yüksək qəbul planına malik olan proqramlardan 56 saylı proqram üzrə qəbul planı 83.14%, 26 saylı proqram üzrə isə 67.45% dolub. Bu iki proqram üzrə birlikdə götürülmüş qəbul planı ümumi qəbul planının 35.71%-ni, bu proqramlara daxil olan ixtisaslaşmalara qəbul olanlar isə ümumilikdə magistraturaya qəbul olanların 34.92%-ni təşkil edir.

Qəbul olanların 91.92 faizini Azərbaycan, 8.08 faizini isə rus bölməsinin bakalavrları təşkil ediblər. Dövlət sifarişi əsasında qəbul olanların tərkibi isə bir qədər fərqli olub. Burada Azərbaycan bölməsini təmsil edən bakalavrların nisbi sayı artaraq 94.33%-ə qalxmış, rus bölməsində isə azalaraq 5.67%-ə enmişdir. Dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilən yerlərə müsabiqənin bölmələr üzrə birgə və yüksək müsabiqə şərtləri əsasında aparıldığını nəzərə alaraq demək olar ki, burada Azərbaycan bölməsini təmsil edən bakalavrların qəbulolma faizinin qalxması bilavasitə bu bölmədə yüksək hazırlıqlı gənclərin çəkisinin nisbətən yüksək olması ilə bağlıdır.

Cədvəl 2.4

MAGİSTRATURAYA QƏBULUN NƏTİCƏLƏRİ
(qəbul proqramları üzrə)

Proqramın №-si	İxtisasın adı və şifri	Azərbaycan bölməsi		Rus bölməsi		Bölmələr üzrə cəmi			
		Ərizələrin sayı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)	Ərizələrin sayı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)	Plan	Ərizələrin sayı	Qəbul olub (o cümlədən, dövlət sifarişi əsasında)	Qəbul planının dolma faizi
1	060508 Geologiya 060602 Geologiya mühəndisliyi 060603 Hidrogeologiya mühəndisliyi 060604 Geofizika mühəndisliyi	96	73 (47)	9	8 (3)	96	105	81 (50)	84.38
2	060606 Neft-qaz mühəndisliyi	70	47 (37)	7	3 (1)	50	77	50 (38)	100.00
3	060608 Elektroenergetika mühəndisliyi 060626 Elektrik mühəndisliyi 060706 Aqromühəndislik	79	72 (50)	11	11 (7)	123	90	83 (57)	67.48
4	060609 İstilik energetikası mühəndisliyi 060610 Enerji maşınqayırması mühəndisliyi	21	20 (15)	0	0 (0)	40	21	20 (15)	50.00
19	Milli Aviasiya Akademiyası	70	36	34	22	64.71
20	Azərbaycan Dövlət Dəniz Akademiyası	36	14	22	2	9.09
21	Bakı Ali Neft Məktəbi	65	10	55	54	98.18
22	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	10	8	2	1	50.00
23	Azərbaycan Milli Elmlər Akademiyası*	138	93	35	27	77.14
24	Naxçıvan Dövlət Universiteti	246	16	230	123	53.48
25	Naxçıvan Müəllimlər İnstitutu	55	11	44	11	25.00
26	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	212	94	118	66	55.93
27	Gəncə Dövlət Universiteti	223	58	165	105	63.64
28	Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	120	8	112	70	62.50
29	Sumqayıt Dövlət Universiteti	207	33	174	109	62.64
30	Mingəçevir Dövlət Universiteti	36	5	31	30	96.77
31	Lənkəran Dövlət Universiteti	104	12	92	55	59.78
32	Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası*	10	0	0	0	---
33	Fövqəladə Hallar Nazirliyinin Akademiyası*	15	14	0	0	---
34	Azərbaycan İlahiyyat İnstitutu*	8	2	0	0	---
35	Azərbaycan Kooperasiya Universiteti	110	0	110	14	12.73
36	"Azərbaycan" Universiteti	126	7	119	44	36.97
37	Qərbi Kaspi Universiteti	104	19	85	35	41.18
38	Xəzər Universiteti	188	45	143	57	39.86
39	Bakı Avrasiya Universiteti	81	0	81	26	32.10
40	Bakı Qızlar Universiteti	16	0	16	16	100.00
41	Odlar Yurdu Universiteti	209	6	203	74	36.45
42	Bakı Biznes Universiteti	114	0	114	78	68.42
43	"Naxçıvan" Universiteti (Naxçıvan şəhəri)	21	0	21	8	38.10
	Cəmi	**8204**	**2803**	**5370***	**3597**	**66.60**

Magistraturaya qəbul olanların ali təhsil müəssisələri üzrə sayı 2.8 saylı cədvəldə təqdim olunub. Cədvəldən görünür ki, bu il yalnız Bakı Qızlar Universitetində plan yerləri tam dolub. Bakı Ali Neft Məktəbi, Bakı Musiqi Akademiyası, Mingəçevir Dövlət Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dövlət İqtisad Universiteti, Fövqəladə Hallar Nazirliyinin Akademiyası, Azərbaycan Dövlət Pedaqoji Universiteti və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasına qəbulolma faizi 90 faizdən yuxarıdır.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasına ayrılan 10 yerin hamısına yalnız dövlət sifarişi əsasında qəbul aparılıb və bu yerlərin hamısı boş qalıb. Magistraturaya qəbulda plan yerlərinin dolma göstəricisi üzrə zəif nəticələrdən biri də Azərbaycan Kooperasiya Universitetinə (12.73%) aiddir.

Cədvəl 2.8

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN (DÖVLƏT VƏ ÖZƏL) MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL OLAN BAKALAVRLARIN SAYI HAQQINDA MƏLUMAT

№	Ali təhsil müəssisəsinin adı	Qəbul planı	Qəbul edilibdir (o cümlədən dövlət sifarişi əsasında)			Qəbulolma faizi
			Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
1	Bakı Dövlət Universiteti	969	709 (464)	81 (38)	790 (502)	81.53
2	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	742	575 (439)	79 (40)	654 (479)	88.14
3	Azərbaycan Texniki Universiteti	414	287 (206)	21 (11)	308 (217)	74.40
4	Azərbaycan Memarlıq və İnşaat Universiteti	231	199 (129)	3 (1)	202 (130)	87.45
5	Azərbaycan Tibb Universiteti	30	11 (8)	2 (2)	13 (10)	43.33
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti	339	311 (124)	2 (1)	313 (125)	92.33
7	Azərbaycan Dövlət İqtisad Universiteti	1589	1317 (381)	210 (33)	1527 (414)	96.10
8	Azərbaycan Dillər Universiteti	333	232 (93)	17 (1)	249 (94)	74.77
9	Bakı Slavyan Universiteti	135	95 (30)	17 (1)	112 (31)	82.96
10	Bakı Mühəndislik Universiteti	282	210 (38)	2 (0)	212 (38)	75.18
11	Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	102	82 (73)	17 (5)	99 (78)	97.06
12	Bakı Musiqi Akademiyası	50	41 (29)	8 (6)	49 (35)	98.00
13	Azərbaycan Milli Konservatoriyası	45	38 (10)	0 (0)	38 (10)	84.44
14	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	151	86 (38)	3 (3)	89 (41)	58.94
15	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	49	42 (36)	1 (1)	43 (37)	87.76
16	Azərbaycan Turizm və Menecment Universiteti	175	151 (53)	5 (2)	156 (55)	89.14
17	Bakı Xoreoqrafiya Akademiyası	14	3 (0)	1 (0)	4 (0)	28.57
18	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası	30	22 (14)	2 (2)	24 (16)	80.00
19	Milli Aviasiya Akademiyası	70	42 (30)	16 (6)	58 (36)	82.86
20	Azərbaycan Dövlət Dəniz Akademiyası	36	15 (13)	1 (1)	16 (14)	44.44
21	Bakı Ali Neft Məktəbi	65	60 (10)	4 (0)	64 (10)	98.46
22	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	10	9 (8)	0 (0)	9 (8)	90.00
23	Azərbaycan Milli Elmlər Akademiyası	138	116 (90)	4 (3)	120 (93)	86.96
24	Naxçıvan Dövlət Universiteti	246	139 (16)	0 (0)	139 (16)	56.50
25	Naxçıvan Müəllimlər İnstitutu	55	22 (11)	0 (0)	22 (11)	40.00
26	Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)	212	157 (94)	3 (0)	160 (94)	75.47
27	Gəncə Dövlət Universiteti	223	163 (58)	0 (0)	163 (58)	73.09
28	Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)	120	76 (7)	2 (1)	78 (8)	65.00
29	Sumqayıt Dövlət Universiteti	207	140 (33)	2 (0)	142 (33)	68.60
30	Mingəçevir Dövlət Universiteti	36	35 (5)	0 (0)	35 (5)	97.22
31	Lənkəran Dövlət Universiteti	104	67 (12)	0 (0)	67 (12)	64.42
32	Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası	10	0 (0)	0 (0)	0 (0)	0.00
33	Fövqəladə Hallar Nazirliyinin Akademiyası	15	14 (14)	0 (0)	14 (14)	93.33
34	Azərbaycan İlahiyyat İnstitutu	8	2 (2)	0 (0)	2 (2)	25.00
35	Azərbaycan Kooperasiya Universiteti	110	14 (0)	0 (0)	14 (0)	12.73
36	"Azərbaycan" Universiteti	126	51 (7)	0 (0)	51 (7)	40.48
37	Qərbi Kaspi Universiteti	104	50 (18)	4 (1)	54 (19)	51.92

Cədvəl 2.8 (ardı)

№	Ali təhsil müəssisəsinin adı	Qəbul planı	Qəbul edilibdir (o cümlədən dövlət sifarişi əsasında)			Qəbulolma faizi
			Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
38	Xəzər Universiteti	188	98 (45)	4 (0)	102 (45)	54.26
39	Bakı Avrasiya Universiteti	81	26 (0)	0 (0)	26 (0)	32.10
40	Bakı Qızlar Universiteti	16	16 (0)	0 (0)	16 (0)	100.00
41	"Odlar Yurdu" Universiteti	209	77 (6)	3 (0)	80 (6)	38.28
42	Bakı Biznes Universiteti	114	75 (0)	3 (0)	78 (0)	68.42
43	"Naxçıvan" Universiteti (Naxçıvan şəhəri)	21	8 (0)	0 (0)	8 (0)	38.10
	C Ə M İ	**8204**	**5883 (2644)**	**517 (159)**	**6400 (2803)**	**78.01**

Magistraturaya qəbul imtahanının I mərhələsinin nəticələri əsasında bakalavrların topladıqları balların paylanmasının ədədi xarakteristikaları müəyyənləşdirilib. Paylanmanın variasiya sırası (cədvəl 2.9) tərtib olunub və qrafiki (qrafik 2.1) qurulub. Qrafikdə bakalavrların topladıqları balların riyazi gözləməsi (orta qiyməti) (M), bakalavrlar seçməsini sayca iki bərabər hissəyə ayıran medianası (Me) və balların paylanma histoqramları təsvir edilib. Təhlil göstərir ki, bakalavrların ballarının paylanma histoqramı, demək olar ki, simmetrikdir və normal paylanmaya yaxındır.

Xatırladaq ki, magistratura səviyyəsinə qəbul imtahanının I mərhələsində bakalavrlardan heç biri maksimal balı (100 bal) toplaya bilməyib. Toplanılan ən yüksək bal 97 olub. Bakalavrların yarısı 51.36 baldan yüksək nəticə göstərib. Ayrı-ayrı fənlər üzrə orta göstəricilər belədir: məntiq üzrə 54.26%, informatika üzrə 49.89%, ingilis dili üzrə 51.06%, fransız dili üzrə 47.11%, alman dili üzrə 46.18%, rus dili üzrə 46.95%.

İmtahanın ikinci mərhələsində toplanılan maksimal bal 50-yə, orta göstərici isə 29.01-ə bərabər olmuşdur.

Cədvəl 2.9

Bal intervalları	Bakalavrların sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tezliklərin cəmi, %-lə
0	0	0.00	0.00
1 - 5	2	0.02	0.02
6 - 10	8	0.06	0.08
11 - 15	27	0.22	0.29
16 - 20	72	0.57	0.87
21 - 25	213	1.70	2.57
26 - 30	478	3.81	6.38
31 - 35	789	6.29	12.67
36 - 40	1114	8.88	21.55
41 - 45	1464	11.67	33.22
46 - 50	1652	13.17	46.39
51 - 55	1664	13.26	59.65
56 - 60	1566	12.48	72.13
61 - 65	1223	9.75	81.88
66 - 70	904	7.21	89.09
71 - 75	637	5.08	94.17
76 - 80	396	3.16	97.32
81 - 85	213	1.70	99.02
86 - 90	100	0.80	99.82
91 - 95	20	0.16	99.98
96 - 100	3	0.02	100.00

Magistraturaya qəbul imtahanının I mərhələsində toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə :	52.16	Minimal bal :	2
Ortakvadratik meyil :	14.37	Maksimal bal :	97
Moda :	52	Bakalavrların sayı :	12545
Mediana :	51.36		

Qrafik 2.1



Magistraturaya qəbulun nəticələri əsasında ayrı-ayrı ali təhsil müəssisələrini bitirən məzunların imtahanın birinci mərhələsində topladıqları ballar təhlil olunub. İmtahanda Azərbaycan Respublikasının 57 ali təhsil müəssisəsinin məzunları iştirak ediblər. Onların göstəriciləri aşağıdakı 2.10 saylı cədvəldə təqdim edilir. Cədvəldən göründüyü kimi, imtahanda ən azı 10 məzunu iştirak edən ali təhsil müəssisələri arasında ən yüksək nəticəni Bakı Ali Neft Məktəbinin məzunları göstəriblər. Bu təhsil müəssisəsinin məzunlarının qəbul imtahanının I mərhələsində bütün fənlər üzrə topladıqları orta bal göstəricisi 79.2 olub. Məntiq, xarici dil və informatika üzrə də ən yüksək nəticələri Bakı Ali Neft Məktəbinin məzunları göstəriblər: məntiq üzrə - 38.5, informatika üzrə - 18.0, xarici dil üzrə - 22.7 bal. Bundan başqa, məntiq üzrə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası (34.6), Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (34.2), ADA Universiteti (31.0), Fövqəladə Hallar Nazirliyinin Akademiyası (31.0), Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (30.5), Bakı Mühəndislik Universiteti (30.2) və Milli Aviasiya Akademiyası (30.0), informatika üzrə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası (17.1), Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası (16.9), Milli Aviasiya Akademiyası (14.9), Fövqəladə Hallar Nazirliyinin Akademiyası (14.5) və Dövlət Sərhəd Xidmətinin Akademiyası (14.0), xarici dil üzrə isə ADA Universiteti (22.4) və Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (20.1) məzunları fərqlənib lər.

Bu mərhələdə ən zəif nəticəni Azərbaycan Milli Konservatoriyasının və Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının məzunları göstəriblər. İmtahanda bu təhsil müəssisələrinin, müvafiq olaraq, 62 və 75 məzunu iştirak edib. Azərbaycan Milli Konservatoriyasının məzunlarının I mərhələ üzrə bütün fənlərdən topladıqları balların orta qiyməti cəmi 32.5-ə, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının məzunlarının I mərhələ üzrə bütün fənlərdən topladıqları balların orta qiyməti isə cəmi 30.5-ə bərabərdir.

2.10 saylı cədvəldə ali təhsil müəssisələri üzrə bakalavriat səviyyəsini başa vurmuş məzunların magistratura səviyyəsinə qəbulolma göstəriciləri də təqdim edilmişdir. Təhlil göstərir ki, magistratura səviyyəsinə ən yüksək qəbulolma faizi Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Milli Aviasiya Akademiyası, Azərbaycan Dövlət İqtisad Universiteti və Bakı Musiqi Akademiyasının məzunlarına məxsusdur. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyasının 22 nəfər məzunundan 18-i, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının hər 100 nəfər məzunundan 75-76-sı, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin, Milli Aviasiya Akademiyasının və Azərbaycan Dövlət İqtisad Universitetinin hər 100 nəfər məzunundan 63-64-ü, Bakı Musiqi Akademiyasının 88 nəfər məzunundan 55-i magistraturaya qəbul olmuşdur.

Moskva Dövlət Universitetinin Bakı filialı və ADA Universiteti üzrə magistraturaya qəbul təhsil müəssisələrinin özləri tərəfindən həyata keçirildiyi üçün 2.10 saylı cədvəldə bu təhsil müəssisələrinə qəbul olan bakalavrların sayı öz əksini tapmayıb. Bununla belə, Moskva Dövlət Universitetinin Bakı filialının məzunlarından 25-nin, ADA Universitetinin məzunlarından isə 34-nün öz ali təhsil müəssisələrinə qəbul olduğunu nəzərə alsaq, Moskva Dövlət Universitetinin Bakı filialı və ADA Universitetinin, müvafiq olaraq, 69 və 142 məzunundan 37-sinin və 83-nün magistraturaya qəbulolma faktı ortaya çıxar.

Cədvəl 2.10

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ MƏZUNLARININ MAGİSTRATURAYA QƏBUL İMTAHANININ NƏTİCƏLƏRİ

№	Ali təhsil müəssisəsi	Baka-lavrların ümumi sayı	I mərhələ üzrə orta bal	Məntiq üzrə orta bal	İnfor-matika üzrə orta bal	Xarici dil üzrə orta bal	II mərhələdə iştirak edənlərin		İxtisas üzrə orta bal	II mərhələni keçənlərin		Qəbul olan bakalavrların	
							sayı	faizi		sayı	faizi	sayı	faizi
1	Bakı Dövlət Universiteti	2194	55.7	28.5	13.5	13.6	1660	75.66	30.5	1497	68.23	1244	56.70
2	Azərbaycan Dövlət İqtisad Universiteti	1470	57.5	29.4	13.4	14.7	1119	76.12	31.0	1002	68.16	931	63.33
3	Azərbaycan Dövlət Neft və Sənaye Universiteti	1094	58.3	30.5	13.7	14.0	903	82.54	29.3	781	71.39	694	63.44
4	Azərbaycan Dövlət Pedaqoji Universiteti	973	48.6	25.9	12.3	10.3	661	67.93	27.6	566	58.17	431	44.30
5	Azərbaycan Dillər Universiteti	934	53.5	25.8	13.0	14.7	682	73.02	28.2	591	63.28	506	54.18

Cədvəl 2.10 (ardı)

№	Ali təhsil müəssisəsi	Bakalavrların ümumi sayı	I mərhələ üzrə orta bal	Məntiq üzrə orta bal	İnformatika üzrə orta bal	Xarici dil üzrə orta bal	II mərhələdə iştirak edənlərin		İxtisas üzrə orta bal	II mərhələni keçənlərin		Qəbul olan bakalavrların	
							sayı	faizi		sayı	faizi	sayı	faizi
6	Azərbaycan Texniki Universiteti	625	51.1	27.9	12.7	10.5	467	74.72	28.6	401	64.16	352	56.32
7	Gəncə Dövlət Universiteti	430	45.6	24.4	11.2	9.9	262	60.93	26.2	218	50.70	166	38.60
8	Azərbaycan Memarlıq və İnşaat Universiteti	410	49.2	27.0	11.7	10.5	289	70.49	27.4	254	61.95	197	48.05
9	Azərbaycan Dövlət Aqrar Universiteti	346	45.4	24.8	10.9	9.6	241	69.65	27.0	210	60.69	186	53.76
10	Sumqayıt Dövlət Universiteti	341	46.3	26.3	11.3	8.7	198	58.06	25.7	155	45.45	123	36.07
11	Bakı Mühəndislik Universiteti	319	59.1	30.2	13.3	15.5	230	72.10	28.6	197	61.76	165	51.72
12	Bakı Slavyan Universiteti	259	48.5	23.8	11.2	13.6	160	61.78	26.1	130	50.19	111	42.86
13	Naxçıvan Dövlət Universiteti	224	47.6	26.0	11.8	9.8	150	66.96	24.4	112	50.00	103	45.98
14	Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası	202	71.2	34.2	16.9	20.1	169	83.66	34.5	157	77.72	153	75.74
15	Azərbaycan Texnologiya Universiteti	181	43.0	24.2	10.3	8.4	98	54.14	25.7	82	45.30	71	39.23
16	Lənkəran Dövlət Universiteti	165	47.5	27.5	11.8	8.2	106	64.24	24.9	83	50.30	60	36.36
17	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	154	37.2	19.5	8.8	8.9	91	59.09	29.4	82	53.25	73	47.40
18	Milli Aviasiya Akademiyası	142	59.6	30.0	14.9	14.7	120	84.51	29.4	106	74.65	90	63.38
19	ADA Universiteti	142	66.8	31.0	13.4	22.4	74	52.11	34.9	69	48.59	49	34.51
20	Xəzər Universiteti	117	47.4	23.8	10.9	12.8	60	51.28	23.4	41	35.04	32	27.35
21	Azərbaycan Turizm və Menecment Universiteti	108	50.5	26.2	11.7	12.6	75	69.44	27.5	63	58.33	55	50.93
22	Azərbaycan Kooperasiya Universiteti	102	42.2	22.6	9.9	9.7	43	42.16	26.3	33	32.35	31	30.39
23	Bakı Biznes Universiteti	89	44.7	24.7	11.1	8.9	46	51.69	22.8	32	35.96	31	34.83
24	Bakı Musiqi Akademiyası	88	38.3	20.0	8.2	10.1	66	75.00	40.5	66	75.00	55	62.50
25	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası	88	38.4	20.0	8.6	9.9	62	70.45	44.0	62	70.45	50	56.82
26	"Azərbaycan" Universiteti	87	42.6	22.7	10.1	9.8	42	48.28	24.0	28	32.18	25	28.74
27	Bakı Qızlar Universiteti	87	43.9	23.7	10.8	9.4	49	56.32	25.5	40	45.98	18	20.69
28	"Odlar Yurdu" Universiteti	80	41.2	22.0	9.7	9.5	42	52.50	25.4	34	42.50	23	28.75
29	Azərbaycan Müəllimlər İnstitutu	76	42.4	24.0	9.9	8.5	30	39.47	27.1	25	32.89	17	22.37
30	Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası	75	30.5	16.7	6.9	7.0	27	36.00	26.7	25	33.33	25	33.33
31	Moskva Dövlət Universitetinin Bakı filialı	69	54.9	26.2	10.6	18.1	23	33.33	28.3	13	18.84	12	17.39
32	Mingəçevir Dövlət Universiteti	69	45.0	25.5	10.9	8.6	42	60.87	24.4	38	55.07	29	42.03
33	Qərbi Kaspi Universiteti	66	42.4	21.8	9.4	11.2	28	42.42	20.5	17	25.76	13	19.70
34	Azərbaycan Dövlət Dəniz Akademiyası	63	44.4	24.6	9.6	10.1	36	57.14	28.0	32	50.79	29	46.03
35	Azərbaycan Milli Konservatoriyası	62	32.5	18.9	6.7	7.0	32	51.61	41.2	31	50.00	29	46.77
36	Bakı Ali Neft Məktəbi	62	79.2	38.5	18.0	22.7	52	83.87	30.6	48	77.42	37	59.68
37	Bakı Avrasiya Universiteti	60	39.9	21.0	9.9	9.0	25	41.67	23.2	17	28.33	12	20.00
38	Fövqəladə Hallar Nazirliyinin Akademiyası	51	57.0	31.0	14.5	11.5	31	60.78	33.5	28	54.90	15	29.41
39	"Qafqaz" Universiteti	49	53.3	25.9	11.9	15.4	32	65.31	26.4	26	53.06	21	42.86
40	Azərbaycan Tibb Universiteti	46	53.5	28.4	12.6	12.5	28	60.87	28.9	22	47.83	20	43.48
41	Elm və təhsil Mərkəzi "Təfəkkür" Universiteti	45	39.0	20.6	9.0	9.4	15	33.33	22.2	9	20.00	7	15.56
42	Naxçıvan Müəllimlər İnstitutu	45	41.9	23.2	10.7	8.0	26	57.78	25.3	24	53.33	24	53.33
43	Naxçıvan Özəl Universiteti	38	44.0	23.6	11.3	9.0	20	52.63	23.5	17	44.74	14	36.84
44	Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası	35	47.1	25.2	11.5	10.4	15	42.86	27.5	13	37.14	13	37.14

Cədvəl 2.10 (ardı)

№	Ali təhsil müəssisəsi	Bakalavrların ümumi sayı	I mərhələ üzrə orta bal	Məntiq üzrə orta bal	İnformatika üzrə orta bal	Xarici dil üzrə orta bal	II mərhələdə iştirak edənlərin		İxtisas üzrə orta bal	II mərhələni keçənlərin		Qəbul olan bakalavrların	
							sayı	faizi		sayı	faizi	sayı	faizi
45	Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası	22	70.9	34.6	17.1	19.1	19	86.36	34.4	19	86.36	18	81.82
46	Bakı İslam Universiteti	21	35.5	19.0	8.8	7.7	3	14.29	21.3	2	9.52	2	9.52
47	Azərbaycan Beynəlxalq Universiteti	20	44.2	23.0	10.3	10.9	11	55.00	25.2	7	35.00	6	30.00
48	Azərbaycan İctimai-Siyasi Universiteti	9	45.0	22.4	9.4	13.1	6	66.67	26.7	4	44.44	3	33.33
49	Bakı "Asiya" Universiteti	6	41.5	18.5	9.7	13.3	3	50.00	26.7	3	50.00	3	50.00
50	Azərbaycan İlahiyyat İnstitutu	6	49.3	27.8	13.3	8.2	3	50.00	18.3	1	16.67	1	16.67
51	Polis Akademiyası	5	47.8	23.6	13.2	11.0	2	40.00	37.0	1	20.00	1	20.00
52	H.Əliyev adına Ali Hərbi Məktəb	4	37.0	18.5	8.3	10.3	1	25.00	36.0	1	25.00	1	25.00
53	Bakı Xoreoqrafiya Akademiyası	3	29.3	18.7	6.0	4.7	1	33.33	14.0	1	33.33	1	33.33
54	Gəncə Elm-Təhsil Mərkəzi	2	45.5	24.5	9.0	12.0	1	50.00	20.0	1	50.00	1	50.00
55	Bakı Sosial İdarəetmə və Politologiya İnstitutu	1	40.0	14.0	13.0	13.0	1	100.0	25.0	1	100.0	1	100.0
56	Milli Təhlükəsizlik Nazirliyinin H.Əliyev adına Akademiyası	1	37.0	15.0	10.0	12.0	0	0.00	-	0	0.00	0	0.00
57	Dövlət Sərhəd Xidmətinin Akademiyası	1	54.0	27.0	14.0	13.0	0	0.00	-	0	0.00	0	0.00

Ayrılıqda hər bir ali təhsil müəssisəsini təmsil edən bakalavrların diplom üzrə orta balları ilə magistraturaya qəbul imtahanının birinci mərhələsində topladıqları ballar arasında statistik əlaqəni əks etdirən korrelyasiya göstəricisi hesablanmışdır. Ali təhsil müəssisələri üzrə ayrılıqda hesablanan korrelyasiya əmsallarının təhlili göstərir ki, bütövlükdə götürdükdə, bal göstəriciləri arasında korrelyasiya (0.42) zəifdir. Ali təhsil müəssisələrinin çoxunu təmsil edən bakalavrların müvafiq bal göstəriciləri arasındakı korrelyasiya əmsalının qiyməti 0.33-0.56 diapazonunda yerləşir (ən yüksək göstərici (0.59) Azərbaycan Turizm və Menecment Universitetinin bakalavrlarına aiddir).

Aşağıdakı 2.11 saylı cədvəldə hər bir ali təhsil müəssisəsinin magistraturasına qəbul olan bakalavrların ümumi sayı, o cümlədən qəbul olan builki və əvvəlki illərin məzunlarının sayı, həmçinin onların Bakı şəhərində və regionlarda yerləşən dövlət ali təhsil müəssisələri və özəl ali təhsil müəssisələri üzrə tərkibi verilib. Cədvəldən görünür ki, ümumilikdə, ali təhsil müəssisələrinə qəbul olanların, orta hesabla, 46.69%-ni öz məzunları, 43.98%-ni Bakı şəhərində yerləşən dövlət ali təhsil müəssisələrinin, 5.69%-ni regionlarda yerləşən dövlət ali təhsil müəssisələrinin, 3.33%-ni özəl ali təhsil müəssisələrinin, 0.31%-ni isə xarici ölkələrdəki ali təhsil müəssisələrinin məzunları təşkil edirlər. Qəbul olanların 65.91%-i cari ilin, 34.09%-i isə əvvəlki illərin məzunlarıdır. Azərbaycan Tibb Universiteti, Bakı Slavyan Universiteti, Bakı Xoreoqrafiya Akademiyası, Naxçıvan Müəllimlər İnstitutu, Lənkəran Dövlət Universiteti, Azərbaycan Kooperasiya Universiteti, "Azərbaycan" Universitetindən qəbul olan bakalavrlar arasında əvvəlki illərin məzunları üstünlük təşkil edirlər.

Ali təhsil müəssisələri üzrə orta respublika göstəricilərini ayrılıqda ali təhsil müəssisələrinin göstəriciləri ilə müqayisə etdikdə məlum olur ki, Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, Bakı Musiqi Akademiyası, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası, Bakı şəhərində yerləşən texniki ali təhsil müəssisələri, qəbul aparılan ixtisaslaşmalar üzrə inhisarçı olan ali təhsil müəssisələri, eləcə də Naxçıvan Dövlət Universiteti, Gəncə Dövlət Universiteti və Azərbaycan Dövlət Aqrar Universitetinin magistraturalarına qəbul olan bakalavrlar, əsasən, həmin ali təhsil müəssisələrinin öz məzunlarıdır.

Bakı Slavyan Universiteti, Bakı Mühəndislik Universiteti, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, Azərbaycan Turizm və Menecment Universiteti, Bakı Xoreoqrafiya Akademiyası, Sumqayıt Dövlət Universiteti, Bakı Ali Neft Məktəbi, Azərbaycan Milli Elmlər Akademiyası və Bakı şəhərində yerləşən özəl ali təhsil müəssisələrinin magistraturalarına qəbulda Bakı şəhərində yerləşən digər dövlət ali təhsil müəssisələrinin məzunları üstünlük təşkil etmişlər.

Regionlarda yerləşən dövlət ali təhsil müəssisələrinin məzunları daha çox öz ali təhsil müəssisələrinə və regionlarda yerləşən digər ali təhsil müəssisələrinin magistraturalarına qəbul olmuşlar.

Özəl universitetlərin məzunları ali təhsil müəssisələrinə qəbul olanların çox az hissəsini təşkil ediblər (cəmi 256 nəfər). Onların 50 nəfəri Azərbaycan Dövlət İqtisad Universitetinə, 43 nəfəri bitirdiyi ali təhsil müəssisəsinə, 19 nəfəri Azərbaycan Dövlət Pedaqoji Universitetinə, 15 nəfəri Bakı Dövlət Universitetinə, 13 nəfəri Bakı Mühəndislik Universitetinə, 16 nəfəri Azərbaycan Turizm və Menecment Universitetinə, 29 nəfəri digər özəl ali təhsil müəssisələrinə, 34 nəfəri regionlarda yerləşən dövlət ali təhsil müəssisələrinə və 37 nəfəri Bakıda yerləşən digər dövlət ali təhsil müəssisələrinə qəbul olub.

Cədvəl 2.11

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN MAGİSTRATURA SƏVİYYƏSİNƏ QƏBUL OLMUŞ BAKALAVRLARIN BİTİRDİKLƏRİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ TƏRKİBİ

№	Ali təhsil müəssisəsi	Qəbul olan-ların sayı	Öz məzunları		Digər ali təhsil müəssisələrinin məzunları							
			sayı	faizi	Bakı şəhərinin dövlət a.t.m.		Regionların dövlət a.t.m.		Özəl a.t.m.		Xarici a.t.m.	
					sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
1	**Bakı Dövlət Universiteti**	790	511	64.68	229	28.99	34	4.30	15	1.90	1	0.13
	cari ilin məzunları	498	328	41.52	148	18.73	18	2.28	4	0.51	0	0.00
	əvvəlki illərin məzunları	292	183	23.16	81	10.25	16	2.03	11	1.39	1	0.13
2	**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**	654	376	57.49	248	37.92	16	2.45	7	1.07	7	1.07
	cari ilin məzunları	500	313	47.86	177	27.06	7	1.07	3	0.46	0	0.00
	əvvəlki illərin məzunları	154	63	9.63	71	10.86	9	1.38	4	0.61	7	1.07
3	**Azərbaycan Texniki Universiteti**	308	183	59.42	110	35.71	12	3.90	3	0.97	0	0.00
	cari ilin məzunları	259	159	51.62	90	29.22	9	2.92	1	0.32	0	0.00
	əvvəlki illərin məzunları	49	24	7.79	20	6.49	3	0.97	2	0.65	0	0.00
4	**Azərbaycan Memarlıq və İnşaat Universiteti**	202	123	60.89	63	31.19	15	7.43	1	0.50	0	0.00
	cari ilin məzunları	152	95	47.03	43	21.29	14	6.93	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	50	28	13.86	20	9.90	1	0.50	1	0.50	0	0.00
5	**Azərbaycan Tibb Universiteti**	13	12	92.31	0	0.00	1	7.69	0	0.00	0	0.00
	cari ilin məzunları	6	6	46.15	0	0.00	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	7	6	46.15	0	0.00	1	7.69	0	0.00	0	0.00
6	**Azərbaycan Dövlət Pedaqoji Universiteti**	313	112	35.78	146	46.65	36	11.50	19	6.07	0	0.00
	cari ilin məzunları	159	70	22.36	71	22.68	15	4.79	3	0.96	0	0.00
	əvvəlki illərin məzunları	154	42	13.42	75	23.96	21	6.71	16	5.11	0	0.00
7	**Azərbaycan Dövlət İqtisad Universiteti**	1527	678	44.40	746	48.85	49	3.21	50	3.27	4	0.26
	cari ilin məzunları	1058	526	34.45	490	32.09	28	1.83	14	0.92	0	0.00
	əvvəlki illərin məzunları	469	152	9.95	256	16.76	21	1.38	36	2.36	4	0.26
8	**Azərbaycan Dillər Universiteti**	249	187	75.10	52	20.88	2	0.80	8	3.21	0	0.00
	cari ilin məzunları	136	110	44.18	24	9.64	1	0.40	1	0.40	0	0.00
	əvvəlki illərin məzunları	113	77	30.92	28	11.24	1	0.40	7	2.81	0	0.00
9	**Bakı Slavyan Universiteti**	112	22	19.64	78	69.64	5	4.46	5	4.46	2	1.79
	cari ilin məzunları	52	8	7.14	40	35.71	1	0.89	3	2.68	0	0.00
	əvvəlki illərin məzunları	60	14	12.50	38	33.93	4	3.57	2	1.79	2	1.79
10	**Bakı Mühəndislik Universiteti**	212	24	11.32	154	72.64	21	9.91	13	6.13	0	0.00
	cari ilin məzunları	145	24	11.32	105	49.53	14	6.60	2	0.94	0	0.00
	əvvəlki illərin məzunları	67	0	0.00	49	23.11	7	3.30	11	5.19	0	0.00

Cədvəl 2.11 (ardı)

№	Ali təhsil müəssisəsi	Qəbul olanların sayı	Öz məzunları		Digər ali təhsil müəssisələrinin məzunları							
			sayı	faizi	Bakı şəhərinin dövlət a.t.m.		Regionların dövlət a.t.m.		Özəl a.t.m.		Xarici a.t.m.	
					sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
11	**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası**	99	45	45.45	51	51.52	2	2.02	1	1.01	0	0.00
	cari ilin məzunları	78	43	43.43	33	33.33	2	2.02	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	21	2	2.02	18	18.18	0	0.00	1	1.01	0	0.00
13	**Bakı Musiqi Akademiyası**	49	40	81.63	7	14.29	1	2.04	0	0.00	1	2.04
	cari ilin məzunları	27	21	42.86	5	10.20	1	2.04	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	22	19	38.78	2	4.08	0	0.00	0	0.00	1	2.04
14	**Azərbaycan Milli Konservatoriyası**	38	21	55.26	15	39.47	1	2.63	1	2.63	0	0.00
	cari ilin məzunları	19	13	34.21	5	13.16	1	2.63	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	19	8	21.05	10	26.32	0	0.00	1	2.63	0	0.00
15	**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**	89	46	51.69	33	37.08	6	6.74	4	4.49	0	0.00
	cari ilin məzunları	47	26	29.21	14	15.73	6	6.74	1	1.12	0	0.00
	əvvəlki illərin məzunları	42	20	22.47	19	21.35	0	0.00	3	3.37	0	0.00
16	**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**	43	35	81.40	7	16.28	1	2.33	0	0.00	0	0.00
	cari ilin məzunları	26	21	48.84	5	11.63	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	17	14	32.56	2	4.65	1	2.33	0	0.00	0	0.00
17	**Azərbaycan Turizm və Menecment Universiteti**	156	12	7.69	119	76.28	9	5.77	16	10.26	0	0.00
	cari ilin məzunları	94	8	5.13	74	47.44	9	5.77	3	1.92	0	0.00
	əvvəlki illərin məzunları	62	4	2.56	45	28.85	0	0.00	13	8.33	0	0.00
18	**Bakı Xoreoqrafiya Akademiyası**	4	1	25.00	3	75.00	0	0.00	0	0.00	0	0.00
	cari ilin məzunları	1	1	25.00	0	0.00	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	3	0	0.00	3	75.00	0	0.00	0	0.00	0	0.00
19	**Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası**	24	21	87.50	0	0.00	3	12.50	0	0.00	0	0.00
	cari ilin məzunları	14	12	50.00	0	0.00	2	8.33	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	10	9	37.50	0	0.00	1	4.17	0	0.00	0	0.00
20	**Milli Aviasiya Akademiyası**	58	46	79.31	11	18.97	1	1.72	0	0.00	0	0.00
	cari ilin məzunları	41	33	56.90	7	12.07	1	1.72	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	17	13	22.41	4	6.90	0	0.00	0	0.00	0	0.00
21	**Azərbaycan Dövlət Dəniz Akademiyası**	16	16	100.00	0	0.00	0	0.00	0	0.00	0	0.00
	cari ilin məzunları	8	8	50.00	0	0.00	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	8	8	50.00	0	0.00	0	0.00	0	0.00	0	0.00
22	**Bakı Ali Neft Məktəbi**	64	17	26.56	43	67.19	1	1.56	3	4.69	0	0.00
	cari ilin məzunları	49	15	23.44	33	51.56	0	0.00	1	1.56	0	0.00
	əvvəlki illərin məzunları	15	2	3.13	10	15.63	1	1.56	2	3.13	0	0.00
23	**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Akademiyası**	9	5	55.56	4	44.44	0	0.00	0	0.00	0	0.00
	cari ilin məzunları	9	5	55.56	4	44.44	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	0	0	0.00	0	0.00	0	0.00	0	0.00	0	0.00

Cədvəl 2.11 (ardı)

№	Ali təhsil müəssisəsi	Qəbul olanların sayı	Öz məzunları		Digər ali təhsil müəssisələrinin məzunları							
			sayı	faizi	Bakı şəhərinin dövlət a.t.m.		Regionların dövlət a.t.m.		Özəl a.t.m.		Xarici a.t.m.	
					sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
24	**Azərbaycan Milli Elmlər Akademiyası**	120	0	0.00	109	90.83	7	5.83	4	3.33	0	0.00
	cari ilin məzunları	78	0	0.00	71	59.17	5	4.17	2	1.67	0	0.00
	əvvəlki illərin məzunları	42	0	0.00	38	31.67	2	1.67	2	1.67	0	0.00
25	**Naxçıvan Dövlət Universiteti**	139	73	52.52	30	21.58	23	16.55	13	9.35	0	0.00
	cari ilin məzunları	86	52	37.41	17	12.23	13	9.35	4	2.88	0	0.00
	əvvəlki illərin məzunları	53	21	15.11	13	9.35	10	7.19	9	6.47	0	0.00
26	**Naxçıvan Müəllimlər İnstitutu**	22	11	50.00	6	27.27	5	22.73	0	0.00	0	0.00
	cari ilin məzunları	8	6	27.27	2	9.09	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	14	5	22.73	4	18.18	5	22.73	0	0.00	0	0.00
27	**Azərbaycan Dövlət Aqrar Universiteti (Gəncə şəhəri)**	160	108	67.50	34	21.25	15	9.38	2	1.25	1	0.63
	cari ilin məzunları	123	90	56.25	26	16.25	7	4.38	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	37	18	11.25	8	5.00	8	5.00	2	1.25	1	0.63
28	**Gəncə Dövlət Universiteti**	163	91	55.83	49	30.06	20	12.27	3	1.84	0	0.00
	cari ilin məzunları	102	67	41.10	27	16.56	7	4.29	1	0.61	0	0.00
	əvvəlki illərin məzunları	61	24	14.72	22	13.50	13	7.98	2	1.23	0	0.00
29	**Azərbaycan Texnologiya Universiteti (Gəncə şəhəri)**	78	34	43.59	18	23.08	24	30.77	2	2.56	0	0.00
	cari ilin məzunları	49	24	30.77	9	11.54	16	20.51	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	29	10	12.82	9	11.54	8	10.26	2	2.56	0	0.00
30	**Sumqayıt Dövlət Universiteti**	142	41	28.87	88	61.97	5	3.52	8	5.63	0	0.00
	cari ilin məzunları	74	24	16.90	44	30.99	2	1.41	4	2.82	0	0.00
	əvvəlki illərin məzunları	68	17	11.97	44	30.99	3	2.11	4	2.82	0	0.00
31	**Mingəçevir Dövlət Universiteti**	35	11	31.43	16	45.71	8	22.86	0	0.00	0	0.00
	cari ilin məzunları	22	6	17.14	10	28.57	6	17.14	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	13	5	14.29	6	17.14	2	5.71	0	0.00	0	0.00
32	**Lənkəran Dövlət Universiteti**	67	29	43.28	26	38.81	6	8.96	6	8.96	0	0.00
	cari ilin məzunları	33	20	29.85	8	11.94	4	5.97	1	1.49	0	0.00
	əvvəlki illərin məzunları	34	9	13.43	18	26.87	2	2.99	5	7.46	0	0.00
35	**Fövqəladə Hallar Nazirliyinin Akademiyası**	14	14	100.00	0	0.00	0	0.00	0	0.00	0	0.00
	cari ilin məzunları	7	7	50.00	0	0.00	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	7	7	50.00	0	0.00	0	0.00	0	0.00	0	0.00
37	**Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Azərbaycan İlahiyyat İnstitutu**	2	1	50.00	0	0.00	0	0.00	1	50.00	0	0.00
	cari ilin məzunları	1	1	50.00	0	0.00	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	1	0	0.00	0	0.00	0	0.00	1	50.00	0	0.00

Cədvəl 2.11 (ardı)

№	Ali təhsil müəssisəsi	Qəbul olanların sayı	Öz məzunları		Digər ali təhsil müəssisələrinin məzunları							
			sayı	faizi	Bakı şəhərinin dövlət a.t.m.		Regionların dövlət a.t.m.		Özəl a.t.m.		Xarici a.t.m.	
					sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
38	**Azərbaycan Kooperasiya Universiteti**	14	3	21.43	10	71.43	1	7.14	0	0.00	0	0.00
	cari ilin məzunları	5	1	7.14	4	28.57	0	0.00	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	9	2	14.29	6	42.86	1	7.14	0	0.00	0	0.00
39	**"Azərbaycan" Universiteti**	51	3	5.88	42	82.35	2	3.92	2	3.92	2	3.92
	cari ilin məzunları	20	2	3.92	17	33.33	0	0.00	1	1.96	0	0.00
	əvvəlki illərin məzunları	31	1	1.96	25	49.02	2	3.92	1	1.96	2	3.92
40	**Qərbi Kaspi Universiteti**	54	5	9.26	40	74.07	2	3.70	7	12.96	0	0.00
	cari ilin məzunları	33	4	7.41	24	44.44	2	3.70	3	5.56	0	0.00
	əvvəlki illərin məzunları	21	1	1.85	16	29.63	0	0.00	4	7.41	0	0.00
41	**Xəzər Universiteti**	102	2	1.96	88	86.27	4	3.92	7	6.86	1	0.98
	cari ilin məzunları	57	2	1.96	53	51.96	2	1.96	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	45	0	0.00	35	34.31	2	1.96	7	6.86	1	0.98
42	**Bakı Avrasiya Universiteti**	26	1	3.85	23	88.46	1	3.85	1	3.85	0	0.00
	cari ilin məzunları	20	1	3.85	18	69.23	1	3.85	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	6	0	0.00	5	19.23	0	0.00	1	3.85	0	0.00
43	**Bakı Qızlar Universiteti**	16	0	0.00	14	87.50	2	12.50	0	0.00	0	0.00
	cari ilin məzunları	11	0	0.00	10	62.50	1	6.25	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	5	0	0.00	4	25.00	1	6.25	0	0.00	0	0.00
44	**"Odlar Yurdu" Universiteti**	80	5	6.25	62	77.50	6	7.50	6	7.50	1	1.25
	cari ilin məzunları	41	2	2.50	36	45.00	2	2.50	1	1.25	0	0.00
	əvvəlki illərin məzunları	39	3	3.75	26	32.50	4	5.00	5	6.25	1	1.25
45	**Bakı Biznes Universiteti**	78	19	24.36	38	48.72	16	20.51	5	6.41	0	0.00
	cari ilin məzunları	65	19	24.36	32	41.03	12	15.38	2	2.56	0	0.00
	əvvəlki illərin məzunları	13	0	0.00	6	7.69	4	5.13	3	3.85	0	0.00
46	**"Naxçıvan" Universiteti (Naxçıvan şəhəri)**	8	4	50.00	3	37.50	1	12.50	0	0.00	0	0.00
	cari ilin məzunları	5	3	37.50	1	12.50	1	12.50	0	0.00	0	0.00
	əvvəlki illərin məzunları	3	1	12.50	2	25.00	0	0.00	0	0.00	0	0.00
	Bütövlükdə	**6400**	**2988**	**46.69**	**2815**	**43.98**	**364**	**5.69**	**213**	**3.33**	**20**	**0.31**
	cari ilin məzunları	4218	2176	34.00	1777	27.77	210	3.28	55	0.86	0	0.00
	əvvəlki illərin məzunları	2182	812	12.69	1038	16.22	154	2.41	158	2.47	20	0.31

Fənlər üzrə elmi-metodiki təhlil və tövsiyələr

2019/2020-ci tədris ili üçün magistraturaya qəbul imtahanının birinci mərhələsinə aid ayrı-ayrı fənlər üzrə qəbul proqramları "Magistr" jurnalının 2019-cu il tarixli birinci sayında, bakalavrlara metodiki kömək göstərmək məqsədilə təqdim olunan test tapşırıqlarının modeli isə həmin jurnalın ikinci sayında dərc edilmiş, bakalavrlara qəbul imtahanında hansı tipdə və çətinlik dərəcəsində test tapşırıqlarının təqdim ediləcəyi barədə məlumat verilmişdir. Artıq bir neçə ildir ki, bakalavrların qəbul imtahanına müstəqil hazırlaşmalarına kömək göstərmək məqsədi ilə "Məntiq testləri" və "İnformatika" adlı vəsaitlərin təkmilləşdirilmiş nəşrləri onların istifadəsinə verilmişdir.

Fənlər üzrə test banklarındakı tapşırıqlar üzərində təkmilləşdirmə işləri müntəzəm olaraq aparılmışdır. İmtahanda təqdim edilən test bloklarında bakalavrların qazandıqları bilik və bacarıqların praktiki tətbiqinin yoxlanılmasına üstünlük verilmişdir.

2019-cu ildə magistraturaya qəbul imtahanının birinci mərhələsində 12545 bakalavr iştirak etmişdir. Bu, 2018-ci ildə imtahanın birinci mərhələsində iştirak edənlərdən 310 nəfər və ya 2.47% çoxdur.

Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən göstərilən xidmətlərin tariflərinin tənzimlənməsi barədə" 6 mart 2017-ci il tarixli qərarı ilə imtahanda iştirak üçün təsdiq edilmiş tariflərə uyğun məbləğdə xidmət haqqı ödənilməsinin tələb olunması ilə əlaqədar olaraq, son illər imtahanda əsas etibarilə daha hazırlıqlı və həqiqətən də magistr təhsili almağı qarşısına məqsəd qoyan bakalavrların iştirak etmələri, nisbətən zəif hazırlıqlı bakalavrların isə imtahanda, necə deyərlər, "bəxtəbəxt" iştirak etməkdən çəkinmələri müşahidə olunur. Xatırladaq ki, magistraturaya qəbul imtahanında iştirak üçün müvafiq ödənişin tələb olunması səbəbindən imtahan verən bakalavrların sayı 2017-ci ildə 2016-cı illə müqayisədə 9437 nəfər az olmuşdu. Belə ki, 2016-cı ildə magistraturaya qəbul imtahanının I mərhələsində 22409 nəfər bakalavr iştirak etmişdisə, 2017-ci ildə onların sayı 41.11% azalaraq 12972 nəfərə düşmüşdü. 2018-ci ildə isə I mərhələ iştirakçılarının sayı daha 5.68% azalaraq 12235 nəfər təşkil etmişdi. Göründüyü kimi, 2018-ci ildə iştirakçıların sayında azalmanın dinamikası əhəmiyyətli dərəcədə zəifləmiş, 2019-cu ildə isə artım müşahidə olunmuşdur.

Artıq qeyd olunduğu kimi, 2019-cu ildə imtahanın birinci mərhələsində ayrı-ayrı fənn blokları üzrə test tapşırıqlarının düzgün cavablandırılmasının orta göstəriciləri belə olmuşdur: məntiqi təfəkkür bloku üzrə 54.26%, informatika üzrə 49.89%, ingilis dili üzrə 51.06%, alman dili üzrə 46.18%, fransız dili üzrə 47.11%, rus dili üzrə 46.95%. Statistik göstəricilərə əsasən, düzgün cavablandırmanın orta göstəriciləri 2018-ci ildəkinə nisbətən ingilis dili üzrə 3.82%, məntiqi təfəkkür bloku üzrə 1.62% yüksəlmiş, informatika üzrə isə eyni səviyyədə qalmışdır. Lakin təəssüf ki, 2018-ci ildəkinə nisbətən bu göstəricilər rus dili üzrə 4.36%, alman dili üzrə 1.65%, fransız dili üzrə isə 1.05% aşağı düşmüşdür.

Ümumi intellektin (məntiqi təfəkkürün) inkişaf səviyyəsini yoxlayan test tapşırıqları üzrə elmi-metodiki təhlil və tövsiyələr

2019-cu ildə magistraturaya qəbul imtahanının I mərhələsində ümumi intellektin (məntiqi təfəkkürün) inkişaf səviyyəsini yoxlamaq məqsədi ilə bakalavrlara 14 verbal (sözlə bağlı), 15 fiqurlarla bağlı və 21 məntiqi-riyazi test tapşırığı təqdim edilmişdi. Verbal test tapşırıqları ilə bakalavrların sözlə ifadə olunmuş məlumatı təhliletmə, sintezetmə, müqayisəetmə, ümumiləşdirmə, mücərrədləşdirmə, müxtəlif sözlərin istifadəsində incəlikləri hissetmə qabiliyyətləri, fiqurlarla bağlı olan test tapşırıqları ilə onların fəza təfəkkürü, vizual məlumatı təhliletmə qabiliyyəti yoxlanılır. Məntiqi-riyazi test tapşırıqları bakalavrların ədədlər arasındakı qanunauyğunluğu aşkar etmək, praktiki riyazi məsələləri məntiqlə həll edə bilmək qabiliyyətini yoxlayır.

2019-cu ildə qəbul imtahanında istifadə edilən 45 test tapşırığı (1-45-ci tapşırıqlar) qapalı (çoxseçimli), 5 test tapşırığı isə (46-50-ci tapşırıqlar) açıq formalı (2-si "hesablama", 1-i "seçim", 1-i "ardıcıllıq", 1-i "uyğunluq" tipli) olmuşdur. Cavab variantları verilmədən təqdim olunan bu tapşırıqların üçü məntiqi-riyazi, biri fiqurlarla bağlı, biri isə verbal tapşırıq idi. Çətinlik dərəcəsinə görə test tapşırıqlarının 14-ü asan, 22-si orta çətinlikdə və 14-ü çətin olmuşdur.

Məntiqi təfəkkürün inkişaf səviyyəsini müəyyən edən test tapşırıqları üzrə bakalavrların imtahan nəticələrinin statistik təhlili göstərir ki, 50 tapşırıqdan 17-sini bakalavrların 70%-dən çoxu düzgün cavablandıra bilmişdir. 26 test tapşırığı üzrə bu göstərici 20-70% aralığında olmuşdur. Tapşırıqlardan 7-sinin düzgün cavablandırılma göstəricisi isə 20%-dən aşağıdır.

	Təqdim olunan test tapşırıqlarının sayı	**Düzgün cavablandırılma göstəricisi**		
		20%-dən aşağı	**20-70%**	**70%-dən yuxarı**
Verbal (sözlə bağlı) test tapşırıqları	14	4 (o cümlədən 1 açıq formalı)	7	3
Fiqurla bağlı test tapşırıqları	15	0	6	9
Məntiqi-riyazi test tapşırıqları	21	3 (o cümlədən 2 açıq formalı)	13	5
CƏMİ	**50**	**7**	**26**	**17**

Bu blokdakı builki tapşırıqları düzgün cavablandıran bakalavrların ortastatistik göstəricisi 54,25% olub ki, bu da ötənilki müvafiq göstəricidən 1.58% yüksəkdir.

Aşağıdakı cədvəldə 2016-cı, 2017-ci, 2018-ci və 2019-cu illərdə qəbul imtahanının birinci mərhələsində imtahan verən bakalavrların məntiqi təfəkkür səviyyəsini müəyyən edən test tapşırıqlarını düzgün cavablandırma faizləri (ortastatistik göstəricilər) verilmişdir:

		Bakalavrların sayı	Qapalı formalı sualların düzgün cavablandırılma faizi	Açıq formalı sualların düzgün cavablandırılma faizi	Qapalı və açıq formalı sualların (birlikdə) düzgün cavablandırılma faizi
2016	Azərbaycan bölməsi üzrə	20312	44.42	14.11	41.39
	Rus bölməsi üzrə	2097	44.35	11.86	41.10
	Hər iki bölmə üzrə birlikdə	22409	44.42	13.90	41.37
2017	Azərbaycan bölməsi üzrə	11733	61.08	23.52	57.29
	Rus bölməsi üzrə	1239	58.80	19.94	54.88
	Hər iki bölmə üzrə birlikdə	12972	60.86	23.18	57.06
2018	Azərbaycan bölməsi üzrə	11079	57.64	9.85	52.86
	Rus bölməsi üzrə	1156	55.2	8.97	50.79
	Hər iki bölmə üzrə birlikdə	12235	57.41	9.77	52.67
2019	Azərbaycan bölməsi üzrə	11382	58.44	20.72	54.67
	Rus bölməsi üzrə	1163	53.74	17.16	50.08
	Hər iki bölmə üzrə birlikdə	12545	58.01	20.39	54.25

Artıq qeyd olunduğu kimi, 2017-ci ildən başlayaraq magistraturaya qəbul imtahanında iştirak üçün müvafiq ödənişin tələb olunması səbəbindən imtahan verən bakalavrların sayı 2017-ci ildə 2016-cı illə müqayisədə 9437 nəfər az olmuşdur. 2018-ci ildə bu azalmanın dinamikası əhəmiyyətli dərəcədə zəifləmiş və imtahan verən bakalavrların sayı 2017-ci illə müqayisədə 737 nəfər azalmışdır. 2019-cu ildə isə imtahan verən bakalavrların sayı 2018-ci illə müqayisədə 310 nəfər çox olmuşdur.

Statistika göstərir ki, bu il məntiqi təfəkkürün inkişaf səviyyəsini yoxlayan qapalı formalı test tapşırıqlarını düzgün cavablandırma göstəricisi, orta hesabla, 58.01% olduğu halda, açıq formalı test tapşırıqlarını düzgün cavablandırma göstəricisi cəmi 20.39% olub. Bunlar ötənilki müvafiq göstəricilərdən, müvafiq olaraq, 0. 60% və 10.62% yuxarıdır.

İndi isə bakalavrların cavablandırmaqda çətinlik çəkdikləri test tapşırıqlarından bəziləri üzrə nəticələrə nəzər salaq.

2019-cu il, magistraturaya qəbul imtahanı. A variantı, 11 saylı test tapşırığı (C variantı, 32 saylı test tapşırığı):

Ovçular Heym, Purdey, Beretta, Benelli və Merkel firmalarının istehsalı olan tüfənglərlə sahələri təxminən 2,7 min, 4 min, 5 min, 40,4 min və 60 min ha olan Samux, Yaşma, Ulduz, Qax və Şəki ovçuluq təsərrüfatlarında qırqovul, cüyür, dağ keçisi, kəklik və ördək ovuna çıxdılar (hər ovçuluq təsərrüfatında yalnız bir növ tüfəngdən istifadə edilməklə yalnız bir növ ov ovlanacaq).

1. Ovçular Purdey, Heym və Merkel firmalarının istehsalı olan tüfəngləri ilə sadalananlar arasında sahəsi ən böyük və ən kiçik olmayan ovçuluq təsərrüfatlarında quş ovuna çıxdılar.
2. Beretta və Benelli firmalarının silahları Qax və Şəki ovçuluq təsərrüfatlarının sahələrində istifadə olundu.
3. Sadalanan ovçuluq təsərrüfatlarının birindən 15 dəfə kiçik olan Yaşma ovçuluq təsərrüfatının sahəsinə Purdey firmasının istehsal etdiyi silahla ördək ovuna çıxıldı.

4. Qırqovul ovu üçün çıxılan sahə Samux ovçuluq təsərrüfatının sahəsindən kiçik, cüyür ovu üçün Beretta firmasının istehsal etdiyi tüfənglə çıxılan sahədən böyükdür.
5. Dağ keçisi ovu üçün Şəki ovçuluq təsərrüfatının sahəsinə çıxıldı.
6. Kəklik ovu üçün Heym firmasının istehsal etdiyi tüfəng istifadə olundu.

Ovçuluq təsərrüfatlarını sahələrinin artması ardıcıllığı ilə düzün:

1. Samux 2. Yaşma 3. Ulduz
4. Qax 5. Şəki

A) 2, 1, 3, 5, 4 B) 3, 2, 4, 5, 1 C) 4, 2, 3, 1, 5
D) 1, 2, 5, 4, 3 E) 5, 2, 4, 3, 1

Tapşırığın cavablandırılma statistikası belədir:

	A variantı		**C variantı**	
	Azərbaycan bölməsi üzrə	**Rus bölməsi üzrə**	**Azərbaycan bölməsi üzrə**	**Rus bölməsi üzrə**
A bəndi	14.65%	13.84%	16.45%	11.46%
B bəndi	30.11%	26.30%	29.73%	29.17%
C bəndi	**23.03%**	**22.84%**	16.91%	16.32%
D bəndi	9.22%	10.73%	13.35%	18.75%
E bəndi	16.30%	17.30%	**14.69%**	**12.15%**
İmtina	6.69%	9.00%	8.88%	12.15%

Bu test tapşırığı bakalavrların mətni təhliletmə qabiliyyətini yoxlayır.

Test tapşırığının həlli ovçuluq təsərrüfatlarının sahələrinin artması ardıcıllığını Qax-4, Yaşma-2, Ulduz-3, Samux-1, Şəki-5 kimi göstərir.

Bakalavrların bu sualı cavablandırma statistikasına baxdıqda görünür ki, B bəndini (Ulduz ovçuluq təsərrüfatını sahəsi ən kiçik olan kimi göstərən bəndi) seçən bakalavrlar sayca çoxluq təşkil ediblər. Onların bu cavabı seçmələrinə səbəb, yəqin ki, digər bəndlərdəki sıralamalarda ən kiçik sahəsi olan ovçuluq təsərrüfatlarının adlarının rayon adları ilə bağlı olmasıdır. Tapşırığı həll etmədən cavabını yazmaq istəyən bakalavrlar, güman etmək olar ki, Ulduz ovçuluq təsərrüfatının adı rayon adı ilə bağlı olmadığına görə onu sahəsi ən kiçik olan təsərrüfat kimi düşünərək, düzgün cavab əvəzinə B bəndini seçmişlər.

Beləliklə, doğru cavab C bəndidir.

2019-cu il, magistraturaya qəbul imtahanı. A variantı, 26 saylı test tapşırığı (C variantı, 20 saylı test tapşırığı):

Qatlanmış rəngli kağızda kəsiklər edilib. Fikrən kağızı açın və uyğun olan cavab variantını seçin:



Tapşırığın cavablandırılma statistikası belədir:

	A variantı		**C variantı**	
	Azərbaycan bölməsi üzrə	**Rus bölməsi üzrə**	**Azərbaycan bölməsi üzrə**	**Rus bölməsi üzrə**
A bəndi	4.14%	3.11%	9.44%	9.38%
B bəndi	3.36%	3.46%	46.28%	42.01%
C bəndi	10.38%	11.42%	4.58%	3.13%
D bəndi	**39.26%**	**37.72%**	3.42%	5.56%
E bəndi	40.94%	43.94%	**34.98%**	**38.19%**
İmtina	1.93%	0.35%	1.30%	1.74%

Bu test tapşırığı bakalavrların mətni fəza təfəkkürünü yoxlayır.

Güman etmək olar ki, qatlanmış rəngli kağızda edilmiş kəsik oval formasında olduğundan bakalavrların B bəndini seçən 40.94%-i açılmış kağızda da ovala oxşar kəsik izlərinin olduğunu düşünmüşlər. Əgər onlar üzərində kəsiklər edilmiş qatlanmış kağızı düzgün açsaydılar, doğru cavab kimi D bəndini seçərdilər.

Beləliklə, doğru cavab D bəndidir.

Analoji vəziyyət B variantında da müşahidə olunur.

2019-cu il, magistraturaya qəbul imtahanı. A variantı, 42 saylı test tapşırığı (C variantı, 42 saylı test tapşırığı):

Rövşən, Akif, Qədir və Samir eyni bir binanın 6, 7 və 8-ci mərtəbələrində yerləşən 1, 2, 3 və 4 otaqlı mənzilləri (hərəyə bir mənzil) almaq üçün 2, 3, 4 və 5 il kredit müddəti seçərək, 13, 14, 15 və 16 min manat ilkin ödəniş etmişlər. Məlumdur ki:

- 3 illik kreditlə alınmayan, 6-cı mərtəbədə yerləşən 4 otaqlı mənzil üçün 13 min manat ilkin ödəniş edilib;
- Samirin 2 otaqlısından aşağıda yerləşən mənzili Akif 14 min manat ilkin ödəniş edərək, 4 illik kreditlə alıb;
- Ən az kredit müddətinə alınan və otaqlarının sayı 3 olmayan mənzil üçün Rövşən Samirdən çox ilkin ödəniş edib.

Aşağıdakılardan neçəsi mütləq doğrudur?

- 13 min manat ilkin ödəniş edilərək alınan mənzil 15 min manat ödənilərək alınan mənzildən aşağı mərtəbələrdən birindədir.
- Mənzillərdən üçü Qədirin mənzilindən yuxarı mərtəbələrdədir.
- 5 illik kreditlə alınan mənzil 7-ci mərtəbədədir.
- 1 otaqlı mənzil 6-cı mərtəbədədir.
- 1 otaqlı və 3 otaqlı mənzillər müxtəlif mərtəbələrdədir.

A) üçü B) dördü C) beşi D) ikisi E biri

Tapşırığın cavablandırılma statistikası belədir:

	A variantı		C variantı	
	Azərbaycan bölməsi üzrə	**Rus bölməsi üzrə**	**Azərbaycan bölməsi üzrə**	**Rus bölməsi üzrə**
A bəndi	36.31%	33.91%	34.48%	31.25%
B bəndi	13.77%	14.88%	25.78%	29.86%
C bəndi	13.21%	14.19%	**18.28%**	**15.28%**
D bəndi	21.66%	21.80%	9.83%	9.03%
E bəndi	**9.36%**	**8.30%**	4.79%	5.90%
İmtina	5.68%	6.92%	6.83%	8.68%

Bu test tapşırığı ilə bakalavrların sözlə ifadə olunmuş məlumatı təhliletmə, sintezetmə, müqayisəetmə qabiliyyətləri yoxlanılır. Adətən, seçim tipli test tapşırıqlarında 5 mülahizədən 2-3-ü seçilməli olur. Bu səbəbdən tapşırığı həll etməyən bakalavrların cavabları "ikisi" və "üçü" arasında paylanır. Tapşırığı həll etdikdən sonra verilmiş mülahizələrdən yalnız birinin (13 min manat ilkin ödəniş edilərək alınan mənzil 15 min manat ödənilərək alınan mənzildən aşağı mərtəbələrdən birindədir) mütləq doğru olduğu aşkarlanır.

Beləliklə, doğru cavab E bəndidir.

Analoji vəziyyət B və D variantlarında da müşahidə olunur.

2019-cu il, magistraturaya qəbul imtahanı. A variantı, 43 saylı test tapşırığı (C variantı, 44 saylı test tapşırığı):

25 nəfərlik qrupun tələbələrinin yarısından azı kafedə çay və qəhvə içirlər (hər kəs yalnız bir növ içki içir). Kafedə başqa müştəri yoxdur. Müştərilər arasında:

- ♦ çay içənlərin sayı qəhvə içənlərin sayından azdır;
- ♦ şəkərsiz qəhvə içənlərin sayı şəkərli qəhvə içənlərin sayından az, şəkərsiz çay içənlərin sayı şəkərli çay içənlərin sayından çoxdur;
- ♦ şəkərsiz qəhvə, şəkərli qəhvə, şəkərsiz çay və şəkərli çay içənlərin sayları müxtəlifdir (hamısı sıfırdan fərqlidir);
- ♦ şəkərsiz içki içənlərin cəmi sayını göstərən ədəd cütdür.

Aşağıdakılardan hansının ehtimalı azdır?

A) Kafedəki tələbələrin sayı 12-dir.
B) Şəkərli qəhvə içənlərin sayı 5-dir.
C) Qəhvə içənlərin sayı 7-dir.
D Şəkərsiz qəhvə içənlərin sayı 2-dir.
E) Şəkərli çay içən 1 nəfərdir.

Tapşırığın cavablandırılma statistikası belədir:

	A variantı		C variantı	
	Azərbaycan bölməsi üzrə	**Rus bölməsi üzrə**	**Azərbaycan bölməsi üzrə**	**Rus bölməsi üzrə**
A bəndi	24.43%	22.84%	**22.23%**	**20.83%**
B bəndi	17.00%	15.22%	16.98%	18.06%
C bəndi	19.45%	24.91%	24.83%	23.61%
D bəndi	**16.26%**	**16.96%**	17.82%	16.67%
E bəndi	17.88%	13.84%	12.15%	13.54%
İmtina	4.98%	6.23%	5.99%	7.29%

Bu test tapşırığı bakalavrların mətni təhliletmə qabiliyyətini yoxlayır.

Test tapşırığının həlli aşağıdakı nəticəni verir:

Şəkərli çay içənlər	**Şəkərsiz çay içənlər**	**Şəkərsiz qəhvə içənlər**	**Şəkərli qəhvə içənlər**	**Kafedəki tələbələrin sayı**
1	2	4	5	12
1	4	2	5	12
2	3	1	4	10
2	3	1	5	11
2	3	1	6	12

Kafedəki tələbələrin sayının 12-yə bərabər olma ehtimalı 3/5, şəkərli qəhvə içənlərin sayının 5-ə bərabər olma ehtimalı 3/5, qəhvə içənlərin sayının 7-yə bərabər olma ehtimalı 2/5, şəkərsiz qəhvə içənlərin sayının 2-yə bərabər olma ehtimalı 1/5, yalnız 1 nəfərin şəkərli çay içməsi ehtimalı 2/5-dir. Məlum olur ki, D bəndindəkinin olma ehtimalı ən azdır (1/5).

Güman etmək olar ki, bakalavrların A bəndini seçən 24.43%-i kafedəki tələbələrin sayının 12-yə bərabər olma ehtimalının səhvən 1/12-ə bərabər olduğunu düşünürlər. (Ehtimalın əlverişli hallar sayının bütün mümkün hallar sayına nisbəti olduğunu bilən bakalavrlar əlverişli hallar sayının 1, bütün mümkün hallar sayının isə 12 olduğunu düşünmüşlər). Əgər onlar düzgün düşünsəydilər, doğru cavab kimi D bəndini seçərdilər.

Beləliklə, doğru cavab D bəndidir.

Analoji vəziyyət B variantında da müşahidə olunur.

2019-cu il, magistraturaya qəbul imtahanı. A variantı, 44 saylı test tapşırığı (C variantı, 43 saylı test tapşırığı):

25 nəfərlik qrupun tələbələrinin yarısından azı kafedə çay və qəhvə içirlər (hər kəs yalnız bir növ içki içir). Kafedə başqa müştəri yoxdur. Müştərilər arasında:

♦ çay içənlərin sayı qəhvə içənlərin sayından azdır;

♦ şəkərsiz qəhvə içənlərin sayı şəkərli qəhvə içənlərin sayından az, şəkərsiz çay içənlərin sayı şəkərli çay içənlərin sayından çoxdur;

♦ şəkərsiz qəhvə, şəkərli qəhvə, şəkərsiz çay və şəkərli çay içənlərin sayları müxtəlifdir (hamısı sıfırdan fərqlidir);

♦ şəkərsiz içki içənlərin cəmi sayını göstərən ədəd cütdür.

Aşağıdakılardan hansının sayının tək ədədlə ifadə olunduğu mütləqdir?

A) qəhvə içənlərin
B) şəkərli içki içənlərin
C) şəkərsiz çay içənlərin
D) kafedəki tələbələrin
E çay içənlərin

Tapşırığın cavablandırılma statistikası belədir:

	A variantı		C variantı	
	Azərbaycan bölməsi üzrə	**Rus bölməsi üzrə**	**Azərbaycan bölməsi üzrə**	**Rus bölməsi üzrə**
A bəndi	21.91%	21.11%	**20.92%**	**16.32%**
B bəndi	24.08%	27.68%	17.22%	14.93%
C bəndi	20.33%	20.76%	21.87%	21.88%
D bəndi	13.14%	14.19%	13.63%	11.11%
E bəndi	**15.46%**	**8.65%**	20.39%	28.82%
İmtina	5.08%	7.61%	5.95%	6.94%

Bu test tapşırığı bakalavrların mətni təhliletmə qabiliyyətini yoxlayır.
Test tapşırığının həlli aşağıdakı nəticəni verir:

Şəkərli çay içənlər	**Şəkərsiz çay içənlər**	**Şəkərsiz qəhvə içənlər**	**Şəkərli qəhvə içənlər**	**Kafedəki tələbələrin sayı**
1	2	4	5	12
1	4	2	5	12
2	3	1	4	10
2	3	1	5	11
2	3	1	6	12

Qəhvə içənlərin sayı 5, 6, 7 və 9 ola bildiyindən həmişə tək ədədlə ifadə olunduğu mütləq deyil.
Şəkərli içki içənlərin sayı 6, 7 və 8 ola bildiyindən həmişə tək ədədlə ifadə olunduğu mütləq deyil.
Şəkərsiz çay içənlərin sayı 2, 3 və 4 ola bildiyindən həmişə tək ədədlə ifadə olunduğu mütləq deyil.
Kafedəki tələbələrin sayı 10, 11 və 12 ola bildiyindən həmişə tək ədədlə ifadə olunduğu mütləq deyil.
Çay içənlərin sayı 3 və 5 ola bildiyindən həmişə tək ədədlə ifadə olunması mütləqdir.
Beləliklə, doğru cavab E bəndidir.

2019-cu il, magistraturaya qəbul imtahanı. C variantı, 15 saylı test tapşırığı:

"?" əvəzinə uyğun olan variantı seçin:





Tapşırığın cavablandırılma statistikası belədir:

	C variantı	
	Azərbaycan bölməsi üzrə	**Rus bölməsi üzrə**
A bəndi	26.45%	24.65%
B bəndi	**26.31%**	**26.74%**
C bəndi	13.42%	11.81%
D bəndi	17.96%	23.61%
E bəndi	10.46%	9.38%
İmtina	5.39%	3.82%

2-cı tərəzinin sağ qolundakıları sol qoluna, sol qolundakıları sağ qoluna keçirərək tərəziləri tərəf-tərəfə toplayırlar.



Alınan eyniliyin sağ tərəfində 3-cü tərəzidəki münasibət ( ) nəzərə alınarsa,

olar.

Beləliklə, doğru cavab B bəndidir.

2019-cu il, magistraturaya qəbul imtahanı. B variantı, 21 saylı test tapşırığı:

Qanunauyğunluğu müəyyən edin və "?" əvəzinə uyğun olan variantı seçin:

36 (3) 12
56 (5) 31
42 (2) 21
57 (?) 52

A) 65 B) 7 C) 4 D 3 E) 31

Tapşırığın cavablandırılma statistikası belədir:

	C variantı	
	Azərbaycan bölməsi üzrə	**Rus bölməsi üzrə**
A bəndi	4.32%	3.77%
B bəndi	24.35%	32.88%
C bəndi	29.66%	29.79%
D bəndi	**29.34%**	**22.26%**
E bəndi	5.41%	4.45%
İmtina	6.92%	6.85%

Mötərizədən sol tərəfdəki ədədin rəqəmlərinin yerdəyişməsindən alınan ədədi mötərizədən sağ tərəfdəki ədədin rəqəmlərinin yerdəyişməsindən alınan ədədə böldükdə mötərizədəki ədəd alınır.

63/21=3, 65/13=5, 24/12=2, 75/25=3.

Bakalavrların 29.66%-nin C bəndini ("4" ədədini) seçməsinə səbəb, ehtimal oluna bilər ki, mötərizədən sağ və sol tərəfdəki ədədlərin artmasının mötərizənin içindəki ədədlərin növbə ilə artıb-azalmasına səbəb olmasıdır. "?" əvəzinə "3" ədədinin seçilməməsinə səbəb 1-ci sırada mötərizənin içində artıq "3" ədədinin olmasıdır.

Beləliklə, doğru cavab D bəndidir.

2019-cu il, magistraturaya qəbul imtahanı. D variantı, 6 saylı test tapşırığı:

Verilən sözlər arasındakı məntiqi əlaqəyə analoji olan variantı seçin (sözlərin ardıcıllığı nəzərə alınır):

saat – saniyə – dəqiqə

A) il – saat – sutka B) paskal – nyuton – coul
C metr – santimetr – desimetr D) il – həftə – ay E) metr – millimetr– desimetr

Tapşırığın cavablandırılma statistikası belədir:

	C variantı	
	Azərbaycan bölməsi üzrə	**Rus bölməsi üzrə**
A bəndi	4.82%	2.38%
B bəndi	2.07%	3.40%
C bəndi	**36.36%**	**31.29%**
D bəndi	46.31%	57.14%
E bəndi	9.67%	5.44%
İmtina	0.77%	0.34%

1 saat (I yerdə olan) 1 dəqiqədən (III yerdə olandan) neçə dəfə böyükdürsə, 1 dəqiqə (III yerdə olan) 1 saniyədən (III yerdə olandan) o qədər böyükdür. Bu qanunauyğunluq yalnız C bəndində müşahidə olunur, yəni 1metr 10 desimetrə, 1 desimetr 10 santimetrə bərabərdir. Bakalavrların 46.31%-nin D bəndini seçməsinə səbəb, ehtimal oluna bilər ki, onlar tərəfindən nümunədəki qanunauyğunluğun I yerdə duranın III yerdə durandan və III yerdə duranın II yerdə durandan böyük olması kimi qəbul edilməsi, bəlkə də desimetr sözünün mənasını bilməmələridir.

Beləliklə, doğru cavab C bəndidir.

Analoji vəziyyət D variantında da müşahidə olunur.

2019-cu il, magistraturaya qəbul imtahanı. A variantı, 50 saylı test tapşırığı (C variantı, 50 saylı test tapşırığı):

Qırmızı və sarı rəngli karandaşlar, 3-dən artıq qırmızı karandaşın yanaşı olmaması şərti ilə düzülür. Toplam sayları 3 və 7 olan qırmızı və sarı karandaşların mümkün düzülmə variantları arasında sonunda sarı karandaş olan variantların sayı ilə sonunda qırmızı karandaş olan variantların sayı arasındakı fərqi müəyyən edərək uyğunluğu tapın:

Qırmızı və sarı karandaşların toplam sayı	Sonunda sarı karandaş olan variantların sayı ilə sonunda qırmızı karandaş olan variantların sayı arasındakı fərq
1. 3 2. 7	a. 0 b. 1 c. 2 d. 3 e. 4

2018 və 2019-cu illərdə analoji tapşırıqların cavablandırılma statistikası belədir:

	Azərbaycan bölməsi				**Rus bölməsi**			
	A variantında		**C variantında**		**A variantında**		**C variantında**	
	2018	**2019**	**2018**	**2019**	**2018**	**2019**	**2018**	**2019**
Düzgün cavablandıranlar	0.72%	1.37%	1.01%	1.09%	1.03%	1.38%	1.39%	1.39%
Səhv cavablandıranlar	38.92%	45.15%	38.45%	46.35%	37.59%	42.21%	38.33%	49.31%
Cavablandırmayanlar	60.35%	53.49%	60.54%	52.55%	61.38%	56.40%	60.28%	49.31%

Bu test tapşırığı bakalavrların sıradakı qanunauyğunluğu riyazi məsələnin məntiqlə həllində tətbiq edə bilmək qabiliyyətini yoxlayır.

Bir karandaş götürməyin 2 variantı var (1 sarı və 1 qırmızı):

$1_{1s\ 1bir\ q.}$ (sonunda sarı olan 1 variant və sonunda bir qırmızı olan 1 variant).

İki karandaş götürməyin 4 variantı var:

$2_{2s\ 1bir\ q.\ 1iki\ q.}$ (sonunda sarı olan 2 variant, sonunda bir qırmızı olan 1 variant və sonunda iki qırmızı olan 1 variant).

Üç karandaş götürməyin 8 variantı var:

$3_{4s\ 2bir\ q.1iki\ q.\ 1üç\ q}$ (sonunda sarı olan 4 variant, sonunda bir qırmızı olan 2 variant sonunda iki qırmızı və sonunda üç qırmızı olan 1 variant).

Dörd karandaş götürməyin 15 variantı var:

$4_{8s\ 4\ bir\ q.\ 2\ iki\ q.\ 1\ üç\ q.}$ (sonunda sarı olan 8 variant, sonunda bir qırmızı olan 4 variant, sonunda iki qırmızı olan 2 variant və sonunda üç qırmızı olan 1 variant).

Beş karandaş götürməyin 29 variantı var:

$5_{15s\ 8\ bir\ q.\ 4\ iki\ q.\ \ 2\ üç\ q}$ (sonunda sarı olan 15 variant, sonunda bir qırmızı olan 8 variant, sonunda iki qırmızı olan 4 variant və sonunda iki qırmızı olan 2 variant).

Altı karandaş götürməyin 56 variantı var:

$6_{29s\ 15\ bir\ q.\ 8\ iki\ q.\ 4\ üç\ q}$ (sonunda sarı olan 29 var., sonunda bir qırmızı olan 15 var, sonunda iki qırmızı olan 8 var. və sonunda üç qırmızı olan 4 var.).

Yeddi karandaş götürməyin 81 variantı var:

$7_{56s\ 29\ bir\ q.\ 15\ iki\ q.\ 8\ üç\ q}$ (sonunda sarı olan 56 var., sonunda bir qırmızı olan 29 var, sonunda iki qırmızı olan 15 var. və sonunda üç qırmızı olan 8 var.).

$3_{4s\ 2bir\ q.1iki\ q.\ 1üç\ q}$ üçün sonunda sarı və sonunda qırmızı karandaş olan variantların sayları arasındakı fərq 4-(2+1+1)=0.

$7_{56s\ 29\ bir\ q.\ 15\ iki\ q.\ 8\ üç\ q.}$üçün sonunda sarı və sonunda qırmızı karandaş olan variantların sayları arasındakı fərq 56-(29+15+8)=4.

Beləliklə, doğru cavab: 1-a; 2-e.

Bu test tapşırığı üzrə bakalavrların zəif nəticə göstərmələrinin səbəbi tapşırığın yeni tipli olması və geniş yayılmamasıdır. Buna baxmayaraq, analoji tapşırıqların 2018-ci və 2019-cu illərdə cavablandırılma statistikası göstərir ki, 2019-cu ildə tapşırığı düzgün cavablandıranların sayı 2018-ci illə müqayisədə Azərbaycan bölməsinin A variantı üzrə 2 dəfəyə yaxın, C variantı üzrə 8% , rus bölməsinin A variantı üzrə 34% artmış, rus bölməsinin C variantı üzrə dəyişməmiş, səhv cavablandıranların sayı 2018-ci illə müqayisədə Azərbaycan bölməsinin A variantı üzrə 16%, C variantı üzrə 21%, rus bölməsinin A variantı üzrə 12%, C variantı üzrə 29% artmış, cavablandırmayanların sayı Azərbaycan bölməsinin A variantı üzrə 11%, C variantı üzrə 13%, rus bölməsinin A variantı üzrə 8%, C variantı üzrə 18% azalmışdır. Cavablandıranların, o cümlədən düzgün cavablandıranların sayının artması və cavablandırmayanların sayının azalması bu cür tapşırıqların həll edilməsinə marağın artdığını göstərir.

İnformatika üzrə bilikləri yoxlayan test tapşırıqlarına verilən cavabların elmi-metodiki təhlili və tövsiyələr

2019-cu ildə magistratura səviyyəsinə qəbul imtahanının I mərhələsində informatika üzrə istifadə olunmuş test tapşırıqları bu fənnə aid qəbul proqramında nəzərdə tutulan bütün mövzuları əhatə etmişdir. Bu mərhələdə informatika fənni üzrə istifadə olunan 20 test tapşırığı qapalı, 5 test tapşırığı isə 2-si hesablama, 2-si seçim, 1-i isə uyğunluq tipli olmaqla açıq formalı olmuşdur.

Qeyd edək ki, informatika fənni üzrə test tapşırıqlarının düzgün cavablandırılma göstəricilərinə görə, Azərbaycan bölməsində bakalavrlar 5 tapşırığa asanlıqla, 18 tapşırığa orta səviyyədə cavab vermiş, 2 tapşırığı yalnız yüksək hazırlıqlı bakalavrlar cavablandırmışlar. Rus bölməsində isə bakalavrlar 3 tapşırığa asanlıqla, 19 tapşırığa orta səviyyədə cavab vermiş, 3 tapşırığı isə yalnız yüksək hazırlığı olanlar cavablandırmışlar.

Statistik nəticələr göstərir ki, Azərbaycan bölməsi üzrə bakalavrların əksər hissəsi "EHM-lərin yaranması və tarixi inkişaf mərhələləri", "Alqoritmin əsas xassələri və təsvir üsulları", "Sistem proqram təminatı. Tətbiqi proqram təminatı. İnstrumental proqram təminatı", "Əməliyyat sistemlərinin təsnifatı. Faylların əsas xarakteristikaları. Fayl sistemləri", "Microsoft Word 2010 mətn prosessoru. Fayl əməliyyatları (Backstage View)", "Microsoft Excel 2010 cədvəl prosessoru", "Microsoft PowerPoint 2010 elektron təqdimat proqramında təqdimatların hazırlanması", "Verilənlər Bazası (VB) anlayışı. Verilənlər Bazasının İdarəedilməsi Sistemləri (VBİS)" və digər mövzulara, rus bölməsi üzrə bakalavrların əksər hissəsi isə "Sistem proqram təminatı. Tətbiqi proqram təminatı. İnstrumental proqram təminatı", "Əməliyyat sistemlərinin təsnifatı. Faylların əsas xarakteristikaları. Fayl sistemləri", "Microsoft Word 2010 mətn prosessoru. Fayl əməliyyatları (Backstage View)", "Microsoft Excel 2010 cədvəl prosessoru", "Microsoft PowerPoint 2010 elektron təqdimat proqramında təqdimatların hazırlanması" və digər mövzulara aid tapşırıqlara daha yaxşı cavab vermişlər.

İndi isə imtahanda istifadə edilmiş bir neçə test tapşırığına və onların cavablandırılmasının statistik göstəricilərinə nəzər salaq.

A variantı, 52 saylı (C variantı, 67 saylı) test tapşırığı.

Mətn redaktorunda aşağıdakı mətn yığılmışdır:
Şəhər; Malın adı; Ay; Satılıb
Bakı; yanvar; 5
Sumqayıt; stul; fevral; 6
Gəncə; mart; 3



Convert Text to Table (Преобразовать Текст в Таблицу/Mətni Cədvələ Çevir) dialoq pəncərəsi əmrinin yerinə yetirilməsindən sonra alınan cədvəlin 2-ci sütunu hansı olar (ayırıcı işarə olaraq ";" simvolundan istifadə edilmişdir) (MS Word 2010)?

A)

Malın adı
;
stul
mart

B)

Bakı
;
yanvar
5

C)

Ay
5
fevral
3

D)

Malın adı	
yanvar	
stul	
3	

E)

Malın adı
stul
mart

Bu test tapşırığı "Microsoft Word 2010 mətn prosessoru" bölməsində "Microsoft Word 2010-da Ribbon (Лента/Lent) istifadəçi interfeysi, Cəld müraciət paneli və vəziyyət sətri" mövzusuna aiddir. Bakalavrların test tapşırığında E doğru cavabını seçmə faizi (**27.55%**) A distraktorunun seçilmə faizindən (32.84%) aşağıdır. Belə ki, bakalavrların xeyli hissəsi ";" ayırıcı işarəsini də cədvəlin elementi hesab etmiş və bununla da yanlış cavabı seçmişlər.

B variantı, 59 saylı (D variantı, 54 saylı) test tapşırığı.
Sənədin redaktəsi yeni daxil edilən mətn fraqmentinin əvvəlki mətn fraqmentini əvəz etməsi ilə nəticələnərsə, aşağıdakılardan hansı bu rejimdən çıxmağa imkan verir (MS Word 2010)?
A) Ctrl+Z düymələr kombinasiyasını basmaqla
B) Insert düyməsilə və ya vəziyyət sətrindəki Overtype (Замена/Əvəzetmə) rejimini passivləşdirməklə
C) Backspace düyməsilə və ya vəziyyət sətrindəki Overtype (Замена/Əvəzetmə) rejimini passivləşdirməklə
D) Ctrl düyməsilə və ya vəziyyət sətrindəki Overtype (Замена/Əvəzetmə) rejimini passivləşdirməklə
E) Shift düyməsilə və ya vəziyyət sətrindəki Overtype (Замена/Əvəzetmə) rejimini passivləşdirməklə

Bu test tapşırığı "Microsoft Word 2010 mətn prosessoru" bölməsində "Mətnin daxil edilməsi və redaktəsi. Mətn sahəsində hərəkət" mövzusuna aiddir. Doğru cavabın B bəndi (**13.74%**) olmasına baxmayaraq, bakalavrların əksəriyyəti (44.48%) tapşırığın məzmununu yanlış anlayaraq əvəzetmə rejimindən çıxmaqla sonuncu əmrin ləğv edilməsini səhv salmış və A distraktorunu seçmişdir.

B variantı, 70 saylı (D variantı, 57 saylı) test tapşırığı.
MS Word 2010 mətn prosessorunda hansı formatlı faylları açmaq mümkündür?
A) .doc, .pdf, .mdbx (3.55%)
B) .pdf, .doc, .docx (63.70%)
C) .rtf, .dot, .dotm (**16.55%**)
D) .docx, .xls, .xlsx (9.98%)
E) .pdf, .txt, .xlsx (4.71%)

C bəndi (**16.55%**) doğru cavabdır.
Bu test tapşırığı "Microsoft Word 2010 mətn prosessoru" bölməsinə aiddir. MS Word 2010 mətn prosessoru .docx, .docm, .xml, .doc, .dotx, .dot, .rtf, .txt, .odt, .wps formatlı faylları avtomatik olaraq çevirməklə açа bilər. Word 2010 proqramının köməkliyi ilə .pdf formatlı fayllar yaratmaq mümkün olsa da, onları açmaq mümkün deyil. Bakalavrların əksəriyyəti (63.70%) bu faktları qarışdıraraq B distraktorunu seçmişdir.

B variantı, 55 saylı (D variantı, 69 saylı) test tapşırığı.
Kompüterin videoaltsistemi hansı komponentlərdən ibarətdir?
A) monitor və videosiqnal (7.55%)
B) videoadapter və videokart (51.86%)
C) monitor və videoadapter (**21.96%**)
D) videogiriş və videoçıxış (14.37%)
E) monitor və videoimpuls (2.78%)

C bəndi (**21.96%**) doğru cavabdır.
Bu test tapşırığı "Kompüter və onun texniki təminatı (Hardware)" bölməsinə aiddir. Belə ki, istənilən kompüterin videoaltsistemi videoadapter və ona qoşulan monitor olmaqla iki hissədən ibarətdir. Bakalavrlar nəzəri mövzuları yaxşı mənimsəmədiklərinə görə onları praktiki olaraq tətbiq edə bilmirlər və nəticədə nəzəri biliklərin məhdudluğu səbəbilə onların əksəriyyəti tapşırığı səhv cavablandırmışdır.
İndi isə açıq formalı test tapşırıqlarına baxaq.

A variantı, 71 saylı (C variantı, 72 saylı) test tapşırığı.
Düzgün ***olmayan*** ifadələri göstərin.
1. Transiver işçi stansiyanın optik-lifli kabel vasitəsilə şəbəkəyə qoşulmasını təmin edir.
2. Elementlərin şəbəkəyə qoşulma konfiqurasiyasına topologiya deyilir.
3. Router (marşurtlaşdırıcı) dinamik və statik olur.
4. Öz resurslarını şəbəkə qurğularına təqdim edən kompüter kliyent adlanır.
5. Arcnet şəbəkəsində ulduz topologiyasından istifadə edilir.
Doğru cavab: 1, 4 (**13.21%**)

B variantı, 71 saylı (D variantı, 73 saylı) test tapşırığı.
Düzgün ifadələri göstərin.
1. Lokal şəbəkələr 4 cür olur: şəhər, regional, milli, transmilli.
2. Kompüter şəbəkəsinin arxitekturası şəbəkə elementlərinin aparat və proqram təminatının işləmə və qurulma prinsiplərini təyin edir.
3. Bridge (körpü) müxtəlif topologiyalı, lakin eyni protokola malik lokal şəbəkələri birləşdirən aparat-proqram təminatlı qurğudur.
4. Öz resurslarını şəbəkə qurğularına təqdim edən kompüter kliyent adlanır.
5. Arcnet şəbəkəsində halqa topologiyası istifadə edilir.
Doğru cavab: 2, 3 (**14.55%**)

Bu test tapşırıqları "Kompüter şəbəkəsi" bölməsinə aid olub, açıq formalı və seçim tiplidir. Bakalavrların əksəriyyətinin bu tapşırıqları səhv cavablandırması və ya ümumiyyətlə cavablandırmaqdan imtina etməsi onu göstərir ki, onlar bu mövzunu yaxşı mənimsəməmişlər. Nəzəri mövzuların bakalavrlar tərəfindən praktik tətbiq edilə bilməməsi ilə əlaqədar yaranan çətinliklər buna səbəb ola bilər. Görünür, test tapşırıqlarının açıq formalı olması da bakalavrlar üçün düzgün cavabı seçməkdə çətinlik yaratmışdır.

A variantı, 72 saylı (C variantı, 73 saylı) test tapşırığı.
Cədvəldə axtarış serverinə verilmiş sorğular və axtarış nəticəsində İnternetdə tapılmış səhifələrin sayı verilmişdir (sorğularda "VƏ YA" (OR) məntiq əməlini işarə etmək üçün | simvolu, "VƏ" (AND) məntiq əməli üçün isə & simvolu istifadə edilmişdir).

Sorğu	Tapılmış səhifələrin sayı (minlərlə)
Avtobus	38
Velosiped	42
Avtomobil | Avtobus | Velosiped	75
Avtobus & Velosiped	20
Avtomobil & Velosiped	15
Avtomobil & Avtobus	0

"Avtomobil" sorğusu üzrə neçə (minlərlə) səhifə tapılar?
Doğru cavab: 30 (**11.22%**)

B variantı, 74 saylı (D variantı, 72 saylı) test tapşırığı.
Cədvəldə axtarış serverinə verilmiş sorğular və axtarış nəticəsində İnternetdə tapılmış səhifələrin sayı verilmişdir (sorğularda "VƏ YA" (OR) məntiq əməlini işarə etmək üçün | simvolu, "VƏ" (AND) məntiq əməli üçün isə & simvolu istifadə edilmişdir).

Sorğu	Tapılmış səhifələrin sayı (minlərlə)
Şəkil	35
Mətn	48
Cədvəl | Şəkil | Mətn	83
Şəkil & Mətn	30
Cədvəl & Mətn	10
Cədvəl & Şəkil	0

"Cədvəl" sorğusu üzrə neçə (minlərlə) səhifə tapılar?
Doğru cavab: 40 (**12.37%**)

Bu test tapşırıqları “İnternet qlobal şəbəkəsi” bölməsində “İnternet xidmətləri” mövzusuna aiddir. Bu tip tapşırıqları cavablandırarkən nəzərə almaq lazımdır ki, sorğuların ayrı-ayrılıqda saylarının cəmi onların OR və AND əməli ilə olan saylarının cəminə bərabərdir.

Açıq formalı test tapşırıqları informatika testləri üzrə beynəlxalq təcrübə nəzərə alınmaqla tərtib edilib, proqram tələblərinə tam cavab verir. Tapşırıqların aid olduğu mövzular DİM-in “İnformatika” vəsaitində və dərsliklərdə kifayət qədər ətraflı izah olunmuşdur. Bəzi tapşırıqların açıq test tapşırığı formasında təqdim olunması bakalavrların biliklərinin daha dəqiq yoxlanılmasına imkan verir.

Yuxarıda təhlil olunan test tapşırıqlarından belə nəticəyə gəlmək olar ki, bakalavrların əksəriyyəti “Microsoft Word 2010 mətn prosessoru”, “Kompüter və onun texniki təminatı (Hardware)”, “Kompüter şəbəkəsi”, “İnternet qlobal şəbəkəsi” bölmələrinə aid tapşırıqlarda çətinlik çəkmişdir. Bu da onu göstərir ki, bakalavrlar bu bölmələri nəzəri cəhətdən yaxşı mənimsəməmiş, praktiki səviyyədə isə kifayət qədər tətbiq etməmişlər.

Qəbul imtahanı göstəricilərinin təhlilindən çıxan əsas nəticə bundan ibarətdir ki, ali təhsilin bakalavriat səviyyəsində informatikanın və informasiya-kommunikasiya texnologiyalarının tədrisi yaxşılaşdırılmalı, müasir dövrün tələblərinə uyğunlaşdırılmalı və daha çox tətbiqyönlü olmalı, eləcə də bu tələblərə cavab verən keyfiyyətli dərslik və dərs vəsaitləri hazırlanmalıdır.

Magistraturaya qəbula hazırlaşanlara metodiki kömək göstərmək məqsədi ilə DİM tərəfindən nəşr edilən "İnformatika" vəsaiti bu fənn üzrə qəbul proqramına uyğun hazırlanmışdır. Vəsaitdə bütün mövzuların nəzəri şərhi test tapşırıqları ilə müşayiət olunur. Bu da qəbula hazırlaşanlara imtahana təkcə nəzəri cəhətdən hazırlaşmağa deyil, həmçinin öz bilik və bacarıq səviyyələrini mövzular üzrə ümumiləşdirici test tapşırıqları vasitəsilə yoxlamağa və təkmilləşdirməyə imkan verir.

Xarici dilləri bilmə səviyyəsini yoxlayan test tapşırıqlarına verilən cavabların elmi-metodiki təhlili və tövsiyələr

2019-cu ildə magistratura səviyyəsinə qəbul imtahanının birinci mərhələsində xarici dillər üzrə test bloklarında bakalavrların məntiqi təfəkkür qabiliyyətlərinin üzə çıxarılması məqsədini daşıyan, ünsiyyət prosesində xarici dildən istifadə zamanı mühüm əhəmiyyət kəsb edən, xarici dil üzrə bilik və bacarıqların praktiki tətbiqi ilə bağlı tapşırıqlara üstünlük verilmişdir.

Xarici dil üzrə test blokuna daxil edilmiş tapşırıq tipləri əvvəlcədən xarici dillər üzrə elmi-metodik seminarda müzakirə olunub bəyənilmiş, “Magistr” jurnalında dərc edilmiş, sınaq imtahanında tətbiq edilmiş, daha sonra isə qəbul imtahanında istifadə olunmuşdur. Test blokuna daha çox kommunikativ yönlü, məntiqi yanaşma, ümumiləşdirmə aparmaq bacarığı tələb edən tapşırıqlar daxil edilmişdir. Tapşırıqlar bakalavrların xarici dil üzrə qazandıqları bilik, bacarıq və vərdişlərin üzə çıxarılmasına imkan vermişdir.

İmtahanın birinci mərhələsində Azərbaycan bölməsinin bakalavrlarına ingilis, alman, fransız, rus, ərəb və ya fars dilini, rus bölməsinin bakalavrlarına isə ingilis, alman və ya fransız dilini xarici dil kimi seçmək hüququ verilmişdir.

İmtahanın birinci mərhələsində iştirak edən və ayrı-ayrı xarici dilləri seçən bakalavrların sayı aşağıdakı cədvəldə göstərildiyi kimi olmuşdur.

Qəbul imtahanının birinci mərhələsində iştirak etmiş bakalavrların xarici dillər üzrə sayı:

	İngilis dili	**Alman dili**	**Fransız dili**	**Rus dili**
Azərbaycan bölməsi	8920	228	437	1794
Rus bölməsi	1104	34	25	–
Cəmi	10024	262	462	1794

İndi isə 2019-cu ildə bakalavrların **xarici dil (ingilis, alman, fransız və rus dilləri)** fənləri üzrə test tapşırıqlarına cavablarının bəzi mühüm məqamlarına dair ekspert şərhlərinə diqqət yetirək.

İmtahan nəticələrinin bütün xarici dil fənləri və bölmələr (Azərbaycan və rus bölmələri) üzrə, habelə test tapşırıqlarının çətinlik dərəcəsi və qabiliyyət göstəriciləri üzrə aparılmış elmi-metodiki təhlili bunu deməyə əsas verir ki, bakalavrların əksəriyyətinin xarici dil üzrə bilik səviyyəsi orta səviyyəyə yaxındır. Lakin ayrı-ayrı dillər və fəndaxili mövzular üzrə nəticələr fərqlidir.

İstifadə olunmuş test tapşırıqlarının çətinlik dərəcələri üzrə təhlili göstərir ki, bakalavrların əksəriyyəti asan və orta çətinlikli faktoloji test tapşırıqlarının cavablandırılmasında yaxşı, tətbiqyönlü, məntiqi düşüncə, ümumiləşdirmə bacarığı tələb edən orta çətinlikli və çətin test tapşırıqlarının cavablandırılmasında isə nisbətən zəif nəticə göstərmişdir.

Xarici dillər üzrə test bloklarındakı tapşırıqların mövzu və bölmələr üzrə paylanması zamanı onların, əsasən, praktiki və kommunikativ yönlü olması nəzərdə tutulmuşdur. Təklif edilən test tapşırıqlarının

məzmunu bakalavrların nəzəri materialı necə mənimsədiyini, praktiki dil bacarıq və vərdişlərinə hansı səviyyədə yiyələndiyini müəyyənləşdirməyə, onların söz ehtiyatını, oxuyub-anlama və dinləyib-anlama bacarıqlarını üzə çıxarmağa imkan vermişdir. Bakalavrlara hər bir xarici dil üzrə təqdim edilən test blokunda 25 tapşırıqdan 20-si qapalı formalı, 5-i isə açıq formalı idi. Hər bir xarici dil üzrə test blokuna daxil edilən 25 test tapşırığından 5-i mətn əsasında tərtib edilmiş və dinləyib-anlama bacarığını yoxlayan tapşırıqlardan, 5-i mətn əsasında tərtib edilmiş və oxuyub-anlama bacarığını yoxlayan tapşırıqlardan, 15-i isə leksik-qrammatik tapşırıqlardan ibarət olmuşdur.

Test blokundakı 20 qapalı formalı test tapşırığına bakalavrların cavabları qənaətbəxşdir. Belə ki, qapalı test tapşırıqlarının düzgün cavablandırılma göstəricisi ingilis dili üzrə 53.40% (o cümlədən Azərbaycan bölməsində 51.91%, rus bölməsində 65.40%), alman dili üzrə 49.33% (o cümlədən Azərbaycan bölməsində 49.03%, rus bölməsində 51.32%), fransız dilindən 54.21% (o cümlədən Azərbaycan bölməsində 53.88%, rus bölməsində 60.00%), rus dilindən isə Azərbaycan bölməsində 52.02%-dir. Rus bölməsində bakalavrların qapalı test tapşırıqlarını düzgün cavablandırma göstəricisi Azərbaycan bölməsindəkindən ingilis dili üzrə 13.49%, fransız dili üzrə 6.12%, alman dili üzrə isə 2.29% yuxarıdır.

Bakalavrların qapalı formalı 20 test tapşırığını düzgün cavablandırma faizləri aşağıdakı cədvəldə göstərilmişdir:

Bakalavrların qapalı formalı tapşırıqları düzgün cavablandırma faizləri (ortastatistik göstəricilər)

	İngilis dili	Alman dili	Fransız dili	Rus dili
Azərbaycan bölməsi	51.91	49.03	53.88	52.02
Rus bölməsi	65.40	51.32	60.00	–
Fənn üzrə ümumi	53.40	49.33	54.21	52.02

Bu nəticələri bakalavrların 2018-ci ildə keçirilmiş qəbul imtahanındakı nəticələri ilə müqayisə etdikdə, qapalı sualların düzgün cavablandırılma göstəricisinin ingilis və fransız dilləri üzrə bir qədər yüksəlməsi, alman və rus dilləri üzrə aşağı düşməsi aşkara çıxır. Qapalı formalı test tapşırıqlarının cavablandırılmasında ən yaxşı nəticə fransız dilindən imtahan verən bakalavrlara məxsusdur.

Xarici dil üzrə test blokuna daxil edilən açıq formalı test tapşırıqlarına bakalavrların cavabları o qədər də qənaətbəxş olmamışdır. Belə ki, açıq formalı test tapşırıqlarının düzgün cavablandırılma göstəricisi ingilis dili üzrə 41.72% (o cümlədən Azərbaycan bölməsində 41.01%, rus bölməsində 47.39%), alman dili üzrə 33.59% (o cümlədən Azərbaycan bölməsində 34.21%, rus bölməsində 29.41%), fransız dili üzrə 18.70% (o cümlədən Azərbaycan bölməsində 17.94%, rus bölməsində 32.00%), rus dili üzrə isə Azərbaycan bölməsində 26.66% olmuşdur. Bakalavrların xarici dillər üzrə açıq formalı test tapşırıqlarını düzgün cavablandırma faizləri 2018-ci ildəkinə nisbətən ingilis və alman dilləri üzrə xeyli yüksəlmiş, fransız və rus dilləri üzrə bir qədər aşağı düşmüşdür. İngilis dilindən imtahan verən bakalavrların açıq formalı tapşırıqları cavablandırmalarında 10.59%, alman dilindən isə 6.95% irəliləyiş müşahidə olunur.

Bakalavrların açıq formalı tapşırıqları düzgün cavablandırma faizləri (ortastatistik göstəricilər)

	İngilis dili	Alman dili	Fransız dili	Rus dili
Azərbaycan bölməsi	41.01	34.21	17.94	26.66
Rus bölməsi	47.39	29.41	32.00	–
Fənn üzrə ümumi	41.72	33.59	18.70	26.66

Cədvəldən göründüyü kimi, rus bölməsində imtahan verən bakalavrların açıq formalı test tapşırıqlarını düzgün cavablandırma göstəriciləri Azərbaycan bölməsinin bakalavrlarınkından ingilis dili üzrə 6.38%, fransız dili üzrə 14.06% yüksək, alman dili üzrə isə 4.80% aşağı olmuşdur. Açıq formalı test tapşırıqlarının cavablandırılmasında ən yaxşı nəticəni ingilis dilindən, ən zəif nəticəni isə fransız dilindən imtahan verən bakalavrlar nümayiş etdirmişlər.

Xarici dil üzrə test blokuna daxil olan qapalı və açıq formalı test tapşırıqlarının birlikdə düzgün cavablandırılma faizləri aşağıdakı kimi olmuşdur:

Bakalavrların qapalı və açıq formalı tapşırıqları düzgün cavablandırma faizləri (ortastatistik göstəricilər)

	İngilis dili	Alman dili	Fransız dili	Rus dili
Azərbaycan bölməsi	49.73	46.07	46.69	46.95
Rus bölməsi	61.80	46.90	54.40	–
Fənn üzrə ümumi	51.06	46.18	47.11	46.95

Cədvəldən göründüyü kimi, 2019-cu ildə rus bölməsində imtahan verən bakalavrların bütün xarici dillərdən test tapşırıqlarını düzgün cavablandırma faizləri Azərbaycan bölməsinin bakalavrlarından daha yüksək olmuşdur.

Məlum olduğu kimi, xarici dillər üzrə test bloklarına ənənəvi olaraq oxuyub-anlama bacarığını yoxlayan bir mətn əsasında tərtib edilmiş 5 qapalı formalı tapşırıqdan ibarət oxu bloku daxil olunurdu. Bu ildən isə oxu bloku ilə yanaşı, ilk dəfə olaraq dinləyib-anlama bacarığını yoxlayan bir mətn (monoloq) əsasında tərtib olnmuş dinləmə bloku da daxil edilmişdir. Aşağıdakı cədvəldə həmin iki blokun cavablandırılma göstəriciləri əks olunur:

Bakalavrların oxu və dinləmə blokları üzrə tapşırıqları düzgün cavablandırma faizləri (ortastatistik göstəricilər)

	İngilis dili		Alman dili		Fransız dili		Rus dili	
	Oxu bloku	Dinləmə bloku	Oxu bloku	Dinləmə bloku	Oxu bloku	Dinləmə bloku	Oxu bloku	Dinləmə bloku
Azərbaycan bölməsi	51.61	40.42	55.44	40.35	58.81	37.35	53.37	44.49
Rus bölməsi	67.50	56.56	57.06	43.53	67.20	43.20	-	-
Bölmələr üzrə ümumi	53.36	42.20	55.65	40.76	59.26	37.66	-	-

Cədvəldən göründüyü kimi, oxuyub-anlama bloku üzrə düzgün cavablandırma göstəriciləri 53.36-59.26% intervalında, dinləyib-anlama bloku üzrə isə 37.66-44.49% intervalında olmuşdur. Oxuyub–anlama blokları üzrə nəticələr ümumilikdə test blokları üzrə nəticələrdən yüksəkdir. Dinləyib-anlama blokunun ilk dəfə tətbiq olunduğunu nəzərə alsaq, həmin blok üzrə nəticələri də qənaətbəxş saymaq olar.

İndi isə 2018-ci və 2019-cu illərin qəbul imtahanlarının nəticələri əsasında Azərbaycan və rus bölmələrindən olan bakalavrların xarici dil üzrə test bloklarını düzgün cavablandırma göstəricilərini müqayisə edək.

Bakalavrların xarici dil bloku üzrə tapşırıqları düzgün cavablandırma faizlərinin müqayisəsi (2018-ci və 2019-cu illər, faizlə)

Dillər / İllər	İngilis dili	Alman dili	Fransız dili	Rus dili
2018	47.24	47.83	48.16	51.31
2019	51.06	46.18	47.11	46.95
Fərq	3.82	1.65	1.05	4.36

Göründüyü kimi, bakalavrların nəticələri 2018-ci ildə fransız və rus dilləri üzrə, 2019-cu ildə isə ingilis və fransız dilləri üzrə o biri dillərə nisbətən daha yüksək olmuşdur.

Magistraturaya qəbul imtahanının birinci mərhələsində iştirak etmiş 12545 bakalavrdan 79.90%-i (10024 nəfəri) xarici dil kimi ingilis dilini, 14.30%-i (1794 nəfəri) isə rus dilini seçmişdir. Digər xarici dilləri seçənlər imtahan verən kontingentin təxminən 5.80%-ni təşkil etmişdir. Xarici dil kimi ingilis və rus dillərini seçən bakalavrlar imtahan verən kontingentin mütləq əksəriyyətini təşkil etsələr də, alman və fransız dillərini seçən bakalavrların da test tapşırıqlarını cavablandırmalarında müşahidə olunan spesifik cəhətlər, onların cavablandırmaqda çətinlik çəkdikləri ayrı-ayrı mövzulara aid test tapşırıqları üzərində bir qədər ətraflı dayanmağı, müvafiq statistik göstəricilər əsasında elmi-metodik təhlil aparmağı, nəticələr çıxarmağı və bəzi tövsiyələr verməyi məqsədəuyğun hesab edirik.

2019-cu ildə qəbul imtahanında xarici dil kimi ***ingilis dilini*** seçən bakalavrların sayı 10024 nəfər olmuşdur ki, bunun da 8920-si Azərbaycan bölməsinin, 1104-ü isə rus bölməsinin payına düşür. İngilis dili fənnindən təklif olunmuş test tapşırıqları bloku, əsasən, bakalavrların kommunikativ bacarıqlarını, leksika və qrammatika sahəsində biliklərini yoxlayan, onlardan təhliletmə, ümumiləşdirmə və məntiqi nəticə çıxarma bacarığı tələb edən tətbiqyönlü tapşırıqlardan, o cümlədən verilmiş sözlərin sinonim və antonimlərinin, eləcə də düzgün izahının tapılması, dialoqqurma, verilmiş cümlələrdən kiçik hekayənin tərtib edilməsi kimi leksik tapşırıqlardan və məchul növ, inkar söz və cümlə, əvəzlik, bağlayıcı, zaman formaları kimi qrammatik əsaslı tapşırıqlardan ibarət olmuşdur. Bunlarla yanaşı, qəbul imtahanında bakalavrlara oxuyub-anlama və dinləyib-anlama bacarıqlarını yoxlayan test tapşırıqları blokları da təqdim olunmuşdur.

Hər bir xarici dil öyrənən bakalavr həmin dildə ona təqdim olunmuş yazılı məlumatı oxuyub anlaya bilməli, öz fikrini yazılı və şifahi şəkildə sərbəst ifadə etməli, eşitdiyi informasiyanı adekvat şəkildə

qavramağı bacarmalıdır. Bu məzmunda olan test tapşırıqları onların oxuyub-anlama, dinləyib-anlama, yazı və danışıq qabiliyyətlərini qiymətləndirməkdə əhəmiyyətli rol oynayır.

2019-cu ildən etibarən ilk dəfə olaraq Ümumavropa Çərçivə Sənədinin tələblərinə əsasən dil öyrənmənin ən vacib komponentlərindən hesab edilən dinləmə bacarığının yoxlanılmasına yönəlmiş test tapşırıqları bloku da qəbul imtahanında yer almışdır. Bakalavrlara dinləyib-anlama üçün mətn və mətnlə bağlı olan 5 test tapşırığı təqdim olunmuşdur. Mətn bakalavrlar üçün iki dəfə səsləndirilmişdir. Tapşırıqlar isə mətnin əsas ideyasının müəyyən edilməsi, verilmiş cümlənin mətnə əsasən tamamlanması, mətnə görə düzgün fikirlərin seçilməsi istiqamətində olmuşdur.

İlk dəfə tətbiq olunmasına baxmayaraq, dinləyib-anlama ilə bağlı olan test tapşırıqlarının statistik nəticələri qənaətbəxş hesab edilə bilər. Belə ki, Azərbaycan bölməsi üzrə bakalavrların 40.42%-i, rus bölməsi üzrə isə 56.56%-i test tapşırıqlarını düzgün cavablandırmışdır. Hər iki bölmə üzrə ümumilikdə bu nəticə 42.20% təşkil edir. Rus bölməsi bakalavrlarının dinləmə bacarıqları Azərbaycan bölməsinin bakalavrlarından 16.14% yüksək olmuşdur.

Statistik göstəricilərə əsasən, bakalavrlar dialoqun komponentlərinin tamamlanması, sinonim, antonim, sözönü, modal feillər, əvəzlik, mürəkkəb tamamlıq, bağlayıcı, sual cümləsi, məchul növ ilə bağlı test tapşırıqlarını daha yaxşı cavablandırmışlar.

İmtahan nəticələrinin təhlili göstərir ki, bakalavrların oxu mətni əsasında tərtib olunmuş test tapşırıqlarına cavabları da qənaətbəxş hesab edilə bilər. Belə ki, ingilis dili üzrə mətn əsasında beş tapşırıqdan ibarət test blokunu bakalavrların orta hesabla 53.36%-i, o cümlədən Azərbaycan bölməsi üzrə 51.61%-i, rus bölməsi üzrə isə 67.50%-i düzgün cavablandırmışdır. Göründüyü kimi, rus bölməsində imtahan verən bakalavrların oxu mətni üzrə test blokunu cavablandırma göstəricisi də Azərbaycan bölməsində imtahan verən bakalavrların müvafiq göstəricisindən 16%-ə yaxın yüksəkdir.

Ümumilikdə, ingilis dili üzrə test blokunda təqdim edilən tapşırıqlardan 3-nün düzgün cavablandırılma göstəricisi 20-30%, 7-ninki 31-50%, 15-ninki isə 51-90% intervalındadır.

2019-cu ildə hər iki bölmə üzrə ümumilikdə bakalavrların 51.06%-i test tapşırıqlarını düzgün cavablandırmışdır. Müvafiq göstərici Azərbaycan bölməsində 49.73%, rus bölməsində isə 61.80%-dir. Azərbaycan bölməsi üzrə bakalavrların 51.91%-i, rus bölməsi üzrə isə 65.40%-i qapalı test tapşırıqlarına doğru cavab vermişdir. Hər iki bölmə üzrə ümumi göstərici 53.40%-dir. Açıq formalı test tapşırıqlarını cavablandırmada Azərbaycan bölməsi üzrə 41.01%, rus bölməsi üzrə isə 47.39%, hər iki bölmə üzrə ümumilikdə isə 41.72% nəticə qeydə alınmışdır.

2018-ci və 2019-cu illərin göstəricilərini müqayisə etsək, belə bir nəticəyə gəlmək olar ki, Azərbaycan bölməsinin bakalavrları verilmiş sualları əvvəlki ildəkindən 3.30%, rus bölməsi isə 8.28% yuxarı səviyyədə cavablandırmışdır. Ümumilikdə isə doğru cavablandırmada 3.82% artım müşahidə olunur. Qapalı test tapşırıqlarının doğru cavablandırılmasında Azərbaycan bölməsi üzrə 1.53%, rus bölməsi üzrə isə 7.27% artım özünü göstərir. Qapalı test tapşırıqlarının cavablandırılmasında ümumilikdə hər iki bölmə üzrə 2.13% artım müşahidə olunur. Açıq formalı test tapşırıqlarının cavablandırılmasında da rus bölməsinin bakalavrları daha yaxşı nəticə göstərmişlər. Belə ki, Azərbaycan bölməsində açıq formalı test tapşırıqlarını doğru cavablandırmanın statistikasında ötən ilə nəzərən 1.39% artım müşahidə olunmaqdadır. Rus bölməsində isə 12.31% artım qeydə alınıb. Azərbaycan və rus bölmələri üzrə ümumilikdə açıq formalı test tapşırıqları 10.59% artımla düzgün cavablandırılmışdır.

Mətn blokuna dair verilmiş test tapşırıqlarının cavablandırılmasında 2018-ci illə müqayisədə Azərbaycan bölməsi üzrə 12.66%, rus bölməsi üzrə 19.00% yuxarı nəticə müşahidə olunmaqdadır. Hər iki bölmə üzrə ümumilikdə isə 13.31% daha yüksək nəticə qeydə alınmışdır.

İndi isə imtahanda istifadə edilmiş bir neçə test tapşırığına və onların cavablandırılmasının statistik göstəricilərinə nəzər salaq.

Dinləyib-anlama mətni ilə bağlı verilmiş *A variantında 78 saylı (C və B variantlarında 78 saylı)* test tapşırığına diqqət yetirək:

Choose the correct statement according to the passage.

A) Verity studies two colours in eight different programmes.

B) Colours can influence our choices and health.

C) Verity is the person who designs products in pink and orange.

D) Pink or orange can attract customers' attention more than any other colour.

E) Colours can affect the people’s behaviour towards us.

Bu test tapşırığı bakalavrların dinləyib-anlama qabiliyyətini yoxlamağa yönəlmişdir. Onlar dinlədikləri mətndə verilmiş məlumata əsasən mətnin məzmununa uyğun gələn düzgün cümləni seçməlidirlər. 32.17%

bakalavr A bəndini, 26.40% bakalavr B bəndini, 19.37% bakalavr C bəndini, 13.47% bakalavr isə D bəndini seçmişdir. A distraktorunun bakalavrlar tərəfindən yüksək faizlə seçilməsinə səbəb rənglərin və onlara uyğun proqramların sayı ilə bağlıdır. Belə ki, mətndə söhbət hər proqramda iki rəng olmaqla səkkiz fərqli rəngin öyrənilməsindən gedir. A distraktorunda səkkiz müxtəlif proqramda iki rəngin öyrənilməsi qeyd olunur. A distraktorunda verilmiş rəqəmlər oxşar olsa da, onlar məlumatı olduğu kimi əks etdirmir. Düzgün cavab olan B bəndini seçən bakalavrların sayı isə 26.40% olmuşdur.

A variantında 80 saylı (D variantında 79 saylı) test tapşırığı da dinləmə mətni ilə bağlıdır. Burada bakalavrlardan mətnə əsasən cümlənin tamamlanması tələb olunur.

Complete the sentence according to the passage.

The knowledge of colour is of great importance because it helps consumers in … .

A) designing food packets

B) choosing the needed products

C) changing people's behaviour

D) making wrong choices

E) producing successful products

Test tapşırığında diqqəti çəkən məqam ondan ibarətdir ki, verilmiş cümlənin tamamlanması üçün konkret bir cümlənin yox, bütövlükdə mətnin eşidilib anlaşılması lazımdır. A distraktorunu 31.19%, E distraktorunu isə 18.34% bakalavr seçmişdir. Mətn istehlak mallarının istehsalında istehlakçıların psixologiya və stereotiplərini nəzərə alaraq bu və ya digər rəngin seçilməsi ilə bağlıdır. Mətnin ideya və məzmununa uyğun olan düzgün cavab B bəndidir. B cavabını seçmiş bakalavrların sayı 27.56% təşkil edir.

Oxuyub-anlama üzrə mətn blokunda verilmiş *A variantı, 94 saylı (C variantı, 92 saylı) test tapşırığına* nəzər salaq:

According to the passage, all of the following are true EXCEPT:

1. The landscapes of New Zealand and Australia are alike.
2. The remnants of ancient Eastern practices have already disappeared.
3. British settlers came to Australia and New Zealand hundreds of years ago.
4. Australia and New Zealand are at a great distance from each other.

A) 1, 2 B) 3, 4 C) 2, 3 D) 1, 4 E) 2, 4

Verilmiş test tapşırığında mətnə əsasən doğru olmayan fikrin seçilməsi tələb olunur. Seçim tipli bu test tapşırığında verilmiş fikirlərdən ikisi mətnlə səsləşmir. Bu tapşırığı doğru cavablandırmaq üçün bakalavrlar mətni diqqətlə oxumalı, mətndə əksini tapmış məlumatın verilmiş cümlələrlə uyğunluq təşkil edib-etməməsini araşdırmalıdırlar. Bakalavrların 22.82%-i A bəndini seçməklə tapşırığı doğru cavablandırmağa müvəffəq olmuşdur. 26.67% bakalavr B distraktorunu, 20.09% bakalavr isə C distraktorunu seçmişdir. D və E distraktorları isə müvafiq olaraq 13.83% və 13.15% seçilmişdir.

Test tapşırıqlarına diqqətlə nəzər salsaq, görərik ki, onlardan bəzilərini yerinə yetirmək üçün hər hansı faktoloji bilik kifayət etmir. Xüsusən leksika bölməsinə aid bəzi tapşırıqlar verilənlərin tam qavranılmasını və bu qavranılmış məlumat əsasında səbəb-nəticə, ardıcıllıq, zaman əlaqəsinin tapılmasını tələb edir. Bu, əsasən, mətn tərtibi ilə bağlı olan tapşırıqlarda öz əksini tapır. Bu məzmunlu *B variantı 100 saylı* test tapşırığına nəzər salaq:

Make up a story.

1. "I never ask a gentleman to pay me money," the tailor replied.
2. "Well, after some time I no longer think he is a gentleman."
3. A man met his tailor in the street and stopped him.
4. "Then what do you do if the gentleman doesn't pay?"
5. "Why didn't you remind me to pay you?"
6. "I quite forgot to pay you for the suit which you made for me," he said.

Açıq formalı bu test tapşırığına bakalavrların cəmi 17.70%-i doğru cavab vermişdir. 30.56% bakalavr tapşırığı cavablandırmaqdan imtina etmişdir. Bu cür tapşırıqların yerinə yetirilməsində fikirlərin məntiqi ardıcıllığının müəyyən olunması mühüm rol oynayır. Burada doğru ardıcıllıq 3, 6, 5, 1, 4, 2 şəklində olmalıdır.

Qəbul imtahanında xarici dil kimi ***alman dilini*** seçən bakalavrların sayı 262 nəfər olmuşdur ki, bunun da 228-i Azərbaycan bölməsinin, 34-ü isə rus bölməsinin payına düşür.

İmtahan nəticələrinin təhlili göstərir ki, bakalavrlar inkar sözünün seçilməsi, sinonim, dialoqun qurulması, bağlayıcı, düzgün sual cümləsinin seçilməsi, verilmiş cümlənin məntiqi tamamlanması, əvəzlik, mətn tərtibi mövzularına aid test tapşırıqlarını asanlıqla cavablandıra bilmişlər. Mətn əsasında tərtib olunmuş test

tapşırıqlarına nəzər saldıqda isə görürük ki, mətnə görə düzgün fikirlərin seçilməsi, mətndən seçilmiş hər hansı cümlənin tamamlanması, mətn əsasında verilmiş sualın cavablandırılması mövzusunda olan test tapşırıqları 60-70% aralığında düzgün yerinə yetirilmişdir. Mətnin əsas ideyasının müəyyənləşdirilməsi və mətndə seçilərək verilmiş sözün mənasının tapılmasına aid test tapşırıqları isə 30-40% aralığında düzgün cavablandırılmışdır.

İmtahan nəticələrindən bu qənaətə gəmək olar ki Azərbaycan bölməsində bakalavrların 46.07%-i rus bölməsində isə 46.94%-i uğurlu nəticə göstərmişdir. Hər iki bölmə üzrə bu göstərici 46.18% təşkil edir. Açıq formalı test tapşırıqlarının cavablandırılmasında Azərbaycan bölməsi üzrə 34.21%, rus bölməsi üzrə 29.41%, ümumilikdə isə 33.59% nəticə qeydə alınmışdır. Azərbaycan bölməsi qapalı formalı test tapşırıqlarını 49.03%, rus bölməsi isə 51.32% düzgün cavablandırmağa müvəffəq olmuşdur. Hər iki bölmə üzrə ümumlikdə bu göstərici 49.33% təşkil edir.

2019-cu ildən ilk dəfə tətbiq olunan dinləyib-anlama bacarığının qiymətləndirilməsinə yönəlmiş test tapşırıqlarının cavablandırılma göstəricisi də qənaətbəxş hesab edilə bilər. Dinləmə bloku üzrə Azərbaycan bölməsi üzrə 40.35% rus bölməsi üzrə isə 43.53% nəticə qeydə alınmışdır. Hər iki bölmə üzrə bakalavrların 40.76%-i test tapşırıqlarını doğru cavablandırmışdır.

Oxu mətni blokuna dair statistik göstəricilərə nəzər salsaq, görürük ki, Azərbaycan bölməsinin bakalavrlarının 55.44%-i, rus bölməsinin bakalavrlarının 57.06%-i test tapşırıqlarına doğru cavab vermişdir. Hər iki bölmə üzrə ümumilikdə 55.65% bakalavr uğurlu nəticə göstərmişdir.

Bununla belə, bir neçə test tapşırığı bakalavrlar tərəfindən çətinliklə cavablandırılmışdır. Həmin tapşırıqlar aşağıdakılardır:

Azərbaycan bölməsi, D variantı, 83 saylı (C variantı, 83 saylı) test tapşırığı.

Wählen Sie die richtige Variante aus.

Die beiden Delegationen verhandeln ... eine Änderung des Grenzverlaufs.

A) auf B über C) an D) in E) von

Test tapşırığına bakalavrların təxminən 20%-i doğru cavab vermişdir. Bakalavrların 27.27% E distraktorunu, 25.45%-i isə A distraktorunu seçmişdir. Bu test tapşırığında müvafiq sözönü işlədərək cümlənin mənasını tamamlamaq tələb olunur. Cümlə "İki nümayəndə heyəti sərhəd xəttində dəyişiklik barədə danışıqlar aparır" şəklində anlaşılır. Belə başa düşmək olar ki, bakalavrlar verilmiş sözönülərin mənalarını anlamamış və "*verhandeln"* feilinin hansı sözönü ilə işləndiyini müəyyənləşdirə bilməmişlər. Düzgün cavab B bəndidir.

Azərbaycan bölməsi, D variantı, 89 saylı test tapşırığı.

Vollenden Sie den Satz.

Fidan war hungrig und möchte ... .

A) das Lamm füttern
B etwas zubereiten
C) den Haushalt führen
D) das Geschirr waschen
E) ihre Freundin besuchen

Test tapşırığına bakalavrların 34.55%-i doğru cavab vermişdir. 36.36% bakalavr A distraktorunu seçmişdir. Bu test tapşırığında bakalavrlardan tələb olunur ki, cümləni məntiqi baxımdan tamamlasınlar. Cümlə belə tərcümə olunur: "Fidan ac idi və ... ." Düzgün cavab B bəndidir. B bəndinə əsasən, cümlə bu şəkildə tamamlanır: "Fidan ac idi və nəsə hazırlamaq istəyirdi". A bəndində isə deyilir ki, o, rəfiqələrinə baş çəkmək istəyirdi.

Azərbaycan bölməsi, B variantı, 98 saylı test tapşırığı.

Wählen Sie die richtigen Varianten aus:

Die Nase voll haben

1. Vor j-m Angst haben
2. Etwas satt haben
3. Krank sein
4. Von etwas genug haben
5. J-n streng tadeln

Açıq formalı bu test tapşırığına bakalavrların 8.62%-i doğru cavab vermiş, 18.97% bakalavr test tapşırığını cavablandırmaqdan imtina etmiş, 72.41% bakalavr isə digər cavab variantlarını seçmişdir. Bu test tapşırığında bakalavrlardan tələb olunur ki, "*Die Nase voll haben" (nədənsə bezmək)* ifadəsinin mənasına yaxın olan ifadələri seçsinlər. "*Etwas satt haben"* və "*von etwas genug haben"* (yəni 2 və 4) düzgün

cavabdır. Hər iki ifadə "*bezmək, cana gəlmək*" mənasını verir. "*Vor j-m Angst haben"- nədənsə qorxmaq*, "*krank sein"- xəstə olmaq*, "*j-n streng tadeln" - nədənsə çəkinmək* deməkdir. Beləliklə, düzgün cavab 2 və 4-cü variantlardır.

Azərbaycan bölməsi, B variantı, 99 saylı test tapşırığı.

Wählen Sie aus diesen Sätzen diejenigen, in denen die Handlung früher passierte:

1. Ich konnte diese Zeitschrift nirgends finden.
2. Was schreibt ihr?
3. Sie kommen rechtzeitig zur Konferenz.
4. Wir warten lange auf die Straßenbahn.
5. Hast du heute gut gefrühstückt?

Açıq formalı bu test tapşırığına bakalavrların 12.07%-i doğru cavab vermiş, 27.59% bakalavr test tapşırığını cavablandırmaqdan imtina etmiş, 60.34% bakalavr isə digər variantları seçmişdir. Bu test tapşırığında bakalavrlardan tələb olunur ki, zaman baxımından daha əvvəl baş vermiş hadisələri seçsinlər. "*Ich konnte diese Zeitschrift nirgends finden"* cümləsi "*Mən bu qəzetləri heç yerdə tapa bilmədim"* mənasını verir. "*Hast du heute gut gefrühstückt?"* isə "*Səhər yeməyini yaxşı yemisənmi?*" deməkdir. Beləliklə, düzgün cavab 1 və 5-ci bəndlərdir.

Dinləmə mətninə dair test tapşırıqlarının cavablandırılmasına nəzər salsaq, görərik ki, bakalavrlar mətnin əsas ideyasının müəyyənləşdirilməsini tələb edən test tapşırığını cavablandırmaqda çətinlik çəkmişlər.

A variantı, 80 saylı test tapşırığı.

Worum geht es hauptsächlich im Text?

A) Um die psychischen Bestrafung der Eltern
B) Um die Probleme moderner Jugendlichen
C) Um schlechte Gewohnheiten der heutigen Jugend
D Um die Pflicht und Schuldigkeit der Eltern
E) Um Pünktlichkeit und Ordnungssinn der Jugend

Test tapşırığına bakalavrların cəmi 5.17%-i D bəndini seçməklə düzgün cavab vermişdir. 44.83% bakalavr B distraktorunu, 22.41% bakalavr C distraktorunu, 15.52% bakalavr isə A distraktorunu seçmişdir. Mətnin əsas ideyası valideynlərin vəzifə və borclarıdır. B distraktorunda verilmiş fikir, yəni indiki gənclərin problemləri haqqında mətndə söhbət açılsa da, bu, mətnin əsas ideyası deyildir. C distraktoru isə mətnə əsasən doğru cavab deyil.

Bu test tapşırığından fərqli olaraq, C variantı, 77 saylı test tapşırığını 85.96% bakalavr C bəndini seçməklə doğru cavablandırmışdır. Test tapşırığına nəzər salaq:

Welcher Gedanke passt zum Text?

A) Pünktlichkeit und Ordnungssinn sind keine nötigen Faktoren bei der Erziehung.
B) Psychische Strafen sind die Hauptmotive bei der Kindererziehung.
C Man soll die Kinder zu Gerechtigkeit, Freiheit und Wahrheit erziehen.
D) Über schlechte Gewohnheiten sollen die Kinder nicht wissen.
E) Wenn man dem Kind alles verbietet, dann erreicht man gute Ergebnisse.

Bakalavrlardan tələb olunur ki, dinlədikləri mətnə əsasən verilmiş fikirlərdən düzgün olanını seçsinlər. C bəndinə əsasən, "*uşaqları düzgünlüyə, azadlığa və həqiqəti söyləməyə öyrətməliyik"*. Bu fikir həqiqətən də mətndə öz əksini tapır. Beləliklə, düzgün cavab C bəndidir.

B variant, 80 saylı test tapşırığına nəzər salaq:

Was ist das Ziel der Erziehung?

A) alles den Kindern zu verbieten
B die Kinder auf das Leben vorzubereiten
C) unzufriedene Gesichter der Eltern zu erreichen
D) die von den Eltern aufgestellten Regeln um jeden Preis befolgen lassen
E) die Kinder mit Schlagen zu bestrafen

25.86% bakalavr B bəndini seçməklə tapşırığı düzgün cavablandırmışdır. 27.59% bakalavr D distraktorunu seçmişdir. Test tapşırığında tərbiyənin məqsədi soruşulur. D distraktorundakı fikir, yəni valideynlərin qoyduğu qaydalara nəyin bahasına olursa-olsun, riayət etmək tərbiyənin məqsədi deyil. B bəndindəki fikir– uşaqları həyata hazırlamaq isə birbaşa tərbiyənin məqsədinə daxildir.

2019-cu ildə 462 bakalavr magistraturaya qəbul imtahanı verərkən xarici dil kimi **fransız dilini** seçmişdir. Bunlardan 437 nəfəri Azərbaycan bölməsində, 25 nəfəri isə rus bölməsində imtahan verərək öz biliklərini nümayiş etdirmişdir.

Ənənəvi olaraq hər il imtahan nəticələri mütəxəssislər tərəfindən geniş təhlil edilir, bakalavrlar tərəfindən yerinə yetirilən test tapşırıqlarının nəticələri statistik olaraq araşdırılır, zəif nöqtələr və çatışmazlıqlar üzə çıxarılır. Əvvəllər olduğu kimi, 2019-cu ildə də bakalavrların bilik və bacarıqlarının müəyyən məqamlarda qənaətbəxş olmaması aşkara çıxır. Şübhəsiz, bunun müəyyən səbəbləri vardır. Belə ki, kifayət qədər qrammatik və leksik biliyə yiyələnməyən bakalavrlar bu cür test tapşırıqlarını yerinə yetirərkən səhvə yol verir, bəzən də sadəcə olaraq, lazımınca diqqətli olmurlar. İmtahanda bakalavrların xeyli hissəsinin zəif nəticə göstərmələrinin müəyyən məntiqi və subyektiv əsasları var. Bunlar sırasında aşağıdakıları göstərə bilərik:

– qəbul imtahanında xarici dil kimi fransız dilini seçən bakalavrlar universitet dövründə xarici dil sahəsində kifayət qədər bilik və bacarıqlara yiyələnmirlər və imtahana qısamüddətli hazırlıq ərzində bunu etmək praktiki olaraq mümkün olmur;
– test tapşırıqlarını yerinə yetirərkən xüsusi olaraq diqqətli olmaq tələb olunduğu halda, bəzən bu, baş vermir, seçim və uyğunluq tipli test tapşırıqlarında cavab sona qədər araşdırılmır və yanlışlığa yol verilir;
– imtahan vaxtından səmərəli istifadə olunmur və bu, nəticəyə təsir göstərir;
– müqayisə və ümumiləşdirmə tələb edən test apşırıqlarının yerinə yetirilməsi zamanı ana dili ilə müqayisədə fransız dilində cümlədə söz sırasının və cümlə strukturunun fərqli olması bakalavrların imtahan nəticəsinə mənfi təsirini göstərir.

Bakalavrların mətn əsasında tərtib edilmiş beş tapşırıqdan ibarət oxuyub-anlama blokuna cavabları qənaətbəxş, yəni orta hesabla, 59.26% olmuşdur.

Magistraturaya qəbul imtahanının birinci mərhələsində bakalavrların xarici dillər üzrə eşidib-anlama bacarıqlarını yoxlamaq üçün istifadə olunan mətn əsasında hazırlanmış test tapşırıqları onların bu istiqamətdəki bacarıqlarını qiymətləndirməkdə əhəmiyyətli rol oynayır. Dinləmə mətnlərinin səsyazması ekspertlər tərəfindən hazırlanmış və seçilmiş mətn imtahanda iki dəfə səsləndirilmişdir. Bakalavrlara mətn və mətnlə bağlı olan beş test tapşırığı təqdim olunmuşdur. Tapşırıqlar mətnin məzmun və ideyası ilə bağlı idi. Bununla yanaşı, cümlə tamamlama, doğru fikrin seçilməsi məhz mətnlə əlaqələndirilmişdir.

İlk dəfə tətbiq olunmasına baxmayaraq, dinləyib-anlama ilə bağlı olan test tapşırıqlarının statistik nəticələri qənaətbəxş hesab edilə bilər. Ümumi nəticəyə nəzər salsaq, 37.35% bakalavr Azərbaycan bölməsi üzrə, 43.20% bakalavr isə rus bölməsi üzrə test tapşırıqlarının öhdəsindən uğurla gəlmişdir.

İndi isə bir neçə test tapşırığına nəzər salaq.

Azərbaycan bölməsi üzrə A variantı, 76 saylı test tapşırığı.

Quels sont les inconvenients des livres numériques selon les opposqnts?

1. La qualité des livres numériques parfois n'est pas bonne.
2. Les livres numériques prennent beaucoup de place
3. Les livres numériques ne sont pas commodes
4. La baterie des livres numériques se déchargent vite
5. Les livres numériques n'enrichissent pas notre vocabulaire

A) 3, 5 B) 1, 4 C) 2, 3 D) 2, 4 E) 1, 5

Bu, dinləmə blokuna aid test tapşırıqlarındandır. Tapşırığı yerinə yetirmək üçün bakalavrlardan mətni kifayət qədər diqqətlə dinləmək və başa düşdükdən sonra onu cavablandırmaq tələb olunur. Əslində, bu tip test tapşırıqlarının birinci dəfə tətbiq olunması bakalavrlar üçün müəyyən çətinlik yaratmışdır. Dediklərimizə əyani sübut olaraq bakalavrların cavablarına baxmaq yetərlidir. Belə ki, düzgün cavabı (B bəndi) onların 19%-i seçmiş, 21%-i A bəndini, 35%-i isə C bəndini seçmişdir. Bakalavrların dinləmə vərdişlərinin nisbətən aşağı səviyyədə olması və mətni tam başa düşməmələri nəticənin ürəkaçan olmamasına şərait yaratmışdır. Test tapşırığının şərtində (bəlkə də bakalavrların əksəriyyəti şərti düzgün başa düşməmişdir) elektron kitabların hansı çatışmaz cəhətlərinin olmasını tapmaq tələb olunur. 1-ci və 4-cü cavab variantları həmin şərtə uyğundur, yəni müvafiq olaraq "bəzən elektron kitabların keyfiyyəti yaxşı olmur" və "elektron kitabların enerji bloku tez boşalır" düzgün cavablardır. Yerdə qalan cavablar heç cür düzgün cavab kimi seçilə bilməz.

Azərbaycan bölməsi üzrə A variantı, 77–ci test tapşırığı da bu qəbildən olan tapşırıqlardandır.

Quel est l'argument le plus important du livre de papier selon le texte d'écoute?

A) Un livre de papier est toujours de mauvaise qualité.
B) Un livre de papier n'est pas bien imprimé.
C) Un livre de papier contient plus d'informations qu'un livre numérique.
D) Un livre de papier a une valeur culturelle.
E) Un livre de papier est une nouvelle invention.

Tapşırığın şərtində dinləmə mətninə uyğun olaraq kağız kitabların vacib xüsusiyyətinin hansı olmasını tapmaq tələb olunur. Bakalavrların əksəriyyəti düzgün variant kimi C bəndini (43.64%), 20%-i isə D bəndini seçmişdir. C bəndini düzgün tərcümə etməklə test tapşırığının cavabını tapmaq o qədər də çətinlik törətməməli idi. Yəni "kağız kitablarda elektron kitablardan daha çox məlumat var" fikri yanlış, amma "kağız kitabın mədəni dəyəri var" cavabı birmənalı olaraq doğrudur. Beləliklə, düzgün cavab D bəndidir. Burada bakalavrlardan kifayət qədər söz ehtiyatına malik olmaq tələb olunur.

Azərbaycan bölməsi üzrə A variantı, 96-cı test tapşırığı.

Choisissez les bonnes réponses :

Comment demande-t-on l'orientation?

1. C'est à combien de km?
2. La rue V. Hugo, c'est par là?
3. Le cinéma est à combien de minutes à pied?
4. Vous avez l'heure s'il vous plaît?
5. Combien de minutes y a-t-il dans une heure?

Bu test tapşırığı açıq formalı test tapşırıqlarındandır və verilmiş suala düzgün cavab ola biləcək variantları seçmək tələb olunur. Tapşırığın şərtinə uyğun olaraq müəyyən məkanla bağlı istiqaməti öyrənmək üçün verilən suala cavablar seçilməlidir. Bakalavrların bu test tapşırığına verdikləri cavab belə olmuşdur: 11.82% doğru, 72.73% isə yanlış cavab seçmişdir. Cavab variantlarına fikir versək, görərik ki, 1, 2 və 3-cü variantlarda verilmiş "Neçə kilometr olar?", "Viktor Hüqo küçəsi buradır?" və "Kinoteatra piyada nə qədər vaxta getmək olar?" cümlələri doğru cavablardır. Halbuki, 4 və 5-ci variantlardakı "Saatınız varmı, yaxud saat neçədir, zəhmət olmasa?" və "Bir saatda neçə dəqiqə var?" variantları heç bir vəchlə doğru cavablar kimi seçilə bilməz. Bu test tapşırığının düzgün cavablandırılmasının şərtlərindən biri və zənnimizcə, ən əsası leksik bazanın yetərli olmasıdır.

Azərbaycan bölməsi üzrə A variantı, 100-cü test tapşırığı.

Mettez le dialogue en ordre :

1. – Non, il attend. Les réponses sont toujours négatives. C'est très difficile!
2. – Qu'est-ce qu'il fait, ton frère?
3. – Alors, il ne travaille pas?
4. – Pour l'instant, il envoie des CV à droite et à gauche, mais …
5. – Écoute, mon père cherche un informaticien pour son entreprise. Dis-lui de l'appeler !

Verilmiş test tapşırığı dialoqqurma bölümünə aiddir və bakalavrdan verilmiş dialoqu düzgün sıralamaq tələb olunur. Seçilmiş cavabların təhlili göstərir ki, kifayət qədər söz ehtiyatına malik olmamaq və hərəkətlər arasında məntiqi ardıcıllığı düzgün qiymətləndirməmək səbəbindən bakalavrlar doğru cavabı seçməkdə çətinlik çəkmişlər. Test tapşırığına verilən cavablar belə olmuşdur: düzgün cavabı (1, 2, 3) 13.64%, yanlış cavabı 64.55% seçmişdir. Cümlələri diqqətlə oxumaq və fikirlər arasındakı ardıcıllığı düzgün tapmaqla uğur qazanmaq olar.

Azərbaycan bölməsi üzrə A variantı, 87-ci test tapşırığı.

Complétez le texte.

Le français est parlé sur les cinq continents du monde: en Afrique, en Amérique du Nord, en Asie, en Australie, en Europe, mais aussi au Québec, en Suisse, en Belgique, en Guyane, en Nouvelle-Calédonie, etc. Il est parlé dans 37 pays. Il y a souvent des réunions des pays francophones. Grâce au français les chefs d'Etats et de gouvernements francophones se réunissent régulièrement. …

A) L'anglais est la première langue enseignée dans le monde.
B) La réunion de la communauté des Etats indépendants s'est passée il y a deux ans.
C) On ne parle pas français sur tous les continents.
D La prochaine réunion de la francophonie se déroulera à Tunis.
E) Le français est la première langue parlée dans le monde.

Bu test taprığı mətnin tamamlanması bölməsinə aiddir və onun şərtində aydın şəkildə verilmiş mətni tamamlamaq tələb olunur. Nə üçün test tapşırığına verilən cavablar bütün variantlar üzrə paylanmışdır? Bakalavrlar bir şeyi yadda saxlamalıdırlar ki, magistraturaya qəbul imtahanı verərkən əsas tələb kifayət qədər söz ehtiyatına malik olmaqdır. Bu olmazsa, yaxşı nəticə gözləmək, ən azı, sadəlövhlükdür. Mətn diqqətlə oxunmalı və tamamilə başa düşüldükdən sonra variantlara nəzər salınmalıdır. Tamamilə əminik ki, faizlərin bu cür paylanmasına əsas səbəb sözlərin mənasını anlamamaqdır. Əks təqdirdə, düzgün cavab (D bəndi – 11.82%) seçilməli idi. Mətndə fransız dilinin beynəlxalq səviyyədə nüfuzu və bir çox dünya ölkələrində danışılması, fransız dilli ölkələrdə tez-tez toplantıların keçirilməsi və bu dilin sayəsində fransız dilli dövlət və hökumət rəhbərlərinin müntəzəm olaraq bir araya gəlməsindən bəhs edilir. Şərtə görə, mətni məntiqi olaraq tamamlamaq tələb olunur. Diqqətli bakalavr D bəndini, yəni "frankofoniyanın növbəti iclası Tunisdə keçiriləcək" cavabını seçməli idi. Digər variantlarda, konkret olaraq A bəndində ingilis dilinin ən çox tədris olunan dil olmasından, B bəndində MDB ölkələrinin toplantısının iki il öncə baş tutmasından, C bəndində heç də bütün ölkələrdə fransız dilində danışılmamasından və nəhayət, E bəndində fransız dilinin dünyada danışılan birinci dil olmasından bəhs edilir. Demək, sonuncular doğru cavab kimi seçilə bilməz.

Azərbaycan bölməsi üzrə C variantı, 97-ci test tapşırığı.

Choisissez les contraires de la phrase :

C'est une personne ponctuelle.

1. C'est une personne qui vient toujours en retard.
2. C'est une personne négligente.
3. C'est une personne très attentive.
4. C'est une personne inexacte.
5. C'est une personne qui fait tout à temps.
6. C'est une personne assez distraite.

Bu açıq formalı test tapşırığı antonimlər bölməsinə aiddir və bakalavrlardan verilmiş cümləyə antonimlik təşkil edən variantları seçmək tələb olunur. Aydın məsələdir ki, yetərincə söz ehtiyatına malik olmayan bakalavrlara bu test tapşırığını doğru cavablandırmaq asan deyildir. Şərt tələb edir: verilmiş cümləyə antonim olan variantları seçin. Bakalavrların əksəriyyəti (77.06%) yanlış variantları seçmişdir, halbuki doğru cavab 1, 2, 4, 6 variantlarıdır ki, onları bakalavrların cəmi 3.67%-i secmişdir. Test tapşırığını təhlil edək:

Bu, punktual adamdır.

1. Bu adam həmişə gecikir.
2. Bu, laqeyd adamdır.
3. Bu, çox diqqətcil adamdır.
4. Bu, qeyri-dəqiq bir adamdır.
5. Bu, hər şeyi zamanında edən birisidir.
6. Bu, çox huşsuz adamdır.

Variantları bu cür tərcümə edə bilən bakalavrın yanlış cavab seçməsi mümkün deyil. Belə ki, "çox diqqətcil" və "hər şeyi zamanında edən bir şəxs" punktual adama əkslik deyil, oxşarlıq təşkil edə bilər.

Rus bölməsində də həmin tapşırığın (A variantı, 99-cu test tapşırığının) doğru cavabını yalnız bakalavrların 16.67%-i tapmışdır. Bu test tapşırığının nə üçün çətin hesab edilməsini başa düşmək olmur. Əslində, bu test tapşırığı o qədər də çətin deyil, əksinə, asan olmalı idi. Gürünür, bakalavrların kifayət qədər söz ehtiyatı olmadığına görə bu tip tapşırıqlar onlara çətin gəlmişdir.

Rus bölməsi üzrə A variantı, 78-ci test tapşırığı.

Quelles affirmations correspondent au contenu du texte d'écoute?

1. Actuellement il y a beaucoup de discussions concernant les livres numériques.
2. A la différence des livres traditionnels les livres numériques sont peu commodes.
3. Un livre numérique peut contenir toute une grande bibliothèque.
4. Les livres numériques sont beaucoup moins chers que les livres traditionnels.
5. Les livres numériques prennent beaucoup de place.

A) 3, 5 B 1, 3, 4 C) 2, 3, 4 D) 1, 4, 5 E) 1, 5

Bu test tapşırığı dinləmə mətni blokuna aiddir və tapşırığın şərtində hansı təsdiq fikirlərin mətnin məzmununa uyğun gəldiyini seçmək tələb olunur. Etiraf etmək lazımdır ki, bu test tapşırığı kifayət qədər diqqət və bilik tələb edən testlərdəndir. Cavablarla bağlı statistika da bunu əyani olaraq ortaya qoymuşdur. Belə ki, düzgün cavabı (B bəndi) bakalavrlardan heç kim seçməmişdir və nəticə 0.00% olmuşdur. 16.67% A bəndini, 33.33% C bəndini, 50.00% isə D bəndini seçmişdir. Əlbəttə, hansi variantların testin məzmununa uyğun gəldiyini dəqiq seçmək üçün bakalavrlarda dinləmə bacarıqlarının yüksək səviyyədə olması və leksik bazanın yetərli olması vacib şərtlərdəndir. Bu test tapşırığının düzgün cavabı B (1, 3, 4) bəndidir. Belə ki, 2-ci variantdakı "A la difference des livres traditionnels les livres numériques sont peu commodes", yəni "ənənəvi kitablardan fərqli olaraq, elektron kitablar o qədər də rahat deyil" fikri qətiyyən mətnin məzmununa uyğun gəlmir. Eyni fikir 5-ci variantdakı "Les livres numériques contiennent beaucoup de place", yəni "Elektron kitablar daha çox yer tutur" cümləsinə də aiddir. Dünyagörüşu və normal məntiqi olan bakalavr heç bir vəchlə bu fikri məqbul hal kimi qəbul edə bilməz. 1, 3 və 4-cü variantlarda müvafiq olaraq "Actuellement il y a beaucoup de discussions concernant les livres numériques", yəni "Hal-hazırda elektron kitablarla bağlı çoxlu müzakirələr aparılır", "Un livre numerique peut contenir toute une grande bibliotheque", yəni " Bir elektron kitabda bütöv bir böyük kitabxananı yerləşdirmək olar" və "Les livres numériques sont beaucoup moins chers que les livres traditionnels", yəni "Elektron kitablar ənənəvi kitablardan xeyli ucuzdur" fikirləri mətnin məzmununa tam uyğundur. Beləliklə, test tapşırığının düzgün cavabı B (1, 3, 4) bəndidir.

Rus bölməsi üzrə A variantı, 80-ci test tapşırığı.

Complétez la phrase d'après le texte d'écoute.

Les partisans des livres numériques … .

A) veulent vendre plus de livres numériques
B) pensent qu'ils sont très chers
C croient qu'ils présentent beaucoup d'avantages
D) sont pour la suppression de tous les livres numériques
E) sont pour l'utilisation des livres traditionnels

Bu test tapşırığı dinləmə mətni bölməsinə aiddir və bakalavrlardan yüksək dinləmə və anlama vərdişləri tələb edir. Tapşırığın şərti belədir: Mətnə uyğun olaraq cümləni tamamlayın. "Les partisans des livres numériques ... (elektron kitabların tərəfdarları ...) və sonra cümlə tamamlanmalıdır. Bir faktı vurğulamaq yerinə düşərdi ki, bu test tapşırığı da kifayət qədər diqqət və bilik tələb edən tapşırıqlardandır. Cavablarla bağlı statistika da bunu əyani olaraq əks etdirmişdir. Belə ki, düzgün cavabı (C bəndi) bakalavrların az bir hissəsi seçmişdir və nəticə 16.67% olmuşdur. 16.67% B bəndini, 16.67%-i D bəndini, 50.00% isə E bəndini seçmişdir. Cavab variantlarından A, B, D, E, yəni müvafiq olaraq "veulent vendre plus de livres numériques" - "daha çox elektron kitab satmaq istəyirlər" fikri məntiqlə düzgün sayıla bilər, amma verilmiş dinləmə mətninin məzmununa uyğun deyil, demək, bakalavrdan mətni diqqətlə dinləmək və məqbul variantı seçmək tələb olunur. "pensent qu'ils sont très chers" – "düşünürlər ki, onlar daha bahadır" fikri məzmuna heç cür uyğun deyil, digər variantdakı "sont pour la supression de tous les livres numériques" - "bütün elektron kitabların ləğv edilməsinin lehinədirlər" fikri isə qətiyyən düzgün deyil və cavab kimi götürülə bilməz. Nəhayət, "sont pour l'utilisation des livres traditionnels" – "ənənəvi kitabların istifadəsinin tərəfdarlarıdır" fikri də tamamilə əks məna verir və nəticə etibarilə düzgün sayıla bilməz. C bəndində "croient qu' ils présentent beaucoup d'avantages", yəni "hesab edirlər ki, onlar çox üstünlüklərə malikdir" fikri isə mətnin məzmununa tam uyğundur və beləliklə, doğru cavabdır. Təkrarən bildiririk ki, bu tip test tapşırıqları bir qədər çətin hesab edilə bilər, amma magistratura səviyəsinə qəbul olmağa iddialı olan bakalavrlar kifayət qədər hazırlıqlı olmalıdırlar.

Rus bölməsi üzrə A variantı, 97-ci test tapşırığı.

Choisissez les équivalents de la phrase :

On l'oblige à faire cette tâche.

1. Il est obligé de faire ce travail.
2. On ne le force guère à faire ce travail.
3. Il est contraint de faire ce travail.
4. Il veut faire ce travail volontiers.
5. Il est forcé de faire ce travail.
6. Il n'a pas envie de faire ce travail.

Bu test tapşırığı verilmiş cümləyə ekvivalent olan variantların seçilməsini tələb edir. Bu test tapşırığının statistikasına fikir verdikdə məlum olur ki, bakalavrların yalnız 16.67%-i düzgün variantı seçmişdir. Bəs test tapşırığını çətin edən səbəblər hansılardır? Səbəblər sırasında kifayət qədər diqqətli olmamaq, söz ehtiyatının zəif olması, düzgün təhliletmə bacarığının yetərincə olmaması, sinonimlik təşkil edən sözləri kifayət qədər mənimsəməmək və s. vardır. Tapşırığın şərtində verilmiş cümləyə uyğun (ekvivalent) olan variantları seçmək tələb olunur. Verilmiş cümlə belədir: On l'oblige à faire cette tàche. – Onu bu tapşırığı yerinə yetirməyə məcbur edirlər. Cavab variantlarındakı 1, 3, 5, 6 sıraları dogru cavablardır, yəni müvafiq olaraq, "İl est obligé de faire ce travail" – "O, bu işi etməyə məcburdur", "İl est contraint de faire ce travail" – " Onu bu işi yerinə yetirməyə vadar edirlər" və "İl est forcé de faire ce travail" – " O, bu işi etmək məcburiyyətindədir", "İl n a pas envie de faire ce travail" – " O, bu işi yerinə yetirmək istəmir" cümlələri verilmiş cümləyə tam ekvivalentdir. Halbuki 2 və 4-cü variantları "O, heç də bu işi görməyə məcbur deyil", "O, bu işi həvəslə yerinə yetirmək istəyir" cümlələri verilmiş cümləyə ekvivalent sayıla bilməz. Kifayət qədər leksik bazaya sahib olan bakalavrlar üçün bu test tapşırığı qətiyyən çətin hesab edilə bilməz.

Rus bölməsi üzrə C variantı, 88- ci test tapşırığı.

Complétez la phrase.

Ils ont eu un accident, donc … .

A) ils vont prendre du thé
B) ils vont danser
C ils sont blessés
D) ils sont gais
E) ils sont heureux

Bu test tapşırığı cümləni tamamlama bölməsinə aiddir və onun şərtində verilmiş cümləni tamamlamaq tələb olunur. Statistikaya nəzər salanda görünür ki, bakalavrların 28.57%-i doğru cavabı (C bəndi) seçmişdir. Səhv cavab olaraq 28.57%-i A bəndini, 14.29%-i B bəndini, 14.29%-i D bəndini, 14.29%-i isə E bəndini seçmişdir. Nə üçün belə bir mənzərə yaranmışdır? Verilmiş cümləyə nəzər salaq: İls ont eu un accident, donc... (Onlar avtomobil qəzasına düşdülər, nəticədə, odur ki və s. ...). Düzgün cavab C bəndidir. Fikir verək: ils sont blessés (onlar yaralandılar). Məlumdur ki, *donc* tabesizlik bağlayıcısıdır və *nəticə* bildirir. Elə bu faktı nəzərə alan bakalavrlar düzgün cavabı seçməyə borcludurlar. Eyni zamanda variantlardakı cümlələri tərcümə etməklə uğurlu nəticə əldə oluna bilər. Belə ki, müvafiq olaraq A bəndində "onlar çay içəcəklər", "onlar rəqs edəcəklər". "onlar sevinirlər" və "onlar xoşbəxtdirlər" variantları mənaca cavaba heç cür yaxın gəlmir. Statistikanın bu şəkildə olması çox böyük təəccüb doğurur. Axı C bəndindən savayı heç bir variant doğru cavab kimi seçilə bilməz. Demək, bakalavrlar ya bağlayıcıları düzgün mənimsəyə bilməmişlər, ya da cümlələrin mənasına lazımi qədər diqqət yetirməmişlər.

Beləliklə, fransız dili üzrə test tapşırıqlarının təhlilindən sonra aşağıdakı nəticələrə gəlmək olur:

– bəzi bakalavrların leksik bilikləri və təhliletmə qabiliyyətləri yetərli deyildir;

– əksər hallarda söz ehtiyatının zəif olması və məntiqi nəticə çıxarmaq bacarığının aşağı səviyyədə olması test tapşırıqlarını düzgün cavablandırmağa imkan vermir;

– istənilən xarici dili öyrənərkən ana dili ilə fərqli və oxşar olan məqamları diqqət mərkəzində saxlamaq və onları qarışdırmamaq tələb olunur və s.

2019-cu ildə magistraturaya qəbul imtahanının I mərhələsində Azərbaycan bölməsində xarici dil kimi **rus dilini** seçən bakalavrlar 1794 nəfər olmuşdur. Bu fəndən təqdim edilən test tapşırıqları bakalavrların, əsasən, linqvistik bilik, bacarıq və vərdişlərinin, məntiqi təfəkkürlərinin, dildən kommunikativ məqsədlə istifadə etmək qabiliyyətlərinin üzə çıxarılmasını nəzərdə tutmuşdur. Test blokunda rus dilinin spesifik xüsusiyyətlərinə dair bilikləri və bu bilikləri tətbiq etmək bacarığını yoxlayan ümumiləşdirici tapşırıqlara, eləcə də dilə praktiki cəhətdən yiyələnmə səviyyəsini üzə çıxarmaq məqsədi daşıyan tapşırıqlara üstünlük verilmişdir.

Bakalavrlar test blokundakı sözönü, mətn tərtibi, məntiqi tamamlama, antonimlər və digər mövzulara aid tapşırıqlara yaxşı cavab vermişlər. Məsələn, yuxarıda sadalanan mövzulara aid A variantındakı 77 (64.22%), 86 (71.56%), 88 (67.78%), müvafiq olaraq C variantındakı 78 (58.30%), 82 (73.99%), 87 (69.96%) saylı və digər variantlardakı analoji test tapşırıqlarına verilən cavabları buna misal göstərmək olar.

Bakalavrların mətn əsasında tərtib edilmiş beş tapşırıqdan ibarət oxuyub-anlama blokuna cavabları qənaətbəxş, yəni orta hesabla, 53.37% olmuşdur.

2019-cu ildən etibarən ilk dəfə olaraq Ümumavropa Çərçivə Sənədinin tələblərinə əsasən dil öyrənmənin ən vacib komponentlərindən hesab edilən dinləmə bacarığının yoxlanılmasına yönəlmiş test tapşırıqları bloku da qəbul imtahanında yer almışdır. Bakalavrlara dinləyib-anlama üçün mətn və mətnlə bağlı olan 5 test tapşırığı təqdim olunmuşdur. Mətn bakalavlar üçün iki dəfə səsləndirilmişdir. Tapşırıqlar isə mətnin əsas ideyasının müəyyən edilməsi, verilmiş cümlənin mətnə əsasən tamamlanması, mətnə görə düzgün fikirlərin seçilməsi istiqamətində olmuşdur. Hər bir xarici dil öyrənən bakalavr həmin dildə ona təqdim olunmuş yazılı məlumatı oxuyub anlaya bilməli, öz fikrini yazılı və şifahi şəkildə sərbəst ifadə etməli, eşitdiyi informasiyanı adekvat şəkildə qavramağı bacarmalıdır. Bu məzmunda olan test tapşırıqları onların oxuyub-anlama, dinləyib-anlama, yazı və danışıq qabiliyyətlərini qiymətləndirməkdə əhəmiyyətli rol oynayır.

Test tapşırıqlarının çətinlik dərəcəsi, qabiliyyət göstəriciləri baxımından təhlilinə və statistik göstəricilərinə əsaslanaraq demək olar ki, bakalavrların rus dili üzrə nəticələri ümumilikdə qənaətbəxşdir. Rus dili üzrə test blokundakı tapşırıqların düzgün cavablandırılma faizi, orta hesabla, 46.95% olmuşdur.

Aşağıdakı cədvəldə 2018-ci və 2019-cu illərdə qəbul imtahanının birinci mərhələsində imtahan verən bakalavrların rus dilini bilmə səviyyəsini müəyyən edən test tapşırıqlarının düzgün cavablandırılma faizləri (ortastatistik göstəricilər) verilmişdir:

Azərbaycan bölməsi üzrə				
İl	**Bakalavrların sayı**	**Qapalı formalı sualların düzgün cavablandırılma faizi**	**Açıq formalı sualların düzgün cavablandırılma faizi**	**Qapalı və açıq formalı sualların (birlikdə) düzgün cavablandırılma faizi**
2018	1878	55.98	32.60	51.31
2019	1794	52.02	26.66	46.95

Cədvəldən göründüyü kimi, bakalavrların 2019-cu ildə rus dili üzrə açıq formalı test tapşırıqlarını düzgün cavablandırmalarının ortastatistik göstəricisi 2018-ci illə müqayisədə aşağıdır.

Bakalavrların 2019-cu ildə qapalı və açıq formalı test tapşırıqlarını düzgün cavablandırmalarının ortastatistik göstəricisində 2018-ci illə müqayisədə azalma müşahidə olunmuşdur. Cədvəldən göründüyü kimi, qapalı və açıq formalı test tapşırıqlarının birlikdə düzgün cavablandırılma göstəricisi ötənilkinə nisbətən 4.36% enmişdir.

Tapşırıqların statistik təhlili bakalavrların nitq konstruksiyalarından istifadə etmək bacarığının hələ arzuedilən səviyyədə olmadığını göstərir. Təhlildən aydın olur ki, bakalavrlar, əsasən, mətn tərtibi, feili sifətə aid xüsusiyyətlərin müəyyən edilməsi, paronim sözlər, sözlərin uzlaşması, nitq səhvlərinin tapılması, sözün leksik mənasının müəyyənləşdirilməsi və bəzi digər mövzularda çətinlik çəkirlər.

İlk dəfə tətbiq olunmasına baxmayaraq, dinləyib-anlama ilə bağlı olan test tapşırıqlarının statistik nəticələri qənaətbəxş hesab edilə bilər. Ümumi nəticəyə nəzər salsaq, 44.49% bakalavr test tapşırıqlarının öhdəsindən lazımınca gəlmişdir.

İndi isə dinləyib-anlama blokunda bakalavrlar üçün çətinlik törətmiş test tapşırığına diqqət yetirək.

B variantı, 77 saylı test tapşırığı (D variantı, 78 saylı test tapşırığı).

Какое утверждение соответствует содержанию текста?

A) Южноафриканская Республика и Кипр активно участвовали в работе всех международных книжных выставок.

B) Впервые Российская международная книжная выставка состоялась в Москве.

C) XI Московская международная книжная выставка работала две недели.

D) В работе XI Московской международной книжной выставки участвовали не только русские, но и иностранные издательства.

E) На XI Московской международной выставке были представлены книги только писателей и поэтов.

Nümunədə verilmiş test tapşırığı dinləmə blokuna aid olan beş tapşırıqdan biridir. Bakalavrlar dinlədikləri mətndə verilmiş məlumata əsasən mətnin məzmununa uyğun gələn düzgün cümləni seçməlidirlər. Bu tapşırığı bakalavrların 32.37%-i D bəndini seçməklə düzgün cavablandırmış, 2.01%-i cavablandırmaqdan imtina etmiş, ümumilikdə 65.62%-i yanlış bəndləri seçmişdir. A bəndinə bakalavrlar daha çox üstünlük

vermişlər (34.60%). Bunun səbəbi mətndə Cənubi Afrika və Kipr Respublikalarının adlarının səslənməsidir. Lakin mətndə deyilir ki, onlar ilk dəfə 1998-ci ildə kitab sərgisində iştirak etmişlər. Test tapşırığında isə bu ölkələrin bütün kitab sərgilərində fəal iştirak etdikləri deyilir. Bir məsələ xüsusi vurğulanmalıdır ki, mətn əsasında tərtib edilmiş tapşırıqları yerinə yetirmək üçün bakalavrlardan geniş söz ehtiyatına malik olmaq tələb olunur.

Statistik göstəricilərə əsasən, qəbul imtahanlarında bakalavrların zəif cavablandırdıqları mövzulardan biri paronimlərdir. Bu mövzuya aid olan test tapşırığına nəzər salaq.

A variantı, 85 saylı test tapşırığı (C variantı, 83 saylı test tapşırığı).

Выберите ***ошибку*** в выборе нужного по значению слова.

A) взгляд (*гневный*, гневливый)

B) название (*громкое*, громовое)

C) работа (*внеклассная*, внеклассовая)

D) обычай (*горский*, горный)

E) приём (*ироничный*, иронический)

Test tapşırığı çətinlik dərəcəsinə görə mürəkkəb hesab edilə bilər. Bu test tapşırığına bakalavrların yalnız 18.22%-i E bəndini seçməklə düzgün cavab vermiş, 76.89%-i isə yanlış cavablar olan digər bəndləri seçmişdir. Təəssüf ki, B və D bəndlərini seçən bakalavrların sayı daha çox olmuşdur. B distraktorunu 25.56%, D distraktorunu isə 22.22% bakalavr seçmişdir. Bu nəticə onların nitqdə paronimlərin mənalarını fərqləndirə bilməmələrindən irəli gəlir. Paronim sözlərin düzgün işlənməməsi leksik normanın pozulması ilə nəticələnir. Bakalavrlar bu test tapşırığını düzgün cavablandırmaq üçün, ilk növbədə, paronimlərin tələffüzcə yaxın, mənaca fərqli eyniköklü sözlər olmasını bilməlidirlər.

Cavab variantları ilə tanış olaq.

Düzgün cavab variantında "*иронический*" sözü "stilistik üslubda istehza elementlərinə aid olan" (daha çox terminoloji birləşmələrdə istifadə olunur) deməkdir. "*Ироничный*" sözü isə "kinayəli gülüş" mənasında işlənib. Məsələn, "*ироничные слова*". "*Приём*" sözü "*ироничный*" sifəti ilə işlənə bilməz.

B distraktorunda "*громкое*" "yaxşı səslənən, güclü səslənən" deməkdir, "*громовое*" isə "şimşək" sözünə aiddir. Beləliklə, "*название*" sözü "*громовое*" sözü ilə işlənə bilməz. Bakalavrların çoxu (25.56%) bu tapşırıqda B bəndinə üstünlük vermişdir.

Digər yanlış bənddə "*внеклассная*" sözü "sinifdən xaricdə baş verən", "*внеклассовая*" – "qeyri-sinfi, ictimai sinifdən xaric olan" mənasında işlənir. Bu bənddə "*работа*" sözü yalnız "*внеклассная*" sözü ilə işlənə bilər.

D distraktorunda verilmiş "*горский*" sözü "dağlılara aid olan", məsələn, "горское население", "*горный*" isə "dağlarla bağlı, dağlara aid olan" deməkdir ("горный воздух"). Bu distraktoru seçən bakalavrlar 22.22% olmuşdur.

Bu test tapşırığının cavablandırılma nəticələri göstərir ki, imtahan edilənlərin paronimlərin mənaları ilə bağlı bilikləri qənaətbəxş deyildir.

Bakalavrların cavablandırmaqda çətinlik çəkdikləri digər bir test tapşırığına diqqət yetirək.

B variantı, 90 saylı test tapşırığı (D variantı, 90 saylı test tapşırığı).

Выберите вариант с речевой ***ошибкой***.

A) Мы шли по самому кратчайшему пути.

B) Ртуть тяжелее железа.

C) На уроке была строжайшая дисциплина.

D) Зимний снег ярче весеннего.

E) Мех кролика красивее меха лисицы.

Bu test tapşırığına bakalavrların yalnız 15.18%-i A bəndini seçməklə düzgün cavab vermiş, 80.58%-i isə yanlış cavablar olan digər bəndləri seçmişdir. Səhv cavablar imtahan nəticəsinə təsir etmədiyindən test tapşırıqlarını cavablandırmaqdan imtina edən bakalavrların sayı 10%-dən aşağı olmuşdur.

Bu sualı düzgün cavablandırmaq üçün rus dilini danışıq səviyyəsində yaxşı bilmək lazımdır. Əks halda, nitq səhvlərini tapıb aradan qaldırmaq mümkün deyil. Bu həm də ondan irəli gəlir ki, bakalavrlar dilin normalarını və sözlərin leksik mənalarını qarışdırırlar. Bu cür səhvlərin qarşısını almaq üçün bakalavrlar daha çox mütaliə edərək lüğətlə işləməlidirlər. Bununla yanaşı, onlar şifahi və yazılı nitq bacarıqları üzərində mütəmadi işləməklə belə səhvlərin sayını minimuma çatdıra bilərlər. Eyni nəticəni D variantında da görmək

olar. Düzgün cavabı cəmi 16.89% bakalavr seçmişdir. Onların 4.67%-i tapşırığı cavablandırmaqdan imtina etmiş, 78.44%-i isə yanlış olan digər bəndləri seçmişdir.

Statistik göstəricilərə əsasən, qəbul imtahanlarında bakalavrların zəif cavablandırdıqları mövzulardan biri də leksikadır. Bu mövzuya aid olan test tapşırığına nəzər salaq.

B variantı, 87 saylı test tapşırığı (D variantı, 86 saylı test tapşırığı).

Выберите слова, сочетающиеся со словом «расстояние».

1. свойственное
2. огромное
3. дальновидное
4. кратчайшее
5. почтительное
6. близкое

A) 1, 3, 4, 5 B) 2, 3, 4, 6 C) 1, 2, 4, 5
D) 2, 3, 5, 6 E) 2, 4, 5, 6

Bu tapşırığa bakalavrların yalnız 16.52%-i doğru olan E bəndini seçməklə düzgün cavab vermiş, 79.25%-i isə yanlış cavablar olan digər bəndləri seçmişdir. Təəssüf ki, B və D bəndlərini seçən bakalavrların sayı daha çox olmuşdur. B distraktorunu 45.54%, D distraktorunu isə 17.41% bakalavr seçmişdir. Qeyd edilən tapşırığın zəif cavablandırılmasının səbəbi, B və D variantlarında "*дальновидное*" sözünün olmasıdır. İmtahan edilənlər "*дальновидное*" – "uzaqgörən" sözünün məsafə mənasında deyil, insana aid olması faktını nəzərdən qaçırmışlar. Bu da onların həmin sözün mənasını bilməmələri ilə bağlıdır.

Bakalavrlar yuxarıdakı test tapşırığını D variantında da zəif cavablandırmışlar. Cəmi 15.56% bakalavr bu tapşırığa düzgün cavab vermiş, bakalavrların 82.45%-i onu yanlış cavablandırmış, 2.00%-i isə test tapşırığını cavablandırmaqdan imtina etmişdir. Bu test tapşırığından belə məlum olur ki, bakalavrlar leksika bölməsini və sifətin isimlə uzlaşması mövzusunu yaxşı mənimsəməyiblər.

Bakalavrlar tərəfindən zəif cavablandırılan bir neçə açıq formalı test tapşırığını təhlil edək.

A variantı, 98 saylı test tapşırığı (C variantı, 97 saylı test tapşırığı).

Выберите верные толкования слов:

1. эскиз – предварительный, неоконченный рисунок
2. лозунг – процесс изготовления печатной продукции
3. дискуссия – сомнительный спор
4. тезис – положение, кратко излагающее идею
5. тембр – характерная окраска звука

Açıq formalı bu test tapşırığı leksika bölməsinə aiddir. Bakalavrlar verilmiş sözlərə uyğun gələn doğru izahları seçməli idilər. Bakalavrların 14.67%-i 1, 4 və 5-ci bəndləri seçməklə test tapşırığını doğru cavablandırmış, 69.56%-i yanlış olan digər cavabları qeyd etmiş, 15.78%-i isə cavab verməkdən imtina etmişdir. Bakalavrlar yuxarıdakı test tapşırığının digər variantdakı təkrarını (C variantı, 97 saylı test tapşırığı) da aşağı faizlə (19.96%) cavablandırmışlar.

Belə tipli tapşırıqları düzgün cavablandırmaq üçün, bakalavrlar zəngin leksik bazaya malik olmalıdırlar. Belə səhvləri minimuma endirmək üçün onlar rus dilində daha çox ədəbiyyat oxumalıdırlar. O zaman sözlərin leksik mənalarını da asanlıqla müəyyənləşdirə bilərlər.

B variantı, 99 saylı test tapşırığı (D variantı, 97 saylı test tapşırığı).

Выберите верные толкования слов:

1. этюд – часть будущего большого произведения
2. логика – столкновение противоположных взглядов
3. диспут – публичная встреча на научной конференции
4. резюме – краткий вывод из сказанного, написанного
5. дилер – частное лицо, занимающееся куплей-продажей товаров

Bu test tapşırığı A variantındaki 98 saylı test tapşırığının analoqudur. Bu tapşırıqda tələb olunan çoxmənalı sözlərin düzgün izahını tapmaq üçün müvafiq sözlərin leksik mənasını başa düşmək, çoxmənalı sözlərin birdən çox mənasının olmasını bilmək lazım idi. Bunları bilməklə təyin etmək olar ki, doğru cavab 1, 4 və 5-ci bəndlərdir. Adətən, bu mövzuya aid tapşırıqlar qapalı formada təqdim edilərkən yüksək cavablandırılma faizi ilə seçildiyi halda, açıq formada təqdim olunan bu tapşırığın düzgün cavabını bakalavrların yalnız 7.14%-i müəyyənləşdirmiş, 62.95%-i onu yanlış cavablandırmış, 29.91%-i isə onu cavablandırmaqdan imtina etmişdir. Görünür, bakalavrların söz ehtiyatlarının məhdud olması ilə yanaşı, bu tapşırığın açıq formalı olması da onun zəif cavablandırılmasının səbəbləri sırasındadır.

Statistik nəticələr göstərir ki, bu bölməyə aid olan bütün variantlardakı test tapşırıqları bakalavrlar üçün eyni çətinlikdə olmuşdur.

İndi isə bakalavrların cavablandırmaqda çətinlik çəkdikləri digər bir açıq formalı tapşırığa nəzər salaq.

A variantı, 100 saylı test tapşırığı (C variantı, 100 saylı test tapşırığı).

Составьте текст:

1. Но чтобы оказывать покровительство поэтам и художникам, нужно было быть состоятельным человеком.
2. И они в свою очередь прославляли его в своих стихах.
3. Именно таким состоянием обладал римский знатный человек – Гай Цильний Меценат.
4. Он жил в I веке до нашей эры и покровительствовал поэтам.
5. Слово «меценат» означает «щедрый покровитель наук и искусств».
6. Благодаря стихам этих поэтов его имя стало нарицательным.

Mətnlərin düzgün qurulması üçün fikirlərin məntiqi ardıcıllığı, cümlədə sözlərin sırası və cümlə üzvlərinin ardıcıllığı əhəmiyyətli rol oynayır. Yuxarıda verilmiş test tapşırığına düzgün cavab vermiş bakalavrlar cəmi 10.67% təşkil edir. Bu göstərici bakalavrların xeyli hissəsinin dili yaxşı mənimsəmədiklərindən xəbər verir.

Bu tapşırığı düzgün yerinə yetirmək üçün bakalavrlar ayrı-ayrı cümlələrin mənasını anlamalı və onları məntiqə və ardıcıllıq əlaqəsinə əsasən ard-arda düzə bilməli və mətn halına gətirməlidirlər.

Bakalavrların yuxarıdakı test tapşırığının digər variantlardakı analoqunu cavablandırma faizləri də aşağı olmuşdur. Həmin test tapşırığına nəzər salaq:

B variantı, 100 saylı test tapşırığı (D variantı, 100 saylı test tapşırığı).

Составьте текст:

1. За все эти заслуги азербайджанский народ глубоко чтит память М.Ф. Ахундова – замечательного художника слова, мыслителя и общественного деятеля и по сей день.
2. Кроме литературного творчества он также боролся за замену сложного арабского алфавита более простым.
3. Выдающийся писатель М.Ф. Ахундов вырос под влиянием передовой демократической русской литературы и общественной мысли.
4. Им написаны шесть комедий, посвящённых жизни и быту азербайджанского народа.
5. Тем самым он заложил основы азербайджанской реалистической литературы.
6. В них М.Ф. Ахундов призывал азербайджанский народ и все народы Востока к культуре и прогрессу.

Açıq formalı bu test tapşırığını bakalavrların cəmi 9.15%-i doğru cavablandırmış, 58.26%-i yanlış olan digər cavabları qeyd etmiş, 32.59%-i isə müvafiq test tapşırığını cavablandırmaqdan imtina etmişdir.

Mətni düzgün tərtib etmək üçün bakalavrlar ilk növbədə verilmiş cümlələr arasından giriş hissəsini müəyyən etməlidirlər. Hansı cümlə ilə mətni başlamaq lazım olduğunu, sonra isə əsas ideyanın ortaya çıxdığı cümlələri, yəni mətnin məntiqi davamını, əsas hissəsini müəyyənləşdirməli, ən sonda isə fikri ümumiləşdirərək mətnin sonluğunu müəyyənləşdirməlidirlər.

Statistik məlumatlara əsasən, belə nəticəyə gəlmək olar ki, bakalavrlar bəzən cümlələri məntiqi və qrammatik baxımdan uzlaşdıra bilmirlər. Bu onunla bağlıdır ki, imtahan verənlər xarici dildə az mütaliə edirlər.

Bakalavrların nisbətən yaxşı cavablandırdıqları test tapşırığı atalar sözlərinə aid tapşırıqdır. Bunu onunla əsaslandırmaq olar ki, atalar sözlərinin öyrənilməsinə təhsil müəssisələrində və gündəlik həyatda böyük əhəmiyyət verilir; belə ki, onlar didaktik xarakter daşıyır və tez-tez işlədilir.

Bakalavrların asanlıqla öhdəsindən gələ bildikləri mövzulardan biri də kommunikativ məqsəd daşıyan dialoji nitqin tamamlanmasına aid tapşırıqlardır.

Təhlillər göstərir ki, eyni çətinlikli qapalı formalı test tapşırıqlarına verilən cavabların statistik göstəriciləri açıq formalı test tapşırıqlarına verilən cavabların statistikasından xeyli yüksəkdir. Əslində, açıq formalı test tapşırıqlarına cavab vermək üçün tələb olunan bilik və bacarıqlar qapalı formalı test tapşırıqlarını cavablandırmaqdan ötrü lazım olan bilik və bacarıqlardan mahiyyətcə heç də fərqlənmir. Zəruri biliklərə və məntiqi təfəkkürə malik olan bakalavrlar istənilən formalı test tapşırıqlarına asanlıqla cavab verə bilirlər. Söz ehtiyatı və qrammatik bilikləri kifayət qədər olan bakalavrlar tapşırığın qapalı və ya açıq formalı olmasından asılı olmayaraq, düzgün cavabı asanlıqla təyin edə bilirlər.

3. REZİDENTURAYA QƏBUL

Rezidentura tibb ixtisasları üzrə baza ali tibb təhsili əsasında həkim-mütəxəssis hazırlığı formasıdır. Burada təhsil dövlət standartı və proqramına uyğun olaraq hazırlanmış baza ali tibb təhsili proqramları əsasında, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 iyun 95 nömrəli qərarı ilə təsdiq edilmiş "Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların təsnifatı"nda qeyd olunan həkim-mütəxəssis ixtisasları üzrə aparılır. Rezidenturada ayrı-ayrı həkim-mütəxəssis ixtisasları üzrə təhsil müddəti 2 ildən 5 ilə qədərdir. Rezidenturada həkim-mütəxəssis hazırlığı klinik baza olaraq Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən müəyyən edilmiş elm, təhsil müəssisələri və klinikalarda aparılır. Azərbaycan Respublikasının vətəndaşları üçün rezidenturada təhsil dövlət sifarişi əsasında (və ya ödənişli) həyata keçirilir.

"Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2009-cu il tarixli, 156 nömrəli fərmanı rəhbər tutulmaqla və "Rezidentura təhsilinin məzmunu və təşkili qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 mart 2010-cu il tarixli 50 nömrəli və 2013-cü il 21 noyabr tarixli 330 nömrəli qərarları əsas götürülməklə rezidenturaya qəbul 2019-cu ildə də DİM tərəfindən mərkəzləşdirilmiş şəkildə test üsulu ilə keçirilmişdir. Qəbul "Azərbaycan Respublikasında rezidenturaya qəbul qaydaları" ilə tənzimlənib.

2010-cu ilin oktyabr ayından başlayaraq Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında (indiki Dövlət İmtahan Mərkəzi) rezidenturaya qəbul imtahanlarının keçirilməsi ilə bağlı baza və ixtisas fənləri üzrə elmi-metodiki seminarlar təşkil olunmuşdur. Növbəti illərdə seminarlarda qəbul proqramları müzakirə edilmiş, test tərtibi metodikası üzrə treninqlər keçirilmiş, mövcud test bankı yeni test tapşırıqları ilə zənginləşdirilmişdir. Baza ali tibb təhsilinin bütün istiqamətləri üzrə baza və ixtisas fənlərindən qəbul proqramları əlavə və düzəlişlər edilməklə təkmilləşdirilmiş, müvafiq kafedraların əməkdaşlarının iştirakı ilə müzakirə edilmiş, kafedra müdirləri ilə razılaşdırılmış və institut rəhbərliyi tərəfindən təsdiqlənmişdir. 2019/2020-ci tədris ili üçün rezidenturaya qəbul proqramlarının tərtibində və müzakirəsində baza fənləri üzrə 8 kafedra, ixtisas fənləri üzrə 34 kafedranı təmsil edən 170 nəfərə qədər ekspert iştirak etmişdir.

Rezidenturaya qəbul qaydaları və baza fənləri üzrə qəbul proqramları, test tapşırıqlarının elmi-metodiki izahı və tövsiyələr, test tapşırığı nümunələri 2019-cu ilin yanvar ayında "Rezidentura" jurnalının 1-ci sayında dərc olunaraq ictimaiyyətə çatdırılmışdır. Rezidenturaya qəbul elanı və ixtisas fənləri üzrə qəbul proqramları, test tapşırıqlarının elmi-metodiki izahı və tövsiyələr, test tapşırığı nümunələri "Rezidentura" jurnalının 2-ci sayında, qəbul imtahanının II mərhələsi və ixtisas seçimi haqqında elan, qəbul aparılan ixtisasların siyahısı, qəbul imtahanının I mərhələsinin nəticələri, qəbul planı və namizədlər üçün tövsiyələr, 2018-ci ildə rezidenturaya qəbul müsabiqəsində baza tibb təhsili müəssisələrinin ixtisasları üzrə formalaşmış keçid balları jurnalın 3-cü sayında dərc edilmişdir. Jurnalın 4-cü sayında isə rezidenturaya qəbul olanların adlı siyahısı və cari ildə klinik bazalar üzrə formalaşmış keçid balları verilmişdir.

Rezidenturaya qəbul aparılan ixtisaslar baza ali tibb təhsilinə uyğun olaraq istiqamətlər üzrə qruplaşdırılıb. 3.1 saylı cədvəldə həm bu istiqamətlərin, həm də hər bir istiqamət üzrə imtahan verilən baza və ixtisas fənlərinin siyahısı təqdim edilib.

Cədvəl 3.1

İSTİQAMƏTLƏR ÜZRƏ İMTAHAN VERİLƏN BAZA VƏ İXTİSAS FƏNLƏRİ

	İstiqamətin adı	Baza fənləri	İxtisas fənləri
1	Müalicə işi, pediatriya	İnsan anatomiyası Histologiya Mikrobiologiya Farmakologiya Biokimya Patologiya (patoloji anatomiya və patoloji fiziologiya) İnsan fiziologiyası	Cərrahlıq (ümumi cərrahlıq, cərrahi xəstəliklər, uşaq cərrahlığı) Mamalıq və ginekologiya Uşaq xəstəlikləri (uşaq xəstəliklərinin propedevtikası, neonatologiya) Daxili xəstəliklər (kardiologiya, pulmonologiya, qastroenterologiya, endokrinologiya, nefrologiya, hematologiya, nevrologiya, yoluxucu xəstəliklər, psixiatriya)

Cədvəl 3.1 (ardı)

	İstiqamətin adı	Baza fənləri	İxtisas fənləri
2	Stomatologiya	İnsan anatomiyası Histologiya Mikrobiologiya Farmakologiya Biokimya Patologiya (patoloji anatomiya və patoloji fiziologiya) İnsan fiziologiyası	Ortopedik stomatologiya Üz-çənə cərrahiyyəsi Uşaq stomatologiyası Terapevtik stomatologiya
3	Tibbi profilaktika	İnsan anatomiyası Histologiya Mikrobiologiya Farmakologiya Biokimya Patologiya (patoloji anatomiya və patoloji fiziologiya) İnsan fiziologiyası	Yoluxucu xəstəliklər Gigiyena (ümumi gigiyena, kommunal gigiyena, qidalanma gigiyenası, əmək gigiyenası) Epidemiologiya

2019-cu ildə rezidenturaya qəbul Səhiyyə Nazirliyi sistemi üzrə 3 klinik bazaya aparılıb. Rezidenturaya ümumilikdə Azərbaycan və rus bölmələrinin birgə müsabiqəsi üçün 569 plan yeri ayrılmışdı (onlardan 42 plan yeri Hərbi tibb fakültəsi üçün nəzərdə tutulmuşdur). 3.2 saylı cədvəldən də göründüyü kimi, rezidenturaya ən çox qəbul planı Azərbaycan Tibb Universitetinin payına düşüb (342 yer – Hərbi tibb fakültəsi də daxil olmaqla). Bu təhsil müəssisəsinin qəbul planı bütövlükdə rezidentura üçün ayrılmış qəbul planının 60.11%-ni təşkil edib.

Cədvəl 3.2

QƏBUL PLANININ KLİNİK BAZALAR ÜZRƏ PAYLANMASI

№	**Müəssisənin adı**	**İstiqamətlər***					**Bütöv-lükdə**
		I	**II**	**III**	**I, II, III**	**I, III**	
1	Azərbaycan Tibb Universiteti	210	19	36	3	32	300
	Hərbi Tibb Fakütəsi	35	1	1	3	2	42
2	Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu	157	7	15	3	5	187
3	Naxçıvan Dövlət Universiteti	27	4	3	2	4	40
C Ə M İ		**429**	**31**	**55**	**11**	**43**	**569**

*(İstiqamətlər: I – Müalicə işi, Pediatriya; II – Stomatologiya; III – Tibbi-profilaktika)

2019-cu ildə də rezidenturaya qəbul üçün ödənişli təhsil forması üzrə 12 plan yeri ayrılmışdır. Bu yerlərdən 10-una müalicə işi, pediatriya və 2-sinə stomatologiya istiqamətəri üzrə qəbul aparılıb. Ödənişli təhsil forması üzrə qəbul yalnız Naxçıvan Dövlət Universitetinə aparılıb.

Ötən illə müqayisədə qəbul planı müalicə işi, pediatriya istiqaməti üzrə 55 yer, stomatologiya istiqaməti üzrə 15 yer, sosial gigiyena və səhiyyənin təşkili ixtisası (I, II, III istiqamətlər) üzrə 6 yer, tibbi profilaktika istiqaməti üzrə 18 yer və yoluxucu xəstəliklər ixtisası (I, III istiqamətlər) üzrə isə 4 yer artmışdır.

Qəbul imtahanlarında iştirak etmək üçün ərizələrin qəbulu 2019-cu il fevralın 14-dən 21-dək internet vasitəsilə aparılıb. Namizədlər *ekabinet.dim.gov.az* internet səhifəsində "Şəxsi kabinet"lərini yaratdıqdan sonra, "Şəxsi kabinet"lərininin istifadəçi adı və parolundan istifadə edərək DİM-in internet saytının müvafiq səhifəsinə (eservices.dim.gov.az/erizerez/erize) daxil olaraq "Namizədin elektron ərizəsi" formasını doldurub, təsdiq ediblər. Müsabiqədə iştirak ödənişli olmuşdur. Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici ölkələrdə ali təhsil almış Azərbaycan Respublikasının vətəndaşları imtahanda iştirak etmək üçün "Namizədin elektron ərizəsi" formasını doldurduqdan sonra tələb olunan sənədlərin əslini şəxsən təqdim edərək elektron ərizələrini DİM-də yaradılmış Sənəd Qəbulu Komissiyalarında təsdiq etdiriblər.

Rezidenturada təhsil almaq üçün 930 namizəd ərizə verib. Onların 38.49%-ni (358 nəfər) oğlanlar, 61.51%-ni (572 nəfər) qızlar təşkil edib. Sənəd verənlərin 319 nəfəri (34.30%) cari ilin məzunlarıdır.

Baza ali tibb təhsili istiqamətləri üzrə qəbul planı, imtahanda iştirak etmək üçün təqdim edilən ərizələrin sayı və ərizə qəbulu mərhələsində müsabiqə vəziyyəti 3.3 saylı cədvəldə göstərilir.

Cədvəl 3.3

BAZA ALİ TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ VƏ BÖLMƏLƏR ÜZRƏ QƏBUL PLANI, NAMİZƏDLƏRİN ƏRİZƏLƏRİNİN PAYLANMASI VƏ MÜSABİQƏ VƏZİYYƏTİ

İstiqamət	Qəbul planı	Ərizələrin sayı			Müsabiqə vəziyyəti
		Azərbaycan bölməsi	Rus bölməsi	Cəmi	
I. Müalicə işi, pediatriya	483 (429)	667	118	785	1.6
II. Stomatologiya	42 (31)	42	8	50	1.2
III. Tibbi profilaktika	109 (55)	89	6	95	0.9
C Ə M İ	**569***	**798**	**132**	**930**	**1.6**

*Müalicə işi, pediatriya, stomatologiya və tibbi profilaktika istiqamətləri üzrə 11 yer (sosial gigiyena və səhiyyənin təşkili ixtisası üzrə), müalicə işi, pediatriya və tibbi profilaktika istiqamətləri üzrə 43 yer (mikrobiologiya və yoluxucu xəstəliklər ixtisasları üzrə) üçün birgə müsabiqə aparılıb.

3.3 saylı cədvəldən görünür ki, imtahanda iştirak etmək üçün ən çox ərizə müalicə işi, pediatriya istiqaməti üzrə təqdim edilib. Ümumiyyətlə, ərizələrin sayı ötən illə müqayisədə müalicə işi, pediatriya, stomatologiya və tibbi profilaktika istiqamətləri üzrə uyğun olaraq 1.16, 1.16 və 1.29 dəfə, bütün istiqamətlər üzrə isə bütövlükdə 1.17 dəfə azalmışdır.

İstiqamətlər üzrə ən yüksək müsabiqə vəziyyəti müalicə işi, pediatriya istiqaməti üzrə (bir yerə orta hesabla 1.6 ərizə), ən aşağı müsabiqə vəziyyəti isə tibbi profilaktika istiqaməti üzrə (bir yerə orta hesabla 0.9 ərizə) müşahidə olunub. Ümumilikdə ötən illə müqayisədə müsabiqə vəziyyəti 2.3-dən 1.6-ya qədər azalmışdır. Müsabiqə vəziyyətinin aşağı düşməsi plan yerlərinin sayının artması və ərizə verənlərin sayının azalması ilə əlaqədardır.

Rezidenturaya qəbul imtahanı iki mərhələdə – I mərhələ aprelin 7-də, II mərhələ isə iyulun 14-də keçirilib. Qəbul imtahanının hər iki mərhələsi Bakı və Naxçıvan şəhərlərində keçirilib. II mərhələyə imtahanın I mərhələsində ən azı 40 bal toplayan namizədlər buraxılıblar. İmtahanın birinci mərhələsində namizədlərin baza ali tibb təhsili istiqamətinə müvafiq olaraq baza fənləri üzrə, ikinci mərhələsində isə ixtisas fənləri üzrə bilikləri yoxlanılıb. Namizədlərə hər mərhələdə ayrılıqda 100 test tapşırığı təqdim olunub. Hər bir test tapşırığına düzgün cavab bir balla qiymətləndirilib, səhv cavablar namizədin imtahan nəticələrinə təsir göstərməyib. Hər bir mərhələdə imtahan suallarının cavablandırılmasına 2.5 saat vaxt ayrılıb.

İmtahanın I mərhələsində baza ali tibb təhsilinin bütün istiqamətləri üzrə patologiya bloku (patoloji anatomiya və patoloji fiziologiya) və insan fiziologiyası fənnindən son 5 sual açıq tipli test tapşırığı olub. İmtahanın II mərhələsində müalicə işi, pediatriya istiqaməti üzrə daxili xəstəliklər blokundan, stomatologiya istiqaməti üzrə terapevtik stomatologiya fənnindən və tibbi profilaktika istiqaməti üzrə epidemiologiya fənnindən son 5 sual açıq tipli test tapşırığı olub. Hər iki mərhələdə sual kitabçaları fərdi qaydada çap olunub və imtahan zalları üzrə komplektləşdirilib. Sual kitabçaları imtahanın hər iki mərhələsində müalicə işi, pediatriya istiqaməti üzrə 2 variantda, digər istiqamətlər üzrə isə 1 variantda, Azərbaycan və rus dillərində hazırlanıb. Bütövlükdə, imtahanlarda 16 sual kitabçasından və 1600 test tapşırığından istifadə edilib.

Qəbul imtahanının I mərhələsi üzrə nəticələr aprelin 8-də, II mərhələsi üzrə isə iyulun 15-də DİM-in internet saytında elan olunub.

İmtahanın I mərhələsində 909 (346 nəfər oğlan, 563 nəfər qız), II mərhələsində 447 namizəd (148 nəfər oğlan, 299 nəfər qız) iştirak edib. İmtahanda və müsabiqədə iştirak etmək hüququ qazanan namizədlərin istiqamətlər üzrə sayı barədə məlumat 3.4 saylı cədvəldə təqdim olunur.

Cədvəl 3.4

BAZA ALİ TİBB TƏHSİLİ İSTİQAMƏTLƏRİ ÜZRƏ QƏBUL PLANI, İMTAHANIN II MƏRHƏLƏSİNDƏ VƏ MÜSABİQƏDƏ İŞTİRAK ETMƏK HÜQUQU QAZANAN NAMİZƏDLƏRİN PAYLANMASI

İstiqamət	Qəbul planı*	İmtahanda iştirak edən namizədlərin sayı		Müsabiqədə iştirak etmək hüququ qazanmış namizədlərin sayı
		I mərhələdə	II mərhələdə**	
Müalicə işi, Pediatriya	483 (40)	765 (120)	377 (39)	290 (29)
Stomatologiya	42 (4)	50 (1)	22 (1)	15 (1)
Tibbi-profilaktika	109 (6)	94 (0)	48 (0)	47 (0)
Cəmi	**569 (42)**	**909 (121)**	**447 (40)**	**352 (30)**

* mötərizədə o cümlədən, hərbi tibb fakültəsi üzrə məlumat verilmişdir.

** II mərhələdə I mərhələ üzrə ən azı 40 bal toplayan namizədlər iştirak ediblər.

Müxtəlif istiqamətlər üzrə müsabiqənin birgə aparıldığını nəzərə alaraq qeyd etmək olar ki, imtahanın II mərhələsində iştirak edən namizədlərin çoxu (78.75%) müsabiqədə iştirak etmək hüququ qazanıb (3.4 saylı cədvələ bax). Onlardan 116 nəfəri oğlan (54 nəfər cari ilin məzunu), 236 nəfəri qız (111 nəfər cari ilin məzunu) olub.

3.1 saylı şəkildə qəbul imtahanının I mərhələsində iştirak edən namizədlərin topladıqları balların paylanma diaqramı təqdim edilib. Diaqramdan da göründüyü kimi, namizədlərin böyük hissəsi (89.21%) 20-39 və 40-59 bal diapazonlarında nəticə göstərib. II mərhələdə iştirak etmək üçün təyin olunan minimal tələbi (40 və daha yüksək bal) namizədlərin 50.49%-i ödəyib. Ötən il bu göstərici 58.75%-ə bərabər olub. Göründüyü kimi, bu il imtahanın II mərhələsində iştirak etmək hüququ qazanan namizədlərin nisbi sayı ötən illə müqayisədə azalmışdır.

Qəbul imtahanının II mərhələsində iştirak edən namizədlərin topladıqları balların paylanma diaqramından (şəkil 3.2) onların 92.17%-nin 40-59 və 60-79 bal diapazonlarında nəticə göstərdiyini görürük.

3.3 saylı şəkildəki diaqramdan göründüyü kimi, hər iki mərhələ üzrə birlikdə namizədlərin 66.67%-nin topladığı bal 100-dən yüksəkdir.

QƏBUL İMTAHANININ I MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏN NAMİZƏDLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.1

QƏBUL İMTAHANININ II MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏN NAMİZƏDLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.2

QƏBUL İMTAHANININ HƏR İKİ MƏRHƏLƏSİ ÜZRƏ NAMİZƏDLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.3

Qəbul imtahanının nəticələri əsasında reprezentativ seçməyə malik olan müalicə işi, pediatriya istiqaməti üzrə I mərhələdə və hər iki mərhələdə iştirak edən namizədlərin ayrılıqda topladıqları balların paylanmasının ədədi xarakteristikaları və histoqramları müəyyənləşdirilib (3.5, 3.6 saylı cədvəllərə və 3.1, 3.2 saylı qrafiklərə bax). Qrafiklərdə namizədlərin topladıqları balların paylanma histoqramı, riyazi gözləmə (orta) qiyməti (M) və namizədlər seçməsini sayca iki bərabər hissəyə ayıran mediana (Me) qiymətləri təsvir edilib. Balların paylanma histoqramı həm I mərhələdə, həm də hər iki mərhələ üzrə birlikdə demək olar ki, simmetrikdir və normal paylanmaya yaxındır.

Müalicə işi, pediatriya istiqaməti
(*I mərhələ*)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları

Riyazi gözləmə :	40.34	Minimal bal :	5
Ortakvadratik meyil :	12.88	Maksimal bal :	89
Moda :	32	Namizədlərin sayı :	765
Mediana :	39.00		

Cədvəl 3.5

Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tezliklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tezliklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tezliklərin cəmi, %-lə
0 - 0	0	0.00	0.00	31 - 35	112	14.64	38.82	66 - 70	15	1.96	98.43
1 - 5	1	0.13	0.13	36 - 40	107	13.99	52.81	71 - 75	9	1.18	99.61
6 - 10	1	0.13	0.26	41 - 45	111	14.51	67.32	76 - 80	1	0.13	99.74
11 - 15	8	1.05	1.31	46 - 50	83	10.85	78.17	81 - 85	1	0.13	99.87
16 - 20	21	2.75	4.05	51 - 55	70	9.15	87.32	86 - 90	1	0.13	100.00
21 - 25	63	8.24	12.29	56 - 60	46	6.01	93.33	91 - 95	0	0.00	100.00
26 - 30	91	11.90	24.18	61 - 65	24	3.14	96.47	96 - 100	0	0.00	100.00

Qrafik 3.1



Müalicə işi, Pediatriya istiqaməti (*I və II mərhələlərdə iştirak edənlər*)

Test imtahanında toplanılan balların paylanmasının ədədi xarakteristikaları			
Riyazi gözləmə :	107.03	Minimal bal :	66
Ortakvadratik meyil :	17.06	Maksimal bal :	173
Moda :	102	Namizədlərin sayı :	377
Mediana :	104.85		

Cədvəl 3.6

Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tezliklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tezliklərin cəmi, %-lə	Bal intervalları	Namiz. sayı (tezliklər)	Nisbi tezliklər, %-lə	Nisbi tezliklərin cəmi, %-lə
0 - 0	0	0.00	0.00	66 - 70	2	0.53	0.53	136 - 140	9	2.39	96.02
1 - 5	0	0.00	0.00	71 - 75	4	1.06	1.59	141 - 145	9	2.39	98.41
6 - 10	0	0.00	0.00	76 - 80	13	3.45	5.04	146 - 150	2	0.53	98.94
11 - 15	0	0.00	0.00	81 - 85	13	3.45	8.49	151 - 155	3	0.80	99.73
16 - 20	0	0.00	0.00	86 - 90	26	6.90	15.38	156 - 160	0	0.00	99.73
21 - 25	0	0.00	0.00	91 - 95	39	10.34	25.73	161 - 165	0	0.00	99.73
26 - 30	0	0.00	0.00	96 - 100	43	11.41	37.14	166 - 170	0	0.00	99.73
31 - 35	0	0.00	0.00	101 - 105	50	13.26	50.40	171 - 175	1	0.27	100.00
36 - 40	0	0.00	0.00	106 - 110	37	9.81	60.21	176 - 180	0	0.00	100.00
41 - 45	0	0.00	0.00	111 - 115	44	11.67	71.88	181 - 185	0	0.00	100.00
46 - 50	0	0.00	0.00	116 - 120	27	7.16	79.05	186 - 190	0	0.00	100.00
51 - 55	0	0.00	0.00	121 - 125	25	6.63	85.68	191 - 195	0	0.00	100.00
56 - 60	0	0.00	0.00	126 - 130	17	4.51	90.19	196 - 200	0	0.00	100.00
61 - 65	0	0.00	0.00	131 - 135	13	3.45	93.63				

Qrafik 3.2



Rezidenturaya qəbul imtahanında iştirak edənlər və qəbul olanlar seçmələri üzrə ayrılıqda ortastatistik namizədin portreti müəyyənləşdirilib. I mərhələ üzrə Azərbaycan bölməsində imtahanda iştirak edənlər seçməsini təmsil edən ortastatistik namizədin topladığı bal 41.06-ya, rus bölməsində 37.95-ə, II mərhələ üzrə Azərbaycan bölməsində 57.60-a, rus bölməsində 57.77-yə, hər iki mərhələ üzrə cəmi Azərbaycan bölməsində 108.76-ya, rus bölməsində 107.53-ə bərabərdir. Azərbaycan bölməsində rezidenturaya qəbul olanlar seçməsini təmsil edən ortastatistik namizədin topladığı bal 115.00-a, rus bölməsində isə 111.93-ə bərabərdir. Təqdim edilən rəqəmlərdən də göründüyü kimi, rus bölməsinin namizədlərinin imtahana hazırlığı və imtahan nəticələri Azərbaycan bölməsinin namizədlərdən çox az fərqlənir.

Müsabiqəyə buraxılan namizədlər malik olduqları baza ali tibb təhsilinin istiqamətinə uyğun olaraq iyulun 16-dan 22-dək ixtisas seçimi aparıblar. İxtisas seçiminə imtahanın I mərhələsi üzrə topladığı bal 40-dan, II mərhələsi üzrə 50-dən, ümumi balı isə 90-dan az olmayan namizədlər buraxılıblar. Müsabiqə hər iki mərhələdə toplanılan balların cəmi əsasında aparılıb.

İxtisas seçiminə kömək məqsədilə "Rezidentura" jurnalının 3-cü sayında "Rezidentura üzrə ixtisas seçimi cədvəli" dərc olunub (cədvəl 3.7). Bununla da hər bir namizədə bitirdiyi istiqamətə uyğun olaraq səmərəli ixtisas seçimi imkanı yaradılıb.

Cədvəl 3.7

REZİDENTURA ÜZRƏ İXTİSAS SEÇİMİ CƏDVƏLİ

Baza ali tibb təhsili üzrə istiqamətlər (fakültələr)	**Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisaslar**
I. Müalicə işi, pediatriya	060901 - Anesteziologiya-reanimatologiya 060902 - Ümumi cərrahiyyə 060903 - Neyrocərrahiyyə 060904 - Plastik cərrahiyyə 060905 - Ürək-damar cərrahiyyəsi 060906 - Uşaq cərrahiyyəsi 060907 - Otorinolarinqologiya 060908 - Travmatologiya-ortopediya 060909 - Onkologiya 060910 - Urologiya 060911 - Oftalmologiya 060912 - Mamalıq-ginekologiya 060913 - Psixiatriya 060914 - Nevrologiya 060915 - Terapiya 060916 - Kardiologiya 060917 - Nefrologiya 060918 - Qastroenterologiya 060919 - Hematologiya 060920 - Dermatovenerologiya 060921 - İmmunologiya 060922 - Allerqologiya 060923 - Yoluxucu xəstəliklər 060924 - Revmatologiya 060925 - Endokrinologiya 060926 - Narkologiya 060927 - Fizioterapiya və tibbi bərpa 060928 - Ftiziatriya 060929 - Patoloji anatomiya, məhkəmə-tibbi ekspertiza 060930 - Pediatriya 060931 - Şüa terapiyası 060932 - Şüa diaqnostikası 060937 - Mikrobiologiya 060939 - Genetika 060935 - Sosial gigiyena və səhiyyənin təşkili

Baza ali tibb təhsili üzrə istiqamətlər (fakültələr)	Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisaslar
II. Stomatologiya	060933 - Stomatologiya 060934 - Üz-çənə cərrahiyyəsi 060935 - Sosial gigiyena və səhiyyənin təşkili
III. Tibbi-profilaktika	060935 - Sosial gigiyena və səhiyyənin təşkili 060936 - Gigiyena 060937 - Mikrobiologiya 060938 - Laboratoriya işi 060940 - Epidemiologiya 060923 - Yoluxucu xəstəliklər

Seçilmiş ixtisasların ərizə formasında ardıcıllığını namizəd özü müəyyənləşdirib və o, topladığı ballara əsasən müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilib.

Müsabiqə zamanı ümumi balı eyni olan iki və daha çox namizədin hamısını qəbul planı çərçivəsində yerləşdirmək mümkün olmadıqda, aşağıdakı ardıcıllıqla əlavə göstəricilər nəzərə alınıb:

– baza ali tibb təhsili səviyyəsi üzrə ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG);

– ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanından toplanılan bal.

Müsabiqənin nəticələri iyulun 23-də elan edilmişdir.

Müsabiqədə iştirak edən namizədlərin ərizələrinin rezidentura təhsilini həyata keçirən klinik bazalar üzrə paylanması 3.8 saylı cədvəldə təqdim edilmişdir.

Cədvəl 3.8

MÜSABİQƏDƏ İŞTİRAK EDƏN NAMİZƏDLƏRİN ƏRİZƏLƏRİNİN KLİNİK BAZALAR ÜZRƏ PAYLANMASI

№	Müəssisənin adı	Ərizələrin sayı			
		Müalicə işi, pediatriya istiqaməti üzrə	Stomatologiya istiqaməti üzrə	Tibbi-profilaktika istiqaməti üzrə	Bütövlükdə
1	Azərbaycan Tibb Universiteti	255	14	47	316
	Hərbi Tibb Fakültəsi	29	1	0	30
2	Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu	234	14	32	280
3	Naxçıvan Dövlət Universiteti	30	4	11	45
	C Ə M İ	**290**	**15**	**47**	**352**

Cədvəldən göründüyü kimi, müsabiqədə iştirak edən 352 namizədin 82.39%-i (290 nəfər) müalicə işi, pediatriya, 4.26%-i (15 nəfər) stomatologiya və 13.35%-i (47 nəfər) tibbi profilaktika istiqaməti üzrə imtahan verənlərdir.

Müsabiqədə iştirak edən namizədlərin 89.77%-i (316 nəfər) öz ərizəsində Azərbaycan Tibb Universitetinə, 79.55%-i (280 nəfər) Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutuna aid olan ixtisasları qeyd edib.

Ödənişli təhsil forması üzrə müsabiqədə 11 namizəd iştirak edib. Onların 81.82%-i (9 nəfər) müalicə işi, pediatriya və 18.18%-i (2 nəfər) tibbi profilaktika istiqaməti üzrə imtahan verənlərdir. Bir daha qeyd edək ki, ödənişli təhsil forması üzrə qəbul yalnız Naxçıvan Dövlət Universitetinə aparılıb və bu təhsil forması üzrə bir nəfər belə namizəd qəbul olmayıb.

İmtahanlarda iştirak üçün qeydiyyatdan keçən namizədlərin 37.95%-i rezidenturaya qəbul olub. Baza ali tibb təhsili istiqamətləri üzrə rezidenturaya qəbul olan namizədlərin sayı haqqında statistik məlumat 3.9 saylı cədvəldə təqdim edilib.

Cədvəl 3.9

TƏHSİL İSTİQAMƏTLƏRİ ÜZRƏ QƏBUL OLANLARIN SAYI HAQQINDA MƏLUMAT

İstiqamət	Qəbul planı*	Qəbul olanların sayı			Qəbul olub (%)
		Azərbaycan bölməsi	Rus bölməsi	Cəmi	
Müalicə işi, pediatriya	455 (40)**	249 (29)	36 (0)	285 (29)	62.64 (72.50)
ödənişsiz təhsil forması	445 (40)	249 (29)	36 (0)	285 (29)	64.04 (72.50)
ödənişli təhsil forması	10 (0)	0 (0)	0 (0)	0 (0)	0.00 (---)
Stomatologiya	31 (1)	12 (1)	3 (0)	15 (1)	48.39 (100.0)
ödənişsiz təhsil forması	29 (1)	12 (1)	3 (0)	15 (1)	51.72 (100.0)
ödənişli təhsil forması	2 (0)	0 (0)	0 (0)	0 (0)	0.00 (---)
Tibbi profilaktika	83 (1)	42 (0)	3 (0)	45 (0)	54.22 (0.00)
ödənişsiz təhsil forması	83 (1)	42 (0)	3 (0)	45 (0)	54.22 (0.00)
ödənişli təhsil forması	0 (0)	0 (0)	0 (0)	0 (0)	--- (---)
C Ə M İ	**569 (42)**	**303 (30)**	**42 (0)**	**345 (30)**	**60.63 (71.43)**
ödənişsiz təhsil forması	557 (42)	303 (30)	42 (0)	345 (30)	61.94 (71.43)
ödənişli təhsil forması	12 (0)	0 (0)	0 (0)	0 (0)	0.00 (---)

*Birgə müsabiqə aparılan ixtisaslar üzrə qəbul olanların paylanması nəzərə alınaraq tibb istiqamətlərinin qəbul planları dəqiqləşdirilib (bax: cədvəl 3.3).

**Mötərizədə o cümlədən hərbi tibb fakültəsi üzrə məlumat verilmişdir.

Cədvəldən göründüyü kimi, heç bir istiqamət üzrə qəbul planı tam dolmayıb. Qəbul planı ümumilikdə 60.63% dolub. Ödənişsiz təhsil forması üzrə bu göstərici 61.94 % olub. Müalicə işi, pediatriya istiqaməti üzrə qəbul planı 62.64% (ödənişsiz təhsil forması üzrə 64.04%), stomatologiya istiqaməti üzrə 48.39% (ödənişsiz təhsil forması üzrə 51.72%), tibbi profilaktika istiqaməti üzrə isə 54.22% (bütün yerlər ödənişsiz təhsil forması üzrə ayrılıb) yerinə yetirilib. Ödənişli təhsil forması üzrə qəbul olan olmayıb.

Tibbi profilaktika istiqamətinə daxil olan "Gigiyena" və "Epidemiologiya" ixtisaslarını xüsusi qeyd etmək istərdik. Bu ixtisasların namizədlər arasında nüfuzu çox aşağıdır. Belə ki, tibbi profilaktika istiqaməti üzrə ixtisas seçimində iştirak edən namizədlərin 17-si "Gigiyena" və "Epidemiologiya" ixtisaslarını öz ərizələrində qeyd etmələrinə baxmayaraq, onlar arasında bu ixtisasları ərizələrində birinci yerdə göstərənləri olmayıb və nəticədə bu ixtisaslara ayrılan 36 yerin hamısı boş qalmışdır.

Rezidenturaya sənəd verənlərin 319 nəfərini baza ali tibb təhsilini cari ildə başa vuranlar (33.86%-i oğlanlar, 66.14%-i qızlar) təşkil edib. Tibb təhsili istiqamətləri üzrə onların paylanması belədir: Müalicə işi, pediatriya – 244 nəfər, stomatologiya – 28 nəfər və tibbi profilaktika – 47 nəfər. Cari ilin məzunlarından qəbul imtahanının I mərhələsində 316, II mərhələsində isə 199 nəfər iştirak edib və onların 164 nəfəri (istiqamətlər üzrə, müvafiq olaraq, 131, 7 və 26 nəfər) rezidenturaya qəbul olub. Cari il məzunlarının rezidenturaya qəbulolma göstəriciləri tam seçməyə nəzərən yüksək olub – 51.90%. Rezidenturaya qəbul olan məzunların 32.93%-ni oğlanlar, 67.07%-ni isə qızlar təşkil ediblər.

Təhsil istiqamətləri üzrə rezidenturaya sənəd verən və qəbul olan oğlan və qız namizədlərin sayı barədə məlumat 3.10 saylı cədvəldə göstərilib. Rezidenturaya sənəd verən və qəbul olan namizədlərin seçmələrində oğlan və qızların sayca nisbi çəkilərində qismən dəyişiklik baş verib. Belə ki, rezidenturaya sənəd verən namizədlərin 38.49%-ni oğlanlar, 61.51%-ni qızlar təşkil etdiyi halda, qəbul olanlar seçməsində namizədlərin 33.33%-i oğlanlar, 66.67%-i isə qızlardır. Qəbul imtahanında iştirak edən qız namizədlərin rezidenturaya qəbulolma göstəriciləri (40.85%), oğlan namizədlərin qəbulolma göstəricilərindən (33.24%) yüksəkdir.

Cədvəl 3.10

TƏHSİL İSTİQAMƏTLƏRİ ÜZRƏ ƏRİZƏ VERƏN VƏ QƏBUL OLAN OĞLAN VƏ QIZ NAMİZƏDLƏRİN SAYI HAQQINDA MƏLUMAT

İstiqamət	Ərizə verən				Qəbul olan			
	oğlanların		qızların		oğlanların		qızların	
	sayı	faizi	sayı	faizi	sayı	faizi	sayı	faizi
Müalicə işi, Pediatriya	320	40.76	465	59.24	100	35.09	185	64.91
Stomatologiya	18	36.00	32	64.00	5	33.33	10	66.67
Tibbi-profilaktika	20	21.05	75	78.95	10	22.22	35	77.78
CƏMİ	**358**	**38.49**	**572**	**61.51**	**115**	**33.33**	**230**	**66.67**

Rezidenturaya qəbul olan namizədlərin topladıqları balların paylanma diaqramı 3.4 saylı şəkildə təqdim olunub. Diaqramdan görünür ki, qəbul olanların 82.32%-nin topladığı bal 100-124 və 125-149 bal diapazonlarında yerləşir. Qəbul olan namizədlərin yalnız 15.94%-i 100 baldan aşağı nəticə göstərib. Qeyd edək ki, maksimal toplanıla bilən bal 200-ə bərabər olub.

Klinik bazalar üzrə rezidenturaya qəbul olan namizədlərin sayı və orta bal göstəriciləri 3.11 saylı cədvəldə təqdim edilib. Cədvəldən aydın olur ki, Azərbaycan Tibb Universitetinə qəbul olan namizədlərin qəbul imtahanında topladıqları balların orta qiymətləri (həmin tibb müəssisələrinə qəbul olanları təmsil edən ortastatisik namizədlərin qəbul imtahanında topladıqları ballar) ən yüksəkdir. Bu klinik bazaya daxil olan ortastatistik namizədlərin balı 118.435-ə bərabər olub. Ən zəif hazırlıqlı namizədlər Azərbaycan Tibb Universitetinin Hərbi tibb fakültəsinə qəbul olublar (ortastatistik namizədin qəbul imtahanında topladığı bal cəmi 103.800-ə bərabərdir).

QƏBUL OLAN NAMİZƏDLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 3.4

Azərbaycan Tibb Universitetində 86 yer (bu təhsil müəssisəsi üçün ayrılmış plan yerlərinin 28.67%), Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsində 12 yer (bu təhsil müəssisəsi üçün ayrılmış plan yerlərinin 28.57%), akademik Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunda 94 yer (50.27%) və Naxçıvan Dövlət Universitetində 32 yer (80.00%) boş qalmışdır.

Cədvəl 3.11

KLİNİK BAZALAR ÜZRƏ REZİDENTURAYA QƏBUL OLAN NAMİZƏDLƏRİN SAYI VƏ ORTA BAL GÖSTƏRİCİLƏRİ

	Tibb müəssisələri	Qəbul planı	Qəbul olanların sayı			Orta bal
			oğlan	qız	cəmi	
1	Azərbaycan Tibb Universiteti	300	53	161	214	118.435
	Hərbi Tibb Fakültəsi	42	29	1	30	103.800
2	Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu	187	31	62	93	109.495
3	Naxçıvan Dövlət Universiteti	40	2	6	8	112.875
CƏMİ		**569**	**115**	**230**	**345**	**114.623**

Fənlər üzrə elmi-metodik təhlil və tövsiyələr

Ötən illərdə olduğu kimi, 2019-cu ildə də DİM-də fəaliyyət göstərən elmi-metodik seminarlarda Azərbaycan Tibb Universitetinin professor-müəllim heyətinin iştirakı ilə 2019/2020-ci tədris ili üçün rezidenturaya qəbul imtahanlarında istifadə olunmuş test tapşırıqlarının elmi-statistik təhlili aparılıb. Bu seminarlarda ayrı-ayrı test tapşırıqları üzrə namizədlərin əldə etdikləri nəticələr təhlil edilib, onların cavablandırmaqda çətinlik çəkdikləri test tapşırıqları müzakirə olunub. Tapşırıqların nisbətən çətin cavablandırılmasının səbəbləri araşdırılıb, bu səbəblərin aradan qaldırılması üçün müvafiq təklif və tövsiyələr hazırlanıb. Təhlillərdən əldə olunan nəticələr test bankının təkmilləşdirilməsi və zənginləşdirilməsi sahəsində işlər aparılarkən nəzərə alınır.

Qeyd etmək lazımdır ki, rezidenturaya qəbul imtahanı proqramları, eləcə də qəbul imtahanında istifadə olunacaq test tapşırıqlarının tipi və mürəkkəblik dərəcəsi haqqında məlumat (test tapşırığı nümunələri) ilin əvvəlində "Abituriyent" jurnalının xüsusi buraxılışı olan "Rezidentura" jurnalının 1-ci və 2-ci saylarında dərc edilmişdir.

2019/2020-ci tədris ili üçün rezidenturaya qəbul imtahanlarında da ayrı-ayrı fənlər üzrə istifadə olunan test tapşırıqlarının mövzu və bölmələr üzrə paylanmasında onların nəzəri və praktiki əhəmiyyəti nəzərə alınmışdır. Bütün istiqamətlər üzrə test blokuna terminoloji, faktoloji, ümumiləşdirmə, izahat tələb edən, uyğunluğun müəyyən edilməsi və təklif olunan fəaliyyət kateqoriyalı, mürəkkəblik dərəcəsinə görə sadə, orta və çətin olan test tapşırıqları daxil edilmiş, bununla da namizədlərin qəbul proqramı üzrə materialı necə mənimsədiyini dəqiq aşkar etmək, eləcə də bilik və bacarıqlarını tətbiq etmək qabiliyyətlərini yoxlamaq mümkün olmuşdur.

Baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında istifadə olunan 100 (yüz) test tapşırığından 10 test tapşırığı (insan fiziologiyası fənni və patologiya bloku – patoloji fiziologiya və patoloji anatomiya – üzrə) açıq tipli olmuşdur.

İxtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında da istifadə olunan 100 (yüz) test tapşırığından 5-i (müalicə işi, pediatriya istiqaməti üzrə daxili xəstəliklər blokundan, stomatologiya istiqaməti üzrə terapevtik stomatologiya fənnindən, tibbi profilaktika istiqaməti üzrə epidemiologiya fənnindən) açıq tipli olmuşdur.

Baza fənləri üzrə namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri bəzi test tapşırıqlarının izahını təqdim edirik.

İnsan anatomiyası fənni üzrə "Mərkəzi sinir sisteminin anatomiyası" "Dayaq hərəkət aparatı, sümük və birləşmələr sistemi", "Gövdənin əzələlərinin və fassiyalarının morfofunksional anatomiyası", "Əzələ sisteminin ümumi anatomiyası", "Ətraf əzələlərinin və fassiyalarının morfofunksional anatomiyası", "Daxili orqanlar. Həzm sistemi orqanlarının morfofunksional anatomiyası", "Yuxarı və aşağı boş vena sistemləri", "Sidik orqanlarının morfofunksional anatomiyası", "Gövdə sümükləri və onların birləşmələri", "Kiçik və böyük qan dövranı damarları", "Duyğu orqanlarının morfofunksional anatomiyası", "Limfa və immun sistemi orqanları", "Vegetativ sinir sisteminin anatomiyası" və s. bölmələr üzrə bilikləri yoxlayan test tapşırıqları təqdim edilmişdi. Elmi-metodik təhlil zamanı aşkar olunmuşdur ki, müalicə işi, pediatriya istiqaməti üzrə ***insan anatomiyası*** fənninin "Duyğu orqanlarının morfofunksional anatomiyası" bölməsi üzrə təqdim olunan test tapşırığının cavablandırılmasında namizədlər daha çox çətinlik çəkmişlər. Həmin test tapşırığının şərhini təqdim edirik.

B variantı, 7 saylı test tapşırığı

Dəhliz-ilbiz orqanının mayası hansı beyin qovuğu nahiyəsində ektodermal qalınlaşma kimi meydana çıxır?

A) orta beyin B) əlavə beyin C) ara beyin
D) arxa beyin E) uc beyin

Namizədlərin 10,34%-nin doğru cavablandırdığı bu test tapşırığı "Duyğu orqanları" bölməsinə aid olub, orta ağırlıq dərəcəsinə malikdir (doğru cavab: D).

Təcrübi təbabətdə mühitə adaptasiyada duyğu orqanlarının, o cümlədən dəhliz-ilbiz orqanının böyük əhəmiyyəti vardır. Belə ki, sahə və məkan daxilində müvazinət dəyişmələrinə cavab reaksiyası üçün müvazinət orqanı nəinki beyinciklə, eləcə də uzunsov beyin, skelet əzələləri, göz almasını innervasiya edən III, IV və VI kəllə sinirləri və ayağın altında olan mexanoreseptorlarla birbaşa əlaqədə olmalıdır.

Həm "Kəllənin inkişafı", həm də "Duyğu orqanlarının inkişafı" bölmələrində dəhliz-ilbiz orqanının arxa beyin qovuğundan inkişaf etməsi haqqında geniş məlumat verilmişdir (bax: Şadlinski V.B., Qasımov Ş.İ.,

İsayev A.B., Hüseynov B.M. İnsan anatomiyası. Rezidenturaya hazırlaşanlar üçün vəsait. TQDK – "Abituriyent", Bakı: 2015. S. 478; Шадлински В.Б., Сапин М.Р., Мовсумов Н.Т. Анатомия человека: том 2. Баку: Муаллим, 2010, с.564). Namizədlərin 39,28%-nin doğru cavab kimi seçdiyi orta beyin III, IV kəllə sinirlərinin, beyin ayaqcıqlarının və ayaqcıqlararası çuxurun, 31,01%-nin seçdiyi ara beyin isə görmə qabarları, görmə qabaraltı nahiyə ilə yanaşı, həm də görmə orqanının inkişaf etdiyi beyin qovuğudur.

2019-cu ildə də ***histologiya*** fənni üzrə sitologiya, embriologiya, ümumi və xüsusi histologiya üzrə bilikləri yoxlayan 7 test tapşırığı təqdim edilmişdir. Elmi-metodik təhlil zamanı aşkar olunmuşdur ki, bu il də namizədlər ***histologiya*** fənni üzrə təqdim olunan test tapşırıqlarının cavablandırılmasında çətinlik çəkmişlər. Bu fənn üzrə namizədlərin cavablandırmaqda daha çox çətinlik çəkdikləri (müalicə işi, pediatriya istiqaməti üzrə) test tapşırığının şərhini təqdim edirik:

B variantı, 14 saylı test tapşırığı

Somatik refleks qövsündə hissi neyronların cisimləri yerləşir:

A) ağ maddədə B) boz maddədə C) sinir düyünlərində D) arxa ciyədə E) ön ciyədə

Namizədlərin 22,48%-i tərəfindən doğru cavablandırılmış və orta ağırlıqlı bu test tapşırığı "Sinir sisteminin ümumi quruluş səciyyəsi" bölməsinə aiddir (doğru cavab: C).

Refleks qövsü hissi, assosiativ və effektor neyronlardan ibarət zəncir olub, orqanizmin müəyyən xarici və daxili qıcığa qarşı tipik reaksiyasını təmin edir.

Somatik sinir sistemi "somanı", yəni somitlərdən inkişaf edən orqanları, əsasən, skelet əzələlərini innervasiya edir. Psevdounipolyar hissi neyronların cisimləri həmişə sinir düyünlərində, yəni sinir sisteminin periferik hissəsində yerləşir. Bunlara aiddir:

1) onurğa beyninin arxa köklərinin qalınlaşması olan onurğa beyni sinir düyünləri;

2) bəzi kəllə-beyin sinirlərinin gedişi boyunca uzanan hissi sinir düyünləri.

Namizədlərin 28,68%-i B cavab variantını doğru cavab kimi seçmişlər. Mərkəzi sinir sisteminin boz maddəsinin əsas xüsusiyyəti tərkibində neyronların cisimlərinin olmasıdır. Bunlar multipolyar assosiativ və ya hərəki neyronlardır, lakin refleks qövslərinin hissi neyronları deyil. Belə ki, onurğa beyninin arxa buynuzlarında yerləşən assosiativ neyronlar onurğa beyni sinir düyünlərinin hissi neyronlarından siqnalları qəbul edərək somatik refleks qövslərinin qapanmasında iştirak edirlər.

Test tapşırığını düzgün cavablandırmaq üçün sinir sisteminin komponentlərinin, xüsusilə də sinir düyünlərinin və onurğa beyninin quruluşunu bilmək tələb olunur (bax: Кузнецов С.Л., Мушкамбаров Н.Н. Гистология, цитология и эмбриология. Учеб. для мед. ВУЗов. М.: ООО "МИА", 2016, с.232-233).

İnsan fiziologiyası fənnindən "Qan sisteminin fiziologiyası", "Oyanan toxumaların ümumi fiziologiyası", "Əzələlərin fiziologiyası", "İfrazat sisteminin fiziologiyası" "Mərkəzi sinir sisteminin ümumi fiziologiyası", "Ürək fəaliyyətinin fiziologiyası", "Vegetativ funksiyaların sinir tənzimi", "Tənəffüs sisteminin fiziologiyası", "Həzm sisteminin fiziologiyası", "Orqanizmin inteqrativ fəaliyyəti" və s. sahəsində bilik və bacarıqları yoxlayan test tapşırıqları təqdim edilmişdir. Namizədlər bu fənn üzrə daha çox "Daxili sekresiya vəzlərinin fiziologiyası. Fizioloji funksiyaların hormonal tənzimi" bölməsi üzrə təqdim olunan test tapşırığının həllində çətinlik çəkmişlər. Buna nümunə kimi müalicə işi, pediatriya istiqaməti üzrə test tapşırığının şərhini təqdim edirik.

B variantı, 93 saylı test tapşırığı

Melatoninin funksiyalarına aid ***deyil***:

A) antioksidant təsir göstərmək

B dəri piqmentasiyasını stimulyasiya etmək

C) antistressor təsir göstərmək

D) hipofizdə kortikotropin və somatotropinin sintezini ləngitmək

E) cinsiyyət vəzilərinin aktivliyini zəiflətmək

Orta ağırlıqlı bu test tapşırığı namizədlərin yalnız 19,64%-i tərəfindən düzgün cavablandırılmışdır. Namizədlərin 21,45%-i A, 24,03%-i D, 24,55%-i isə E cavab variantını doğru cavab kimi seçmişdir (doğru cavab: B)

Bu sualın düzgün cavablandırılması üçün "Orqanizmin daxili mühiti. Homeostazın sistem mexanizmləri" bölməsində epifiz vəzinin funksiyaları haqqında əldə olunmuş biliklərin tətbiqi tələb olunur.

***Melatoninin funksiyaları*:**

- Reproduktiv funksiyalara təsir edir (cinsiyyət vəzlərinin aktivliyini zəiflədir);
- Hipofizdə kortikotropinin və somatotropinin sintezini ləngidir;
- Antioksidantdır;
- Antistressor təsir göstərir;
- Melanoforlarda piqmentlərin toplanmasına səbəb olur. Dərinin piqmentasiyasını zəiflədir;
- Mühitin işıqlanmasına müvafiq olaraq, endokrin funksiyaların və metabolizmin bioritmini təmin edir. İşıqlı mühitdə melatoninin sintezi və sekresiyası ləngiyir, qaranlıqda isə artır. Melatoninin sekresiyasının sutkalıq ritmi qonadotrop hormonların və cinsi funksiyanın ritmini, o cümlədən qadınlarda aybaşı dövrünün müddətini müəyyən edir.

Fikrimizcə, dərsliklərdə (bax: К.В.Судаков. Нормальная физиология, М.: 2006; с.252; A.M.Məmmədov, K.V.Sudakov. Normal fiziologiya, Bakı, 2011, s.288) kifayət qədər məlumat verilməsinə baxmayaraq namizədlərin əksər hissəsi epifizin melatonin hormonu və hipofizin melanotrop hormonunun funksiyalarını fərqləndirə bilməmişlər.

Patologiya bloku üzrə ***patoloji fiziologiya*** fənnində "İmmunoloji proseslər", "Mikrosirkulyasiyanın və yerli qan dövranının pozulması", "Qanın formalı elementlərinin patofiziologiyası", "Tənəffüs sisteminin patofiziologiyası", "Sinir sisteminin patofiziologiyası", "Vitamin mübadiləsinin pozulmaları", "İltihab", "Zülal mübadiləsinin pozulmaları", "Endokrin sistemin patofiziologiyası" və s. sahəsində bilik və bacarıqları yoxlamağa imkan verən test tapşırıqlarından istifadə edilmişdir. Aparılmış elmi-metodik təhlil zamanı aşkar olunmuşdur ki, müalicə işi, pediatriya istiqaməti üzrə "Tənəffüs sisteminin patofiziologiyası" bölməsinə aid olan test tapşırığının cavablandırılmasında da namizədlər çətinlik çəkmişlər. Mürəkkəblik dərəcəsinə görə orta ağırlıqlı olan test tapşırığının şərhini təqdim edirik.

B variantı, 78 saylı test tapşırığı

Ağciyər hipertenziyasının qarışıq forması rast gəlinir:

A) xroniki qanitirmədə

B) ağciyər arteriyası qapaqlarının çatışmazlığı zamanı

C qanın ağciyər venasından sol qulaqcığa axmasının çətinləşməsi zamanı

D) travmatik şokun torpid mərhələsində

E) Fallo tetradası zamanı

Test tapşırığı namizədlərin 29,46%-i tərəfindən doğru cavablandırılmışdır (doğru cavab: C). Bu test tapşırığının həlli üçün ağciyər hipertenziyasının qarışıq formasının inkişaf səbəbini bilmək zəruridir.

Ağciyər perfuziyasının pozulması kiçik qan dövranı damarlarında hipo- və hipertenziyalar zamanı müşahidə olunur. Ağciyər hipertenziyasının prekapillyar, postkapillyar və qarışıq formaları ayırd edilir. Prekapillyar ağciyər hipertenziyası prekapillyar və kapillyarlarda təzyiqin artması, postkapillyar ağciyər hipertenziyası venulalar və venalardan sol qulaqcığa qan axınının pozulması nəticəsində meydana çıxır. Qarışıq ağciyər hipertenziyası isə prekapillyar formanın postkapillyar forma (və ya əksinə) ilə ağırlaşması nəticəsində yaranır. Test tapşırığının C cavab variantında göstərilən qanın ağciyər venasından sol qulaqcığa axmasının çətinləşməsi postkapillyar hipertenziya üçün səciyyəvidir və prekapillyar hipertenziya üçün səciyyəvi olan ağciyər arteriollarının reflektor spazmına səbəb ola bilər. Ağciyər hipertenziyasının qarışıq forması daha çox mitral stenoz zamanı rast gəlinir.

Digər cavab variantlarında verilən xroniki qanitirmə, ağciyər arteriyası qapaqlarının çatışmazlığı, travmatik şokun torpid mərhələsi və namizədlərin 37,21%-nin seçdiyi Fallo tetradası zamanı ağciyər hipotenziyası meydana çıxır, yəni qeyd olunan patologiyalar kiçik qan dövranı damarlarında təzyiqin azalması ilə müşayiət olunur.

Test tapşırığı aydın, anlaşıqlı dildə tərtib edilmiş, cavablar elmi cəhətdən düzgün əsaslandırılmışdır. Dərsliklərdə (bax: Əliyev S.C., Əliyev M.X. Patoloji fiziologiya. 2 cilddə. Bakı: Təbib, 2016, I hissə, s.145; Литвицский т.2, с. 230) bu haqda ətraflı məlumat verilməsinə baxmayaraq, namizədlərin bu tapşırığın cavablandırılmasında çətinlik çəkmələrini onların mövzunu yaxşı mənimsəməməsi, biliklərini tətbiqetmə bacarıqlarının zəif olması ilə izah etmək olar.

Patologiya blokunda ***patoloji anatomiya*** fənni üzrə "Parenximatoz, mezenximal və qarışıq distrofiyalar", "Şişlər", "Tənəffüs sistemi xəstəlikləri", "Qaraciyər xəstəlikləri", "Daxili cinsiyyət üzvlərinin və süd vəzilərinin xəstəlikləri. Hamiləlik patologiyaları", "Sepsis", "Həzm traktı xəstəlikləri", "Ateroskleroz.

Hipertenziya" və s. bölmələr üzrə bilik və bacarıqları yoxlamağa imkan verən test tapşırıqlarından istifadə edilmişdir.

Müalicə işi, pediatriya istiqaməti üzrə namizədlərin cavab verməkdə çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik.

B variantı, 69 saylı test tapşırığı

Mikroskopiya zamanı qalxanabənzər vəzinin follikullarının kubabənzər və prizmatik epitellərinin silindrik epitellərə çevrilməsi, proliferasiyaya uğrayaraq follikulların mənfəzlərinə doğru çoxlu miqdarda məməciklər şəklində çıxıntılar əmələ gətirməsi qeyd olunur. Follikulların mənfəzində olan kolloid maddə qeyri-bərabər boyanır. Ehtimal olunan diaqnoz:

A) kolloid zob B) Ridel zobu C tireotoksikoz
D) endemik zob E) Xaşimoto zobu

Namizədlərin 17,83%-i tərəfindən doğru cavablandırılmış bu test tapşırığı "Daxili sekresiya vəzilərinin xəstəlikləri" bölməsinə aiddir (doğru cavab: C). Mürəkkəblik dərəcəsinə görə çətin test tapşırığıdır. Namizədlərin 28,94%-i, 27,39%-i, 5,94%-i və 17,83%-i isə müvafiq olaraq, A, B, D və E cavab variantlarını seçməklə səhvə yol vermişlər.

Test tapşırığında təsvir edilmiş patomorfoloji mənzərə tireotoksikoz üçün səciyyəvidir. Bu zaman histoloji olaraq parenximatoz zoba aid əlamətlər aşkar edilir. Tireotoksikoz zamanı kolloidin fiziki-kimyəvi xassələri dəyişdiyi üçün preparatlarda qeyri-bərabər boyanmış vəziyyətdə görünür. Göstərilən əlamətlər tireoid hormonların sintezinin artması ilə əlaqədar baş verir (bax: Həsənov Ə.B. Patoloji anatomiya. Dərslik. Bakı: Elm, 2003, s.508; Серов В.В., Струков А.И. Патологическая анатомия. М.: Медицина 1995, с.433).

Kolloid zob zamanı tireositlərin hiperfunksiyası hesabına vəzin toxuması düyünlü şəkil alır və çoxlu miqdarda kolloid ifraz olunduğu üçün follikullar həcmcə böyüyür. Ridel zobu zamanı qalxanabənzər vəzin fibrozu ilə əlaqədar diffuz skleroz, vəzin parenximasının atrofiyası, konsistensiyasının bərkiməsi aşkar edilir. Xaşimoto zobu zamanı diffuz limfo-leykositar infiltrasiya, stromada ocaqlar şəklində limfoid follikulların əmələ gəlməsi əsas mikroskopik əlamətlərdir. Bu zaman vəz əvvəlcə həcmcə böyüyür, destruktiv proseslər davam etdikcə vəz atrofiyalaşır və həcmi kiçilir. Statistik məlumatlardan da göründüyü kimi namizədlərin əksəriyyəti Ridel zobu və Xaşimoto tireoiditi zamanı mikroskopik mənzərənin tam fərqli olmasını bilmədiklərindən B və E cavab variantlarını seçmişlər. Tədris prosesində mikroskopik mənzərələrin fərqləndirilməsinə daha çox diqqət yetirilməsi namizədlərin gələcəkdə bu kimi tapşırıqları daha yaxşı cavablandırmalarına şərait yaradar.

Qalxanabənzər vəzin xəstəliklərinin diferensial diaqnostikasında vəzi toxumasının histoloji müayinəsinin mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, vəzidə baş verən patomorfoloji dəyişikliklərin diqqətlə öyrənilməsi zəruridir.

Mikrobiologiya fənni üzrə təqdim olunmuş test tapşırıqları ümumi və xüsusi mikrobiologiya, xüsusi virusologiya, tibbi mikologiya, tibbi parazitologiya, eləcə də klinik mikrobiologiya sahəsində namizədlərin bilik və bacarıqlarını yoxlamağa imkan vermişdir.

Təhlilə əsasən belə qənaətə gəlmək olar ki, namizədlər öz nəzəri biliklərini lazımi səviyyədə sistemləşdirə bilmir və nəticədə test tapşırıqlarının cavablandırılmasında çətinlik çəkirlər. Müalicə işi, pediatriya istiqaməti üzrə biliklərin ümumiləşdirilməsini tələb edən test tapşırığının cavablandırılmasında namizədlər daha çox çətinlik çəkmişlər. Həmin test tapşırığının şərhini təqdim edirik.

B variantı, 32 saylı test tapşırığı

Hansı bakteriyanın ekzotoksini hüceyrələrdə tsiklik adenozinmonofosfatın toplanmasına səbəb olur?

A) *Clostridium botulinum* B) *Corynebacterium diphtheriae*
C) *Clostridium perfringens* D) *Shigella dysenteriae*
E) *Bordetella pertussis*

Orta ağırlıq dərəcəsinə malik bu test tapşırığı "İnfeksion proses" bölməsinə aiddir. Bir çox bakteriyalar patogenlik amili kimi ekzotoksin ifraz edir və bu ekzotoksinlər əksər hallarda mikroorqanizmlərin törətdiyi xəstəliklərin patogenezini müəyyən edir. Bakteriyaların ekzotoksinlərinin təsir xüsusiyyətlərinin öyrənilməsi onların törətdiyi xəstəliklərin müalicəsi və profilaktikasında, ağırlaşmaların qarşısının alınmasında mühüm əhəmiyyət kəsb edir. Bu test tapşırığına namizədlərin 19,38%-i doğru cavab vermiş, 29,72%-i isə D cavab variantını seçməklə səhvə yol vermişlər (doğru cavab: E).

Pertussis-toksin (*Bordetella pertussis*) A və B fraqmentlərindən ibarətdir. A fraqmenti adenozintrifosfat-transferaza aktivliyinə malik olub, normada adenilatsiklazanı inhibisiya edən G-zülalını ribozilləşdirir, adenilatsiklazanın aktivləşməsi nəticəsində hüceyrədə tsiklik AMF-in toplanması və hüceyrənin funksiyasının pozulması baş verir.

Namizədlərin əksəriyyətinin doğru cavab kimi seçdiyi şiqa-toksinin (*Shigella dysenteriae*) A-subvahidi hüceyrəyə daxil olaraq ribosomun 60S subvahidi ilə qarşılıqlı əlaqəyə girir və zülal sintezinin geridönməyən blokadasına səbəb olmaqla hüceyrənin məhvinə gətirib çıxarır. B-subvahidlər isə toksinin hüceyrə reseptorları ilə birləşməsini təmin edir (bax: Qarayev Z.Ö., Qurbanov A.İ. Tibbi mikrobiologiya və immunologiya. Bakı: Təbib, 2010, s. 447; Покровский В.И., Поздеев О.К. Медицинская микробиология. М.: ГЭОТАР-Медиа, 2001, с. 398). Digər mikroorqanizmlərin ekzotoksinlərinin təsir mexanizmlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- *Clostridium botulinum* toksini (botulotoksin) motor neyronlarda asetilxolin sintezində iştirak edən amilləri parçalayaraq, motoneyronlardan əzələlərə impulsların ötürülməsini pozur və süst ifliclərin inkişafına səbəb olur;
- *Corynebacterium diphtheriae* toksini EF-2 elonqasiya amilinin ADF-ribozilləşməsini kataliz etməklə zülal sintezinin pozulmasına və bununla da hüceyrənin məhvinə səbəb olur;
- *Clostridium perfringens* bir neçə toksin (α, θ, κ, μ və s.) ifraz edir. Bu toksinlərdən α-toksin fosfolipaza C (lesitinaza), digərləri isə müvafiq olaraq hemolizin, kollagenaza, hialuronidaza və s. fəallığına malikdir.

Farmakologiya fənni üzrə təqdim olunmuş test tapşırıqları ötən illərdə olduğu kimi farmakokinetika, farmakogenetika və xronofarmakologiya, qan sisteminə və həzm sistemi orqanlarının motor funksiyasına təsir göstərən dərman maddələri sahəsində, eləcə də dərman maddələrinin təsir mexanizminə dair namizədlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi daşımışdır. Müalicə işi, pediatriya istiqaməti üzrə namizədlərin cavablandırmaqda çətinlik çəkdikləri test tapşırığının şərhini təqdim edirik.

B variantı, 36 saylı test tapşırığı

Bitki mənşəli sitostatik:

A) toremifen B) embixin C) fortin D podofillin E) sitarabin

Test tapşırığı "Onkoloji xəstəliklərin müalicəsində istifadə edilən dərman maddələri" bölməsinə aiddir və çətinlik dərəcəsinə görə sadədir. Buna baxmayaraq, yalnız 16,80% namizəd bu test tapşırığına doğru cavab vermişdir (doğru cavab: D).

Test tapşırığının səhv cavablarında verilmiş bütün dərman maddələri onkoloji xəstəliklərin müalicəsində istifadə edilir, lakin onlar sintetik mənşəlidir və dərman bitkilərinin məhsulu deyil.

Namizədlərin 27,39%-i alkilləşdirici birləşmələrə aid olan xloretilamin törəməsi sintetik embixin preparatının verildiyi B cavab variantını seçmişdir. Namizədlərin 24,29%-nin seçdiyi sitarabin antimetabolitlər qrupuna aiddir, pirimidinin antaqonistidir və bitkilərdən alınmır. C cavab variantında verilmiş fortin preparatı embixinə analoji olaraq alkilləşdirici birləşmələrə aiddir, Kaposi sarkomasının kimyəvi terapiyasında tətbiq edilir, lakin bitki mənşəli deyil. Həmçinin, onkoloji xəstəliklərin müalicəsinə daxil edilən antiestrogen toremifen də bitki mənşəli sitostatik deyil.

Test tapşırığının çətinlik dərəcəsini və lakonikliyini nəzərə alaraq, namizədlərin diqqətinə çatdırmaq istərdik ki, "Farmakologiya" dərsliyindən (Qəniyev M.M. Farmakologiya. Dərslik, 2 cilddə, Bakı: Təbib, 2014, cild II, s. 807) istifadə etməklə dərman maddələrinin, xüsusən də onkoloji xəstəliklərin kimyəvi terapiyasında tətbiq olunan maddələrinin təsnifatına dair biliklərə yiyələnmək zəruridir.

Biokimya fənni üzrə statik, dinamik və funksional biokimya sahəsində namizədlərin bilik və bacarıqlarını yoxlayan test tapşırıqları təqdim edilmişdir. Cari ildə biokimya fənni üzrə "Zülalların kimyası və funksiyası", "Karbohidratların kimyası və funksiyası", "Fermentlər", "Vitaminlər", "Hormonlar", "Maddələr mübadiləsinin əsas qanunauyğunluqları. Enerji mübadiləsi", "Karbohidrat mübadiləsi", "Zülal mübadiləsi" və s. mövzuları əhatə edən 13 test tapşırığı təqdim olunmuşdur. Namizədlər "Karbohidrat mübadiləsi" bölməsinə aid olan test tapşırığını (müalicə işi, pediatriya istiqaməti) doğru cavablandırmaqda çətinlik çəkmişlər. Test tapşırığı namizədlərin yalnız 29,20%-i tərəfindən doğru cavablandırılmışdır (doğru cavab: E).

Həmin test tapşırığının şərhini təqdim edirik.

B variantı, 59 saylı test tapşırığı

Eritrositlərdə piroüzüm turşusunun çevrildiyi maddə:

A) fosfoenolpiroüzüm turşusu B) CO_2 və H_2O C) asetil-KoA
D) limon turşusu E) süd turşusu

Piroüzüm turşusu qlikolizin aralıq məhsuludur. Eritrositlər istisna olmaqla, bütün toxumalarda bu maddə asetil-KoA-ya çevrilir (bax: A.N.Qarayev. Bioloji kimya /rezidenturaya hazırlaşanlar üçün vəsait, DİM, Bakı: 2018, s.458,459). Namizədlərin 23,00%-i doğru cavab kimi asetil-KoA-nı seçmişdir (C cavab variantı). Görünür ki, bu namizədlər "eritrositlərdə" sözünə diqqət etməmişlər. Eritrositlərdə mitoxondrilər olmadığı üçün həmişə anaerob qlikoliz gedir, yəni piroüzüm turşusu süd turşusuna reduksiya olunur. Namizədlərin 21,96%-i isə doğru cavab kimi fosfoenolpiroüzüm turşusunu seçmişdir (A cavab variantı). Lakin, qlikolizin məhsulu olan fosfoenolpiroüzüm turşusu geri dönmədən piroüzüm turşusuna çevrilir. Piroüzüm turşusu isə qlükoneogenez prosesi zamanı əvvəlcə oksalatsirkə, sonra fosfoenolpiroüzüm turşusunun əmələ gəlməsinə səbəb olur.

Cari ildə də baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında patoloji fiziologiya və normal fiziologiya fənləri üzrə ayrılıqda 5 test tapşırığı (cəmi 10 test tapşırığı) açıq tipli olmuşdur. Açıq tipli test tapşırıqlarından hər fənn üzrə ayrılıqda 2-si uyğunluğun müəyyən edilməsi, 3-cü seçim tipli test tapşırıqlarına aid olmuşdur. İmtahanlarda açıq formalı test tapşırıqlarından istifadə olunması əzbərçiliyin və verilmiş cavablardan birinin təsadüfi şəkildə seçilməsinin qarşısını almaq məqsədi daşıyır. Açıq tipli test tapşırıqları mürəkkəblik dərəcəsinə görə orta və çətin olmuşdur. Qeyd etmək lazımdır ki, belə test tapşırıqları namizədlərdən nəzəri biliklərini tətbiq etməklə nəticə çıxarmağı tələb edir.

Təhlillər göstərmişdir ki, namizədlər açıq tipli test tapşırıqlarının həllində hər il olduğu kimi cari ildə də çətinlik çəkmişlər. Buna misal olaraq (müalicə işi, pediatriya istiqaməti), ***patologiya*** bloku üzrə "Zülal mübadiləsinin patoloji fiziologiyası" bölməsinə aid olan, B variantı, 83-cü test tapşırığını göstərmək olar.

Patologiya bloku üzrə ***patoloji fiziologiya*** fənnindən təqdim olunmuş və namizədlərin cavab verməkdə çətinlik çəkdikləri seçim tələb edən test tapşırığının şərhini təqdim edirik.

B variantı, 83 saylı test tapşırığı

Müsbət azot balansı yaranır:

1. şüa xəstəliyində
2. tirotoksikozda
3. polisitemiyada
4. hamiləlikdə
5. STH hipersekresiyasında
6. fol turşusunun çatışmazlığında

Mürəkkəblik dərəcəsinə görə çətin olan açıq formalı bu test tapşırığı namizədlərin yalnız 13,44%-i tərəfindən doğru cavablandırılmışdır (doğru cavab: 3, 4, 5).

Azot balansı dedikdə gün ərzində qidanın tərkibində orqanizmə daxil olan azotla sidiklə, nəcislə və tərlə xaric olunan azotun miqdarının fərqi nəzərdə tutulur. *Müsbət* və *mənfi* azot balansı ayırd edilir. Orqanizmə daxil olan azotun miqdarı xaric edilən azotdan çox olarsa, *müsbət azot balansı* inkişaf edir. Müsbət azot balansı qida vasitəsilə qəbul edilən azot birləşmələrinin bir hissəsi orqan və toxumaların irimolekullu zülali birləşmələrinin sintezinə sərf edildikdə müşahidə olunur. Bu anabolik proseslərin katabolizmə nisbətən üstünlük təşkil etdiyini göstərir. Müsbət azot balansı polisitemiya, hamiləlik və STH-ın hipersekresiyası zamanı müşahidə olunur. Şüa xəstəliyi, tirotoksikoz və fol turşusunun çatışmazlığı isə zülalların sürətlə parçalanması ilə müşayiət olunur, yəni katabolizm anabolik proseslər üzərində üstünlük təşkil edir. (bax: Əliyev S.C., Əliyev M.X. Patoloji fiziologiya. 1-ci cild. Bakı: Təbib, 2015, s. 457; Новицкий В.В., Гольдберг Е.Д., Уразова О.И. Патофизиология. М.: ГЭОТАР-Медиа, 2010, том 1, с.661). Bu patologiyalar zamanı *mənfi azot balansı* müşahidə olunur

Normal fiziologiya fənni üzrə namizədlərin cavab verməkdə çətinlik çəkdikləri "Maddələr və enerji mübadiləsi. Qidalanma" bölməsinə aid olan və seçim tələb edən test tapşırığı olmuşdur.

B variantı, 97 saylı test tapşırığı

Hipotalamusun ön nüvələrinin qıcıqlanması səbəb olar:

1. insulin sekresiyasının artmasına
2. səthi dəri damarlarının daralmasına
3. metabolizmin ləngiməsinə
4. bədən temperaturunun yüksəlməsinə
5. bədən temperaturunun enməsinə

Açıq tipli bu test tapşırığı, əsasən, "Mərkəzi sinir sisteminin xüsusi fiziologiyası" bölməsini, qismən də "Maddələr və enerji mübadiləsi" və "Daxili sekresiya vəzlərinin fiziologiyası" bölmələrini əhatə edir. Ağırlıq dərəcəsinə görə çətin test tapşırığıdır, adı çəkilən bölmələr üzrə biliklərin ümumiləşdirilməsini tələb edir. Bu sualı namizədlərin 21,45%-i düzgün cavablandırmışdır (doğru cavab: 1, 3, 5).

"Mərkəzi sinir sisteminin xüsusi fiziologiyası" bölməsində göstərilmişdir ki, hipotalamusun ön nüvələrinin qıcıqlandırılması parasimpatik sinir sisteminin fəallaşmasına və trofotrop effektə səbəb olur. "Maddələr və enerji mübadiləsi" bölməsində isə göstərilir ki, hipotalamusun ön hissəsində istilik vermə mərkəzi yerləşir və bu mərkəzin oyanması dəri damarlarını genişləndirərək istilikverməni gücləndirir. "Daxili sekresiya vəzlərinin fiziologiyası" bölmələrində isə bildirilir ki, parasimpatik təsirlər insulin sekresiyasını artırır (bax: A.M.Məmmədov, K.V.Sudakov. Normal fiziologiya. dərslik, Bakı: 2011, 2-ci cild, s.186; К.В.Судаков. Нормальная физиология, учебник, М.: ГЭАТОР-Медиа, 2015, с.143, 225; Физиология человека /под ред. В.М. Покровского и Г.Ф. Коротько. 2-е изд. М.: Медицина, 2003, с.143, 225). Bu testin düzgün cavablandırılması üçün yuxarıda göstərilən mövzular üzrə əldə olunan biliklərin ümumiləşdirilməsi tələb olunur.

Təhlillər nəticəsində aydın olmuşdur ki, tənəffüs sisteminə aid biliklərin tətbiqini tələb edən test tapşırıqlarını doğru cavablandırmaqda namizədlərin böyük əksəriyyəti çətinlik çəkmişlər. Dərsliklərdə tənəffüs sistemi orqanlarının quruluşu, funksiyası, fiziologiyası və patologiyaları haqqında ətraflı məlumatlar verilməsinə baxmayaraq, namizədlərin bu sahədən olan test tapşırıqlarının cavablandırılmasında çətinlik çəkmələrinin səbəbləri araşdırılmalıdır. Bu hal müvafiq kafedraların professor-müəllim heyəti tərəfindən tədris zamanı nəzərə alınmalı, problemin həlli istiqamətində lazımi işlər görülməlidir.

Proqramı tam mənimsəmiş, güclü məntiqi təfəkkürə malik namizədlərin hazırlıq səviyyələrinin yoxlanılmasına, müstəqil araşdırma bacarıqlarının aşkara çıxarılmasına və qiymətləndirilməsinə imkan verən, seçim xarakterli açıq tipli tapşırıqların həlli üsullarına DİM-in nəşr etdiyi vəsaitlərdə kifayət qədər yer ayrılmasına baxmayaraq, çox təəssüf ki, namizədlər cari ildə də belə test tapşırıqlarının həllində çətinlik çəkmişlər. Əslində, açıq tipli test tapşırıqlarına cavab vermək üçün tələb olunan bacarıqlar çoxseçimli test tapşırıqlarına cavab vermək üçün tələb olunan bacarıqlardan mahiyyətcə fərqlənmir. Kifayət qədər biliyə və məntiqi təfəkkürə malik olan namizədlər bu tapşırıqlara asanlıqla cavab verə bilərlər. Namizədlərin bilik, bacarıq və vərdişlərində olan çatışmazlıqların bir qismi onların praktikyönlü biliyinin dərin olmaması ilə bağlıdır ki, bu da, əsasən, tədris prosesində həmin istiqamətə az diqqət yetirilməsinin göstəricisidir.

Aparılan təhlillərdən belə nəticəyə gəlmək olar ki, rezidenturaya qəbul imtahanlarında uğur qazanmaq üçün namizədlərdən dərslikdəki materialları öyrənməklə yanaşı, həm də ümumiləşdirmə aparmaq, mənimsədikləri bilikləri sistemləşdirmək və tətbiq etmək bacarığını da inkişaf etdirmək tələb olunur.

Baza ali tibb təhsili verən ali təhsil müəssisələrində isə tələbələrin məntiqi düşünmə, nəzəri bilikləri tətbiqetmə bacarıqlarının inkişaf etdirilməsinə diqqət artırılmalı, təhsilin səviyyəsi müasir tələblərə uyğunlaşdırılmalı və daha çox tətbiqyönlü olmalı, eləcə də bu tələblərə cavab verən dərsliklər və dərs vəsaitləri hazırlanmalıdır.

DİM rezidenturaya qəbul imtahanına hazırlaşanlara elmi-metodik kömək göstərilməsini həmişə diqqət mərkəzində saxlayır. Ötən illərdə bu istiqamətdə baza fənlərindən "İnsan anatomiyası" və "Bioloji kimya", eləcə də rus dilində "Биологическая химия", "Патологическая физиология","Нормальная физиология", Гистология (цитология, эмбриология, общая и частная гистология)", ixtisas fənlərindən isə ilk dəfə olaraq stomatologiya istiqaməti üzrə "Terapevtik stomatologiya (Parodont və oral mukoza xəstəlikləri)" adlı elmi-metodik vəsaitlər işlənib-hazırlanmışdır. Cari ildə isə "Патологическая анатомия" və "Фармакология" adlı elmi-metodik vəsaitlər işlənib-hazırlanmışdır. Hazırlanmış vəsaitlər rezidenturaya qəbul proqramları əsasında tərtib olunmuşdur. Sevindirici haldır ki, yuxarıda adı çəkilən vəsaitlər Azərbaycan Tibb Universitetinin Elmi Şurasında müzakirə edilərək dərs vəsaiti kimi nəşrə tövsiyə olunmuşdur. Bu silsilədən olan işlər davam etdirilir. Ümidvarıq ki, təqdim olunan vəsaitlər namizədlər üçün faydalı olacaqdır.

4. ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ TƏLƏBƏ QƏBULU

4.1 Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu

Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ərizələrin qəbulu "Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu qaydaları"na uyğun olaraq martın 15-dən aprelin 15-dək internet vasitəsilə aparılıb. Abituriyentlər ekabinet.dim.gov.az internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə Dövlət İmtahan Mərkəzinin müvafiq internet səhifəsinə (eservices.dim.gov.az/erizebak/erize) daxil olub, "Abituriyentin elektron ərizəsi" formasını doldurublar və təsdiq ediblər (etdiriblər). Müsabiqədə iştirak ödənişli olmuşdur. Orta ixtisas təhsili müəssisələrinə qəbulla bağlı ilk dəfə müraciət etmiş Azərbaycan Respublikası vətəndaşlarının (ümumi təhsil müəssisələrini bitirən) cari ildə keçirilən imtahanda iştirakı dövlət büdcəsinin vəsaiti hesabına (pulsuz) idi.

Ərizənin təsdiqi DİM-in məlumat bazalarında abituriyent barədə olan məlumatların yetərli olub-olmamasından asılı olaraq iki üsulla həyata keçirilib:

1. Aşağıda göstərilən kateqoriyalardan olan abituriyentlər elektron ərizələrini Sənəd Qəbulu Komissiyalarına (SQK) müraciət etmədən özləri təsdiq ediblər:

1.1. Azərbaycan Respublikasının tam orta təhsil müəssisələrini cari ildə bitirən abituriyentlər;

1.2. Azərbaycan Respublikasının tam orta təhsil müəssisələrini 2012-ci və ondan sonrakı illərdə bitirən abituriyentlər;

1.3**.** Azərbaycan Respublikasının ilk peşə-ixtisas təhsili müəssisələrini 2013-cü və ondan sonrakı illərdə bitirən abituriyentlər;

1.4. 2012-ci və ondan sonrakı illərdə Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə verib onu təsdiq etdirmiş abituriyentlər.

2. 1.1, 1.2, 1.3 və 1.4-cü bəndlərdə göstərilən abituriyentlərdən başqa, digər abituriyentlər elektron ərizələrini tələb olunan sənədləri təqdim etməklə müvafiq SQK-da təsdiq etdirib. Ərizə qəbulu elanının tam mətni DİM-in internet saytında ictimaiyyətə təqdim olunub, bununla bağlı bütün digər lazımi məlumatlar da müntəzəm və operativ şəkildə saytda yerləşdirilib.

Azərbaycanda təhsil almış Azərbaycan Respublikasının vətəndaşları (1.1, 1.2, 1.3 və 1.4-cü bəndlərdə göstərilən abituriyentlər istisna olmaqla) tələb olunan sənədləri təqdim etməklə elektron ərizələrini aşağıdakı SQK-larda təsdiq etdiriblər:

Bakı şəhərində:

Bakı Dövlət Universiteti; Azərbaycan Texniki Universiteti; Azərbaycan Universiteti;

Digər şəhər və rayonlarda:

Naxçıvan ş.	*DİM-in Naxçıvan MR Regional Bölməsi ;*
Sumqayıt ş.	*Sumqayıt Dövlət Universiteti;*
Gəncə ş.	*DİM-in Gəncə Regional Bölməsi;*
Lənkəran ş.	*DİM-in Lənkəran Regional Bölməsi;*
Şəki r-nu.	*DİM-in Şəki Regional Bölməsi;*
Bərdə r-nu.	*DİM-in Bərdə Regional Bölməsi;*
Xaçmaz r-nu.	*DİM-in Xaçmaz Regional Bölməsi;*
Şirvan r-nu.	*DİM-in Şirvan Regional Bölməsi;*
Şəmkir r-nu.	*DİM-in Şəmkir Regional Bölməsi;*
Göyçay r-nu.	*DİM-in Göyçay Regional Bölməsi.*

Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər (1.1, 1.2, 1.3 və 1.4-cü bəndlərdə göstərilən abituriyentlər istisna olmaqla), həmçinin xaricdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları ərizələrini aşağıdakı SQK-larda təsdiq etdirmişlər:

Bakı şəhərində:	*DİM;*
Naxçıvan şəhərində:	*DİM-in Naxçıvan MR Regional Bölməsi;*
Gəncə şəhərində:	*DİM-in Gəncə Regional Bölməsi;*
Lənkəran rayonunda:	*DİM-in Lənkəran Regional Bölməsi;*
Xaçmaz rayonunda:	*DİM-in Xaçmaz Regional Bölməsi;*
Şəki rayonunda:	*DİM-in Şəki Regional Bölməsi;*
Şirvan şəhərində:	*DİM-in Şirvan Regional Bölməsi;*
Göyçay rayonunda:	*DİM-in Göyçay Regional Bölməsi;*
Şəmkir rayonunda:	*DİM-in Şəmkir Regional Bölməsi;*
Bərdə rayonunda:	*DİM-in Bərdə Regional Bölməsi.*

Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulu müsabiqəsi ali təhsil müəssisələrinə V ixtisas qrupu üzrə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında toplanılan ballar əsasında aparılıb. Tam orta təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində cari ildə bitirən abituriyentlər müsabiqədə qəbul imtahanı verməndən buraxılış imtahanında (11-ci siniflər üzrə) tədris dilindən, riyaziyyat və xarici dil fənlərindən əldə etdikləri nəticələr əsasında iştirak ediblər. Lakin aşağıdakı xüsusi hallarda bu abituriyentlər əlavə olaraq 2019-cu il aprelin 28-də bəzi fənn və yaxud fənlərdən imtahan veriblər:

- Tədris dili Azərbaycan və rus dillərindən fərqli olan ümumi təhsil müəssisələrinin məzunları orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə təqdim etdikləri halda ərizədə qeyd etdikləri bölməyə uyğun olaraq Azərbaycan dili və ya rus dili fənnindən əlavə olaraq imtahan veriblər.
- Tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər orta ixtisas təhsili müəssisələrinin tədris rus dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq rus dili fənnindən, tədris rus dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər isə orta ixtisas təhsili müəssisələrinin tədris Azərbaycan dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq Azərbaycan dili fənnindən imtahan veriblər.
- Qəbul imtahanında buraxılış imtahanı çərçivəsində verdikləri xarici dil fənnindən fərqli xarici dil fənni üzrə imtahan vermək istəyən məzunlar müsabiqədə iştirak etmək üçün həmin xarici dildən imtahan veriblər.
- Xarici dil fənni tədris olunmayan təhsil müəssisələrinin məzunları istədikləri halda qəbul imtahanında xarici dil fənni üzrə imtahan verə biliblər. Qeyd olunan kateqoriyadan olan məzunlar xarici dil fənnindən imtahan vermək istəmədikləri halda "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində "Xarici dildən imtahan vermək istəmirəm" bəndini seçiblər. Bu zaman onların imtahandan toplaya biləcəkləri maksimal ümumi balları iki fənn (Azərbaycan və ya rus dili və riyaziyyat) üzrə toplanan balların cəmlənməsi əsasında müəyyənləşməklə 200 bal təşkil edib.

Tam orta təhsil səviyyəsini əvvəlki illərdə bitirən və təhsil haqqında sənəd alan, yaxud tam orta təhsil səviyyəsini Azərbaycan Respublikasının hüdudlarından kənarda bitirən abituriyentlər müsabiqədə iştirak etmək üçün aprelin 28-də Azərbaycan və ya rus dili, riyaziyyat və xarici dil fənlərindən qəbul imtahanı veriblər. İmtahanda abituriyentlərə Azərbaycan (rus) dili fənnindən 30, riyaziyyat fənnindən 25 və xarici dil fənnindən 30 olmaqla, ümumilikdə 85 tapşırıq təqdim olunmuş, test tapşırıqlarının cavablandırılmasına ümumilikdə 3 saat vaxt ayrılmışdı.

Qəbul imtahanını Azərbaycan dilindən fərqli dildə verən abituriyentlər "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının qanununa əsasən Azərbaycan dili fənnindən test imtahanı veriblər. İmtahanın nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilib. Bu imtahanda abituriyentlərə 30 test tapşırığı təqdim edilib. Hər düzgün cavab bir balla qiymətləndirilib. Səhv cavablar yekun bala təsir göstərməyib. Abituriyentin "məqbul" alması üçün onun topladığı bal 15-dən az olmamalıdır. "Azərbaycan dili" (dövlət dili kimi) fənnindən test imtahanı iki dəfə – 2019-cu il mayın 5-də Bakı şəhərində və digər bölgə mərkəzlərində, mayın 26-da isə yalnız Bakı və Naxçıvan şəhərlərində keçirilib. Azərbaycan Respublikasının tədris Azərbaycan dilindən fərqli dillərdə aparılan tam orta təhsil müəssisələrini cari ildə bitirən abituriyentlərin buraxılış imtahanı çərçivəsində mayın 5-də verdikləri "Azərbaycan dili" (dövlət dili kimi) fənni imtahanı üzrə nisbi balı ən azı 50 olduqda, onların həmin nəticələri əsas götürülüb və "məqbul" almış hesab olunublar. Həmin imtahanda nisbi balı 50-dən az olan abituriyentlər isə "qeyri-məqbul" almış hesab olunublar və "Azərbaycan dili" (dövlət dili kimi) fənnindən yenidən imtahan veriblər.

2019-cu il mayın 5-də keçirilən (birinci) imtahanda iştirak etməyən və yaxud "qeyri-məqbul" alan abituriyentlər, həmçinin buraxılış imtahanı çərçivəsində bu fənn üzrə verdikləri imtahanda nisbi balı 50-dən az olan cari il məzunları, mayın 26-da keçirilən (ikinci) imtahanda iştirak etmək üçün 2019-cu il mayın 8-dən 14-dək eservices.dim.gov.az/erizebak/azdili internet səhifəsində qeydiyyatdan keçiblər. "Azərbaycan dili" (dövlət dili kimi) fənni imtahanından "məqbul" ala bilməyən abituriyentlər müsabiqəyə buraxılmayıblar. "Azərbaycan dili" (dövlət dili kimi) fənni üzrə imtahanın nəticələri iki il qüvvədə olduğundan, 2018-ci ildə bu imtahandan "məqbul" alan abituriyentlər cari ildə bu imtahanda iştirak etməyiblər.

İxtisas seçimi ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələri elan olunduqdan sonra aparılıb. İxtisas seçiminə qəbul imtahanında topladıqları ümumi balı 50-dən, Azərbaycan dili (rus dili) və riyaziyyat fənlərinin hər biri üzrə balı 10-dan az olmayan (xarici dil fənni üzrə bal məhdudiyyəti tətbiq edilmir) abituriyentlər buraxılıb. Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ixtisas seçimi ali təhsil müəssisələrinin boş qalan yerlərinə ixtisas seçimi ilə eyni vaxtda – avqustun 15-dən 19-dək internet vasitəsi ilə aparılıb. Abituriyentlərə eyni zamanda həm ali təhsil müəssisələrinin boş qalan yerlərinin, həm də orta ixtisas təhsili müəssisələrinin ixtisaslarının müsabiqəsində iştirak etmək imkanı verilib. Abituriyentlər elektron ərizələrində hər iki təhsil pilləsindən 20-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstərib.

Xüsusi qabiliyyət tələb edən ixtisasların müsabiqəsində qabiliyyət imtahanlarından "məqbul" alan və test imtahanında topladıqları ümumi balı 40-dan (fənlər üzrə bal məhdudiyyəti tətbiq edilməyib) az olmayan abituriyentlər iştirak ediblər. Onlara xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslarla yanaşı digər ixtisasların da kodlarını seçmək imkanı verilmişdi.

Bu il avqustun 31-dən sentyabrın 4-dək tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə əlavə müsabiqə elan olunmuşdu. Müsabiqə cari ilin məzunları üçün buraxılış imtahanının, digər abituriyentlər üçün aprelin 28-də keçirilmiş qəbul imtahanının nəticələrinə əsasən aparılmışdır. Müsabiqədə iştirak edən abituriyentlər elektron ərizələrində yalnız orta ixtisas təhsili müəssisələrinin 20-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstərmişlər.

Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ümumilikdə 10382 tələbə qəbulu nəzərdə tutulmuşdu. Bu yerlərin 1865-i özəl orta ixtisas təhsili müəssisələrinə (710 yer Bakı Biznes və Kooperasiya Kollecinə, 430 yer Odlar Yurdu Universitetinin "Odlar Yurdu" Kollecinə, 305 yer Bakı Avrasiya Kollecinə, 420 yer isə Qərbi Kaspi Universitetinin orta ixtisas təhsili pilləsinə ayrılmışdı. Plan yerlərinin sayı ötən ildəkindən 7.45% (720 yer) artmışdı. Yerlərin 29.41%-i ödənişsiz, 70.59%-i isə ödənişli təhsil forması üçün planlaşdırılmışdı. Ümumi plan yerlərinin 77.31%-i Azərbaycan, 4.71%-i rus, 17.98%-i isə Azərbaycan və rus bölmələri abituriyentlərinin birgə müsabiqəsi üçün nəzərdə tutulmuşdu.

Bu il 51 dövlət orta ixtisas təhsili müəssisəsinə tələbə qəbulu aparılıb. Ən çox plan yerləri 2 nömrəli Bakı Baza Tibb Kollecinə (595 yer), ən az isə Naxçıvan Musiqi Kollecinə (10 yer) ayrılmışdı. Orta ixtisas təhsili müəssisələrinin qəbul planları haqqında məlumat aşağıdakı cədvəldə verilir:

Cədvəl 4.1.1

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI (TAM ORTA TƏHSİL BAZASINDA)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
1	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	70	20	0	90	210	30	0	240	330
2	Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci	50	0	0	50	65	0	0	65	115
3	Bakı Qida Sənayesi Kolleci	35	32	0	67	70	33	0	103	170
4	Bakı Dövlət Sosial-İqtisad Kolleci	49	7	0	56	156	18	0	174	230
5	Bakı İdarəetmə və Texnologiya Kolleci	75	27	0	102	154	37	0	191	293
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	110	30	0	140	210	45	0	255	395
7	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	56	24	0	80	126	26	0	152	232
8	1 nömrəli Bakı Tibb Kolleci	0	0	180	180	0	0	260	260	440
9	2 nömrəli Bakı Baza Tibb Kolleci	0	0	220	220	0	0	375	375	595
10	Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	0	0	5	5	0	0	33	33	38
11	Bakı Humanitar Kolleci	75	20	0	95	113	20	0	133	228
12	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	0	0	24	24	0	0	40	40	64
13	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	0	0	37	37	0	0	22	22	59
14	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	10	0	0	10	90	0	0	90	100
15	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	0	0	0	0	80	0	0	80	80
16	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	52	0	0	52	133	0	0	133	185
17	Naxçıvan Tibb Kolleci	102	0	0	102	138	0	0	138	240
18	Naxçıvan Dövlət Texniki Kolleci	7	0	0	7	7	0	0	7	14
19	Naxçıvan Musiqi Kolleci	0	0	0	0	10	0	0	10	10
20	Gəncə Tibb Kolleci	120	0	0	120	184	0	0	184	304
21	Gəncə Dövlət Regional Kolleci	121	0	0	121	284	0	0	284	405
22	Gəncə Musiqi Kolleci	0	0	10	10	0	0	28	28	38
23	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	30	0	0	30	70	0	0	70	100
24	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	57	0	0	57	77	0	0	77	134
25	Ə.Əliyev adına Sumqayıt Tibb Kolleci	0	0	85	85	0	0	135	135	220
26	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	27	0	0	27	108	0	0	108	135
27	Sumqayıt Musiqi Kolleci	0	0	16	16	0	0	2	2	18
28	Quba Dövlət Sosial-İqtisadi Kolleci	8	0	0	8	22	0	0	22	30
29	Quba Tibb Kolleci	0	0	30	30	0	0	35	35	65
30	Şamaxı Dövlət Regional Kolleci	150	0	0	150	219	0	0	219	369
31	Mingəçevir Tibb Kolleci	85	0	0	85	120	0	0	120	205
32	Mingəçevir Turizm Kolleci	128	0	0	128	332	0	0	332	460
33	Şəki Tibb Kolleci	35	0	0	35	65	0	0	65	100

Cədvəl 4.1.1 (ardı)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
34	Şəki Dövlət Texniki Kolleci	15	0	0	15	28	0	0	28	43
35	Şəki Dövlət Regional Kolleci	0	0	60	60	0	0	58	58	118
36	Şuşa Humanitar Kolleci	46	0	0	46	84	0	0	84	130
37	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	35	0	0	35	90	0	0	90	125
38	Ağdam Musiqi Kolleci	0	0	18	18	0	0	17	17	35
39	Ağdaş Dövlət Humanitar Kolleci	33	0	0	33	67	0	0	67	100
40	Ağcabədi Pedaqoji Kolleci	98	0	0	98	127	0	0	127	225
41	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	86	0	0	86	108	0	0	108	194
42	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	32	0	0	32	52	0	0	52	84
43	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	30	0	0	30	80	0	0	80	110
44	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	58	0	0	58	102	0	0	102	160
45	Lənkəran Tibb Kolleci	75	0	0	75	105	0	0	105	180
46	Lənkəran Dövlət Humanitar Kolleci	0	0	82	82	0	0	95	95	177
47	Astara Pedaqoji Kolleci	40	0	0	40	80	0	0	80	120
48	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	58	0	0	58	112	0	0	112	170
49	Saatlı Tibb Kolleci	20	0	0	20	20	0	0	20	40
50	Cəlilabad Tibb Kolleci	20	0	0	20	20	0	0	20	40
51	Masallı Dövlət Regional Kolleci	28	0	0	28	37	0	0	37	65
52	Bakı Biznes və Kooperasiya Kolleci	0	0	0	0	590	120	0	710	710
53	Odlar Yurdu Kolleci	0	0	0	0	430	0	0	430	430
54	Bakı Avrasiya Kolleci	0	0	0	0	305	0	0	305	305
55	Qərbi Kaspi Universitetinin orta ixtisas təhsili pilləsi	0	0	0	0	420	0	0	420	420
	Cəmi	**2126**	**160**	**767**	**3053**	**5900**	**329**	**1100**	**7329**	**10382**

Orta ixtisas təhsili müəssisələrinə qəbul üçün ümumilikdə 59129 abituriyent ərizəsi daxil olub, onlardan ixtisas seçimi mərhələsində 15297 nəfər iştirak edib. Ötən illə müqayisədə cari ildə ixtisas seçimi mərhələsində iştirak edənlərin sayı 2.76% artıb (411 nəfər).

Sənəd verənlərin 49.13%-ni (29049 nəfər) oğlanlar, 50.87%-ni (30080 nəfər) qızlar, ixtisas seçimi mərhələsində iştirak edənlərin isə 37.97%-ni (5808 nəfər) oğlanlar, 62.03%-ni (9489 nəfər) qızlar təşkil edib. İxtisas seçimi mərhələsində daxil olmuş ərizələrin 96.57%-i Azərbaycan, 3.43%-i rus bölməsinə aid olub.

Dövlət orta ixtisas təhsili müəssisələrinin qəbul planı və abituriyent ərizələrinin sayının illər üzrə dinamikası 4.1.1 saylı şəkildəki diaqramlarda təqdim edilir. Şəkildən göründüyü kimi, 1993 və 1994-cü illərdə abituriyent ərizələrinin sayı plan yerlərinin sayından xeyli çox olub. Əslində, bu həmin illərdə abituriyentlərin orta ixtisas təhsili müəssisələrinə istəklərinin artmasının nəticəsi deyil, həmin təhsil müəssisələrinə qəbul imtahanlarının ali təhsil müəssisələri ilə birgə aparılmasının nəticəsi idi. O illərdə abituriyentlərə ali təhsil müəssisələri ilə yanaşı, orta ixtisas təhsili müəssisələrinin də ixtisaslarını göstərmək imkanı verildiyindən, onlar əksər hallarda ərizələrində ilk yerlərdə ali təhsil müəssisələrinin, sonrakı yerlərdə isə orta ixtisas təhsili müəssisələrinin ixtisaslarını göstərirdilər. Nəticədə, onların böyük əksəriyyəti ali təhsil müəssisələrinə qəbul olduğundan orta ixtisas təhsili müəssisələrinin planı dolmurdu. Buna görə də bu təhsil pilləsi üzrə qəbul planının dolma faizi 1993-cü ildə cəmi 34.96, 1994-cü ildə isə 52.79% təşkil etmişdi. Qeyd etmək lazımdır ki, orta ixtisas təhsili müəssisələrinə qəbulun ali təhsil müəssisələri ilə birgə aparıldığı illərdə yalnız orta ixtisas təhsili müəssisələrinin ixtisaslarını 1992-ci ildə 5466, 1993-cü ildə 848, 1994-cü ildə isə cəmi 454 nəfər abituriyent seçmişdi.

1995–1997-ci illərdə abituriyent ərizələrinin sayı qəbul planından az olmuş və planın yalnız 72-77%-ni təşkil etmişdi. 1998, 1999-cu illərdə bu fərq azalmış, 2000–2004-cü illərdə ərizələrin sayı qəbul planından bir qədər artıq olmuşdu. Bununla belə, ixtisaslar üzrə abituriyentlərin istəkləri qeyri-bərabər paylandığından bəzi ixtisaslarda yüksək müsabiqə vəziyyəti yaranmış, digərlərinə isə heç planın yarısı qədər də ərizə verilməmişdi. 2005, 2006, 2007, 2008, 2009 və 2010-cu illərdə, nəhayət, ərizələrin sayı plan yerlərinin sayını əhəmiyyətli dərəcədə (göstərilən illərə uyğun olaraq 2.3, 2.9, 3.9, 5.2, 4.5 və 3.5 dəfə) üstələmişdi. Lakin 2011-ci ildə müsabiqədə iştirak etmək üçün ümumi bala qoyulan tələb 50-dən 100-ə qaldırıldığı üçün abituriyentlərin ərizələrinin sayı əvvəlki ilə nəzərən azalmışdı. Son beş ildə abituriyent ərizələrinin sayında kəskin artım müşahidə olunub. Bu orta ixtisas təhsili müəssisələrinə qəbulun buraxılış imtahanlarının nəticəsi əsasında aparılması (əvvəlki illərin məzunları müsabiqədə buraxılış imtahanı modelinə uyğun verdikləri imtahanın nəticəsi, cari ilin məzunları isə buraxılış imtahanlarında əldə etdikləri nəticə əsasında iştirak etmişlər) və cari ilin məzunları üçün müsabiqənin pulsuz olması ilə əlaqədardır.

Qeyd etmək lazımdır ki, son dörd ildə qəbul planı üzrə də artım həyata keçirilib. Təkcə 2018-ci ildə plan yerlərinin sayı 2017-ci illə müqayisədə 20.74% artmışdır. 2019-cu ildə də bu tendensiya davam etmiş və ötən illə müqayisədə plan yerləri 4.67% artmışdır.

QƏBUL PLANI VƏ ƏRİZƏLƏRİN* SAYI (DÖVLƏT ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN ÖDƏNİŞSİZ VƏ ÖDƏNİŞLİ TƏHSİL FORMALARI ÜZRƏ)



Şəkil 4.1.1

Dövlət orta ixtisas təhsili müəssisələrinin ödənişli və ödənişsiz təhsil formalarının 1992–2019-cu illər üzrə qəbul planlarının dinamikası 4.1.2 saylı şəkildəki diaqramda təqdim edilib. Bu təhsil müəssisələrinə ödənişli təhsil forması üzrə qəbul 1995-ci ildən aparıldığından diaqramda ondan əvvəlki illər üçün yalnız ödənişsiz təhsil formasının qəbul planı göstərilib.

Diaqramdan göründüyü kimi, 1995–2001-ci illər ərzində ödənişsiz təhsil forması üçün ayrılan plan yerləri sayca böyük üstünlüyə malik olub. Lakin 2002-ci ildən ödənişli və ödənişsiz təhsil formaları üzrə qəbul planları, demək olar ki, bərabərləşdirilib. 2011-ci ildən isə artıq ödənişli təhsil forması üzrə qəbul planı üstünlüyə malik olub.

* 2008-ci ildən etibarən ixtisas seçimi mərhələsində yalnız müsabiqə şərtlərini yerinə yetirən abituriyentlər iştirak edib.

DÖVLƏT ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN ÖDƏNİŞSİZ VƏ ÖDƏNİŞLİ TƏHSİL FORMALARI ÜZRƏ QƏBUL PLANLARI



Şəkil 4.1.2

2019-cu ildə orta ixtisas təhsili müəssisələrinə qəbul üçün ayrılmış plan yerləri və ərizə vermiş abituriyentlərin sayı, təhsil bölmələri və ixtisaslar üzrə paylanma spektri, uyğun olaraq, 4.1.2, 4.1.3 və 4.1.4 saylı cədvəllərdə göstərilib.

Təqdim olunan ərizələrin paylanmasının təhlili göstərir ki, abituriyentlərin 85.69%-i texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisasları, 3.94%-i xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisaslarını, 61.52%-i tibb ixtisaslarını, 7.83%-i kimya-texnoloji ixtisasları, 12.58%-i baytarlıq və aqronomluq ixtisaslarını, 49.28%-i humanitar ixtisasları və 3.07%-i isə xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisaslarını seçib. Qəbul planının bölgüsü isə belədir: plan yerlərinin 56.26%-i texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslara, 2.92%-i xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisaslarına, 24.12%-i tibb ixtisaslarına, 0.39%-i kimya-texnoloji ixtisaslara, 2.76%-i baytarlıq və aqronomluq ixtisaslarına, 8.26%-i humanitar ixtisaslara və 5.29%-i isə xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisaslarına aiddir.

4.1.4 saylı cədvəldən göründüyü kimi, abituriyentlərin 13.36%-i (2044 nəfər) ərizələrində yalnız texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisasları, 7.14%-i (1092 nəfər) isə yalnız tibb ixtisaslarını qeyd edib.

Müsabiqə vəziyyəti 4.1.5 saylı cədvəldə təqdim edilib. Ən yüksək müsabiqə kimya-texnoloji ixtisaslar üzrə olub. Bu ixtisaslar üzrə bir tələbə yerinə, 4-5 abituriyent sənəd verib. Ümumilikdə bütün ixtisaslar üzrə müsabiqə vəziyyəti 1.473-ə bərabər olub, yəni bir yerə 1-2 abituriyent sənəd verib. Ötən illə müqayisədə müsabiqə vəziyyəti aşağı olub. Plan yerlərinin dolma faizi isə 95.16%-dən 93.62%-ə qədər azalıb.

Cədvəl 4.1.2

QƏBUL PLANLARI VƏ İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYI

№	İstiqamətlər	QƏBUL PLANI				ƏRİZƏLƏRİN SAYI		
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsi	Rus Bölməsi	Bütövlükdə
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	5297	394	150	5841	12654	454	13108
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	303	0	0	303	602	0	602
3	Tibb ixtisasları	1184	0	1320	2504	9035	376	9411
4	Kimya-texnoloji ixtisaslar	40	0	0	40	1197	0	1197
5	Baytarlıq və aqronomluq	287	0	0	287	1925	0	1925
6	Humanitar ixtisaslar	663	95	100	858	7285	253	7538
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	252	0	297	549	457	12	469
	C Ə M İ	**8026**	**489**	**1867**	**10382**	**14774**	**523**	**15297**

Cədvəl 4.1.3

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN PAYLANMASI

№	İstiqamətlər	Azərb. bölməsi		Rus Bölməsi		Bütövlükdə	
		ərizələrin sayı	ərizələrin faizi	ərizələrin sayı	ərizələrin faizi	ərizələrin sayı	ərizələrin faizi
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	12654	85.65	454	86.81	13108	85.69
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	602	4.07	0	0.00	602	3.94
3	Tibb ixtisasları	9035	61.15	376	71.89	9411	61.52
4	Kimya-texnoloji ixtisaslar	1197	8.10	0	0.00	1197	7.83
5	Baytarlıq və aqronomluq	1925	13.03	0	0.00	1925	12.58
6	Humanitar ixtisaslar	7285	49.31	253	48.37	7538	49.28
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	457	3.09	12	2.29	469	3.07
	C Ə M İ	**14774**	**100.00**	**523**	**100.00**	**15297**	**100.00**

Cədvəl 4.1.4

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ ƏRİZƏLƏRİN İXTİSASLAR ÜZRƏ PAYLANMASI

№	ABİTURİYENT ƏRİZƏLƏRİNİN BÖLGÜSÜ	ƏRİZƏLƏRİN	
		mütləq sayı	nisbi sayı, %
1	Yalnız texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslarının qeyd edildiyi ərizələr	2044	13.36
2	Yalnız xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisaslarının qeyd edildiyi ərizələr	393	2.57
3	Yalnız tibb ixtisaslarının qeyd edildiyi ərizələr	1092	7.14
4	Yalnız kimya-texnoloji ixtisaslarının qeyd edildiyi ərizələr	0	0.00
5	Yalnız baytarlıq və aqronomluq ixtisaslarının qeyd edildiyi ərizələr	8	0.05
6	Yalnız humanitar ixtisaslarnın qeyd edildiyi ərizələr	35	0.23
7	Yalnız xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisaslarının qeyd edildiyi ərizələr	309	2.02
8	Müxtəlif ixtisaslarının qeyd edildiyi ərizələr	11416	74.63
	Cəmi	**15297**	**100.00**

Cədvəl 4.1.5

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ MÜSABİQƏ VƏZİYYƏTİ

№	İstiqamətlər	Azərb. bölməsi	Rus Bölməsi	Birgə	Bütövlükdə
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	1.322	0.700	2.370	1.276
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	1.879			1.879
3	Tibb ixtisasları	2.610		3.486	2.903
4	Kimya-texnoloji ixtisaslar	4.919			4.919
5	Baytarlıq və aqronomluq	1.100			1.100
6	Humanitar ixtisaslar	2.977	0.669	2.354	2.530
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	1.148		0.725	0.788
	C Ə M İ	**1.399**	**0.625**	**2.786**	**1.473**

Orta ixtisas təhsili müəssisələrinin əyani şöbələrinin ixtisasları arasında ən yüksək müsabiqə texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar istiqaməti üzrə Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kollecinin "Mühasibat uçotu" (bir yerə 29.40 ərizə), Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kollecinin "Maliyyə işi" (bir yerə 27.67 ərizə), Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kollecinin "Nəqliyyat vasitələrinin texniki istismarı (nəqliyyat növləri üzrə)" (bir yerə 25.32 ərizə), Bakı İdarəetmə və Texnologiya Kollecinin

“Kompüter şəbəkələri” (bir yerə 24.75 ərizə), Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kollecinin “Bank işi” (bir yerə 23.67 ərizə), Gəncə Dövlət Regional Kollecinin “Mühasibat uçotu” (bir yerə 21.57 ərizə), xüsusi qabiliyyət tələb edən dizayn və idman ixtisasları istiqaməti üzrə Bakı Humanitar Kolleci və Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin “Fiziki tərbiyə müəllimliyi (ümumi orta təhsil bazası üçün)” (bir yerə, müvafiq olaraq, 15.68, 10.80 ərizə), tibb ixtisasları istiqaməti üzrə 1 nömrəli Bakı Tibb Kolleci, 2 nömrəli Bakı Baza Tibb Kolleci və Gəncə Tibb Kollecinin “Müalicə işi” (bir yerə, müvafiq olaraq, 31.83, 25.49 və 20.94 ərizə), Mingəçevir Tibb Kolleci və Gəncə Tibb Kollecinin “Əczaçılıq” (bir yerə, müvafiq olaraq, 24.08 və 23.24 ərizə), kimya-texnoloji ixtisaslar istiqaməti üzrə Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kollecinin “Kimyəvi birləşmələrin keyfiyyətinə analitik nəzarət” (bir yerə 3.32 ərizə), baytarlıq və aqronomluq istiqaməti üzrə Gəncə Dövlət Regional Kollecinin “Baytarlıq” (bir yerə 4.78 ərizə), humanitar ixtisaslar istiqaməti üzrə Bakı Dövlət İqtisadiyyat və Humanitar Kollecinin “Məktəbəqədər təlim və tərbiyə” (bir yerə 28.22 ərizə), Bakı Humanitar Kollecinin “Məktəbəqədər təlim və tərbiyə” (bir yerə 16.32 ərizə), xüsusi qabiliyyət tələb edən incəsənət və musiqi ixtisasları istiqaməti üzrə Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kollecinin “Rəssamlıq” və “Dizayn” (bir yerə, müvafiq olaraq, 10.75 və 8.22 ərizə), Gəncə Dövlət Regional Kollecinin “Təsviri incəsənət müəllimliyi” (bir yerə 9.95 ərizə) ixtisaslarında olub.

Qəbul planı 20-dən az olmayan orta ixtisas təhsili müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisasları üzrə ən yüksək müsabiqə vəziyyəti Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci (bir yerə 11.2 ərizə), Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci (bir yerə 9.8 ərizə), 1 nömrəli Bakı Tibb Kolleci (bir yerə 8.9 ərizə) və Bakı Dövlət Sosial-İqtisad Kollecində (bir yerə 7.4 ərizə) yaranıb. Təhsili ödənişli əsaslarla olan ixtisaslar üzrə isə ən yüksək müsabiqə Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci (bir yerə 7.9 ərizə), Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci (bir yerə 6.2 ərizə), Cəlilabad Tibb Kolleci (bir yerə 5.6 ərizə) və 1 nömrəli Bakı Tibb Kollecində (bir yerə 5.6 ərizə) olub.

Xüsusi qabiliyyət tələb edən ixtisaslara ümumilikdə 852 plan yeri ayrılmışdı. 1071 abituriyent xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə qabiliyyət imtahanını müvəffəqiyyətlə verib. Xüsusi qabiliyyət tələb edən ixtisasların qəbul planları və həmin ixtisaslar üzrə qabiliyyət imtahanlarını uğurla vermiş abituriyentlərin sayı aşağıdakı cədvəldə təqdim olunur:

Cədvəl 4.1.6

XÜSUSİ QABİLİYYƏT TƏLƏB EDƏN İXTİSASLAR ÜZRƏ QABİLİYYƏT İMTAHANINI UĞURLA VERMİŞ ABİTURİYENTLƏRİN SAYI

İXTİSAS	Qəbul planı	Qabiliyyət imtahanını müvəffəqiyyətlə vermiş abituriyentlərin sayı
Xüsusi qabiliyyət tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	303	602
Xüsusi qabiliyyət tələb edən musiqi və incəsənət ixtisasları	549	469

Orta ixtisas təhsili müəssisələrinə tam orta təhsil bazasında tələbə qəbulunun nəticələri haqqında məlumat avqustun 20-də DİM-in internet saytında yerləşdirilib və «Abituriyent» jurnalının 10-cu sayında dərc edilib. Qəbul olanların qeydiyyatı aparıldıqdan sonra boş qalan yerlərə əlavə yerləşdirmə aparılıb və nəticələr sentyabrın 5-də elan olunub. Müsabiqədə iştirak edənlərin 9720 nəfəri tələbə adını qazanıb. Bunlardan 2936 nəfəri dövlət ödənişsiz, 5033 nəfəri dövlət ödənişli təhsil forması üzrədir. 1751 nəfər özəl orta ixtisas təhsili müəssisələrinə qəbul olub. Qəbul olanların 34.55%-i oğlan (3358 nəfər), 65.45%-i isə (6362 nəfər) qız abituriyentdir.

Qəbul imtahanında iştirak edən və qəbul olan abituriyentlərin ballarının paylanma diaqramı 4.1.3 və 4.1.4 saylı şəkillərdə təqdim edilib. Xatırladaq ki, qəbul imtahanında toplanıla biləcək maksimal bal 300-ə bərabər olub.

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 4.1.3

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 4.1.4

Qəbul imtahanında iştirak edən abituriyentlərin 18.22%-i 50-dan az, 7.54%-i isə 200-dən çox bal toplayıb. Qəbul olan abituriyentlərin əksəriyyətinin (94.85%) imtahan nəticəsi 50-150 bal diapazonunda yerləşir. 50-100 bal intervalında nəticə göstərənlər qəbul olanların 58.32%-ni, 100-150 bal intervalında nəticə göstərənlər isə 36.53%-ni təşkil edib. Yuxarı (200-240) bal diapazonunda nəticə göstərən abituriyentlərin nisbi sayı 0.30 faizdir. Qəbul olan abituriyenlərin yalnız 1.04%-i 40-50 bal diapazonunda nəticə göstərib.

İxtisas seçimində iştirak edənlərin 11469 nəfəri (74.98%) cari ilin məzunlarıdır. Onlardan 7322 nəfəri tələbə olmaq arzusunu reallaşdıra bilib. Beləliklə, cari il məzunlarının qəbulolma göstəricisi 63.84%, bütövlükdə orta ixtisas təhsili müəssisələrinə sənəd verənlərin qəbulolma göstəricisi isə 63.54% olub.

Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisasları üzrə plan yerlərinin 5297-si Azərbaycan bölməsinin, 394-ü rus bölməsinin, 150-si isə hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində Azərbaycan bölməsində 12654, rus bölməsində 454 nəfər abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 5251, rus bölməsində 300 nəfəri qəbul olub. Qəbul planı 95.04% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 98.27%, ödənişli əsaslarla olan ixtisaslarında isə 93.45% olub. Özəl təhsil müəssisələrinə qəbul planı 95.07% yerinə yetirilib.

Orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları üzrə plan yerlərinin hamısı (303 yer) Azərbaycan bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində 602 nəfər abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərdən 301 nəfəri qəbul olub. Qəbul planı 99.34% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin ödənişsiz ixtisaslarında 100.00%, ödənişli ixtisaslarında isə 98.97%-dir.

Tibb ixtisasları üzrə plan yerlərinin 1184-ü Azərbaycan bölməsinin abituriyentləri üçün, 1320-si hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün ayrılmışdı. Ərizələrində bu ixtisasları Azərbaycan bölməsində 9035, rus bölməsində isə 376 abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 2418, rus bölməsində 60 nəfəri qəbul olub. Qəbul planı 98.96% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 99.30%, ödənişli əsaslarla olan ixtisaslarında isə 98.74%-dir.

Kimya-texnoloji ixtisaslar üzrə plan yerlərinin hamısı (40 yer) Azərbaycan bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində 1197 nəfər abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərdən 37 nəfəri qəbul olub. Qəbul planı 92.50% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin ödənişsiz ixtisaslarında 90.00%, ödənişli ixtisaslarında isə 93.33%-dir.

Baytarlıq və aqronomluq ixtisasları üzrə plan yerlərinin hamısı (287 yer) Azərbaycan bölməsinin abituriyentləri üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində 1925 nəfər abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərdən 248 nəfəri qəbul olub. Qəbul planı 86.41% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin ödənişsiz ixtisaslarında 98.17%, ödənişli ixtisaslarında isə 79.21%-dir.

Humanitar ixtisaslar üzrə plan yerlərinin 663-ü Azərbaycan bölməsinin abituriyentləri üçün, 95-i rus bölməsinin abituriyentləri üçün, 100-ü isə hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində Azərbaycan bölməsində 7285, rus bölməsində isə 253 nəfər abituriyent göstərmişdi. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 746, rus bölməsində 84 nəfəri qəbul olub. Qəbul planı 96.74% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 96.72%, ödənişli əsaslarla olan ixtisaslarında isə 96.56%-dir. Özəl təhsil müəssisələrində qəbul planı 97.78% yerinə yetirilib.

Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları üzrə plan yerlərinin 252-si Azərbaycan bölməsinin abituriyentləri üçün, 297-si isə hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün ayrılmışdı. Bu ixtisasları ərizələrində Azərbaycan bölməsində 457, rus bölməsində isə 12 nəfər abituriyent göstərmişdir. Müsabiqədə iştirak edənlərin Azərbaycan bölməsində 265, rus bölməsində 10 nəfəri qəbul olub. Qəbul planı 50.09% yerinə yetirilib. Bu göstərici dövlət təhsil müəssisələrinin təhsili ödənişsiz əsaslarla olan ixtisaslarında 66.37%, ödənişli əsaslarla olan ixtisaslarında isə 41.55%-dir. Özəl təhsil müəssisələrində qəbul planı 13.33% yerinə yetirilib.

Ötən illə müqayisədə plan yerlərinin yerinə yetirilmə faizi bütövlükdə 95.16%-dən 93.62%-ə qədər azalıb, qəbul olanların mütləq sayı isə 9194 nəfərdən 9720 nəfərədək (526 nəfər) artıb. Müsabiqə və yerləşdirmənin nəticələri 4.1.7 – 4.1.9 saylı cədvəllərdə verilib.

Cədvəl 4.1.7

TAM ORTA TƏHSİL BAZASINDA ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

№	İstiqamətlər	Plan	Qəbul olub			Qəbulolma faizi (%)
			Azərbaycan bölməsi	Rus bölməsi	Bütövlükdə	
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	5841	5251	300	5551	95.04
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	303	301	0	301	99.34
3	Tibb ixtisasları	2504	2418	60	2478	98.96
4	Kimya-texnoloji ixtisaslar	40	37	0	37	92.50
5	Baytarlıq və aqronomluq	287	248	0	248	86.41
6	Humanitar ixtisaslar	858	746	84	830	96.74
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	549	265	10	275	50.09
	C Ə M İ	**10382**	**9266**	**454**	**9720**	**93.62**

Cədvəl 4.1.8

TAM ORTA TƏHSİL BAZASINDA DÖVLƏT ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN TƏHSİLİ ÖDƏNİŞSİZ ƏSASLARLA OLAN İXTİSASLARINA QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

№	İstiqamətlər	Plan	Qəbul olub			Qəbulolma faizi (%)
			Azərbaycan bölməsi	Rus bölməsi	Bütövlükdə	
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	1332	1190	119	1309	98.27
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	108	108	0	108	100.00
3	Tibb ixtisasları	997	969	21	990	99.30
4	Kimya-texnoloji ixtisaslar	10	9	0	9	90.00
5	Baytarlıq və aqronomluq	109	107	0	107	98.17
6	Humanitar ixtisaslar	274	230	35	265	96.72
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	223	146	2	148	66.37
	C Ə M İ	**3053**	**2759**	**177**	**2936**	**96.17**

Cədvəl 4.1.9

TAM ORTA TƏHSİL BAZASINDA DÖVLƏT ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN TƏHSİLİ ÖDƏNİŞLİ ƏSASLARLA OLAN İXTİSASLARINA QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

№	İstiqamətlər	Plan	Qəbul olub			Qəbulolma faizi (%)
			Azərbaycan bölməsi	Rus bölməsi	Bütövlükdə	
1	Texniki, kənd təsərrüfatı, iqtisad, pedaqoji ixtisaslar	2764	2461	122	2583	93.45
2	Xüsusi qabiliyyət imtahanı tələb edən dizayn və bədən tərbiyəsi ixtisasları	195	193	0	193	98.97
3	Tibb ixtisasları	1507	1449	39	1488	98.74
4	Kimya-texnoloji ixtisaslar	30	28	0	28	93.33
5	Baytarlıq və aqronomluq	178	141	0	141	79.21
6	Humanitar ixtisaslar	494	428	49	477	96.56
7	Xüsusi qabiliyyət imtahanı tələb edən incəsənət və musiqi ixtisasları	296	115	8	123	41.55
	C Ə M İ	**5464**	**4815**	**218**	**5033**	**92.11**

Abituriyentlərin Azərbaycan və rus bölmələri üzrə ayrılıqda topladıqları ballar hesablanmış, onların əsasında balların paylanma histoqramları təyin edilmişdir. Hər iki bölmədə abituriyentlərin topladıqları balların paylanma histoqramı demək olar ki, simmetrikdir və normal paylanmaya yaxındır.

Azərbaycan bölməsini təmsil edən ortastatistik abituriyent 103.68, rus bölməsini təmsil edən isə 104.77 bal toplayıb. Azərbaycan bölməsində abituriyentlərin yarısı 92.18-dən, rus bölməsində isə 96.13-dən çox bal toplaya bilməyib. Azərbaycan bölməsində maksimal bal 297.5, rus bölməsində isə 282.5 olub.

Ərizə verən ortastatistik abituriyent Azərbaycan bölməsində Azərbaycan dilindən tapşırıqların 44.66, riyaziyyatdan 28.53, ingilis dilindən 29.88, rus dilindən tapşırıqların 34.17%-nə, rus bölməsində rus dilindən

tapşırıqların 39.43, riyaziyyatdan 25.97, ingilis dilindən 39.42%-nə düzgün cavab verib. Qəbul olan ortastatistik abituriyent Azərbaycan bölməsində Azərbaycan dilindən tapşırıqların 45.13, riyaziyyatdan 24.64, ingilis dilindən 25.68, rus dilindən 38.62%-nə, rus bölməsində rus dilindən tapşırıqların 36.32, riyaziyyatdan 22.65, ingilis dilindən 31.90%-nə düzgün cavab verib.

Yuxarıda da qeyd edildiyi kimi, orta ixtisas təhsili müəssisələrinin ixtisaslarının müsabiqəsində cari ilin məzunları buraxılış imtahanının nəticələri əsasında, digərləri isə buraxılış imtahanının modelinə uyğun keçirilən qəbul imtahanının nəticələri əsasında iştirak ediblər. Müsabiqədə iştirak etmək üçün qoyulan tələbləri nəzərə alsaq, görərik ki, imtahanda iştirak edən 58791 abituriyentin 21.93%-i (12892 nəfər) Azərbaycan (rus) dili və riyaziyyat fənlərindən biri üzrə nisbi balı 10 baldan aşağı olduğu üçün, 5.01%-i (2944 nəfər) isə ümumi balı 50-dən az olduğu üçün ixtisas seçiminə buraxılmamışdır. Digər abituriyentlər isə minimal tələbi ödədikləri üçün ixtisas seçimində iştirak etmək hüququ qazanıblar və belə abituriyentlər imtahanda iştirak edənlərin 73.06%-ni təşkil edib.

Təhlilin nəticələri göstərir ki, ixtisas seçimində iştirak edənlərin çox az hissəsi (5.27%) həm Azərbaycan (rus) dili, həm də riyaziyyat fənlərinin hər biri üzrə 40 bal və daha yüksək nəticə göstərib. Orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlərin isə 7.74%-i hər iki fənn üzrə 40 bal və daha yüksək nəticə göstərib. Göründüyü kimi, həm Azərbaycan (rus) dili, həm də riyaziyyat fənlərinin hər biri üzrə ən azı 40 bal toplayanların qəbul olanlar arasındakı nisbi çəkisi ixtisas seçimində iştirak edənlər arasındakı nisbi çəkisinə nəzərən 1.47 dəfə çox olub.

İxtisas seçimində iştirak edən abituriyentlərin 44.82%-i xarici dil fənni üzrə 0-20, 42.58%-i 20-40, 9.96%-i 40-60, 2.18%-i 60-80, 0.46%-i isə 80-100 intervallarında bal toplayıb. Nəzərinizə çatdıraq ki, müsabiqədə iştirak etmək üçün xarici dil fənnindən toplanılan ballara heç bir məhdudiyyət qoyulmamışdır. Beləliklə, abituriyentlərin əksəriyyəti 87.40%-i xarici dil fənni üzrə 40 baldan aşağı nəticə göstərib. Orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlərin nəticələrində də buna bənzər mənzərənin şahidi oluruq. Belə ki, qəbul olan abituriyentlərin 33.52%-i xarici dil fənni üzrə 0-20, 48.32%-i 20-40, 14.24%-i 40-60, 3.22%-i 60-80, 0.69%-i isə 80-100 intervallarında bal toplayıb.

4.1.10 saylı cədvəldə orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerləri haqqında məlumat təqdim edilir. Cədvəldən göründüyü kimi, bu təhsil müəssisələrinin 4-də plan yerləri 100% dolub. 37 orta ixtisas təhsili müəssisəsində boş qalan yerlər 10 faizədəkdir, 14-də isə 10%-dən yuxarıdır. Bunların əksəriyyəti bölgələrdə yerləşən orta ixtisas təhsili müəssisələridir. Bu il Naxçıvan Musiqi Kollecinə tam orta təhsili bazasında tələbə qəbulunda plan yerlərinin hamısı boş qalıb. Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsinə tam orta təhsili bazasında tələbə qəbulunda plan yerlərinin 94.74 faizi, Gəncə Musiqi Kollecinə 84.21 faizi, Ağdam Musiqi Kollecinə 82.86 faizi, Sumqayıt Musiqi Kollecinə 77.78 faizi boş qalıb.

Cari ildə isə respublika üzrə bütün tibb kolleclərində plan yerlərinin dolma faizi 97.50%-dən yuxarı olub.

Cədvəl 4.1.10

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİ ÜZRƏ BOŞ QALAN YERLƏR HAQQINDA MƏLUMAT

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	Plan	Boş yerlərin	
			sayı	faizi
1	Naxçıvan Musiqi Kolleci	10	10	100.00
2	Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	38	36	94.74
3	Gəncə Musiqi Kolleci	38	32	84.21
4	Ağdam Musiqi Kolleci	35	29	82.86
5	Sumqayıt Musiqi Kolleci	18	14	77.78
6	Şuşa Humanitar Kolleci	130	32	24.62
7	Quba Dövlət Sosial-İqtisadi Kolleci	30	6	20.00
8	Masallı Dövlət Regional Kolleci	65	12	18.46
9	Bakı Humanitar Kolleci	228	41	17.98
10	Astara Pedaqoji Kolleci	120	18	15.00
11	Şamaxı Dövlət Regional Kolleci	369	42	11.38
12	Bakı Biznes və Kooperasiya Kolleci	710	78	10.99

Cədvəl 4.1.10 (ardı)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	Plan	Boş yerlərin	
			sayı	faizi
13	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	59	6	10.17
14	Lənkəran Dövlət Humanitar Kolleci	177	18	10.17
15	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	64	6	9.38
16	Qərbi Kaspi Universiteti (orta ixtisas təhsili pilləsi)	420	35	8.33
17	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	110	9	8.18
18	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	100	8	8.00
19	Naxçıvan Dövlət Texniki Kolleci	14	1	7.14
20	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	84	6	7.14
21	Şəki Dövlət Texniki Kolleci	43	3	6.98
22	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	232	16	6.90
23	Mingəçevir Turizm Kolleci	460	31	6.74
24	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	80	5	6.25
25	Bakı İdarəetmə və Texnologiya Kolleci	293	18	6.14
26	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	160	9	5.63
27	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	185	10	5.41
28	Ağcabədi Pedaqoji Kolleci	225	12	5.33
29	Bakı Qida Sənayesi Kolleci	170	9	5.29
30	Bakı Dövlət Sosial-İqtisad Kolleci	230	11	4.78
31	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	134	6	4.48
32	Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci	115	5	4.35
33	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	395	16	4.05
34	Gəncə Dövlət Regional Kolleci	405	16	3.95
35	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	170	6	3.53
36	Şəki Dövlət Regional Kolleci	118	4	3.39
37	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	330	10	3.03
38	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	100	3	3.00
39	Saatlı Tibb Kolleci	40	1	2.50
40	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	135	3	2.22
41	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	194	4	2.06
42	Şəki Tibb Kolleci	100	2	2.00
43	Quba Tibb Kolleci	65	1	1.54
44	1 nömrəli Bakı Tibb Kolleci	440	6	1.36
45	2 nömrəli Bakı Baza Tibb Kolleci	595	7	1.18
46	Lənkəran Tibb Kolleci	180	2	1.11
47	Mingəçevir Tibb Kolleci	205	2	0.98
48	Ə.Əliyev adına Sumqayıt Tibb Kolleci	220	2	0.91
49	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	125	1	0.80
50	Naxçıvan Tibb Kolleci	240	1	0.42
51	Odlar Yurdu Kolleci	430	1	0.23
52	Gəncə Tibb Kolleci	304	0	0.00
53	Ağdaş Dövlət Humanitar Kolleci	100	0	0.00
54	Cəlilabad Tibb Kolleci	40	0	0.00
55	Bakı Avrasiya Kolleci	305	0	0.00
	C Ə M İ	**10382**	**662**	**6.38**

4.2 Orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında tələbə qəbulu

Orta ixtisas təhsili müəssisələrinə ümumi orta təhsil bazasında tələbə qəbulunu 1995-1998-ci illərdə mərkəzləşdirilmiş qaydada Tələbə Qəbulu üzrə Dövlət Komissiyası, 1999-2004-cü illərdə isə orta ixtisas təhsili müəssisələrinin özləri aparıb. 2005-ci ildən etibarən bu təhsil pilləsinə qəbul imtahanlarının keçirilməsi yenidən TQDK-ya (indiki DİM) həvalə olunub.

Bu il ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak etmək üçün ərizə qəbulu fevralın 22-dən martın 11-dək internet vasitəsilə aparılmışdır. Qəbul qaydaları və qəbul haqqında elan DİM-in internet saytında yerləşdirilmiş, qəbul aparılan ixtisasların siyahısı və plan yerləri haqqında məlumat isə "Abituriyent" jurnalının 3-cü sayında dərc olunub. Abituriyentlər ekabinet.dim.gov.az internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə Dövlət İmtahan Mərkəzinin müvafiq internet səhifəsinə (eservices.dim.gov.az/erizetex/erize) daxil olub, "Abituriyentin elektron ərizəsi" formasını doldurublar və təsdiq ediblər (etdiriblər). Müsabiqədə iştirak ödənişli olmuşdur. Orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət etmiş Azərbaycan Respublikasının vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) imtahanda iştirakı dövlət büdcəsinin vəsaiti hesabına (pulsuz) olmuşdur.

Ərizənin təsdiqi DİM-in məlumat bazalarında abituriyent barədə olan məlumatların yetərli olub-olmamasından asılı olaraq iki üsulla həyata keçirilib:

– Ümumi orta təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində 2013-cü və ondan sonrakı illərdə bitirən abituriyentlər elektron ərizələrini Sənəd Qəbulu Komissiyalarına (SQK) müraciət etmədən elektron ərizə səhifəsindəki müvafiq düyməni basmaqla özləri təsdiq ediblər;

– Ümumi orta təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində 2013-cü ildən əvvəl və ya Azərbaycan Respublikasının hüdudlarından kənarda yerləşən təhsil müəssisələrində bitirən abituriyentlər elektron ərizələrini tələb olunan sənədləri təqdim etməklə DİM və onun regional bölmələrində yaradılmış SQK-larda təsdiq ediblər.

Ümumi (9 illik) orta təhsil səviyyəsini əvvəlki illərdə bitirən və təhsil haqqında sənəd alan və ya ümumi orta təhsil səviyyəsini Azərbaycan Respublikasının hüdudlarından kənarda yerləşən təhsil müəssisələrində bitirən abituriyentlər müsabiqədə iştirak etmək üçün Azərbaycan (rus) dili, riyaziyyat və xarici dil fənlərindən qəbul imtahanı veriblər.

Ümumi orta təhsil səviyyəsini Azərbaycan Respublikasının ümumi təhsil müəssisələrində cari ildə bitirən abituriyentlər müsabiqədə qəbul imtahanı vermədən buraxılış imtahanında (9-cu siniflər üzrə) topladıqları ballar əsasında iştirak ediblər. Lakin aşağıdakı xüsusi hallarda bu abituriyentlər əlavə olaraq 2019-cu il martın 31-də bəzi fənn və yaxud fənlərdən imtahan verirlər:

- Tədris dili Azərbaycan və rus dillərindən fərqli olan ümumi təhsil müəssisələrinin məzunları orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün ərizə təqdim etdikləri halda ərizədə qeyd etdikləri bölməyə uyğun olaraq Azərbaycan dili və ya rus dili fənnindən əlavə olaraq imtahan veriblər.

- Tədris Azərbaycan dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər orta ixtisas təhsili müəssisələrinin tədris rus dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq rus dili fənnindən, tədris rus dilində aparılan ümumi təhsil müəssisələrində təhsil alan şagirdlər isə orta ixtisas təhsili müəssisələrinin tədris Azərbaycan dilində aparılan ixtisasları üzrə müsabiqədə iştirak etmək üçün əlavə olaraq Azərbaycan dili fənnindən imtahan veriblər. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən, müsabiqəsində iştirak etmək istədikləri ixtisasların tədris dilinə uyğun olaraq ərizənin "Test imtahanı verəcəyi dil (Bölmə)" bölməsində Azərbaycan və ya rus dilini seçiblər.

- Qəbul imtahanında buraxılış imtahanı çərçivəsində verdikləri xarici dil fənnindən fərqli xarici dil fənni üzrə imtahan vermək istəyən məzunlar müsabiqədə iştirak etmək üçün həmin xarici dildən imtahan veriblər. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində istədikləri xarici dili seçiblər.

- Xarici dil fənni tədris olunmayan təhsil müəssisələrinin məzunları istədikləri halda qəbul imtahanında xarici dil fənni üzrə imtahan verə biliblər. Bu halda abituriyentlər "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində istədikləri xarici dili seçiblər. Qeyd olunan kateqoriyadan olan məzunlar xarici dil fənnindən imtahan vermək istəmədikləri halda "Abituriyentin elektron ərizəsi" formasını doldurarkən "Xarici dil" bölməsində "Xarici dildən imtahan vermək istəmirəm" bəndini seçiblər. Bu zaman onların imtahandan toplaya biləcəkləri maksimal ümumi balları iki fənn (Azərbaycan və ya rus dili və riyaziyyat) üzrə toplanan balların cəmlənməsi əsasında müəyyənləşməklə 200 bal təşkil edib.

Qəbul imtahanı iki mərhələdə keçirilmişdir. Birinci mərhələdə abituriyentlərə Azərbaycan dili (rus dili) fənnindən 2 mətn əsasında 10 açıq və 10 qapalı tipli, riyaziyyat fənnindən 10 açıq tipli və xarici dil fənnindən 9 qapalı və 6 açıq tipli olmaqla, ümumilikdə 45 tapşırıq təqdim edilmişdir. Test tapşırıqlarının cavablandırılmasına ümumilikdə 3 saat vaxt ayrılmışdır. İmtahanın bu mərhələsi martın 31-də Bakı, Naxçıvan, Gəncə, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran və Xaçmazda keçirilb.

İmtahanın ikinci mərhələsində abituriyentlərə hər bir fənn üzrə 30 olmaqla, ümumilikdə 90 qapalı tipli test tapşırığı təqdim edilmişdir. Test tapşırıqlarının cavablandırılmasına ümumilikdə 3 saat vaxt ayrılmışdır. İmtahan iyunun 30-da Bakı, Naxçıvan, Gəncə, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran və Xaçmazda keçirilib.

İxtisas seçimi iyulun 24-dən avqustun 5-dək internet vasitəsilə həyata keçirilib. İxtisas seçiminə qəbul (buraxılış) imtahanında (hər iki mərhələ üzrə) ümumi balı 50-dən, Azərbaycan dili və ya rus dili fənni üzrə balı 20-dən və riyaziyyat fənni üzrə balı 10-dan az olmayan abituriyentlər buraxılıblar. Hər bir abituriyent müxtəlif təhsil müəssisələrinin təhsili dövlət büdcəsinin vəsaiti hesabına və ödənişli olan 12-yə qədər ixtisas kodunu seçib. İxtisas kodlarının ardıcıllığını abituriyent özü müəyyənləşdirib. Qəbul qaydalarına əsasən müsabiqə zamanı həmin ardıcıllıq hüquqi əsas kimi nəzərə alınıb və abituriyent müsabiqədən keçdiyi ixtisasların birincisinə yerləşdirilib.

Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə təhsil almaq istəyən abituriyentlər, imtahanda topladıqları ümumi balları müvafiq müsabiqə şərtlərini ödədiyi halda imtahanların nəticəsi elan olunduqdan sonra, iyulun 8-dən 16-dək eservices.dim.gov.az/erizetex/qabiliyyet internet səhifəsinə daxil olaraq seçdiyi xüsusi qabiliyyət tələb edən ixtisasın aid olduğu komissiya üzrə qeydiyyatdan keçiblər. Qabiliyyət imtahanlarında iştirak ödənişli olmuşdur. Orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikasının vətəndaşlarının cari ildə ilk seçdiyi (qeydiyyatdan keçdiyi) komissiya üzrə (yalnız bir ixtisas üzrə) qabiliyyət imtahanında iştirakı dövlət büdcəsinin vəsaiti hesabına (pulsuz) olmuşdur.

Qeydiyyatdan keçmiş abituriyentlər müəyyən edilmiş cədvəl üzrə iyulun 18-dən 22-dək qabiliyyət imtahanında iştirak ediblər. Qabiliyyət imtahanları DİM-in təşkil etdiyi Yaradıcılıq Qabiliyyətinin Yoxlanılması Komissiyaları (YQYK) tərəfindən mərkəzləşdirilmiş qaydada keçirilib. Qabiliyyət imtahanının nəticəsi "məqbul" və ya "qeyri-məqbul"la qiymətləndirilib və müvafiq xüsusi qabiliyyət tələb edən ixtisasları yalnız qabiliyyət imtahanından "məqbul" alan abituriyentlər seçə biliblər. Qəbul qaydalarına əsasən abituriyentlərə xüsusi qabiliyyət tələb edən ixtisaslarla yanaşı, digər ixtisasları da seçmək imkanı verilib.

Qəbul planı (10206 yer) ötən illə müqayisədə 3.14% (311 yer) artıb. Plan yerlərinin 4360-ı (42.72%) ödənişsiz, 5846-sı (57.28%) isə ödənişli təhsil forması üzrə olub. Qəbul planının 85.91%-i Azərbaycan, 2.63%-i rus, 11.46%-i isə hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün ayrılıb. Qəbul planının 16.89%-i (1724 yer) xüsusi qabiliyyət tələb edən ixtisasların payına düşürdü.

44 orta ixtisas təhsili müəssisəsinə tələbə qəbulu aparılıb. Sayca ən çox plan yeri Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinə (720 yer), ən az isə Bakı Avrasiya Kollecinə (30 yer) ayrılmışdı. Orta ixtisas təhsili müəssisələrinin qəbul planları haqqında məlumat aşağıdakı cədvəldə verilir:

Cədvəl 4.2.1

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNİN QƏBUL PLANLARI (ÜMUMİ ORTA TƏHSİL BAZASINDA)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
1	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	75	20	0	95	85	30	0	115	210
2	Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci	99	0	0	99	151	0	0	151	250
3	Bakı Qida Sənayesi Kolleci	106	10	0	116	117	10	0	127	243
4	Bakı Dövlət Sosial-İqtisad Kolleci	68	0	0	68	167	0	0	167	235
5	Bakı İdarəetmə və Texnologiya Kolleci	137	51	0	188	148	57	0	205	393
6	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	285	30	0	315	375	30	0	405	720
7	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	166	0	0	166	217	0	0	217	383
8	Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	0	0	28	28	0	0	59	59	87
9	Bakı Humanitar Kolleci	142	0	0	142	158	0	0	158	300
10	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	0	0	21	21	0	0	35	35	56
11	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	0	0	186	186	0	0	68	68	254
12	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	65	0	0	65	165	0	0	165	230
13	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	155	0	0	155	180	0	0	180	335
14	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	134	0	0	134	202	0	0	202	336
15	Naxçıvan Dövlət Texniki Kolleci	59	0	0	59	61	0	0	61	120
16	Naxçıvan Musiqi Kolleci	80	0	0	80	60	0	0	60	140
17	Gəncə Dövlət Regional Kolleci	118	0	0	118	227	0	0	227	345
18	Gəncə Musiqi Kolleci	0	0	63	63	0	0	81	81	144
19	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	120	0	0	120	135	0	0	135	255
20	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	71	0	0	71	70	0	0	70	141
21	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	119	0	0	119	140	0	0	140	259
22	Sumqayıt Musiqi Kolleci	0	0	79	79	0	0	7	7	86
23	Quba Dövlət Sosial-İqtisadi Kolleci	107	0	0	107	138	0	0	138	245
24	Şamaxı Dövlət Regional Kolleci	176	0	0	176	193	0	0	193	369
25	Mingəçevir Turizm Kolleci	130	0	0	130	220	0	0	220	350
26	Şəki Dövlət Texniki Kolleci	28	0	0	28	29	0	0	29	57

Cədvəl 4.2.1 (ardı)

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	QƏBUL PLANI								
		ÖDƏNİŞSİZ				ÖDƏNİŞLİ				CƏMİ
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	Azərb. bölməsi	Rus bölməsi	Birgə	Cəmi	
27	Şəki Dövlət Regional Kolleci	0	0	136	136	0	0	136	136	272
28	Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci	44	0	0	44	56	0	0	56	100
29	Şuşa Humanitar Kolleci	74	0	0	74	71	0	0	71	145
30	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	110	0	0	110	140	0	0	140	250
31	Ağdam Musiqi Kolleci	0	0	56	56	0	0	49	49	105
32	Ağdaş Dövlət Humanitar Kolleci	92	0	0	92	121	0	0	121	213
33	Ağcabədi Pedaqoji Kolleci	117	0	0	117	118	0	0	118	235
34	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	111	0	0	111	110	0	0	110	221
35	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	66	0	0	66	80	0	0	80	146
36	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	80	0	0	80	95	0	0	95	175
37	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	171	0	0	171	159	0	0	159	330
38	Lənkəran Dövlət Humanitar Kolleci	0	0	80	80	0	0	86	86	166
39	Astara Pedaqoji Kolleci	100	0	0	100	130	0	0	130	230
40	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	121	0	0	121	94	0	0	94	215
41	Masallı Dövlət Regional Kolleci	74	0	0	74	71	0	0	71	145
42	Bakı Biznes və Kooperasiya Kolleci	0	0	0	0	325	30	0	355	355
43	Bakı Avrasiya Kolleci	0	0	0	0	30	0	0	30	30
44	Qərbi Kaspi Universitetinin orta ixtisas təhsili pilləsi	0	0	0	0	330	0	0	330	330
	Cəmi	**3600**	**111**	**649**	**4360**	**5168**	**157**	**521**	**5846**	**10206**

1995–1998-ci illərdə ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün abituriyent ərizələrinin sayı plan yerlərindən 30-40% az idi. Qəbul imtahanlarının yenidən mərkəzləşdirilmiş qaydada keçirildiyi 2005-2006-cı illərdə bu təhsil müəssisələrində, zəif də olsa, müsabiqə vəziyyəti mövcud olub. Bu illərdə orta ixtisas təhsili müəssisələrinə sənəd qəbulunu həmin məktəblərdə yaradılmış Sənəd Qəbulu Komissiyaları həyata keçirirdi. Sənəd qəbulu prosesində abituriyentlərin və onların valideynlərinin rahatlığını təmin etmək məqsədilə 2007-2012-ci illərdə respublikanın bütün regionlarının təhsil şöbələrində Sənəd Qəbulu Komissiyaları yaradılmışdı. Artıq yeddi ildir ki, barələrində DİM-in informasiya bazasında yetərli məlumatlar olan abituriyentlərə ərizələrini Sənəd Qəbulu Komissiyalarına müraciət etmədən internet vasitəsilə bilavasitə özlərinin təsdiq etməsinə imkan yaradılıb.

Cari ildə müsabiqənin nəticələri avqustun 6-da DİM-in internet saytında və "Abituriyent" jurnalının xüsusi buraxılışında yerləşdirilərək ictimaiyyətə çatdırılıb. Bundan sonra avqustun 27-dən sentyabrın 2-dək orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə əlavə müsabiqə elan olunub. Müsabiqədə iştirak edən abituriyentlər elektron ərizələrində orta ixtisas təhsili müəssisələrinin 12-dək ixtisas kodunu istəklərinə uyğun ardıcıllıqla göstəriblər. Boş qalan plan yerlərinə əlavə yerləşdirmənin nəticələri sentyabrın 3-də elan olunub.

Qəbul (buraxılış) imtahanlarında 22798 nəfər abituriyent iştirak edib. Onların 10082-si oğlan (44.22%), 12716-sı isə qız abituriyent (55.78%) olub.

İmtahan verən abituriyentlərin 14067-si (61.70%) ixtisas seçimində iştirak etmək üçün ərizə verib. Ayrı-ayrı təhsil formaları üzrə qəbul planı, abituriyent ərizələrinin sayı və müsabiqə vəziyyəti 4.2.2 və 4.2.3 saylı cədvəllərdə təqdim olunur.

İxtisas seçimində iştirak etmək üçün ərizələrin 98.05%-i (13793-ü) Azərbaycan, 1.95%-i (274-ü) isə rus bölməsinə verilmişdi. Abituriyentlərin 40.42%-ni oğlanlar, 59.58%-ni isə qızlar təşkil edibdir.

Cədvəl 4.2.2

QƏBUL PLANLARI VƏ İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ ABİTURİYENT ƏRİZƏLƏRİNİN SAYI

№	TƏHSİL FORMASI	QƏBUL PLANI				ƏRİZƏLƏRİN SAYI*		
		Azərb. bölməsinin abituriyentləri üçün	Rus bölməsinin abituriyentləri üçün	Hər iki bölmənin abituriyentlərinin birgə müsabiqəsi üçün	Bütövlükdə	Azərb. bölməsi	Rus bölməsi	Bütövlükdə
1	**Dövlət ödənişsiz**	**3600**	**111**	**649**	**4360**	**11299**	**255**	**11554**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	3217	111	124	3452	10063	209	10272
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	383	0	525	908	1875	61	1936
2	**Dövlət ödənişli**	**4483**	**127**	**521**	**5131**	**11611**	**230**	**11841**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	4082	127	126	4335	10516	183	10699
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	401	0	395	796	1762	57	1819
3	**Özəl**	**685**	**30**	**0**	**715**	**2675**	**86**	**2761**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	665	30	0	695	2653	86	2739
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	20	0	0	20	36	---	36
	Bütövlükdə	**8768**	**268**	**1170**	**10206**	**13793**	**274**	**14067**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	7964	268	250	8482	12685	227	12912
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	804	0	920	1724	1953	64	2017

Cədvəl 4.2.3

İXTİSAS SEÇİMİ MƏRHƏLƏSİNDƏ MÜSABİQƏ VƏZİYYƏTİ

№	TƏHSİL FORMASI	Plan yerləri üzrə müsabiqə vəziyyəti			
		Azərb. bölməsi	Rus bölməsi	Birgə	Bütövlükdə
1	**Dövlət ödənişsiz**	**2.589**	**1.621**	**2.267**	**2.426**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	2.637	1.621	4.261	2.593
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	2.564	---	1.846	2.001
2	**Dövlət ödənişli**	**1.138**	**0.469**	**1.288**	**1.086**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	1.163	0.469	2.043	1.132
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	1.132	---	1.076	0.987
3	**Özəl**	**1.030**	**0.726**	**---**	**1.017**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	1.054	0.726	---	1.040
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	0.284	---	---	0.284
	Bütövlükdə	**1.449**	**0.788**	**1.437**	**1.378**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	1.488	0.788	2.675	1.460
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	1.306	---	1.133	1.117

* İxtisas seçimində iştirak edənlər

Müsabiqədə iştirak edən 14067 nəfər abituriyentdən 9178-i, o cümlədən 4127-si dövlət ödənişsiz, 4419-u dövlət ödənişli, 632-si isə özəl təhsil müəssisəsinə ödənişli təhsil forması üzrə qəbul olub. Qəbul planı ümumilikdə 89.93% yerinə yetirilib. Dövlət ödənişsiz təhsil forması üzrə qəbul planının dolma göstəricisi 94.66, dövlət ödənişli təhsil forması üzrə 86.12, özəl təhsil müəssisəsi üzrə isə 88.39% olub. Qəbul olan abituriyentlərin 3681-i (40.11%) oğlan, 5497-si isə (59.89%) qızdır.

Qəbulda iştirak edən və qəbul olan abituriyentlərin bal göstəriciləri aşağıdakı diaqramlarda təsvir edilib. Hər bir fənn üzrə 100 bal olmaqla (30 bal imtahanın 1-ci mərhələsində və 70 bal imtahanın 2-ci mərhələsində) maksimum toplanıla bilən bal 300-ə bərabər olmuşdur.

QƏBUL İMTAHANLARINDA İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 4.2.1

QƏBUL OLAN ABİTURİYENTLƏRİN TOPLADIQLARI BALLARIN PAYLANMA DİAQRAMI



Şəkil 4.2.2

Diaqramların müqayisəli təhlili göstərir ki, əgər qəbul (buraxılış) imtahanında iştirak edənlər seçməsində 100-dən çox bal toplayan abituriyentlərin nisbi sayı 34.26% təşkil edibsə, qəbul olanlar seçməsində belə abituriyentlərin nisbi sayı 53.61%-ə bərabər olub. İmtahanda toplanılan maksimal bal 283.100-ə bərabərdir.

Təhsil formaları üzrə aparılan müsabiqə və yerləşdirmənin nəticələri 4.2.4 saylı cədvəldə təqdim olunur.

Cədvəl 4.2.4

ÜMUMİ ORTA TƏHSİL BAZASINDA ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİNƏ QƏBUL OLAN ABİTURİYENTLƏRİN SAYI HAQQINDA MƏLUMAT

№	TƏHSİL FORMASI	Qəbul planı	Qəbul olub			Qəbulolma faizi
			Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
1	**Dövlət ödənişsiz**	**4360**	**3984**	**143**	**4127**	**94.66**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	3452	3183	114	3297	95.51
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	908	801	29	830	91.41
2	**Dövlət ödənişli**	**5131**	**4337**	**82**	**4419**	**86.12**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	4335	3808	66	3874	89.37
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	796	529	16	545	68.47

Cədvəl 4.2.4 (ardı)

№	TƏHSİL FORMASI	Qəbul planı	Qəbul olub			Qəbulolma faizi
			Azərbaycan bölməsi	Rus bölməsi	Bölmələr üzrə cəmi	
3	**Özəl**	**715**	**620**	**12**	**632**	**88.39**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	695	605	12	617	88.78
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	20	15	0	15	75.00
Bütövlükdə		**10206**	**8941**	**237**	**9178**	**89.93**
	- Xüsusi qabiliyyət imtahanı tələb etməyən ixtisaslar	8482	7596	192	7788	91.82
	- Xüsusi qabiliyyət imtahanı tələb edən ixtisaslar	1724	1345	45	1390	80.63

Orta ixtisas təhsili müəssisələri arasında daha yüksək müsabiqə vəziyyəti Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci və Bakı Dövlət İqtisadiyyat və Humanitar Kollecində yaranıb. Bu təhsil müəssisələrinin orta hesabla bir plan yerinə təqdim edilən ərizələrin sayı müvafiq olaraq, 6.6 və 5.6 olub.

Orta ixtisas təhsili müəssisələri arasında ən aşağı müsabiqə vəziyyəti Bakı Biznes və Kooperasiya Kolleci, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci, Mingəçevir Turizm Kolleci, Sumqayıt Musiqi Kolleci, İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci, Ağdam Musiqi Kolleci və Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsində yaranıb. Bu təhsil müəssisələrində 1 plan yerinə 1-dən az ərizə verilib.

Abituriyentlərin Azərbaycan və rus bölmələri üzrə ayrılıqda topladıqları ballar hesablanaraq, onların əsasında balların paylanma histoqramları təyin edilib. Hər iki bölmədə histoqram bir qədər asimmetrikdir. Asimmetriya müsbət, yaxud sağtərəflidir. Bu onu göstərir ki, ortastatistik nəticə göstərən abituriyentlərə nəzərən zəif nəticə göstərən abituriyentlərin rastgəlmə ehtimalı daha yüksəkdir.

Azərbaycan bölməsini təmsil edən ortastatistik abituriyent 90.97, rus bölməsini təmsil edən isə 101.70 bal toplayıb. Azərbaycan bölməsində abituriyentlərin yarısı 83.66-dan, rus bölməsində isə 95.28-dən çox bal toplaya bilməyib. Azərbaycan bölməsində maksimal bal 283.1, rus bölməsində isə 238.9 olub.

Azərbaycan bölməsində ortastatistik abituriyent Azərbaycan dili fənnindən 39.77, riyaziyyatdan 27.83, xarici dildən 23.37, rus bölməsində isə rus dilindən 41.58, riyaziyyatdan 29.99, xarici dildən 30.13 bal toplayıb.

Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul 9-cu sinif üzrə buraxılış imtahanı standartları əsasında aparılıb. İmtahanda iştirak edən 22798 nəfər abituriyentin 60.57%-i, heç olmasa, bir fənn üzrə 20 baldan, 94.80%-i 40 baldan, 90.88%-i xarici dil fənni üzrə 40 baldan aşağı nəticə göstərib. Hər bir fənn üzrə 151 abituriyent ən azı 60 bal, 7 abituriyent isə ən azı 80 bal toplayıb. Qəbul olan 9178 nəfər abituriyentin, 41.53%-i heç olmasa, bir fənn üzrə 20 baldan, 92.57%-i 40 baldan aşağı nəticə göstərib. Qəbul olan abituriyentlərin arasında hər bir fənn üzrə 64 abituriyent ən azı 60 bal, 1 abituriyent isə ən azı 80 bal toplayıb.

Yuxarıda qeyd olunduğu kimi, bu il ümumi orta təhsil bazasında 44 orta ixtisas təhsili müəssisəsinə qəbul aparılıb. Cədvəldən göründüyü kimi, yalnız Şəki Dövlət Texniki Kollecində plan yerləri 100% dolub. 29 orta ixtisas təhsili müəssisəsində boş qalan plan yerləri 10 faizədəkdir, qalan 14 orta ixtisas təhsili müəssisəsində isə 10%-dən yuxarıdır. Bunların əksəriyyəti bölgələrdə yerləşən və özəl orta ixtisas təhsili müəssisələridir.

Orta ixtisas təhsili müəssisələri arasında qəbul planının ən az dolma göstəricisi Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsindədir. Cədvəldən göründüyü kimi, bu orta ixtisas təhsili müəssisəsinin plan yerlərinin 62.07 %-i boş qalıb.

Son illər ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbulla bağlı göstəricilər əvvəlki illərlə müqayisədə xeyli yaxşılaşıb. Müqayisə üçün qeyd edək ki, 1998-ci ildə orta ixtisas təhsili müəssisələrindən yalnız birində plan yerləri tam dolmuş, yarısına qədərində isə 50%-dən çox kəsirdə qalmışdı.

Orta ixtisas təhsili müəssisələrinin boş qalmış plan yerləri haqqında məlumat 4.2.5 saylı cədvəldə təqdim olunur.

Cədvəl 4.2.5

ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏLƏRİ ÜZRƏ BOŞ QALAN PLAN YERLƏRİ HAQQINDA MƏLUMAT

№	ORTA İXTİSAS TƏHSİLİ MÜƏSSİSƏSİ	Plan	Boş yerlərin	
			sayı	faizi
1	Bakı Xoreqrafiya Akademiyasının orta ixtisas təhsili pilləsi	87	54	62.07
2	Ağdam Musiqi Kolleci	105	50	47.62
3	İsmayıllı Dövlət Humanitar və Texnologiya Kolleci	215	78	36.28
4	Sumqayıt Musiqi Kolleci	86	23	26.74
5	Gəncə Musiqi Kolleci	144	26	18.06
6	Bakı Humanitar Kolleci	300	54	18.00
7	Şuşa Humanitar Kolleci	145	24	16.55
8	Lənkəran Dövlət Humanitar Kolleci	166	27	16.27
9	Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kolleci	254	41	16.14
10	Bakı Biznes və Kooperasiya Kolleci	355	48	13.52
11	Göyçay Dövlət İdarəetmə və Texnologiya Kolleci	330	43	13.03
12	Mingəçevir Turizm Kolleci	350	44	12.57
13	Bakı İdarəetmə və Texnologiya Kolleci	393	48	12.21
14	Şamaxı Dövlət Regional Kolleci	369	44	11.92
15	Bakı Avrasiya Kolleci	30	3	10.00
16	Qazax Dövlət Sosial-İqtisadi Kolleci	255	25	9.80
17	Qərbi Kaspi Universiteti (orta ixtisas təhsili pilləsi)	330	32	9.70
18	Şəki Dövlət Regional Kolleci	272	25	9.19
19	Sabirabad Dövlət Sosial-İqtisadi Kolleci	175	16	9.14
20	Naxçıvan Musiqi Kolleci	140	12	8.57
21	Gəncə Dövlət Regional Kolleci	345	27	7.83
22	Astara Pedaqoji Kolleci	230	18	7.83
23	Bakı Qida Sənayesi Kolleci	243	19	7.82
24	Tovuz Dövlət Sosial-İqtisadi Kolleci	141	11	7.80
25	Naxçıvan Dövlət Texniki Kolleci	120	9	7.50
26	Ağdaş Dövlət Humanitar Kolleci	213	14	6.57
27	Quba Dövlət Sosial-İqtisadi Kolleci	245	16	6.53
28	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Texniki Kolleci	230	15	6.52
29	Masallı Dövlət Regional Kolleci	145	9	6.21
30	Zaqatala Dövlət İdarəetmə və Texnologiya Kolleci	100	6	6.00
31	Azərbaycan Dövlət Pedaqoji Universiteti nəzdində Azərbaycan Dövlət Pedaqoji Kolleci	720	43	5.97
32	Ağcabədi Pedaqoji Kolleci	235	14	5.96
33	Şirvan Dövlət İqtisadiyyat və Humanitar Kolleci	221	13	5.88
34	Bakı Dövlət İqtisadiyyat və Humanitar Kolleci	250	14	5.60
35	Bakı Dövlət Sosial-İqtisad Kolleci	235	12	5.11
36	Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində Azərbaycan Maliyyə-İqtisad Kolleci	210	10	4.76
37	Azərbaycan Memarlıq və İnşaat Universitetinin nəzdində İnşaat Kolleci	336	16	4.76
38	Bərdə Dövlət İdarəetmə və Texnologiya Kolleci	146	6	4.11
39	Azərbaycan Texniki Universitetinin nəzdində Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci	383	14	3.66
40	Ağdam Dövlət Sosial-İqtisadi Kolleci	250	8	3.20
41	Sumqayıt Dövlət Universitetinin nəzdində Sumqayıt Dövlət Texniki Kolleci	259	8	3.09
42	Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft-Energetika Kolleci	335	8	2.39
43	Azərbaycan Dövlət Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci	56	1	1.79
44	Şəki Dövlət Texniki Kolleci	57	0	0.00
	C Ə M İ	**10206**	**1028**	**10.07**

5. ÜMUMİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ BURAXILIŞ İMTAHANLARININ NƏTİCƏLƏRİ

"Ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsinin (attestasiyasının) aparılması Qaydaları"na əsasən şagirdlər 9-cu və 11-ci siniflər üzrə buraxılış imtahanını tədris dili (Azərbaycan bölməsinin şagirdləri üçün – Azərbaycan dili, rus bölməsinin şagirdləri üçün – rus dili, gürcü bölməsinin şagirdləri üçün – gürcü dili), riyaziyyat və xarici dil fənlərindən vermişlər. Tədris dili Azərbaycan, rus və ya gürcü dillərindən fərqli olan ümumtəhsil müəssisələrinin şagirdləri yalnız riyaziyyat və xarici dil fənləri üzrə imtahan vermişlər. 9-cu və 11-ci siniflər üzrə buraxılış imtahanında üzrsüz səbəbdən iştirak etməyən şagirdlərə attestat verilməmişdir.

9-cu siniflər üzrə buraxılış imtahanı iki mərhələdə keçirilib. I mərhələdə şagirdlərin məktəblərdə mənimsədikləri bacarıq və vərdişləri, II mərhələdə isə bilik və bacarıqları yoxlanılıb.

Həm 9, həm də 11-ci siniflər üzrə buraxılış imtahanlarında tədris dili Azərbaycan dilindən fəqli olan şagirdlər yuxarıda qeyd olunan fənlərdən əlavə dövlət dili kimi Azərbaycan dili fənnindən də imtahan veriblər.

İmtahanlar bölgələr üzrə aşağıdakı tarixlərdə keçirilmişdir:

Ümumi təhsil səviyyəsi üzrə buraxılış imtahanının I mərhələsi:

I zona: 03.03.2019-cu il tarixdə –Bakı ş. (Nərimanov, Səbail, Yasamal, Nəsimi, Nizami, Binəqədi, Sabunçu, Xətai, Suraxanı, Xəzər, Qaradağ, Pirallahı rayonları), Naxçıvan MR, Şirvan;

II zona: 10.03.2019-cu il tarixdə – Gəncə, Göygöl, Samux, Naftalan, Goranboy, Daşkəsən, Şəki, Oğuz, Qəbələ, Lənkəran, Astara, Biləsuvar, Ağsu, Zərdab, Şamaxı, Kürdəmir, Ağdam, Yevlax, Bərdə, Tərtər, İmişli, Saatlı, Sabirabad, Xaçmaz, Şabran, Sumqayıt, Abşeron;

III zona: 17.03.2019-cu il tarixdə – Şəmkir, Gədəbəy, Ağstafa, Qazax, Tovuz, Mingəçevir, Balakən, Zaqatala, Qax, Yardımlı, Cəlilabad, Masallı, Lerik, Göyçay, Ağdaş, Ucar, İsmayıllı, Qobustan, Ağcabədi, Xocavənd, Füzuli, Beyləqan, Salyan, Neftçala, Hacıqabul, Qusar, Quba, Siyəzən, Xızı.

Qeyd 1: Məcburi köçkün rayonlarından olan şagirdlər buraxılış imtahanını ümumtəhsil müəssisəsinin yerləşdiyi şəhərdə (rayonda) yuxarıda göstərilən qrafikə uyğun veriblər.

Qeyd 2: Müxtəlif tipli xüsusi hallar olan ümumtəhsil müəssisələrində buraxılış imtahanları 17.03.2019 tarixdə keçirilib.

Qeyd 3: Tədris dili ingilis və ya fransız dilində olan ümumtəhsil müəssisələrində buraxılış imtahanı 17.03.2019-cu il tarixdə keçirilib.

Ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanının II mərhələsi:

I zona: 02.06.2019-cu il tarixdə – Bakı ş. (Nərimanov, Səbail, Yasamal, Nəsimi, Nizami, Binəqədi, Sabunçu, Xətai, Suraxanı, Xəzər, Qaradağ, Pirallahı rayonları), Naxçıvan MR, Şirvan;

II zona: 09.06.2019-cu il tarixdə – Gəncə, Göygöl, Samux, Naftalan, Goranboy, Daşkəsən, Şəki, Oğuz, Qəbələ, Lənkəran, Astara, Biləsuvar, Ağsu, Zərdab, Şamaxı, Kürdəmir, Ağdam, Yevlax, Bərdə, Tərtər, İmişli, Saatlı, Sabirabad, Xaçmaz, Şabran, Sumqayıt, Abşeron;

III zona: 16.06.2019-cu il tarixdə – Şəmkir, Gədəbəy, Ağstafa, Qazax, Tovuz, Mingəçevir, Balakən, Zaqatala, Qax, Yardımlı, Cəlilabad, Masallı, Lerik, Göyçay, Ağdaş, Ucar, İsmayıllı, Qobustan, Ağcabədi, Xocavənd, Füzuli, Beyləqan, Salyan, Neftçala, Hacıqabul, Qusar, Quba, Siyəzən, Xızı.

Qeyd 1: Məcburi köçkün rayonlarından olan şagirdlər buraxılış imtahanını ümumtəhsil müəssisəsinin yerləşdiyi şəhərdə (rayonda) yuxarıda göstərilən qrafikə uyğun veriblər.

Qeyd 2: Müxtəlif tipli xüsusi hallar olan ümumtəhsil müəssisələrində buraxılış imtahanları 16.06.2019 tarixdə keçirilib.

Qeyd 3: Tədris dili ingilis və ya fransız dilində olan ümumtəhsil müəssisələrində buraxılış imtahanı 16.06.2019 tarixdə keçirilib.

Tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı:

I zona: 07.04.2019-cu il tarixdə – Bakı ş. (Nərimanov, Səbail, Yasamal, Nəsimi, Nizami, Binəqədi, Sabunçu, Xətai, Suraxanı, Xəzər, Qaradağ, Pirallahı rayonları), Naxçıvan MR, Şirvan, Heydər Əliyev adına hərbi lisey;

II zona: 14.04.2019-cu il tarixdə – Gəncə, Göygöl, Samux, Naftalan, Goranboy, Daşkəsən, Şəki, Oğuz, Qəbələ, Lənkəran, Astara, Biləsuvar, Ağsu, Zərdab, Şamaxı, Kürdəmir, Ağdam, Yevlax, Bərdə, Tərtər, İmişli, Saatlı, Sabirabad, Xaçmaz, Şabran, Sumqayıt, Abşeron;

III zona: 21.04.2019-cu il tarixdə – Şəmkir, Gədəbəy, Ağstafa, Qazax, Tovuz, Mingəçevir, Balakən, Zaqatala, Qax, Yardımlı, Cəlilabad, Masallı, Lerik, Göyçay, Ağdaş, Ucar, İsmayıllı, Qobustan, Ağcabədi, Xocavənd, Füzuli, Beyləqan, Salyan, Neftçala, Hacıqabul, Qusar, Quba, Siyəzən, Xızı.

Qeyd 1: Məcburi köçkün rayonlarından olan şagirdlər buraxılış imtahanını ümumtəhsil müəssisəsinin yerləşdiyi şəhərdə (rayonda) yuxarıda göstərilən qrafikə uyğun veriblər.

Qeyd 2: Müxtəlif tipli xüsusi hallar olan ümumtəhsil müəssisələrində buraxılış imtahanları 21.04.2019 tarixdə keçirilib.

Qeyd 3: Tədris dili ingilis və ya fransız dilində olan ümumtəhsil müəssisələrində buraxılış imtahanı 21.04.2019-cu il tarixdə keçirilib.

İmtahanda şagirdlərə təqdim olunan sualların strukturu aşağıdakı cədvəldə verilib:

Cədvəl 5.1

Fənlər	**9-cu siniflər üzrə buraxılış imtahanı**		**11-ci siniflər üzrə buraxılış imtahanı**
	I mərhələ	**II mərhələ**	
Xarici dil	Dinləmə mətni üzrə (publisistik və ya dialoq) 6 tapşırıq (4 qapalı tipli və yazılı şəkildə cavablandırılması tələb olunan 2 açıq tipli); Oxuyub-anlama mətni üzrə 9 tapşırıq (5 qapalı tipli və yazılı şəkildə cavablandırılması tələb olunan 4 açıq tipli); Cəmi 15 tapşırıq	30 qapalı tipli tapşırıq	Dinləmə mətni üzrə 6 tapşırıq (yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 3 və qapalı tipli 3 tapşırıq); Qapalı tipli 16 tapşırıq; Oxuyub-anlama mətni üzrə 8 tapşırıq (yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 4 və qapalı tipli 4 tapşırıq); Cəmi 30 tapşırıq
Tədris dili	Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik), hər mətn üzrə 10 tapşırıq (5 qapalı tipli və yazılı şəkildə cavablandırılması tələb olunan 5 açıq tipli); Cəmi 20 tapşırıq	30 qapalı tipli tapşırıq	Dil qaydalarına dair 10 qapalı tipli tapşırıq; Oxuyub-anlamaya dair 2 mətn (bədii, publisistik formalı) və hər mətnə aid 10 tapşırıq (yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 5 və qapalı tipli 5 tapşırıq); Cəmi 30 tapşırıq
Riyaziyyat	həllinin yazılması tələb olunan 10 açıq tipli tapşırıq	30 qapalı tipli tapşırıq	Qapalı tipli 13 tapşırıq; Cavabların kodlaşdırılması tələb olunan açıq tipli 5 tapşırıq; Həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 7 tapşırıq; Cəmi 25 tapşırıq
Cəmi	45 tapşırıq (19 qapalı tipli və yazılı şəkildə cavablandırılması tələb olunan 26 açıq tipli tapşırıq)	90 qapalı tipli tapşırıq	85 tapşırıq (56 qapalı tipli, yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli və 5 cavabların kodlaşdırılması tələb olunan 24 açıq tipli tapşırıq)

Balların hesablanması qaydaları aşağıdakı cədvəllərdə təqdim olunub:

Cədvəl 5.2

9-cu sinif buraxılış imtahanı üzrə balların hesablanma qaydası

Fənn	I mərhələ, test tapşırıqları			II mərhələ, test tapşırıqları		
	Maksimal bal	**Test tapşırıqlarının sayı**	**Bal**	**Maksimal bal**	**Test tapşırıqlarının sayı**	**Bal**
Xarici dil (ingilis, alman, fransız, rus, ərəb, fars dilləri)	**30**	15 (6 açıq, 9 qapalı)	$\frac{10}{7}\cdot(2n_{d(açıq)}+n_{d(qapalı)})$	**70**	30 (qapalı)	$7/3^* n_{d\ (qapalı)}$
Tədris dili (Azərbaycan, rus və ya gürcü)	**30**	20 (10 açıq, 10 qapalı)	$2\cdot n_{d\ (açıq)} + n_{d\ (qapalı)}$	**70**	30 (qapalı)	$7/3^* n_{d\ (qapalı)}$
Riyaziyyat	**30**	10 (açıq)	$3\cdot n_{d(açıq)}$	**70**	30 (qapalı)	$7/3^* n_{d\ (qapalı)}$

Qeyd: $n_{d\ (açıq)}$ - yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə toplanılan balların cəmi;
$n_{d\ (qapalı)}$ - qapalı tipli test tapşırıqları üzrə toplanılan balların cəmi.

Cədvəl 5.3

11-ci sinif buraxılış imtahanı üzrə balların hesablanma qaydası

Fənnin adı	Maksimal bal	Tapşırıqların sayı	Bal
Tədris dili (Azərbaycan, rus və ya gürcü)	100	**30 tapşırıq** (qapalı tipli 20 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 10)	$\frac{5}{2}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(qapalı)})$
Riyaziyyat	100	**25 tapşırıq** (qapalı tipli 13, cavabların kodlaşdırılması tələb olunan açıq tipli 5 tapşırıq, həllinin ətraflı şəkildə yazılması tələb olunan açıq tipli 7)	$\frac{25}{8}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(açıq,\ kod)}+\ +n_{d(qapalı)})$
Xarici dil (ingilis, alman, fransız, rus, ərəb və ya fars dili)	100	**30 tapşırıq** (qapalı tipli 23 və yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli 7)	$\frac{100}{37}\cdot(2n_{d(açıq,\ yazılı)}+n_{d(qapalı)})$

Qeyd 1: $n_{d(açıq,\ kod)}$ - cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(qapalı)}$ - qapalı tipli tapşırıqlar üzrə balların cəmi;
$n_{d(açıq,\ yazılı)}$ - yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar üzrə balların cəmi.

Qeyd 2: Qapalı tipli və cavabların kodlaşdırılması tələb olunan açıq tipli tapşırıqların hər birinə verilən düzgün cavab 1 balla qiymətləndirilir.

Qeyd 3: Yazılı şəkildə cavablandırılması tələb olunan açıq tipli tapşırıqlar markerlər tərəfindən meyarlar əsasında 0, $\frac{1}{3}$, $\frac{1}{2}$, $\frac{2}{3}$ və ya 1 balla qiymətləndirilə bilərlər.

Cari ildə ilk dəfə olaraq həm 9-cu, həm də 11-ci siniflər üzrə buraxılış imtahanında dinləmə mətnlərinə aid test tapşırıqlarında istifadə olunub. Həmin mətnlər DİM-in səsyazma studiyasında səsləndirilmiş və arxivləşdirilib.

İmtahanda şagirdlərə hər bir xarici dil fənni üzrə 1 dinləmə mətni təqdim olunub. Audioqurğuya yazılmış həmin mətn bütün imtahan zallarına hərəsində bir audioqurğu olmaqla paylanıb. İmtahan başlandıqda audioqurğu yerləşdiyi zərfdən çıxarılmış və işə salınıb. Dinləmə mətni üzrə təqdim olunan tapşırıqlarla tanış olmaları üçün şagirdlərə 2 dəqiqə vaxt ayrılmış və bundan sonra arada 2 dəqiqəlik fasilə ilə mətn 2 dəfə səsləndirilib.

Yazılı və ətraflı şəkildə cavablandırılması tələb olunan açıq tipli test tapşırıqları markerlər tərəfindən kompüterlərdə yoxlanılıb. Bunun üçün DİM-in əməkdaşları tərəfindən proqram təminatı hazırlanıb, prosesin mümkün bütün mərhələləri avtomatlaşdırılıb və bütün təhlükəsizlik tədbirləri görülüb. Belə ki, bir şagirdin cavab vərəqi proqram vasitəsilə tapşırıq-tapşırıq bölünərək fərqli markerlərə göndərilib və markerin qarşısında oturduğu kompüterin ekranında şagird haqqında heç bir məlumat olmayıb, yəni tapşırığın kimin cavablandırdığı tam məxfi saxlanılıb. Bundan başqa hər bir tapşırıq ən azı iki marker tərəfindən yoxlanılıb (bu markerlərin qiymətləri üst-üstə düşmədiyi halda üçüncü markerə müraciət olunub).

Aşağıda təqdim olunan 5.4 və 5.5 saylı cədvəllərdə açıq tipli test tapşırıqlarının yoxlanılması prosesi haqqında statistik məlumat verilib:

Cədvəl 5.4

Açıq tipli test tapşırıqlarının yoxlanılması haqqında statistik məlumat (9-cu siniflər üzrə buraxılış imtahanı)

	İmtahan fənləri				Bütövlükdə
	Azərbaycan dili	Rus dili	Riyaziyyat	Xarici dil	
Tapşırıqların ümumi sayı	1094670	80590	1179390	707016	3061666
Cavablandırılmayan tapşırıqların sayı *(faizlə)*	308222 (28.16)	14592 (18.11)	671886 (56.97)	434304 (61.43)	1429004 (46.67)
Markerlər tərəfindən qiymətləndirilən tapşırıqların sayı	786448	65998	507504	272712	1632662
Yoxlamaların ümumi sayı *(bir tapşırıq iki fərqli marker tərəfindən yoxlanılır və qiymətlərin üst-üstə düşmədiyi halda, başqa marker(lər) tərəfindən də yoxlanılır)*	1669256	147832	1066717	557100	3440905
Orta hesabla bir tapşırığı yoxlayan markerlərin sayı	2.1	2.2	2.1	2.0	2.1
Yoxlama prosesində iştirak edən markerlərin sayı	282	45	222	140	689
Orta hesabla bir markerə düşən tapşırıqların sayı	5919.3	3285.2	4805.0	3979.3	4994.1

Cədvəl 5.5

Açıq tipli test tapşırıqlarının yoxlanılması haqqında statistik məlumat (11-ci siniflər üzrə buraxılış imtahanı)

	İmtahan fənləri				Bütövlükdə
	Azərbaycan dili	Rus dili	Riyaziyyat	Xarici dil	
Tapşırıqların ümumi sayı	922540	71650	697627	694148	2385965
Cavablandırılmayan tapşırıqların sayı *(faizlə)*	343066 (37.19)	20344 (28.39)	485608 (69.61)	409164 (58.94)	1258182 (52.73)
Markerlər tərəfindən qiymətləndirilən tapşırıqların sayı	579474	51306	212019	284984	1127783
Yoxlamaların ümumi sayı *(bir tapşırıq iki fərqli marker tərəfindən yoxlanılır və qiymətlərin üst-üstə düşmədiyi halda, başqa marker(lər) tərəfindən də yoxlanılır)*	1244453	114524	444836	584776	2388589
Orta hesabla bir tapşırığı yoxlayan markerlərin sayı	2.1	2.2	2.1	2.1	2.1
Yoxlama prosesində iştirak edən markerlərin sayı	294	46	204	186	730
Orta hesabla bir markerə düşən tapşırıqların sayı	4232.8	2489.7	2180.6	3144.0	3272.0

İmtahanın ümumi müddəti həm 9, həm də 11-ci siniflər üzrə 3 saat (tədris dili Azərbaycan, rus və gürcü dillərindən fərqli olan ümumtəhsil müəssisələrinin şagirdləri üçün imtahanın müddəti 2 saat) müəyyən edilmişdir.

Buraxılış imtahanlarından əvvəl şagirdlərə kömək məqsədilə tədris dili (Azərbaycan bölməsinin şagirdləri üçün – Azərbaycan dili, rus bölməsinin şagirdləri üçün – rus dili, gürcü bölməsinin şagirdləri üçün – gürcü dili), riyaziyyat və xarici dil fənlərindən tapşırıq nümunələri hazırlanmış, yazı işinin qiymətləndirilməsi üçün meyarlar müəyyənləşdirilmiş və DİM-in internet saytında yerləşdirilmişdir.

Şagirdlərin rahatlığının təmin olunması üçün imtahanlar yalnız rayon mərkəzlərində deyil, ucqar kənd məktəblərində də keçirilmişdir. 9-cu sinif buraxılış imtahanlarının 1-ci və 2-ci mərhələləri uyğun olaraq 301 və 292, 11-ci sinif buraxılış imtahanları isə 242 imtahan mərkəzində təşkil olunmuşdur.

İmtahanın idarə olunması üçün hər bir rayonda yerli məktəblərin müəllimlərindən ibarət nəzarətçilər seçilmiş, DİM-in əməkdaşları imtahandan əvvəl onlar üçün yerlərdə təlimlər keçmişdir. Ümumiyyətlə, imtahan prosesində respublikanın ümumi təhsil müəssisələrinin müəllimləri arasından 25113 nəfər nəzarətçi, ayrı-ayrı dövlət strukturlarının mütəxəssisləri arasından 2437 nəfər isə imtahan rəhbəri qismində iştirak etmişdir.

Hər buraxılış imtahanından sonra DİM-də və onun regional bölmələrində vətəndaşların buraxılış imtahanları ilə bağlı müraciətlərinə baxılmış və müvafiq qərarlar qəbul edilmişdir.

Buraxılış imtahanlarında cari ilin 190534 nəfər məzunu iştirak etmişdir. Onların 110938 nəfəri 9-cu, 79596 nəfəri isə 11-ci sinif şagirdləri olub. Qeyd edək ki, 2019-cu ildə respublika üzrə 9-cu və 11-ci sinif şagirdlərinin ümumi sayı, müvafiq olaraq, 112349 və 80031 nəfər idi. Göründüyü kimi, buraxılış imtahanlarında bu və ya digər səbəblərdən 1846 nəfər (9-cu və 11-ci siniflər üzrə, müvafiq olaraq, 1411 və 435 nəfər) iştirak etməmişdir.

DİM imtahanın məzmununu və test tapşırıqlarının çətinlik dərəcəsini imtahanın məqsədinə uyğun olaraq maksimum dərəcədə asanlaşdırmışdı. Belə ki, bütün imtahan fənləri üzrə tədris planında çətin sayılan bir sıra mövzulara aid test tapşırıqları imtahana salınmamışdı. Fənlər üzrə bu mövzular aşağıdakılardır:

11-ci siniflər üzrə:

Tədris dili: Vasitəsiz və vasitəli nitq; Durğu işarələri; Dil; Dilçilik; Azərbaycan dilinin quruluşu; Əməli yazı nümunələri.

Riyaziyyat: Triqonometrik bərabərsizliklər; Rasional və irrasional tənliklər və bərabərsizliklər; Tərs funksiya; Ardıcıllığın limiti və funksiyanın limiti.

İngilis dili: Frazeoloji birləşmələr; Say, feil və zərf düzəldən sufikslər; Təyini əvəzliklər, işarə əvəzlikləri; Zərf; Tərkibi feillər; Məsdər; Vasitəli və vasitəsiz nitq.

Rus dili: Frazeologiya; Cümlənin həmcins üzvləri; Təktərkibli cümlələr; Bağlayıcısız mürəkkəb cümlələr.

Alman dili: Nitq etiketləri.

Ərəb dili: Mürəkkəb isimlər; Kəsr sayları; Faizlərin ifadəsi; Nisbi əvəzliklər; Hal zərfliyi; Mütləq tamamlıq; Məsdər, fail və məful formaları; Salim feillərin arzu, şərt və əmr formaları; Köməkçi feillərin işlənməsi; Həmzəli feillər; Tabesiz mürəkkəb cümlələr.

Yuxarıda qeyd olunanlara baxmayaraq, təəssüf ki, 9-cu sinif şagirdləri arasında nəinki tədris proqramını minimum mənimsəməyənlər, hətta oxuyub-yazmaqda çətinlik çəkənlər müəyyənləşdirilmiş, ümumiyyətlə oxuyub-yazmağı bacarmayan 24 nəfər aşkar olunmuşdur. Bu cür halların imtahan rəhbərlərinin əksəriyyətinin protokollarında qeyd olunmamasını nəzərə alsaq, yuxarıda göstərilən faktların, əslində, daha çox olduğunu ehtimal etmək olar. 9-cu siniflər üzrə oxumağı və yazmağı bacarmayan şagirdlərin sayı belədir: Bakı şəhərində 3 nəfər, Gəncə şəhərində, Lerik, Quba, Şəmkir və Tərtər rayonlarının hərəsində 2 nəfər, Lənkəran, Şəki, Ağdaş, Bərdə, Cəlilabad, Goranboy, İmişli, Kəlbəcər, Qəbələ, Salyan və Xaçmaz rayonlarının hərəsində 1 nəfər.

Ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında şagirdlər hər fənndən imtahanın I mərhələsində maksimum 30 bal, II mərhələsində 70 bal, cəmi 100 bal toplaya bilərdilər. Bütövlükdə buraxılış imtahanında iştirak edən ortastatistik şagird I mərhələdə ana dili fənni üzrə 42.67, riyaziyyat fənni üzrə 8.84, xarici dil fənni üzrə 21.04, II mərhələdə isə müvafiq olaraq 46.42, 46.84 və 35.05 nisbi bal toplayıb. Hər iki mərhələ üzrə birlikdə göstəricilər belə olub: ana dili – 45.12, riyaziyyat – 35.28, xarici dil – 30.72 bal. Aşağıdakı diaqramlarda hər bir fənn üzrə ayrılıqda şagirdlərin buraxılış imtahanında əldə etdikləri nəticələr göstərilib. Şəkillərdən də göründüyü kimi, şagirdlərin II mərhələdə əldə etdikləri nəticələr I mərhələnin nəticələrindən

yaxşıdır. Bu daha çox I mərhələdə şagirdlərə açıq tipli test tapşırıqlarının təqdim olunması və cavablandırdıqları tapşırıqların həlli yollarının göstərilməsinin tələb olunması ilə əlaqədardır. 9-cu siniflər üzrə buraxılış imtahanında iştirak edən şagirdlərin 1-ci sinifdən etibarən bacarıq və vərdişlərinin inkişaf etdirilməsi məqsədilə tətbiq olunan yeni tədris proqramına (kurikuluma) əsasən təhsil almalarına baxmayaraq, bu cür tapşırıqları yerinə yetirməkdə çətinlik çəkdiklərini görürük. Tədris dili və xarici dil fənlərindən fərqli olaraq riyaziyyat fənnindən imtahanın birinci mərhələsində təqdim olunan tapşırıqların hamısı açıq tipli olduğu üçün bu hal riyaziyyat imtahanında özünü daha qabarıq şəkildə göstərir (5.1, 5.2, 5.4 saylı şəkilləri 5.3 saylı şəkillə müqayisə edin). Tədris dili fənni üzrə imtahanda təqdim olunan tapşırıqların yarısı, xarici dil fənni üzrə isə yarıdan çoxu qapalı tipli olduğu üçün burada vəziyyət daha yaxşıdır.



Şəkil 5.1



Şəkil 5.2



Şəkil 5.3



Şəkil 5.4

I mərhələdə tədris dili və xarici dil fənlərindən qapalı və açıq tipli tapşırıqların nəticələrini müqayisə etdikdə görürük ki, bu göstəricilər arasında böyük fərq var. Belə ki, I mərhələdə ortastatistik şagirdin tədris dili fənnindən açıq tipli test tapşırıqları üzrə balı (faizlə) 36.50-yə, qapalı tipli test tapşırıqları üzrə isə 55.01-ə, xarici dil fənni üzrə bu göstəricilər müvafiq olaraq 13.79-a və 30.69-a bərabər olub.

9-cu sinfin üzrə buraxılış imtahanının I və II mərhələləri arasında fənlər üzrə korrelyasiya əmsalları da hesablanmışdır. İmtahanın I və II mərhələlərinin nəticələri arasında əhəmiyyətli sayıla bilən statistik əlaqə mövcuddur. Tədris dili fənni üzrə I və II mərhələnin nəticələri arasındakı korrelyasiya əmsalı 0.76-ya, riyaziyyat fənni üzrə 0.67-yə, xarici dil fənni üzrə 0.76-ya, bütövlükdə (hər üç fənn üzrə birlikdə) 0.87-yə bərabərdir.

5.4 saylı şəkildə xarici dil fənləri üzrə göstəricilər ümumi şəkildə verilmişdir. Aşağıdakı cədvəldə ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında hər bir xarici dil fənni üzrə şagirdlərin imtahan nəticələri və tədrisi dili Azərbaycan dilindən fərqli olan şagirdlər üçün dövlət dili kimi Azərbaycan dili fənni üzrə onların imtahan nəticələri də təqdim edilmişdir.

Cədvəl 5.6

Fənlər	Buraxılış imtahanı (I mərh., II mərh., bütövlükdə)	İmtahanda iştirak edənlərin sayı (faizi)	Nisbi ballar üzrə intervallar					
			0	0-20	20-40	40-60	60-80	80-100
İngilis	I mərhələ	91501	8941	51980	14749	7359	5339	3133
		(100.00)	9.77	56.81	16.12	8.04	5.83	3.42
	II mərhələ	91288	559	28136	34591	13774	8837	5391
		(100.00)	0.61	30.82	37.89	15.09	9.68	5.91
	Bütövlükdə	**91663**	**357**	**34085**	**32729**	**12683**	**7677**	**4132**
		(100.00)	**0.39**	**37.19**	**35.71**	**13.84**	**8.38**	**4.51**
Fransız	I mərhələ	2171	205	1019	609	238	85	15
		(100.00)	9.44	46.94	28.05	10.96	3.92	0.69
	II mərhələ	2165	24	747	889	278	168	59
		(100.00)	1.11	34.50	41.06	12.84	7.76	2.73
	Bütövlükdə	**2177**	**12**	**822**	**866**	**293**	**148**	**36**
		(100.00)	**0.55**	**37.76**	**39.78**	**13.46**	**6.80**	**1.65**
Alman	I mərhələ	1303	104	628	385	144	37	5
		(100.00)	7.98	48.20	29.55	11.05	2.84	0.38
	II mərhələ	1303	7	325	528	279	122	42
		(100.00)	0.54	24.94	40.52	21.41	9.36	3.22
	Bütövlükdə	**1304**	**2**	**384**	**546**	**263**	**85**	**24**
		(100.00)	**0.15**	**29.45**	**41.87**	**20.17**	**6.52**	**1.84**
Ərəb	I mərhələ	52	3	22	5	4	5	13
		(100.00)	5.77	42.31	9.62	7.69	9.62	25.00
	II mərhələ	51	0	14	13	5	4	15
		(100.00)	0.00	27.45	25.49	9.80	7.84	29.41
	Bütövlükdə	**53**	**1**	**16**	**12**	**5**	**5**	**14**
		(100.00)	**1.89**	**30.19**	**22.64**	**9.43**	**9.43**	**26.42**
Rus	I mərhələ	15586	2173	9847	2281	745	341	199
		(100.00)	13.94	63.18	14.63	4.78	2.19	1.28
	II mərhələ	15503	191	5949	6071	1910	963	419
		(100.00)	1.23	38.37	39.16	12.32	6.21	2.70
	Bütövlükdə	**15634**	**141**	**7335**	**5496**	**1720**	**673**	**269**
		(100.00)	**0.90**	**46.92**	**35.15**	**11.00**	**4.30**	**1.72**
Azərbaycan dili (dövlət dili kimi)	**Bütövlükdə**	**8277**	**15**	**644**	**2061**	**2477**	**2354**	**726**
		(100.00)	**0.18**	**7.78**	**24.90**	**29.93**	**28.44**	**8.77**

11-ci sinif üzrə buraxılış imtahanında şagirdlərin nəticələri hər bir fənn üzrə 100 ballıq şkalada qiymətləndirilib. Bütövlükdə buraxılış imtahanında iştirak edən ortastatistik şagird ana dili fənni üzrə 45.56, riyaziyyat fənni üzrə 32.12, xarici dil fənni üzrə 35.17 bal toplayıb. Aşağıdakı diaqramlarda hər bir fənn üzrə ayrılıqda şagirdlərin buraxılış imtahanında əldə etdikləri nəticələr göstərilib. Şəkillərdən də göründüyü kimi, şagirdlərin imtahanda əldə etdikləri nəticələr qənaətbəxş deyil. 9-cu sinfin buraxılış imtahanında olduğu kimi, 11-ci siniflər üzrə buraxılış imtahanında da şagirdlərin bacarıq və vərdişlərin inkişaf etdirilməsi üzərində qurulan tapşırıqları yerinə yetirməkdə çətinlik çəkdiklərini görürük. Fənlər üzrə qapalı və açıq tipli tapşırıqların nəticələrini müqayisə etdikdə müəyyən olur ki, bu göstəricilər arasında böyük fərq var. Xüsusilə riyaziyyat fənni üzrə bu fərq daha böyükdür. Belə ki, ortastatistik şagirdin yazılı şəkildə cavablandırılması

tələb olunan açıq tipli test tapşırıqları üzrə balı (faizlə) tədris dili fənnindən 36.10, xarici dil fənnindən 21.07, riyaziyyat fənnindən 13.83-dür. Riyaziyyat fənnindən cavabların kodlaşdırılması tələb olunan açıq tipli test tapşırıqları üzrə orta bal (faizlə) 27.78-dir. Qapalı tipli test tapşırıqları üzrə isə bu göstərici tədris dili fənnindən 55.02-yə, xarici dil fənnindən 43.78-ə və riyaziyyat fənnindən 53.44-ə bərabər olub. Bütün bu təhlillərdən belə qənaətə gəlmək olar ki, ümumtəhsil məktəblərində kurikulumun tətbiqi çox zəifdir və şagirdlərə aşılanan bacarıq və vərdişlər lazımi səviyyədə deyil.



Şəkil 5.5

5.7 saylı şəkildə xarici dil fənləri üzrə göstəricilər ümumi şəkildə verilmişdir. Aşağıdakı cədvəldə tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanında hər bir xarici dil fənni üzrə şagirdlərin imtahan nəticələri və tədrisi dili Azərbaycan dilindən fərqli olan şagirdlər üçün dövlət dili kimi Azərbaycan dili fənni üzrə onların imtahan nəticələri də təqdim edilmişdir.

Cədvəl 5.7

Fənlər	İmtahanda iştirak edənlərin sayı (faizi)	Nisbi ballar üzrə intervallar					
		0	0-20	20-40	40-60	60-80	80-100
İngilis	68876	573	25290	17904	11345	7163	6601
	(100.00)	0.83	36.72	25.99	16.47	10.40	9.58
Fransız	1496	21	623	328	308	142	74
	(100.00)	1.40	41.64	21.93	20.59	9.49	4.95
Alman	776	3	299	226	195	47	6
	(100.00)	0.39	38.53	29.12	25.13	6.06	0.77
Ərəb	35	0	7	8	6	4	10
	(100.00)	0.00	20.00	22.86	17.14	11.43	28.57
Fars	2	0	2	0	0	0	0
	(100.00)	0.00	100.00	0.00	0.00	0.00	0.00
Rus	8324	176	4029	1980	1175	671	293
	(100.00)	2.11	48.40	23.79	14.12	8.06	3.52
Azərbaycan dili (dövlət dili kimi)	6449	2	160	666	1300	2642	1679
	(100.00)	0.03	2.48	10.33	20.16	40.97	26.04

Klassik test nəzəriyyəsi əsasında buraxılış imtahanlarında istifadə edilən testlərin etibarlılığı təhlil olunmuşdur. 9-cu siniflər üzrə buraxılış imtahanının II mərhələsində fənlər üzrə testlərin etibarlılıq əmsalları 0.80-0.94 (Küder-Riçardson (KR-20) və Split-Half), 11-ci siniflər üzrə buraxılış imtahanında isə fənlər üzrə testlərin etibarlılıq əmsalları 0.84-0.94 (KR-20 və Split-Half) hüdudlarında yerləşir. Göründüyü kimi, bu il buraxılış imtahanlarında fənlər üzrə istifadə edilən testlər kifayət qədər etibarlı olmuşdur. Bundan başqa, hər bir imtahan zonasında istifadə edilən buraxılış imtahanı testlərinin Split-Half metodu və Mosye (Mosier) düsturu əsasında bütövlükdə etibarlılıq əmsalları da hesablanmışdır. İmtahan zonaları üzrə ayrı-ayrılıqda aparılmış hesablamalar nəticəsində məlum olmuşdur ki, buraxılış imtahanı testlərinin etibarlılıq əmsalları 9-cu siniflər üzrə 0.97-0.98, 11-ci siniflər üzrə 0.95-0.97 intervallarında yerləşir. Təqdim edilən rəqəmlər sübut edir ki, 2019-cu ildə buraxılış imtahanlarında hər bir imtahan zonası üzrə tərtib edilmiş testlər çox yüksək etibarlılıq xassəsinə malikdir.

DİM buraxılış imtahanlarında şagirdlərə təqdim olunan testlərin məzmununu elə layihələşdirmişdi ki, aşağı və orta qabiliyyətlərin ölçülməsində maksimal dəqiqlik təmin edilsin. Belə ki, Azərbaycan dili fənni üzrə buraxılış imtahanı testləri üçün maksimal informasiya -0.20 və 0.10 loqit arasında qabiliyyət səviyyəsinə malik olan məzunlar üçün əldə olunub (5.1 saylı qrafikə bax). 5.2 saylı qrafikdə şagirdlərin Azərbaycan dili fənni üzrə bilik və bacarıq səviyyələrinə görə paylanması təqdim edilib. Təqdim olunan informasiya əyrilərini və histoqramı müqayisə etdikdə, görürük test tapşırıqları qabiliyyət səviyyələrinə görə daha çox şagirdin cəmləşdiyi hissədə bizə daha çox informasiya verir. Bu isə bizə maksimum dəqiqliklə imtahan verən şagirdlərin çoxunun qabiliyyətinin ölçülməsinə imkan verir. İngilis dili fənni üzrə də demək olar ki, eyni mənzərənin şahidi oluruq (5.7 və 5.8 saylı qrafiklərə bax).

Qeyd olunan xüsusiyyətlər riyaziyyat fənni üzrə testlərdə özünü göstərmir. 5.4 saylı qrafikdən də göründüyü kimi, kurikulumun tələbləri səviyyəsində tərtib edilmiş bu testlər 0.60 və 0.80 loqit arasında yerləşən şagirdlərin bilik və bacarıqları haqqında maksimal informasiya əldə etməyə imkan verir. 5.4 saylı qrafikə nəzər saldıqda isə, demək olar ki, şagirdlərin yarısının qabiliyyət səviyyələrinin -1.00 loqitdən aşağıda yerləşdiyinin şahidi oluruq. Bunun başlıca səbəbi orta məktəblərdə kurikulum üzrə dərslərin hələ də qənaətbəxş şəkildə tədris olunmamasıdır. 5.3 saylı qrafikdə Azərbaycan dili fənni, 5.6 saylı qrafikdə isə riyaziyyat fənni üzrə şagirdlərin buraxılış imtahanında müxtəlif tipli test tapşırıqları üzrə əldə etdikləri nəticələr arasındakı əlaqə göstərilib. Qrafiklərdən də göründüyü kimi riyaziyyat fənni üzrə qapalı tipli və cavabları kodlaşdırılan açıq tipli test tapşırıqları üzrə orta nəticə göstərən şagirdlər belə, yazılı şəkildə cavablandırılması tələbə olunan açıq tipli test tapşırıqları üzrə çox zəif nəticə göstəriblər. Azərbaycan dili fənni üzrə də buna bənzər mənzərənin şahidi olsaq da, burada vəziyyət nisbətən daha yaxşıdır. Bu vəziyyəti nəzərə alaraq düşünürük ki, gələcəkdə şagirdlərə yazılı şəkildə cavablandırılması tələb olunan test tapşırıqlarını bir qədər asanlaşdırmaq lazımdır.

AZƏRBAYCAN DİLİ FƏNNİNDƏN TESTLƏRİN İNFORMASİYA ƏYRİLƏRİ
(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.1

AZƏRBAYCAN DİLİ FƏNNİ ÜZRƏ ŞAGİRDLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI

(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.2

AZƏRBAYCAN DİLİ FƏNNİ ÜZRƏ ŞAGİRDLƏRİN MÜXTƏLİF TİPLİ TEST TAPŞIRIQLARI ÜZRƏ ƏLDƏ ETDİKLƏRİ NƏTİCƏLƏR ARASINDAKI ƏLAQƏ

(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.3

RİYAZİYYAT FƏNNİNDƏN TESTLƏRİN İNFORMASİYA ƏYRİLƏRİ
(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.4

RİYAZİYYAT FƏNNİ ÜZRƏ ŞAGİRDLƏRİN QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI
(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.5

RİYAZİYYAT FƏNNİ ÜZRƏ ŞAGİRDLƏRİN MÜXTƏLİF TİPLİ TEST TAPŞIRIQLARI ÜZRƏ ƏLDƏ ETDİKLƏRİ NƏTİCƏLƏR ARASINDAKI ƏLAQƏ

(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.6

İNGİLİS DİLİ FƏNNİNDƏN TESTLƏRİN İNFORMASİYA ƏYRİLƏRİ

(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.7

İNGİLİS DİLİ FƏNNİ ÜZRƏ ŞAGİRDLƏRİN
QABİLİYYƏT SƏVİYYƏLƏRİNƏ GÖRƏ PAYLANMASI
(11-ci siniflər üzrə buraxılış imtahanı)



Qrafik 5.8

Buraxılış və qəbul imtahanlarının nəticələri əsasında eyni bir məzunun həm buraxılış, həm də qəbul imtahanlarındakı nəticələri arasında stoxastik əlaqənin xarakteri də araşdırılmışdır (5.8 saylı cədvələ bax).

Cədvəl 5.8

BURAXILIŞ VƏ QƏBUL İMTAHANLARININ NƏTİCƏLƏRİ ARASINDA KORRELYASİYA ƏMSALLARI

İXTİSAS QRUPU	Ana dili	Riyaziyyat
I	---	0.881
II	---	0.878
III	0.824	---

Cədvəldən göründüyü kimi, buraxılış və qəbul imtahanının nəticələri arasında əhəmiyyətli sayıla bilən statistik əlaqə mövcuddur. Korrelyasiya əmsalının bu göstəricilərini əsas götürdükdə ortaya belə bir sual çıxır: yalnız eyni bir testin nəticələrindən həm yekun attestasiyanın, həm də ali təhsil müəssisələrinə tələbə qəbulunun aparılmasında istifadə etmək olarmı? Fikrimizcə, bu cür istifadə heç bir halda düzgün deyil. Belə ki, qəbul imtahanı testləri aşağı qabiliyyət intervalında qiymətləndirmədə yüksək dəqiqliyi təmin etmir. Buraxılış imtahanı testləri isə orta və yüksək qabiliyyət intervalında qiymətləndirmədə kifayət qədər effektiv deyil. Başqa sözlə, əgər biz qəbul imtahanı testlərini buraxılış imtahanında iştirak edən məzunlara təqdim etsək, o zaman məzunların çoxu müsbət qiymət ala bilməz və qiymətləndirmənin də keyfiyyəti aşağı olar. Buraxılış imtahanı testlərinin ali təhsil müəssisələrinə qəbul imtahanlarında istifadəsi isə orta və yüksək qabiliyyət səviyyəsinə malik olan abituriyentlərin diferensiasiyasının (bir-birindən fərqləndirilməsinin) keyfiyyətli aparılmasına mənfi təsir göstərər. Nəzərə alınmalıdır ki, keyfiyyətli aparılan qəbul imtahanı sistemi təhsilin keyfiyyətinin yüksəlməsinə təsir göstərən ən mühüm stimullaşdırıcı faktorlardan biridir.

5.9 saylı qrafikdə ali təhsil müəssisələrinə qəbul imtahanlarının nəticəsi əsasında müsabiqədə iştirak edən abituriyentlərin buraxılış imtahanı testləri üzrə düzgün cavablarının paylanması (histoqramı) təqdim edilmişdir. Qrafikdən göründüyü kimi, riyaziyyat və xarici dil fənlərindən fərqli olaraq, ana dili fənni üzrə balların paylanma histoqramları soltərəfli asimmetriyaya malikdir. Riyaziyyat və xarici dil fənləri üzrə şagirdlərin bacarıq və vərdişlərin inkişaf etdirilməsi üzərində qurulan kurikuluma əsaslanan tapşırıqların yerinə yetirilməsindəki çətinlikləri onların nəticələrinə də öz təsirini göstərib. Bu fənlər üzrə şagirdlərin ballarının paylanma histoqramı normal paylanmaya yaxındır. Məlum olduğu kimi, yüksək hazırlıqlı abituriyentləri fərqləndirmək üçün paylanma sağtərəfli asimmetriyaya malik olmalıdır, yəni düzgün cavablandırılan test tapşırıqlarının sayı artdıqca yüksək bal toplayan abituriyentlərin sayı azalmalıdır.

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNƏ QƏBUL İMTAHANLARININ NƏTİCƏLƏRİ ƏSASINDA MÜSABİQƏDƏ İŞTİRAK EDƏN ABİTURİYENTLƏRİN BURAXILIŞ İMTAHANI TESTLƏRİ ÜZRƏ DÜZGÜN CAVABLARININ PAYLANMASI



Qrafik 5.9

5.9 və 5.10 saylı cədvəllərdə 9-cu və 11-ci sinif şagirdlərinin buraxılış imtahanlarında təhsil şöbələri üzrə göstərdikləri nəticələr təqdim edilmişdir. Göründüyü kimi, buraxılış imtahanlarında həm 9-cu, həm də 11-ci sinif şagirdləri arasında ən yüksək nəticələri Təhsil Nazirliyi (TN) tabeli və özəl liseylərin şagirdləri əldə etmişlər. 9-cu və 11-ci siniflərin buraxılış imtahanlarında TN tabeli və özəl liseylərin şagirdlərinin bütün fənlər üzrə topladıqları orta bal, müvafiq olaraq, 183.5-ə və 195.3-ə bərabər olub. Xatırladaq ki, maksimal toplanıla biləcək bal həm 9, həm də 11-ci siniflər üzrə 300-ə bərabərdir.

9-cu siniflər üzrə buraxılış imtahanında bölgələr arasında ən yüksək nəticəni Sumqayıt, Naxçıvan, Bakı şəhərlərinin və Şahbuz rayonunun şagirdləri göstərmişlər. Bu bölgələrin ortastatistik şagirdlərinin göstəriciləri, müvafiq olaraq, 140.6, 133.4, 133.1 və 127.2 bala bərabər olmuşdur. Ən aşağı göstəricilər isə Saatlı, Ağsu və Sabirabad rayonlarının şagirdlərinə (müvafiq olaraq, 77.3, 76.8 və 76.7 bal) məxsus olub.

11-ci siniflər üzrə buraxılış imtahanında ən yüksək nəticəni Sumqayıt şəhərinin, Qax və Qubadlı rayonlarının şagirdləri əldə etmişlər (müvafiq olaraq, 145.2, 137.5 və 136.9 bal). Ən aşağı göstəricilər isə Kürdəmir, Ağsu, Yardımlı, Sabirabad və Daşkəsən rayonlarının şagirdlərinə (müvafiq olaraq 79.5, 78.2, 77.6, 75.2 və 69.0 bal) məxsusdur.

9-cu və 11-ci sinif şagirdlərinin ayrı-ayrı fənlər üzrə nəticələrinə nəzər salsaq, görərik ki, ən yaxşı nəticələri TN tabeli və özəl liseylərin şagirdləri göstərmişlər. TN tabeli və özəl liseylərin 9-cu sinif şagirdlərinin tədris dili fənni üzrə orta bal 65.8%-ə, riyaziyyat fənni üzrə 58.6%-ya, xarici dil fənni üzrə 57.4%-ə bərabər olmuşdur. 11-ci sinif şagirdlərinin isə tədris dili fənni üzrə düzgün cavabların faizi 66.6, riyaziyyat fənni üzrə 56.5, xarici dil fənni üzrə 71.2 təşkil etmişdir.

Regionlar üzrə 9-cu sinif şagirdləri arasında tədris dili fənnindən ən yaxşı nəticələri Sumqayıt (56.1), Naxçıvan (52.8), Bakı (52.4) və Mingəçevir (51.1) şəhərlərinin, Şahbuz (50.7), Qubadlı (50.5) və Qax (50.3) rayonlarının, riyaziyyat fənnindən Sumqayıt (44.3), Naxçıvan (44.0) şəhərlərinin, Şahbuz (43.8) rayonunun,

Bakı (42.5) şəhərinin, Culfa (41.4) və Ordubad (40.0) rayonlarının, xarici dil fənnindən isə Sumqayıt (40.2), Bakı (38.3) və Naxçıvan (36.5) şəhərlərinin, Qubadlı (34.2) rayonunun şagirdlərinə məxsusdur. Tədris dili fənni üzrə ən aşağı nəticələri Daşkəsən (32.5), Sabirabad (32.2), Saatlı (32.2) və Ağsu (31.9) rayonlarının, riyaziyyat fənni üzrə Sabirabad (24.8), Ağsu (24.7) və Saatlı (24.2) rayonlarının, xarici dil fənni üzrə isə Saatlı (20.9), Yardımlı (20.7), Kürdəmir (20.7), Ağsu (20.2), Cəlilabad (20.0) və Sabirabad (19.7) rayonlarının şagirdləri göstərmişlər.

Dövlət İmtahan Mərkəzi model, texnologiya və məzmun baxımından müxtəlif imtahanlar həyata keçirir. Bu müxtəliflik zal nəzarətçilərinin fəaliyyətinin təkmilləşdirilməsini və peşəkarlıq səviyyəsinin yüksəldilməsini zəruriləşdirir . Zal nəzarətçisinin fəaliyyətinin sertifikatlaşdırılması qaydaları birinci növbədə bu məqsədlərə nail olmağa xidmət edir. Digər tərəfdən, bu yolla işdə rəqabətlilik artırılaraq daha keyfiyyətli idarəetmə reallaşır, ictimaiyyətin daha geniş hissəsi imtahanlara cəlb edilərək idarəetmədə şəffaflıq təmin edilir. Zal nəzarətçisi kimi sertifikat almaq istəyənlər üçün aşağıdakı tələblər qoyulur:

- ali təhsilli,
- tabeliyindən və mülkiyyət növündən asılı olmayaraq hər hansı bir təşkilatda hazırda işləyən (və ya iş yerinin olub olmamasından asılı olmayaraq pedaqoji profilli ixtisaslar üzrə bakalavr ali peşə-ixtisas dərəcəsi olanlar),
- yaşı 25-45 (cari zal nəzarətçiləri bazasında olanlar üçün 25-55) arasında olan
- məhkumluğu olmayan və fiziki cəhətdən sağlam olan şəxslər müraciət edə bilərlər.

Bunun üçün namizəd elektron qeydiyyatdan keçir, müsahibəyə və psixometrik testə dəvət olunur, ümumi intellekt səviyyəsi yoxlanılır, iki günlük ***səmərəli ünsiyyət texnikaları*** və ***imtahanların texnologiyaları*** adlı intensiv təlimlərə cəlb edilir, imtahanların texnologiyası ilə bağlı yekun imtahandan keçir. Mərhələləri uğurla başa vuran namizədlər A və B kateqoriya sertifikat əldə edə bilir. Onlara, imtahanların texniki tələbləri gözlənilməklə, təyinat zamanı üstünlük verilir və stimullaşdırıcı tədbir kimi əmək haqları müəyyən çəki əmsalına vurulmaqla hesablanır.

Nəzarətçilərlə təcrübi işin yekun mərhələsi imtahanlar mərhələsidir. Hər bir imtahandan

öncə:

- nəzarətçilər bazasından əvvəlki imtahanda fəaliyyəti "qeyri-kafi" qiymətləndirilən;
- proqram tərəfindən və ya imtahan rəhbəri tərəfindən köçürməyə şərait yaratdığı müəyyənləşdirilən;
- imtahan sənədləri ilə iş və auditoriyanın idarə edilməsi ilə bağlı haqqında neqativ rəy olan;
- üzrsüz olaraq imtahana gəlməyən nəzarətçilər cari bazadan çıxarılır, sonra kompüter proqramı vasitəsi ilə təsadüfi seçim qaydasında nəzarətçilərin binalar və zallar üzrə təyinatı aparılır, vəsiqələri hazırlanır və əlaqələndiricilər vasitəsi ilə nəzarətçilərə paylanır.
- imtahana bir neçə gün qalmış hər bir rayon (şəhər) üzrə həmin cəlb edilən nəzarətçilərlə müvafiq imtahanın idarə edilməsi və texnologiyasına dair təlimlər keçirilir.
- sağlamlıq imkanları məhdud iştirakçılara təhkim edilmiş nəzarətçilərə də ayrıca təlim keçirilir.

sonra:

- imtahanın gedişi haqqında protokol qeydləri zal nəzarətçisi bazası proqramına daxil edilir;
- imtahanın gedişi haqqında protokollar nəzərdən keçirilərək imtahana gəlməyənlərin, imtahandan xaric olunanların, imtahan binasına buraxılmayanların siyahısı hazırlanır, imtahan zamanı baş vermiş xüsusi hallar araşdırılaraq müvafiq formada protokollaşdırılır və bunlara imtahan nəticələrinin emalı zamanı etibarlı hüquqi sənəd kimi müraciət edilir.

Hər bir imtahandan sonra zal nəzarətçilərinin fəaliyyəti barədə rəy və qiymətlər bazaya daxil edilir. Bu qiymətləndirmə iki istiqamətdə aparılır:

1) İmtahan sənədləri (imtahan rəhbərinin protokolu, imtahanın gedişi haqqında protokol, aktlar və s.), imtahan rəhbərləri və DİM nümayəndələrinin rəyləri, abituriyentlərin, valideynlərin, ictimaiyyətin, müxtəlif hökumət və qeyri-hökumət təşkilatlarının müraciəti əsasında aparılan araşdırma və qiymətləndirmə. Bu istiqamətdə aparılan qiymətləndirmə nəticəsində

- imtahana üzrsüz səbəbdən gəlməyən;
- imtahan zamanı imtahan rəhbərinin nəzarətçinin fəaliyyətini qiymətləndirməsinə dair rəyinə əsasən
  - imtahan texnologiyasını və prosedur qaydalarını qeyri-qənaətbəxş bilən;
  - auditoriyanı idarəetmə qabiliyyəti zəif olan;
  - imtahan sənədləri ilə iş aparması lazımi səviyyədə olmayan;
  - abituriyentlər və imtahan rəhbəri ilə ünsiyyətində təlimat qaydalarını pozan;
- imtahanın gedişi haqqında protokolun doldurulmasında ciddi səhvlərə yol verən;
- abituriyentlərin bir-birindən köçürmə hallarına bilərəkdən şərait yaratdığı müəyyənləşdirilən nəzarətçilər cari bazadan çıxarılır, araşdırma aparıldıqdan sonra onlar növbəti imtahana cəlb olunacaq nəzarətçilər bazasından çıxarılır və ya xəbərdarlıq edilir. İmtahan rəhbərləri bu qiymətləndirmələri apararkən "zal nəzarətçilərinin qiymətləndirmə meyarları"na uyğun hərəkət edir. Bu meyarlar imtahan rəhbərinin zal nəzarətçisini obyektiv şəkildə qiymətləndirməsinə imkan verir.

2) Birinci istiqamətdə aparılan araşdırma və qiymətləndirmədə müəyyən subyektiv yanaşmaların ortaya çıxması mümkün olduğundan ikinci istiqamətdə imtahan zalında baş verən və imtahan rəhbərlərinin diqqətindən yayınan faktiki köçürmələrin müəyyənləşdirilməsində kompüter proqramına müraciət olunur. Kontingentin tərkibi, köçürülən fənnin sayı, köçürmədə iştirak edən abituriyentlərin sayı ilə bağlı parametrlər də təhlilə daxil edilərək nəzarətçinin köçürməyə hansı dərəcədə yol verdiyi müəyyənləşdirilir.Nəzarətçilər tərəfindən yol verilən qayda pozuntuları ağır, orta və zəif dərəcə olmaqla üç səviyyədə qiymətləndirilir.

Qəbul imtahanları yekunlaşdırıldıqdan sonra hər iki istiqamətdə aparılan qiymətləndirmələr ümumiləşdirilir.

- Nəzarətçilərin növbəti imtahanlara cəlb olunmasında əsas rol oynayan yekun qiymətlər bazaya daxil edilir.
- Fəaliyyəti qeyri-kafi qiymətləndirilən nəzarətçilər isə müəyyən dövr üçün və ya həmişəlik olaraq bazadan çıxarılır.

Qiymətləndirmənin yekun mərhələsində yuxarıdakı parametrlərlə yanaşı qəbul imtahanında 600-dən yüksək bal toplayan abituriyentlərin sorğu-anketlərində nəzarətçinin fəaliyyətinə verilən qiymətlərə də baxılır.

Qəbul imtahanları yekunlaşdıqdan sonra zal nəzarətçilərinin fəaliyyətlərinin qiymətləndirilməsi və keyfiyyət göstəricilərinin müəyyənləşdirilməsi ilə bağlı xüsusi araşdırma aparılır və hesabat-arayış hazırlanır.

Bunların nəticəsində imtahana cəlb edilmiş nəzarətçilər aşağıdakı kateqoriyalara ayrılır:

- fəaliyyəti əla qiymətləndirilənlər, o cümlədən fəxri fərmanlarla təltif olunanlar;
- fəaliyyəti yaxşı qiymətləndirilənlər;
- fəaliyyəti kafi qiymətləndirilənlər;
- fəaliyyəti qeyri-kafi hesab olunanlar, ciddi təlimat pozuntularına və köçürmə hallarına yol verənlər.

İl ərzində keçirilən müxtəlif imtahanlara, ilk növbədə fəaliyyəti yüksək qiymətləndirilən nəzarətçilər cəlb olunurlar. Bu da digər nəzarətçilərin daha yaxşı fəaliyyət göstərməsini stimullaşdırır. Araşdırmanın nəticələri ilə bağlı müvafiq rayon (şəhər) təhsil şöbələrinə, ümumtəhsil müəssisələrinə məktublar ünvanlanır.

İndi isə nəzarətçilərin fəaliyyəti haqqında statistik məlumatlara diqqət yetirək. 2019-cu ildə keçirilən test imtahanlarına cəlb edilməsi nəzərdə tutulan nəzarətçilər bazası 14957 nəfərdən ibarət olmuşdur. Cari ildə nəzarətçilər bazası ümumi təhsil müəssisələrinin pedaqoji işçilərindən, ali təhsil müəssisələrinin, AMEA-nın müxtəlif institutlarının və bir çox dövlət orqanlarının əməkdaşlarından formalaşmışdır. Belə ki, imtahan prosesinə Bakı və Sumqayıt şəhərlərində məskunlaşmış məcburi köçkün rayonlarının (Qubadlı, Laçın, Şuşa və Zəngilan) məktəbləri də daxil olmaqla respublikanın 2222 ümumi təhsil müəssisəsinin, 48 ali təhsil müəssisəsinin, Dövlət İmtahan Mərkəzinin və bir neçə dövlət orqanının əməkdaşları cəlb edilmişdir. Bunlardan əlavə 33 rayon üzrə müxtəlif özəl strukturlarda işləyən və ya iş yeri olmayan, lakin ali pedaqoji təhsili olduğu üçün zal nəzarətçisi sertifikatı alaraq imtahanlara cəlb olunan şəxslər də bu bazada yer alır. Belə nəzarətçilərin ümumi sayı 564 nəfərdir.

Bu təhlildə I-IV ixtisas qrupları üzrə ali təhsil müəssisələrinin keçirilən qəbul imtahanlarına cəlb olunan nəzarətçilərin fəaliyyəti onların buraxılış, orta ixtisas təhsili müəssisələrinə qəbul və s. digər bütün imtahanlardakı fəaliyyətləri də nəzərə alınmaqla qiymətləndirilib.

2019-cu ildə qəbul imtahanlarına cəlb olunan nəzarətçilərin rayonlar üzrə və ümumilikdə sayı haqqında məlumat aşağıdakı kimidir:

Cədvəl 1

QƏBUL İMTAHANLARINA CƏLB OLUNMUŞ NƏZARƏTÇİLƏRIN RAYONLAR ÜZRƏ SAYI

Rayonlar (Şəhərlər)	İmtahanlara cəlb olunmuş nəzarətçilərin sayı	Bazada nəzarətçilərin ümumi sayı	İmtahanlara cəlbolunma faizi (illərə görə)								
			2019	2018	2017	2016	2015	2014	2013	2012	2011
AMEA	117	259	45,2	62,7	57,0	16,8	57.0	82,9	59,6	50.4	97.7
Bakı	2207	4000	55,2	73,4	77,4	60,0	73.1	76,2	62,9	64.7	88.3
Naxçıvan MR	291	619	47,0	70,8	72,3	50,2	59.3	75,8	69,5	99.2	45.0
Gəncə	515	662	77,8	80,1	81,6	83,0	84.5	98,2	94,6	77.0	53.1
Daşkəsən	1	37	2,7	--	--	--	--	--	--	--	--
Şəmkir	2	351	0,6	--	--	--	--	--	--	--	--
Göygöl	5	101	5,0	--	--	--	--	--	54.0	71.3	--
Samux	7	114	6,1	--	--	--	--	--	53.1	56.3	--
Gədəbəy	1	117	0,9	--	--	--	--	--	--	--	--
Tovuz	2	253	0,8	--	--	--	--	--	--	--	--
Sumqayıt	260	580	44,8	75,3	70,2	57,9	77.2	88,8	82,8	53.9	53.2
Abşeron	216	370	58,4	83,2	78,2	45,3	60.5	73,3	61,3	59.4	85.4
Şamaxı	1	128	0,8	--	--	--	--	--	--	--	--
Mingəçevir	228	239	95,4	80,6	91,5	77,7	93.3	99,1	90,5	0	73,4
Goranboy	2	167	1,2	--	--	--	--	--	--	--	--
Yevlax	41	179	22,9	70,9	56,3	0	0	0	37.3	70,5	62.5
Şəki	315	374	84,2	85,5	98,0	89,2	89.3	98,4	93,9	72.3	25.0
Balakən	2	103	1,9	--	--	--	--	--	--	--	--
Qəbələ	3	159	1,9	--	--	--	--	--	--	--	--
Bərdə	252	326	77,3	68,1	72,4	0	0	0	18.7	0	0
Şuşa	6	11	54,5	85,7	80,0	62,5	85.7	78,3	65,4	82.1	88.6
Ağcabədi	1	253	0,4	66.1	55.4	58,9	54.0	97.4	68.4	--	--
Göyçay	212	232	91,4	91,8	68,4	85,5	79.7	98,1	86,8	0	0
Ucar	5	128	3,9	--	--	--	--	--	--	--	--
Kürdəmir	1	165	0,6	--	--	--	--	--	--	--	--
İsmayıllı	4	137	2,9	--	--	--	--	--	--	--	--
Ağsu	2	96	2,1	--	--	--	--	--	--	--	--
İmişli	5	169	3,0	--	--	--	--	--	--	--	--
Qubadlı	73	90	81,1	71,8	76,5	48,5	77.6	91,5	85,1	51.6	48.8
Beyləqan	1	141	0,7	--	--	--	--	--	--	--	--
Laçın	15	20	75,0	95,7	80,0	38,5	86.7	91,2	63,2	58.5	91.5
Zəngilan	10	21	47,6	92,3	68,6	73,7	71.4	79,1	41,5	51.7	91.9
Şirvan	198	211	93,8	80,6	79,9	76,7	72.6	96,9	91,5	0	0
Hacıqabul	52	91	57,1	--	--	--	--	--	55.2	--	--
Sabirabad	1	224	0,4	--	--	--	--	--	--	--	--
Neftçala	6	93	6,5	--	--	--	--	--	--	--	--
Salyan	1	180	0,6	--	--	--	--	--	--	--	--
Lənkəran	310	339	91,4	93,2	90,5	90,2	83.9	99,0	95,3	68.9	7.6
Astara	6	135	4,4	--	--	--	--	--	--	--	--
Lerik	3	95	3,2	--	--	--	--	--	--	--	--
Cəlilabad	4	309	1,3	--	--	--	--	--	--	21.8	--
Masallı	1	257	0,4	--	--	--	--	--	--	19.8	10.8
Quba	5	234	2,1	--	--	--	--	--	79.3	--	--
Xaçmaz	230	251	91,6	85,9	76,9	80,9	77.0	100,0	0	0	0
DİM	57	74	77,0	--	--	--	--	--	--	--	--
CƏMİ	**5677 (5605)**	**13094 (8948)**	**43,4 (62,6)**	**76,2**	**75,3**	**64,5**	**74.5**	**83,6**	**67,9**	**63,6**	**73,8**

Qeyd-1: Qarşısında "--" işarəsi olan rayonlar müvafiq illərdə qəbul imtahanlarına cəlb edilməmişdir.

Qeyd-2: Cədvəldə adları italik formada verilən rayonlar üzrə yalnız zal nəzarətçisi sertifikatı almış nəzarətçilər qəbul imtahanlarına cəlb edilmişdir.

Qeyd-3: Cədvəldə "cəmi" sətrində mötərizə daxilində verilən ədədlər sertifikatlı nəzarətçilərin (sayları çox az olduğundan) cəlb edildiyi rayonlar üzrə müvafiq göstəriciləri hesaba alınmadan tapılmışdır.

* AMEA – Azərbaycan Milli Elmlər Akademiyasının elmi-tədqiqat institutlarından cəlb edilmiş əməkdaşları bildirir.

* Naxçıvan MR – Naxçıvan MR-in bütün rayonlarından (şəhərlərindən) cəlb edilmiş nəzarətçiləri bildirir.

* DİM – Dövlət İmtahan Mərkəzinin əməkdaşları bazasını bildirir.

2015-ci ildən başlayaraq ali təhsil müəssisələrinin qabiliyyət tələb edən ixtisaslarına (V ixtisas qrupu) və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanları ayrı günlərdə həyata keçirildiyi üçün I-IV ixtisas qrupları üzrə abituriyent sayı azalmış və bu da öz növbəsində qəbul imtahanlarına cəlb olunan nəzarətçi sayında azalmaya səbəb olmuşdu. Belə ki, 2014-ci ildə imtahan prosesinə 6558 nəfər nəzarətçinin cəlb edilməsinə baxmayaraq, 2015-ci ildə bu say 12,5% azalaraq 5737 nəfər olmuş, 2016-cı ildə isə abituriyent kontingentinin təxminən 5000 nəfər azalması ilə bu say 12,6 % də azalaraq 5012 nəfərə düşmüşdü. Lakin 2017-ci ildə hər bir abituriyentə qəbul imtahanlarında iki dəfə iştirak etmə şansı verildiyindən kontingentin sayında kəskin artım (78,2%) baş vermiş, bu da öz növbəsində 2016-cı ilə nəzərən 1780 nəfər (35,5%) daha çox nəzarətçinin prosesə cəlb edilməsinə səbəb olmuşdur. 2018-ci ildə cəlb edilən nəzarətçi sayı isə 2017-ci ilə nəzərən 2,7 % az olmuşdur. 2019-cu ildə bu imtahanlarda iştirak edənlərin sayı əvvəlki ilə nəzərən təxminən 6% azaldığından cari ildə imtahanlara cəlb edilən nəzarətçilərin sayı buna uyğun olaraq azalmış (5605 nəfər) və imtahanlara cəlb edilən bazanın (8948 nəfər, sertifikatlıların təmsil olunduğu rayonun bazası nəzərə alınmadan) 62,6%-nə bərabər olmuşdur. Yəni imtahanlara cəlb edilən nəzarətçi bazasında (sertifikatlıların təmsil olunduğu rayonun bazası nəzərə alınmadan) olan hər 20 müəllimdən 13-ü nəzarətçi qismində cəlb edilmişdir. Belə ki, bunlardan 2926 nəfəri 1 dəfə, 1890 nəfəri 2 dəfə, 471 nəfəri 3 dəfə və 390 nəfəri isə 4 dəfə cəlb edilmişdir. Yəni 5677 nəzarətçi 9679 dəfə prosesə cəlb edilmişdir. Yəni prosesə cəlb edilən nəzarətçilərin 51,5%-i bir dəfə, 84,9%-i isə bir-iki dəfə cəlb edilmişdir.

Aşağıdakı 2 saylı cədvəldə qəbul imtahanlarında nəzarətçilərin iştirakını əks edən rəqəmlər təqdim edilmişdir.

Cədvəl 2

NƏZARƏTÇİLƏRIN İMTAHANLARDA İŞTİRAKI

Rayonun, təşkilatın adı	İmtahanlara cəlb edilmiş nəzarətçi sayı (təkrarla, 2019-cu il)	İmtahanda iştirak etməyən nəzarətçilər (illərə görə)												
		2019		2018	2017	2016	2015	2014	2013	2012	2011	2010	Üzrsüz (2019)	
		Nəfərlə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	Nəfərlə	%-lə (cəlb olunanların sayına nəzərən)
AMEA	170	15	8,8	2.3	8.3	7,9	14.0	12,6	20,9	14.3	4.9	11,1	11	6,5
Yasamal	249	14	5,6	3.9	5.2	2,6	2.4	5,1	6,9	5.3	7.1	5,3	8	3,2
Binəqədi	414	24	5,8	6.9	10.7	4,6	9.7	7,4	6,4	3.3	6.1	4,8	13	3,1
Səbail	186	7	3,8	4.8	10.2	9,0	6.8	7,5	8,3	11.9	7.0	5,4	3	1,6
Xətai	463	24	5,2	3.5	8.1	1,7	5.8	6,9	6,0	7.9	4.0	5,7	15	3,2
Xəzər	218	17	7,8	8.1	9.9	8,4	9.7	9,1	3,9	5.5	4.1	4,2	17	7,8
Nərimanov	298	9	3,0	5.8	4.9	4,6	4.3	6,9	3,5	5.7	4.5	5,1	7	2,3
Suraxanı	346	21	6,1	5.7	8.9	6,7	4.9	5,4	7,0	7.8	4.5	4,7	18	5,2
Sabunçu	449	27	6,0	2.7	6.5	2,5	5.7	4,3	4,4	5.8	5.7	4,2	15	3,3
Nəsimi	227	17	7,5	3.6	7.3	2,5	3.6	6,6	5,5	7.3	2.4	4,1	13	5,7
Qaradağ	136	5	3,7	6.8	8.2	5,1	2.8	3,3	12,6	10.6	9.2	9,2	2	1,5
Nizami	322	15	4,7	5.5	9.1	4,9	3.6	7,0	9,0	6.9	5.1	5,1	11	3,4
Naxçıvan MR	427	5	1,2	1.2	1.6	0,0	0.0	1,4	2,5	2.0	4.4	0,0	3	0,7
Gəncə	965	15	1,6	2.9	1.8	1,3	1.0	3,9	2,8	3.8	1.9	1,2	10	1,0
Daşkəsən	4	0	0,0	--	--	--	--	--	--	--	--	--	0	0,0
Şəmkir	7	0	0,0	--	--	--	--	--	--	--	--	--	0	0,0
Göygöl	18	2	11,1	--	--	--	--	--	6.7	1.4	--	--	2	11,1
Samux	26	0	0,0	--	--	--	--	--	5.0	1.7	--	--	0	0,0
Gədəbəy	2	0	0,0	--	--	--	--	--	--	--	--	--	0	0,0
Tovuz	3	0	0,0	--	--	--	--	--	--	--	--	--	0	0,0
Sumqayıt	385	21	5,5	2.5	4.1	0,6	2.6	4,0	4,3	6.5	3.9	5,8	18	4,7
Abşeron	361	18	5,0	6.2	3.5	3,3	4.9	5,4	7,0	4.3	4.4	5,5	14	3,9

Cədvəl 2 (ardı)

Rayonun, təşkilatın adı	İmtahanlara cəlb edilmiş nəzarətçi sayı (təkrarla, 2019-cu il)	İmtahanda iştirak etməyən nəzarətçilər (illərə görə)												
		2019		2018	2017	2016	2015	2014	2013	2012	2011	2010	Üzrsüz (2019)	
		Nəfərlə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	%-lə	Nəfərlə	%-lə (cəlb olunanların sayına nəzərən)
Şamaxı	1	0	0,0	--	--	--	--	--	--	--	--	--	0	0,0
Mingəçevir	453	17	3,8	4.4	2.0	2,9	3.3	4,6	3,8	--	6,9	1,8	14	3,1
Goranboy	5	0	0,0	--	--	--	--	--	--	--	--	--	0	0,0
Yevlax	42	0	0,0	1.4	0.0	--	--	--	5.0	11.7	13.3	0.0	0	0,0
Şəki	620	6	1,0	2.4	1.3	2,1	0.6	2,8	3,4	3.5	5.8	--	6	1,0
Balakən	6	0	0,0	--	--	--	--	--	--	--	--	--	0	0,0
Qəbələ	10	0	0,0	--	--	--	--	--	--	--	--	--	0	0,0
Bərdə	392	6	1,5	1.2	1.9	--	--	--	3.3	--	--	--	6	1,5
Şuşa	6	1	16,7	5.9	7.7	9,1	0.0	5,6	0,0	4.0	1.9	--	1	16,7
Ağcabədi	2	0	0,0	--	2.5	1.9	1.2	4.1	2.5	--	--	--	0	0,0
Göyçay	404	14	3,5	0.9	0.5	1,4	1.5	3,1	4,0	--	--	---	13	3,2
Ucar	9	0	0,0	--	--	--	--	--	--	--	--	--	0	0,0
Kürdəmir	1	0	0,0	--	--	--	--	--	--	--	--	--	0	0,0
İsmayıllı	8	0	0,0	--	--	--	--	--	--	--	--	--	0	0,0
Ağsu	8	0	0,0	--	--	--	--	--	--	--	--	--	0	0,0
İmişli	14	2	14,3	--	--	--	--	--	--	--	--	--	2	14,3
Qubadlı	145	1	0,7	4.5	3.6	0,0	0.0	4,6	4,5	0.0	0.0	--	1	0,7
Beyləqan	1	0	0,0	--	--	--	--	--	--	--	--	--	0	0,0
Laçın	17	1	5,9	7.1	0.0	7,7	3.8	6,5	14,3	6.9	4.1	--	0	0,0
Zəngilan	16	1	6,3	3.2	6.9	2,9	3.3	2,9	0,0	0.0	2.0	---	1	6,3
Şirvan	461	10	2,2	1.5	1.3	1,2	1.5	2,8	1,6	--	--	--	6	1,3
Hacıqabul	54	0	0,0	--	--	--	--	--	3.3	--	--	--	0	0,0
Sabirabad	4	0	0,0	--	--	--	--	--	--	--	--	--	0	0,0
Neftçala	17	0	0,0	--	--	--	--	--	--	--	--	--	0	0,0
Salyan	2	0	0,0	--	--	--	--	--	--	--	--	--	0	0,0
Lənkəran	642	8	1,2	2.1	1.0	1,7	1.0	2,8	3,1	3.2	4.5	--	6	0,9
Astara	12	0	0,0	--	--	--	--	--	--	--	--	--	0	0,0
Lerik	6	0	0,0	--	--	--	--	--	--	--	--	--	0	0,0
Cəlilabad	4	0	0,0	--	--	--	--	--	--	9.3	--	--	0	0,0
Masallı	2	0	0,0	--	--	--	--	--	--	6.6	0.0	--	0	0,0
Quba	9	0	0,0	--	--	--	--	--	5.3	--	--	--	0	0,0
Xaçmaz	460	11	2,4	2.8	2.3	1,2	0.3	3,0	--	--	--	--	11	2,4
DİM	170	6	3,5	--	--	--	--	--	2.2	5.9	--	2.0	5	2,9
Ümumi	**9679 (9498)**	**340 (336)**	**3,5**	**3.4**	**4.1**	**2,6**	**3,0**	**4,6**	**4,8**	**5,9**	**4,8**	**4,9**	**252 (248)**	**2.7 (2.6)**

Qeyd-1: Qarşısında "--" işarəsi olan rayonlar müvafiq illərdə qəbul imtahanlarına cəlb edilməmişdir.

Qeyd-2: Cədvəldə adları italik formada verilən rayonlar üzrə yalnız zal nəzarətçisi sertifikatı almış nəzarətçilər qəbul imtahanlarına cəlb edilmişdir.

Qeyd-3: Cədvəldə "cəmi" sətrində mötərizə daxilində verilən ədədlər sertifikatlı nəzarətçilərin (sayları çox az olduğundan) cəlb edildiyi rayonlar üzrə müvafiq göstəriciləri hesaba alınmadan tapılmışdır.

Cədvəldən göründüyü kimi cari ilin qəbul imtahanlarında 336 nəfər (sertifikatlıların təmsil olunduğu rayonun nəzarətçilər bazası nəzərə alınmadan, cəlb olunanların 3,5%-i) iştirak etməmişdir. Onların 248 nəfəri (cəlb olunanların 2.6%-i) üzürsüz səbəbdən imtahanda iştirak etməyənlərdir.

İmtahanlara cəlb olunduğu halda iştirak etməyənlərin faizi ən çox AMEA-nın institutları, Şuşa və Zəngilan rayonları və Bakı şəhərinin Xəzər və Nəsimi rayonları üzrə qeydə alınmışdır. Belə ki, bu rayonlar üzrə imtahanda iştirak etməyənlərin faizi respublika üzrə orta göstəricidən iki dəfədən də yüksəkdir.

İmtahan rəhbərləri zal nəzarətçilərinin imtahanın texnologiyasını mənimsəmə səviyyələrini (abituriyentlərin imtahan zalına buraxılması zamanı sənədlərin yoxlanılması, sıra və yerlərində oturmaları, cavab kartlarının və sual kitabçalarının paylanması qaydası, imtahan sənədləri ilə iş və s.) və imtahan zalını idarəetmə bacarığını (abituriyentlərin davranış qaydalarına əməl etmələrinə nəzarət edilməsi, köçürmə hallarına şərait yaratmaması, sakitliyin təmin olunması və s.) nəzərə alaraq onların fəaliyyətini qiymətləndirmişlər (3 saylı cədvələ bax). Yuxarıda da qeyd olunduğu kimi, imtahan rəhbərləri bu qiymətləndirmələri apararkən "zal nəzarətçilərinin qiymətləndirmə meyarları"nı əsas götürürlər.

Cədvəl 3

İMTAHAN RƏHBƏRLƏRİNİN NƏZARƏTÇİLƏRİN İŞİNİ QİYMƏTLƏNDİRMƏSİNƏ DAİR MƏLUMAT

Rayonun, təşkilatın adı	İmtahanlara cəlb edilən nəzarətçi sayı	Qeyri-kafi		Kafi		Yaxşı		Əla		Qiyməti olmayan	
		Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%
AMEA	170	0	0	2	1,2	17	10	134	78,8	17	10
Yasamal	249	0	0	0	0,0	17	6,8	217	87,1	15	6,0
Binəqədi	414	1	0,2	0	0,0	43	10,4	344	83,1	26	6,3
Səbail	186	0	0,0	1	0,5	19	10,2	154	82,8	12	6,5
Xətai	463	0	0,0	4	0,9	34	7,3	391	84,4	34	7,3
Xəzər	218	0	0,0	2	0,9	20	9,2	176	80,7	20	9,2
Nərimanov	298	0	0,0	3	1,0	20	6,7	263	88,3	12	4,0
Suraxanı	346	0	0,0	4	1,2	19	5,5	296	85,5	27	7,8
Sabunçu	449	0	0,0	1	0,2	42	9,4	369	82,2	37	8,2
Nəsimi	227	0	0,0	1	0,4	18	7,9	188	82,8	20	8,8
Qaradağ	136	0	0,0	1	0,7	14	10,3	113	83,1	8	5,9
Nizami	322	0	0,0	2	0,6	21	6,5	282	87,6	17	5,3
Naxçıvan MR	427	0	0,0	14	3,3	76	17,8	332	77,8	5	1,2
Gəncə	965	2	0,2	4	0,4	76	7,9	848	87,9	35	3,6
Daşkəsən	4	0	0,0	0	0,0	0	0,0	4	100,0	0	0,0
Şəmkir	7	0	0,0	0	0,0	0	0,0	7	100,0	0	0,0
Göygöl	18	0	0,0	0	0,0	0	0,0	16	88,9	2	11,1
Samux	26	0	0,0	0	0,0	2	7,7	24	92,3	0	0,0
Gədəbəy	2	0	0,0	0	0,0	0	0,0	2	100,0	0	0,0
Tovuz	3	0	0,0	0	0,0	1	33,3	2	66,7	0	0,0
Sumqayıt	385	0	0,0	2	0,5	53	13,8	308	80,0	22	5,7
Abşeron	361	1	0,3	5	1,4	32	8,9	302	83,7	21	5,8

Cədvəl 3 (ardı)

Rayonun, təşkilatın adı	İmtahanlara cəlb edilən nəzarətçi sayı	Qeyri-kafi		Kafi		Yaxşı		Əla		Qiyməti olmayan	
		Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%	Nəfər	%
Şamaxı	1	0	0,0	0	0,0	0	0,0	1	100,0	0	0,0
Mingəçevir	453	2	0,4	0	0,0	65	14,3	368	81,2	18	4,0
Goranboy	5	0	0,0	0	0,0	0	0,0	5	100,0	0	0,0
Yevlax	42	0	0,0	0	0,0	7	16,7	35	83,3	0	0,0
Şəki	620	0	0,0	2	0,3	45	7,3	565	91,1	8	1,3
Balakən	6	0	0,0	0	0,0	1	16,7	5	83,3	0	0,0
Qəbələ	10	0	0,0	0	0,0	0	0,0	10	100,0	0	0,0
Bərdə	392	0	0,0	5	1,3	66	16,8	313	79,8	8	2,0
Şuşa	6	0	0,0	0	0,0	0	0,0	5	83,3	1	16,7
Ağcabədi	2	0	0,0	0	0,0	0	0,0	2	100,0	0	0,0
Göyçay	404	0	0,0	0	0,0	41	10,1	347	85,9	16	4,0
Ucar	9	0	0,0	0	0,0	0	0,0	9	100,0	0	0,0
Kürdəmir	1	0	0,0	0	0,0	0	0,0	1	100,0	0	0,0
İsmayıllı	8	0	0,0	0	0,0	0	0,0	8	100,0	0	0,0
Ağsu	8	0	0,0	0	0,0	1	12,5	7	87,5	0	0,0
İmişli	14	0	0,0	0	0,0	1	7,1	11	78,6	2	14,3
Qubadlı	145	0	0,0	0	0,0	28	19,3	115	79,3	2	1,4
Beyləqan	1	0	0,0	0	0,0	0	0,0	1	100,0	0	0,0
Laçın	17	0	0,0	0	0,0	1	5,9	15	88,2	1	5,9
Zəngilan	16	0	0,0	0	0,0	1	6,3	14	87,5	1	6,3
Şirvan	461	5	1,1	1	0,2	60	13,0	379	82,2	16	3,5
Hacıqabul	54	1	1,9	1	1,9	19	35,2	33	61,1	0	0,0
Sabirabad	4	0	0,0	0	0,0	0	0,0	4	100,0	0	0,0
Neftçala	17	0	0,0	0	0,0	1	5,9	16	94,1	0	0,0
Salyan	2	0	0,0	0	0,0	0	0,0	2	100,0	0	0,0
Lənkəran	642	0	0,0	11	1,7	118	18,4	501	78,0	12	1,9
Astara	12	0	0,0	0	0,0	1	8,3	11	91,7	0	0,0
Lerik	6	0	0,0	0	0,0	0	0,0	6	100,0	0	0,0
Cəlilabad	4	0	0,0	0	0,0	2	50,0	2	50,0	0	0,0
Masallı	2	0	0,0	0	0,0	0	0,0	2	100,0	0	0,0
Quba	9	0	0,0	0	0,0	3	33,3	6	66,7	0	0,0
Xaçmaz	460	3	0,7	6	1,3	67	14,6	359	78,0	25	5,4
DIM	170	0	0,0	1	0,6	18	10,6	144	84,7	7	4,1
Ümumi	**9679**	**15**	**0,2**	**73**	**0,8**	**1070**	**11,1**	**8074**	**83,3**	**447**	**4,6**

- İmtahanlara cəlb edilmiş 9679 nəzarətçidən 340 nəfəri imtahanda iştirak etməmişdir. İmtahanda iştirak edən 9339 nəzarətçidən 107 nəfərinə qiymət verilməmişdir. Bunlardan 11 nəfəri ehtiyat nəzarətçi olmuş, 96 nəfəri isə zalda olduqları halda fəaliyyətləri qiymətləndirilməmişdir.

2008–2019-cu illərdə nəzarətçilərin qiymətləndirmə meyarları üzrə paylanması aşağıdakı şəkildəki diaqramda təqdim edilmişdir.



Şəkil 1

Qrafikdən göründüyü kimi, fəaliyyəti "əla" qiymətləndirilənlərin faizi artmış, fəaliyyəti "qeyri-kafi" və "kafi" qiymətləndirilənlərin faizi isə azalmışdır. Fəaliyyəti "əla" qiymətləndirilən nəzarətçilərin sayının artmasını qəbul imtahanları üçün nəzarətçi bazasının ən yaxşılarının seçilməsinə imkan verəcək şəkildə geniş olması, nəzarətçilərlə seminar-məşğələlərin imtahandan bir neçə gün öncə və kiçik qruplar şəklində təşkil edilərək interaktiv üsullarla aparılması, nəzarətçilik fəaliyyətlərinin yaxşılaşdırılması üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi (mükafatlandırılmaları, təltif olunmaları, fəaliyyətləri yüksək qiymətləndirilənlər barədə işlədikləri təhsil müəssisələrinin məlumatlandırılması) kimi faktorlarla izah etmək olar. Bu tendensiyanın səbəblərindən biri də "Zal nəzarətçilərinin fəaliyyətinin qiymətləndirilməsi meyarları"nın imtahan rəhbərləri tərəfindən getdikcə daha dəqiq tətbiq edilməsidir.



Şəkil 2

İmtahanda iştirak edən nəzarətçilər bazasının fənlər üzrə ümumi tərkibi ilə (şəkil 2) qayda pozuntusuna yol verən nəzarətçilərin fənlər üzrə tərkibi (şəkil 3) müqayisə edilərək cari ildəki qəbul imtahanlarında hansı ixtisas müəllimlərinin, ümumilikdə yol verilən qayda pozuntularında daha çox paya malik olması aşkarlanmışdır.

QƏBUL İMTAHANLARINDA NƏZARƏTÇİLƏRİN QAYDA POZUNTUSUNA YOLVERMƏ FAİZİ (İXTİSASLAR ÜZRƏ)



Şəkil 3

Cari ildə qayda pozuntusuna yol verənlərin 20,9%-i ibtidai təhsil, 14,9%-i ingilis dili, 12,3%-i tarix, 9,8%-i ana dili və ədəbiyyat, 6,8%-i kimya, 3,8%-i əmək təlimi müəllimləridir. Belə hallara yol verənlərin 2018-ci ildə 17,1%-i ibtidai təhsil, 14,2%-i ingilis dili, 13,8%-i tarix, 12,7%-i ana dili və ədəbiyyat, 6,9%-i kimya, 4,4%-i əmək təlimi müəllimləri idi.

2010–2019-ui illərdə qəbul imtahanlarında iştirak edən ana dili və ədəbiyyat müəllimlərinin sayının nəzarətçilərin ümumi sayının kiçik bir hissəsini (2010-cu ildə 9,8%, 2011-ci ildə 12,2%, 2012-ci ildə 14,8%, 2013-cü ildə 17,4%, 2014-cü ildə 14,6%, 2015-ci ildə 16,3%, 2016-cı ildə 12,9%, 2017-ci ildə 10,7%, 2018-ci ildə 11,3%, 2019-cu ildə 8,5%) təşkil etməsinə baxmayaraq yol verilən qayda pozuntularının böyük bir hissəsi (uyğun olaraq 2010-cu ildə 18,4%, 2011-ci ildə 24,2%, 2012-ci ildə 16,1%, 2013-cü ildə 33,6%, 2014-cü ildə 25,1%, 2015-ci ildə 27,7%, 2016-cı ildə 20,6%, 2017-ci ildə 17,7%, 2018-ci ildə 12,7%, 2019-cu ildə 9,8%) onların payına düşüb. Bənzər nəticə ingilis dili, digər xarici dillər, əmək təlimi və ibtidai sinif müəllimləri üçün də təkrarlanır.

Təhlil göstərir ki, ana dili və ədəbiyyat, idman, əmək, ibtidai təhsil, ingilis dili və digər xarici dilləri tədris edən müəllimlər riyaziyyat, fizika, kimya, biologiya, tarix, coğrafiya ixtisaslı müəllimlərə nisbətən qayda pozuntusuna daha çox yol verirlər.

Aşağıdakı 4 saylı cədvəldə bölgələr üzrə nəzarətçilər tərəfindən qayda pozuntusu hallarının paylanması təqdim edilmişdir.

Cədvəl 4

QAYDA POZUNTUSU HALLARININ BÖLGƏLƏR ÜZRƏ PAYLANMASI

Rayonun, təşkilatın adı	2019		2018		2017		2016		2015		2014		2013		2012		2011		2010	
	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*
AMEA	1,7	2,1	2.2	2.9	2.0	4.2	0,5	0,0	0.7	0.5	1,0	0,8	1,2	2,2	1,3	1,8	1,8	1,6	1,7	0,7
Yasamal	2,5	1,7	2.8	4.4	2.6	4.9	2,8	3,5	2.9	1.5	2,9	2,3	2,8	3,9	5,3	5,9	6,2	7,0	6,6	6,8
Binəqədi	4,2	3,0	4.4	2.9	4.6	4.2	4,3	6,5	4.3	6.9	4,2	5,3	5,0	5,8	7,8	10,1	9,2	7,8	11,0	8,2

Cədvəl 4 (ardı)

Rayonun, təşkilatın adı	2019		2018		2017		2016		2015		2014		2013		2012		2011		2010	
	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*	1*	2*
Səbail	1,9	1,7	2.1	1.8	2.0	2.8	2,6	4,7	2.1	4.0	2,4	1,5	2,9	4,9	3,9	5,9	5,4	8,6	5,5	7,9
Xətai	4,7	7,2	5.1	4.0	4.9	4.5	5,3	6,5	4.9	5.0	4,9	5,3	5,6	5,8	8,3	7,0	10,6	7,8	12,1	8,6
Xəzər	2,2	2,6	2.0	2.5	2.0	1.4	1,6	2,4	2.0	1.0	2,1	2,3	2,4	3,6	3,3	3,9	3,4	3,9	4,1	4,3
Nərimanov	3,1	0,9	3.5	4.4	3.6	5.9	4,3	7,1	3.8	4.0	3,5	5,0	4,2	5,1	5,8	7,8	6,4	4,7	7,9	9,0
Suraxanı	3,5	2,6	3.5	4.0	3.7	5.6	3,5	1,2	3.8	3.5	3,8	5,0	4,0	4,9	6,4	8,0	8,0	6,3	8,9	9,3
Sabunçu	4,5	5,5	4.1	3.6	3.9	4.5	4,1	4,7	3.5	5.4	3,8	6,1	3,6	4,9	6,2	5,7	6,9	8,6	8,0	7,2
Nəsimi	2,3	3,8	2.5	1.5	2.7	1.4	2,9	4,1	3.0	4.5	3,1	1,9	4,0	5,8	6,0	7,0	7,0	6,3	7,3	6,1
Qaradağ	1,4	1,3	1.4	2.2	1.3	1.4	1,4	2,4	1.5	0.0	1,5	1,1	1,8	1,7	2,6	3,4	2,6	3,9	2,4	4,7
Nizami	3	4,3	3.2	4.7	3.3	3.5	3,5	4,7	3.4	4.5	3,3	4,2	3,6	4,4	5,4	6,5	7,1	7,0	7,7	9,0
Naxçıvan MR	4.5	6.8	4.9	8.7	5.1	5.2	5,7	7,6	5.8	7.9	6,6	3,8	8,2	2,9	7,9	2,8	2,8	0,0	3,3	0,0
Gəncə	10,2	5,1	10.4	5.8	10.9	3.5	12,6	4,7	12.0	6.9	11,7	6,1	11,4	6,6	8,9	4,9	5,3	3,1	1,1	2,9
Sumqayıt	3,9	8,1	4.8	6.5	4.3	14.2	5,0	11,8	5.4	9.4	5,3	7,3	6,1	11,9	6,3	7,8	6,1	11,7	5,8	2,9
Abşeron	3,7	1,3	3.4	4.0	3.3	2.8	2,6	1,8	2.4	2.5	2,5	2,7	2,4	3,4	3,9	4,7	4,6	5,5	4,9	6,5
Mingəçevir	4,7	0,9	5.1	4.4	5.2	2.1	5,4	1,2	5.4	4.0	5,4	7,6	4,6	4,9	0,0	0,0	2,3	1,6	1,5	6,1
Yevlax	0,5	3,0	2.2	5.5	1.4	3.5	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--
Şəki	6,6	0	6.7	0.7	7.0	1.4	6,3	0,0	6.8	0.0	6,7	1,5	6,6	1,5	4,0	0,8	0,6	0,0	--	--
Bərdə	4,1	14,5	2.4	7.3	2.7	6.3	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--
Şuşa	0,1	0	0.2	0.0	0.1	0.3	0,1	0,0	0.3	0.0	0,2	0,4	0,3	1,0	0,4	0,3	0,7	0,8	--	--
Göyçay	4,2	3,4	4.5	4.0	4.2	2.1	4,2	1,8	4.5	2.0	4,5	3,1	3,9	3,6	--	--	--	--	--	--
Qubadlı	1,5	5,5	0.7	1.5	0.6	1.0	0,6	2,9	0.7	1.5	0,8	1,1	0,9	2,7	0,5	0,5	0,5	1,6	--	--
Laçın	0,2	0	0.3	0.0	0.2	1.0	0,2	0,6	0.4	0.0	0,4	0,4	0,3	0,0	0,4	0,5	0,9	0,8	--	--
Zəngilan	0,2	0	0.3	0.7	0.3	0.7	0,5	0,6	0.4	0.5	0,4	0,4	0,3	0,5	0,5	0,5	1,3	1,6	--	--
Şirvan	4,8	2,6	5.6	3.6	4.7	2.1	3,6	7,1	3.7	4.0	3,7	8,0	3,3	5,1	--	--	--	--	--	--
Hacıqabul	0,6	0	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--	--
Lənkəran	6,8	5,1	6.7	6.9	7.2	6.3	6,7	0,0	6.7	8.9	6,3	3,8	7,0	2,2	5,0	4,4	0,3	0,0	--	--
Xaçmaz	4,8	4,3	5.0	1.5	5.0	2.1	4,8	2,9	5.1	3.0	5,0	8,4	0,0	0,0	--	--	--	--	--	--

Qeyd: 1*.Rayon üzrə nəzarətçi sayının ümumi nəzarətçi sayına nisbətin faizlə ifadəsi ;

2*.Rayon üzrə qayda pozuntusuna yol verənlərin sayının qayda pozuntusuna yol verənlərin ümumi sayına nisbətinin faizlə ifadəsi.

Qeyd: Yalnız sertifikatlı nəzarətçilərin cəlb edildiyi rayonlar nəzarətçi sayları çox az olduğundan bu statistikaya daxil edilməmişdir.

Cədvəl 4-də 1-ci damadakı göstəricinin 2-cidən kiçik olması müvafiq rayon üzrə nəzarətçilərin daha çox qayda pozuntularına yol verdiyini göstərir. Burdan aydın görünür ki, cari ildə Nizami, Naxçıvan MR, Sumqayıt, Qubadlı, Bərdə, Yevlax rayonlarının nəzarətçiləri qayda pozuntularına daha çox şərait yaradıblar. Qəbul imtahanlarına yeni cəlb olunan rayonların nəzarətçilərinin ilk iştirak etdiyi dövrlərdə qayda pozuntularına daha çox yol verdiklərini Gəncə (2010-cu il), Mingəçevir (2010-cu il), Şirvan (2013, 2014-cü il), Xaçmaz (2014-cü il) kimi rayonların timsalında demək olar.

Ümumiyyətlə, regionlar üzrə baxıldıqda Şəki, Göyçay, Gəncə, Mingəçevir, Şirvan, Xaçmaz nəzarətçilərinin qayda pozuntularına daha az yol verdikləri görünür.

Son illərdə Sumqayıt şəhərinin, Qubadlı, Bərdə və Yevlax rayonlarının məktəblərindən olan nəzarətçiləri arasında qayda pozuntularına yolvermə hallarının daha çox olduğu müşahidə olunur.

Qayda pozuntusuna yol verən nəzarətçilərin ümumi sayı 235, ciddi qayda pozuntusuna yol verənlərin sayı isə 33 nəfərdir.

Yaş tərkibinə görə fərqli olan abituriyent kontingentinin yerləşdiyi zallar üzrə qayda pozuntusu (köçürmə) hallarının paylanması 5 saylı cədvəldə təqdim edilmişdir.

Cədvəl 5

QAYDA POZUNTUSU HALLARININ PAYLANMASI
(ABİTURİYENT KONTİNGENTİNİN YAŞ TƏRKİBİ ÜZRƏ)

Kontingentin yaş tərkibi	Yaş kontingentinə görə		Qayda pozuntusuna yol verilən zalların	
	Zalların Ümumi sayı	Faizi (ümumi zal sayına nəzərən)	sayı	faizi (qayda pozuntusuna yol verilən zalların ümumi sayına nəzərən)
ən çox 18	3843	82.8	127	86.4
18-20	632	13.6	5	3.4
20-dən çox	166	3.6	15	10.2

5 saylı cədvəldən göründüyü kimi cari ildə qəbul imtahanlarında əvvəlki illərin məzunlarının yerləşdiyi zallarda yol verilən qayda pozuntusu halları ilə cari il məzunlarının yerləşdiyi zallarda yol verilən qayda pozuntusu hallarının faiz nisbətində ciddi fərq var.

Araşdırmalar göstərir ki, imtahan təcrübəsi artdıqca nəzarətçilərin qayda pozuntusuna yolvermə hallarında da azalma müşahidə olunur (6 saylı cədvələ bax).

Cədvəl 6

NƏZARƏTÇİLƏRİN QAYDA POZUNTUSU HALLARI
(İMTAHANLARDA İŞTİRAK SAYI ÜZRƏ)

İştirak sayı	İştirak edən nəzarətçilərin		Qayda pozuntusuna yol verən nəzarətçilərin	
	sayı	faizi (ümumi iştirak sayına nəzərən)	sayı	faizi (qayda pozuntusuna yol verənlərin cəminə nəzərən)
ən çox 5	690	12,2	33	14,4
6 - 15	1581	27,8	73	31,9
16 - 35	2325	41,0	96	41,9
ən az 36	1081	19,0	27	11,8

Bu il ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarında iştirak etmiş nəzarətçilər arasından son 10 il ərzində:

- təyin olunduğu zallarda köçürmə faktı aşkarlanmayan;
- bir qayda olaraq, cəlb olunduğu bütün imtahanlarda iştirak edən;
- qeyri-kafi qiymət almayan, yekun qiyməti 4-dən böyük olan və cari ildə yekun qiymətini daha da yaxşılaşdıran;
- imtahan rəhbərinin protokollarında "yaxşı" və "əla" ilə qiymətləndirilən və heç bir təlimat pozuntusuna yol verməyən;
- son on ildə 600-dən yuxarı bal toplayan abituriyentlərin fəaliyyətinə verdiyi rəyi "yaxşı" və "əla" olan;
- indiyə qədər imtahanlarda ən azı 15 dəfə (son iki il ərzində 3 dəfə, o cümlədən qəbul imtahanlarında heç olmasa 1 dəfə) iştirak edən nəzarətçilər müəyyənləşdirilmiş və fəaliyyətləri yüksək qiymətləndirilmişdir. Belə nəzarətçilərin sayı 1423 nəfərdir.

TƏHSİL MÜƏSSİSƏLƏRİ ÜZRƏ FƏALİYYƏTİ YÜKSƏK QİYMƏTLƏNDİRİLƏN NƏZARƏTÇİ-MÜƏLLİMLƏRİN SAYI

Cədvəl 7

1. Təhsil müəssisələri üzrə paylanma

S/s	Təhsil müəssisəsinin adı*	Nəzarətçi sayı
1.	Azərbaycan Dövlət Aqrar Universiteti	16
2.	Lənkəran şəhər 10 saylı tam orta məktəb	12
3.	Şəki şəhər 11 saylı tam orta məktəb	10
4.	Şəki şəhər 18 saylı tam orta məktəb	10
5.	Azərbaycan Texnologiya Universiteti	9
6.	Göyçay şəhər 7 saylı tam orta məktəb	9
7.	Xaçmaz şəhər 9 saylı tam orta məktəb	9
8.	Xətai rayonu 58 saylı tam orta məktəb	8
9.	Mingəçevir şəhər 1 saylı tam orta məktəb	8
10.	Şəki şəhər 1 saylı tam orta məktəb	8
11.	Şəki şəhər 6 saylı tam orta məktəb	7
12.	Göyçay şəhər 7 saylı tam orta məktəb	7
13.	Lənkəran şəhər 7 saylı tam orta məktəb	7

* Bu kateqoriyadan olan təhsil müəssisələrinin sayı ümumilikdə 801-dir.

Cədvəl 8

2. İxtisas fənləri üzrə paylanma

S/s	İxtisasın adı	Nəzarətçi sayı
1.	Tarix	329
2.	Biologiya	186
3.	İbtidai təhsilin pedaqogika və	183
4.	Coğrafiya	175
5.	Fizika	163
6.	Digər ixtisaslar	117
7.	Kimya	110
8.	Əmək təlimi	52
9.	İngilis dili	35
10.	İdman	35
11.	Riyaziyyat	25
12.	Ana dili və ədəbiyyat	8
13.	Digər xarici dillər	5

Bu siyahıda əlavə olaraq 6 məktəb 6 nəfərlə, 10 məktəb 5 nəfərlə, 35 məktəb 4 nəfərlə, 74 məktəb 3 nəfərlə, 189 məktəb 2 nəfərlə, 474 məktəb 1 nəfərlə təmsil olunur.

YEKUN STATİSTİKA



Şəkil 4

Diaqramdan göründüyü kimi bu il ali təhsil müəssisələrinə keçirilən qəbul imtahanlarına cəlb edilmiş nəzarətçi-müəllimlərin 92%-nin fəaliyyəti nümunəvi və yaxşı, 0,8%-nin fəaliyyət kafi, 2,6%-nin fəaliyyəti isə qeyri-kafi qiymətləndirilmişdir.

Fəaliyyəti kafi qiymətləndirilən müəllimlərin nəzarətçi kimi hazırlıq səviyyəsinin artırılması məqsədi ilə hər il olduğu kimi, bu il də, seminar-məşğələlərin ayrı qruplarda təşkil olunması və onların növbəti ilin sınaq imtahanlarına cəlb olunması və fəaliyyətlərinin ayrıca izlənilməsi nəzərdə tutulur. Fəaliyyəti qeyri-kafi qiymətləndirilən müəllimlər isə cari ilin nəzarətçilər bazasından çıxarılmışdır.

DİM nümunəvi işi ilə seçilən və fəaliyyəti əla qiymətləndirilən müəllimləri ilboyu müxtəlif dövlət qurumlarına keçirilən işə qəbul imtahanlarına da öncəliklə dəvət edir, nəzarətçilər üçün keçirilən seminar-məşğələlərdə onların təcrübəsindən istifadə edir və onlar imtahan rəhbərliyinə namizədlər siyahısına daxil edilirlər.

Xatırladaq ki, cari il də daxil olmaqla indiyə qədər DİM-in keçirdiyi imtahanlarda nümunəvi fəaliyyətinə görə fərqlənmiş 3944 nəfər nəzarətçiyə təşəkkür elan edilmiş, bunlardan 352-i fəxri fərmanlarla təltif edilmişdir.

Nəticə

2019-cu ildə I-IV ixtisas qrupları üzrə ali təhsili müəssisələrinə keçirilən qəbul imtahanlarına cəlb edilmiş nəzarətçi-müəllimlərin fəaliyyətinin təhlili ilə bağlı əldə olunan nəticələr:

- Qəbul imtahanları üçün nəzarətçi bazası ən yaxşıların seçilməsi üçün, əsasən, yetərli olmuşdur. Belə ki, cari ildə imtahana cəlb edilməsi nəzərdə tutulan bazanın 62,6%-dən istifadə edilmişdir. Növbəti ildə Şəki, Lənkəran, Göyçay, Xaçmaz, Mingəçevir və Bərdə rayonları üzrə nəzarətçi sayının artırılmasına ehtiyac var.
- Əlaqələndiricilərin nəzarətçiləri imtahana cəlb etməsi işində müsbət tendensiya davam edir. Belə ki, imtahana gəlməyənlərin faizi 3,5% olmuşdur.
- Əla qiymətləndirilən nəzarətçilərin faiz nisbətinin artması yalnız nəzarətçi kontingentinin yaxşıların seçiminə imkan verəcək şəkildə geniş olması, seminar-məşğələlərdə təlim metodlarının dəyişdirilməsi, stimullaşdırıcı tədbirlərin tətbiqi və s. bu kimi yuxarıda qeyd olunan səbəblərlə izah olunmur. Eyni zamanda təhlil onu göstərir ki, imtahan rəhbərlərinin nəzarətçiləri yaxşı və xüsusilə də əla qiymətlərlə qiymətləndirməyə meyilli olmaları da bu artıma təsir göstərmişdir. Odur ki, imtahan rəhbərləri ilə təlimlərdə bu məsələyə diqqətin artırılması nəzərdə tutulur.
- İmtahan rəhbərləri və nəzarətçilərlə il boyu aparılan təlimat işinin nəticəsi kimi köçürmə hallarının azalması tendensiyası davam edir. Cari ildə nəzarətçilərin daha az hissəsi – 2,6%-i qayda pozuntularına yol vermişdir.
- Nəzarətçilərin ixtisasına görə qayda pozuntuları hallarının araşdırılması riyaziyyat, fizika, biologiya və coğrafiya ixtisaslı müəllimlərin qayda pozuntularına nisbətən daha az yol verdikləri tendensiyasının davam etdiyini göstərir.
- Nəzarətçilərin işlədiyi rayonlara görə qayda pozuntuları hallarının araşdırılması son illərdə Sumqayıt şəhərinin, Qubadlı, Bərdə və Yevlax rayonlarının məktəblərindən olan nəzarətçilər arasında qayda pozuntularına yolvermə hallarının daha çox olduğu müşahidə olunur.
- Abituriyent kontingentinin yaş tərkibinə görə köçürmə hallarının araşdırılması cari ildə qəbul imtahanlarında əvvəlki illərin məzunlarının yerləşdiyi zallarda yol verilən qayda pozuntusu halları ilə cari il məzunlarının yerləşdiyi zallarda yol verilən qayda pozuntusu hallarının faiz nisbətində ciddi bir fərq olduğunu göstərir.
- Nəzarətçilərin təcrübəsi artdıqca qayda pozuntularına yol verilməsi halları azalır.
- Müəyyən kriteryalar əsas götürülərək fəaliyyəti nümunəvi olaraq qiymətləndirilmiş nəzarətçilərin cari ilin imtahanlarındakı fəaliyyətini əsasən yaxşı hesab etmək olar.

Nəzarətçilərin fəaliyyətlərinin təhlilinin nəticələri barədə, bir qayda olaraq, hər il Təhsil Nazirliyinə, müvafiq rayon (şəhər) təhsil şöbələrinə və ümumtəhsil müəssisələrinə məlumat verilir.

Dövlət İmtahan Mərkəzinin dövlət qulluğu sahəsində fəaliyyətinin elektron informasiya sistemləri üzrə analitik və statistik təhlili

M.M.Abbaszadə, B.B.Xəlilov, V.O.Əkbərov, S.A.Əliyev

Dövlət İmtahan Mərkəzi 2019-cu ildə dövlət qulluğuna aid olan sahələrdə - dövlət qulluğuna qəbulla bağlı sertifikatın əldə edilməsi üçün test imtahanlarının keçirilməsi, müsabiqə, ümumi müsahibə və daxili müsahibələrin keçirilməsi üzrə işlər, dövlət qulluqçularının Reyestrinin aparılması, ehtiyat kadrlarla iş, dövlət qulluğu üzrə qanunvericiliyin tələblərinin pozulması hallarının müəyyən edilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, etik davranış və qiymətləndirmə, dövlət qulluğuna dair müxtəlif analitik hesabatların hazırlanması, təqdim edilməsi, dövlət qulluğu üzrə məlumat bazalarının və proqram sistemlərinin yaradılması və təkmilləşdirilməsi istiqamətində fəaliyyətini davam etdirmişdir.

Dövlət qulluğuna qəbul üzrə test imtahanında iştirak edərək sertifikat əldə etmiş şəxslərin qeydiyyatı, müsabiqənin müsahibəsi, ümumi müsahibə və daxili müsahibələrə buraxılma ilə bağlı namizədlərin məlumatlarının yoxlanılmasını təmin edən yeni "Namizəd-müsahibə" avtomatlaşdırılmış proqram sistemi yaradılmışdır. Proqram sisteminə imtahanda iştirak etmiş şəxslər, sertifikat əldə etmək hüququ qazanmış şəxslərin qeydiyyata alınması, sertifikatların namizədlərə təqdim edilməsi, verilmiş sertifikatların qüvvədə olma müddəti barədə məlumatlar daxil edilir. Proqram sisteminin köməyi ilə dövlət qulluğu vəzifəsini tutmaq üçün müsahibələrdə iştirak etmək istəyən namizədlərin qanunvericiliklə müəyyən edilmiş bir sıra tələblərə uyğun olub-olmadıqları yoxlanılır. Bu tələblərə Azərbaycan Respublikasının vətəndaşlığı, ödənilməmiş məhkumluğun olmaması, xarici dil, təhsil məlumatları, ixtisas və vəzifə tələblərinin uyğunluğu, qulluq stajının uyğunluğu və digər parametrlər aiddir. Yoxlama prosesinin birinci mərhələsində məlumat bazalarına əsasən vəzifə tələblərinə uyğunluq (təhsil, ixtisas, xarici dil və s.), ikinci mərhələdə isə qulluq stajı və əmək fəaliyyətinin qanunvericiliyin tələblərinə uyğunluğu yoxlanılır. "Namizəd-müsahibə" sistemi həm Mərkəzin, həm də bir sıra dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiya edilmişdir. Sistemdən istifadə nəticəsində müsahibələrə buraxılma və müsahibələrin keçirilməsi üzrə işlərin aparılması daha da optimal və operativ şəkildə həyata keçirilir.

Aşağıdakı cədvəldə (Cədvəl 1) 2017-2019-cu illərdə dövlət qulluğu üzrə test imtahanlarında iştirak edərək sertifikat əldə etmək hüququ qazanmış şəxslər barədə məlumatlar təqdim edilir:

Cədvəl 1.

İllər	Təqdim edilib	Namizəd imtina edib	Dövlət İmtahan Mərkəzi imtina edib	Təqdim edilməyib		Uğurlu nəticələrin sayı
				Namizəd qeydiyyatdan keçməyib	Təsdiq edilib, namizəd sertifikatı götürməyib	
2017	876	3	0	0	126	1005
2018	2562	67	0	0	570	3199
2019	2353	6	1	50	1324	3734
YEKUN:	**5791**	**76**	**1**	**50**	**2020**	**7938**

Növbəti cədvəldə (Cədvəl 2) namizədlərin əldə etmə hüququ qazandıqları sertifikatların növlər üzrə paylanması barədə statistik məlumatlar verilmişdir:

Cədvəl 2.

İl	Sertifikat növləri																			
	AA1	AA2	AA3	AA4	AB1	AB2	AB3	AB4	AC1	AC2	AC3	AC4	BA1	BA2	BA3	BA4	BB1	BB2	BB3	BB4
2017	0	0	0	0	0	0	0	2	2	3	2	4	11	34	47	71	168	154	238	269
2018	0	0	1	2	1	3	2	7	11	11	28	34	11	28	116	244	372	470	805	1053
2019	0	0	1	5	1	4	4	10	25	18	45	49	16	55	139	292	400	561	896	1213
Yekun:	**0**	**0**	**2**	**7**	**2**	**7**	**6**	**19**	**38**	**32**	**75**	**87**	**38**	**117**	**302**	**607**	**940**	**1185**	**1939**	**2535**

Dövlət qulluğu vəzifəsini tutmaq üçün müsahibələrdə iştirak etmək istəyən namizədlərin məlumatlarının yoxlanılması "Namizəd-müsahibə" sistemi vasitəsilə həyata keçirilir. Cədvəl 3-də və Cədvəl 4-də sistemin tətbiq edildiyi 2019-cu ilin may ayından ilin sonunadək müsahibələrdə iştirak etmək istəyən namizədlərin məlumatlarının mərhələli yoxlanılması üzrə göstəricilər əks olunmuşdur.

Cədvəl 3.

Müsahibələr	I mərhələ							
	İlkin razılıq verilib	İmtina edilib						
		Sertifikatı uyğun deyil	İxtisas tələbi uyğun deyil	İntizam tənbehi var	Dil tələbi uyğun deyil	Təhsil məlumatları uyğun deyil*	Zəruri sənədlər tam təqdim edilməyib	Cəmi
Müsabiqə üzrə müsahibə	**8430**	40	19	10	107	10	13	**199**
Ümumi müsahibə	**562**	0	8	1	4	7	29	**49**
Daxili müsahibə	**182**	0	2	0	2	1	0	**5**
Cəmi:	**9174**	**40**	**29**	**11**	**113**	**18**	**42**	**253**

* TMMS və namizədin daxil etdiyi təhsil məlumatları arasında fərq var, TMMS-də məlumat yoxdur, diplom həqiqi deyil və s.

Cədvəl 4.

Müsahibələr	II mərhələ								
	Yekun razılıq verilib	İmtina edilib							Namizəd imtina edib
		Qulluq stajı uyğun deyil	Qanunverici-lik tələbləri pozulub	Musahibədə iştirak hüququ yoxdur	İntizam tənbehi var	Ödənilməmiş məhkumluğu var	Zəruri sənədlər tam təqdim edilməyib	Cəmi	
Müsabiqə üzrə müsahibə	**8120**	136	0	0	0	1	33	**170**	140
Ümumi müsahibə	**479**	15	1	32	6	0	17	**71**	12
Daxili müsahibə	**176**	3	2	0	0	0	0	**5**	0
Cəmi:	**8775**	**154**	**3**	**32**	**6**	**1**	**50**	**246**	**152**

Mövcud qanunvericiliyə əsasən dövlət orqanları müsahibələrdə uğur qazanmış namizədlər onlara təqdim olunduqdan sonra qəbul etdikləri qərar barədə Dövlət İmtahan Mərkəzinə məlumat verməlidir. Belə ki, eyni vəzifə üzrə müsabiqə üzrə müsahibədə uğur əldə etmiş şəxslərdən biri dövlət orqanı tərəfindən vəzifəyə təyin edilməli, digərləri isə ehtiyat kadrlar siyahısına daxil edilməlidirlər. Ümumi və daxili müsahibələr üzrə vəzifəyə təyin edilməyən namizədlərin ehtiyat kadrlar siyahısına daxil edilmələri tələb olunmur. Cədvəl 5-də 2019-cu ildə müsabiqə üzrə müsahibələrdə uğur qazanmış şəxslər barədə məlumatlar təqdim edilir.

Cədvəl 5.

№	Dövlət orqanının adı	Dövlət qulluğuna qəbul edilib	Ehtiyata daxil edilib	Ehtiyatdan imtina edib	Dövlət orqanı qərar verməlidir	Cəmi
1	Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası	1	0	0	0	1
2	Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi	12	5	0	0	17
3	Azərbaycan Respublikasının Maliyyə Nazirliyi	38	28	5	5	76
4	Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi	31	18	0	0	49
5	Azərbaycan Respublikasının Təhsil Nazirliyi	30	14	6	70	120
6	Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi	29	10	0	0	39
7	Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi	22	19	0	0	41

Cədvəl 5 (ardı).

№	Dövlət orqanının adı	Dövlət qulluğuna qəbul edilib	Ehtiyata daxil edilib	Ehtiyat-dan imtina edib	Dövlət orqanı qərar verməlidir	Cəmi
8	Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi	146	75	6	1	228
9	Azərbaycan Respublikasının Energetika Nazirliyi	9	8	0	0	17
10	Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi	40	15	0	8	63
11	Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi	17	4	0	0	21
12	Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi	25	17	6	3	51
13	Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi	10	5	0	0	15
14	Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi	38	7	13	0	58
15	Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi	4	1	0	0	5
16	Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq problemləri üzrə Dövlət Komitəsi	3	14	0	0	17
17	Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi	41	21	2	66	130
18	Azərbaycan Respublikasının Milli Televiziya və Radio Şurası	1	0	0	0	1
19	Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi	172	36	49	0	257
20	Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi	1	4	0	0	5
21	Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi	6	2	0	0	8
22	Bakı Apellyasiya Məhkəməsi	24	7	1	0	32
23	Sumqayıt Apellyasiya məhkəməsi	3	0	1	0	4
24	Şirvan Apellyasiya Məhkəməsi	5	0	0	0	5
25	Şəki Apellyasiya Məhkəməsi	1	0	0	0	1
26	Bakı Ağır Cinayətlər Məhkəməsi	11	4	2	0	17
27	Şəki Ağır Cinayətlər Məhkəməsi	3	0	0	0	3
28	1 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi	1	0	0	0	1
29	2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsi	3	0	0	0	3
30	Sumqayıt İnzibati-İqtisadi Məhkəməsi	1	0	0	0	1
31	Bakı Şəhəri Pirallahı Rayon Məhkəməsi	1	0	0	0	1
32	Bakı şəhəri Binəqədi Rayon Məhkəməsi	9	3	0	0	12
33	Bakı şəhəri Xətai Rayon Məhkəməsi	10	1	0	0	11
34	Bakı şəhəri Qaradağ Rayon Məhkəməsi	4	1	1	0	6
35	Bakı şəhəri Nərimanov Rayon Məhkəməsi	10	0	0	0	10
36	Bakı şəhəri Nəsimi Rayon Məhkəməsi	10	10	1	0	21
37	Bakı şəhəri Nizami Rayon Məhkəməsi	3	0	2	0	5
38	Bakı şəhəri Səbail Rayon Məhkəməsi	8	3	0	0	11
39	Bakı şəhəri Suraxanı Rayon Məhkəməsi	4	0	2	0	6
40	Bakı şəhəri Yasamal Rayon Məhkəməsi	3	0	0	0	3
41	Abşeron Rayon Məhkəməsi	6	1	0	0	7
42	Astara Rayon Məhkəməsi	3	0	0	0	3
43	Bərdə Rayon Məhkəməsi	1	0	0	0	1
44	Gəncə şəhəri Kəpəz Rayon Məhkəməsi	3	0	0	0	3

Cədvəl 5 (ardı).

№	Dövlət orqanının adı	Dövlət qulluğuna qəbul edilib	Ehtiyata daxil edilib	Ehtiyat-dan imtina edib	Dövlət orqanı qərar verməlidir	Cəmi
45	Gəncə şəhəri Nizami Rayon Məhkəməsi	1	3	0	0	4
46	İsmayıllı rayon Məhkəməsi	2	1	0	0	3
47	Masallı Rayon Məhkəməsi	1	0	0	0	1
48	Mingəçevir Şəhər Məhkəməsi	1	0	0	0	1
49	Qəbələ Rayon Məhkəməsi	1	0	0	0	1
50	Siyəzən Rayon Məhkəməsi	1	0	0	0	1
51	Sumqayıt Şəhər Məhkəməsi	7	1	0	2	10
52	Şamaxı Rayon Məhkəməsi	2	0	0	0	2
53	Tovuz Rayon Məhkəməsi	1	0	0	0	1
54	Ucar Rayon Məhkəməsi	1	0	0	0	1
	YEKUN:	**821**	**338**	**97**	**155**	**1411**

Ümumi müsahibə və daxili müsahibədə uğur qazanmış namizədlər barədə məlumatlar isə Cədvəl 6-da verilmişdir.

Cədvəl 6.

Müsahibə növü	Dövlət qulluğunda vəzifəyə təyin edilib	Təyin edilməyib	Təyinatdan imtina edib	Dövlət orqanı qərar verməlidir	Cəmi
Ümumi müsahibə	239	67	3	10	319
Daxili müsahibə	371	37	0	2	410

Yuxarıda qeyd edildiyi kimi, müsabiqə üzrə müsahibələrdə uğur qazanmış və dövlət orqanlarına təqdim edilmiş, lakin vəzifəyə təyin edilməmiş şəxslər, həmçinin dövlət qulluğu vəzifələrində çalışmış və dövlət orqanının ləğvi və ya dövlət qulluğu vəzifələrinin ixtisarı ilə bağlı dövlət qulluğuna xitam verimiş şəxslər barədə məlumatlar Ehtiyat kadrlar siyahısına daxil edilir və 2 il müddətində saxlanılır. Ehtiyat kadrlar siyahısı Mərkəz tərəfindən yaradılmış "Ehtiyat kadrlar" avtomatlaşdırılmış proqram sisteminin məlumat bazasına daxil edilir. Bu sistem 2019-cu ildə daha da təkmilləşdirilmişdir. Belə ki, "Ehtiyat kadrlar" sisteminin Dövlət qulluqçularının Reyestri ilə qarşılıqlı inteqrasiyası təmin edilmişdir. Nəticədə vəzifəyə təyin edilmiş və ehtiyata salınmış şəxslər barədə tam məlumat əldə edilir və müvafiq hesabatlarda əksini tapır. Sistemlərin inteqrasiyası həmçinin, ehtiyat kadrlar siyahısında olan şəxslərin vakant vəzifələrə uyğunluğunun avtomatik müəyyən edilməsinə şərait yaradır. Bu da ehtiyat kadrlar siyahısında olan şəxslərin vəzifələrə təyin olunma imkanlarını daha da artırır. Ehtiyat kadrlar və ehtiyatdan dövlət qulluğu vəzifələrinə təyin edilmiş şəxslər barədə məlumatlar Dövlət İmtahan Mərkəzinin rəsmi saytında onlayn şəkildə ictimaiyyətə təqdim edilir (http://eservices.dim.gov.az/dqmelumat/ehtkadrn/ehtiyatsiyahi.aspx). Dövlət orqanları bu məlumatlardan aktiv şəkildə istifadə edir. Cədvəl 7-də 2019-cu ildə ehtiyat kadrlar siyahısına daxil edilmiş və ehtiyatdan vəzifəyə təyin edilmiş şəxslərin statistikası təqdim edilmişdir.

Cədvəl 7.

Ehtiyat kadrın növü	Ehtiyat kadrlar siyahısına daxil edilib	Ehtiyat kadrlar siyahısından vəzifəyə təyin edilib
Müsabiqə	520	91
Dövlət qulluqçularının sayının və ya ştatların ixtisarı	56	37
Dövlət orqanının ləğvi	39	67
Cəmi	**615**	**195**

			A. Cəmi (B+C+D+E+F)	o cümlədən							D. Cəmi	O cümlədən digər təhsil müəssisəsinə köçürülənlər	Digər təhsil müəssisəsindən köçürülənlər	İxtisasını dəyişənlər	Bərpa olunanlar		Ədədlə	Faizlə	Ədədlə	Faizlə
				TQDK-nın qəbulu	Təhsil müəssisəsinin öz qəbulu (özəl təhsil müəssisələri üçün 2005-ci ilə qədər)	Xarici təhsil müəssisələrindən köçürülənlər	Əcnəbi və vətəndaşlığı olmayan tələbələr	İkinci ixtisas təhsili alanlar												
1	2	3	4	5	6	7	8	9	10	11	12	13	14	15	16	17	18	19	20	21
1992/1993	TO*	Ə*	2	2	0	0	0	0	0	0	0	0	0	0	0	0	2	100,0	0	0,00
1993/1994	TO*	Ə*	1	1	0	0	0	0	0	0	0	0	0	0	0	0	1	100,0	0	0,00
2000/2001	TO*	Q*	1	1	0	0	0	0	0	0	0	0	0	0	0	0	1	100,0	0	0,00
2005/2006	TO*	Ə*	1	1	0	0	0	0	0	0	0	0	0	0	0	0	1	100,0	0	0,00
2010/2011	UO*	Ə*	1	1	0	0	0	0	0	0	0	0	0	0	1	0	1	100,0	0	0,00
2011/2012	UO*	Ə*	2	2	0	0	0	0	0	0	0	0	0	0	0	0	2	100,0	1	50,00
2012/2013	TO*	Ə*	1	1	0	0	0	0	0	0	0	0	0	0	0	0	1	100,0	0	0,00
2012/2013	TO*	Q*	3	6	0	0	0	0	0	0	0	0	0	0	0	0	3	100,0	1	33,33
2012/2013	UO*	Ə*	9	25	0	0	0	0	0	0	0	0	0	0	1	0	9	100,0	0	0,00
2013/2014	TO*	Ə*	6	10	0	0	0	0	0	0	0	0	0	0	1	0	6	100,0	1	16,67
2013/2014	TO*	Q*	8	14	0	0	0	1	0	0	0	0	0	0	2	0	8	100,0	2	25,00
2013/2014	UO*	Ə*	73	218	0	0	0	0	0	0	2	0	18	0	4	0	71	100,0	10	14,08
2014/2015	TO*	Ə*	24	136	0	0	0	1	0	0	0	0	4	0	2	0	24	100,0	4	16,67
2014/2015	TO*	Q*	14	46	0	1	0	1	0	0	0	0	0	3	7	0	14	100,0	0	0,00
2014/2015	UO*	Ə*	184	235	0	0	0	0	5	4	2	0	48	3	34	0	173	97,2	14	8,09
2015/2016	TO*	Ə*	97	229	0	0	0	3	2	0	5	0	16	2	29	1	89	97,8	11	12,36
2015/2016	TO*	Q*	298	181	0	0	0	16	8	11	74	3	32	19	81	20	185	95,9	3	1,62
2015/2016	UO*	Ə*	5036	3990	0	0	2	0	690	75	563	4	821	100	429	42	3666	84,2	168	4,58
2016/2017	TO*	Ə*	3789	3435	0	1	3	12	290	128	245	5	101	66	313	6	3120	91,5	98	3,14
2016/2017	TO*	Q*	585	432	0	1	0	15	45	17	92	2	14	33	97	0	431	90,5	17	3,94
2016/2017	UO*	Ə*	3113	2866	0	0	0	0	523	70	311	0	51	67	217	11	2198	80,8	360	16,38
2017/2018	TO*	Ə*	2334	2046	0	0	1	6	360	225	143	0	51	13	274	5	1601	81,6	282	17,61
2017/2018	TO*	Q*	5	0	0	0	0	0	0	0	0	0	0	1	5	0	5	100,0	0	0,00
Cəmi TO*			***7339***	***6711***	***0***	***3***	***4***	***55***	***729***	***400***	***569***	***10***	***218***	***138***	***812***	***32***	***5609***	88,5	***520***	9,27
Cəmi UO*			***8418***	***7337***	***0***	***0***	***2***	***0***	***1218***	***149***	***878***	***4***	***938***	***170***	***686***	***53***	***6120***	83,4	***553***	9,04
Yekun cəm			**15757**	**14048**	**0**	**3**	**6**	**55**	**1947**	**549**	**1447**	**14**	**1156**	**308**	**1498**	**85**	**11729**	**85,8**	**1073**	**9,15**

*** işarəsi qoyulmuş simvollarda B – bakalavriat, M – magistratura, TO – tam orta, UO – ümumi orta və Ə – əyani, Q – qiyabi kimi müəyyən edilmişdir.**

Buraxılış və qəbul imtahanlarının məzmunu ilə bağlı metodiki materialların hazırlanması, dərslik komplektlərinin elmi-metodiki monitorinqi (qiymətləndirilməsi) və hazırlıq kursları haqqında

A. Batıyeva

Metodika və dərsliklərin monitorinqi şöbəsi tərəfindən əsasnaməyə uyğun olaraq ümumi təhsil səviyyəsi üzrə buraxılış imtahanlarının, hərbi liseylər və bakalavriat səviyyəsi üzrə qəbul imtahanlarının məzmunu ilə bağlı materiallar (buraxılış və qəbul imtahanları üçün proqramlar, imtahan modelləri) hazırlanıb. Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi ilə bütün ümumtəhsil müəssisələri üçün dərslik komplektlərinin nəşrəqədərki layihələrinin elmi-metodiki monitorinqi və qiymətləndirilməsi həyata keçirilib. Həmçinin imtahanlara hazırlaşanlara, şagirdlərə və müəllimlərə metodiki köməklik baxımından materiallar (siniflər üzrə qiymətləndirmə vasitələri, vəsaitlər, tövsiyələr) hazırlanıb və nəşr edilib.

Hazırda qəbul qaydalarına əsasən tam orta təhsil səviyyəsi (11 illik) üzrə buraxılış imtahanı qəbul imtahanının birinci mərhələsi, ixtisas qrupları üzrə imtahan isə ikinci mərhələsi hesab edilir.

Bununla əlaqədar olaraq, Dövlət İmtahan Mərkəzində (DİM) 15 fənn üzrə fəaliyyət göstərən elmi-metodiki seminarda orta və ali təhsil müəssisələrinin müəllimləri, metodistlər, AMEA-nın müvafiq sahələr üzrə mütəxəssislərinin iştirakı ilə imtahanlarda mənimsənilmə səviyyəsinin yoxlanılması və qiymətləndirilməsi mümkün olan alt standartlar, dərsliklərdə həmin alt standartların reallaşdırılması üçün nəzərdə tutulmuş mövzular seçilib. Seçilmiş alt standartlar və mövzulara uyğun qəbul imtahanlarının həm birinci, həm də ikinci mərhələsi üçün proqramlar və yeni tapşırıq modelləri hazırlanıb. Modellərə imtahan verənlərin hazırlıq səviyyəsinin hərtərəfli yoxlanılması məqsədilə müxtəlif çətinlik dərəcəli, nəzəri biliklərin tətbiqi tələb olunan, məntiqi düşüncəyə əsaslanan, səbəb-nəticə əlaqələri üzərində qurulan tapşırıqlar daxil edilib. Tapşırıqlar qapalı (verilənlərdən bir doğru cavabın seçilməsi), cavabı kodlaşdırılan açıq (hesablama, seçim, uyğunluğu müəyyən etmək) və cavabı yazı ilə ifadə edilən açıq tipli olub. Qəbul imtahanının birinci mərhələsi (11 illik təhsil bazasında buraxılış imtahanı) üçün materiallar "Abituriyent" jurnalının xüsusi buraxılışında, ikinci mərhələsi üçün materiallar isə "Abituriyent" jurnalının birinci sayında dərc olunub.

Elmi-metodiki seminarlarda, həmçinin tədris dili, riyaziyyat və xarici dil fənlərindən ümumi orta təhsil (9 illik) bazasında buraxılış imtahanının hər iki mərhələsində mənimsənilmə səviyyəsinin yoxlanılması mümkün olan alt standartlar və 5-9-cu sinif dərsliklərindən həmin alt standartların reallaşdırılmasına dair mövzular seçilib, tapşırıq modelləri və qiymətləndirmə meyarları hazırlanıb. Bu materiallar "Abituriyent" jurnalının xüsusi buraxılışında dərc edilib.

Buraxılış və qəbul imtahanında tətbiq ediləcək modellərlə tanış olmaları üçün Naxçıvan, Quba, Xızı, Şəki, Şirvan, Bərdə, Şəmkir, Lənkəran və Bakı şəhərlərində müəllimlərin, metodistlərin iştirakı ilə Bakı şəhərində 220, rayonlarda 30 seminar keçirilib və müzakirələr aparılıb. Beləliklə, demək olar ki, imtahanların məzmunu ilə bağlı materialların hazırlanmasında respublikanın pedaqoji ictimaiyyətinin xeyli hissəsi iştirak edib. Seminarların plenar iclasları internet vasitəsilə canlı yayımlanıb. Video faylların linkləri "Dərslik portalı"nda *(derslik.edu.az)* yerləşdirilib. Hazırda "Dərslik portalı"na baxış sayı üç milyona qədərdir.

Seminarlarda ayrı-ayrı fənlər üzrə buraxılış və qəbul imtahanlarında istifadə olunmuş tapşırıqların hər biri imtahan nəticələrinin statistik göstəriciləri əsasında məzmun, relevantlıq kateqoriyası, çətinlik dərəcəsi baxımından təhlil edilib və zəif cavablandırılmış tapşırıqlar müəyyənləşdirilib. Həmin tapşırıqların izahlarına dair metodiki tövsiyələr hazırlanıb və "Abituriyent" jurnalının ikinci sayında dərc olunub.

Dövlət İmtahan Mərkəzi tərəfindən 5-11-ci sinif dərslikləri əsasında 110 "Qiymətləndirmə tapşırıqları" kitabçası (Azərbaycan və rus dillərində), "Kimya", "Biologiya", "Riyaziyyat", "Fizika", "Coğrafiya", "Tarix", "Ədəbiyyat", "Azərbaycan dili", "Rus dili", "Literatura", "İngilis dili", "Fransız dili", "Alman dili", "Rus dili (xarici dil kimi)", "Azərbaycan dili (dövlət dili)" vəsaitləri, "İngilis dili lüğəti", "Azərbaycan dilinin orfoqrafiya lüğəti" müvafiq fənn kurikulumlarının təlim nəticələri nəzərə alınmaqla yenidən işlənib hazırlanıb.

Onu da qeyd etmək lazımdır ki, siniflər üzrə "Qiymətləndirmə tapşırıqları" kitabçalarında verilmiş materiallardan şagirdlər yeni tipli tapşırıqlarla işləmək bacarıqlarına yiyələnmək, müəllimlər isə məktəbdaxili (diaqnostik, formativ və summativ) qiymətləndirmə aparmaq üçün istifadə edə bilərlər. Eyni zamanda bu materiallarla buraxılış və qəbul imtahanlarına hazırlaşmaq da mümkündür. 9 və 11-ci siniflər üzrə kitabçaların sonunda buraxılış imtahanlarında istifadə edilmiş tapşırıq variantları və qiymətləndirmə meyarları da verilib.

Bu il ilk dəfə olaraq müvafiq fənn kurikulumlarının təlim nəticələri nəzərə alınmaqla, ümumtəhsil məktəblərinin 1-4-cü sinifləri üçün tədris dili və riyaziyyat fənlərindən "Qiymətləndirmə tapşırıqları" kitabçaları hazırlanıb. Kitabçalardakı tapşırıqlardan məktəbdaxili qiymətləndirmədə istifadə edilə bilər. Şagirdlər müstəqil olaraq tədris prosesində mövzuları necə mənimsədiklərini yoxlaya bilərlər. Valideynlər bu kitabçalar vasitəsilə övladlarının bütövlükdə fənni necə mənimsəmələrini yoxlaya bilərlər.

Həmçinin ilk dəfə olaraq imtahanlara hazırlaşanlar və tədris prosesində istifadə üçün 5-11-ci sinif dərsliklərinin hər bir tədris vahidi, hər bir mövzusu üzrə onlayn sınaq variantları və vizual dərslər, eləcə də buraxılış və qəbul imtahanlarında tətbiq edilən tapşırıq modellərinə uyğun 4 (hər biri 1 variant olmaqla) onlayn sınaq variantları hazırlanıb.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin sifarişi ilə ümumtəhsil məktəblərinin 1, 4, 7 və 8-ci sinifləri üçün yenidən təkmilləşdirilmiş 57 dərslik komplektinin (dərslik və müəllim üçün metodik vəsait) nəşrəqədərki layihələrinin (Azərbaycan və rus bölmələri üzrə birlikdə) elmi-metodiki monitorinqi və qiymətləndirilməsi aparılıb. Təhsil Nazirliyinin təsdiq etdiyi "Dərsliklərin qiymətləndirilməsi meyarları"na uyğun olaraq hər bir dərslik komplektinin maketi məzmun, dil və yazı üslubu, dizayn və bədii tərtibat, müəllim üçün metodik vəsaitin məzmunu baxımından təhlil edilərək qiymətləndirilib. Qiymətləndirmə nəticəsində hazırlanmış yekun rəylər Təhsil Nazirliyinə təqdim edilib.

Beynəlxalq Təlim və Layihə Mərkəzinin sifarişi əsasında 10-11-ci siniflər üçün yeni hazırlanmış "İnformatika" dərslik komplektlərinin (2 komplekt (dərslik və müəllim üçün metodik vəsait)) də fənn kurikulumunun təlim nəticələrinə uyğunluğu, məzmun, dil və yazı üslubu, dizayn və bədii tərtibat, müəllim üçün metodik vəsaitin məzmunu baxımından monitorinqi və qiymətləndirilməsi aparılıb. Yekun rəylər Beynəlxalq Təlim və Layihə Mərkəzinə təqdim edilib.

Respublikanın ümumtəhsil məktəblərində 2019-cu ildə istifadədə olan 5-11-ci sinif dərsliklərinin elmi-metodiki monitorinqi aparılıb. Monitorinq nəticəsində dərsliklərdəki mübahisəli məqamlar, məzmun uyğunsuzluqları, tərcümə qüsurları müəyyənləşdirilib və bankın təkmilləşdirilməsində, imtahanların sual kitabçalarının formalaşdırılmasında xidməti istifadə üçün metodiki tövsiyələr hazırlanıb. Tövsiyələr kitabça şəklində nəşr edilərək müvafiq şöbələrə təqdim edilib.

Fənn kurikulumları əsasında qiymətləndirmə materiallarının hazırlanması, ekspertizası və yoxlanılması ilə bağlı Azərbaycan dili, rus dili, riyaziyyat, kimya, fizika, biologiya, tarix, coğrafiya və ingilis dili fənləri üzrə hazırlıq kurslarının fəaliyyəti davam edib. Kurslarda elektron qeydiyyatdan keçmiş müəllimlər, metodistlər və pedaqoji yönümlü ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin müvafiq fənn üzrə təhsil alan axırıncı kurs tələbələri və həmin müəssisələrdə təhsil alan magistrlər iştirak ediblər. Bu müddət ərzində cəmi 113 kurs: Bakıda 27, bölgələrdə (Naxçıvan şəhəri, Şərur rayonu, Gəncə şəhəri (2 dəfə), Şəki şəhəri, Biləsuvar rayonu, Bərdə rayonu (2 dəfə), Lənkəran şəhəri, Şirvan şəhəri, Xaçmaz rayonu, Göyçay rayonu (2 dəfə), Qazax rayonu) 86 kurs təşkil olunub. Kursu müvəffəqiyyətlə keçmiş 678 (Bakı üzrə 429, bölgələr üzrə 249) nəfər sertifikat alıb. Onların şəxsi məlumatları "Elektron məlumat bazası"na daxil edilib. Həmin şəxslər DİM-lə tapşırıq müəllifi, ekspert və imtahan materiallarının yoxlanılmasında marker kimi əməkdaşlıq edə bilərlər.

Xüsusi qabiliyyət imtahanlarının təhlili

N.L.Əliyev, Z.M.Mustafayeva

Dövlət İmtahan Mərkəzi (DİM) 2019-cu ildə həm ali, həm də orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul üçün qabiliyyət imtahanları keçirmişdir. İl ərzində həyata keçirilmiş fəaliyyətə xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul proqramlarının hazırlanması, müsabiqə şərtlərinin müəyyənləşdirilməsi, imtahana hazırlıq prosesini asanlaşdırmaq məqsədilə abituriyentlər üçün "Xüsusi qabiliyyət imtahanları" jurnalının hazırlanması, istiqamətlər üzrə ekspertlər və müəllim-nəzarətçilərlə təlimat işlərinin aparılması daxildir. Bundan əlavə yaradılmış xüsusi elektron sistem vasitəsilə respublika üzrə imtahan cədvəllərinin işlənməsi, regional bölmələr üzrə xüsusi qabiliyyət imtahanlarına hazırlıq işlərinin həyata keçirilməsi, Bakı, eləcə də respublikanın digər regionlarında xüsusi qabiliyyət imtahanlarının təşkil edilməsi, imtahan nəticələrinin analizi və əldə edilmiş statistikaya əsasən ilin yekunlarının elmi-metodiki təhlilinin həyata keçirilməsi də il ərzində görülən işlərə aiddir.

2019-cu ilin əvvəlində ***Dizayn*** ixtisası üzrə təhsil almaq istəyən abituriyentlərin daha əlverişli qəbul şərtləri ilə imtahan vermələri üçün mövcud iki komissiyanın vahid komissiyada birləşdirilməsi bu sahədə abituriyent məmnunluğuna səbəb olmuşdur. Belə ki, ötən illərdə fəaliyyət göstərmiş 41-ci (memarlıq və dizayn istiqaməti üzrə) və 14-cü (təsviri sənət istiqaməti üzrə) komissiyalar üzrə imtahan verən abituriyentlər ixtisas seçimi mərhələsində daha çox ixtisas üzrə müsabiqəyə qatılmaq imkanı əldə etdilər. Bundan əlavə, abituriyentlərə qabiliyyət imtahanı fənnlərini təklif edilən 4 mümkün qrup (ornament-rəsmxət, antik baş-rəsmxət, ornament-kompozisiya və antik baş-rəsmxət) üzrə seçmək imkanı verildi. 2019-cu ildə həyata keçirilən digər bir yenilik isə "Abituriyent" jurnalının xüsusi buraxılışı olan "Xüsusi qabiliyyət imtahanları" jurnalının ilk dəfə çap edilməsidir. Jurnal xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmaq istəyən abituriyenlər üçün imtahanlara düzgün hazırlaşmağa köməkçi vasitə olmuşdur. "Xüsusi qabiliyyət imtahanları" jurnalında təqdim edilən materiallar həm məzmun, həm də metodik cəhətdən diqqəti cəlb edir. Onların mövzu dairəsi də xeyli genişdir. Burada xüsusi qabiliyyət tələb edən ixtisasların yığcam xarakteristikası, bu ixtisaslar üzrə müsabiqə şərtləri, onların hansı ali təhsil müəssisələrində mövcud olması haqqında məlumatlar, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları, imtahanlara hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, çalışmalar, əyani vəsaitlərdən reproduksiyalar, şəkillər, cədvəllər, normativlər, bir sözlə, xüsusi qabiliyyət tələb edən ixtisasları seçənlərin marağına uyğun olan, sorğularına aydınlıq gətirən, imtahana hazırlaşmalarına fayda verə bilən ən zəruri materiallar əksini tapıb.

2019-cu ildə qabiliyyət imtahanları 2 iyul tarixindən 4 avqust tarixinədək Bakı ilə yanaşı respublikanın Şəki, Lənkəran, Göyçay, Şirvan, Gəncə, Naxçıvan, Bərdə, Şəmkir bölgələrində də keçirilmişdir. Ümumilikdə ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə keçirilmiş qəbul imtahanlarında 15 mindən çox abituriyent iştirak etmişdir. Onlardan 10 mindən çoxu məqbul qiymət almışdır (bax. Cədvəl 1). İmtahanların həyata keçirilməsi üçün ümumilikdə 50 Qabiliyyət İmtahanı Komissiyası fəaliyət göstərmişdir. Komissiyalarda xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə mütəxəssis hazırlığını həyata keçirən ali təhsil müəssisələrindən və müxtəlif yaradıcılıq ittifaqlarından dəvət edilmiş ekspertlər təmsil olunmuşlar. İmtahanlar 23 xüsusi qabiliyyət tələb edən ixtisas üzrə aparılmışdır. Bu ixtisaslar, əsasən, V ixtisas qrupuna aid olsalar da, digər ixtisas qruplarına aid olanlar da vardır (III ixtisas qrupuna aid islamşünaslıq və jurnalistika, I ixtisas qrupuna aid memarlıq ixtisası). Xüsusi qabiliyyət tələb edən ixtisaslar 7 istiqamət üzrə qruplaşdırılmışdır:

1. Təsviri sənət
2. Musiqi sənəti
3. Mümarlıq
4. Teatr, kino və xoreoqrafiya sənəti
5. Bədən tərbiyəsi və idman
6. İlahiyyat
7. Jurnalistika

2019-2020-ci tədris ili üçün ali təhsil müəssisələrinə keçirilmiş qəbul imtahanlarının istiqamətlər üzrə statistikası Cədvəl 2 və Cədvəl 5-də verilmişdir. Cədvəl 5-də Qabiliyyət imtahanı komissiyaları üzrə abituriyentlərin imtahan nəticələri faizlərlə göstərilmişdir. Müsabiqə şərtlərinə görə komissiyalar üzrə tələb olunan minimal nəticə 6 bal olmuşdur. Müəllimlik ixtisasları üzrə imtahan nəticələri məqbul və ya qeyri-məqbulla qiymətləndirilmişdir.

Şəhərlər üzrə imtahan verən abituriyentlərin statistikası

Cədvəl 1

Şəhər	Qeydiyyatdan keçən abituriyentlərin sayı	Məqbul qiymət alanların sayı
Bakı	12629	9094
Gəncə	572	287
Naxçıvan	769	356
Şəmkir	1101	282
Lənkəran	20	14

İstiqamətlər üzrə imtahan verən abituriyentlərin statistikası

Cədvəl 2

İstiqamətlər	Qeydiyyatdan keçən abituriyentlərin sayı	Məqbul qiymət alanların sayı
Təsviri sənət	3409	2103
Musiqi	1099	607
Memarlıq	131	106
Teatr, kino və xoreoqrafiya	502	135
Bədən tərbiyəsi və idman	9950	7082
İlahiyyat	133	70

2019-cu il ali təhsil müəssisələrinə qəbulda cari ilin qəbul qaydalarına uyğun olaraq subbakalavrlara xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmaq üçün I mərhələdə iştirak etmədən II mərhələdə – qabiliyyət imtahanlarında iştirak etmək imkanı verilmişdir. İmtahanlarda 862 subbakalavr iştirak etmiş, onlardan 145-i xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmuşdur.

Bununla yanaşı ali təhsilin **magistratura səviyyəsinə** Təsviri sənət, Musiqi, Teatr, kino və xoreoqrafiya sənətləri istiqamətləri üzrə qabiliyyət imtahanları keçirilmişdir. 68, 69 və 70-ci proqramlar üzrə 25 Qabiliyyət İmtahanı Komissiyasında imtahan verən 130 bakalavr magistratura səviyyəsinə aid xüsusi qabiliyyət tələb edən 17 ixtisaslaşma üzrə məqbul qiymət almışdır.

Orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq üçün abituriyentlər Bakıdan əlavə respublikanın 8 bölgəsində imtahan veriblər. İmtahanlar xüsusi qabiliyyət tələb edən ixtisasların xüsusiyyətlərinə uyğun olaraq 4 istiqamət üzrə keçirilib:

1. Təsviri sənət
2. Musiqi sənəti
3. Teatr, kino və xoreoqrafiya sənəti
4. Bədən tərbiyəsi və idman

Bu il DİM-in orta ixtisas təhsili müəssisələrinə keçirdiyi qabiliyyət imtahanlarında iştirak etmək üçün 6344 abituriyent tam orta təhsil bazasından qeydiyyatdan keçmiş, onlardan 576-sı qəbul olmuşdur. O cümlədən DİM 2019-cu ildə orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən musiqi sənəti istiqamətinin ixtisaslarına qəbul imtahanları keçirmək məqsədilə musiqi nəzəriyyəsi və

Şəhərlər üzrə imtahan verən (11 illik təhsil bazasında) abituriyentlərin sayı

Cədvəl 3

Şəhər	Qəbul olanların sayı
Bakı	238
Gəncə	135
Naxçıvan	0
Şəmkir	25
Lənkəran	5
Şəki	26
Bərdə	84
Göyçay	45
Şirvan	18

solfecio fənni üzrə test imtahanı keçirmişdir. 14 komissiyanı əhatə edən imtahanda ümumilikdə 333 abituriyent iştirak etmiş və onlardan 177-si məqbul qiymət almışdır. İmtahanda 10-u açıq sual olmaqla 20 tapşırıqdan istifadə edilmişdir. Açıq suallardan 2-si dinləmə ilə bağlı olmuşdur.

Ümumi orta təhsil bazasından isə 3105 abituriyent imtahanlarda iştirak etmək üçün qeydiyyatdan keçmişdir.

Yaradıcılıq Qabiliyyətinin Yoxlanılması Komissiyaları(YQYK) üzrə qeydiyyatdan keçib imtahanda iştirak edənlərin sayı Cədvəl 6-da verilmişdir. Paytaxta nisbətən bölgələrdə orta ixtisas təhsili müəssisələrinin sayı çox olduğuna görə Cədvəl 6-dan göründüyü kimi bölgələr üzrə qeydiyyatdan keçənlərin sayı daha çoxdur.

İstiqamətlər üzrə imtahan verən (11 illik təhsil bazasında) abituriyentlərin sayı

Cədvəl 4

İstiqamətlər	Qəbul olanların sayı
Təsviri sənət	167
Musiqi	96
Teatr, kino və xoreoqrafiya	12
Bədən tərbiyəsi və idman	301

Qabiliyyət imtahanları qurtardıqdan sonra 2020/2021-ci tədris ili üçün qəbul imtahanlarının keçirilməsini təkmilləşdirmək, eləcə də imtahanların elmi-metodiki təhlilini aparmaq məqsədilə bütün istiqamətlər üzrə seminarlar keçirilmişdir. Seminarlarda növbəti ilin müsabiqə şərtləri, qəbul proqramları və yeni imtahanların məzmunu ilə bağlı müzakirələr aparılmış və nəticədə qəbul edilmiş qərarlar ictimaiyyətə vaxtında çatdırılmışdır. Seminarlar oktyabr ayından növbəti ilin yanvar ayına qədər davam etmişdir.

Abituriyentlərin yaradıcılıq qabiliyyətinin qiymətləndirilməsində şəffaflığın təmin edilməsi məqsədilə xüsusi qabiliyyət imtahanlarında ekspert kimi iştirak edən ali və orta ixtisas təhsili müəssisələrinin pedaqoji heyətinin vahid reyestrini yaratmaq üçün hazırlıqlara başlanılmışdır.

Naxçıvan Muxtar Respublikasında keçirilən qabiliyyət imtahanlarında şəffaflığın təmin edilməsi məqsədilə ilk dəfə olaraq abituriyentlərin Təsviri sənət istiqaməti üzrə yerinə yetirdikləri tapşırıqların fotoşəkli ictimailəşdirilərək DİM-in rəsmi internet saytında yerləşdirilmişdir.

Sektor il ərzində 600-dən çox elektron müraciətə yazılı cavab vermişdir.

2019/2020-ci tədris ili üçün ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul üçün keçirilmiş imtahanların nəticələri

(Qabiliyyət imtahanı komissiyaları üzrə)

Cədvəl 5

Qabiliyyət imtahanı komissiyanın		Qabiliy-yət imtahanı-nın qiyməti	Qeydiy-yatdan keçib	Qiymətlər (10 ballıq şkala üzrə)						Qeyri məqbul alanlar (kəsilənlər)
kodu	adı			10	9	8	7	6	5	
10	Rəngkarlıq	6	164	8 (4.9%)	26 (15.9%)	31 (18.9%)	16 (9.8%)	8 (4.9%)		75 (45.7%)
11	Qrafika	6	141	4 (2.8%)	18 (12.8%)	24 (17.0%)	8 (5.7%)	5 (3.5%)		82 (58.2%)
12	Heykəltəraşlıq	6	21	3 (14.3%)	7 (33.3%)	1 (4.8%)	0 (0.0%)	0 (0.0%)		10 (47.6%)
13	Təsviri incəsənət müəllimliyi	5	704	36 (5.1%)	88 (12.5%)	129 (18.3%)	145 (20.6%)	99 (14.1%)	16 (2.3%)	191 (27.1%)
14	Dizayn	6	1294	79 (6.1%)	168 (13.0%)	205 (15.8%)	196 (15.1%)	122 (9.4%)		524 (40.5%)
15	Dekorativ sənət	6	378	4 (1.1%)	40 (10.6%)	133 (35.2%)	99 (26.2%)	22 (5.8%)		80 (21.2%)
20	Fortepiano, orqan, klavesin (BMA)	6	67	9 (13.4%)	24 (35.8%)	6 (9.0%)	2 (3.0%)	3 (4.5%)		23 (34.3%)
21	Orkestr alətləri (BMA)	6	30	12 (40.0%)	18 (60.0%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)		0 (0.0%)

Cədvəl 5 (ardı)

Qabiliyyət imtahanı komissiyanın		Qabiliy-yət imtahanı-nın qiyməti	Qeydiy-yatdan keçib	Qiymətlər (10 ballıq şkala üzrə)						Qeyri məqbul alanlar (kəsilənlər)
kodu	adı			10	9	8	7	6	5	
22	Xalq çalğı alətləri (AMK)	6	80	34 (42.5%)	21 (26.3%)	9 (11.3%)	6 (7.5%)	2 (2.5%)		8 (10.0%)
23	Xalq çalğı alətləri	6	103	14 (13.6%)	18 (17.5%)	14 (13.6%)	8 (7.8%)	3 (2.9%)		46 (44.7%)
24	Solo oxuma (BMA)	6	11	4 (36.4%)	4 (36.4%)	2 (18.2%)	0 (0.0%)	0 (0.0%)		1 (9.1%)
25	Xanəndəlik	6	101	6 (5.9%)	21 (20.8%)	30 (29.7%)	9 (8.9%)	1 (1.0%)		34 (33.7%)
26	Estrada sənəti (vokal)	6	47	0 (0.0%)	2 (4.3%)	5 (10.6%)	4 (8.5%)	3 (6.4%)		33 (70.2%)
27	Dirijorluq	6	19	0 (0.0%)	6 (31.6%)	2 (10.5%)	0 (0.0%)	0 (0.0%)		11 (57.9%)
28	Milli vokal	6	30	2 (6.7%)	7 (23.3%)	4 (13.3%)	0 (0.0%)	0 (0.0%)		17 (56.7%)
29	Bəstəkarlıq	6	4	1 (25.0%)	1 (25.0%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)		2 (50.0%)
30	Musiqişünaslıq	6	48	5 (10.4%)	8 (16.7%)	7 (14.6%)	3 (6.3%)	3 (6.3%)		22 (45.8%)
31	İnstrumental ifa	6	140	9 (6.4%)	16 (11.4%)	9 (6.4%)	13 (9.3%)	5 (3.6%)		88 (62.9%)
32	Musiqi müəllimliyi	5	184	11 (6.0%)	21 (11.4%)	26 (14.1%)	30 (16.3%)	13 (7.1%)	3 (1.6%)	80 (43.5%)
36	Estrada sənəti (alətlər üzrə)	6	22	6 (27.3%)	4 (18.2%)	3 (13.6%)	0 (0.0%)	0 (0.0%)		9 (40.9%)
40	Memarlıq (AMIU)	6	130	16 (12.3%)	34 (26.2%)	33 (25.4%)	14 (10.8%)	8 (6.2%)		25 (19.2%)
50	Aktyor sənəti (ADMIU)	6	242	1 (0.4%)	17 (7.0%)	17 (7.0%)	27 (11.2%)	9 (3.7%)		171 (70.7%)
51	Rejissorluq	6	141	1 (0.7%)	9 (6.4%)	3 (2.1%)	9 (6.4%)	3 (2.1%)		116 (82.3%)
52	Operator sənəti	6	31	2 (6.5%)	1 (3.2%)	2 (6.5%)	1 (3.2%)	2 (6.5%)		23 (74.2%)
53	Xoreoqrafiya	6	35	1 (2.9%)	8 (22.9%)	2 (5.7%)	1 (2.9%)	4 (11.4%)		19 (54.3%)
54	Rəqs müəllimliyi	5	35	1 (2.9%)	2 (5.7%)	1 (2.9%)	1 (2.9%)	2 (5.7%)	1 (2.9%)	27 (77.1%)
60	Bədən tərbiyəsi və idman (ADBTIA)	6	2810	26 (0.9%)	223 (7.9%)	1,142 (40.6%)	753 (26.8%)	23 (0.8%)		643 (22.9%)
61	Məşqçi	6	2633	28 (1.1%)	216 (8.2%)	1,126 (42.8%)	770 (29.2%)	20 (0.8%)		473 (18.0%)
62	Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi (ADBTIA)	6	2984	783 (26.2%)	1,159 (38.8%)	165 (5.5%)	146 (4.9%)	29 (1.0%)		702 (23.5%)

Cədvəl 5 (ardı)

Qabiliyyət imtahanı komissiyanın		Qabiliy-yət imtahanı-nın qiyməti	Qeydiy-yatdan keçib	Qiymətlər (10 ballıq şkala üzrə)						Qeyri məqbul alanlar (kəsilənlər)
kodu	adı			10	9	8	7	6	5	
67	Rəngkarlıq (NDU)	6	54	1 (1.9%)	1 (1.9%)	2 (3.7%)	3 (5.6%)	5 (9.3%)		42 (77.8%)
70	Təsviri incəsənət müəllimliyi (NMİ)	5	132	4 (3.0%)	4 (3.0%)	13 (9.8%)	23 (17.4%)	29 (22.0%)	6 (4.5%)	53 (40.2%)
68	Solo oxuma (NDU)	6	17	0 (0.0%)	0 (0.0%)	1 (5.9%)	0 (0.0%)	1 (5.9%)		15 (88.2%)
69	Bəstəkarlıq (NDU)	6	6	0 (0.0%)	2 (33.3%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)		4 (66.7%)
71	Fortepiano (NDU)	6	27	1 (3.7%)	1 (3.7%)	4 (14.8%)	8 (29.6%)	1 (3.7%)		12 (44.4%)
72	Orkestr alətləri (NDU)	6	7	0 (0.0%)	0 (0.0%)	2 (28.6%)	3 (42.9%)	1 (14.3%)		1 (14.3%)
73	Musiqişünaslıq (NDU)	6	29	0 (0.0%)	2 (6.9%)	1 (3.4%)	5 (17.2%)	3 (10.3%)		18 (62.1%)
74	Xalq çalğı alətləri (NDU)	6	22	5 (22.7%)	6 (27.3%)	0 (0.0%)	4 (18.2%)	0 (0.0%)		7 (31.8%)
75	Dirijorluq (NDU)	6	10	0 (0.0%)	0 (0.0%)	1 (10.0%)	2 (20.0%)	1 (10.0%)		6 (60.0%)
76	Musiqi müəllimliyi (NDU)	5	24	0 (0.0%)	1 (4.2%)	3 (12.5%)	3 (12.5%)	1 (4.2%)	3 (12.5%)	13 (54.2%)
77	Memarlıq (NDU)	6	1	1 (100.0%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)	0 (0.0%)		0 (0.0%)
80	Aktyor sənəti (NDU)	6	18	3 (16.7%)	0 (0.0%)	1 (5.6%)	1 (5.6%)	2 (11.1%)		11 (61.1%)
78	Bədən tərbiyəsi və idman (NDU)	6	242	3 (1.2%)	10 (4.1%)	12 (5.0%)	27 (11.2%)	41 (16.9%)		149 (61.6%)
79	Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi (NDU)	6	180	13 (7.2%)	6 (3.3%)	21 (11.7%)	47 (26.1%)	11 (6.1%)		82 (45.6%)
81	Təsviri incəsənət müəllimliyi (GDU)	5	261	9 (3.4%)	15 (5.7%)	28 (10.7%)	34 (13.0%)	52 (19.9%)	30 (11.5%)	93 (35.6%)
87	Dizayn (Gəncə)	6	240	6 (2.5%)	9 (3.8%)	13 (5.4%)	24 (10.0%)	38 (15.8%)		150 (62.5%)
83	Musiqi müəllimliyi (GDU)	5	71	9 (12.7%)	5 (7.0%)	4 (5.6%)	3 (4.2%)	5 (7.0%)	3 (4.2%)	42 (59.2%)
84	Bədən tərbiyəsi və idman (GDU)	6	526	5 (1.0%)	13 (2.5%)	21 (4.0%)	37 (7.0%)	20 (3.8%)		430 (81.7%)
85	Fiziki tərbiyə və çağırışaqədərki hazırlıq müəllimliyi (GDU)	6	575	23 (4.0%)	27 (4.7%)	41 (7.1%)	74 (12.9%)	21 (3.7%)		389 (67.7%)
89	Təsviri incəsənət müəllimliyi (Lənkəran)	5	20	0 (0.0%)	7 (35.0%)	3 (15.0%)	4 (20.0%)	0 (0.0%)	0 (0.0%)	6 (30.0%)

Ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə qeydiyyatdan keçənlərin sayı

(Yaradıcılıq Qabiliyyətinin Yoxlanılması Komissiyaları üzrə)

Cədvəl 6

Yaradıcılıq qabiliyyətinin yoxlanılması komissiyalarının		Təsviri sənət			Musiqi sənəti							Teatr, kino və xeoqrafiya			Bədən tərbiyəsi və idman		Cəmi
kodu	Yerləşdiyi şəhər	Təsviri sənət	Heykətəraşlıq	Təsviri incəsənət müəllimliyi	İnstrumental ifaçılıq	Xalq çalğı alətləri ifaçılığı	Xanəndəlik	Vokal sənəti	Musiqi müəllimliyi	Nəzəriyyə	Aşıq sənəti	Bədii yaradıcılıq	Xoreoqrafiya sənəti	Rəqs müəllimliyi	Bədən tərbiyəsi və idman	Fiziki tərbiyyə müəllimliyi	
211	Bakı	393	17	138													548
152	Bakı															211	211
226	Bakı									45							45
221, 222, 223, 225	Bakı				156	152	35		29								372
141, 142	Bakı											12	29	14			55
321, 322, 323, 324, 326, 341, 342	Naxçıvan				29	68	4	3		21		5	7	0			141
421, 422, 423, 424, 425	Gəncə				99	38	5	3	52								197
426	Gəncə									71							71
413	Gəncə			71													71
451	Şəmkir														150		150
513, 521, 522, 526, 552	Şəki			15	48	23				38						47	171
621, 622, 623	Bərdə				46	35	5										86
613	Bərdə			84													84
626	Bərdə									26						239	265
952	Göyçay															109	109
221	Göyçay			29													29
852	Şirvan															176	176
813	Şirvan			52													52
752	Lənkəran															187	187
713, 721, 722, 726	Lənkəran			62	10	7				6							85
Cəmi		**393**	**17**	**451**	**388**	**323**	**49**	**6**	**81**	**207**		**17**	**36**	**14**	**150**	**969**	**3105**

Regionlarda vətəndaşların qəbuluna dair tədbirlər

Azərbaycan Respublikası Prezidentinin göstərişinə əsasən vətəndaşların dövlət qurumlarının, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən qəbulu cədvəlinə uyğun olaraq 2019-cu ildə də DİM-in direktorlar Şurasının sədri, may ayından başlayaraq sədr müavinləri hər ay bölgələrdə vətəndaşların qəbulunu həyata keçirmiş, il ərzində 20 şəhər və rayonda keçirilmiş qəbullarda 184 vətəndaş iştirak etmiş, səslənmiş 175 müraciətin 152-i DIM-in səlahiyyətinə aid olmuşdur. Qəbullarda hər bir bölgənin ətraf rayonlarından olan vətəndaşlar, eləcə də bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak etmişlər. Qəbul tarixləri barədə əvvəlcədən DİM-in rəsmi internet saytında və kütləvi informasiya vasitələrində elan-məlumat verilmişdir.

Qəbul zamanı vətəndaşlar:

- ali və orta ixtisas təhsili müəssisələrində təhsil prosesində rast gəlinən çətinliklər, o cümlədən təhsil haqlarının ödənilməsindəki problemlər;
- ali və orta ixtisas təhsili müəssisələrinə aparılan ərizə qəbulu;
- test və qabiliyyət imtahanlarının məzmunu, təşkili və texnologiyası;
- qəbul planı, müsabiqə şərtləri, ixtisas seçimi;
- qəbul imtahanlarının məzmununu təşkil edən materialların hazırlanması prosedurları, bu işə regiondakı müəllimlərin cəlb olunmasının zəruriliyi;
- qəbul imtahanlarının gedişi;
- ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsi (buraxılış) imtahanlarının və ali təhsil müəssisələrinə qəbul imtahanlarının 2019-cu ildə tətbiqi nəzərdə tutulan modeli;
- buraxılış imtahanları;
- ümumi orta təhsil səviyyəsində yeni təhsil proqramları üzrə təhsilalanların biliyinin yekun qiymətləndirilməsinin yeni qaydaları;
- gənclərin xarici ölkələrdə təhsilalma imkanları;
- əvvəlki illərin məzunlarının ali və orta ixtisas təhsili müəssisələrinə qəbulu;
- şagird və abituriyentlərin imtahanlara müstəqil hazırlaşmasına kömək məqsədilə hazırlanan metodiki materiallar (test kitabları, dərs vəsaitləri və s.);
- dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, namizədlərlə müsahibələrin keçirilməsi və digər məsələlər barədə DİM sədrinə sorğu və müraciətlərini bildirmişlər.

Görüşlər zamanı vətəndaşların müraciətləri diqqətlə dinlənilmiş, qaldırılan problemlərin bir çoxu yerində həll olunmuş, digərləri araşdırılmaq üçün nəzarətə götürülmüş, DİM-in səlahiyyətlərinə aid olmayan müraciətlər isə müvafiq qurumlara çatdırılmaq və lazımi tədbirlər görülmək üçün qeydiyyata alınmışdır.

Bir məsələni də qeyd etmək istərdik ki, DİM-in fəaliyyət istiqamətləri böyük auditoriya kütləsinin maraqlarını əhatə edir. Mərkəzin keçirdiyi imtahanlar kütləvi xarakteri ilə seçilir və bu prosesdə yüz minlərlə insan iştirak edir. Lakin rayon və şəhərlərdə vətəndaşların qəbulu ilə bağlı statistikaya baxsaq görərik ki, digər dövlət orqanları ilə müqayisədə DİM Direktorlar Şurasının sədri M.Abbaszadə və ya digər rəhbər işçiləri ilə birbaşa görüşmək istəyənlərin sayı xeyli azdır. Bu onunla əlaqədardır ki, DİM-in vətəndaş müraciətlərinə baxan müvafiq strukturları, Çağrı Mərkəzi, sosial şəbəkələrdəki aktiv hesabları ilə yanaşı, bölgələrdə də 9 regional bölməsi fəaliyyət göstərir və vətəndaş müraciətlərinə baxılması, onların operativ şəkildə cavablandırılması, qaydalar çərçivəsində həll olunması nəticəsində birbaşa sədrlə görüşməyə ehtiyac qalmır. M.Abbaszadə ilə keçirilən görüşlərdə müraciətlər, əsasən, vətəndaşların hansısa pozulmuş hüquqlarının bərpası ilə bağlı deyil, daha çox fərdi məsələlərlə əlaqədar xahişlərdən ibarət olur. Bu cür müraciətlərə isə mövcud qaydalar çərçivəsində izahatlar verilir.

DİM-in vətəndaşlara göstərdiyi elektron xidmətlər

M.M.Abbaszadə, Ç.C.Xəlilov

DİM-də informasiya-kommunikasiya texnologiyalarının (İKT) kütləvi proseslərə tətbiqi istiqamətində işlər 2019-cu ildə də intensiv şəkildə davam etdirilmiş, bu sahədə yeni layihələr həyata keçirilmişdir. İKT istər ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrinə, istər rezidenturaya, istər orta ixtisas təhsili pilləsinə qəbul prosesinin, ümumi təhsil müəssisələri şagirdlərinin buraxılış imtahanlarının, istərsə də dövlət qulluğuna işə qəbulun bütün mərhələlərində tətbiq edilmişdir. Bununla da yüz minlərlə vətəndaşa elektron xidmət göstərilmişdir. Belə ki, 2019-cu ildə DİM tərəfindən göstərilən elektron xidmətlərdən 8 milyon 542 mindən artıq istifadə qeydə alınmışdır.

DİM tərəfindən 2019-cu ildə göstərilən elektron xidmətlərin təsnifatı:

№	Elektron xidmətin adı	Xidmətdən istifadələrin sayı				
		I rüb	II rüb	III rüb	IV rüb	Cəmi
1	Namizədlərin (abituriyentlərin, bakalavrların, namizədlərin (rezidenturaya sənəd verənlər) ərizələrinin onlayn qəbulu	131977	150681	8173	0	**290831**
2	Namizədlərə imtahana buraxılış vərəqələrinin internet vasitəsilə verilməsi	372113	1551561	171831	9956	**2105461**
3	Namizədlərin elektron ixtisas seçimi ərizələrinin onlayn qəbulu	0	16295	96602	0	**112897**
4	Namizədlərə, sınaq imtahanı iştirakçılarına imtahan nəticələri haqqında məlumatların internet və ya qısa mesaj (SMS) vasitəsilə verilməsi	193510	2663020	1089170	46691	**3992391**
5	Namizədlərə onların cavab kartlarının qrafik təsvirlərinin internet vasitəsilə verilməsi	58724	1259072	102505	9955	**1430256**
6	Bakalavrların bakalavr pilləsinə qəbul olmaq üçün təqdim etdikləri ərizələrin iş nömrələrinin axtarışı	24939	3259	3997	1535	**33730**
7	Sınaq imtahanına yazılış	31895	180	42	40	**32157**
8	Onlayn sınaq imtahanının keçirilməsi	0	0	0	0	**0**
9	İnternetdə video–mühazirələr	156800	117000	72300	133507	**479607**
10	DİM-in virtual ödəmə kartlarının onlayn və qısa mesaj (SMS) vasitəsilə satışı	0	0	0	0	**0**
11	DİM nəşrlərinin və onların elektron versiyalarının onlayn satışı	833	1590	5116	527	**8066**
12	DİM-in yenilikləri barədə SMS məlumatlandırma	0	0	0	0	**0**
13	Vətəndaşların DİM rəhbərliyinin və məsul işçilərinin qəbuluna onlayn yazılması	38	72	128	26	**264**
14	Ümumi təhsili həyata keçirən təhsil müəssisələrində ümumtəhsil fənləri üzrə biliyinin yekun qiymətləndirilməsi (attestasiyası) aparılan təhsilalanların DİM-in "Şagird-məzun sistemi"ndə özləri haqqında məlumatları internet vasitəsilə yoxlaması	2290	11951	6376	1058	**21675**

№	Elektron xidmətin adı	Xidmətdən istifadələrin sayı				
		I rüb	II rüb	III rüb	IV rüb	Cəmi
15	Müsabiqə və müsahibə nəticələri barədə məlumatların verilməsi	0	0	0	0	**0**
16	Dövlət qulluqçularının Reyestrindən məlumatların verilməsi	-	-	-	-	**35059**
17	Dövlət qulluqçularının etik davranış qaydalarına riayət etməsi barədə müraciətlərin qəbulu	0	0	0	0	**0**
18	Dövlət qulluğu stajı kalkulyatoru	-	-	-	-	**107**
	Cəmi	**973119**	**5774681**	**1556240**	**203295**	**8542501**

DİM-in 2019-cu ildə keçirdiyi imtahanlarda 571178 nəfər iştirak etmişdir

Ümumi təhsilin ümumi və tam orta təhsil səviyyələri üzrə imtahanlar	**Saylar**
Ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları	226920
Tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları	85078
Buraxılış imtahanı çərçivəsində Azərbaycan dili (dövlət dili kimi) imtahanı	15241
Cəmi:	**327239**

Azərbaycan Respublikasının ali və orta ixtisas təhsil müəssisələrinə qəbul	
Ali təhsilin bakalavriat səviyyəsinə və tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul	120324
o cümlədən :	
“Hərbi həkim işi” ixtisasına qəbul	
H.Əliyev adına Ali Hərbi Məktəbə qəbul	
DİN-nin Polis Akademiyasına qəbul	
DİN-nin Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə qəbul	
Dövlət Təhlükəsizliyi Xidmətinin Akademiyasına qəbul	
Dövlət Sərhəd Xidməti Akademiyasına qəbul	
Fövqaladə Hallar Nazirliyinin Akademiyasına qəbul	
Dövlət Gömrük Komitəsinin Akademiyasına qəbul	
Jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahan	486
Rus bölməsi abituriyentləri üçün “Azərbaycan dili” imtahanı	1636
Ali təhsilin bakalavriat səviyyəsinə V qrup üzrə və tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul (əvvəlki illərin məzunları üçün)	18130
Ali təhsilin bakalavriat səviyyəsinin və tam orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı	18759
Ümumi orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinə qəbul (əvvəlki illərin məzunları üçün)	9337

Azərbaycan Respublikasının ali və orta ixtisas təhsil müəssisələrinə qəbul	
Ümumi orta təhsil bazasından orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı	3105
Ali təhsilin bakalavriat səviyyəsinə qəbul olmaq istəyən şəxslər üçün sınaq imtahanları	28337
Ali təhsilin magistratura səviyyəsinə qəbul	21297
Ali təhsilin magistratura səviyyəsinin xüsusi qabiliyyət tələb edən ixtisaslaşmalarına qəbul olmaq istəyən bakalavrlar üçün qabiliyyət imtahanı	149
Ali təhsilin magistratura səviyyəsinə qəbul olmaq istəyən şəxslər üçün sınaq imtahanları	1604
Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasına magistratura səviyyəsinə qəbul imtahanı	78
Cəmi:	**223242**

Baza ali tibb təhsili əsasında rezidenturaya qəbul	
Baza ali tibb təhsili əsasında rezidenturaya qəbul	1377
Rezidentura səviyyəsi üzrə sınaq imtahanı (elektron imtahan)	403
Cəmi:	**1780**

Orta hərbi təhsil müəssisələrinə qəbul	
C.Naxçıvanski adına Hərbi Liseyə qəbul	1423
H.Əliyev adına Hərbi Liseyə qəbul	336
Orta Hərbi Tibb Məktəbinə qəbul	86
Cəmi:	**1845**

Dövlət qulluğuna və dövlət orqanlarına işə qəbul	
Dövlət qulluğuna işə qəbul	11016
Dövlət qulluğuna işə qəbul (elektron imtahan)	495
Dövlət qulluğuna işə qəbulla bağlı sınaq imtahanı (elektron imtahan)	169
Vəkillər Kollegiyasına üzv olmaq istəyən namizədlər üçün imtahan (elektron imtahan)	723
Prokurorluq orqanlarına işə qəbul	284
Dövlət vergi orqanlarına işə qəbul	2913
Ədliyyə orqanlarına işə qəbul	384
Miqrasiya orqanlarına qulluğa qəbul (elektron imtahan)	252
Hakimlərin seçimi üzrə test imtahanı (elektron imtahan)	593
Cəmi:	**16829**

Digər imtahanlar	
Moskva Dövlət Beynəlxalq Münasibətlər Universitetinə qəbul imtahanı	10
ADA Məktəbinin X və XI sinif şagirdləri üçün "Riyaziyyat" fənnindən monitorinq imtahanı	233
Cəmi:	**243**
Ümumi cəm:	**571178**

DİM-də aparılan elmi-metodiki işlər və fənn seminarları haqqında statistik məlumatlar

1992–2019-cu illərdə DİM-də (TQDK-da) APARILMIŞ ELMİ-METODİKİ İŞLƏR

ÜMUMİ TƏHSİL ÜZRƏ YOXLAMA-ÖLÇMƏ MATERİALLARININ HAZIRLANMASI ÜZRƏ

	1992	1993	1994	1995-1997	1998	1999-2000	2001-2003	2004-2009	2010-2019
FƏNN KURİKULUMLARI ÜZRƏ QƏBUL PROQRAMLARI									
METODİKİ VƏSAİTLƏR									
QİYMƏTLƏNDİRMƏ TAPŞIRIQLARI									
TEST TAPŞIRIĞI TOPLULARI									
STATİSTİK TƏDQİQATLAR									
TELEVİZİYA VERİLİŞLƏRİ									
SINAQ İMTAHANLARI									
PSİXOLOJİ KÖMƏK VƏ PEŞƏYÖNÜMÜ İŞİ									
İNTERNET VASİTƏSİLƏ İNFORMASİYA MÜBA-DİLƏSİ XİDMƏTİ									
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN VƏSAİTLƏR									
ÜMUMTƏHSİL MƏKTƏBLƏRİ ÜÇÜN ELEKTRON VƏSAİTLƏR									
TƏCRÜBƏLİ EKSPERTLƏRİN FƏNLƏR ÜZRƏ VİDEO-MÜHAZİRƏLƏRİ									

ALİ TƏHSİL ÜZRƏ YOXLAMA-ÖLÇMƏ MATERİALLARININ HAZIRLANMASI (MAGİSTRATURA) ÜZRƏ

	2005-2006	2007-2008	2009	2010	2011	2012	2013	2014	2015-2019
QƏBUL PROQRAMLARI									
MODEL TESTLƏR									
TEST TAPŞIRIQLARININ ELMİ-METODİKİ İZAHI VƏ TÖVSİYƏLƏR									
MƏNTİQ TESTLƏRİ									
İNFORMATİKA ÜZRƏ VƏSAİT									
SINAQ İMTAHANLARI									
ONLAYN SINAQ İMTAHANLARI									

BAZA TİBB TƏHSİLİ ÜZRƏ (REZİDENTURA)

	2011	2012	2013	2014	2015	2016	2017	2018	2019
QƏBUL PROQRAMLARI									
MODEL TESTLƏR									
TEST TAPŞIRIQLARININ ELMİ-METODİKİ İZAHI VƏ TÖVSİYƏLƏR									
SINAQ İMTAHANLARI									
ONLİNE SINAQ İMTAHANLARI									
BAZA FƏNLƏRİ ÜZRƏ TEST TOPLUSU (rezidenturaya hazırlaşanlar üçün vəsait)									
BAZA FƏNLƏRİ ÜZRƏ TEST TAPŞIRIĞI NÜMUNƏLƏRİ VƏ ONLARIN İZAHI (rezidenturaya hazırlaşanlar üçün vəsait)									
İNSAN ANATOMİYASI (rezidenturaya hazırlaşanlar ucun vəsait)									
BİOLOJİ KİMYA (rezidenturaya hazırlaşanlar ucun vəsait)									
TERAPEVTİK STOMATOLOGİYA (rezidenturaya hazırlaşanlar ucun vəsait)									
PATOLOJİ FİZİOLOGİYA (dərs vəsaiti)									
НОРМАЛЬНАЯ ФИЗИОЛОГИЯ (пособие для поступающих в резидентуру)									
БИОЛОГИЧЕСКАЯ ХИМИЯ (пособие для поступающих в резидентуру)									
АНАТОМИЯ ЧЕЛОВЕКА (пособие для поступающих в резидентуру)									
ПАТОЛОГИЧЕСКАЯ ФИЗИОЛОГИЯ (пособие для поступающих в резидентуру)									
ГИСТОЛОГИЯ (пособие для поступающих в резидентуру)									

DƏRSLİK VƏ DƏRS VƏSAİTLƏRİNİN ELMİ-METODİKİ MONİTORİNQİ ÜZRƏ

	2012	2013	2014	2015	2016	2017	2018	2019
I-XI SİNİFLƏR ÜZRƏ DƏRSLİK VƏ DƏRS VƏSAİTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ								
DƏRSLİK PORTALI								
DİM-nin NƏŞRLƏRİNİN ELMİ-METODİKİ MONİTORİNQİ								

ELMİ-METODİKİ SEMİNARLARIN İŞTİRAKÇILARININ SAY TƏRKİBİ

ÜMUMİ TƏHSİL ÜZRƏ YOXLAMA-ÖLÇMƏ MATERİALLARININ HAZIRLANMASI ÜZRƏ

№	FƏNNİN ADI	Ümumi say tərkibi	Onlardan		
			professorlar	dosentlər	məktəb müəllimləri
1	Azərbaycan dili və ədəbiyyatı	236	7	15	214
2	Azərbaycan dili (rus bölməsi üçün)	46	1	5	40
3	Rus dili və ədəbiyyatı	108	2	9	97
4	Rus dili (Azərbaycan bölməsi üçün)	67	1	3	63
5	Riyaziyyat	302	4	25	273
6	Fizika	247	7	35	205
7	Kimya	205	6	23	176
8	Biologiya	185	3	19	163
9	Tarix	232	4	21	207
10	Coğrafiya	187	5	17	165
11	İngilis dili	183	0	6	177
12	Qərb dilləri (alman, fransız)	75	2	4	69
13	Şərq dilləri (ərəb, fars)	52	3	2	47
	Cəmi	2125	45	184	1901

ALİ TƏHSİL ÜZRƏ YOXLAMA-ÖLÇMƏ MATERİALLARININ HAZIRLANMASI: MAGİSTRATURA ÜZRƏ

№	FƏNNİN ADI	Ümumi say tərkibi	Onlardan		
			Professorlar, elmlər doctorları	Dosentlər, fəlsəfə doktorları	Ali təhsil müəssisələrinin müəllimləri, elmi mərkəzlərin mütəxəssisləri, doktorant və dissertantlar
1	Psixometriya (məntiq)	11	1	4	6
2	İnformatika	15	1	4	10
3	Xarici dillər	58	3	18	37

REZİDENTURA ÜZRƏ

№	Rezidentura üzrə	Ümumi say tərkibi	Onlardan				
			professorlar	dosent	baş müəllim	assistent	həkim
1	Baza fənləri	56	8	31	6	11	-
2	İxtisas fənləri:						
	Müalicə işi, Pediatriya istiqaməti	61	3	39	7	7	5
	Stomatologiya istiqaməti	26	4	9	3	8	2
	Tibbi profilaktika istiqaməti	21	2	12	5	3	-

DƏRSLİK VƏ DƏRS VƏSAİTLƏRİNİN ELMİ-METODİKİ MONİTORİNQİ ÜZRƏ

№	Seminarın adı	Ümumi say tərkibi		
		Bakı və Sumqayıt şəhərləri üzrə	Regionlar üzrə	Cəmi
1.	Azərbaycan dili və ədəbiyyatı	258	232	490
2.	Azərbaycan dili (rus bölməsi üçün)	46	0	46
3.	Rus dili və ədəbiyyatı	108	34	142
4.	Rus dili (Azərbaycan bölməsi üçün)	67	31	98
5.	Riyaziyyat	302	225	527
6.	Fizika	247	175	422
7.	Kimya	207	167	374
8.	Biologiya	185	156	341
9.	Tarix	232	163	395
10.	Coğrafiya	187	153	340
11.	İngilis dili	178	83	261
12.	Qərb dilləri (alman, fransız)	75	40	115
13.	Şərq dilləri (ərəb, fars)	52	0	52
14.	İbtidai siniflər	1540	158	1698

DİM-in beynəlxalq əməkdaşlıq və strateji inkişaf layihələrinin həyata keçirilməsi üzrə fəaliyyəti

Vəli Hüseyn, Pərviz Kazımov, Günel Məmmədova,
Vəfa Ələkbərova, Səbinə Hüseynova

DİM dövlət qulluğu, təhsilin qiymətləndirilməsi və tələbə qəbulu sahəsində qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və tətbiqi, Azərbaycan dövlət qulluğu modelinin və təhsilin qiymətləndirilməsi sahəsində Azərbaycan təcrübəsinin təbliği məsələsinə xüsusi önəm verir. Bu məqsədlə 2019-cu ildə "Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxsin Nizamnaməsi"nə əsasən Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq təhsilin qiymətləndirilməsi, tələbə qəbulu və dövlət qulluğu məsələləri üzrə beynəlxalq təşkilatlar və xarici dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq, konfrans, seminar və digər tədbirlərin təşkili, beynəlxalq imtahanların Azərbaycan Respublikasında keçirilməsini təmin etmək, dövlət qulluğunun inkişafına yönəlmiş dövlət və beynəlxalq proqramların həyata keçirilməsində iştirakla bağlı fəaliyyətlər reallaşdırılmışdır.

Təhsilin qiymətləndirilməsi sahəsində beynəlxalq əməkdaşlıq:

1. Yanvar ayında DİM **Avropa Dil Qiymətləndirmə Assosiasiyasının (ALTE)** institusional tərəfdaşı seçilmişdir. Qeyd edək ki, DİM Azərbaycandan Assosiasiyaya seçilən ilk qurumdur. ALTE Avropa və digər ölkələrdə linqvistik qabiliyyətin şəffaf və dəqiq qiymətləndirilməsini birgə təşviq etmək məqsədilə dil üzrə imtahanları keçirən qurumların birliyidir. DİM üçün ALTE ilə əməkdaşlığın əsas məqsədi xarici dillərin qiymətləndirilməsi üzrə təcrübə mübadiləsinə qoşulmaq, qiymətləndirmə alətlərinin yaradılmasında qərəzsizlik və dəqiqliyi qorumaqla imtahanların keyfiyyətini artırmaqdır.
2. 24-26 aprel tarixlərində DİM-in Humanitar fənlər üzrə monitorinq sektorunun böyük məsləhətçisi Könül Həsənova, Magistratura üzrə sektorunun aparıcı məsləhətçisi Aynur Bayramlı və Orta təhsil üzrə sektorunun məsləhətçisi Nəzrin Əhmədova Belçikanın Gent şəhərində ALTE-nin **"Təhsilə çoxdilli keçid"** mövzusunda keçirilən 53-cü illik konfransında iştirak etmişdir. Konfransda dilin qiymətləndirilməsinin təhsilin müxtəlif səviyyələrindəki rolu, testin etibarlılığı və validliyi, testlərin keyfiyyətinin təminatı üzrə müqayisəli yanaşmalar, aşağı göstəricilərə malik olan namizədlərə xarici dilin öyrədilməsi və biliklərin qiymətləndirilməsi kimi mövzular geniş müzakirə olunmuşdur. Həmçinin, DİM nümayəndələri ALTE-nin təşkil etdiyi **"Raters and Rating"** adlı bir günlük peşə inkişafı üzrə kursda iştirak etmişdir.
3. May-iyun aylarında DİM-in strateji inkişaf və layihələrin idarə olunması sektorunun müdiri Pərviz Kazımov M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Bakı filialında magistr pilləsi üzrə dövlət imtahanlarının keçirilməsi və magistr dissertasiyalarının müdafiəsi üçün təşkil edilmiş Dövlət İmtahan Komissiyalarının üzvü olmuşdur.
4. İyul ayında **Təhsildə Ölçmə İnstitutu – National Institute for Educational Measurement (Cito)** DİM-in buraxılış imtahanlarının riyaziyyat komponentinin təkmilləşdirilməsi məqsədilə təlim üçün təkliflər hazırlamış və DİM-ə təqdim etmişdir. Əməkdaşlığın növbəti mərhələsi mövcud təkliflər əsasında "Riyaziyyat" fənni üzrə ekspertlər üçün onlayn təlimin keçirilməsidir.
5. 5-10 avqust tarixlərində Rusiyanın "Ali İqtisadiyyat Məktəbi" Milli Tədqiqat Universitetinin (НИУ ВШЭ) Təhsil İnstitutu tərəfindən Moskva şəhərində təşkil olunan "Təhsildə və Psixologiyada Tətbiqi Psixometriya" adlı 6-cı beynəlxalq yay məktəbinin **"Ölçülərin sadələşdirilməsi, müəyyənləşdirilməsi və qiymətləndirilməsi: Tədqiqat və təsdiq faktor təhlilləri"** proqramında DİM-in Statistik araşdırmalar, elmi layihələşdirmə və innovasiyalar şöbəsinin baş məsləhətçisi Elmir Şirinov iştirak etmişdir.

6. 22-27 sentyabr tarixlərində DİM Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın (IAEA) 45-ci illik konfransını təşkil etmişdir. DİM-in fəaliyyəti və beynəlxalq çağırışlara əsasən IAEA-nın 45-ci konfransı **"Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həllər"** mövzusunda təşkil olunmuşdur. Təhsil və işçi qüvvəsi ilə bağlı qiymətləndirmədə çoxşahəli sahələri əhatə etmək məqsədilə konfrans üçün aşağıda qeyd edilən alt mövzular seçilmişdir:

- Qiymətləndirmənin qərar qəbuletmə prosesində istifadəsi;
- Qərar qəbuletmədə qiymətləndirmənin etibarlılığı və uyğunluğu;
- Daha yaxşı qərar qəbul etmək üçün qiymətləndirmə texnikası;
- Daha yaxşı proqnozlar üçün əlavə dəyər ölçülərinin yaradılması;
- Təhsildə və dövlət qulluğunda qiymətləndirmənin institusional islahat aləti kimi istifadəsi;
- Dövlət və özəl sektorda test və işə qəbul siyasəti ilə bağlı imkanlar və problemlər;
- İnsan resurslarının idarə edilməsində Səriştə Modelinin tətbiqi;
- Universitetlərə və dövlət qulluğuna qəbulda qiymətləndirmə alətlərinin gələcəyi;
- Təhsil sistemində və yaxşı idarəetmədə qiymətləndirmənin innovativ alət kimi istifadə edilməsi;
- Qiymətləndirmə alətləri və qərar qəbuletmə məsuliyyəti;
- E-qiymətləndirmə və texnoloji-üstünlüklü platformalar;
- Təhsil və işçi qüvvəsinin qiymətləndirilməsində operativ tədqiqat.

Qeyd: Konfrans haqqında daha ətraflı məlumat bu hesabatın sonunda verilmişdir.

6.1. 25 sentyabr tarixində IAEA 2019 konfransı müddətində DİM və **"Kembric Qiymətləndirmə"-"Cambridge Assessment English" (CAE)** arasında anlaşma memorandumu imzalanmışdır. Memorandum əsasən CAE ingilis dilinin öyrənilməsi və qiymətləndirilməsinə dair bacarıq və standartların inkişaf etdirilməsində DİM ilə əməkdaşlıq edəcək. Əməkdaşlıq bakalavriat və magistratura səviyyələrinə qəbul imtahanlarını da əhatə edir. DİM qeyd olunanlarla bağlı layihələrin hazırlanması, planlaşdırılması, həyata keçirilməsi, monitorinqi və qiymətləndirilməsini dəstəkləmək məqsədilə memorandum çərçivəsində keçiriləcək tədbirlərdə CAE-nin nümayəndələri ilə sıx əməkdaşlıq edəcək.

7. 16-17 oktyabr tarixlərində DİM-in Strateji inkişaf şöbəsinin müdiri Vəli Hüseyn Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində "British Council" təşkilatı tərəfindən **"İngilis dilinin ali təhsildə rolu və məzunların iş təminatı imkanlarına təsiri"** mövzusunda keçirilən regional konfransda iştirak etmişdir. Konfransın əsas məqsədi ali təhsildə ingilis dilinin rolu, tədrisdə keyfiyyət, məzunların təlim nəticələrinin əmək bazarına uyğunlaşdırılması mövzusunda müzakirələrin aparılması olmuşdur. Səfər çərçivəsində DİM tərəfindən ingilis dilinin qiymətləndirilməsinin təkmilləşdirilməsi istiqamətində ABŞ-ın Azərbaycandakı Səfirliyi, Cambridge Assessment və British Council ilə əməkdaşlıq üzrə işlər müzakirə olunmuş, eyni zamanda Özbəkistan və digər qonşu dövlətlərin təcrübəsi öyrənilmişdir. Qeyd olunan səfərdə xarici dillərin qiymətləndirilməsi istiqamətində Özbəkistan Respublikasının Dövlət Test Mərkəzinin beynəlxalq qiymətləndirmə mərkəzləri ilə əməkdaşlığı, həmçinin müvafiq olaraq ikitərəfli təcrübə mübadilə səfərlərinin təşkil olunması müzakirə olunmuşdur.

8. 4-8 noyabr tarixlərində DİM-in Strateji inkişaf şöbəsinin müdiri Vəli Hüseyn ALTE tərəfindən Sloveniyanın Lyublyana şəhərində **ALTE Audit Sistemi üzrə təlimə giriş, "Dilin qiymətləndirilməsində statistikaya giriş" kursu, "Çoxdilli reallıqda bir dil üzrə qiymətləndirmə? Dil idealogiyaları və onların dilin qiymətləndirilməsinə təsiri"** mövzusunda 54-cü konfrans kimi keçirilmiş tədbirlərdə iştirak etmişdir.

9. 28-29 noyabr tarixlərində Litva Respublikasının paytaxtı Vilnüs şəhərində **"Qiymətləndirmə texnologiyasının gələcəyi"** adlı tədbir təşkil edilmişdir. Tədbirdə DİM-in Strateji inkişaf şöbəsinin müdiri Vəli Hüseyn və bacarıqların, vərdişlərin qiymətləndirilməsi və markerlərin hazırlanması üzrə sektorunun müdiri Aydın Qasımov iştirak etmişdir. Tədbirdə rəqəmsal qiymətləndirmədə meyillər və yeniliklər, rəqəmsal qiymətləndirməyə keçid dönəmində yaranan əsas problemlər və həll yolları, qiymətləndirmədə təhlükəsizlik prosesinin şəffaflığı kimi mövzular müzakirə edilmişdir.

10. Noyabr ayında DİM **Dilin Qiymətləndirilməsi üzrə Avropa Assosiasiyasının (EALTA)** və **Dilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyasının (ILTA)** institusional üzvlüyünə qəbul edilmişdir. EALTA ilə əməkdaşlığın əsas istiqamətləri DİM-in xarici dil bacarıqlarının qiymətləndirilməsi alətlərini "Dillər Üzrə Ümumavropa Tövsiyə Çərçivə Sənədi" (CEFR) səviyyələri əsasında təkmilləşdirmək, bu sahədə qabaqcıl təşkilatlarla birgə tədqiqat və qarşılıqlı təcrübə mübadiləsi aparmaq, həmçinin EALTA

tərəfindən təşkil edilən layihələrə, konfrans və regional praktik məşğələlərə iştirakçı və ya tərəfdaş kimi qoşulmaqdır. ILTA ilə əməkdaşlığın əsas istiqaməti xarici dillərin qiymətləndirilməsi üzrə beynəlxalq təcrübə mübadiləsinə qoşulmaqdır.

11. DİM-in Strateji inkişaf şöbəsinin müdiri Vəli Hüseyn Özbəkistan Respublikasına işgüzar səfəri çərçivəsində ikitərəfli təcrübə mübadiləsi sahəsində əməkdaşlıq etmək məqsədilə Özbəkistan Respublikasının Nazirlər Kabineti yanında Dövlət Test Mərkəzinin (DTM) nümayəndələrini ölkəmizə dəvət etmişdir. Bu məqsədlə 2-4 dekabr tarixlərində DTM-in direktor müavini Şerzod Batirovun rəhbərliyi ilə Özbəkistan nümayəndə heyəti DİM-in fəaliyyəti ilə yaxından tanış olmaq üçün Bakı şəhərinə işgüzar səfər həyata keçirmişdir. Səfərin nəticəsi olaraq çap texnologiyalarının təkmilləşdirilməsi, elektron qiymətləndirmə (e-marking), statistik məlumatların analizi və dövlət qulluğuna qəbul kimi prioritet istiqamətlər əsasında əməkdaşlığın davam etdirilməsi müəyyən edilmişdir.

12. Dekabr ayında PeopleCert Qualifications Ltd qurumunun qolu olan LanguageCert qiymətləndirmə təşkilatının **"LanguageCert International ESOL" (English for Speakers of Other Languages)** adlı beynəlxalq imtahanının ölkədə keçirilməsi üçün qarşı tərəf ilə danışıqlara başlanılmışdır. DİM-in LanguageCert ilə əməkdaşlığını aşağıdakı istiqamətlər üzrə vacib hesab etmək olar:

- LanguageCert tərəfindən təşkil edilən beynəlxalq imtahanların ölkədə keçirilməsi ilə gənclər üçün xarici dillərin qiymətləndirilməsi imkanlarının artırılması;
- Azərbaycan dili imtahanının xarici ölkələrdə beynəlxalq standartlar ilə təşkili üzrə etibarlı tərəfdaşlığın başlanması (Ankara Universiteti ilə olan əməkdaşlıq çərçivəsində türk dilini qiymətləndirən "LanguageCert AÜ TÖMER TürkYet" imtahanı yaradılmışdır).

Növbəti mərhələdə ilkin ödəniş haqqının ödənilməsi və imtahanlara hazırlıq işlərinin görülməsi nəzərdə tutulmuşdur.

13. Dekabr ayında doktoranturaya qəbul üzrə xarici dil proqramı Strateji inkişaf şöbəsinin əməkdaşları və amerikalı mütəxəssis Neytn Kar tərəfindən təhlil edilmiş və təkmilləşdirilməsi üçün təkliflər hazırlanmışdır.

14. DİM **SAT, TOEFL iBT,** həmçinin akademik ingilis dili - **PTE Academic (PTE-A)** və **Professional** kimi beynəlxalq imtahanları keçirən təşkilatlar **("College Board", "ETS" və "Pearson VUE")** ilə əməkdaşlıq edir.

14.1. DİM ABŞ-ın Təhsildə Qiymətləndirmə Xidməti (ETS - Educational Testing Service) və Ali Təhsilə Qəbul Şurasının (College Board) dəstəyi ilə kağız əsaslı SAT imtahanlarının, "ETS" təşkilatı ilə əməkdaşlıq çərçivəsində TOEFL iBT imtahanının, həmçinin Pearson VUE təşkilatının dəstəyi ilə PTE Academic və Professional (İT, mühasibat, marketinq, audit, layihələrin idarə edilməsi və s.) imtahanlarının keçirilməsini 2019-cu ildə davam etdirmişdir.

2019-cu ildə keçirilən SAT, TOEFL iBT, PTE Academic və Professional (İT, mühasibat, marketinq, audit, layihələrin idarə edilməsi və s.) imtahanlarının statistikası aşağıdakı cədvəl və qrafiklərdə təqdim olunmuşdur:

BEYNƏLXALQ İMTAHANLARIN KEÇİRİLMƏ SAYI



BEYNƏLXALQ İMTAHANLARDA İŞTİRAK EDƏNLƏRİN SAYI



PROFESSİONAL SAHƏLƏR ÜZRƏ KEÇİRİLMİŞ İMTAHANLARIN % BÖLGÜSÜ



Professional imtahanlar		
Sahib qurumun adı	***İmtahanın adı***	***İştirakçıların sayı***
Institute of Internal Auditors	CIA Exam Part One: Essentials of Internal Auditing	10
	CIA Exam Part Two: Practice of Internal Auditing	1
	CIA Exam Part Three: Business Knowledge for Internal Auditing	1
CompTIA Testing	CompTIA A+ Certification Exam: Core 1	4
(ISC)2	Certified Information Systems Security Professional	2
PMI - Project Management Institute	Project Management Professional (PMP)®	2
Juniper Networks	Junos, Associate (JNCIA-Junos)	1
Bar Standards Board - UK	Bar Course Aptitude Test	1
NACE	Coating Inspector Level 1	1
LNAT	National Admissions Test for Law	1
Digital Marketing Institute	Certified Digital Marketing Professional	1
Microsoft	Networking with Windows Server 2016	1
	Windows 10	1
	Ümumi	**27**

Təhsilin qiymətləndirilməsi sahəsində beynəlxalq və strateji layihələr:

1. Yanvar-dekabr aylarında **"Məktəb yaşına çatmamış uşaqların zehni qabiliyyətlərinin ölçülməsi məqsədilə qiymətləndirmə alətinin hazırlanması"** layihəsi həyata keçirilməyə başlanmışdır. Layihə çərçivəsində subtestlər hazırlanmış, keçirilən testlərin nəticələrinin statistik təhlili aparılmış, təhlil əsasında düzəlişlər edilmiş, qiymətləndirmə alətinin pilot mərhələsinin təşkili üçün təhsil müəssisələri ilə əməkdaşlıq qurulmuş, təşkilati işlərə cəlb olunacaq könüllü psixoloqların axtarışı, seçimi, onların təlimatlandırılması, həmçinin, ümumi fəaliyyətin əlaqələndirilməsi üzrə iş aparılmışdır. Qeyd edək ki, layihə hazırda davam edir və "Psixoloji alət"in hazırlanması üzrə son mərhələ başlanmışdır.
2. Yanvar - iyul aylarında DİM-in imtahanlarında nəzarətçi qismində iştirak etmək üçün müraciət etmiş namizədlərin psixoloji diaqnostikasını reallaşdırmaq məqsədilə psixoloji alət yaradılmış (yanvar-iyun), imtahan nəzarətçiləri üçün video-təlimatlar hazırlanmış, həmçinin onların qiymətləndirilməsi üzrə müsahibələr aparılmış (sentyabr) və imtahan nəzarətçilərinin psixoloji hazırlığı mövzusunda təlimlər keçirilmişdir (fevral-iyul). Qeyd olunan psixoloji diaqnostikanın nəticələri namizədlərin seçimində aktiv şəkildə istifadə olunur, o cümlədən təlimlərin nəticəsi olaraq namizədlər imtahanlarda psixoloji cəhətdən hazırlıqlı şəkildə iştirak edirlər.
3. Yanvar-dekabr aylarında abituriyent və tələbələrin psixoloji maarifləndirilməsi üzrə **"Pozitiv Zəka"** sosial media bloqunun yaradılması, bloq üçün məqalələrin yazılması və video mühazirələrin çəkilməsi prosesləri həyata keçirilmişdir.
4. DİM ingilis dilinin qiymətləndirilməsi istiqamətində apardığı fəaliyyəti təkmilləşdirmək üçün ABŞ-ın Azərbaycandakı Səfirliyi ilə əməkdaşlıq çərçivəsində Səfirliyin **"English Language Specialist (ELS)"** proqramının bir hissəsi kimi üç mərhələli **"Müəllimlər üçün intensiv peşəkar inkişaf təlimi və konsultasiya"** adlı layihə təşkil etmişdir. Layihənin 1-ci, 2-ci və 3-cü mərhələləri müvafiq olaraq 1–12 aprel 2019-cu il, 30 sentyabr–11 oktyabr 2019-cu il və 5-17 yanvar 2020-ci il tarixlərində həyata keçirilmişdir.
   4.1. Layihənin 1-ci mərhələsi DİM-in ingilis dili fənni üzrə qiymətləndirmə təcrübəsinin nəzərdən keçirilməsi, o cümlədən yerli müəllimlərin qiymətləndirilmə bacarıqları (yazı, oxu, dinləmə üzrə) ilə tanışlıq xarakteri daşımışdır. Səfər çərçivəsində Neytn Kar DİM tərəfindən 7 aprel 2019-cu ildə keçirilmiş tam (11 illik) orta təhsil bazasında buraxılış imtahanı materiallarının hazırlanma prosesində iştirak etmişdir. Bu, mütəxəssisə imtahan materiallarının hazırlanmasını yaxından izləməyə və yerli imtahan prosesini beynəlxalq təcrübə ilə müqayisə etməyə imkan yaratmışdır. Bundan əlavə, DİM-in ekspertləri və DİM-lə əməkdaşlıq edən müəllim heyəti beynəlxalq təcrübə və CEFR ilə DİM-in imtahanlarında istifadə olunan "İngilis dili" fənni üzrə test tapşırıqlarının uyğunlaşdırılması mövzusunda intensiv təlim və konsultativ görüşlərə cəlb edilmişdir.
   4.2. Layihənin 2-ci mərhələsində təlimlər iki hissəli təşkil edilmişdir. Birinci hissədə ekspertlər və DİM ilə əməkdaşlıq edən ingilis dili müəllimləri ilə xarici dil üzrə müxtəlif bacarıqları ölçən test nümunələrinin hazırlanması yolları müzakirə olunmuş və müvafiq nümunələr hazırlanmışdır. İkinci hissədə isə DİM əməkdaşları və daha təcrübəli ekspertlərlə hazırlanan nümunələrin ekspertizasının aparılması yollarına dair fikir mübadiləsi aparılmışdır. Təlimlərdə qrammatika, söz ehtiyatı, oxu, dinləmə, yazı və şifahi nitq bacarıqlarının qiymətləndirilməsi yolları və onların yoxlanılmasının CEFR standartlarına uyğunlaşdırılması müzakirə edilmişdir. Layihə çərçivəsində 11 oktyabr tarixində DİM-in Gəncə regional bölməsində qurumla əməkdaşlıq edən ingilis dili müəllimləri üçün buraxılış və qəbul imtahanlarında ingilis dilinin qiymətləndirilməsinə dair bir günlük təlim təşkil olunmuşdur.

   Qeyd edək ki, layihənin 2-ci mərhələsi başlamazdan əvvəl Neytn Kar IAEA-nın Bakıda keçirilən 45-ci illik konfransı çərçivəsində **"Sualların yazılması zamanı ən çox buraxılan səhvlərin aradan qaldırılması (ingilis dilinin qiymətləndirilməsi)"** mövzusunda konfrans sonrası praktik məşğələ aparmışdır.
5. May ayında abituriyentlər və onların valideynləri ilə görüşlər keçirilmiş (Gənclər evləri), müraciət edənlərə psixoloji dəstək göstərilmişdir.
6. İyun-dekabr aylarında **"E-psixoloq onlayn xidmət və araşdırma platforması"**nın yaradılması prosesi həyata keçirilmişdir. Hazırda platformanın yaradılması üçün son hazırlıq işləri görülür.

7. İyun-avqust aylarında abituriyent və tələbələr üçün təlim materiallarının hazırlanması məqsədilə onların motivasiyası və qərar qəbuletmə mexanizmlərinin müəyyən olunması üçün elmi araşdırmalar aparılmışdır. Araşdırma uğurla nəticələnmiş, abituriyent və tələbələrin qərar qəbuletmə prosesində sosial amillərdən əlavə, daxili fokusun (şəxsi dəyərlər sistemi) vacibliyinin əhəmiyyəti təsdiqini tapmışdır. Araşdırmada 3491 nəfər tələbə və abituriyent iştirak etmişdir.

8. İyun-dekabr aylarında yuxarı sinif şagirdləri və abituriyentlərin ixtisas seçiminə yardım etmək məqsədilə metod və alətlərin hazırlanmasına başlanılmışdır. "İxtisas seçimi" xidmətinin qurulması bir neçə mərhələdən ibarətdir:

8.1. 1-ci mərhələdə minimum ixtisasların təsvirinin yaradılması (50) nəzərdə tutulmuşdur. Burada məqsəd informasiya boşluğunu aradan qaldırmaq və məlumatı auditoriyaya maraqlı şəkildə təqdim etməkdir. İxtisasların təsviri Azərbaycan və rus dillərində təqdim olunacaq. Mümkün olan halda peşə sahibləri ilə video müsahibələrin hazırlanması və ya müsahibə əsasında məqalələrin yazılması nəzərdə tutulmuşdur.

8.2. 2-ci mərhələdə abituriyentin marağına və bacarığına uyğun metodlar araşdırılacaq. Seçilmiş metodların siyahısının müəyyənləşdirilməsi və ən effektiv hesab edilənlərin auditoriya üzərində sınaqdan keçirilməsi nəzərdə tutulmuşdur. Nəticədə, ixtisas seçimi sahəsində işlək metodlar Azərbaycan və rus dillərində qruplaşdırılacaq.

8.3. Sonuncu mərhələdə artıq ödənişli "İxtisas seçimi" xidmətinin göstərilməsi və ixtisasların təsvirinin yazılmasının davam etdirilməsi nəzərdə tutulmuş, həmçinin ali məktəblər haqqında məlumatların verilməsi planlaşdırılmışdır. Qeyd edək ki, hazırda layihə üzrə işlər davam etdirilir.

9. İyul ayında DİM ilə **İmtiyazlı Sertifikatlaşdırılmış Mühasiblər Assosiasiyası – Association of Chartered Certified Accountants (ACCA)** arasında əməkdaşlıq əlaqələri qurulmuş və fəaliyyət planı hazırlanmışdır. ACCA imtahanlarının ölkəmizdə DİM tərəfindən keçirilməsi üçün müqavilə nəzərdən keçirilmiş, imtahanların büdcəsi müzakirə edilərək, keçiriləcək imtahanların sayı planlaşdırılmışdır. Növbəti mərhələ kimi ACCA və DİM arasında müqavilənin imzalanması nəzərdə tutulmuşdur.

10. İyul-avqust aylarında DİM tərəfindən magistraturaya qəbul zamanı istifadə olunan İnformatika proqramı ilə **Beynəlxalq Kompüter İşlətmə Lisenziyası –"International Computer Driving Licence" (ICDL)** proqramının müqayisəli təhlili aparılmışdır. Qeyd olunan proqramın magistraturaya qəbul zamanı tətbiq olunması məqsədilə ICDL sertifikatlaşdırma proqramının biznes planı yazılmış və təqdim olunmuşdur. ICDL-DİM rəsmi akkreditasiya mərkəzinin büdcəsi hazırlanmış, ICDL imtahanının Azərbaycanda keçirilməsi üçün zəruri prosesin (test mərkəzinin müəyyən olunması, ekspertlərin və uyğun kontingentin seçilməsi və s.) layihəsi yazılmışdır. Növbəti mərhələ kimi ICDL və DİM arasında müqavilənin imzalanması nəzərdə tutulmuşdur.

11. İyul-avqust aylarında buraxılış və qəbul imtahanlarında istifadə olunan riyaziyyat tapşırıqlarının PISA 2015 riyaziyyat bölməsi ilə müqayisəsi əsasında situasiya tipli tapşırıqların təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanmış və bu təkliflər "Riyaziyyat" fənni üzrə tapşırıqların tərtib olunmasına dair təlimat kitabçasında öz əksini tapmışdır.

12. İyul-oktyabr aylarında DİM-in buraxılış imtahanlarında ingilis dili komponenti üzrə qiymətləndirmə tapşırıqları CEFR-ə əsasən təhlil edilmiş, ingilis dili fənni üzrə seminar və təlimlər müşahidə edilmiş, ingilis dili üzrə qiymətləndirmə tapşırıqları, eləcə də seminar və təlimlərin təkmilləşdirilməsi istiqamətində müvafiq təkliflər hazırlanmışdır.

13. İyul-sentyabr aylarında **"Abituriyentlərə psixoloji dəstək üçün telefon xətti"** layihəsi həyata keçirilmişdir. Layihə çərçivəsində daxil olan zənglərə (müraciətlərə) adekvat cavablar, tövsiyə xarakterli məsləhətlər verilmişdir.

14. DİM ABŞ-ın Azərbaycandakı Səfirliyi ilə əməkdaşlıq çərçivəsində amerikalı ekspert təhsil üzrə doktor Stefan Sadleri dəvət edərək, 3-4 sentyabr tarixlərində Gəncə, 5 sentyabrda Şəki, 6 sentyabr tarixində isə Bakıda DİM ilə əməkdaşlıq edən ümumtəhsil məktəbləri və ali məktəblərin ingilis dili müəllimlərinə təlimlər təşkil etmişdir. Təlimdə oxu və yazı bacarıqlarına yiyələnmənin texnologiyası, dərs prosesində bilik və bacarıqların ölçülməsi, sinifdaxili qiymətləndirmədə istifadə olunan vasitələrin buraxılış və qəbul imtahanlarında istifadə olunan ölçmə üsulları ilə uyğunlaşdırılması, eyni zamanda oxu və yazı prosesi zamanı yüksək təfəkkür bacarıqlarının formalaşdırılması ilə bağlı fikir mübadiləsi və müzakirələr aparılmışdır.

15. Noyabr ayında **Kembric Qiymətləndirmə (Cambridge Assessment)** ilə imzalanan memorandumun əhatə etdiyi sahələr üzrə fəaliyyətlərin təşkili istiqamətində **Rəsmi Kembric Test Mərkəzinin (Cambridge English Authorized Test Center)** yaradılması üçün biznes planı hazırlanmış, müvafiq şəxslərlə danışıqlar aparılaraq büdcə tərtib olunmuşdur.

16. Noyabr ayında DİM-in buraxılış və qəbul imtahanlarının xarici dil (alman dili) komponentinin təkmilləşdirilməsi istiqamətində planlaşdırılan layihənin hazırlıq mərhələsinə başlanılmışdır. Bu məqsədlə Almaniya Federativ Respublikası Səfirliyinə alman dili üzrə imtahanlarda istifadə edilən test suallarının təkmilləşdirilməsi istiqamətində dəstək almaq üçün məktub yazılmış və səfirliyin təklif etdiyi bir neçə qurum içərisindən Alman Akademik Mübadilə Xidməti (DAAD) seçilərək onunla əməkdaşlıq qurulmuş, fəaliyyətin hansı istiqamətdə olacağına dair müzakirələr aparılmış və ilkin fəaliyyət istiqamətləri müəyyən edilmişdir.

17. Noyabr ayında CEFR sənədinin tərcüməsi ilə əlaqədar olaraq, Avropa Şurası DİM-in koordinasiya partnyoru kimi seçilmişdir.

18. Noyabr-dekabr aylarında DİM-in buraxılış və qəbul imtahanlarının xarici dil (fransız dili) komponentinin təkmilləşdirilməsi istiqamətində planlaşdırılan layihənin hazırlıq mərhələsinə başlanılmış, bu məqsədlə Fransa Səfirliyinə fransız dili üzrə imtahanlarda istifadə edilən test suallarının təkmilləşdirilməsində dəstək almaq üçün məktub yazılmışdır.

Dövlət qulluğu sahəsində beynəlxalq əməkdaşlıq:

1. DİM-in 2016-cı ilin noyabr ayından reallaşdırılmağa başlanan Avropa İttifaqının Tvinninq aləti çərçivəsində litvalı tərəfdaşlarla (Litva Respublikasının Dövlət Katibliyi, Litva Respublikasının Dövlət Qulluğu Departamenti və Avropa Sosial Fond Agentliyi) birgə həyata keçirdiyi **"Azərbaycanın dövlət qulluğu sistemində islahatların davam etdirilməsinə dəstək" layihəsi** 2019-cu ilin yanvar ayında başa çatmışdır. Layihənin icrası müddətində litvalı ekspertlər DİM əməkdaşları ilə layihənin komponentləri üzrə birgə fəaliyyət göstərmiş, dövlət orqanları üçün mütəmadi təlim və seminarlar təşkil edilmişdir.

Layihə 4 komponentdən ibarət olmuşdur:

- Dövlət qulluğu vəzifələrinin funksiyaların məzmununa uyğun olaraq qruplaşdırılması;
- Dövlət qulluğuna qəbul sisteminin təkmilləşdirilməsi;
- Dövlət qulluqçularının fəaliyyətinin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi;
- Dövlət qulluqçularının əməyinin ödənilməsi sisteminin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması.

2. DİM **Avropa İttifaqının (Aİ) Şərq Tərəfdaşlığı (ŞT) proqramının "Demokratiya, Yaxşı İdarəçilik və Sabitlik" adlı I Platforması çərçivəsində Dövlət İdarəçiliyi İslahatları Paneli**ndə də fəaliyyətini davam etdirmişdir. Bu çərçivədə:

2.1. 30 sentyabr - 11 oktyabr tarixlərində Polşa Respublikasının paytaxtı Varşava şəhərində ŞT ölkələrinin nümayəndələri üçün **"Dövlət qulluğunda insan resurslarının idarə olunması sisteminin gücləndirilməsi"** mövzusunda proqram təşkil olunmuşdur. Proqram ŞT Dövlət İdarəçilik Akademiyasının nəzdində, Varşavada yerləşən dövlət idarələrində insan resurslarının idarə edilməsinə cavabdeh olan bölmələrdə təcrübə proqramını əhatə etmişdir. Səfərin əsas məqsədi proqram iştirakçılarını Polşanın dövlət qulluğu sistemi, insan resurslarının idarə edilməsi istiqamətində görülən işlərlə tanış etmək, bu sahədə ŞT ölkələrinin təcrübəsi haqqında fikir mübadiləsi aparmaq, həmçinin ŞT ölkələrində dövlət qulluğu sistemini inkişaf etdirməklə effektiv idarəçilik prinsipləri olmuşdur. Təlimdə strateji inkişaf və layihələrin idarə olunması sektorunun müdiri Pərviz Kazımov, vəzifə və elanlarla iş üzrə sektorunun baş məsləhətçisi Günay Muxtarova və beynəlxalq əməkdaşlıq sektorunun böyük məsləhətçisi Günel Məmmədova iştirak etmişdir.

2.2. 28 noyabr tarixində Ukraynanın Dövlət Qulluğu üzrə Milli Agentliyi Ukraynanın paytaxtı Kiyev şəhərində ŞT proqramının **"İnstitutların gücləndirilməsi və yaxşı idarəçilik"** adlı I Platforması çərçivəsində İdarəçilik və Dövlət İdarəçiliyi İslahatları Paneli üzrə "Dövlət orqanlarında İnsan Resurslarının İdarə Edilməsi (İRİE) üzrə Vahid Elektron Sistem – Effektiv Dövlət İdarəçiliyinə doğru Önəmli Addım" mövzusunda təlim təşkil etmişdir. Tədbirdə DİM-in E-imtahanlarının təşkili sektorunun müdiri Tural Dünyamaliyev və Ali, orta ixtisas təhsili və dövlət qulluğu üzrə informasiya sistemləri sektorunun baş məsləhətçisi Rasim Mahmudov iştirak etmişlər. Təlimin əsas məqsədi Aİ-nin üzv və ŞT ölkələrində dövlət idarəçiliyi və dövlət qulluğu üzrə rəqəmsallaşdırma, eləcə də data sahəsinin məlumat sferasının inkişafı, həmçinin İRİE-nin avtomatlaşdırılması üzrə ən yaxşı təcrübənin və digər uyğun məsələlərin müzakirəsi olmuşdur.

2.3. 3-4 dekabr tarixlərində İsveçin Stokholm şəhərində **"Hökumət və dövlət idarəçiliyində islahatlar"** mövzusunda 17-ci panel görüşü keçirilmişdir. DİM-in Statistik araşdırmalar, elmi layihələşdirmə və innovasiyalar şöbəsinin baş məsləhətçisi Elmir Şirinov "Verilənlərə əsaslanan siyasətin aparılması, monitorinq və dəyərləndirmədə datanın rolu" üzrə panel müzakirədə **"Azərbaycanda dövlət qulluğu üzrə məlumatların (datanın) idarə edilməsi sistemi"** adlı təqdimatla çıxış etmişdir. Təqdimat dövlət qulluğu siyasətinin effektiv həyata keçirilməsi üçün məlumat bazalarının inteqrasiyası və istifadəsi, həmçinin dövlət qulluğuna qəbul üzrə keçirilmiş sertifikasiya imtahanları və müsahibələr barədə ümumiləşdirilmiş, gender və yaş intervalları üzrə statistik məlumatları (diaqramlar və cədvəllər şəklində) özündə ehtiva etmişdir. Təqdimat dövlət qulluğu siyasətinin həyata keçirilməsində təkmilləşdirmənin aparılması üçün təkliflərin hazırlanmasında statistik məlumatların (datanın) məqsədyönlü istifadəsi barədə izahlarla yekunlaşmışdır.

2.4. 5-6 dekabr tarixlərində Bakı şəhərində **"Dövlət idarəçiliyində səriştə modeli: çətinliklər və həll yolları"** mövzusunda seminar keçirilmişdir. Seminarın məqsədi geniş istifadə olunan səriştə modeli vasitəsilə dövlət idarəçiliyində dövlət qulluqçularının seçilməsi, vəzifə yüksəlişində səriştələrin ölçülməsi və xidməti fəaliyyətin hərtərəfli qiymətləndirilməsi məsələlərinin müzakirə edilməsi olmuşdur. Seminarda dövlət idarəçiliyində insan resurslarının idarə edilməsi sahəsində səriştə modelinin tətbiqi ilə bağlı çətinliklərə və həll yollarına xüsusi diqqət yetirilmişdir. Tədbirdə dövlət orqanlarından insan resurslarının idarəolunması funksiyalarını həyata keçirən struktur bölmələrin əməkdaşları, dövlət qulluğuna qəbul üzrə keçirilən müsahibələrdə komissiya üzvü kimi fəal iştirak edən şəxslər, tərəfdaş ölkələrin, o cümlədən Almaniya Federativ Respublikası və Qazaxıstan Respublikasının bu sahədə fəaliyyət göstərən qurumlarının nümayəndələri iştirak etmişlər. Seminarın ilk günü 55, növbəti günü isə 45 nəfər nümayəndə iştirak etmişdir.

3. 2019-cu il ərzində DİM **Nur-Sultanda yerləşən Dövlət Qulluğu üzrə Regional Xab (Regional Xab)** ilə əməkdaşlığı davam etdirmişdir. 2019-cu il ərzində Regional Xabla əməkdaşlıq çərçivəsində:

3.1. 8-12 mart tarixlərində ABŞ-ın Vaşinqton şəhərində keçirilmiş Dövlət Qulluğu üzrə Amerikan Cəmiyyətinin illik konfransı çərçivəsində mart ayının 9-da **"Postsovet və keçid ölkələrində dövlət qulluğunda problemlər və müasir trendlər: Mərkəzi Asiya, MDB, Qafqaz və Balkan ölkələri"** mövzusunda panel sessiyası təşkil edilmişdir. Tədbirdə DİM-in Direktorlar Şurası sədrinin müavini Bəhram Xəlilov iştirak etmişdir. Panelin məqsədi adları qeyd olunan regionlarda dövlət qulluğunun analizi və geniş icmalının təqdim edilməsi, bu ölkələrin SSRİ-nin dağılmasından sonra keçdikləri yol, bazar iqtisadiyyatının inkişafı və qanunçuluğun təmin edilməsi haqqında müzakirələrin aparılması olmuşdur.

3.2. 16-17 may tarixlərində Regional Xab BMT-nin İnkişaf Proqramının Qazaxıstan nümayəndəliyi və Nazarbayev Universitetinin Dövlət İdarəçiliyi Məktəbi ilə birgə Qazaxıstan Respublikasının paytaxtı Nur-Sultan şəhərində keçirilmiş **"Astana İqtisadi Forumu 2019" çərçivəsində "Mükafatlandırma və Tanınma: 21-ci əsrdə dövlət qulluqçularını necə həvəsləndirmək lazımdır"** mövzusunda panel sessiyasını təşkil etmişdir. Tədbirdə DİM-in Strateji inkişaf şöbəsinin müdiri Vəli Hüseyn iştirak etmişdir. Panel sessiyasının məqsədi dövlət qulluqçularının effektiv fəaliyyətinin və motivasiyasının artırılması, habelə əmək haqqı və xidməti fəaliyyətin qiymətləndirilməsi sisteminin təkmilləşdirilməsi üçün innovativ həllərin tətbiqi ilə bağlı təcrübə mübadiləsi və müzakirələrin aparılması olmuşdur. Nəticədə, iştirakçılar praktiki və elmi təcrübələrini ümumiləşdirərək, qabaqcıl vasitə və həlləri müəyyənləşdirmək və onların tətbiqi perspektivlərini müəyyən etmək imkanını əldə etmişlər.

3.3. 24-26 may tarixlərində Regional Xab Çexiya Respublikasının paytaxtı Praqa şəhərində Mərkəzi və Şərqi Avropada Dövlət İdarəçiliyi İnstitutu və Məktəbləri Şəbəkəsinin (NİSPAcee) 27-ci "Siyasətin formalaşdırılmasından tətbiqinə" adlı illik konfransı çərçivəsində **"Postsovet ölkələrində dövlət qulluğunda islahatlar"** mövzusunda panel sessiyası təşkil etmişdir. Tədbirdə DİM-in Direktorlar Şurası sədrinin müavini Bəhram Xəlilov iştirak etmişdir. Panel sessiyasının əsas məqsədi Postsovet ölkələrində dövlət qulluğunda həyata keçirilən islahatların müzakirə edilməsi, bu sahədə təcrübə mübadiləsi, problemlərin müəyyən edilməsi və onların həlli yolunda təkliflərin verilməsi olmuşdur.

3.4. 13-14 iyun tarixlərində Regional Xab tərəfindən Qazaxıstan Respublikasının Nur-Sultan şəhərində **"Dövlət qulluğunda dəyərlər, inam və texnologiya"** mövzusunda illik konfrans keçirilmişdir. Tədbirdə DİM-in icraçı direktoru Vəfadar Misirov iştirak etmişdir. Konfransın məqsədi texnologiyanın sürətli inkişafı nəticəsində dövlət qulluğu sahəsində aparılan islahatlar, dövlət qulluqçusunun fəaliyyətinin yenidən qiymətləndirilməsi ilə bağlı zərurət, dövlət qulluğunda dəyərlər və vətəndaşların dövlətə olan inamının artırılması ilə bağlı mövzularda müzakirələrin aparılması olmuşdur.

3.5. 26 sentyabr tarixində IAEA-nın 45-ci illik konfransında Regional Xab tərəfindən dəstəklənən panel sessiya keçirilmiş və sessiyaya DİM-in Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov moderatorluq etmişdir. Sessiyada DİM-in Dövlət qulluğu məsələləri şöbəsinin müdiri Vüqar Əsgərov **"Azərbaycanda dövlət qulluğunda fəaliyyətin qiymətləndirilməsi: təcrübə, problemlər və çətinliklər"** və baş məsləhətçisi Günay Muxtarova "Dövlət qulluğunda qiymətləndirmə: mövcud vəziyyət və sərişləyə əsaslanan qiymətləndirmə modelinə keçid" mövzularında çıxış etmişlər.

3.6. 30 sentyabr tarixində Gürcüstanın paytaxtı Tbilisi şəhərində Regional Xab Gürcüstanın Dövlət Qulluğu Bürosu ilə birlikdə **"Dövlət qurumlarının funksional və institusional təhlili"** mövzusunda konfrans keçirmişdir. Tədbirdə DİM-in Direktorlar Şurası sədrinin müavini Bəhram Xəlilov iştirak etmişdir. Konfransın məqsədi dövlət orqanları arasında funksional və institusional təhlilin ilkin nəticələrinin paylaşılması və bu sahədə təcrübəli şəxslərin iştirakı ilə bilik və təcrübə mübadiləsi platformasının zənginləşdirilməsi olmuşdur.

3.7. 22 oktyabr tarixində Belarus Respublikasının paytaxtı Minsk şəhərində 22-23 oktyabr tarixlərində keçirilən **"Belarus Respublikası və xaricdə dövlət idarəçiliyi sahəsində qanunvericiliyin inkişafının əsas istiqamətləri"** beynəlxalq forumu çərçivəsində panel sessiya təşkil edilmişdir. Sessiya dövlət qulluğu məsələləri üzrə ixtisaslaşmış qurumların yaradılması və fəaliyyəti, dövlət qulluqçularının motivasiyası, həmçinin informasiya və rəqəmsallaşmanın dövlət qulluğuna təsirinə həsr edilmişdir. Tədbirdə DİM-in Hüquqi təminat və insan resursları şöbəsinin müdiri Nərminə Bayramova iştirak etmişdir.

3.8. 15 noyabr tarixində Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində Regional Xab və Özbəkistan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası **"Dövlət qulluğu sisteminin islahatlaşdırılması kontekstində dövlətin kadr siyasəti: Özbəkistan və xarici dövlətlərin təcrübəsi"** mövzusunda beynəlxalq elmi-praktiki konfrans təşkil etmişlər. Tədbirdə DİM-in Dövlət qulluğu məsələləri şöbəsinin müdiri Vüqar Əsgərov iştirak etmişdir. Seminarın keçirilməsində əsas məqsəd dövlət idarəçilik sisteminin funksionallığının mövcud vəziyyəti, bu sahədə olan problem və məsələlərin müqayisəli təhlili üçün müzakirə platformasının yaradılması, dövlət idarəçiliyi və hüquqi tənzimləməyə dair qurulan gələcək planları elmi şəkildə əsaslandırmaq məqsədilə əsas trend və inkişaf istiqamətlərinin müəyyən edilməsi olmuşdur. Bundan əlavə, təlim siyasətini inkişaf etdirmək üçün konkret təkliflərin yazılması və dövlət idarəçiliyi sisteminin dəyişən mühit şərtlərinə uyğunlaşmaq qabiliyyətinin formalaşdırması ilə bağlı müzakirələr aparılmışdır.

3.9. 21 noyabr tarixində Qazaxıstan Respublikasının Türküstan şəhərində Xoca Əhməd Yasəvi adına Beynəlxalq Qazax-Türk Universitetinin tərkibində yeni fəaliyyətə başlayan Dövlət İdarəçiliyi və İqtisadiyyat Ali Məktəbinin Məsləhət Şurasının ikinci iclası, noyabrın 22-də isə Xoca Əhməd Yasəvi adına Beynəlxalq Qazax-Türk Universiteti və Türküstan Şəhər İcra Hakimiyyəti ilə birgə Qazaxıstan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Agentliyi tərəfindən **"Birinci Beynəlxalq Türküstan Korrupsiyaya Qarşı Mübarizə Forum"**u təşkil olunmuşdur. Tədbirdə DİM-in Direktorlar Şurası sədrinin müavini Bəhram Xəlilov iştirak etmişdir. Forumun keçirilməsində əsas məqsəd regiondakı ölkələrin korrupsiyaya qarşı mübarizə ilə bağlı təcrübəsini paylaşmaq, həmçinin bu mövzu haqqında müzakirələr aparmaqdan ibarət olmuşdur.

4. 2019-cu il ərzində DİM Finlandiya Dövlət İdarəçiliyi İnstitutu (HAUS) tərəfindən həyata keçirilən və Finlandiya Xarici İşlər Nazirliyi tərəfindən maliyyələşdirilən **"PADOS II"** Layihəsi ilə əməkdaşlığı davam etdirmişdir. "PADOS II" Layihəsi ŞT ölkələrinin dövlət idarəçiliyində müasir liderlik və potensial quruculuğu mövzusunu əhatə edir. "PADOS II" həm ŞT dövlətləri üçün ümumi, həm də hər bir dövlətin dövlət qulluqçularının potensialının artırılması sahəsində Finlandiya ilə ikitərəfli əməkdaşlığını nəzərdə tutan müxtəlif tədbirlərdən ibarət layihədir.

4.1. 2 yanvar tarixində HAUS tərəfindən "PADOS II" layihəsi ilə bağlı yekun görüş keçirilmişdir. Tədbirdə DİM-in Strateji inkişaf şöbəsinin müdiri Vəli Hüseyn təqdimat edərək DİM-in fəaliyyəti, Azərbaycan Respublikasının Avropa İttifaqı ilə münasibətləri, eləcə də "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019–2025-ci illər üçün Strategiya" layihəsi haqqında iştirakçılara məlumat vermişdir.

5. 2019-cu il ərzində DİM tərəfindən Aİ ilə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (İƏİT) birgə təşəbbüsü olan SIGMA (Rəhbərlik və İdarəetmədə Təkmilləşdirməyə Dəstək) proqramı çərçivəsində təlimlər təşkil edilmişdir.

5.1. 3-4 iyun tarixlərində proqram çərçivəsində "Səriştə əsaslı idarəetmə" adlı təlim keçirilmişdir. Dövlət qulluqçularının peşəkarlığını və işinin səmərəliliyini artırmaq məqsədilə dövlət qulluğunda beynəlxalq təcrübəyə əsaslanan səriştə (kompetensiya) modelinin tətbiq olunması "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya"da "5.4-cü bənddə Dövlət qulluğunda səriştə (kompetensiya) modelinin tətbiqi" hissəsində öz əksini tapmışdır. Bu təlimin keçirilməsində əsas məqsəd adı çəkilən Strategiyanın həyata keçirilməsi üçün düzgün istiqamətin müəyyən edilməsi və səriştə modeli barədə əcnəbi ekspertlərin təcrübəsini öyrənmək olmuşdur. Təlimin ilk günündə ekspertlər səriştənin müəyyən edilməsi və səriştə modelləri, onların zəif və üstün tərəfləri, səriştə əsaslı idarəetmədə yeni trendlər haqqında ilkin nəzəri məlumat vermiş, o cümlədən səriştələrin tərtib olunması ilə bağlı iştirakçıları praktiki işə cəlb etmişlər. Təlimdə mövzu ilə bağlı İrlandiya və Estoniyaya aid nümunələr təlim iştirakçılarının nəzərinə çatdırılmışdır. Təlimin növbəti günündə səriştənin qiymətləndirilməsi, səriştə əsaslı karyera yüksəlişi və bu sahədə qabaqcıl təcrübə haqqında ekspertlər iştirakçılara geniş məlumat vermişlər. Təlimin sonunda səriştə əsaslı idarəetmənin Azərbaycan Respublikasının dövlət qulluğunda tətbiqi yolları və bu istiqamətdə atıla biləcək addımlar haqqında müzakirələr aparılmışdır. İlk təlimdə 22, növbəti təlimdə isə 19 nəfər iştirak etmişdir.

5.2. 4 iyun tarixində proqram çərçivəsində **"Rəhbər şəxslər üçün səriştə əsaslı idarəetmə"** adlı seminar keçirilmişdir. Seminarda ekspertlər tərəfindən dövlət qulluğunda səriştə əsaslı idarəetmənin əsas prinsipləri, meyarlar, struktur bölmələrə səriştə modeli əsasında insan resurslarının seçilməsi və s. məsələlər haqqında beynəlxalq təcrübə təqdim olunmuş, həmçinin Azərbaycanın dövlət orqanlarında insan resurslarının idarəolunması funksiyalarını yerinə yetirən struktur bölmələrin nümayəndələrini maraqlandıran sualların müzakirəsi aparılmışdır. Təlimdə 28 nəfər iştirak etmişdir.

5.3. 20-21 iyun tarixlərində proqram çərçivəsində **"Dövlət idarəçiliyində səmərəli nəzarət mexanizmi"** adlı seminar keçirilmişdir. Seminarın ilk günündə ekspertlər tərəfindən dövlət sektorunda daxili nəzarət sistemlərinin verifikasiyası və "post faktum" xarakterli nəzarət mexanizmlərinin əlavə dəyəri və rolu, dövlət idarəçiliyində daxili nəzarət sisteminin əsas mexanizmləri, maliyyə, uyğunluq və fəaliyyət nəzarətləri, idarəetmənin və nəzarətə hazırlığın daxili nəzarətin planlaşdırılmasına təsiri və qurumda nəzarət mexanizminin səmərəliliyinin yoxlanılması haqqında təqdimatlar edilmiş, o cümlədən iştirakçılar qeyd olunan mövzularda müzakirələrə və təcrübi məşğələlərə cəlb olunmuşlar. Seminarın növbəti günündə risklərin qiymətləndirilməsi və idarəedilməsi, o cümlədən nəzarətin planlaşdırılması və hazırlanması haqqında ekspertlər iştirakçılara geniş məlumat vermiş, həmçinin iştirakçılar yenidən qrup məşğələləri çərçivəsində verilən tapşırıqları yerinə yetirmişlər. Seminarın sonunda təqdim edilən alət və metodların təcrübədə tətbiqi, əldə olunan nəticə və qarşıda duran çətinliklər haqqında müzakirələr aparılmışdır. İlk təlimdə 31, növbəti təlimdə isə 25 nəfər iştirak etmişdir.

6. Oktyabr-noyabr aylarında Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı Səfirliyi vasitəsilə göndərilən "Azərbaycan Respublikası Hökuməti ilə Bəhreyn Krallığı Hökuməti arasında dövlət qulluğu sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" layihəsinə dair Strateji inkişaf şöbəsinin əməkdaşları tərəfindən təkliflər hazırlanmış və qarşı tərəfə göndərilmişdir.

Dövlət qulluğu sahəsində beynəlxalq və strateji layihələr:

1. **Dövlət qulluqçularının sərişdə modeli üzrə qiymətləndirilməsi məqsədilə elmi-nəzəri baza və nümunəvi alətlərin təqdimatı və ilkin pilot mərhələsi.**

Yanvar- dekabr aylarında ilkin pilot mərhələ üzrə aşağıdakı fəaliyyətlər həyata keçirilmişdir:

- Xarici elmi ədəbiyyatda teoretik araşdırmanın keçirilməsi;
- Xarici materialların tərcüməsi və yerli kontekstə uyğunlaşdırılması;
- Xarici ölkələr və Azərbaycanda bu sahədə mövcud olan təcrübəyə əsaslanaraq ilkin sərişdə modelinin hazırlanması;
- Hər sərişdənin qiymətləndirilməsi üçün müxtəlif alətlər haqqında təqdimatın hazırlanması;
- Sərişdələrin qiymətləndirilməsi üçün alətlərin nümunələrinin tərtib olunması;
- Müxtəlif vəzifələr üçün müvafiq sərişdələrin hazırlanması.

2. **"Yüksəliş" layihəsi.**

Azərbaycan Respublikası Prezidentinin "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında Sərəncamına əsasən intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə "Yüksəliş" müsabiqəsi təsis edilmiş və müsabiqənin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılmışdır. Qeyd edək ki, DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Komitənin üzvüdür. Sentyabr-dekabr aylarında müsabiqə ilə əlaqədar DİM tərəfindən aşağıdakı fəaliyyətlər icra edilmişdir:

- Layihənin ümumi strukturunun formalaşdırılması, mərhələlərin müəyyən olunması;
- Hər mərhələ üçün alətlər dəstinin araşdırılması, yaradılması və hazırlanması;
- Sual bloklarının yaradılması və sualların formalaşdırılması;
- Sınaq imtahanlarının nəticələrinin statistik təhlilləri;
- Təhlillər əsasında düzəlişlərin edilməsi (psixoloji alətlər);
- Videomüsahibələrin təhlili;
- Əyani mərhələdə reallaşacaq layihə iştirakçılarının psixoloji qiymətləndirilməsi üçün ekspertlərin axtarışı, seçimi, onlara müvafiq təlimlərin keçirilməsi;
- İştirakçıların nəticələrinin izahlarının (profil) və psixodiaqnostik qiymətləndirmənin formalaşdırılması;
- Əyani final mərhələ üçün ekspertlərin axtarışı və seçimi;
- Proyektiv testlərin qiymətləndirilməsi üzrə təlim xarakterli görüşlərin və sınaqların keçirilməsi;
- Layihə haqqında icraçı şəxslərə tövsiyələrin hazırlanması və təqdim olunması.

Hazırda onlayn mərhələ və əyani mərhələnin videomüsahibə turu yekunlaşmışdır.

3. **Yeni Tvinninq layihəsi.**

Noyabr-dekabr tarixlərində Tvinninq üçün "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair Strategiyanın tətbiqinə dəstək" adlı layihə təklifi hazırlanmışdır. Layihənin əsas məqsədi "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya"nın Aİ-nın ən yaxşı təcrübəsinə uyğun olaraq dövlət orqanlarının fəaliyyətində səmərəliliyin artırılmasıdır. Həmin Strategiyanın "5.1. Dövlət qulluğunda institusional islahatların həyata keçirilməsi" hissəsində qeyd olunmuşdur ki, dövlət qulluğunun inkişafına təkan verən əsas amillərdən biri bu sahədə tənzimləməni həyata keçirən qurumun peşəkarlığı və effektivliyinin olmasıdır. Strategiyada, həmçinin dövlət qulluğu sahəsində idarəetmənin səmərəliliyini artırmaq məqsədilə DİM-in fəaliyyətinin təhlil edilməsi, təkmilləşdirilməsi üçün təkliflərin hazırlanmasının zəruriliyi öz əksini tapmışdır. Adı çəkilən layihə təklifi ilə bağlı Aİ və müvafiq dövlət qurumları ilə danışıqlara başlanılmışdır.

Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik konfransı

Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya (IAEA) ümumi təhsil və ali təhsil müəssisələrində, kolleclərdə təhsilin, habelə iş yerlərində seçim və xidməti fəaliyyətin qiymətləndirilməsi ilə məşğul olan şəxslər üçün hər il dünyamiqyaslı forum təşkil edir.

IAEA 1975-ci ildən başlayaraq illik beynəlxalq konfranslar keçirir. 50-dən çox ölkənin imtahan mərkəzləri, universitetləri, tədqiqat müəssisələri və dövlət qurumları Assosiasiyanın üzvüdür. IAEA-nın əsas məqsədi təhsilin keyfiyyətini artırmaq məqsədilə təhsil qurumlarına qiymətləndirmə alətlərinin yaradılması və düzgün tətbiqi istiqamətində dəstək göstərməkdir.

DİM təhsilin qiymətləndirilməsi sahəsində dövlətlərarası əməkdaşlığın qurulması, bu sahədə təcrübə mübadiləsinin aparılması, yeni qiymətləndirmə metodlarının tətbiq olunması məqsədilə yaradılmış IAEA ilə sıx əməkdaşlıq etməkdədir. Qeyd edək ki, DİM (keçmiş TQDK) 1999-cu ildən etibarən Assosiasiyanın daimi üzvüdür. 2007-ci ildə Azərbaycan Müstəqil Dövlətlər Birliyi (MDB) ölkələri arasında ilk olaraq IAEA-nın 33-cü illik konfransına ev sahibliyi etmiş, 2017-ci ildə isə IAEA 2019-cu ildəki konfransın Bakıda keçirilməsinə dair qurumun idarə heyətinə təklif irəli sürmüşdür. Təklif müsbət qarşılandıqdan sonra DİM hazırlıq tədbirlərinə başlamış, görülən işlərlə bağlı müvafiq hesabatı IAEA-nın idarə heyətinin 2018-ci ilin fevral ayında Tailandın Banqkok şəhərində keçirdiyi iclasında təqdim etmişdir.

Bununla yanaşı, DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadənin rəhbərliyi ilə nümayəndə heyəti IAEA-nın Oksford şəhərində Oksford Universitetinin Təhsildə Qiymətləndirmə Mərkəzinin təşkilatçılığı ilə keçirilən 44-cü illik konfransında iştirak etmiş, DİM-in Strateji inkişaf şöbəsinin müdiri Vəli Hüseyn tərəfindən IAEA 2019 konfransının hədəfləri və konfransa hazırlıq işlərinə dair hesabat iştirakçılara təqdim olunmuşdur. Təqdimatda "Qiymətləndirmə və qərar qəbuletmə: fərdi və institusional həllər" mövzusunda ölkəmizdə keçirilməsi nəzərdə tutulan konfransa ümumi hazırlıq işləri, alt mövzular, qonaq mühazirəçilər,

KONFRANSIN ELMİ KOMİTƏSİ

Məleykə Abbaszadə

Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri
Elmi Komitənin rəhbəri

Zülfiyyə Veysova

Bakı Avropa Liseyinin direktoru,
Elmi Komitənin üzvü

Fariz İsmayılzadə

ADA Universitetinin icraçı prorektoru,
Elmi Komitənin üzvü

Yoav Cohen

İsrail Milli Test və Qiymətləndirmə İnstitutu, Tədqiqatçı,
Elmi Komitənin üzvü

Kamil Aydazadə

Azərbaycan Milli Elmlər Akademiyasının İdarəetmə Sistemləri İnstitutunda laboratoriya müdiri,
Elmi Komitənin üzvü

Con Pitman

Avstraliya Kuinsland Brisban Universitetinin Təhsil Məktəbinin professoru,
Elmi Komitənin üzvü

tədbirin keçiriləcəyi məkan və konfransın saytı (**http://iaea2019.org/**) haqqında geniş məlumat verilmiş, Azərbaycan haqqında videoçarx nümayiş olunmuş, iştirakçılar Bakıda keçiriləcək növbəti illik konfransa dəvət edilmişdir.

31 yanvar - 2 fevral 2019-cu il tarixlərində qurumun nümayəndəsi və qiymətləndirmə üzrə təhsil eksperti Yan Uiqers konfransla əlaqədar DİM-in həyata keçirdiyi fəaliyyətlə tanış olmaq məqsədilə Azərbaycana səfər etmiş və görülən işləri müsbət qiymətləndirmişdir.

DİM IAEA 2019-a hazırlıqlar çərçivəsində müxtəlif şöbələrdən olan əməkdaşlarının ingilis dili bacarıqlarının inkişaf etdirilməsi məqsədilə də tədbirlər həyata keçirmişdir:

- 2019-cu ilin fevral-avqust aylarında Bakı Oksford Məktəbinin müəllimləri tərəfindən əməkdaşlar üçün ingilis dili kursları keçirilmişdir;
- 2 və 7 sentyabr 2019-cu il tarixlərində DİM ABŞ-ın Azərbaycandakı Səfirliyi ilə əməkdaşlıq çərçivəsində amerikalı ekspert təhsil üzrə doktor Stefan Sadleri dəvət edərək, konfransda çıxış edən yerli təqdimatçılara ingilis dilində təqdimat bacarıqlarının təkmilləşdirilməsi istiqamətində dəstək vermişdir.

22-27 sentyabr 2019-cu il tarixlərində DİM-in təşkilatçılığı ilə Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik beynəlxalq konfransı (IAEA 2019) Bakıda keçirilmişdir.

Konfransın işi konfrans öncəsi praktik məşğələlərlə başlamış və konfrans sonrası praktik məşğələlərlə yekunlaşmışdır.

<u>Gün 1:</u> Konfrans öncəsi praktik məşğələlər:

"XXI əsrdə təhsilin və qiymətləndirmənin funksional savadlılıq istiqamətində davamlı inkişafını təmin etmək üçün xüsusi təlim kursunu necə hazırlamaq olar?", Cito, Niderland, Niko Diteren

Praktik məşğələ ümumtəhsil məktəblərinin müəllimlərinə oxu, riyaziyyat və elm sahələri üzrə funksional savadlılığın tədrisi və qiymətləndirilməsi istiqamətindəki təcrübələrini artırmağa imkan yaratmışdır.

"Qiymətləndirmə ədalətlidirmi?", Kembric Qiymətləndirmə təşkilatı, Böyük Britaniya, İzabel Nisbet, Stüart Şou

Məşğələ təhsilin qiymətləndirilməsi sahəsində tədqiqat aparan və çalışan şəxslərə, müəllimlərə ədalətli (və ya ədalətsiz) qiymətləndirmənin nəticələrini daha dərindən anlamaq üçün müxtəlif mənbələrdən olan materiallarla, nümunə və tədqiqatlarla tanışlıq imkanı yaratmışdır.

"İmtahanın keyfiyyətinin təmin edilməsi üçün yaradılmış təhlil sistemləri", İmtahan və Sertifikatlaşma üzrə Tədqiqat Mərkəzi, Niderland, Arnold Brover

Praktik məşğələdə iştirakçılara keyfiyyətli imtahan materiallarının hazırlanması, dəyərləndirilməsi və seçilməsi barədə məlumat verilmişdir.

Gün 2: Açılış mərasimində IAEA-nın prezidenti Rendi Bennet, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva, Təhsil naziri Ceyhun Bayramov, DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadə, ADA Universitetinin rektoru Hafiz Paşayev iştirak etmişdir.

Tədbirdə Fərəh Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın IAEA-nın 45-ci illik beynəlxalq konfransının iştirakçılarına ünvanladığı təbrik məktubunu oxumuşdur.

Konfransın ümumi statistikası aşağıdakı cədvəl və qrafiklərdə təqdim olunmuşdur:

Konfransın ümumi statistikası	
Yerli iştirakçıların sayı	271
Xarici iştirakçıların sayı	259
Ümumi iştirakçıların sayı	530
Ölkələrin sayı	43
Təşkilatların sayı	130
Elmi işlərin sayı	116
Tərəfdaş və sponsorların sayı	22

İştirakçıların ərazilər üzrə %-lə bölgüsü



Beynəlxalq iştirakçıların vəzifələr üzrə %-lə bölgüsü



İştirak etmiş beynəlxalq qurumların %-lə bölgüsü



Konfransın əsas məruzəçiləri, məruzə mövzuları və məruzələrin qısa məzmunu:

Gün 2: *Kolumbiya Universiteti - Dr. Amra Sabik-El-Rayess*

"Azərbaycanın iqtisadi inkişafında təhsil və qiymətləndirmənin rolu: imkanlar və çağırışlar"

Açılış mərasimində Dr. Amra Sabik-El-Rayessin videomüraciəti təqdim olunmuşdur. Müraciətdə Amra Sabik-El Rayess iqtisadi keçid yaşayan ölkələrin inkişafında təhsil və qiymətləndirmənin rolundan, Azərbaycanda qəbul imtahanlarında qiymətləndirmə prosesindəki müsbət dəyişikliklərdən söhbət açmışdır.

Durham Universiteti - Prof. Piter Tims

"Erkən qiymətləndirmənin gücü: ibtidai siniflərdən başlayaraq potensialın və irəliləmənin ölçülməsi"

Prof. Piter Tims formal təhsilin başlanğıcında təlim nəticələrinin düzgün qiymətləndirilməsinin faydasını vurğulamış və müvafiq olaraq tədris proqramlarına diqqətlə yanaşmaqla mövcud problemləri vaxtından əvvəl müəyyənləşdirilib həll olunmasının vacibliyini qeyd etmişdir. Onun fikrincə, TIMSS və PIRLS kimi elə də qənaətbəxş olmayan tədqiqatların məlumatlarına etibar etməkdənsə, ilin əvvəli və sonunda aparılan qiymətləndirmədə xüsusi ehtiyacları müəyyən etməklə, il ərzində riyaziyyat, oxu, eləcə də sosial və fiziki inkişafdakı irəliləməni ölçən alətə əsaslanmağı bütöv təhsil sisteminin təsirinin ölçülməsi baxımından daha faydalı hesab etmək olar.

Məruzəçi bildirmişdir: "Dünyada hazırda tətbiq edilən yüzlərlə ilkin qiymətləndirmənin həyata keçirilməsinə baxmayaraq, bu sahədə nə üçün hələ də əsaslı tərəqqi müşahidə etmədiyimiz barədə düşünmək məntiqlidir. Cavab isə belədir, çətinliklər böyükdür və ən çox əngəl törədən səbəblər bunlardır: kiçikyaşlı uşaqların diqqətinin tez yayınması, məktəbə başlayarkən çoxlarının oxuyub, yaza bilməməsi faktı, hesabatlılıq üçün testlərin neqativ fəsadları və kiçikyaşlı uşaqların qiymətləndirilməsinin əleyhinə olan fikirlərin mövcudluğu. Erkən yaş səviyyəsi üçün ən uyğun qiymətləndirmə qısa, lakin hərtərəfli olmalıdır. Qiymətləndirməni kimin keçirməsindən asılı olmayaraq, o, bərabər nəticələr verməli və dillərarası, eləcə də mədəniyyətlərarası müqayisə oluna bilməlidir. Bu qiymətləndirmə aləti həm də müəllimlərin rəğbətini qazanmalıdır. Bu ideal model heç vaxt tam əldə oluna bilməsə belə, hədəf olmalıdır."

Təqdimatda yuxarıda sadalanan və hətta başqa çətinliklərin də sadə, yoxlanılmış həll yolları şərh edilmişdir. Eyni qiymətləndirmənin dördyaşlılarda aşağı tələblərlə, yeddiyaşlılarda yuxarı tələblərlə necə istifadə edilə biləcəyi nümayiş etdirilmişdir. Bundan başqa, uğurla adaptasiya edilmiş modelin Rioda portuqalca, Keyptaunda yerli dildə və Avstraliyada ingilis dilində etibarlı, eləcə də müqayisəli məlumat hasil edə biləcəyinə dair tutarlı izahlar gətirilmiş, inkişafa doğru yol göstərilmişdir.



Gün 3: *Kembric Qiymətləndirmə təşkilatı - Dr. Hanan Xalifa*

"Qiymətləndirmə islahat təşəbbüsü kimi- fikir mübadiləsi"

Dr. Hanan Xalifa yerli şəraitə uyğunlaşdırılan və ya xarici qiymətləndirmə alətlərinin təhsil islahatının bir hissəsi kimi təqdim edilməsinin aşağıdakı üç məqsədə xidmət etmək baxımından vacibliyinin artdığını qeyd etmişdir:

- dil üzrə təlim nəticələrinin artırılması,
- sosial hesabatlılığın təmin edilməsi,
- öyrənmə və öyrətmə prosesində arzu edilən dəyişikliklərin həyata keçirilməsi.

Məruzəçi çıxışında bildirmişdir: "İndi daha da aydın olur ki, imtahanların sinifdaxili (mikro-kontekstdə) və sinifdənxaric (makro kontekstdə) davranışa çoxyönlü, kompleks təsirləri ola bilər. Bildiyimiz kimi, yaxşı təşkil edilmiş imtahanlar müsbət nəticələrin əldə olunacağına zəmanət vermədiyi kimi pis təşkil edilmiş imtahanlar da mütləq şəkildə pis nəticələr vermir. Təhsil sisteminin mürəkkəbliyi, təhsil islahatlarının həyata keçirilməsində ortaya çıxan çətinlikləri nəzərə alaraq qiymətləndirmə alətlərinin təsirinin dərk olunması və bu istiqamətdə tədqiqatların aparılması vacib məsələ olaraq qalır."

Mühaziraçi çıxışında ümumtəhsil müəssisələrində ingilis dilinin tədrisində qiymətləndirmə alətlərinin istifadəsinə təhsil islahatı kimi yanaşmışdır. O, islahatın başlanğıcında qiymətləndirmənin qərar qəbuletmə və fəaliyyət planı üçün tutarlı mənbə kimi rolunu vurğulamış və islahatyönlü qiymətləndirmənin roluna nümunə gətirmək üçün Malayziyadan bir tədqiqata müraciət etmişdir. Bununla yanaşı, o, ibtidai təhsildə islahat aləti kimi beynəlxalq imtahandan istifadə edən Vyetnam tədqiqatının məzmunu və nəticələrinə dair hesabat barədə məlumat vermişdir.

Sonda Dr. Hanan Xalifa hər iki ölkə timsalındakı tədqiqatlarda mədəni kontekstin vacibliyini, hər bir milli sistemin islahata təsir edən öz çətinlikləri, prioritetləri, mənbələrinin olduğunu nəzərə çatdıraraq, bir ölçü vahidinin hər kəsə uyğun gələ bilməməsinin reallığını vurğulamışdır. Beləliklə, hər iki tədqiqat göstərmiş oldu ki, təhsil islahatı hər bir milli sistemdəki mürəkkəb və qarşılıqlı əlaqələri, qiymətləndirmə, kurrikulum və pedaqoqika arasındakı qarşılıqlı təsiri dərindən nəzərə almağı tələb edir.

Gün 5: *Britaniya Şurasının Qiymətləndirmə Tədqiqatları qrupu - Dr. Ceymi Dunli "Təhsil islahatı üçün ümumi standartların effektiv tətbiqində standartların müəyyən edilməsinin rolu"*

Dr. Ceymi Dunli təqdimatının əvvəlində təhsil islahatlarının həm məqsəd, həm də hesabatlılığın mərkəzində durmaqla təhsilalanların əldə etməsi hədəflənən qabiliyyət, bacarıq və səriştələri təsvir edən standartlara əsaslanan yanaşmalar əsasında hazırlandığını diqqətə çatdırmışdır. Məruzəçi təqdimatda standartlarla işləyən ölkələrin qarşılaşdığı bəzi ümumi məsələləri təhlil edərək, Dillər üzrə Ümumavropa Tövsiyə Çərçivə Sənədi (CEFR) və yerli standartların əsasında son zamanlarda hazırlanmış ingilis dilinin Çin standartları nümunəsində Avropa və Asiyadakı imtahanların əlaqələndirilməsi təcrübəsindən söhbət açmışdır. Onun fikrincə, CEFR kimi standartların tətbiqində bəzi ümumi xətalar var və bu xətalar xüsusilə də hədəflərin müəyyən edilməsində müşahidə olunur. Dr. Ceymi Dunli bildirmişdir: "Standartların zəngin məzmunu kiçildilərək, tək səviyyəli təyinatlar hazırlanır və bu tək ölçü bütün hədəflərə uyğunlaşdırılır. Həqiqətən də, CEFR-in təhsil islahatlarında istifadəsi və yerli standartların hazırlanması çox sadə həll yoludur, eləcə də bu addım standartlaşmağa gətirib çıxarır, tədrisin və öyrənmənin keyfiyyətini artırır və hesabatlılığı təmin edir. Ancaq bunlar hamısı düzgün tətbiq edilərsə, məqsədlərə çatmaq olar."

Gün 6: *Minnesota Universiteti - Prof. Neytn Kuncel*

"Təhsilin qiymətləndirilməsi sahəsində proqnoz və proseslər"

Prof. Neytn Kuncel təqdimatını hər zaman müzakirə mövzusu olan məsələyə toxunmaqla başlamışdır. O, qəbul və təyinat məqsədləri üçün qərarların verilməsində mühüm praktik nəticələri olan təhsilin bütün səviyyələrində şagirdin nailiyyətinə təsir edən amillərin müəyyən edilməsinin vacibliyindən danışmışdır. Daha sonra məruzəçi bildirmişdir: "Bu tədqiqat, əsasən, fənn üzrə nəticələr və diplom dərəcələri (tamamlanmış təhsil səviyyələri) mövzularını əhatə edir. Baxmayaraq ki, bunlar hər ikisi vacibdir, müxtəlif məzmunlara əsasən şagirdin nailiyyətinin təxmin edilməsi istiqamətində də maraq artmaqdadır. Bunu səmərəli etmək üçün qərar qəbul edən şəxslər və ya qurumlar şagirdlərin bacarıqları barədə müxtəlif ölçülərə əsasən məlumat toplamalı, eyni zamanda şəxsiyyətlərarası və şəxsiyyətdaxili bacarıqların qiymətləndirilməsi də daxil olmaqla, digər şəxsi keyfiyyətlərinəzərə almalıdırlar. Düzgün qərar qəbul etmək üçün daha sonra onlar bu məlumatları birləşdirməlidirlər. Natiqin bəhs etdiyi tədqiqata əsasən, şagird nailiyyəti anlayışını genişləndirmək və ibtidai sinifdən ali məktəbə qədər şəxsi keyfiyyətlər və digər faktorların nəticələrə nə dərəcədə təsir etdiyini araşdırmaq lazımdır. Bu araşdırma qərar qəbul edənlərin hazırda şagirdlərin qiymətləndirilməsi üçün istifadə etdiyi tədqiqatla birləşdirilmişdir. Tədqiqatda iddia edilir ki, intiutiv qərar qəbuletmə, şəxsi fikirlər və düzgün təşkil edilməmiş müsahibələr kimi keyfiyyətsiz ölçü alətləri keyfiyyətcə aşağı qərarların alınmasına gətirib çıxarır. Ancaq bu problemlər aradan qaldırıla bilər." Prof. Neytn Kuncel təqdimatının sonunda təhsildə qiymətləndirmə sahəsində proqnoz və prosesləri təkmilləşdirmək üçün təkliflərini səsləndirmişdir.

Konfrans sonrası praktik məşğələlər:

"Sualların yazılması zamanı ən çox buraxılan səhvlərin aradan qaldırılması (ingilis dilinin qiymətləndirilməsi)", Kaliforniya Dövlət Universiteti, Fullerton, ABŞ, Neytn Kar

Praktik məşğələ ingilis dili müəllimləri və həmin fənn üzrə suallar tərtib edən ekspertlər üçün nəzərdə tutulmuşdur. Məşğələdə suallar tərtib olunarkən nələrə diqqət edilməlidir, proses zamanı ən çox rast gəlinən səhvlər və onları aradan qaldırmağın yolları barədə məlumat verilmişdir.

"PISA 2021 və sonrası: innovativ qiymətləndirmələrin tərtibi və inkişafı", ACTNext / ACT, ABŞ, Kristin Stoefler, Yigal Rosen

Bu seminarda yüksək təfəkkürə aid bacarıqların qiymətləndirilməsinin dizaynı və inkişafı üçün zəruri olan konsepsiya və üsullarla bağlı təcrübələr iştirakçılarla bölüşülmüş, Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramı (PISA) və digər aparıcı genişmiqyaslı qiymətləndirmə proqramları barədə məlumat verilmişdir.

"Yaradıcılıq bacarıqlarını ölçən suallar", ArtEZ İncəsənət İnstitutu, Niderland, Peter Hermans

Bu praktik məşğələdə yaradıcılığın qiymətləndirilməsi barədə danışılmış, standart alətlər etibarlı nəticələr vermədiyi hallarda tətbiq edilə bilən qiymətləndirmə formaları haqqında faydalı məlumatlar təqdim edilmişdir. Yaradıcılığa dair fərqli fikirlər və onların qiymətləndirməyə təsirləri haqqında məlumat, etibarlılığı və keyfiyyəti təmin etməklə bir sıra qeyri-standart parametrləri qiymətləndirən müxtəlif alətlər və tapşırıq nümunələri təqdim edilmişdir.

Konfransın sessiyalarında əhatə olunan mövzular aşağıdakı başlıqlar altında qruplaşdırılmışdır:

- İbtidai təhsildə qiymətləndirmə
- Dil bacarıqlarının qiymətləndirilməsi
- Qiymətləndirmə sistemləri
- Sinifdaxili qiymətləndirmə
- Qiymətləndirmə fəlsəfəsi
- Qiymətləndirmənin dəyərləndirilməsi sistemləri
- Qiymətləndirmənin tərtibi
- Müəllimlərin peşəkar inkişafı
- Psixoloji qiymətləndirmə
- Təhsil siyasəti
- Ali təhsil
- Qiymətləndirmə strategiyaları
- Markinq
- Validlik
- Qiymətləndirmə metodları
- Müqayisəli tədqiqatlar
- Diaqnostik qiymətləndirmə

- Qiymətləndirmə standartları
- İmtahanlarda keyfiyyətin təminatı
- Seçim məqsədilə qiymətləndirmə
- Qiymətləndirmə islahatları
- Regional inkişaf
- Texnologiyalar
- Qərar qəbuletmə
- Qiymətləndirmənin həyata keçirilmə metodları

Konfransda DİM-in müxtəlif şöbələrindən əməkdaşlar da fəal iştirak edərək, təqdimatları ilə konfransın işinə öz töhfələrini vermişlər. Bəzi əməkdaşlar isə həmçinin konfransın bir neçə panel sessiyasına moderator-luq etmişlər.

Gün 4: Konfrans çərçivəsində 25 sentyabr tarixində DİM və "Cambridge Assessment English" (CAE) arasında anlaşma memorandumu imzalanmışdır. Memorandum əsasən CAE ingilis dilinin öyrənilməsi və qiymətləndirilməsinə dair bacarıq və standartların inkişaf etdirilməsində DİM ilə əməkdaşlıq edəcək. Əməkdaşlıq bakalavriat və magistratura səviyyələrinə qəbul imtahanlarını da əhatə edir. DİM qeyd olunanlarla bağlı layihələrin hazırlanması, planlaşdırılması, həyata keçirilməsi, monitorinqi və qiymətləndirilməsini dəstəkləmək məqsədilə memorandum çərçivəsində keçiriləcək tədbirlərdə CAE-nin nümayəndələri ilə sıx əməkdaşlıq edəcək.

Gün 5: Konfrans çərçivəsində 26 sentyabr tarixində Nur-Sultanda yerləşən Dövlət Qulluğu üzrə Regional Xab tərəfindən dəstəklənən panel sessiya keçirilmiş və sessiyaya DİM-in Direktorlar Şurasının sədr müavini

Bəhram Xəlilov moderatorluq etmişdir. Sessiyada DİM-in şöbə müdiri Vüqar Əsgərov "Azərbaycanda dövlət qulluğunda fəaliyyətin qiymətləndirilməsi: təcrübə, problemlər və çətinliklər" və baş məsləhətçisi Günay Muxtarova "Dövlət qulluğunda qiymətləndirmə: mövcud vəziyyət və sərištəyə əsaslanan qiymətləndirmə modelinə keçid" mövzularında çıxış etmişlər.

IAEA 2019-un keçirilməsində aşağıdakı yerli, beynəlxalq sponsor və tərəfdaşların böyük rolu olmuşdur.

№	Sponsorlar		Tərəfdaşlar	
1.	Kembric Qiymətləndirmə təşkilatı (İngilis dili)	Cambridge Assessment English	Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi	Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
2.	Kembric Qiymətləndirmə təşkilatı (Qəbul imtahanları)	Cambridge Assessment Admissions Testing	Azərbaycan Turizm Bürosu	azerbaijan CONVENTION BUREAU

№	Sponsorlar		Tərəfdaşlar	
3.	GradeMaker		"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi	
4.	Botosoft Technologies		AZƏRTAC	
5.	British Council		Heydər Əliyev Mərkəzi	
6.	A1 Security Print		Nur-Sultanda yerləşən Dövlət Qulluğu üzrə Regional Xab	
7.	RM Results		Bakı Oksford Məktəbi	
8.	ABŞ-ın Azərbaycandakı Səfirliyi		Abituriyent jurnalı	
9.	ADA Universiteti			
10.	ACT			
11.	SOCAR AQŞ			
12.	Bakinity			
13.	BestComp Group			
14.	R.I.S.K. Company			

Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi IAEA 2019 konfransı müddətində Azərbaycan mədəniyyətinin əcnəbi qonaqlara tanıdılması məqsədilə tədbir iştirakçılarının Azərbaycan haqqında kitabça və Azərbaycan milli şirniyyatları olan çantalar ilə təmin olunması, həmçinin 25 sentyabr tarixində tədbirin mədəniyyət proqramı çərçivəsində (Gün 4) qonaqlar üçün şəraitin yaradılması istiqamətlərində DİM-ə böyük dəstək göstərmişdir. Azərbaycanın tarixi və mədəni irsi haqqında xarici qonaqlara məlumat vermək üçün Dövlət Turizm Agentliyi tərəfindən konfransın mədəni proqramının Bakı turuna məşhur azərbaycanlı tarixçi Fuad Axundov dəvət olunmuşdur.

Qeyd edək ki, 10 dekabr tarixində Azərbaycan Turizm Bürosunun tabeliyində fəaliyyət göstərən Azərbaycan Konqreslər Bürosu tərəfindən 2019-cu il ərzində Azərbaycana işgüzar tədbirləri cəlb edən yerli qurumların və təşkilatların mükafatlandırma mərasimi keçirilmişdir. Mərasimdə adı qeyd olunmuş konfransın keçirilməsinə görə DİM-ə Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosu tərəfindən mükafat və sertifikat təqdim olunmuşdur.

Tədbirin mədəniyyət proqramı çərçivəsində qonaqlara Qobustan dövlət tarixi-bədii qoruğu və Xalça muzeyinə ödənişsiz girişin təmin edilməsində, həmçinin konfransın Qala gecəsindəki bədii proqramın təşkilində Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin DİM-ə böyük dəstəyi olmuşdur.

Bundan başqa, tədbirin iştirakçıları üçün şəraitin yaradılması və mədəniyyət proqramının təşkil olunmasında Heydər Əliyev Mərkəzinin və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin mühüm rolu olmuşdur.

Konfransın yerli və xarici mediada geniş işıqlandırılması üçün Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) IAEA 2019-un rəsmi media tərəfdaşı seçilmişdir. AZƏRTAC konfransın açılış və bağlanış mərasimləri barədə reportaj və informasiyanın, həmçinin konfrans müddətində digər tədbirlərdən xəbərlərin Azərbaycan, ingilis və rus dillərində yayılmasını, foto və video materialların hazırlanmasını təmin etmişdir. Konfrans müddətində müxtəlif xəbərlər tərcümə olunmuş və iştirakçılarla video müsahibələr təşkil edilmişdir.

Konfransın son günü (***Gün 6***) bağlanış mərasimi keçirilmişdir. Ofqual şirkətinin Standartlar departamentinin rəhbəri və eyni zamanda konfransın məruzəçisi Dennis Opposs forum haqqında ümumi qeydlərini diqqətə çatdırmışdır.

DİM-in Direktorlar Şurasının sədri Məleykə Abbaszadə çıxışında konfransın qarşısına qoyduğu məqsədlərə çatdığına, bir neçə gün ərzində dinlənilən məruzələrin, aparılan fikir mübadilələrinin qiymətləndirmə sahəsində təcrübələrin daha da təkmilləşdiriləcəyinə töhfə verəcəyinə ümidvar olduğunu demişdir. Builki konfransın onun iştirakçıları arasında müvafiq sahələrdə yeni əməkdaşlığın başlanmasına təkan verəcəyini bildirən Məleykə Abbaszadə konfransın əsas məruzəçilərinə, idarə heyətinin üzvlərinə, təşkilat komitəsinə, könüllülərə, sponsor və tərəfdaşlara minnətdarlığını çatdırmışdır.

Daha sonra çıxış edən IAEA-nın nümayəndəsi Yan Uiqers Assosiasiya adından bağlanış nitqi söyləmişdir.

Mərasimdə IAEA-nın 46-cı illik toplantısının 2020-ci ildə Qanada keçiriləcəyi açıqlanmış və bununla bağlı təqdimat edilmişdir.

IAEA 2019-un Təşkilat komitəsi konfransın təşkili istiqamətində işlərin həyata keçirilməsi və koordinasiyası üzrə fəaliyyət göstərən *Strateji inkişaf şöbəsinin* əməkdaşları və konfransın müxtəlif təşkilat məsələlərində köməklik göstərmiş DİM-in bir sıra digər şöbələrinin əməkdaşlarından yaradılmışdır.

Konfransın qeydiyyat platformasının yaradılması və idarə edilməsində *İnformasiyalaşdırma və texnoloji təminat şöbəsi*, konfransın bütün vizual konsepsiyasının yaradılması, konfrans zamanı media işinə dəstək göstərilməsi və tam texniki təminatın təşkilində *Texnoloji nəzarət və informasiya təhlükəsizliyi şöbəsi,* tədbirin media tərəfdaşı olan AZƏRTAC ilə əlaqələndirilməsi, digər kütləvi informasiya vasitələrində işıqlandırılması, həmçinin sənəd və məktubların göndərilməsində dəstək göstərilməsində *İctimaiyyətlə əlaqələr və kargüzarlıq şöbəsi* böyük rol oynamışdır.

Bununla yanaşı, *Maliyyə və iqtisadiyyat şöbəsi, Hüquqi təminat və insan resursları şöbəsi, Təşkilat şöbəsi, Dövlət qulluğu məsələləri şöbəsi, Təchizat və təsərrüfat şöbəsi və Kommersiya sektoru* beynəlxalq konfransın təşkilinə öz töhfələrini vermişlər.

Konfransla bağlı daha geniş məlumat əldə etmək üçün aşağıdakı səhifələri ziyarət edə bilərsiniz:

- http://iaea2019.org/
- https://www.facebook.com/iaea2019/
- https://www.twitter.com/iaea2019/



DİM-in ictimaiyyətin istifadəsinə verdiyi nəşrlər

"Abituriyent" jurnalı özünün bütün sayları, xüsusi buraxılış və nəşrləri ilə ictimaiyyətin, xüsusilə də abituriyentlərin və təhsil işçilərinin maarifləndirilməsinə xidmət göstərir, qəbul kampaniyasının bütün gedişi, mərhələləri, istiqamətləri barədə dolğun, dəqiq və etibarlı informasiya mənbəyi rolunu oynayır.

Rəsmi, elmi-metodiki,
informativ nəşrlərin təsnifatı belədir:

Rəsmi materiallar

- təhsilin müxtəlif pillə və səviyyələrinə qəbul qaydaları;
- təhsilin müxtəlif pillə və səviyyələrinə qəbul qaydalarının təfsilatını açıqlayan qəbul elanları:
- ali təhsil müəssisələri, tam orta və ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul qaydaları, müsabiqə şərtləri və bunların təfsilatını açıqlayan normativ sənədlər:
- tələbə qəbulu prosesinin ayrı-ayrı istiqamət və mərhələləri üzrə ictimaiyyətə ünvanlanan elanlar:
- təhsilin müxtəlif pillə və səviyyələrinə qəbul imtahanı proqramları:
- ali təhsil müəssisələri, tam orta və ümumi orta təhsil müəssisələrinə qəbul aparılan ixtisaslar və plan yerləri:
- ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu;
- ali təhsil müəssisələrinə, tam orta və ümumi orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlərin siyahısı:
- təhsilin müxtəlif pillə və səviyyələrinə tələbə qəbulunun və ümumi təhsil müəssisələri üzrə buraxılış imtahanları nəticələrinin elmi-statistik təhlili.

Tədris-metodiki vəsaitlər

Bu vəsaitlər Azərbaycan Respublikası Təhsil Nazirliyinin ümümtəhsil məktəbləri üçün qüvvədə olan fənlər üzrə tədris proqramları və dərsliklər əsasında hazırlanmış DİM-in qəbul proqramlarına tam uyğundur və DİM-in qəbul imtahanları proqramı əsasında hazırlanmışdır.

Vəsaitlər şagirdlər, abituriyentlər, fənn müəllimləri üçün nəzərdə tutulsa da, universitetlərin müvafiq fakültələrinin tələbələri də istifadə edə bilərlər.



“Yeni təhsil proqramı (kurikulum) üzrə qiymətləndirmə tapşırıqları” vəsaitləri

Yeni təhsil proqramlarına (kurikulumlara) uyğun hazırlanmış bu vəsaitlərdən istifadə etməklə məktəblilərin təlim nailiyyətlərinin qiymətləndirilməsi həyata keçirilir. Vəsaitdən həm diaqnostik, həm formativ, həm də summativ qiymətləndirmədə istifadə olunur.



5-11-ci siniflər



10-11-ci siniflər



6-11-ci siniflər

6-11-ci siniflər



6-11-ci siniflər



5-11-ci siniflər



6-11-ci siniflər



7-11-ci siniflər

6-11-ci siniflər

5-11-ci siniflər

“İbtidai siniflər üçün qiymətləndirmə tapşırıqları” vəsaitləri

İstifadənizə təqdim olunan “İbtidai siniflər üçün qiymətləndirmə tapşırıqları” vəsaitləri Dövlət İmtahan Mərkəzi tərəfindən ibtidai sinif şagirdləri üçün fənn kurikulumunun təlim nəticələri əsasında hazırlanmışdır.

Vəsaitə daxil edilən tapşırıqların hər biri Təhsil Nazirliyinin ibtidai siniflərdə istifadə üçün təsdiq etdiyi mövcud dərsliklər əsasında hazırlanmış və şagirdlərin idrakyömümlü, məntiqi, nəzəri bilik və bacarıqlarını yoxlamağa imkan verir. Bu tapşırıqlarla tədris prosesində diaqnostik, formativ, summativ qiymətləndirmə aparmaq mümkündür.

Vəsaitdən ümumi təhsil müəssisələrində qiymətləndirmə vasitəsi kimi, həmçinin pedaqoji yönümlü ali təhsil müəssisələrində və müəllimlər üçün təlim kurslarında metodiki material kimi istifadə oluna bilər.

Test topluları

Bu toplulara DİM (əvvəlki TQDK) tərəfindən müxtəlif illərdə və müxtəlif təyinatlı imtahanlarda, habelə "Abituriyent" jurnalının ayrı-ayrı saylarında dərc edilmiş test modelləri daxildir. Bununla yanaşı, hər topludakı test tapşırıqlarının 25 faizini heç bir imtahanda istifadə olunmamış tapşırıqlar təşkil edir. Onlar test bankındakı tapşırıqların əsas modellərini əhatə edir və gələcəkdə imtahanlara düşməsi istisna olunmur.

Test topluları şagirdlər, abituriyentlər, müəllimlər, test tərtibi ilə məşğul olan mütəxəssislər və ümumiyyətlə, testologiyaya maraq göstərənlər üçün dəyərli örnəkdir. Eyni zamanda, təlim-tədris prosesində biliyin qiymətləndirilməsində istifadə üçün faydalı vəsaitdir.

"Xüsusi qabiliyyət imtahanları" buraxılışları

"Abituriyent" jurnalının xüsusi buraxılışı olan bu jurnalda ali və orta ixtisas təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarının yığcam xarakteristikası, ixtisaslar üzrə kadr hazırlığı aparan təhsil müəssisələri haqqında məlumatlar, bu ixtisaslar üzrə müsabiqə şərtləri, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları, imtahanlara hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, çalışmalar, əyani vəsaitlərdən reproduksiyalar, şəkillər, cədvəllər, normativlər, bir sözlə, burada xüsusi qabiliyyət tələb edən ixtisasları seçənlərin marağına uyğun olan, sorğularına aydınlıq gətirən, imtahana hazırlaşmalarına fayda verə bilən ən zəruri materiallar əksini tapıb.

Peşəyönümü xarakterli vəsaitlər

DİM (TQDK) öz fəaliyyətinin xüsusiyyətinə uyğun olaraq hər zaman gənclərin peşə-ixtisas yönümünə kömək göstərilməsinə böyük önəm verib. Bu istiqamət üzrə nəşrləri mövzu dairəsinə görə belə qruplaşdırmaq olar:

- ali təhsil müəssisələri və onların ixtisaslar şəbəkəsi haqqında nəşrlər;
- peşə-ixtisas seçiminə dair psixoloq məsləhətləri, sahə mütəxəssislərinin tövsiyələri;
- beynəlxalq təhsil proqramları haqqında materiallar;
- tələbə qəbulu müsabiqəsində ali və orta ixtisas təhsili müəssisələrinin ixtisasları üzrə formalaşan keçid ballarına aid materiallar;
- "İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?" adlı vəsaitlər;
- "Ali təhsil müəssisələrinin bakalavr ixtisasları" kitabları;
- "Abituriyentin məlumat kitabı".

Sonuncu iki nəşr ixtisas qruplarına uyğun olaraq 4 kitabdan ibarət hazırlanmışdır. Birinci kitabda (I qrup) 65 ixtisas, ikinci kitabda (II qrup) 19 ixtisas, üçüncü kitabda (III qrup) 43 ixtisas, dördüncü kitabda isə (IV qrup) 22 ixtisas haqqında məlumatlar əksini tapmışdır. Hər bir ixtisas haqqında informasiyada həmin

- ixtisas üzrə kadrların hansı təhsil müəssisəsində hazırlanması;
- ixtisasın xarakteristikası, təyinatı;
- ixtisas üzrə hazırlanan bakalavrlara təhsil müddətində tədris edilən peşə-ixtisas fənləri, həmin fənlər əsasında öyrədilən ixtisas bilik və bacarıqları;
- hazırlanan mütəxəssisin gələcək fəaliyyətinin əsas sahələri və iş yerləri barədə məlumat verilmişdir.

Magistraturaya və rezidenturaya qəbula aid xüsusi buraxılışlar

Bu məcmuələrdə qəbul qaydaları və elanları, qəbul aparılan ixtisaslar, plan yerləri, imtahanların təşkili və keçirilməsinə aid yeniliklər, qəbul olanların siyahısı, ixtisaslar üzrə keçid balları, DİM-in digər qərar, məlumat və elanları, eyni zamanda metodiki materiallar təqdim olunmuşdur.

Rezidenturaya qəbul imtahanlarına hazırlaşanlar üçün vəsaitlər

Vəsaitlər Azərbaycan Tibb Universitetinin tədris proqramı və rezidenturaya qəbul imtahanı proqramı əsasında hazırlanmışdır. Vəsaitlər tərtib olunarkən elmin müasir nailiyyətlərindən istifadə edilmiş, tədris prosesində qarşıya çıxan konkret problemlərə daha çox diqqət yetirilmişdir. Vəsaitlərdən Azərbaycan Tibb Universitetinin, eləcə də tibb təhsili verən digər tədris müəssisələrinin tələbələri və müvafiq fənləri tədris edən müəllimlər istifadə edə bilərlər.







Dövlət qulluğuna qəbul olmaq istəyənlər üçün "Dövlət qulluğu" xüsusi buraxılışları

Dövlətimiz tərəfindən dövlət qulluğu və digər kadr siyasəti məsələlərində daha mükəmməl və şəffaf modelə nail olmaq mədsədilə müntəzəm olaraq müvafiq tədbirlər həyata keçirilir, qanunvericilik bazasında zəruri dəyişikliklər edilir, yeni normativ hüquqi aktlar qəbul olunur. Dövlət İmtahan Mərkəzinin əsas fəaliyyət istiqamətlərindən biri də bu sahədə vahid dövlət siyasətinin formalaşmasında və həyata keçirilməsində iştirak etmək, dövlət qulluğuna qəbulu mərkəzləşdirilmiş qaydada, müsabiqə əsasında şəffaf şəraitdə aparmaqdan ibarətdir.

DİM ictimaiyyəti bu sahə ilə bağlı maarifləndirməyi və zəruri məlumatlarla təmin etməyi də əsas vəzifələrindən biri hesab edir. "Abituriyent" jurnalının xüsusi buraxılışı olan "Dövlət qulluğu" jurnalının nəşrlərində bilik sahələri üzrə hazırlanmış proqramlar, qanunvericilik bazasında baş verən dəyişikliklər, test tapşırığı nümunələri, müsabiqəyə təqdim olunmuş vakant vəzifələrin siyahısı və digər zəruri məlumatlar təqdim olunmuşdur.

Elmi-statistik araşdırmaların nəticələrinə dair vəsaitlər

Tələbə qəbulu sistemində müasir informasiya texnologiyalarından istifadə olunması həm də ölkədə təhsilin vəziyyətinə dair geniş məlumat bazasına yiyələnməyə imkan verir. Bu məlumatların təhlili, əldə olan materialların pedaqoji ictimaiyyətə çatdırılması, qabaqcıl təcrübənin yayılması, çatışmazlıqların aidiyyəti təşkilatların diqqətinə çatdırılması təhsilin inkişafı ilə bağlı strateji qərarların qəbul olunması üçün mühüm əhəmiyyət kəsb edir. Odur ki, hər il qəbul imtahanlarının nəticələrinə əsasən ölkədə məktəb təhsilinin vəziyyətinin elmi-statistik təhlili aparılır və araşdırmanın nəticələri çap edilib təhsil ictimaiyyətinə çatdırılır. Aparılan elmi-statistik təhlilin tərkib hissələri kimi "Tələbə qəbulunun gender aspektləri" ("Qadınlar statistikada"), "Kənd təsərrüfatı profilli ixtisaslar statistikada" və "Neft-qaz ixtisasları statistikada" adlı kitabçalar hazırlanır. Bunlarla bərabər, ölkənin hər bir rayonunun məzunlarının qəbul imtahanlarındakı göstəricilərini əks etdirən kitabçalar da çap edilib müvafiq təhsil orqanlarına göndərilir. Qəbulun nəticələrinin bu miqyasda, bu səviyyədə araşdırılmasını təhsilin vəziyyətinin monitorinqi də adlandırmaq olar.

Əvvəlki illərdə olduğu kimi, bu il də DİM ali və orta ixtisas təhsili məktəblərinə tələbə qəbulunun nəticələrinə əsasən təhsilin həm ümumilikdə ölkə səviyyəsində, həm də ayrı-ayrı bölgə və məktəblər üzrə göstəriciləri, eləcə də abituriyentlərin ayrı-ayrı fənlər üzrə nəticələri, onların müxtəlif ixtisas qruplarına meyil və maraqları, ali təhsil müəssisələrinə qəbulolma göstəriciləri, yüksək və zəif göstəricili rayon və məktəblər, ali məktəblərin reytinqi, magistraturaya və rezidenturaya qəbulun nəticələri, həmçinin ümumtəhsil müəssisələri şagirdlərinin buraxılış imtahanları üzrə nəticələri və s. məsələlərə dair əhatəli araşdırmalar aparılıb.

DİM 2019-cu ildə: görülmüş işlərin, tədbir və yeniliklərin xronologiyası

Redaksiyamız bu ənənəvi rubrikada Dövlət İmtahan Mərkəzinin cari ildəki fəaliyyətinin xronologiyasını təqdim edir. Burada Mərkəzin 2019-cu ildə gördüyü əsas işlər, həyata keçirdiyi tədbirlər, əldə etdiyi mühüm nailiyyətlər xronoloji ardıcıllıqla əks etdirilib.

♦ Yanvarın 3-dən 25-dək 27 yanvar tarixində keçiriləcək dövlət qulluğunda inzibati vəzifələrin A növünə aid AA, AB və AC qruplarına uyğun olan vəzifələr üzrə test imtahanı üçün qeydiyyat aparılıb.

♦ Yanvarın 4-dən fevralın 4-dək 6 dövlət orqanında inzibati vəzifələrin 4-7-ci təsnifatına uyğun vəzifələrin A və B növü üzrə ümumi müsahibə elan edilib. Müsahibədə iştirak etmək üçün 90 nəfər müraciət edib.

♦ Yanvarın 4-dən fevralın 4-dək mərkəzi icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanları olmaqla, ümumilikdə 14 dövlət orqanında dövlət qulluğu vəzifələrinin A (26 vəzifə) və B (296 vəzifə) növünə aid olan 322 vakant inzibatı vəzifənin tutulması üçün müsabiqənin müsahibə mərhələsi elan edilib.

♦ Yanvarın 4-də elmi-metodiki seminarlarda respublikanın ümumtəhsil müəssisələrində istifadədə olan 5-11-ci siniflər üzrə dərsliklərin monitorinqinə başlanılıb.

♦ Yanvarın 7-də ədəbiyyat fənni üzrə elmi-metodiki seminar keçirilib. Gündəlik müzakirə olunan məsələlər 26 iyul 2018-ci il tarixində III ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanında istifadə edilmiş test tapşırıqlarının elmi-metodiki təhlilinə və 5-ci sinif "Ədəbiyyat" dərsliklərinin monitorinqinə aid olub.

♦ 7-24 yanvar tarixlərində nəzarətçi-müəllimlər ilə seminarlar keçirilib. Seminar-məşğələlərdə ali təhsil müəssisələrinə qəbul imtahanlarının yeni modelindən irəli gələrək istifadə olunacaq cavab vərəqlərinin doldurulma qaydası, eləcə də xarici dil fənni üzrə imtahanda "dinləyib-anlama" bacarıqlarının yoxlanılması üçün istifadə olunacaq dinləmə qurğusundan istifadə qaydaları nəzarətçilərin nəzərinə çatdırılıb.

♦ Yanvarın 8-dən 24-dək Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxs modulların bir-biri ilə tam əlaqəli ("tikişsiz") inteqrasiyasının avtomatlaşdırılması məqsədi ilə uçot-hesabat sisteminin proqram təminatının satınalınması üçün açıq tender elan edib.

♦ Yanvarın 8-də kimya fənni üzrə elmi-metodiki seminar keçirilib. Müzakirə nəticəsində dərslikdəki mübahisəli məqamlar, səhvlər və uyğunsuzluqlar barədə tövsiyələrin hazırlanması, onların test bankının təkmilləşdirilməsində və yeni tapşırıqların tərtibində nəzərə alınması haqqında qərar qəbul olunub.

♦ Yanvarın 10-da biologiya və tarix fənləri üzrə elmi-metodiki seminarlar keçirilib. Hər iki seminarda müzakirələr nəticəsində dərsliklərdəki mübahisəli məqamlar, üst-üstə düşməyən faktlar, səhvlər və uyğunsuzluqlar barədə tövsiyələrin hazırlanması, onların test bankının təkmilləşdirilməsində və yeni tapşırıqların tərtibində nəzərə alınması haqqında qərar qəbul edilib.

♦ Yanvarın 12-də TOEFL imtahanı keçirilib. İmtahan DİM-in inzibati binasında təlimata uyğun təşkil olunub. İmtahanda 14 nəfər iştirak edib və imtahanın gedişi zamanı iştirakçılara bilik və bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

♦ 14-28 yanvar tarixlərində ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul imtahanının birinci mərhələsi üzrə sınaq imtahanına qeydiyyat aparılıb. Sınaq imtahanı Bakı şəhəri ilə yanaşı, Gəncə və Naxçıvan şəhərlərində də təşkil olunub.

♦ Yanvarın 14-də ingilis dili və ədəbiyyat fənləri üzrə elmi-metodiki seminarlar, həmçinin Azərbaycan dili və ingilis dili fənnindən hazırlıq kurslarının ilk dərsləri keçirilib.

♦ Yanvarın 15-dən 24 noyabr 2018-ci il tarixdə keçirilən test imtahanından müvəffəqiyyətlə keçən namizədlərin sertifikatlarının verilməsinə başlanılıb.

♦ Yanvarın 15-də kimya fənni üzrə elmi metodiki seminar və hazırlıq kursunun ilk dərsi keçirilib. Seminarda gündəlik məsələlər 8-ci sinif "Kimya" dərsliyinin və yeni üç tapşırıqlı situasiya tipli məsələnin tərtibinə verilən tələblərin müzakirəsi olub. Hazırlıq kursunda isə ilk dərs fənn kurikulumunun mahiyyəti və strukturuna həsr edilib.

♦ Yanvarın 16-dan aprelin 8-dək yeni təhsil proqramı (kurikulum) əsasında qiymətləndirmə vasitələrinin işlənməsi və onların meyarlar əsasında yoxlanılmasına dair hazırlıq kurslarına qeydiyyat aparılıb.

♦ Yanvarın 16-da fizika fənni üzrə hazırlıq kursunun ilk dərsi və elmi-metodiki seminar keçirilib. Dərsliyin məzmunu, dil və yazı üslubu, faktların elmiliyi haqqında qeyd və təkliflərini bildiriblər.

♦ Yanvarın 16-da rus dili və ədəbiyyat fənləri üzrə elmi-metodiki seminar və hazırlıq kursu keçirilib.

♦ Yanvarın 18-də Dövlət İmtahan Mərkəzində 20 Yanvar faciəsinə həsr olunmuş anım mərasimi keçirilib.

♦ Yanvarın 19-da Şəki şəhərində yeni təhsil proqramları üzrə qiymətləndirmə tapşırıqlarının hazırlanması və onların meyarlar əsasında yoxlanılmasına dair hazırlıq kursları, alman və fransız dili fənləri üzrə isə elmi-metodiki seminarlar təşkil edilib.

♦ Yanvarın 19-da dövlət qulluğuna qəbul olmaq istəyən şəxslərin müsabiqənin test imtahanı mərhələsinə daha da səmərəli hazırlaşmalarına kömək məqsədilə elektron sınaq imtahanı keçirilib.

♦ Yanvarın 19-da "Abituriyent" jurnalının 1-ci nömrəsi nəşr olunub. Jurnal iki dildə – Azərbaycan və rus dillərində çap olunub. Jurnalın bu nömrəsində 2019/2020-ci tədris ili üçün ali təhsil müəssisələrinə tələbə qəbuluna aid rəsmi sənədlər və metodiki materiallar dərc olunub.

♦ Yanvarın 21-dən fevralın 4-dək 10 fevral 2019-cu il tarixində keçiriləcək 2019-cu ilin qəbul imtahanı modelinə uyğun sınaq imtahanına qeydiyyat aparılıb.

♦ Yanvarın 21-dən fevralın 10-dək 17 fevral 2019-cu il tarixində keçiriləcək inzibati dövlət qulluğu vəzifələrinin B növünə (inzibati icraçı vəzifələr) aid olan BA və BB qruplarına uyğun olan vəzifələr üzrə test imtahanına qeydiyyat elan edilib.

♦ Yanvarın 22-də Dövlət İmtahan Mərkəzi yeni "vizuallaşdırılmış dərs" sosial layihəsinə start verib. Dərsliklərdə olan mövzular səsli formada – videomaterial, illüstrasiya, fotoşəkil və müxtəlif vasitələrdən istifadə etməklə "videodərs" formasında təqdim olunub.

♦ Yanvarın 22-də Finlandiya Dövlət İdarəçiliyi İnstitutunda (HAUS MMC) "PADOS II" layihəsi ilə bağlı yekun görüş keçirilib.

♦ Yanvarın 23-də "Magistr" jurnalının 1-ci nömrəsi dərc olunaraq bakalavrların istifadəsinə verilib. Jurnalda Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul qaydaları, məntiqi təfəkkür, xarici dillər və informatika üzrə qəbul imtahanı proqramları, həmçinin məntiqi təfəkkürün yoxlanılması üzrə çoxseçimli və açıq tipli test tapşırığı nümunələri Azərbaycan və rus dillərində çap edilib.

♦ Yanvarın 24-də "Dövlət qulluğu" jurnalının 1-ci nömrəsi nəşr edilib. Bu nömrədə "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019−2025-ci illər üçün Strategiya", "Dövlət qulluğuna qəbul üzrə keçirilən test imtahanları barədə statistik məlumatlar (03.01.2019-cu il tarixə)", "Dövlət qulluğuna qəbul üzrə müsabiqənin test imtahanı mərhələsinin nəticələrinə aid statistik təhlil (03.01.2019-cu il tarixə)", "Dövlət orqanları üzrə inzibati vəzifələrə təyin olunmuş şəxslərin siyahısı (01.10.2018 – 03.01.2019)" və digər zəruri məlumatlar dərc olunub.

♦ Yanvarın 25-də "Azərbaycanın dövlət qulluğu sistemində islahatların davam etdirilməsinə dəstək" adlı Tvinninq layihəsinin bağlanış mərasimi keçirilib. Layihənin əsas məqsədi Azərbaycanda qabaqcıl Avropa təcrübəsinə uyğun olan peşəkar, dayanıqlı dövlət qulluğu sisteminin daha da inkişaf etdirilməsinə töhfə vermək, vəzifə sisteminin təsnifatlandırılması, onun işəgötürmə, fəaliyyətin qiymətləndirilməsi və əmək haqqı sistemi ilə əlaqələndirilməsi üçün Dövlət İmtahan Mərkəzinin mövcud imkanlarını və fəaliyyətinin səmərəliliyini artırmaq, həmçinin mövcud alətləri təkmilləşdirmək olub.

♦ Yanvarın 24-ü və 25-də biologiya, tarix, coğrafiya, riyaziyyat fənləri üzrə hazırlıq kurslarının 2-ci dərsi keçirilib. Müzakirələr nəticəsində dərsliklərdəki mübahisəli məqamlar, səhvlər və uyğunsuzluqlar barədə tövsiyələr hazırlanması, tövsiyələrin bankın təkmilləşdirilməsində və yeni tapşırıqların tərtibində nəzərə alınması ilə bağlı qərarlar qəbul olunub.

♦ Yanvarın 25-də "Azərbaycanın dövlət qulluğunda islahatların davam etdirilməsinə dəstək" adlı Tvinninq layihəsinin Rəhbər komitəsinin yekun iclası keçirilib. İclasın əsas müzakirə mövzusu layihənin 9-cu trimester dövründə (noyabr-yanvar) dövlət quluqçularının əmək haqqı sisteminin təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər və onların nəticələri olub.

♦ Yanvarın 26-da DİM Bərdədə yeni təhsil proqramları üzrə qiymətləndirmə tapşırıqlarının hazırlanması və onların meyarlar əsasında yoxlanılmasına dair hazırlıq kursları, ingilis, rus, alman və fransız dili fənləri üzrə isə elmi-metodiki seminarlar təşkil edib.

♦ Yanvarın 27-də inzibati vəzifələrin A növünə (inzibati rəhbər vəzifələr) aid olan vəzifə qrupları üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahan kompüter vasitəsilə təlimata uyğun olaraq 3 saat müddətində aparılıb və namizədlərə biliklərini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb. İmtahanda 87 namizəd iştirak edib. 37 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ Yanvarın 28-də Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə şəhər və rayonlarda vətəndaşların dövlət qurumlarının, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən qəbulu cədvəlinə uyğun olaraq Salyan rayonunda vətəndaşları qəbul edib. Qəbulda Şirvan şəhərinin sakinləri ilə yanaşı Hacıqabul, Salyan, Saatlı, Sabirabad, Neftçala rayon sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak edib. Görüşdə, əsasən, ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul, bu il tətbiqi nəzərdə tutulan ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsi imtahanlarının və ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanlarının yeni qaydaları, əvvəlki illərin məzunlarının kolleclərə qəbulu, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, namizədlərlə müsahibələrin keçirilməsi və s. məsələlərlə əlaqədar DİM Direktorlar Şurasının sədrinə müraciətlər edilib.

♦ Yanvarın 28-də DİM ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsi (buraxılış) və ali təhsil müəssisələrinə qəbul imtahanlarında tətbiq ediləcək yeni qaydalar haqqında Şirvanda elmi-metodiki seminarlar keçirib.

♦ 28-30 yanvar tarixlərində ingilis dili, Azərbaycan dili, kimya, fizika, rus dili fənləri üzrə hazırlıq kurslarının 3-cü dərsi keçirilib. Müzakirələr nəticəsində dərsliklərdəki mübahisəli məqamlar, səhvlər və uyğunsuzluqlar barədə tövsiyələr hazırlanması, tövsiyələrin bankın təkmilləşdirilməsində və yeni tapşırıqların tərtibində nəzərə alınması ilə bağlı qərarlar qəbul olunub.

♦ Yanvarın 31-də "Magistr" jurnalının 2-ci nömrəsi nəşr olunub. Jurnalın bu nömrəsində ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul haqqında elanın tam mətni, "Şəxsi kabinet"in yaradılması və istifadə qaydası, müsabiqə şərtləri, "Bakalavrın elektron ərizəsi" formasının doldurulma qaydası və onun nümunəsi, magistratura səviyyəsinə qəbula hazırlaşan bakalavrlara kömək məqsədilə ümumi intellektin (məntiqi təfəkkürün) inkişaf səviyyəsini, informatika üzrə bilikləri, xarici dilləri bilmə səviyyəsini yoxlayan test tapşırığı nümunələri dərc edilib.

♦ Yanvarın sonlarında Dövlət İmtahan Mərkəzi Avropa Dil Qiymətləndirənlər Assosiasiyasının (ALTE) institusional tərəfdaşı seçilib.

♦ 31 yanvar-1 fevral tarixlərində biologiya, tarix, coğrafiya, riyaziyyat fənləri üzrə hazırlıq kurslarının 3-cü dərsi keçirilib.

♦ Fevralın 1-dən 11-dək 2019/2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına tələbə qəbulu haqqında elan verilib, internet vasitəsilə ərizə qəbulu aparılıb. Magistraturaya qəbul imtahanında iştirak etmək üçün 12685 bakalavr ərizə təqdim edib.

♦ Fevralın 1-də Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın idarə heyətinin üzvü Yan Uiqers 22-27 sentyabr tarixlərində DİM tərəfindən Bakıda keçiriləcək "IAEA 2019" konfransının hazırlıq işləri ilə tanış olub.

♦ Fevralın 2-dən zal nəzarətçisi fəaliyyətinin sertifikatlaşdırılması məqsədilə Dövlət İmtahan Mərkəzi təlimlər mərhələsinə başlayıb.

♦ Fevralın 3-də ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul imtahanının birinci mərhələsi üzrə sınaq imtahanı keçirilib.

♦ Fevralın 4-də ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsi və ali təhsil müəssisələrinə qəbul imtahanlarında tətbiq ediləcək yeni qaydalar haqqında Naxçıvan şəhərində elmi metodiki seminarlar keçirilib. Direktorlar Şurasının sədri Məleykə Abbaszadə plenar iclasda "Cari il məzunlarının buraxılış imtahanlarındakı nəticələri haqqında statistik məlumat" mövzusunda və ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsi, ali təhsil müəssisələrinə qəbul imtahanlarının yeni qaydaları ilə bağlı təqdimatla çıxış edib.

♦ Fevralın 5-dən martın 7-dək dövlət qulluğuna qəbul üçün ümumi müsahibəyə sənəd qəbulu aparılıb. 70 nəfər müraciət edib.

♦ Fevralın 5-dən martın 7-dək dövlət qulluğuna qəbul üçün müsabiqə üzrə (A və B növü) sənəd qəbulu aparılıb. A növü üzrə 16, B növü üzrə 2375 nəfər müraciət edib.

♦ Fevralın 5-də fevralın 3-də keçirilmiş magistraturaya qəbul imtahanının I mərhələsi üzrə keçirilən sınaq imtahanının nəticələri elan edilib.

♦ Fevralın 7-də "Rezidentura" xüsusi buraxılışının 1-ci nömrəsi nəşr olunub. Bu nömrədə Azərbaycan Respublikasında rezidenturaya qəbul qaydaları, rezidentura üzrə ixtisas seşimi cədvəli, baza fənləri üzrə qəbul proqramları, qəbul imtahanında istifadə olunmuş bəzi test tapşırıqlaının izahı və tövsiyələr, test tapşırığı nümunələri, elmi-metodik məqalələr və s. məlumatlar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ Fevralın 8-də 4 yanvar tarixində elan edilmiş ümumi müsahibələrin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 6 dövlət orqanında mövcud olan 40 vakant vəzifə müsahibəyə çıxarılıb. Ümumilikdə isə, 89 namizəd müsahibələrdə iştirak etmək üçün qeydiyyatdan keçib.

♦ Fevralın 10-da Dövlət İmtahan Mərkəzi yeni təhsil proqramları (kurikulumlar) üzrə 2019-cu ilin qəbul imtahanı modelinə uyğun respublikanın 26 şəhər və rayonunda sınaq imtahanları keçirib.

♦ Fevralın 9-da Lənkəran şəhərində elmi-metodiki seminarlar və yeni təhsil proqramları (kurikulumlar) üzrə qiymətləndirmə tapşırıqlarının hazırlanması və onların meyarlar əsasında yoxlanılmasına (marker) dair hazırlıq kursu keçirilib.

♦ Fevralın 10-da ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsinin modelinə uyğun keçirilən sınaq imtahanında Bakı və Gəncə şəhərlərində bəzi imtahan binalarına giriş zamanı imtahan iştirakçılarının şəxsiyyətini dəqiqləşdirmək məqsədilə "Face Recognition" (üzün tanınması) texnologiyasına əsaslanan proqram-texniki vasitələrdən istifadə olunub.

♦ 4-12 fevral 2019-cu il tarixlərində ingilis dili, Azərbaycan dili, kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə hazırlıq kurslarının 4 və 5-ci dərsləri keçirilib.

♦ Fevralın 12-də yeni təhsil proqramı (kurikulum) üzrə imtahana hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçün "Azərbaycan dili" vəsaiti nəşr olunub.

♦ Fevralın 14-də "Rezidentura" jurnalının 2-ci nömrəsi nəşr edilib. Jurnalda qəbul elanının tam mətni, "Şəxsi kabinet"in yaradılması və istifadə qaydası, rezidenturaya ərizə verən namizəd üçün təlimat, "Namizədin elektron ərizəsi"nin doldurulma qaydası, onun nümunəsi, rezidenturaya ixtisas fənləri üzrə qəbul imtahanı proqramları, test tapşırığı nümunələri və digər materiallar Azərbaycan və rus dillərində təqdim edilib.

♦ Fevralın 14-dən 21-dək 2019/2020-ci tədris ili üçün rezidenturaya tələbə qəbulu haqqında elan verilib, internet vasitəsi ilə ərizə qəbulu aparılıb. Rezidenturaya qəbul imtahanında iştirak etmək üçün 930 namizəd ərizə təqdim edib.

♦ Fevralın 15-də Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə şəhər və rayonlarda vətəndaşların dövlət qurumlarının, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən qəbulu cədvəlinə uyğun olaraq Naftalan şəhərində vətəndaşları qəbul edib. Qəbulda Naftalan şəhərinin sakinləri ilə yanaşı Mingəçevir şəhər, Yevlax, Ağdaş, Goranboy rayonlarının sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər. Görüşdə, əsasən, ali təhsil müəssisələrinin magistraturalarına və rezidenturaya qəbul, buraxılış imtahanları və ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanlarının yeni qaydaları, əvvəlki illərin məzunlarının kolleclərə qəbulu, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, namizədlərlə müsahibələrin keçirilməsi və s. məsələlərlə əlaqədar DİM Direktorlar Şurasının sədrinə müraciətlər edilib.

♦ Fevralın 17-də dövlət qulluğunda inzibati vəzifələrin B növünə (inzibati icraçı vəzifələr) aid olan BA və BB qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahan təlimata uyğun olaraq kağız daşıyıcılar vasitəsilə 3 saat müddətində aparılıb və namizədlərə biliklərini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş 1878 namizəddən 27 nəfəri imtahana gəlməyib. Ümumilikdə, 949 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ Fevralın 17-də Dövlət İmtahan Mərkəzi respublikanın 23 şəhər və rayonunda ilk peşə-ixtisas təhsili müəssisələrinin sonuncu sinfində təhsil alan şagirdləri üçün buraxılış imtahanı keçirib. İmtahanların keçirilməsi üçün 25 imtahan binası ayrılıb. İmtahanların idarə olunmasına 34 imtahan rəhbəri, 314 nəzarətçi-müəllim ayrılıb.

♦ Fevralın 18-dən iyulun 27-dək 4 yanvar tarixində elan edilmiş dövlət qulluğuna qəbul üçün müsabiqənin müsahibə mərhələsi üzrə qeydiyyatdan keçmiş namizədlərlə müsahibələr keçirilib. Müsahibədə iştirak edən namizədlərdən 102 nəfər vəzifəyə uyğun bilinib.

♦ Fevralın 21-dən martın 15-dək 17 martda keçiriləcək inzibati rəhbər (A növü) vəzifələr üzrə müsabiqənin test imtahanına qeydiyyat elan edilib.

♦ Fevralın 21-də fevralın 10-da keçirilmiş sınaq imtahanının nəticələri açıqlanıb. Sınaq imtahanında iştirak etmək üçün qeydiyyatdan keçmiş 28337 abituriyentdən 211-i imtahana gəlməyib.

♦ 4, 15 və 21 fevral tarixlərində "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda təlimlər təşkil olunub.

♦ Fevralın 22-dən martın 11-dək orta ixtisas təhsili müəssisələrinə ümumi (9 illik) orta təhsil bazasında tələbə qəbulu elan edilib.

♦ Fevralın 22-də DİM-in Naxçıvan Regional Bölməsində riyaziyyat və ingilis dili fənləri üzrə hazırlıq kursları təşkil edilib.

♦ Fevralın 24-də DİM ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul imtahanının birinci mərhələsini keçirib. İmtahan respublikanın 5 şəhərində – Bakı, Naxçıvan, Gəncə, Mingəçevir və Lənkəran şəhərlərində, ümumilikdə 39 imtahan binasında keçirilib. İmtahanın idarə olunmasına 129 imtahan rəhbəri, 1251 nəzarətçi-müəllim cəlb olunub.

♦ 25 fevral – 1 mart 2019-cu il tarixlərində ingilis dili, Azərbaycan dili, kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə hazırlıq kurslarının 6-cı dərsi keçirilib.

♦ 25-27 fevralda ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul imtahanının birinci mərhələsi ilə əlaqədar bakalavrların müraciətlərinə baxılması üçün Dövlət İmtahan Mərkəzində Apelyasiya Komissiyası fəaliyyət göstərib.

♦ Fevralın 26-da Dövlət İmtahan Mərkəzi ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul imtahanının birinci mərhələsinin nəticələrini elan edib. İmtahan nəticələri DİM-in saytı və mobil operatorlar vasitəsilə təqdim olunub. İmtahanda iştirakı nəzərdə tutulan 12684 bakalavrdan 138 nəfəri imtahana gəlməyib. İmtahanda ən yüksək nəticə isə 97 bal olub.

♦ Fevralın 28-də 10 dövlət orqanında inzibati vəzifələrin 4-7- ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə ümumi müsahibə elanı verilib.

♦ Martın 1-də ilk peşə-ixtisas təhsili müəssisələrinin sonuncu sinfində təhsil alan şagirdlərin buraxılış imtahanlarının nəticələri elan olunub. İmtahanda iştirakı nəzərdə tutulan 3432 nəfərdən 114 nəfər imtahana gəlməyib, 1 nəfər isə tələb olunan qaydaları pozduğu üçün imtahandan xaric olunub.

♦ 3, 10 və 17 mart tarixlərində respublikanın bütün şəhər və rayonlarında ümumtəhsil müəssisələrinin 9-cu sinfində təhsil alan şagirdlər üçün buraxılış imtahanının I mərhələsi keçirilib. İmtahanlarda 110 mindən artıq şagird iştirak edib. İmtahanda şagirdlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi ilə tədris dili, riyaziyyat və xarici dil fənləri üzrə ümumilikdə 45 tapşırıq təqdim edilib. Yazı işləri (açıq tipli tapşırıqların cavabları) DİM və onun regional bölmələrində müvafiq təhlükəsizlik tələblərinə cavab verən ekspertiza (yoxlama) zallarında, qapalı şəraitdə, kompüter arxasında markerlər tərəfindən yoxlanılıb. Yazı işlərinin yoxlanılması üçün proqram təminatı Dövlət İmtahan Mərkəzinin mütəxəssisləri tərəfindən hazırlanıb. Hər bir yazı işi əvvəlcə "scan" olunub və 2 marker tərəfindən qiymətləndirilib (markerlərin qiymətləri arasında fərq yarandıqda həmin yazı işi proqram tərəfindən 3-cü markerə göndərilib). Yoxlama zamanı markerin kompüterinin monitorunda yazı işinin müəllifi haqqında heç bir məlumat (ad, soyad, ata adı, şagird kodu, ünvan və s.) verilməyib. Monitorda yalnız yazı işi, yazı işini qiymətləndirmək üçün meyarlar və qiyməti daxil etmək üçün müvafiq sahə göstərilib. Bundan əlavə imtahanda şagirdlərə təqdim olunan hər bir tapşırıq üçün ayrıca qiymətləndirmə meyarı hazırlanıb və markerlər hər hansı bir tapşırığa aid yazı işini yoxladıqda məhz həmin tapşırığın qiymətləndirmə meyarına əsaslanıblar.

♦ 4 – 7 mart 2019-cu il tarixlərində ingilis dili, Azərbaycan dili, kimya, fizika, rus dili, biologiya və tarix fənləri üzrə hazırlıq kurslarının 8-ci dərsi keçirilib.

♦ Martın 9-da Dövlət İmtahan Mərkəzində növbəti SAT imtahanı keçirilib. İmtahanda 33 nəfər iştirak edib.

♦ Martın 10-da dövlət qulluğuna qəbul olmaq istəyən şəxslərin müsabiqənin test imtahanı mərhələsinə daha da səmərəli hazırlaşmalarına kömək məqsədilə AA, AB, AC, BA, BB qrupları üzrə növbəti sınaq imtahanları keçirilib.

♦ Martın 14-də Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə şəhər və rayonlarda vətəndaşların dövlət qurumlarının, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən qəbulu cədvəlinə uyğun olaraq Ucar rayonunda vətəndaşları qəbul edib. Qəbulda Ucar rayonunun sakinləri ilə yanaşı Göyçay, Kürdəmir və Ağsu rayonlarının sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər. Görüşdə, əsasən, ümumi və tam orta təhsil səviyyəsi üzrə buraxılış

imtahanları, ali təhsil müəssisələrinin magistraturalarına qəbul, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanlarının yeni qaydaları, əvvəlki illərin məzunlarının kolleclərə qəbulu, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, dövlət qulluğu sertifikatının alınması və s. məsələlərlə əlaqədar DİM Direktorlar Şurasının sədrinə müraciətlər edilib.

♦ Martın 14-dən 5 fevral 2019-cu il tarixində elan edilmiş ümumi müsahibələrin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 5 dövlət orqanında mövcud olan 17 vakant vəzifə ümumi müsahibəyə çıxarılıb. Ümumilikdə isə 70 namizəd müsahibələrdə iştirak etmək üçün qeydiyyatdan keçib. Müsahibələr 18 mart - 23 aprel 2019-cu il tarixlərində keçirilib.

♦ Martın 14-dən 5 fevral 2019-cu il tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsinin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 27 dövlət orqanında mövcud olan inzibati dövlət qulluğu vəzifələrinə aid 699 (A növü üzrə 88 vəzifə, B növü üzrə 611 vəzifə) vakant vəzifə müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə qeydiyyatdan keçmiş 819 namizədlə 2199 müsahibənin keçirilməsi planlaşdırılıb. Müsahibələrin 18 mart - 13 iyun 2019-cu il tarixləri ərzində keçirilib.

♦ Martın 14-dən aprelin 14-dək dövlət qulluğunun B (inzibati icraçı) növünə aid vakant vəzifələrin tutulması üçün müsabiqənin müsahibə mərhələsi elan edilib. Müsabiqənin müsahibə mərhələsi üçün 552 namizəd müraciət edib.

♦ Martın 14-də Dövlət İmtahan Mərkəzində BP Azərbaycan şirkətinin və Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi ilə həyata keçirilən "Ümumtəhsil müəssisələrində informatika fənninin tədrisinin təkmilləşdirilməsinə dəstək" layihəsi çərçivəsində ekspert heyəti ilə görüş keçirilib. Görüşdə Beynəlxalq Təlim və Layihə Mərkəzi tərəfindən 10 və 11-ci sinif şagirdləri üçün "İnformatika" fənnindən hazırlanmış dərs vəsaiti, seçilmiş 31 pilot məktəbdə vəsaitin istifadəsi və informatika müəllimlərinə keçirilmiş təlimlər haqqında məlumat verilib. İclasın sonunda həmin vəsaitlərə DİM-in ekspertlərinin rəy verməsi ilə bağlı müqavilə imzalanması barədə qərar qəbul olunub.

♦ Martın 14-də DİM-in Bərdə Regional Bölməsinin əməkdaşları Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd məktəbində müəllim və şagirdlərlə görüşüb. DİM-in yeni təhsil proqramı (kurikulum) əsasında hazırlanmış sinif testləri və test topluları məktəbin kitabxanasına hədiyyə edilib

♦ Martın 15-dən aprelin 15-dək ali təhsil müəssisələrinə və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu aparılıb. Abituriyentlər ali təhsil müəssisələrinin I-V ixtisas qrupları, həmçinin tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrininə qəbul olmaq üçün ərizələrində müvafiq istəklərini qeyd ediblər.

♦ Martın 15-də "Magistr" jurnalının 3-cü nömrəsi nəşr olunub. Jurnalın bu nömrəsində Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarının bütün ixtisaslaşmalarına 2019/2020-ci tədris ili üçün qəbul imtahanı proqramları təqdim olunub. Proqramlar Azərbaycan və rus dillərində iki kitabçada hazırlanıb.

♦ 11 – 15 mart 2019-cu il tarixlərində ingilis dili, Azərbaycan dili, kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə elmi-metodiki seminarlar keçirilib.

♦ Martın 15-də "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda təlim keçirilib. Təlimdə Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları iştirak edib.

♦ Martın 17-də Dövlət İmtahan Mərkəzi "Abituriyent" jurnalının 2-ci nömrəsini çap edib. Bu nömrədə 2019/2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu elanının tam mətni, ixtisaslar üzrə müsabiqə şərtləri, "Abituriyentin elektron ərizəsi" formasının doldurulma qaydası və nümunəsi, "Şəxsi kabinet"in yaradılması və istifadə qaydası, ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə müsabiqə şərtləri və digər zəruri materiallar dərc edilib.

♦ Martın 17-də inzibati vəzifələrin A növünə (inzibati rəhbər vəzifələr) aid olan vəzifə qrupları üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahan kompüter vasitəsilə təlimata uyğun olaraq 3 saat müddətində aparılıb və namizədlərə biliklərini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb. İmtahanda 95 namizəd iştirak edib. 24 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ Martın 18-də DİMdə 1-4-cü sinif səviyyəsi üzrə Azərbaycan dili və riyaziyyat fənlərindən yeni təhsil proqramları (kurikulumlar) üzrə qiymətləndirmə tapşırıqları kitabçalarının hazırlanması ilə bağlı müzakirə keçirilib.

♦ Martın 19-da DİM ingilis dili üzrə biliyin qiymətləndirilməsi ilə bağlı ABŞ səfirliyinin dəstəyi ilə həyata keçirilən "Müəllimlər üçün intensiv peşəkar inkişaf təlimi və konsultasiya" proqramına iştirakçı qəbulu elan edib.

♦ 18-19 mart tarixlərində ingilis dili, Azərbaycan dili və kimya fənləri üzrə elmi-metodiki seminarlar keçirilib.

♦ Martın 28-də DİM-in Şəmkir Regional Bölməsinin əməkdaşları Tovuz rayonunun Ermənistanla sərhəd kəndi olan Əlibəyli kənd məktəbində müəllim və şagirdlərlə görüşüb. Görüşdə ali təhsil müəssisələrinə qəbul imtahanlarının yeni qaydaları və sənəd qəbulu ilə bağlı şagirdləri və müəllimləri maraqlandıran məsələlər izah edilib.

♦ 24-26 martda DİM zal nəzarətçisi sertifikatı əldə etmək istəyən bir qrup namizəd üçün yekun test imtahanı keçirib.

♦ 27-29 mart 2019-cu il tarixlərində fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə elmi-metodiki seminarlar keçirilib.

♦ Martın 30-da Dövlət İmtahan Mərkəzi Vəkillər Kollegiyası ilə birgə Vəkillər Kollegiyasına üzv olmaq istəyən namizədlər üçün test imtahanı keçirib. İmtahan saat 10.00-da başlayıb və 3 saat davam edib. İmtahan kompüterlər vasitəsilə elektron qaydada aparılıb. İmtahanda iştirak etmək üçün 238 namizəd qeydiyyatdan keçib. 2 namizəd imtahana gəlməyib. İmtahanda iştirak edən 236 namizəddən 171 nəfər müsabiqə şərtini ödəyərək – 60 və daha yüksək bal toplayaraq ikinci mərhələyə – müsahibəyə buraxılıb.

♦ Martın 30-da vergi orqanlarında işləmək istəyən namizədlər üçün keçirilən test imtahanının nəticələri elan edilib. İmtahanda iştirak etmək üçün 1544 namizəd qeydiyyatdan keçib. Onlardan 216 namizəd imtahana gəlməyib. 1 nəfər imtahandan xaric edilib. 108 namizəd müsabiqə şərtini ödəyərək - 70 və daha yüksək bal toplayaraq ikinci mərhələyə - müsahibəyə buraxılıb.

♦ 30-31 martda zal nəzarətçisi fəaliyyətinin sertifikatlaşdırılması məqsədilə DİM-in Şəki Regional Bölməsinin təşkilatçılığı ilə namizədlərə təlim keçirilib. Təlimlərdə zal nəzarətçisi sertifikatı almaq istəyən 62 namizəd iştirak edib.

♦ Aprelin 1-də DİM-in Gəncə Regional Bölməsinin əməkdaşları cəbhə xəttində yerləşən Goranboy rayon Tap və Tapqaraqoyunlu kənd tam orta məktəbinin şagird və müəllim heyəti ilə görüş keçirib. Görüşdə ali təhsil müəssisələrinə qəbul imtahanlarının yeni qaydaları və sənəd qəbulu ilə bağlı şagirdləri və müəllimləri maraqlandıran məsələlər izah edilib.

♦ Aprelin 1-də dövlət orqanlarında vakant vəzifələrin tutulması üçün ümumi müsahibə elan edilib. Ümumi müsahibədə iştirak üçün 15 namizəd müraciət edib.

♦ Aprelin 1-dən mayın 1-dək dövlət qulluğunun A (inzibati rəhbər) və B (inzibati icraçı) növünə aid vakant vəzifələrin tutulması üçün müsabiqənin müsahibə mərhələsi elan edilib.

♦ Aprelin 3-də Dövlət İmtahan Mərkəzi tərəfindən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kənd tam orta məktəbinin kompüter zalında məktəbin 9 və 11-ci sinif şagirdləri üçün buraxılış imtahanları üzrə otk.az portalı vasitəsilə ödənişsiz onlayn sınaq imtahanları keçirilib.

♦ Aprelin 4-də DİM-in Göyçay Regional Bölməsinin əməkdaşları tərəfindən yeni təhsil proqramları əsasında hazırlanmış sinif testləri, test topluları və jurnallar həmin zona üzrə ətraf rayonların məktəblərinin kitabxanalarına hədiyyə edilib.

♦ Aprelin 5-də DİM-in Bakı şəhəri, Badamdar qəsəbəsi, Mikayıl Müşfiq küçəsi, 1M ünvanında yerləşən binasında ilk "məsləhət saatı" təşkil olunub. "Məsləhət saatları"nın keçirilməsində məqsəd abituriyentləri və onların valideynlərini, bakalavrları, dövlət qulluğuna qəbul olmaq istəyənləri, eləcə də müraciət edən digər şəxsləri DİM-in həyata keçirdiyi tədbirlər - imtahanlar, ərizə qəbulu, elektron xidmətlər və digər məsələlərlə bağlı məlumatlandırmaq olub.

♦ 5, 8 və 11 apreldə "Müəllimlər üçün intensiv peşəkar inkişaf təlimi və konsultasiya" layihəsi çərçivəsində amerikalı mütəxəssis Neytn Kar DİM-də müəllimlər üçün təlim proqramı ilə çıxış edib. Layihə Dövlət İmtahan Mərkəzi və ABŞ-ın Azərbaycandakı səfirliyi ilə birgə "İngilis dili mütəxəssisi" (ELS) proqramı çərçivəsində təşkil olunub.

♦ Aprelin 6-da növbəti TOEFL imtahanı keçirilib. DİM-in inzibati binasında təlimata uyğun təşkil olunan bu imtahanda 1 xarici vətəndaş olmaqla 12 nəfər iştirak edib. İmtahanın gedişi zamanı iştirakçılara bilik və bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

♦ Aprelin 6-da Tərtər rayonu Cəmilli, Dəmirçilər və Bala Kəngərli kənd tam orta məktəblərinin şagird və müəllim heyəti ilə görüş keçirilib. Görüşdə buraxılış və qəbul imtahanları, ali və orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu ilə bağlı şagirdləri və müəllimləri maraqlandıran suallar cavablandırılıb.

♦ 7, 14 və 21 aprel tarixlərində ümumtəhsil müəssisələrinin 11-ci sinif şagirdləri üçün respublikanın bütün şəhər və rayonlarında buraxılış imtahanları keçirilib. İmtahanda şagirdlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi ilə tədris dili, riyaziyyat və xarici dil fənləri üzrə ümumilikdə 85 tapşırıq təqdim edilib. İmtahan 3 saat davam edib. İmtahanlarda 80 minə yaxın şagird iştirak edib.

♦ Aprelin 7-də baza ali tibb təhsili əsasında həkim-mütəxəssislərin hazırlanması məqsədilə rezidenturaya qəbul imtahanının I mərhələsini keçirilib.

♦ Aprelin 8-də rezidenturaya qəbul olmaq üçün keçirilmiş baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanının nəticələrini elan edilib. İmtahanda iştirakı nəzərdə tutulan 930 namizəddən 21-i imtahana gəlməyib. 450 namizəd birinci mərhələnin müsabiqə şərtini (40 və daha yüksək bal) ödəyərək ikinci mərhələyə buraxılıb. Ən yüksək nəticə, toplanılması mümkün olan 100 baldan 89 bal olub.

♦ Aprelin 8-də 28 fevral 2019-cu il tarixində elan edilmiş ümumi müsahibələrin keçirilmə qrafiki elan edilib. Elan üzrə 10 dövlət orqanında mövcud olan 29 vakant vəzifə üzrə 29 yer ümumi müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə 87 müsahibənin keçirilməsi planlaşdırılıb.

♦ Aprelin 8-də 28 fevral 2019-cu il tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsinin keçirilmə qrafiki elan edilib. Müsahibələr 15 aprel – 30 may 2019-cu il tarixləri ərzində keçirilib.

♦ Aprelin 9-da DİM-in Lənkəran Regional Bölməsinin əməkdaşları tərəfindən cənub zonasının bir sıra ucqar və dağ məktəblərinə yeni təhsil proqramı (kurikulum) əsasında hazırlanmış 26 adda 1490 nüsxə dərs vəsaiti və 220 nüsxə "Abituriyent" jurnalının xüsusi buraxılışları hədiyyə olunub.

♦ 10-11 aprel tarixlərində Dövlət İmtahan Mərkəzinin əməkdaşları üçün "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda təlim təşkil edilib.

♦ Aprelin 10-da dövlət qulluğuna qəbul olmaq istəyən şəxslər üçün müsabiqənin test imtahanı mərhələsi üzrə elektron sınaq imtahanı keçirilib.

♦ Aprelin 16-dan 25-dək ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul imtahanının birinci mərhələsində 50 və daha çox bal toplayaraq müsabiqə şərtlərini ödəyən bakalavrların jurnalistika ixtisası üzrə magistratura ixtisaslaşmalarına qəbul olmaq üçün qeydiyyatı aparılıb.

♦ Aprelin 15-dən mayın 15-dək 5 dövlət orqanında inzibati vəzifələrin 3-7-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə ümumi müsahibə elanı verilib. Ümumi müsahibədə iştirak üçün 201 namizəd müraciət edib.

♦ Aprelin 15-dən mayın 15-dək dövlət qulluğunun A (inzibati rəhbər) və B (inzibati icraçı) növünə aid vakant vəzifələrin tutulması üçün müsabiqənin müsahibə mərhələsi elan edilib.

♦ Aprelin 16-dan mayın 1-dək 22-27 sentyabr tarixlərində Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusunda 45-ci illik konfransında iştirak etmək istəyənlər üçün qeydiyyat aparılıb.

♦ Aprelin 17-dən mayın 3-dək Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi publik hüquqi şəxs DİM-in regional bölmələrinin inzibati binalarında (Xaçmaz, Bərdə, Gəncə) təmir işlərinin satınalınması üçün açıq tender elan edib.

♦ Aprelin 17-dən mayın 3-dək dövlət qulluğunda inzibati rəhbər (A növü) vəzifələr üzrə müsabiqənin test imtahanına qeydiyyat elan edilib.

♦ Aprelin 18-də 9-cu sinif şagirdləri üçün 3 martda keçirilmiş buraxılış imtahanının nəticələri elan olunub. Imtahanda iştirak etmiş şagirdlər (37434 nəfər) DİM-in internet saytında öz imtahan nəticələri, cavab vərəqinin ön və arxa üzünün qrafik təsviri, qapalı tipli tapşırıqların doğru cavabları, həmçinin hər bir açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli və qiymətləndirmə şkalası) ilə tanış ola biliblər. Qeyd edək ki, buraxılış imtahanının birinci mərhələsində şagirdlərə ana dili fənnindən 10 açıq və 10 qapalı, riyaziyyat fənnindən 10 açıq, xarici dil fənnindən 9 qapalı və 6 açıq tipli tapşırıq olmaqla ümumilikdə 45 tapşırıq təqdim olunur.

♦ Aprelin 18-də Dövlət Miqrasiya Xidmətində qulluğa yeni qəbul edilmiş 25 nəfər əməkdaşı üçün "Dövlət qulluğunda etik qaydaların praktiki tətbiqi məsələləri" mövzusunda təlim keçirilib.

♦ Aprelin 19-da 14 mart 2019-cu il tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsinin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 9 dövlət orqanında mövcud olan inzibati dövlət qulluğu vəzifələrinə aid 41 vakant vəzifə üzrə 73 yer müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə qeydiyyatdan keçmiş 360 namizədlə 505 müsahibənin keçirilməsi nəzərdə tutulub.

♦ Aprelin 19-da Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə şəhər və rayonlarda vətəndaşların dövlət qurumlarının, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən qəbulu cədvəlinə uyğun olaraq Qəbələ rayonunda vətəndaşları qəbul edib. Qəbulda Qəbələ rayonunu ilə yanaşı İsmayıllı, Şamaxı və Qobustan rayonlarının sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər. Görüşdə, əsasən, ümumi və tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanları, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, rezidenturaya qəbul, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanlarının yeni qaydaları, əvvəlki illərin məzunlarının qəbulu və digər məsələlərlə əlaqədar DİM Direktorlar Şurasının sədrinə müraciətlər edilib.

♦ Aprelin 19-da Dövlət İmtahan Mərkəzi ilk dəfə olaraq xüsusi qabiliyyət tələb edən ixtisaslara qəbul olmaq istəyənlər üçün "Xüsusi qabiliyyət imtahanları" jurnalının 2019-cu il 1-ci nömrəsini çap edib. "Abituriyent" jurnalının xüsusi buraxılışı olan bu jurnalda ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarının yığcam xarakteristikası, ixtisaslar üzrə kadr hazırlığı aparan təhsil müəssisələri haqqında məlumatlar, bu ixtisaslar üzrə müsabiqə şərtləri, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları, imtahanlara hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, çalışmalar, əyani vəsaitlərdən reproduksiyalar, şəkillər, cədvəllər, normativlər əksini tapıb.

♦ Aprelin 18-də Dövlət İmtahan Mərkəzində BP Azərbaycan şirkətinin və Azərbaycan Respublikası Təhsil Nazirliyinin dəstəyi ilə həyata keçirilən "Ümumtəhsil müəssisələrində informatika fənninin tədrisinin təkmilləşdirilməsinə dəstək" layihəsi çərçivəsində ekspert heyəti ilə növbəti görüş keçirilib.

♦ 15 – 19 aprel 2019-cu il tarixlərində ingilis dili, Azərbaycan dili, kimya fənləri üzrə hazırlıq kurslarının 1-ci dərsi, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə isə 2-ci dərsi keçirilib.

♦ Aprelin 21-də dövlət qulluğunda inzibati vəzifələrin B növünə (inzibati icraçı vəzifələr) aid olan BA və BB qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahan təlimata uyğun olaraq kağız daşıyıcılar vasitəsilə 3 saat müddətində aparılıb və namizədlərə biliklərini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş 1754 namizəddən 14 nəfəri imtahana gəlməyib. Ümumilikdə, 412 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ Aprelin 22-də dövlət qulluğuna hazırlaşanlar üçün "DÖVLƏT QULLUĞU" jurnalının 2019-cu il 2-ci nömrəsi çap edilib. Bu nömrədə "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu, dövlət qulluğuna qəbul üzrə keçirilən test imtahanları barədə statistik məlumatlar (01.04.2019-cu il tarixə), Dövlət qulluğuna qəbul üzrə müsabiqənin test imtahanı mərhələsində uğur qazanmış namizədlərin siyahısı (03.01.2019 – 01.04.2019), Ehtiyat kadrlar üzrə 2019-cu ilin I rübü ərzində görülən işlərə dair məlumat və digər zəruri məlumatlar dərc olunub.

♦ Aprelin 26-da DİM-in Bakı şəhəri, Badamdar qəsəbəsi, Mikayıl Müşfiq küçəsi, 1M ünvanında yerləşən binasında abituriyentlər üçün növbəti "məsləhət saatı" təşkil olunub.

♦ Aprelin 23-də 9-cu sinif şagirdləri üçün 10 martda keçirilmiş buraxılış imtahanının nəticələri elan olunub. İmtahanda iştirak etmiş şagirdlər (39011 nəfər) DİM-in internet saytında öz imtahan nəticələri, cavab vərəqinin ön və arxa üzünün qrafik təsviri, qapalı tipli tapşırıqların doğru cavabları, həmçinin hər bir açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli və qiymətləndirmə şkalası) ilə tanış ola biliblər. Qeyd edək ki, buraxılış imtahanının birinci mərhələsində şagirdlərə ana dili fənnindən 10 açıq və 10 qapalı, riyaziyyat fənnindən 10 açıq, xarici dil fənnindən 9 qapalı və 6 açıq tipli tapşırıq olmaqla ümumilikdə 45 tapşırıq təqdim olunub.

♦ Aprelin 26-dan mayın 7-dək Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına 2019-cu il fevralın 24-də keçirilmiş qəbul imtahanının birinci mərhələsinin nəticələrinə görə müsabiqə şərtlərini ödəyən bakalavrların imtahanın ikinci mərhələsinə buraxılmaları üçün proqram seçimi aparılıb.

♦ 24-26 apreldə Belçikanın Gent şəhərində Avropa Dil Qiymətləndirmə Assosiasiyasının (ALTE) "Təhsilə çoxdilli keçid" mövzusunda 53-cü illik konfransı keçirilib. Konfransda test etibarlılığı və qiymətləndirmə, testlərin keyfiyyətinin təminatı, təhsildə xüsusi qayğıya ehtiyacı olan şəxslər üçün şəraitin yaradılması, aşağı göstəricələrə malik olan şəxslərə xarici dilin öyrədilməsi və biliklərin qiymətləndirilməsi kimi mövzular geniş müzakirə olunub.

♦ Aprelin 28-də DİM tərəfindən əvvəlki illərin məzunları üçün I,II,III və IV ixtisas qrupları üzrə qəbul imtahanının birinci mərhələsi, həmçinin V qrup üzrə ali təhsil müəssisələrinə və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanı keçirilib. İmtahanda 20 mindən çox abituriyent iştirak edib.

♦ 29 aprel – 8 may tarixlərində 2019/2020-ci tədris ili üçün Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Moskva Dövlət Beynəlxalq Əlaqələr Universitetinə Azərbaycan Respublikası vətəndaşları üçün tələbə qəbulu elan edilib.

♦ Aprelin 29-da Dövlət İmtahan Mərkəzində 2019-cu il mart və aprel aylarında keçirilimiş buraxılış imtahanları ilə əlaqədar mətbuat konfransı keçirilib.

♦ Aprelin 30-da 9-cu sinif şagirdləri üçün 10 martda keçirilmiş buraxılış imtahanının nəticələri elan olunub. Imtahanda iştirak etmiş şagirdlər (32966 nəfər) DİM-in internet saytında öz imtahan nəticələri, cavab vərəqinin ön və arxa üzünün qrafik təsviri, qapalı tipli tapşırıqların doğru cavabları, həmçinin hər bir açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli və

qiymətləndirmə şkalası) ilə tanış ola biliblər. Qeyd edək ki, buraxılış imtahanının birinci mərhələsində şagirdlərə ana dili fənnindən 10 açıq və 10 qapalı, riyaziyyat fənnindən 10 açıq, xarici dil fənnindən 9 qapalı və 6 açıq tipli tapşırıq olmaqla ümumilikdə 45 tapşırıq təqdim olunub.

♦ Mayın 1-də dövlət qulluğuna qəbul olmaq istəyən şəxslərin müsabiqənin test imtahanı mərhələsinə daha da səmərəli hazırlaşmalarına kömək məqsədilə elektron sınaq imtahanı keçirilib.

♦ Mayın 1-də Dövlət İmtahan Mərkəzində Azərbaycan Valideyn-Müəllim Assosiasiyası İctimai Birliyi və Ailələrin İnkişafı üzrə Maarifləndirmə İctimai Birliyinin nümayəndələri ilə görüş keçirilib.

♦ Mayın 2-də jurnalistika üzrə magistratura ixtisaslaşmalarına qəbul üçün qabiliyyət imtahanı keçirilib. Bu imtahanın nəticələrinə görə 15 nəfər bakalavr "məqbul" qiymət alıb və jurnalistika üzrə 44 saylı proqramı seçmək hüququ əldə edib.

♦ Mayın 3-də martın 31-də keçirilən imtahanların nəticələri elan olunub. İmtahanlarda iştirak etmiş şəxslər (6920 nəfər) DİM-in internet saytında imtahan nəticələri, cavab vərəqinin ön və arxa üzünün qrafik təsviri, qapalı tipli tapşırıqların doğru cavabları, həmçinin hər bir açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli və qiymətləndirmə şkalası) ilə tanış ola biliblər.

♦ 29 aprel – 3 may 2019-cu il tarixlərində ingilis dili, Azərbaycan dili, kimya fənləri üzrə hazırlıq kurslarının 3-cü dərsi, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə isə 4-cü dərsi keçirilib.

♦ Mayın 4-də Dövlət İmtahan Mərkəzində növbəti SAT imtahanları keçirilib. İmtahanda 47 nəfəri iştirak edib.

♦ Mayın 5-də tədris Azərbaycan dilindən fərqli dillərdə aparılan ümumi təhsil müəssisələrinin 9-cu və 11-ci sinif şagirdləri, həmçinin ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanını rus dilində verən abituriyentlər üçün Azərbaycan dili fənnindən test imtahanı keçirilib.

♦ Mayın 5-də inzibati vəzifələrin A növünə (inzibati rəhbər vəzifələr) aid olan vəzifə qrupları üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahan kompüter vasitəsilə təlimata uyğun olaraq 3 saat müddətində aparılıb və namizədlərə biliklərini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb. İmtahanda 64 namizəd iştirak edib. 17 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ 4-5 may tarixlərində zal nəzarətçisi fəaliyyətinin sertifikatlaşdırılması məqsədi ilə DİM-in Göyçay Regional Bölməsinin təşkilatçılığı ilə namizədlərlə təlim keçirilib.

♦ Mayın 6-da tədris Azərbaycan dilindən fərqli dillərdə aparılan ümumi təhsil müəssisələrinin 9-cu və 11-ci sinif şagirdləri, həmçinin ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanını rus dilində verən abituriyentlər üçün keçirilən "Azərbaycan dili" fənnindən imtahanın nəticələri elan olunub.

♦ Mayın 7-dən oktyabrın 7-dək yeni təhsil proqramı (kurikulum) əsasında qiymətləndirmə vasitələrinin işlənməsi və onların meyarlar əsasında yoxlanılmasına dair hazırlıq kurslarında iştirak etmək istəyənlərin qeydiyyatı aparılıb.

♦ Mayın 8-də 1 aprel 2019-cu il tarixində elan edilmiş ümumi müsahibələrin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 3 dövlət orqanında mövcud olan 8 vakant vəzifə üzrə 16 yer ümumi müsahibəyə çıxarılıb.

♦ Mayın 8-də 1 aprel 2019-cu il tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsinin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 9 dövlət orqanında mövcud olan inzibati dövlət qulluğu vəzifələrinə aid 303 (A növündə 6 vakant vəzifə üzrə 6 yer, B növündə 297 vakant vəzifə üzrə 343 yer) vakant vəzifə müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə qeydiyyatdan keçmiş 1007 namizədlə 3467 müsahibənin keçirilməsi planlaşdırılıb.

♦ Mayın 8-də Dövlət İmtahan Mərkəzində Qazax rayonu üzrə elektron qeydiyyatdan keçmiş müəllimlər üçün ingilis dili, fransız dili, tarix, fizika, kimya və biologiya fənləri üzrə hazırlıq kursları (birgünlük təlim) təşkil edilib.

♦ 4 və 8 may tarixlərində zal nəzarətçisi fəaliyyətinin sertifikatlaşdırılması məqsədi ilə DİM-in Xaçmaz Regional Bölməsində namizədlərlə təlim keçirilib.

♦ Mayın 8-dən 14-dək ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq istəyən, lakin mayın 5-də keçirilən Azərbaycan dili imtahanında iştirak etməyən və ya "qeyri-məqbul" qiymət alan abituriyentlərin qeydiyyatı aparılıb.

♦ Mayın 10-da Dövlət İmtahan Mərkəzində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunan tədbir keçirilib. Tədbirdən öncə DİM-in kollektivi Mərkəzin binasında yerləşən Heydər Əliyevin büstü önünə gül dəstələri düzərək ulu öndərin xatirəsini ehtiramla yad ediblər. Tədbirdə çıxış edən Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri M. Abbaszadə ümummilli liderimizin həyat və fəaliyyətindən, Azərbaycan xalqına göstərdiyi xidmətlər içərisində onun təhsil və mütəxəssis hazırlığına göstərdiyi qayğıdan danışıb.

♦ Mayın 11-də Dövlət İmtahan Mərkəzində TOEFL imtahanı keçirilib. İmtahanda 14 nəfər iştirak edib və imtahanın gedişi zamanı iştirakçılara bilik və bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

♦ Mayın 11-də Moskva Dövlət Beynəlxalq Əlaqələr Universitetində Azərbaycan Respublikası vətəndaşlarının təhsil alması üçün test imtahanı keçirilib.

♦ Mayın 11-də Ədliyyə orqanlarında işləmək istəyən namizədlər üçün test imtahanı keçirilib. İmtahan 3 saat davam edib. Namizədlərin normal şəraitdə imtahan vermələri üçün bütün zəruri tədbirlər görülüb və imtahan təlimatda nəzərdə tutulmuş qaydada keçirilib.

♦ Mayın 12-də Ədliyyə orqanlarında işləmək istəyən namizədlər üçün keçirilmiş test imtahanının nəticələri elan olunub. İmtahanda iştirak üçün namizədliyi qeydə alınmış 384 nəfərdən 83 nəfəri imtahana gəlməyib. 55 və daha çox bal toplamış 165 namizəd müsabiqənin ikinci mərhələsinə – müsahibəyə buraxılıb.

♦ Mayın 12-də Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün I və IV ixtisas qrupları üzrə qəbul imtahanı keçirilib. İmtahan Respublikanın 11 şəhərində - Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində ümumilikdə 59 binada aparılıb. İmtahanların idarə olunmasına 235 imtahan rəhbəri və 2562 nəzarətçi-müəllim cəlb olunub. İmtahandan sonra DİM-in "Facebook" səhifəsi və "Youtube" kanalı vasitəsi ilə canlı yayım ediləcək və Mərkəzin məsul əməkdaşları, ekspertlər tərəfindən imtahanda istifadə olunmuş sualların düzgün cavabları və test tapşırıqları ilə bağlı geniş izahat verilib.

♦ Mayın 13-də Moskva Dövlət Beynəlxalq Əlaqələr Universitetində Azərbaycan Respublikası vətəndaşlarının təhsil alması üçün keçirilən test imtahanının nəticələri məlum olub. Test imtahanı nəticəsində 500 və daha yüksək bal toplamış, xarici dil fənnindən nisbi balı 50-dən az olmayan 3 abituriyentin müsahibəyə buraxılması nəzərdə tutulsa da, cəmi 2 abituriyent 500 baldan yuxarı nəticə göstərdiyi üçün 3-cü ən yüksək balı (432 bal) toplayan abituriyent də müsahibəyə dəvət edilib.

♦ Mayın 14-də DİM orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul olmaq istəyənlər üçün "Xüsusi qabiliyyət imtahanları" jurnalının 2019-cu il üçün 2-ci nömrəsini çap edib. "Abituriyent" jurnalının xüsusi buraxılışı olan bu jurnalda orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslarına qəbul imtahanının qabiliyyət imtahanı mərhələsi və müsabiqənin keçirilməsi şərtləri, ixtisasların Yaradıcılıq Qabiliyyətinin Yoxlanılması Komissiyaları (YQYK) üzrə bölgüsü, kadr hazırlığı aparılan orta ixtisas təhsili müəssisələri haqqında məlumatlar, qabiliyyət imtahanlarının proqramları, qiymətləndirmə meyarları, imtahanlara hazırlıqla bağlı tövsiyə və məsləhətlər, tapşırıq nümunələri, əyani vəsaitlərdən reproduksiyalar, şəkillər, normativlər və digər faydalı məlumatlar əksini tapıb.

♦ Mayın 16-dan iyunun 14-dək 5 dövlət orqanında inzibati vəzifələrin 4-7-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə ümumi müsahibə elanı verilib. Ümumi müsahibə üçün 56 namizəd müraciət edib.

♦ Mayın 16-dan iyunun 14-dək dövlət qulluğunun A (inzibati rəhbər) və B (inzibati icraçı) növünə aid vakant vəzifələrin tutulması üçün müsabiqənin müsahibə mərhələsi elan edilib.

♦ Mayın 16-da Azərbaycan Universiteti Karyera Mərkəzinin təşkilatçılığı ilə "Karyera günü" keçirilib. Dövlət İmtahan Mərkəzinin nümayəndələri tədbirdə iştirak edərək dövlət qulluğu sahəsində işləmək istəyən gənclərə Azərbaycanda dövlət qulluğuna qəbul qaydaları, dövlət orqanlarında mövcud vakant vəzifələr, dövlət qulluğunun perspektivləri haqqında ətraflı məlumat verib, onları maraqlandıran sualları cavablandırıblar.

♦ 13-17 may tarixlərində ingilis dili, Azərbaycan dili, kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə hazırlıq kurslarının növbəti dərsi keçirilib.

♦ Mayın 17-də 11-ci sinif şagirdləri üçün 2019-cu il aprelin 7-də keçirilmiş buraxılış imtahanının (qəbul imtahanının birinci mərhələsinin) nəticələri elan olunub. İmtahanda iştirak etmiş şagirdlər (27660 nəfər) DİM-in internet saytında öz imtahan nəticələri, cavab vərəqinin ön və arxa üzünün qrafik təsviri, qapalı tipli tapşırıqların doğru cavabları, həmçinin hər bir açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli və qiymətləndirmə şkalası) ilə tanış ola biliblər.

♦ Mayın 17-də Dövlət İmtahan Mərkəzinin əməkdaşları tərəfindən "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda təlim təşkil edilib. Təlimdə Dövlət İmtahan Mərkəzinin işçiləri və müsahibələrə müstəqil ekspert qismində cəlb olunacaq nümayəndələr iştirak ediblər.

♦ Mayın 18-də Dövlət İmtahan Mərkəzində "TOEFL IBT" və "PTE Academic" ingilis dili imtahanları keçirilib. İmtahanlar DİM-in inzibati binasında təlimata uyğun təşkil olunub. İmtahanların gedişi zamanı iştirakçılara bilik və bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

♦ Mayın 19-da Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirilib. İmtahan Respublikanın 11 şəhərində - Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində ümumilikdə 66 binada aparılıb. İmtahanların idarə olunmasına 257 imtahan rəhbəri və 2845 nəzarətçi-müəllim cəlb olunub. İmtahandan sonra DİM-in "Facebook" səhifəsi və "Youtube" kanalı vasitəsi ilə canlı yayım ediləcək və Mərkəzin məsul əməkdaşları, ekspertlər tərəfindən imtahanda istifadə olunmuş sualların düzgün cavabları və test tapşırıqları ilə bağlı geniş izahat verilib.

♦ Mayın 20-də 15 aprel 2019-cu il tarixində elan edilmiş ümumi müsahibələrin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 5 dövlət orqanında mövcud olan 57 vakant vəzifə üzrə 59 yer ümumi müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə 174 müsahibənin keçirilməsi planlaşdırılıb.

♦ Mayın 20-də 15 aprel 2019-cu il tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsinin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 6 dövlət orqanında mövcud olan inzibati dövlət qulluğu vəzifələrinə aid 453 (A növündə 79 vakant vəzifə üzrə 79 yer, B növündə 374 vakant vəzifə üzrə 391 yer) vakant vəzifə müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə qeydiyyatdan keçmiş 159 namizədlə 269 müsahibənin keçirilməsi planlaşdırılıb.

♦ Mayın 20-də DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Lənkəran, sədr müavini Namiq Babayev isə Masallı rayonunda vətəndaşları qəbul edib. Lənkəran rayonunda keçirilən qəbulda Lənkəran, Astara və Lerik rayonlarının, Masallı rayonunda keçirilən qəbulda isə Masallı, Cəlilabad, Yardımlı və Biləsuvar rayonlarının sakinləri iştirak ediblər. Görüşdə, əsasən, buraxılış imtahanlarının nəticələri, ali və orta ixtisas təhsili müəssisələrinə qəbul, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri,magistraturaya qəbul, əvvəlki illərin məzunlarının qəbulu və digər məsələlərlə əlaqədar rəhbər şəxslərə müraciətlər edilib. Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb. Qeydiyyatdan keçənlərlə yanaşı görüş zamanı birbaşa müraciət edən vətəndaşlar da M.Abbaszadə və N.Babayev tərəfindən dinlənilib və onların müraciətlərinin həlli üçün müvafiq tədbirlər görülüb.

♦ Mayın 21-də "Canlanan inkişaf: insanlar, şəhərlər, iqtisadiyyat" mövzusunda "Astana İqtisadi Forumu" keçirilib. Forumda DİM-in Strateji İnkişaf Şöbəsinin müdiri Vəli Hüseyn də iştirak edib. Forum çərçivəsində keçirilən görüşlərdə ikitərəfli əlaqələrin qurulması, mütəmadi səfərlər və konfransların təşkil olunması müzakirə edilib.

♦ Mayın 22-də Ağcabədi rayonunda "Dövlət qulluğuna qəbul qaydaları " mövzusunda tədbir keçirilib. Tədbirdə dövlət qulluğu sisteminin mahiyyəti, dövlət qulluğuna qəbul qaydaları, test imatahanında iştirak , vakant yerlər, müsahibələrdə iştirak etmək üçün qeydiyyatdan keçmək haqqında iştirakçılara məlumat verilib.

♦ Mayın 22-də mayın 12-də I və IV ixtisas qrupları üzrə abituriyentlər üçün keçirilən qəbul imtahanlarının nəticələri elan edilib. İmtahanda iştirak etmək üçün ərizə təsdiq etmiş 32174 abituriyentdən 1771 nəfəri imtahanda iştirak etməyib. Abituriyentlərdən 11 nəfəri qaydaları pozduqlarına görə imtahandan xaric olunub və nəticələri ləğv edilib. İmtahanda I ixtisas qrupu üzrə 1 abituriyent Sumqayıt şəhəri, Texniki və təbiət elmləri liseyinin məzunu ona təqdim olunmuş bütün test tapşırıqlarına düzgün cavab verib və maksimal nəticə - 400 bal toplayıb.

♦ Mayın 23-dən iyunun 20-dək inzibati dövlət qulluğu vəzifələrinin B növünə (inzibati icraçı vəzifələr) aid olan BA və BB qruplarına uyğun olan vəzifələr üzrə müsabiqənin test imtahanına qeydiyyat elan edilib.

♦ Mayın 23-də Dövlət İmtahan Mərkəzində "Azərbaycan dilinin orfoqrafiya normaları" mövzusunda təlim təşkil edilib. Yeni təsdiq edilmiş "Azərbaycan dilinin orfoqrafiya normaları"na edilən dəyişikliklər dövlət orqanları tərəfindən kargüzarlığın aparılması məsələlərini də əhatə edib. Dövlət orqanları ilə yazışmalar zamanı qeyd edilən dəyişikliklərə riayət edilməsinin vacibliyi nəzərə alınaraq, bu mövzuda təqdimat hazırlanıb və müvafiq təlim təşkil edilib.

♦ Mayın 26-da ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanını rus dilində verən abituriyentlər və buraxılış imtahanı çərçivəsində keçirilən "Azərbaycan dili" fənni üzrə imtahanda üzrlü səbəbdən iştirak etməyən şagirdlər üçün "Azərbaycan dili" fənnindən ikinci test imtahanı keçirilib. İmtahan Bakı və Naxçıvan şəhərlərində, ümumilikdə 4 binada aparılıb. İmtahan bütün binalarda eyni vaxtda – saat 11:00-da başlayıb və 45 dəqiqə davam edib.

♦ Mayın 26-da Dövlət İmtahan Mərkəzi bu gün ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul imtahanının ikinci mərhələsini keçirib. İmtahan Bakı, Naxçıvan və Gəncə şəhərlərində, ümumilikdə 27 binada aparılıb. İmtahan bütün binalarda eyni vaxtda - saat 11:00-da başlayıb və sualların cavablandırılmasına 1 saat 30 dəqiqə vaxt ayrılıb. İmtahanın idarə olunmasına 27 ümumi imtahan rəhbəri, 86 imtahan rəhbəri, 818 nəzarətçi-müəllim, 64 buraxılış rejimi əməkdaşı ayrılıb.

♦ Mayın 27-də Dövlət İmtahan Mərkəzi tərəfindən Sumqayıt Dövlət Universitetində ali təhsil müəssisəsinin professor-müəllim heyətinin, yuxarı kurslarda təhsil alan bakalavr və magistrlərinin iştirakı ilə "Dövlət qulluğu sisteminin mahiyyəti və əhəmiyyəti" mövzusunda tədbir keçirilib.

♦ Mayın 27-də Bakı və Naxçıvan şəhərlərində ali və orta ixtisas təhsili müəssisələrinə qəbul imtahanını rus dilində verən abituriyentlər və buraxılış imtahanı çərçivəsində keçirilən "Azərbaycan dili" fənni üzrə imtahanda üzrlü səbəbdən iştirak etməyən şagirdlər üçün keçirilən "Azərbaycan dili" fənnindən ikinci test imtahanının nəticələri elan olunub. İmtahanda iştirak etmiş abituriyentlər DİM-in internet saytı vasitəsilə nəticələri haqqında məlumatla, həmçinin cavab kartının qrafik təsviri ilə tanış ola biliblər. İmtahanda iştirakı nəzərdə tutulan 1286 abituriyentdən 134-ü imtahana gəlməyib. İmtahanda iştirak edən 1152 abituriyentdən 613-ü ali və orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün tələb olunan müsabiqə şərtini ödəyərək "məqbul" qiymət alıb.

♦ Mayın 28-də 11-ci sinif şagirdləri üçün 2019-cu il aprelin 21-də keçirilmiş buraxılış imtahanının (qəbul imtahanının birinci mərhələsinin) nəticələri elan olunub. İmtahanda iştirak etmiş şagirdlər (22499 nəfər) DİM-in internet saytında öz imtahan nəticələri, cavab vərəqinin ön və arxa üzünün qrafik təsviri, qapalı tipli tapşırıqlarının doğru cavabları, həmçinin hər bir açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli və qiymətləndirmə şkalası) ilə tanış ola biliblər. İmtahanda 2 şagird (Qax rayonu, 2 saylı şəhər tam orta məktəbin və Masallı rayonu, 4 saylı Digah tam orta məktəbin məzunları) onlara təqdim olunmuş bütün tapşırıqlara düzgün cavab verib və maksimum nəticə - 300 bal toplayıb.

♦ Mayın 28-də Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına mayın 26-da keçirilmiş qəbul imtahanının ikinci mərhələsinin nəticələri açıqlanıb. İmtahanda 8559 bakalavr iştirak edib. 54 bakalavr isə imtahana gəlməyib. İki mərhələdə keçirilən imtahanın nəticələrinə əsasən, 1 nəfər ən yüksək nəticə –147 bal toplayıb.

♦ Mayın 29-da DİM tərəfindən 2019-cu il aprelin 28-də keçirilmiş imtahanların nəticələri elan olunub. İmtahan iştirakçıları öz yazı işləri, hər bir tapşırıq üzrə topladığı bal və qiymətləndirmə meyarları ilə tanış ola biliblər.

♦ Mayın 30-dan iyunun 10-dək ali təhsil müəssisələrinə və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu sistemi yenidən aktiv edilib.

♦ Mayın 30-dan Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət qulluğunda qulluq stajı barədə arayışın hazırlanması və Mənzil İnşaatı Dövlət Agentliyinə təqdim olunmasına dair arayışın əldə edilməsi üçün elektron sistem işə düşüb.

♦ Mayın 30-da Bakı Dövlət Universitetində ali təhsil müəssisəsinin professor-müəllim heyətinin, yuxarı kurslarda təhsil alan bakalavr və magistrlərinin iştirakı ilə "Dövlət qulluğu sisteminin mahiyyəti və əhəmiyyəti" mövzusunda tədbir keçirilib.

♦ 31 may, 7 və 14 iyunda dövlət qulluğuna qəbul olmaq istəyən şəxslərin müsabiqənin test imtahanı mərhələsinə daha da səmərəli hazırlaşmalarına kömək məqsədilə növbəti sınaq imtahanları keçirilib.

♦ Mayın 31-dən etibarən "NAXTEL" mobil şəbəkə istifadəçiləri də Dövlət İmtahan Mərkəzinin qısa mesaj (SMS) xidmətlərindən faydalana biliblər.

♦ Mayın 31-də mayın 19-da II və III ixtisas qrupları üzrə abituriyentlər üçün keçirilmiş qəbul imtahanlarının nəticələri elan edilib. İmtahanda iştirak etmək üçün ərizə təsdiq etmiş 35423 abituriyentdən 1148 nəfəri imtahanda iştirak etməyib. İmtahanda iştirak edən abituriyentlərdən 12 nəfəri qaydaları pozduqlarına görə imtahandan xaric olunub və nəticələri ləğv edilib.

♦ 27-31 may 2019-cu il tarixlərində ingilis dili, Azərbaycan dili, kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə hazırlıq kurslarının növbəti dərsi keçirilib.

♦ 22 və 31 may tarixlərində DİM-də dövlət qulluğuna qəbul olmaq istəyən şəxslərin müsabiqənin test imtahanı mərhələsinə daha da səmərəli hazırlaşmalarına kömək məqsədilə növbəti sınaq imtahanları keçirilib.

♦ İyunun 1-də Dövlət İmtahan Mərkəzində növbəti TOEFL və SAT imtahanları keçirilib. İmtahanlar DİM-in inzibati binasında təlimata uyğun təşkil olunub. TOEFL imtahanında 9 nəfər, SAT (Subject) imtahanında isə 36 nəfər iştirak edib və imtahanların gedişi zamanı iştirakçılara bilik və bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

♦ İyunun 2, 9 və 16-da orta ümumtəhsil müəssisələrinin 9-cu sinfində təhsil alan şagirdlər üçün respublikanın bütün şəhər və rayonlarında buraxılış imtahanlarının II mərhələsi keçirilib. İmtahanda şagirdlərin bilik və bacarıqlarını yoxlamaq məqsədi ilə tədris dili, riyaziyyat və xarici dil fənləri üzrə ümumilikdə 90 qapalı tipli tapşırıq təqdim edilib. İmtahan 3 saat davam edib. İmtahanlarda ümumilikdə 110 mindən çox şagird iştirak edib.

♦ 3-4 iyun tarixlərində 2019/2020-ci tədris ili üçün Rusiya Federal Gömrük Xidməti Rusiya Gömrük Akademiyasında və onun Sankt-Peterburq və Rostov şəhərlərindəki filiallarında "Gömrük işi" ixtisası üzrə tələbə qəbulu elan edilib.

♦ İyunun 3-dən 10-dək rezidenturaya qəbulun II mərhələsində iştirak etmək istəyən namizədlər üçün qeydiyyat aparılıb.

♦ İyunun əvvəllərində Dövlət İmtahan Mərkəzi «Magistr» jurnalının 4-cü nömrəsini nəşr edib. Jurnalın bu nömrəsində 2019/2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA-nın) magistraturalarına qəbul üçün ixtisaslaşma seçimi haqqında elan dərc edilib.

♦ İyunun 4-də DİM tərəfindən Gəncə şəhərində fəaliyyət göstərən ali təhsil müəssisələrinin professor-müəllim heyətinin, yuxarı kurslarda təhsil alan bakalavr və magistrlərinin iştirakı ilə "Dövlət qulluğu sisteminin mahiyyəti və əhəmiyyəti" mövzusunda tədbir keçirilib.

♦ 3-4 iyunda Dövlət İmtahan Mərkəzi tərəfindən Avropa İttifaqı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə birgə SIGMA (Rəhbərlik və İdarəetmədə Təkmilləşdirməyə Dəstək) proqramı çərçivəsində "Sərişdə əsaslı idarəetmə" adlı təlim həyata keçirilib. Bu təlimin keçirilməsində əsas məqsəd adı çəkilən strategiyanın həyata keçirilməsi üçün düzgün alətlərin seçilməsi və sərişdə modeli barədə əcnəbi ekspertlərin təcrübələrinin paylaşılması olub.

♦ İyunun 4-də 9-cu sinif şagirdləri üçün iyunun 2-də keçirilmiş buraxılış imtahanının II mərhələsinin nəticələri elan olunub. İmtahanda iştirak etmiş şagirdlər DİM-in internet saytı vasitəsilə nəticələri haqqında məlumatla, habelə cavab kartının qrafik təsviri ilə tanış ola biliblər. İmtahanda iştirakı gözlənilən 37670 şagirddən 308 nəfəri imtahana gəlməyib. İmtahan qaydalarını pozduğu üçün 13 nəfər imtahandan xaric edilib.

♦ İyunun 4-də Dövlət İmtahan Mərkəzi Avropa İttifaqı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə birgə SIGMA (Rəhbərlik və İdarəetmədə Təkmilləşdirməyə Dəstək) proqramı çərçivəsində "Rəhbər şəxslər üçün sərişdə əsaslı idarəetmə" adlı seminar keçirilib.

♦ İyunun 7-dən 14-dək Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına ixtisaslaşma seçimi aparılıb.

♦ İyunun 7-də DİM dövlət qulluğuna qəbul olunmaq istəyən şəxslərə kömək məqsədi ilə "500 test tapşırığı" adlı toplu nəşr edib. Bu topluya dövlət qulluğuna qəbul üzrə müsabiqənin test imtahanı mərhələsində yoxlanılan bilik sahələri (Azərbaycan dili, qanunvericilik, informasiya texnologiyaları və məntiqi təfəkkürün yoxlanılması) üzrə imtahan proqramları əsasında hazırlanmış test tapşırıqları daxil edilib.

♦ 7 iyunda 10 aprel – 7 iyun tarixləri arasında təşkil edilən Azərbaycan dili, rus dili, riyaziyyat, fizika, kimya, biologiya, coğrafiya, ingilis dili və tarix fənlərindən keçirilmiş hazırlıq kursları fəaliyyətini başa vurub.

♦ İyunun 11-dən 28-dək Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi xüsusi təyinatlı təhsil müəssisəsi olan Polis Akademiyasında "İnformasiya təhlükəsizliyi" ixtisası üzrə əyani təhsil üzrə 25 kursantın qəbulu üçün müsabiqə elan edib.

♦ İyunun 11-də iyunun 9-da Gəncə, Lənkəran, Naftalan, Şəki, Sumqayıt şəhərlərinin, Abşeron, Ağdam, Ağsu, Astara, Bərdə, Biləsuvar, Daşkəsən, Goranboy, Göygöl, İmişli, Kürdəmir, Oğuz, Qəbələ, Saatlı, Sabirabad, Şabran, Şamaxı, Samux, Tərtər, Xaçmaz, Yevlax və Zərdab rayonlarının ümumtəhsil müəssisələrinin 9-cu sinif şagirdləri üçün keçirilmiş buraxılış imtahanının II mərhələsinin nəticələrini elan edilib. İmtahanda iştirak etmiş şagirdlər DİM-in internet saytı vasitəsilə nəticələri haqqında məlumatla, habelə cavab kartının qrafik təsviri ilə tanış ola biliblər. İmtahanda iştirakı gözlənilən 40234 şagirddən 788 nəfəri imtahana gəlməyib. 8 nəfər imtahan qaydalarını pozduğu üçün imtahandan xaric edilib.

♦ İyunun 14-də DİM-də dövlət qulluğuna qəbul olmaq istəyən şəxslərin müsabiqənin test imtahanı mərhələsinə daha da səmərəli hazırlaşmalarına kömək məqsədilə elektron sınaq imtahanı keçirilib.

♦ İyunun 12-dən iyulun 12-dək Dövlət İmtahan Mərkəzi tərəfindən 2 dövlət orqanında inzibati vəzifələrin 5-7-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə ümumi müsahibə elanı verilib.

♦ İyunun 12-dən iyulun 12-dək mərkəzi icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanları olmaqla inzibati dövlət qulluğu vəzifələrinin 5-7-ci təsnifatı üzrə B növünə aid olan ümumilikdə 8 dövlət orqanında 103 vakant vəzifənin tutlması üçün müsabiqənin müsahibə mərhələsi elan edilib.

♦ İyunun 13-dən 17-dək (V ixtisas qrupu üzrə iyunun 13-dən 27-dək) ali təhsil müəssisələrinə imtahansız qəbul olmaq istəyən subbakalavrların qeydiyyatı aparılıb. Qəbul imtahanlarında iştirak etmədən ali təhsil müəssisələrinə qəbul olmaq istəyən subbakalavrlar cari ildə imtahan verərək ali təhsil müəssisələrinin müsabiqəsində iştirak etmək istəyən abituriyentlərlə eyni vaxtda – iyulun 24-dən avqustun 6-dək ixtisas seçimində (müsabiqədə) iştirak ediblər.

♦ İyunun 14-dən iyulun 11-dək Azərbaycan Respublikası Müdafiə Nazirliyinin xətti ilə Türkiyə Respublikasının Tibb Elmləri Universitetinin Gülhanə Tibb Fakültəsinə və Rusiya Federasiyasının Hərbi Tibb Akademiyasına kursantların qəbulu üçün müsabiqə elan olunub. Müsabiqədə 2019-cu ildə IV ixtisas qrupu üzrə qəbul imtahanlarında 600 və daha yuxarı bal toplamış, 19 yaşınadək olan oğlan abituriyentlər iştirak edə biliblər.

♦ 13-14 iyunda Dövlət İmtahan Mərkəzinin icraçı direktoru Vəfadar Misirov Astana Dövlət Qulluğu üzrə Regional Xabın Qazaxıstanın Nur-Sultan şəhərində keçirilən illik konfransında iştirak edib. Konfransın builki əsas mövzusu "Dövlət qulluğunda dəyərlər, inam və texnologiya" olub. Konfransda beynəlxalq təşkilatlardan və 30-dan çox ölkənin dövlət qulluğu ilə bağlı qurumlarından ekspert və nümayəndələr iştirak ediblər.

♦ İyunun 14-də Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədr müavini Namiq Babayev Şəkidə vətəndaşları qəbul edib. Şəki şəhərində keçirilən qəbulda Şəki, Oğuz rayon sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər. Görüşdə, əsasən, ümumi və tam orta təhsil səviyyəsi üzrə buraxılış imtahanlarının nəticələri, ali təhsil müəssisələrinə qəbul imtahanları, subbakalavların ali məktəblərə qəbulu, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri və digər məsələlərlə əlaqədar rəhbər şəxslərə müraciətlər edilib.

♦ İyunun 18-də iyunun 16-da 29 şəhər və rayonda, o cümlədən müxtəlif təyinatlı məktəblərdə – internat məktəblərində, xüsusi axşam-qiyabi orta məktəblərdə, eşitmə pozulmaları və danışma əngəlli şagirdlər üçün xüsusi məktəblərdə, Çilov adasında yerləşən məktəbdə, cəzaçəkmə müəssisələrində yerləşən məktəblərdə təhsil alan 9-cu sinif şagirdləri üçün keçirilmiş buraxılış imtahanının II mərhələsinin nəticələri elan edilib. İmtahanda iştirakı gözlənilən 32827 şagirddən 561 nəfəri imtahana gəlməyib. 12 nəfər imtahan qaydalarını pozduğu üçün imtahandan xaric edilib.

♦ İyunun 19-dan iyulun 17-dək beynəlxalq səviyyədə akkreditasiya olunan təhsil proqramları üzrə təhsil almış abituriyentlərin sənəd qəbulu aparılıb.

♦ İyunun 19-da ali təhsilin magistratura səviyyəsinə qəbul olunmaq üçün keçirilmiş müsabiqənin nəticələri elan olunub. Müsabiqənin nəticələrinə əsasən, ixtisaslaşma seçimində iştirak edən 7531 bakalavrdan 6506 nəfəri respublika ali təhsil müəssisələrinin magistraturalarına qəbul olunub.

♦ İyunun 20-dən iyulun 12-dək dövlət qulluğunda inzibati vəzifələrin A növünə (inzibati rəhbər (idarəetmə) vəzifələr) aid olan AA, AB və AC qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanına qeydiyyat aparılıb.

♦ İyunun 20-də 16 may 2019-cu il tarixində elan edilmiş ümumi müsahibələrin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 5 dövlət orqanında mövcud olan 26 vakant vəzifə üzrə 30 yer ümumi müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə 45 müsahibənin keçirilməsi planlaşdırılıb.

♦ İyunun 20-də 16 may 2019-cu il tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsinin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 12 dövlət orqanında mövcud olan inzibati dövlət qulluğu vəzifələrinə aid 33 (A növündə 2 vakant vəzifə üzrə 2 yer, B növündə 31 vakant vəzifə üzrə 59 yer) vakant vəzifə müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə qeydiyyatdan keçmiş 210 namizədlə 249 müsahibənin keçirilməsi planlaşdırılıb.

♦ İyunun 20-də Dövlət İmtahan Mərkəzi orta ixtisas təhsili pilləsi üzrə "Subbakalavr" peşə-ixtisas dərəcəsi almış və ali təhsil müəssisələrinə müsabiqə yolu ilə qəbul olmaq istəyən şəxslər üçün "Abituriyent" jurnalının xüsusi buraxılışını nəşr edib. Bu xüsusi buraxılışda "2019/2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə SUBBAKALAVRLARIN QƏBULU ELANI", "Subbakalavr dərəcəsini almış şəxslərin ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbulu ilə bağlı İXTİSAS UYĞUNLUĞU CƏDVƏLİ " və digər faydalı məlumatlar təqdim olunub.

♦ İyunun 20-də Dövlət İmtahan Mərkəzi «Magistr» jurnalının 5-ci nömrəsini nəşr edib. Jurnalın bu nömrəsində 2019/2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarına qəbul olanların siyahısı, ixtisaslaşmalar üzrə minimal keçid balları, o cümlədən dövlət sifarişi üzrə müsabiqə nəticəsində formalaşmış keçid balları və digər zəruri məlumatlar dərc olunub.

♦ İyunun 20-də “Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları” mövzusunda təlim təşkil edilib. Təlimdə Azərbaycan Respublikası Hesablama Palatasının əməkdaşları və müsahibələrə müstəqil ekspert qismində cəlb olunacaq nümayəndələr iştirak ediblər.

♦ İyunun 20-dən iyulun 3-dək ali təhsil müəssisələrinin (V ixtisas qrupu) və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üzrə qabiliyyət imtahanlarında iştirak etmək istəyən abituriyentlərin elektron qeydiyyatı aparılıb.

♦ İyunun 21-də Dövlət qulluqçularının peşə bayramına həsr edilən elmi-praktik konfrans keçirilib. Konfransın işində Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Nazirlər Kabineti, Milli Məclis, Konstitusiya Məhkəməsi, müxtəlif nazirliklər, Heydər Əliyev Mərkəzi, Baş Prokurorluq, Dövlət Komitələri və Xidmətlərinin, Bakı şəhərinin, Naxçıvan Muxtar Respublikasının və rayon icra hakimiyyətlərinin təmsilçiləri iştirak ediblər.

♦ 20-21 iyunda Dövlət İmtahan Mərkəzi tərəfindən Avropa İttifaqı və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ilə birgə SIGMA (Rəhbərlik və İdarəetmədə Təkmilləşdirməyə Dəstək) proqramı çərçivəsində “Dövlət idarəçiliyində səmərəli nəzarət mexanizmi” adlı seminar keçirilib.

♦ 21 və 25 iyun tarixlərində DİM-də dövlət qulluğuna qəbul olmaq istəyən şəxslərin müsabiqənin test imtahanı mərhələsinə daha da səmərəli hazırlaşmalarına kömək məqsədilə növbəti sınaq imtahanları keçirilib.

♦ İyunun 22-də "Abituriyent" jurnalının 3-cü nömrəsi nəşr olunub. Bu nömrədə 2019/2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ümumi orta (9-illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, qəbul aparılan ixtisaslar, onların plan yerləri, elektron ərizə verən abituriyent üçün təlimat, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin nümunəsi və digər zəruri materiallar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ İyunun 23-də Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün I və IV ixtisas qrupları üzrə qəbul imtahanı keçirilib. İmtahan Respublikanın 11 şəhərində - Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində ümumilikdə 46 binada aparılıb. İmtahan prosesinin idarə olunması üçün DİM-də operativ qərargah fəaliyyət göstərib, müntəzəm olaraq imtahanın keçirildiyi binalarla əlaqə saxlanılıb və imtahan prosesinin gedişi nəzarətdə olub. Bütün binalarda imtahan təlimata uyğun şəkildə keçirilib, abituriyentlərin öz bilik səviyyələrini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb. Həmin gün DİM-in “Facebook” səhifəsi və “Youtube” kanalı vasitəsi ilə canlı yayım edilib və Mərkəzin məsul əməkdaşları, ekspertlər tərəfindən imtahanda istifadə olunmuş sualların düzgün cavabları və test tapşırıqları ilə bağlı geniş izahat verilib.

♦ İyunun 25-də “Rezidentura” xüsusi buraxılışının 3-cü nömrəsini nəşr edilib. Jurnalın bu nömrəsində 2019/2020-ci tədris ili üçün rezidenturaya qəbul imtahaninin ikinci mərhələsi və ixtisas seçimi haqqında elan, “Namizədin elektron ərizəsi”ndə ixtisasların seçimi və təsdiqi üçün təlimat, "Namizədin elektron ərizəsi"ndə ixtisas seçimi formasının nümunəsi, rezidenturaya qəbul aparılan ixtisaslar və onların plan yerləri dərc edilib.

♦ İyunun 27-dən avqustun 5-dək ümumi təhsil müəssisələrini cari ildə bitirən və kolleclərə qəbul olmaq üçün fevral-mart aylarında aparılan qeydiyyatdan keçməyən abituriyentlər üçün ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu sistemi yenidən aktiv edilib.

♦ İyunun 27-dən iyulun 10-dək ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul olan bakalavrların qəbul olduqları təhsil müəssisələrində qeydiyyatı başlayıb.

♦ İyunun 28-də DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Qax rayonunda vətəndaşları qəbul edib. Qəbulda Qax rayonunu ilə yanaşı Zaqatala və Balakən rayonlarının sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər. Görüşdə əsasən subbakalavrların ali təhsil müəssisələrinə imtahansız qəbulu, ali və orta ixtisas təhsili müəssisələrinə abituriyentlərin qəbulu, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, rezidenturaya qəbul, qabiliyyət imtahanları və digər məsələlərlə əlaqədar DİM Direktorlar Şurasının sədrinə müraciətlər edilib. Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

♦ İyunun 28-də rezidenturaya qəbul olmaq istəyən namizədlər üçün qəbul imtahanının ikinci mərhələsi (ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı) üzrə sınaq imtahanı keçirilib.

♦ İyunun 30-da dövlət qulluğunda inzibati vəzifələrin BA və BB qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahan təlimata uyğun olaraq kağız daşıyıcılar vasitəsilə 3 saat müddətində aparılıb və namizədlərə biliklərini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb. İmtahanların idarə olunmasına 6 ümumi imtahan rəhbəri, 19 imtahan rəhbəri, 172 nəzarətçi‑müəllim, 6 bina nümayəndəsi ayrılıb. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş 1766

namizəddən 14 nəfər imtahana gəlməyib, ümumilikdə 440 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ İyulun 1-də iyunun 30-da keçirilən imtahanların nəticələri elan olunub. İmtahanda iştirakı gözlənilən 6461 abituriyentdən 1294 nəfəri imtahana gəlməyib. 2 nəfər imtahan qaydalarını pozduğu üçün imtahandan xaric edilib.

♦ İyulun 2-də DİM I və IV ixtisas qrupları üzrə 2019-cu il iyunun 23-də keçirilən qəbul imtahanlarının nəticələrini elan edib. İmtahanda iştirak edən abituriyentlər DİM-in internet saytına daxil olaraq imtahan nəticələri, "cavab kartı" və "cavab vərəqi"nin qrafik təsvirləri ilə tanış ola biliblər. İmtahanda iştirak etmək üçün ərizə təsdiq etmiş 24028 abituriyentdən 298 nəfəri imtahanda iştirak etməyib. İmtahanda iştirak edən abituriyentlərdən 6 nəfəri qaydaları pozduqlarına görə imtahandan xaric olunub və nəticələri ləğv edilib.

♦ İyulun 2-də "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda təlim təşkil edilib. Təlimdə iştirakçılara müsahibə üçün xarakterik olan xüsusiyyətlər, müsahibənin məqsədi, müsahibəyə hazırlıq, namizədin biliyinin qiymətləndirilməsi üzrə tələb olunan bacarıqlar, müsahibənin strukturu, keçirilmə qaydaları, namizədin qiymətləndirilmə meyarları haqqında ətraflı məlumat verilib.

♦ İyulun 3-dən 11-dək Azərbaycan Respublikası ilə Türkiyə Respublikası və Rusiya Federasiyası arasında hərbi təhsil sahəsində bağlanmış müqavilələrə əsasən 2019/2020-ci tədris ilində Türkiyə Respublikasının Tibb Elmləri Universitetinin Gülhanə Tibb Fakültəsinə və Rusiya Federasiyasının Hərbi Tibb Akademiyasına kursantların qəbulu üçün müsabiqə elan olunub.

♦ İyulun 7-də Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olmaq istəyən abituriyentlər üçün II və III ixtisas qrupları üzrə qəbul imtahanı keçirilib. İmtahan Respublikanın 11 şəhərində - Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Mingəçevir, Şəki, Bərdə, Göyçay, Şirvan, Lənkəran və Xaçmaz şəhərlərində ümumilikdə 57 binada aparılıb. İmtahanların idarə olunmasına 205 imtahan rəhbəri və 2323 nəzarətçi-müəllim cəlb olunub.

♦ İyulun 9-da «Abituriyent» jurnalının 4-cü nömrəsi nəşr edilib. Jurnalın bu nömrəsində 2019/2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma qaydası, ali təhsil müəssisələrinə qəbul aparılan ixtisaslar, dövlət sifarişi ilə tələbə qəbulunun proqnozu verilib.

♦ İyulun 9-dan avqustun 9-dək dövlət qulluğu vəzifələrinin B növünə (inzibati icraçı vəzifələr) aid olan BA və BB qruplarına uyğun olan vəzifələr üzrə test imtahanına qeydiyyat elan edilib.

♦ İyulun 11-də Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədr müavini Namiq Babayev Biləsuvarda vətəndaşları qəbul edib. Biləsuvar rayonunda keçirilən qəbulda Biləsuvar, Cəlilabad, Masallı rayon sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər. Görüşdə əsasən ali təhsil müəssisələrinə qəbul imtahanları, imtahan nəticələri, qabiliyyət imtahanları, subbakalavrların ali təhsil müəssisələrinə imtahansız qəbulu, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri və digər məsələlərlə əlaqədar müraciətlər edilib. Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

♦ İyulun 14-də dövlət qulluğunda inzibati vəzifələrin A növünə (inzibati rəhbər vəzifələr) aid olan AA, AB və AC qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahana qeydiyyat iyunun 18-dən iyulun 12-dək aparılıb və bu müddət ərzində 83 namizəd qeydiyyatdan keçib. İmtahan kompüter vasitəsilə təlimata uyğun olaraq 3 saat müddətində aparılıb və namizədlərə biliklərini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb. İmtahanda 82 namizəd iştirak edib. İmtahan nəticələrinə əsasən 40 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ İyulun 14-də DİM baza ali tibb təhsili əsasında həkim-mütəxəssislərin hazırlanması məqsədilə rezidenturaya qəbul imtahanının II mərhələsini (ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi), hərbi liseylərə və Azərbaycan Tibb Universitetinin Hərbi Tibb Məktəbinin feldşer ixtisasına qəbul imtahanları keçirib. İmtahanlar saat 11:00-da başlayıb. Rezidenturaya qəbul imtahanı 2 saat 30 dəqiqə, digər imtahan isə 2 saat davam edib.

♦ İyulun 15-də Hərbi Tibb Məktəbinin feldşer ixtisasına qəbul olmaq üçün keçirilən imtahanın nəticələri elan edilib. İmtahanda iştirakı gözlənilən 86 abituriyentdən 2 nəfər imtahanda iştirak etməyib.

♦ İyulun 15-də rezidenturaya qəbul imtahanının II mərhələsinin nəticələri elan olunub. İmtahanda iştirakı gözlənilən 447 namizədin hamısı imtahana gəlib. Namizədlərdən 351 nəfər müsabiqə şərtini (ixtisas fənləri üzrə topladığı test balı 50-dən, ümumi balı 90-dan az olmayan) ödəyərək ixtisaslaşma seçiminə buraxılıb.

♦ İyulun 16-dan 22-dək rezidenturaya qəbul olmaq üçün ixtisas seçimi aparılıb. İxtisas seçiminə rezidenturaya qəbul imtahanındakı nəticələri Mərkəz tərəfindən müəyyən edilmiş müsabiqə şərtini ödəyən – baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında topladığı balı 40-dan, ixtisas fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanında isə 50-dən, ümumi balı 90-dan az olmayan namizədlər buraxılıblar.

♦ İyulun 17-də hərbi liseylərə qəbul imtahanının nəticələri elan edilib. İmtahanda iştirak etmiş abituriyentlər öz nəticələri və "cavab kartı"nın qrafik təsviri ilə tanış ola biliblər. İmtahanda iştirakı gözlənilən 1759 abituriyentdən 28 nəfər imtahanda iştirak etməyib. 1 nəfər qaydaları pozduğu üçün imtahandan xaric edilib.

♦ İyulun 19-da dövlət qulluğuna qəbul olmaq istəyən şəxslərin müsabiqənin test imtahanı mərhələsinə daha da səmərəli hazırlaşmalarına kömək məqsədilə elektron sınaq imtahanı keçirilib.

♦ İyulun 19-dan 24-dək Azərbaycan İlahiyyat İnstitutunun "İslamşünaslıq" ixtisasına qəbul olmaq istəyən abituriyentlərin qeydiyyatı aparılıb.

♦ İyulun 19-da DİM II və III ixtisas qrupları üzrə 2019-cu il iyulun 7-də keçirilən qəbul imtahanlarının nəticələrini elan edib. İmtahanda iştirak etmək üçün ərizə təsdiq etmiş 28699 abituriyentdən 408 nəfəri imtahana gəlməyib. İmtahanda iştirak edən abituriyentlərdən 15 nəfəri qaydaları pozduqlarına görə imtahandan xaric olunub və nəticələri ləğv edilib.

♦ 22-25 iyul tarixlərində III ixtisas qrupu üzrə imtahan verən və "Jurnalistika" ixtisasına qəbul olmaq istəyən abituriyentlərin qeydiyyatı aparılıb.

♦ İyulun 22-də 12 iyun 2019-cu il tarixində elan edilmiş ümumi müsahibələrin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 2 dövlət orqanında mövcud olan 14 vakant vəzifə üzrə 14 yer ümumi müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə 16 müsahibənin keçirilməsi planlaşdırılıb.

♦ İyulun 22-də 12 iyun 2019-cu il tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsinin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 10 dövlət orqanında mövcud olan inzibati dövlət qulluğu vəzifələrinə aid 128 vakant vəzifə üzrə 158 yer müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə qeydiyyatdan keçmiş 742 namizədlə 1840 müsahibənin keçirilməsi planlaşdırılıb.

♦ İyulun 22-də Dövlət İmtahan Mərkəzi «Magistr» jurnalının 6-cı nömrəsini nəşr edib. Jurnalın bu nömrəsində 2019/2020-ci tədris ili üçün ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarının boş qalan yerlərinə qəbul haqqında elan, müsabiqə şərtləri, "Bakalavrın elektron ixtisaslaşma seçimi ərizəsi"ndə ixtisaslaşmaların seçilməsi və təsdiqi üçün təlimat, "Bakalavrin elektron ərizəsi"ndə ixtisaslaşma seçimi formasının nümunəsi, ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarının boş qalan yerləri olan ixtisaslaşmalarının siyahısı, magistratura səviyyəsinə dövlət sifarişi ilə qəbulun proqnozu və digər zəruri məlumatlar təqdim olunub.

♦ İyulun 22-də "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda təlim keçirilib. Təlimdə iştirakçılara müsahibə üçün xarakterik olan xüsusiyyətlər, müsahibənin məqsədi, müsahibəyə hazırlıq, namizədin biliyinin qiymətləndirilməsi üzrə tələb olunan bacarıqlar, müsahibənin strukturu, keçirilmə qaydaları, namizədin qiymətləndirilmə meyarları haqqında ətraflı məlumat verilib.

♦ 23-30 iyul tarixlərində ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarının boş qalan yerlərinə qəbul elan edilib.

♦ İyulun 23-də DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Şabran rayonunda vətəndaşları qəbul edib. Qəbulda Şabran rayonunun sakinləri ilə yanaşı Quba, Qusar, Xaçmaz, Siyəzən, Xızı rayonlarının sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər. Görüşdə əsasən dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, magistratura və rezidentraya qəbul, ali təhsil müəssisələrinə abituriyentlərin qəbulu, qabiliyyət imtahanları və digər məsələlərlə əlaqədar DİM Direktorlar Şurasının sədrinə müraciətlər edilib. Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

♦ İyulun 23-də baza ali tibb təhsili əsasında rezidenturaya qəbul olmaq üçün keçirilmiş müsabiqənin nəticələri elan olunub. İki mərhələ üzrə keçirilən qəbul imtahanlarının nəticələrinə əsasən müsabiqədə iştirak edən 352 namizəddən 350 nəfəri təhsilini rezidenturada davam etdirmək hüququ qazanıb.

♦ İyulun 24-dən avqustun 5-dək ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin (kolleclərin) ixtisas seçimi həyata keçirilib.

♦ İyulun 24-dən avqustun 6-dək DİM ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elan edib. I, II, III, IV ixtisas qruplarından hər hansı biri və V ixtisas qrupu üzrə DİM-in müəyyən etdiyi tələbləri ödəyən abituriyentlər hər iki qrupun ixtisaslarını seçə biliblər. Həmçinin, I-IV ixtisas qruplarından iki müxtəlif ixtisas qrupu üzrə imtahan verən abituriyent müvafiq müsabiqə şərtlərini ödədiyi halda, hər iki ixtisas qrupu üzrə müsabiqədə iştirak edə bilib.

♦ İyulun 24-də “Rezidentura” xüsusi buraxılışının 4-cü nömrəsinin elektron versiyası hazılanıb. Jurnalda rezidenturaya qəbul olunanların siyahısı, müsabiqə nəticələrinə görə alınmış keçid balları və digər zəruri məlumatlar təqdim olunub.

♦ İyulun 26-da II və III ixtisas qrupları üzrə müsabiqədə iştirak etmək hüququ qazanmış abituriyentlər üçün “İxtisas seçimi zamanı nələrə diqqət yetirməli?” adlı kitabçalar nəşr edib.

♦ İyulun 26-da dövlət qulluğuna qəbul olmaq istəyən şəxslərin müsabiqənin test imtahanı mərhələsinə daha da səmərəli hazırlaşmalarına kömək məqsədilə elektron sınaq imtahanı keçirilib.

♦ 27-31 iyulda Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Ali Hərbi Məktəbinə əlavə kursant qəbulu elan edib. Müsabiqədə Daxili İşlər Nazirliyinin Polis Akademiyasına qəbul olmaq üçün mandatdan keçib III ixtisas qrupu üzrə imtahan vermiş, lakin test imtahanının nəticəsinə əsasən, müsabiqədən keçməmiş 200 və daha yuxarı bal toplamış abituriyentlər iştirak edə biliblər.

♦ İyulun 29-da DİM “Abituriyent” jurnalının 5-ci nömrəsini nəşr edib. Jurnalda 2019/2020-ci tədris ili üçün orta ixtisas təhsili müəssisələrinə tam (11 illik) orta təhsil bazasında tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, ”Abituriyentin elektron ixtisas seçimi ərizəsi”nin doldurulması qaydası, qəbul aparılan ixtisaslar və digər məlumatlar əksini tapıb.

♦ İyulun 29-dan avqustun 16-dək əlillərin cəmiyyətə inteqrasiyasının təmin edilməsi, onların məşğulluq səviyyəsinin artırılması məqsədilə 1 nömrəli Bakı Tibb Kollecinin “İdman və müalicə masajı” ixtisasına gözdən əlil olan gənclər üçün dövlət hesabına ayrılan plan yerlərinə sənəd qəbulu aparılıb.

♦ İyulun 31-də Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının magistraturalarının boş qalan plan yerlərinə müsabiqənin nəticələri elan olunub. Magistraturanın boş qalan plan yerlərinin müsabiqəsində iştirak etmək üçün 814 bakalavr müraciət edib. Müsabiqə nəticəsində onlardan 456 nəfər (o cümlədən 43 nəfər dövlət sifarişi əsasında) magistraturaya qəbul olub.

♦ İyulun 31-də DİM «Magistr» jurnalının 7-ci nömrəsini dərc edib. Jurnalın bu nömrəsində 2019/2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarının boş qalan yerlərinə qəbulun nəticələri dərc olunub.

♦ İyulun 31-də Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi Direktorlar Şurasının növbəti iclası keçirilib. İclasda 2019-cu ilin birinci yarım ilinin yekunları, ali təhsil müəssisələrinə qəbul olmaq üçün keçirilmiş imtahanların nəticələri, dövlət qulluğuna qəbul və digər cari məsələlər müzakirə edilib.

♦ Avqustun 1-də Dövlət İmtahan Mərkəzi ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı keçirib. İmtahan Bakı şəhərində və DİM-in regional bölmələrinin yerləşdiyi Naxçıvan, Gəncə, Lənkəran, Şəki, Bərdə, Göyçay,Şirvan, Xaçmaz şəhərlərində təşkil olunub. İmtahan bütün binalarda saat 11:00-da başlanıb və 2 saat 30 dəqiqə davam edib.

♦ Avqustun 2-də mərkəzi icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanları olmaqla inzibati dövlət qulluğu vəzifələrinin 3-7-ci təsnifatı üzrə A və B növünə aid olan ümumilikdə 42 dövlət orqanında 508 vakant vəzifənin tutulması üçün müsabiqənin müsahibə mərhələsi elan edilib.

♦ Avqustun 2-də 12 dövlət orqanında inzibati vəzifələrin 4-7-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə ümumi müsahibə elanı verilib.

♦ Avqustun 2-də dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədr müavini Namiq Babayev Xaçmazda vətəndaşları qəbul edib. Qəbulda Xaçmaz, Quba, Şabran rayon sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər. Görüşdə, əsasən, ali təhsil müəssisələrinə qəbul imtahanları, orta ixtisas təhsili müəssisələrinə qəbul, qabiliyyət imtahanları, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri və digər məsələlərlə əlaqədar müraciətlər edilib. Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

♦ Avqustun 2-də DİM ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin “Jurnalistika” ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün avqustun 1-də keçirilən qabiliyyət imtahanının nəticələrini elan edib. Abituriyentlər DİM-in saytında imtahan nəticələri ilə tanış ola biliblər. İmtahanda iştirak etmək hüququ qazanmış 486 abituriyentdən 110 nəfəri imtahana gəlməyib. İmtahanda iştirak edən 376 abituriyentdən 344 nəfəri “məqbul” qiymət alıb.

♦ Avqustun 6-da ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün keçirilən müsabiqənin nəticələri elan olunub. Nəticələrə əsasən 9695 nəfər orta ixtisas təhsili müəssisələrinə qəbul olunub.

♦ Avqustun 9-da Dövlət İmtahan Mərkəzində dövlət qulluğuna qəbul olmaq istəyən şəxslərin müsabiqənin test imtahanı mərhələsinə daha da səmərəli hazırlaşmalarına kömək məqsədilə elektron sınaq imtahanı keçirilib.

♦ 7-8 avqust tarixlərində rezidenturaya boş qalan plan yerlərinə ərizə qəbulu aparılıb.

♦ Avqustun 7-də "Abituriyent" jurnalının 6-cı nömrəsi nəşr edilib. Jurnalın bu nömrəsində ümumi orta (9 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olan abituriyentlərin siyahısı, qəbul olduqları ixtisasların kodları, ixtisaslar üzrə formalaşmış keçid balları və digər zəruri məlumatlar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ Avqustun 8-də DİM ali təhsil müəssisələrinə yerləşdirmənin nəticələrini elan edib. Ali təhsil müəssisələrinin müsabiqəsində 58258 nəfər iştirak edib. Onlardan 42062 nəfəri (o cümlədən 3542 subbakalavr) ali təhsil müəssisələrinə qəbul olunub. 17820 (o cümlədən 586 subbakalavr) nəfər dövlət sifarişi əsasında, 24242 (o cümlədən 2956 subbakalavr) nəfər isə ödənişli əsaslarla təhsil almaq hüququ əldə edib.

♦ Avqustun 9-da DİM Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə birgə prokurorluq orqanlarında işə qəbul olmaq istəyən namizədlər üçün test imtahanı keçirib. Bakı İdman Sarayında təşkil olunan imtahan saat 10:00-da başlayıb və 3 saat davam edib. İşə qəbul olmaq üçün ərizə təqdim etmiş 284 namizəddən 26 nəfəri imtahana gəlməyib. İmtahanda iştirak etmiş 258 namizəddən 128 nəfəri müsabiqə şərtini (70 və daha çox bal) ödəyərək növbəti mərhələyə buraxılıb.

♦ Avqustun 10-da "Abituriyent" jurnalının 7-ci nömrəsi nəşr edilib. Bu nömrədə 2019/2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə qəbul olmuş abituriyentlərin siyahısı qruplar üzrə (Azərbaycan bölməsi – I, II, III qruplar hər biri ayrı jurnalda, IV və V qruplar isə birlikdə 1 jurnalda, rus bölməsinin bütün qrupları isə 1 jurnalda) çap olunub.

♦ Avqustun 18-də dövlət qulluğunda inzibati vəzifələrin BA və BB qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahan təlimata uyğun olaraq kağız daşıyıcılar vasitəsilə 3 saat müddətində aparılıb və namizədlərə biliklərini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb. İmtahanların idarə olunmasına 5 ümumi imtahan rəhbəri, 17 imtahan rəhbəri, 151 nəzarətçi‑müəllim, 5 bina nümayəndəsi ayrılıb. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş 1501 namizəddən 18 nəfər imtahana gəlməyib. Ümumilikdə 480 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ Avqustun 20-də ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbulun nəticələri elan olunub. Ali təhsil müəssisələrinin boş qalan plan yerlərinin və tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin müsabiqəsində iştirak etmək üçün 16515 şəxs ixtisas seçimi edib. Müsabiqə nəticəsində ali təhsil müəssisələrinin boş qalan plan yerlərinə 1359 nəfər (o cümlədən 1232 nəfər subbakalavr), tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə isə 10001 nəfər qəbul olub.

♦ Avqustun 21-də "Abituriyent" jurnalının 9-cu və 10-cu nömrələrinin elektron versiyaları DİM-in saytında yerləşdirilib. Jurnalın 9-cu nömrəsində 2019/2020-ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin boş qalan yerlərinə qəbul olmuş abituriyentlərin siyahısı, müsabiqə nəticəsində ixtisasların həm ödənişli əsaslarla olan yerləri, həm də dövlət sifarişli yerləri üzrə formalaşmış keçid balları Azərbaycan və rus dillərində təqdim olunub.

♦ Avqustun 27-də DİM "Abituriyent" jurnalının xüsusi buraxılışını çap edib. Jurnalın bu xüsusi buraxılışında ümumi orta (9 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə ixtisas seçimi elanı, həmçinin "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulması və təsdiqi üçün təlimat və "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin nümunəsi, qəbul aparılan ixtisasların siyahısı, boş yerlərin sayı və s. məlumatlar Azərbaycan və rus dillərində dərc olunub.

♦ Avqustun 27-dən sentyabrın 2-dək Dövlət İmtahan Mərkəzi ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerləri üzrə internet vasitəsilə ixtisas seçimi elan edib.

♦ Avqustun 27-dən sentyabrın 27-dək dövlət qulluğunda inzibati vəzifələrin A növünə (inzibati rəhbər (idarəetmə) vəzifələr) aid olan AA, AB və AC qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün keçiriləcək test imtahanına qeydiyyat aparılıb.

♦ Avqustun 30-da DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Qusar rayonunda vətəndaşları qəbul edib. Qəbulda Qusar ilə yanaşı Quba, Xaçmaz rayonlarının sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər. Görüşdə, əsasən, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri və digər məsələlərlə əlaqədar DİM

Direktorlar Şurasının sədrinə müraciət edilib. Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

♦ Avqustun 30-da Dövlət İmtahan Mərkəzində dövlət qulluğuna qəbul olmaq istəyən şəxslərin müsabiqənin test imtahanı mərhələsinə daha da səmərəli hazırlaşmalarına kömək məqsədilə elektron sınaq imtahanı keçirilib.

♦ Avqustun 31-də "Abituriyent" jurnalının 11-ci nömrəsi nəşr edilib. Jurnalın bu nömrəsində 2019/2020-ci tədris ili üçün Azərbaycan Respublikasının tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə tələbə qəbulu müsabiqəsində iştirak etmək üçün ixtisas seçimi elanı, "Abituriyentin elektron ixtisas seçimi ərizəsi"nin doldurulma qaydası, qəbul aparılan ixtisasların siyahısı, plan yerləri haqqında məlumatlar Azərbaycan və rus dillərində dərc olunub.

♦ Avqustun 31-dən sentyabrın 4-dək Azərbaycan Respublikasının tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə internet vasitəsilə ixtisas seçimi aparılıb.

♦ Sentyabrın 3-də ümumi (9 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə qəbul olmaq üçün keçirilmiş müsabiqənin nəticələri elan edilib. Müsabiqədə iştirak etmək üçün 3097 abituriyent ərizə təqdim edib. Onlardan 1928 abituriyent orta ixtisas təhsili müəssisələrinə qəbul olunub.

♦ Sentyabrın 3-də ümumi orta (9 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə tələbə qəbulunun nəticələri dərc edilib. "Abituriyent" jurnalının bu xüsusi buraxılışında ümumi orta (9 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə qəbul olmuş abituriyentlərin siyahısı, ixtisaslar üzrə minimal keçid balları və digər məlumatlar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ 3-4 sentyabr tarixlərində Gəncə şəhərində ingilis dili müəllimləri üçün təlim keçirilib. Təlim ABŞ-ın Azərbaycandakı Səfirliyi ilə əməkdaşlıq çərçivəsində DİM-in təşkilatçılığı ilə təşkil edilib və 30-a yaxın ingilis dili müəllimi iştirak edib. Təlimdə oxu və yazı bacarıqlarına yiyələnmənin texnologiyası, dərs prosesində bilik və bacarıqların ölçülməsi, qiymətləndirmədə istifadə olunan vasitələrin buraxılış və qəbul imtahanlarında istifadə olunan ölçmə üsulları ilə uyğunlaşdırılması, eyni zamanda oxu və yazı prosesi zamanı yüksək təfəkkür bacarıqlarının formalaşdırılması ilə bağlı fikir mübadiləsi və müzakirələr aparılıb.

♦ Sentyabrın 5-də tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinə qəbulun nəticələri elan olunub. Tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan plan yerlərinin müsabiqəsində iştirak etmək üçün 3643 abituriyent ixtisas seçimi edib. Müsabiqə nəticəsində 1424 nəfər orta ixtisas təhsili müəssisələrinə qəbul olub.

♦ Sentyabrın 5-də "Abituriyent" jurnalının xüsusi buraxılışı nəşr edilib. "Abituriyent" jurnalının bu xüsusi buraxılışında tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin boş qalan yerlərinə qəbul olmuş abituriyentlərin siyahısı, ixtisaslar üzrə minimal keçid balları və s. məlumatlar Azərbaycan və rus dillərində təqdim olunub.

♦ Sentyabrın 5-də DİM ABŞ-ın Azərbaycandakı Səfirliyi ilə əməkdaşlıq çərçivəsində DİM-in Şəki Regional Bölməsində Şəki şəhəri və ətraf rayonların Mərkəz ilə əməkdaşlıq edən 27 ingilis dili müəllimi üçün təlim təşkil edib.

♦ Sentyabrın 8-də cari ilin buraxılış imtahanlarında üzrlü səbəbdən iştirak edə bilməyənlər üçün imtahan keçirilib. Buraxılış imtahanları Bakı və Gəncə şəhərlərində təşkil olunub. İmtahanların idarə olunması üçün 12 imtahan rəhbəri, 97 nəzarətçi-müəllim ayrılıb.

♦ Sentyabrın 8-də Vəkillər Kollegiyasına üzv olmaq istəyən namizədlər üçün test imtahanı keçirilib. İmtahan kompüterlər vasitəsilə elektron qaydada aparılıb. Namizədlər imtahanı bitirdikdən dərhal sonra onlara nəticələri haqqında arayış təqdim olunub. İmtahanda iştirak edən 237 namizəddən 189 nəfər müsabiqə şərtini ödəyərək – 60 və daha yüksək bal toplayaraq ikinci mərhələyə – müsahibəyə buraxılıb.

♦ Sentyabrın 9-da DİM-də "Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafına dair 2019-2025-ci illər üzrə Strategiya"nın 2019-2021-ci illərdə icrası üçün Fəaliyyət Planının icrasına dair iclas keçirilib. İclasda Strategiyanın 2019-2021-ci illərdə icrası üzrə Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərlə bağlı hazırlanmış layihələr müzakirə edilib və tapşırıqların icrası üçün görüləcək növbəti tədbirlər müəyyən olunub.

♦ Sentyabrın 9-da 2019/2020-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı imzalanıb.

♦ Sentyabrın 12-də sentyabrın 8-də ümumi orta təhsil bazasında buraxılış imtahanının I mərhələsi və tam orta təhsil bazasında buraxılış imtahanı verən şagirdlərin nəticələri elan olunub. İmtahanda iştirak etmiş şagirdlər DİM-in internet saytı vasitəsilə nəticələri haqqında məlumatla, həmçinin cavab vərəqələrinin qrafik təsviri ilə tanış ola biliblər.

♦ Sentyabrın 13-də DİM-də dövlət qulluğuna qəbul olmaq istəyən şəxslərin müsabiqənin test imtahanı mərhələsinə daha da səmərəli hazırlaşmalarına kömək məqsədilə elektron sınaq imtahanı keçirib.

♦ Sentyabrın 15-də Dövlət İmtahan Mərkəzi ilə Hakimlərin Seçki Komitəsi tərəfindən hakim vəzifəsinə qəbul olmaq istəyən namizədlərlə test imtahanı keçirilib. İmtahan kompüterlər vasitəsilə elektron qaydada aparılıb. Namizədlər imtahanı bitirdikdən dərhal sonra onlara nəticələri haqqında arayış təqdim olunub. İmtahanda iştirak edən 206 namizəddən 158 nəfər müsabiqə şərtini ödəyərək – 60 və daha yüksək bal toplayaraq ikinci mərhələyə – müsahibəyə buraxılıb.

♦ Sentyabrın 16-da 2 avqust 2019-cu il tarixində elan edilmiş ümumi müsahibələrin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 12 dövlət orqanında mövcud olan 58 vakant vəzifə üzrə 65 yer ümumi müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə 179 namizədlə 171 müsahibənin keçirilməsi planlaşdırılıb.

♦ Sentyabrın 16-da 2 avqust 2019-cu il tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsinin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 42 dövlət orqanında mövcud olan inzibati dövlət qulluğu vəzifələrinə aid 354 (A növündə 50 vakant vəzifə üzrə 51 yer, B növündə 304 vakant vəzifə üzrə 457 yer) vakant vəzifə müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə qeydiyyatdan keçmiş 1043 namizədlə 1611 müsahibənin keçirilməsi planlaşdırılıb.

♦ Sentyabrın 16-da Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədr müavinləri Namiq Babayev və Bəhram Xəlilov ilə Çin Xalq Respublikası Ədliyyə Nazirliyinin Azərbaycanda səfərdə olan nümayəndə heyəti arasında DİM-in fəaliyyəti ilə tanışlıq məqsədilə görüş keçirilib. Qonaqlarla dövlət qulluğu sahəsində ikitərəfli əməkdaşlıq imkanları müzakirə edilib

♦ Sentyabrın 17-də 7 dövlət orqanında inzibati vəzifələrin 3-7-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə ümumi müsahibə elanı verilib. Mərkəzi icra hakimiyyəti orqanı və məhkəmə hakimiyyəti orqanlarında olmaqla elana çıxarılan vəzifələrin 27-si dövlət qulluğu vəzifələrinin A növünə (inzibati rəhbər) və 67-si B növü vəzifələrə (inzibati icraçı) aid olub.

♦ Sentyabrın 17-də mərkəzi icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanları olmaqla inzibati dövlət qulluğu vəzifələrinin 3-7-ci təsnifatı üzrə A və B növünə aid olan ümumilikdə 19 dövlət orqanında 578 vakant vəzifənin tutlması üçün müsabiqənin müsahibə mərhələsinin elanı verilib.

♦ Sentyabrın 20-də DİM-də dövlət qulluğuna qəbul olmaq istəyən şəxslərin müsabiqənin test imtahanı mərhələsinə daha da səmərəli hazırlaşmalarına kömək məqsədilə elektron sınaq imtahanı keçirilib.

♦ Sentyabrın 20-də 5 avqust 2019-cu il tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsinin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 2 saylı Bakı İnzibati-İqtisadi Məhkəməsində mövcud olan inzibati dövlət qulluğu vəzifələrinə aid 2 vakant vəzifə üzrə 2 yer müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə qeydiyyatdan keçmiş 9 namizədlə 14 müsahibənin keçirilməsi planlaşdırılıb.

♦ Sentyabrın 20-də Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədr müavini Namiq Babayev Hacıqabulda vətəndaşları qəbul edib. Qəbulda Hacıqabul, Şirvan, Saatlı, Sabirabad rayon sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər. Görüşdə əsasən ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri və digər məsələlərlə əlaqədar vətəndaşlar tərəfindən müraciətlər edilib. Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

♦ Sentyabrın 22-dən 27-dək Bakı şəhərində Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın (IAEA: International Association for Educational Assesment) "Qiymətləndirmə və qərarvermə: fərdi və institusional həll yolları" mövzusunda 45-ci illik beynəlxalq konfransı keçirilib. Ayın 22-də "XXI əsrin funksional savadlılığına uyğun olaraq təhsildə və qiymətləndirmədə dayanıqlı keçidə nail olmaq üçün təlimlərin təşkili", "Qiymətləndirmə ədalətlidirmi?", "İmtahan keyfiyyətinin təmin olunmasına dair RCEC təşkilatının dəyərləndirmə sistemi" mövzularına həsr olunan konfrans öncəsi praktik məşğələlər keçirilib. Növbəti gün isə konfransın açılış mərasimi olub. Açılış mərasimində Azərbaycan Respublikası Prezidenti Administrasiyasının humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Təhsilin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiyanın 45-ci illik beynəlxalq konfransının iştirakçılarına ünvanladığı təbrik məktubunu oxuyub.

Daha sonra konfrans sessiyalarla işini davam etdirib. Konfransda 55 ölkədən 300-dən çox ekspert, 43 ölkədən 116 məruzəçi iştirak edib. Sentybarın 27-də isə "Yazıda tipik səhvlərə yol verməmək (ingilis dili üzrə test)", "PISA 2021 və növbəti illər: innovativ qiymətləndirmənin miqyaslı inkişafı", "Yaradıcılıq məsələləri" mövzularını əhatə etməklə konfrans sonrası praktik məşğələlər keçirilib.

♦ Sentyabrın 25-dən oktyabrın 17-dək inzibati dövlət qulluğu vəzifələrinin B növünə (inzibati icraçı vəzifələr) aid olan BA və BB qruplarına uyğun olan vəzifələr üzrə test imtahanına qeydiyyat elan edilib.

♦ Sentyabrın 25-də Dövlət İmtahan Mərkəzi və "Cambridge Assessment English" (CAE) arasında anlaşma memorandumu imzalanıb. Memorandumа əsasən CAE ingilis dilinin öyrənilməsi və qiymətləndirilməsinə dair bacarıq və standartların inkişaf etdirilməsində DİM ilə əməkdaşlıq nəzərdə tutulub.

♦ Sentyabrın 29-da DİM tərəfindən dövlət qulluğunda inzibati vəzifələrin A növünə (inzibati rəhbər vəzifələr) aid olan AA, AB və AC qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahan kompüter vasitəsilə təlimata uyğun olaraq 3 saat müddətində aparılıb və namizədlərə biliklərini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb. Namizəd tərəfindən imtahan yekunlaşdırıldıqda və ya imtahan üçün ayrılan vaxt başa çatdıqda namizədə imtahanın nəticələrinə dair arayış təqdim olunub. İmtahanda 80 namizəd iştirak edib. Ümumilikdə 25 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ Sentyabrın 29-dan oktyabrın 12-dək Dövlət İmtahan Mərkəzinin nümayəndə heyəti Polşa Respublikasında təlim səfərində olub. Səfər çərçivəsində Polşa Respublikasının paytaxtı Varşava şəhərində Şərq Tərəfdaşlığı ölkələrinin nümayəndələri üçün "Dövlət qulluğunda insan resurslarının idarə edilməsi sisteminin gücləndirilməsi" mövzusunda təlim keçirilib. Təlim müddətində iştirakçıların Polşanın müxtəlif dövlət qurumlarında təcrübə keçmələrinə şərait yaradılıb.

♦ Sentyabrın 30-da DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Cəlilabad rayonunda vətəndaşları qəbul edib. Qəbulda Cəlilabad ilə yanaşı Yardımlı, Biləsuvar, Lənkəran, Lerik, Astara, Masallı rayonlarının sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər. Görüşdə, əsasən, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu və digər məsələlərlə əlaqədar DİM Direktorlar Şurasının sədrinə müraciət edilib. Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

♦ Sentyabrın 30-dan oktyabrın 11-dək amerikalı ingilis dili mütəxəssisi Neytn Kar tərəfindən "Müəllimlər üçün intensiv peşəkar inkişaf təlimi və konsultasiya" proqramı çərçivəsində təlimlərin ikinci mərhələsi həyata keçirilib.

♦ 30 sentyabr–4 oktyabr tarixlərində ingilis dili, Azərbaycan dili, ədəbiyyat, alman dili, fransız dili, kimya, fizika, rus dili (tədris dili və xarici dil kimi), ədəbiyyat (rus bölməsi), ərəb dili, fars dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənlərindən imtahanların məzmunu ilə bağlı materialların hazırlanması üçün işçi qruplar yaradılıb. İşçi qruplar tərəfindən buraxılış və qəbul imtahanlarında mənimsənilmə səviyyəsinin yoxlanılması və qiymətləndirilməsi mümkün olan alt standartlara yenidən baxılması və proqramların təkmilləşdirilməsi, yeni tapşırıq nümunələrinin tərtib edilməsi üçün bölgü aparılıb.

♦ Oktyabrın 1-də Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzi dövlət orqanlarının və digər qurumların internet informasiya resurslarından istifadə üzrə 2019-cu ilin üçüncü rübünün statistikasını açıqlayıb. Dövlət İmtahan Mərkəzinin internet resursları ən çox istifadəçi müraciətləri qeydə alınan saytlar siyahısında birinci olub.

♦ Oktyabrın 4-də DİM-də dövlət qulluğuna qəbul olmaq istəyən şəxslərin müsabiqənin test imtahanı mərhələsinə daha da səmərəli hazırlaşmalarına kömək məqsədilə elektron sınaq imtahanı keçirilib.

♦ Oktyabrın 5-də Dövlət İmtahan Mərkəzində növbəti SAT imtahanları (SAT and SAT Essay) keçirilib. İmtahanlar DİM-in inzibati binasında təşkil olunmaqla təlimata təşkil olunub. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçən 34 nəfərdən 29 nəfəri iştirak edib.

♦ Oktyabrın 9-dan Dövlət İmtahan Mərkəzində buraxılış və qəbul imtahanlarının məzmunu ilə bağlı materialların hazırlanmasına və müzakirəsinə dair müvafiq fənlər üzrə elmi-metodiki seminarlar fəaliyyətə başlayıb.

♦ Oktyabrın 10-da "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda təlim təşkil edilib. Təlimdə Azərbaycan Respublikasının Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin nümayəndələri iştirak edib.

♦ Oktyabrın 10-da Dövlət İmtahan Mərkəzində tarix fənni üzrə ilk elmi-metodiki seminar keçirilib. Seminarda DİM Direktorlar Şurasının sədri Məleykə xanım Abbaszadə, Mərkəzin məsul şəxsləri, Bakı, Sumqayıt, Xırdalan şəhərlərinin ümumtəhsil və ali təhsil müəssisələrinin müəllimləri, metodistlər, AMEA-nın müvafiq sahə üzrə mütəxəssisləri iştirak ediblər. Seminarın gündəlik məsələləri DİM-in həyata keçirdiyi yeni layihələr və nəşr işləri barədə təqdimat (DİM Direktorlar Şurasının sədri M.Abbaszadənin çıxışı), seminarın iş planının müzakirəsi və təsdiqi olub.

♦ 11, 18 və 25 oktyabrda DİM-də dövlət qulluğuna qəbul olmaq istəyən şəxslərin müsabiqənin test imtahanı mərhələsinə daha da səmərəli hazırlaşmalarına kömək məqsədilə növbəti sınaq imtahanları keçirib.

♦ Oktyabrın 11-də Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov Samuxda vətəndaşları qəbul edib. Qəbulda Samux, Gəncə, Göygöl, Daşkəsən, Gədəbəy rayon sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər. Görüşdə, əsasən, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu, 2020-ci ildə tətbiqi nəzərdə tutulan ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsi (buraxılış) imtahanlarının və ali təhsil müəssisələrinə qəbul imtahanlarının modeli, dövlət qulluğuna qəbul, namizədlərlə müsahibələrin keçirilməsi və digər məsələlərlə əlaqədar vətəndaşlar tərəfindən müraciətlər edilib. Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

♦ Oktyabrın 11-də coğrafiya və riyaziyyat fənləri üzrə elmi-metodiki seminarlar keçirilib. Seminarda Bakı, Sumqayıt şəhərlərinin, Abşeron rayonunun ümumtəhsil və ali təhsil müəssisələrinin müəllimləri, metodistlər, AMEA-nın müvafiq sahə üzrə mütəxəssisləri iştirak edib.

♦ Oktyabrın 12-də Dövlət İmtahan Mərkəzində TOEFL imtahanı keçirilib. İmtahan DİM-in inzibati binasında təlimata uyğun təşkil olunub. İmtahanda 10 nəfər iştirak edib və imtahanın gedişi zamanı iştirakçılara bilik və bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

♦ Oktyabrın 12-də Dövlət İmtahan Mərkəzi Ədliyyə Nazirliyi ilə birlikdə Ədliyyə orqanlarında işləmək istəyən namizədlər üçün test imtahanı keçirib. İmtahan kompüter vasitəsilə təlimata uyğun olaraq 3 saat müddətində aparılıb və namizədlərə biliklərini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb. Namizəd tərəfindən imtahan yekunlaşdırıldıqda və ya imtahan üçün ayrılan vaxt başa çatdıqda namizədə imtahanın nəticələrinə dair arayış təqdim olunub. İmtahanda iştirak üçün namizədliyi qeydə alınmış 180 nəfərdən 53 nəfəri imtahana gəlməyib. 55 və daha çox bal toplamış 58 namizəd müsabiqənin ikinci mərhələsinə – müsahibəyə buraxılıb.

♦ Oktyabrın 14-də Dövlət İmtahan Mərkəzində ingilis dili və Azərbaycan dili fənni üzrə elmi-metodiki seminarlar keçirilib. Seminar iştirakçıları gündəlik məsələ barədə fikir və təkliflərini bildiriblər.

♦ Oktyabrın 15-də Dövlət İmtahan Mərkəzində kimya fənni üzrə elmi-metodiki seminar keçirilib.

♦ Oktyabrın 16-da Dövlət İmtahan Mərkəzində buraxılış və qəbul imtahanlarında istifadə edilən qiymətləndirmə vasitələrinin hazırlanması və yoxlanılması (marker) ilə bağlı hazırlıq kursları fəaliyyətə başlayıb. Kursda elektron qeydiyyatdan keçmiş müəllimlər, metodistlər, ali təhsil müəssisələrinin pedaqoji yönlü fakültələrinin sonuncu kurs tələbələri və magistrlər iştirak ediblər.

♦ Oktyabrın 16-da rus dili (rus bölməsi) fənni üzrə elmi-metodiki seminar və rus dili (xarici dil kimi) fənni üzrə elmi-metodiki seminar keçirilib.

♦ Okkyabrın 16-da Dövlət İmtahan Mərkəzində 16 oktyabr 2019-cu il tarixdə fizika fənni üzrə elmi-metodiki seminar keçirilib. Gündəlik məsələ 2020-ci ildə ali təhsil müəssisələrinə və hərbi liseylərə keçiriləcək qəbul imtahanları üçün proqramların müzakirəsi olub.

♦ Oktyabrın 17-dən 2020-ci il yanvarın 14-dək yeni təhsil proqramları (kurikulumlar) əsasında qiymətləndirmə vasitələrinin işlənməsi və onların meyarlar əsasında yoxlanılmasına dair hazırlıq kurslarında iştirak etmək istəyənlər üçün qeydiyyat aparılıb.

♦ Oktyabrın 17-də Dövlət İmtahan Mərkəzində biologiya fənni üzrə elmi-metodiki seminar və Biologiya fənni üzrə hazırlıq kursu keçirilib.

♦ Oktyabrın 17-də tarix fənni üzrə elmi-metodiki seminar və hazırlıq kursu keçirilib.

♦ 16-17 oktyabrda DİM-in Strateji inkişaf şöbəsinin müdiri Vəli Hüseyn Böyük Britaniyanın təhsil, elm və mədəniyyət sahəsində əməkdaşlığın inkişafı ilə məşğul olan British Council təşkilatının regional konfransında iştirak edib. Konfransın əsas məqsədi ali təhsildə ingilis dilinin rolu, tədrisdə keyfiyyət, məzunların təlim nəticələrinin əmək bazarına uyğunlaşdırılması mövzusunda müzakirələrin aparılması olub.

♦ Oktyabrın 17-də ali təhsilin magistratura və bakalavriat səviyyələrinin xüsusi qabiliyyət tələb edən ixtisaslaşma və ixtisasları üzrə keçirilmiş qabiliyyət imtahanlarının yekunlarına, həmçinin növbəti tədris ilində keçiriləcək qabiliyyət imtahanlarına həsr edilmiş seminar keçirilib.

♦ Oktyabrın 18-də coğrafiya və riyaziyyat fənləri üzrə hazırlıq kursu və elmi-metodiki seminarlar keçirilib.

♦ Oktyabrın 21-də Azərbaycan dili və ədəbiyyat fənlərindən elmi metodiki seminar keçirilib. Seminarda Bakı və Sumqayıt şəhərlərinin ümumtəhsil və ali təhsil müəssisələrinin müəllimləri, metodistlər və AMEA-nın müvafiq sahə üzrə mütəxəssisləri iştirak ediblər.

♦ 21-22 oktyabr tarixlərində Göyçay, Şəki və Xaçmazda Dövlət İmtahan Mərkəzinin əməkdaşları tərəfindən "Şagird-məzun" elektron informasiya sistemi üzrə təlimatla bağlı seminar-treninqlər keçirilib.

♦ Oktyabrın 21-də Azərbaycan dili və ədəbiyyat fənlərindən elmi metodiki seminar keçirilib. Seminarda Bakı və Sumqayıt şəhərlərinin ümumtəhsil və ali təhsil müəssisələrinin müəllimləri, metodistlər və AMEA-nın müvafiq sahə üzrə mütəxəssisləri iştirak ediblər.

♦ Oktyabrın 22-də Şəki şəhərində Dövlət İmtahan Mərkəzinin əməkdaşları tərəfindən "Şagird-məzun" elektron informasiya sistemi üzrə təlimatla bağlı seminar-treninqlər keçirilib. Treninqdə Dövlət İmtahan Mərkəzinin Şəki RB-si üzrə Şəki,Balakən, Zaqatala, Qax, Oğuz və Qəbələ rayonlarının təhsil şöbələrinin məsul şəxsləri, həmçinin, həmin rayonların ümumtəhsil müəssisələrinin əlaqələndiriciləri iştirak ediblər.

♦ Oktyabrın 22-də DİM-in Xaçmaz regional bölməsində DİM əməkdaşları tərəfindən "Şagird-məzun" elektron informasiya sistemi üzrə təlimatla bağlı seminar-treninq keçirilib. Treninqdə Dövlət İmtahan Mərkəzinin Xaçmaz RB-si üzrə Xaçmaz, Quba, Qusar, Şabran və Siyəzən rayonlarının təhsil şöbələrinin məsul şəxsləri, bir sıra ümumtəhsil müəssisələrinin, həmçinin regionda fəaliyyət göstərən peşə liseyləri və internat məktəblərinin əlaqələndiriciləri iştirak ediblər.

♦ Oktyabrın 23-də Dövlət İmtahan Mərkəzinin Lənkəran Regional Bölməsində DİM əməkdaşları tərəfindən "Şagird-məzun" elektron informasiya sistemi üzrə təlimatla bağlı seminar-treninq keçirilib. Treninqdə Dövlət İmtahan Mərkəzinin Lənkəran RB-si üzrə Lənkəran, Astara, Masallı, Cəlilabad, Lerik, Yardımlı və Biləsuvar rayonlarının təhsil şöbələrinin məsul şəxsləri, bir sıra ümumtəhsil müəssisələrinin, həmçinin regionda fəaliyyət göstərən peşə liseyləri və internat məktəblərinin əlaqələndiriciləri iştirak ediblər.

♦ Oktyabrın 23-də Dövlət İmtahan Mərkəzində fizika fənnindən elmi-metodiki seminar keçirilib.

♦ Oktyabrın 23-də Dövlət İmtahan Mərkəzinin Bərdə Regional Bölməsində DİM əməkdaşları tərəfindən "Şagird-məzun" elektron informasiya sistemi üzrə təlimatla bağlı seminar-treninq keçirilib. Treninqdə Dövlət İmtahan Mərkəzinin Bərdə RB-si üzrə Ağcabədi, Ağdam, Bərdə, Beyləqan, Füzuli, Tərtər, Laçın, Xocavənd və Yevlax rayonlarının təhsil şöbələrinin məsul şəxsləri, bir sıra ümumtəhsil müəssisələrinin, həmçinin regionda fəaliyyət göstərən peşə liseyləri və internat məktəblərinin əlaqələndiriciləri iştirak ediblər.

♦ Oktyabrın 23-də Dövlət İmtahan Mərkəzində 2019/2020-ci tədris ili üçün ali təhsilin bakalavriat səviyyəsinin xüsusi qabiliyyət tələb edən "Dizayn (sahələr üzrə)" ixtisası üzrə qabiliyyət imtahanlarının yekunlarına, həmçinin növbəti tədris ilində keçiriləcək qabiliyyət imtahanlarına hazırlıq işləri çərçivəsində seminar keçirilib.

♦ Oktyabrın 24-də Bakı şəhərində 2019/2020-ci tədris ilində ümumtəhsil müəssisələrinin şagirdləri haqqında məlumatların "Şagird-məzun" dövlət elektron məlumat sisteminə daxil edilməsi və yekun qiymətləndirmənin aparılması ilə əlaqədar yerinə yetiriləcək işlərlə bağlı seminar keçirilib.

♦ Oktyabrın 24-də tarix fənni üzrə elmi metodiki seminar keçirilib.

♦ Oktyabrın 24-də Şirvan şəhərində Dövlət İmtahan Mərkəzinin əməkdaşları tərəfindən "Şagird-məzun" dövlət elektron məlumat sistemi üzrə təlimatla bağlı seminar-treninqlər keçirilib.

♦ Oktyabrın 24-də 17 sentyabr 2019-cu il tarixində elan edilmiş ümumi müsahibələrin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 7 dövlət orqanında mövcud olan 84 vakant vəzifə üzrə 93 yer ümumi müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə 158 müsahibənin keçirilməsi planlaşdırılıb.

♦ Oktyabrın 24-də Dövlət İmtahan Mərkəzinin Gəncə Regional Bölməsində Dövlət İmtahan Mərkəzinin əməkdaşları tərəfindən "Şagird-məzun" dövlət elektron məlumat sistemi üzrə təlimatla bağlı seminar-treninq keçirilib.

♦ Oktyabrın 24-də Bərdə regional bölməsində Azərbaycan dili, fizika, biologiya, coğrafiya, kimya və tarix fənlərindən qiymətləndirmə tapşırıqlarının hazırlanması və onların meyarlar əsasında markerlər tərəfindən yoxlanılmasına dair hazırlıq kursları keçirilib.

♦ Oktyabrın 24-dən noyabrın 22-dək dövlət qulluğunda inzibati vəzifələrin A növünə (inzibati rəhbər (idarəetmə) vəzifələr) aid olan AA, AB və AC qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün keçiriləcək test imtahanına qeydiyyat aparılıb.

♦ Oktyabrın 24-də 2020/2021-ci tədris ili üçün ali təhsilin bakalavriat səviyyəsinin xüsusi qabiliyyət tələb edən populyar musiqi və caz ifaçılığı (estrada sənəti), vokal sənəti (xanəndəlik), vokal sənəti (milli vokal) ixtisasları üzrə keçiriləcək qabiliyyət imtahanlarına hazırlıq işləri çərçivəsində seminar keçirilib.

♦ Oktyabrın 25-də DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə Ağcabədi rayonunda vətəndaşları qəbul edib. Qəbulda Ağcabədi ilə yanaşı Yevlax, Bərdə, Ağdam, Tərtər, Beyləqan və Füzuli rayonlarının sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər. Görüşdə, əsasən, ali təhsil müəssisələrinin və AMEA-nın magistraturalarına qəbul, ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsi imtahanlarının və ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanlarının qaydaları, əvvəlki illərin məzunlarının kolleclərə qəbulu, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, namizədlərlə müsahibələrin keçirilməsi və s. məsələlərlə əlaqədar DİM Direktorlar Şurasının sədrinə müraciətlər edilib. Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

♦ Oktyabrın 25-də bakı şəhərində, eləcə də DİM-in Şəmkir Regional Bölməsində Dövlət İmtahan Mərkəzinin əməkdaşları tərəfindən "Şagird-məzun"dövlət elektron məlumat sistemi üzrə təlimatla bağlı seminar-treninq keçirilib.

♦ 21-25 oktyabrda ingilis dili, Azərbaycan dili, kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə hazırlıq kurslarının növbəti dərsi keçirilib.

♦ 21-25 oktyabrda ingilis dili, fransız dili, alman dili, Azərbaycan dili (dövlət dili kimi), kimya, rus dili, ərəb dili, fars dili, biologiya, coğrafiya və riyaziyyat fənləri üzrə növbəti elmi-metodiki seminarlar keçirilib.

♦ Oktyabrın 25-də Dövlət İmtahan Mərkəzi qəbul qaydaları ilə bağlı Ağcabədi şəhərində seminarlar keçirib. Seminarlarda Yevlax, Bərdə, Tərtər, Ağdam, Ağcabədi, Laçın, Beyləqan, Fizuli və Xocavənd rayonlarının müvafiq fənn müəllimləri, metodistlər, məktəb direktorları, təhsil şöbələrinin nümayəndələri iştirak ediblər. Təqdimatlar ətrafında müzakirələr aparılıb. Seminarlarda müzakirə edilmiş məsələlər haqqında iştirakçıları maraqlandıran suallar cavablandırılıb. Seminarlarda DİM-in otk.az saytında yerləşdirilmiş dərsliklərin tədris vahidləri və mövzuları üzrə sınaqlarda iştirak etmək üçün hədiyyə kuponları paylanıb.

♦ Oktyabrın 26-da Dövlət İmtahan Mərkəzi vergi orqanlarına işə qəbul olmaq istəyən namizədlər üçün test imtahanı keçirib. İmtahan bütün binalarda saat 11:00-da başlanıb və 3 saat ərzində aparılıb. İmtahanda iştirak etmək üçün 1369 namizəd qeydiyyatdan keçib. Onlardan 91 namizəd imtahana gəlməyib. 2 nəfər imtahandan xaric edilib. 96 namizəd müsabiqə şərtini ödəyərək - 70 və daha yüksək bal toplayaraq ikinci mərhələyə - müsahibəyə buraxılıb.

♦ Oktyabrın 27-də Dövlət İmtahan Mərkəzi tərəfindən dövlət qulluğunda inzibati vəzifələrin B növünə (inzibati icraçı vəzifələr) aid olan BA və BB qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş 1850 namizəddən 20 nəfər imtahana gəlməyib. Ümumilikdə, 452 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ 28 oktyabr -1 noyabr tarixlərində Azərbaycan dili, Azərbaycan dili (dövlət dili kimi), rus dili, xarici dillər (ingilis, fransız, alman, ərəb, fars) biologiya, kimya, fizika, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə növbəti elmi-metodiki seminarlar keçirilib.

♦ 28 oktyabr-1 noyabr 2019-cu il tarixlərində ingilis dili, Azərbaycan dili, kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə hazırlıq kurslarının növbəti məşğələsi keçirilib.

♦ Oktyabrın 29-da 17 sentyabr 2019-cu il tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsinin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 19 dövlət orqanında mövcud olan inzibati dövlət qulluğu vəzifələrinə aid 344 (A növündə 80 vakant vəzifə üzrə 80 yer, B növündə 264 vakant vəzifə üzrə 495 yer) vakant vəzifə müsahibəyə çıxarılıb. Elana çıxarılan vəzifələr üzrə qeydiyyatdan keçmiş 1012 namizədlə 3689 müsahibənin keçirilməsi planlaşdırılıb.

♦ Oktyabrın 29-da DİM-in Naxçıvan MR Regional Bölməsinin əməkdaşları tərəfindən "Şagird-məzun" dövlət elektron məlumat sistemi üzrə təlimatla bağlı seminar-treninq keçirilib.

♦ Oktyabrın 29-dan zal nəzarətçisi sertifikatı əldə etmək istəyən namizədlərlə müsahibə mərhələsinə başlanılıb. Müsahibə zamanı namizədlərin psixoloji və fiziki cəhətdən sağlamlığı, ümumi dünyagörüşü, nitqi, stress vəziyyətində işləmək bacarığı yoxlanılıb.

♦ Oktyabrın 29-da "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda növbəti təlim təşkil edilib.

♦ Oktyabrın 31-də Dövlət İmtahan Mərkəzi Vəkillər Kollegiyası ilə birgə Vəkillər Kollegiyasına üzv olmaq istəyən namizədlər üçün test imtahanı keçirib. İmtahan saat 10.00-da başlayıb və 3 saat davam edib. İmtahan kompüter vasitəsilə elektron qaydada aparılıb. Namizədlər imtahanı bitirdikdən dərhal sonra onlara nəticələri haqqında arayış təqdim olunub.İmtahanda iştirak etmək üçün 245 namizəd qeydiyyatdan keçib. 9 namizəd imtahana gəlməyib. İmtahanda iştirak edən 236 namizəddən 144 nəfər müsabiqə şərtini ödəyərək – 60 və daha yüksək bal toplayaraq ikinci mərhələyə – müsahibəyə buraxılıb.

♦ 1 və 8 noyabr tarixlərində DİM-də dövlət qulluğuna qəbul olmaq istəyən şəxslərin müsabiqənin test imtahanı mərhələsinə daha da səmərəli hazırlaşmalarına kömək məqsədilə növbəti sınaq imtahanları keçirib.

♦ 4 - 8 noyabr tarixlərində ingilis dili, Azərbaycan dili, kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə hazırlıq kurslarının növbəti məşğələsi keçirilib.

♦ 4 - 8 noyabr tarixlərində Azərbaycan dili, Azərbaycan dili (dövlət dili kimi), rus dili, xarici dillər (ingilis, fransız, alman, ərəb, fars) biologiya, kimya, fizika, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə növbəti elmi-metodiki seminarlar keçirilib.

♦ Noyabrın 5-də 12 dövlət orqanında inzibati vəzifələrin 4-7-ci təsnifatına uyğun olan vəzifələrin A və B növü üzrə ümumi müsahibə elanı verilib.

♦ Noyabrın 5-də mərkəzi icra hakimiyyəti və məhkəmə hakimiyyəti orqanları olmaqla inzibati dövlət qulluğu vəzifələrinin 4-7-ci təsnifatı üzrə B növünə aid olan ümumilikdə 29 dövlət orqanında 135 vakant vəzifənin tutulması üçün müsabiqənin müsahibə mərhələsi elan edilib.

♦ 5, 7 və 8 noyabr tarixlərində müvafiq olaraq Sumqayıt, Abşeron və Bakı şəhərlərində yerləşən ümumtəhsil məktəblərinin "Şagird-məzun" sistemi üzrə əlaqələndiriciləri üçün 2019/2020-ci tədris ilində buraxılış sinfi məzunlarının yekun qiymətləndirilməsi və şagirdlər haqqında məlumatların "Şagird-məzun" dövlət elektron məlumat sisteminə daxil edilməsi ilə əlaqədar yerinə yetiriləcək işlərlə bağlı seminarlar keçirilib.

♦ Noyabrın əvvəllərində Dövlət İmtahan Mərkəzi Dilin Qiymətləndirilməsi üzrə Avropa Assosiasiyasının (EALTA) institusional üzvlüyünə qəbul edilib.

♦ Noyabrın 8-də DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə şəhər və rayonlarda vətəndaşların mərkəzi icra hakimiyyəti orqanlarının, digər qurumların rəhbərləri tərəfindən qəbulu cədvəlinə uyğun olaraq Ağcabədi rayonunda vətəndaşları qəbul edib. Qəbulda Sabirabad ilə yanaşı Şirvan, Hacıqabul, Salyan, Saatlı, və Neftçala rayonlarının sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər. Görüşdə, əsasən, ümumi təhsil pilləsində təhsilalanların yekun qiymətləndirilməsi imtahanlarının və ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul imtahanlarının qaydaları, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, namizədlərlə müsahibələrin keçirilməsi və s. məsələlərlə əlaqədar DİM Direktorlar Şurasının sədrinə müraciətlər edilib. Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

♦ Noyabrın 8-də Dövlət İmtahan Mərkəzi qəbul qaydaları ilə bağlı Sabirabad şəhərində seminarlar keçirib. seminarlarda Şirvan şəhəri, Hacıqabul, Salyan, Neftçala, Saatlı, Sabirabad və İmişli rayonlarının müvafiq fənn müəllimləri, metodistlər, məktəb direktorları, təhsil şöbələrinin nümayəndələri iştirak ediblər.

♦ Noyabrın 8-də Dövlət İmtahan Mərkəzi Şirvan şəhərində qiymətləndirmə tapşırıqlarının hazırlanması və onların meyarlar əsasında markerlər tərəfindən yoxlanılmasına dair hazırlıq kursları təşkil edib. Hazırlıq kurslarında yalnız elektron qeydiyyatdan keçmiş, ixtisası müvafiq fənlərə uyğun müəllimlər, metodistlər iştirak ediblər.

♦ Noyabrın 8-də Dövlət İmtahan Mərkəzində tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən "Təsviri sənət" istiqamətli ixtisasları üzrə seminar keçirilib. Seminarda 2020/2021-ci tədris ili üçün tam orta (11 illik) təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən "Təsviri sənət" istiqamətli ixtisasları üzrə qabiliyyət imtahanlarının məzmunu müzakirə edilib.

♦ Noyabrın 11-dən dekabrın 12-dək inzibati dövlət qulluğu vəzifələrinin B növünə (inzibati icraçı vəzifələr) aid olan BA və BB qruplarına uyğun olan vəzifələr üzrə test imtahanına qeydiyyat elan edilib.

♦ 12 - 15 noyabr tarixlərində kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə hazırlıq kurslarının növbəti məşğələləri keçirilib.

♦ 12 - 15 noyabr tarixlərində kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə növbəti elmi-metodiki seminarlar keçirilib.

♦ 14-19 noyabr tarixlərində Dövlət İmtahan Mərkəzində 2020/2021-ci tədris ili üçün ali təhsil müəssisələrinin magistratura səviyyəsinə qəbul imtahanı ilə əlaqədar fənlər üzrə elmi-metodik seminarlar keçirilib.

♦ Noyabrın 15-də "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda təlim təşkil edilib. Təlimdə Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələri iştirak ediblər.

♦ 15 noyabr tarixində Özbəkistan Respublikasının Daşkənd şəhərində "Dövlət qulluğunda aparılan islahatlarda dövlətin kadr siyasəti: Özbəkistan təcrübəsi və xarici təcrübə" mövsuzunda beynəlxalq konfrans keçirilib. Konfransda DİM-in Dövlət qulluğu məsələləri şöbəsinin müdiri Vüqar Əsgərov iştirak edib və "Azərbaycan Respublikasında dövlət qulluğu haqqında qanunvericiliyin təkmilləşdirilməsi" movzusunda təqdimatla çıxış edib.

♦ 15-16 noyabr tarixlərində Dövlət İmtahan Mərkəzi tərəfindən Vətənpərvər Maarifçi Gənclər İctimai Birliyi ilə birlikdə Mingəçevir və Gəncə şəhərlərində gənclərlə görüş keçirilib. Görüşdə DİM-in fəaliyyət isiqmətləri barədə gənclərə məlumat verilib.

♦ Noyabrın 20-də Dövlət İmtahan Mərkəzində "Nəzarətçilərin elektron qeydiyyatı" sistemi ilə işləyəcək ümumtəhsil müəssisələri tərəfindən cavabdeh şəxs qismində təyin olunan əlaqələndiricilər üçün treninq keçirilib.

♦ 18-22 noyabr tarixlərində Azərbaycan dili, ingilis dili, kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə hazırlıq kurslarının növbəti məşğələləri keçirilib.

♦ 18-22 noyabr tarixlərində Azərbaycan dili, Azərbaycan dili (dövlət dili kimi), rus dili, xarici dillər (ingilis, fransız, alman, ərəb, fars), kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə növbəti elmi-metodiki seminarlar keçirilib.

♦ 21-22 noyabr tarixlərində DİM Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov Dövlət Qulluğu üzrə Astana Regional Xabının və Xoca Əhməd Yasəvi adına Beynəlxalq Qazax-Türk Universitetinin dəvəti əsasında Qazaxıstan Respublikasının Türküstan şəhərinə səfər edib. Səfər çərçivəsində keçirilən tədbirlərdə Bəhram Xəlilov "Dövlət qulluğunda korrupsiyanın qarşısının alınması: Azərbaycan təcrübəsi" mövzusunda təqdimatla çıxış edib.

♦ Noyabrın 22-də Dövlət İmtahan Mərkəzində 2020/2021–ci tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin doktorantura səviyyəsinə qəbul imtahanı ilə əlaqədar xarici dil fənni üzrə elmi-metodik seminar keçirilib. Seminar iclasında ölkənin doktorantura yaradılan ali təhsil müəssisələrini və Azərbaycan Milli Elmlər Akademiyasını təmsil edən mütəxəssislər iştirak ediblər. Görüş zamanı doktorantura səviyyəsinə qəbul imtahanının xarici dil mərhələsinin strukturu, xarici dillər üzrə qəbul imtahanı proqramlarının layihələri, beynəlxalq dil imtahanlarının modelləri, Dillər üzrə Ümumavropa Tövsiyə Çərçivə Sənədi, xarici dildə danışmaq səviyyəsini müəyyən edən öyrənmə, tədrisetmə və qiymətləndirmə üzrə ümumavropa sistemi və digər məsələlər müzakirə edilib.

♦ Noyabrın 23-də Dövlət İmtahan Mərkəzi ilə Hakimlərin Seçki Komitəsi tərəfindən hakim vəzifəsinə qəbul olmaq istəyən namizədlərlə test imtahanı keçirilib. İmtahan kompüterlər vasitəsilə elektron qaydada aparılıb. Namizədlər imtahanı bitirdikdən dərhal sonra onlara nəticələri haqqında arayış təqdim olunub. İmtahanda iştirak edən 229 namizəddən 108 nəfər 60 və daha yüksək bal toplamaqla müsabiqə şərtini ödəyərək növbəti mərhələyə buraxılıb.

♦ 23-24 noyabr tarixlərində Gəncə şəhərində qiymətləndirmə tapşırıqlarının hazırlanması və onların meyarlar əsasında yoxlanılmasına dair hazırlıq (marker) kursları təşkil edilib. Kurslarda ixtisası müvafiq fənlərə uyğun müəllimlər, pedaqoji yönümlü ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin müvafiq fənn üzrə təhsil alan axırıncı kurs tələbələri və həmin müəssisələrdə təhsil alan magistrlər iştirak ediblər.

♦ Noyabrın 24-də dövlət qulluğunda inzibati vəzifələrin A növünə (inzibati rəhbər vəzifələr) aid olan AA, AB və AC qruplarına uyğun olan vəzifələr üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahan kompüter vasitəsilə təlimata uyğun olaraq 3 saat müddətində aparılıb və namizədlərə biliklərini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb. Namizəd tərəfindən imtahan yekunlaşdırıldıqda və ya imtahan üçün ayrılan vaxt başa çatdıqda namizədə imtahanın nəticələrinə dair arayış təqdim olunub. İmtahanda 78 namizəd iştirak edib. Ümumilikdə 19 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ Noyabrın 25-də DİM Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov Oğuzda şəhər və rayonlarda vətəndaşların mərkəzi icra hakimiyyəti və digər qurumların rəhbər şəxsləri tərəfindən qəbulu cədvəlinə uyğun olaraq vətəndaşları qəbul edib. Görüşdə, əsasən, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, namizədlərlə müsahibələrin keçirilməsi, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu və digər məsələlərlə əlaqədar vətəndaşlar tərəfindən müraciətlər edilib. Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

♦ Noyabrın 25-də DİM-də seminar keçirilib və "Dizayn (sahələr üzrə)" ixtisası üzrə qabiliyyət imtahanının məzmunu, proqramı müzakirə edilib.

♦ Noyabrın 25-də Oğuz rayonunda "Dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi məsələləri" mövzusunda təlim keçirilib. Təlimdə Oğuz və ətraf rayonlarda yerləşən mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, yerli icra hakimiyyəti orqanları və məkhəmə orqanlarında çalışan 30-a yaxın dövlət qulluqçusu iştirak edib.

♦ Noyabrın 28-də "Dövlət qulluğu vəzifələrinin tutulması məqsədilə müsahibənin keçirilmə qaydaları" mövzusunda növbəti təlim təşkil edilib. Təlimdə Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Dövlət Statistika Komitəsinin əməkdaşları və müsahibələrə müstəqil ekspert qismində cəlb olunacaq nümayəndələr iştirak ediblər.

♦ 25 - 29 noyabr tarixlərində Azərbaycan dili, ingilis dili, kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə hazırlıq kurslarının növbəti məşğələləri keçirilib.

♦ 29-30 noyabr tarixlərində Dövlət İmtahan Mərkəzi tərəfindən Vətənpərvər Maarifçi Gənclər İctimai Birliyi ilə birlikdə Lənkəran və Şamaxı şəhərlərində gənclərlə görüş keçirilib.

♦ Dekabrın 2-də DİM Direktorlar Şurasının sədri Məleykə Abbaszadə ilə Özbəkistanın Azərbaycandakı səfiri Şerzod Fayziyevin başçılıq etdiyi nümayəndə heyəti arasında görüş keçirilib. Görüşdə Özbəkistanın Dövlət Test Mərkəzinin nümayəndələri də iştirak ediblər. Müzakirələrdə qarşılıqlı əməkdaşlıq imkanlarından bəhs edilib.

♦ Dekabrın 3-də rezidenturaya hazırlaşanlara kömək məqsədilə baza fənləri üzrə "Биологическая химия", "Патологическая физиология" və "Гистология (цитология, эмбриология, общая и частная гистология)" adlı elmi-metodik vəsaitlər nəşr edilib.

♦ Dekabrın 3-də 5 noyabr 2019-cu il tarixində elan edilmiş ümumi müsahibələrin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 13 dövlət orqanında mövcud olan 61 vakant vəzifə üzrə 65 yer ümumi müsahibəyə çıxarılıb.

♦ Dekabrın 4-də 2020/2021-ci tədris ili üçün xüsusi qabiliyyət tələb edən "Bədən tərbiyəsi və idman" istiqaməti üzrə elmi-metodiki seminar keçirilib. Seminarda ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin məşqçilik ixtisasına qəbul üçün müsabiqə şərtlərinə və qabiliyyət imtahanlarının texnoloji təminatına dair müzakirələr aparılıb.

♦ Dekabrın 5-də "Dövlət idarəçiliyində səriştə modeli: Çətinliklər və həll yolları" mövzusunda seminar keçirilib. Seminarın məqsədi geniş istifadə olunan səriştə modeli vasitəsilə dövlət idarəçiliyində dövlət qulluqçularının seçilməsi, vəzifə yüksəlişində səriştələrin ölçülməsi və xidməti fəaliyyətin hərtərəfli qiymətləndirilməsi və digər məsələləri müzakirə etmək olub.

♦ Dekabrın 6-da DİM Direktorlar Şurasının sədr müavini Bəhram Xəlilov Zərdabda şəhər və rayonlarda vətəndaşların mərkəzi icra hakimiyyəti və digər qurumların rəhbər şəxsləri tərəfindən qəbulu cədvəlinə uyğun olaraq vətəndaşları qəbul edib. Zərdab rayonunda keçirilən qəbulda Zərdab, Füzuli və Beyləqan rayon sakinləri və bu rayonlarda məskunlaşmış qaçqın və məcburi köçkünlər iştirak ediblər. Görüşdə, əsasən, dövlət qulluğuna qəbul, vakant dövlət qulluğu vəzifələri, namizədlərlə müsahibələrin keçirilməsi, ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu və digər məsələlərlə əlaqədar vətəndaşlar tərəfindən müraciətlər edilib. Vətəndaşlara müraciətləri ilə bağlı ətraflı izahat verilib, DİM-in səlahiyyətlərinə aid olan bir çox məsələlər yerindəcə həll edilib. Digər müraciətlərin araşdırılması və baxılması üçün qeydiyyatı aparılıb.

♦ 2-6 dekabr tarixlərində Azərbaycan dili, ingilis dili, kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə hazırlıq kurslarının növbəti məşğələləri keçirilib.

♦ 2-6 dekabr tarixlərində Azərbaycan dili, ingilis dili, rus dili, kimya, fizika, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə növbəti elmi-metodiki seminarlar keçirilib.

♦ 3-4 dekabr tarixlərində Avropa İttifaqının Şərq Tərəfdaşlığı ölkələri üçün İsveçin Stokholm şəhərində "Hökumət və dövlət idarəçiliyində islahatlar" mövzusunda 17-ci panel görüşü keçirilib. DİM-in əməkdaşı Elmir Şirinov görüşdə iştirak edib. Keçirilən görüşdə "Şərq Tərəfdaşlığı: 2020-ci il üçün 20 hədəf" çərçivəsində "Dövlət idarəçiliyində islahatlara dəstək" üzrə 11-ci hədəfin həyata keçirilməsi, Şərq Tərəfdaşlığının gələcəyi üzrə məsləhətləşmələr və bir sıra digər mövzularda çıxışlar olub. Tədbirdə, həmçinin "Qərarvermə prosesinin formaları", "Fakta əsaslanan siyasətin aparılması, monitorinq və dəyərləndirmədə statistikanın rolu", "Fakta əsaslanan siyasətin aparılması, monitorinq və dəyərləndirmədə datanın (verilənlərin) rolu" və "Siyasətin aparılmasında ictimai iştirakçılıq" mövzularında müzakirələr aparılıb.

♦ 5-6 dekabr tarixlərində Avropa İttifaqı Şərq Tərəfdaşlığı (ŞT) proqramının "Demokratiya, Yaxşı İdarəçilik və Sabitlik" adlı I Platforması çərçivəsində İdarəçilik və dövlət idarəçiliyi islahatları Panelinin birinci sahəsi üzrə (dövlət qulluğu, dövlət idarəçiliyi institutları və onların fəaliyyəti, insan resurslarının idarə edilməsi, dövlət qulluğuna qəbul qaydaları, qanunvericilik) Azərbaycan Respublikasında əlaqələndirici qurum olan Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən "Dövlət idarəçiliyində səriştə modeli: Çətinliklər və həll yolları" mövzusunda konfrans keçirilib. Konfransın məqsədi geniş istifadə olunan səriştə modeli vasitəsilə dövlət idarəçiliyində dövlət qulluqçularının seçilməsi, vəzifə yüksəlişində səriştələrin ölçülməsi və xidməti fəaliyyətin hərtərəfli qiymətləndirilməsini dəstəkləmək olub.

♦ Dekabrın 6-da Dövlət İmtahan Mərkəzi tərəfindən "Dövlət qulluğuna dair qanunvericiliyin tətbiqi məsələləri" mövzusunda növbəti təlim keçirilib. Təlimdə Zərdab və ətraf rayonlarda yerləşən mərkəzi icra hakimiyyəti orqanlarının yerli bölmələri, yerli icra hakimiyyəti orqanları və məhkəmə orqanlarında çalışan 24 dövlət qulluqçusu iştirak edib.

♦ Dekabrın 6-da DİM-də 2020/2021-ci tədris ili üçün xüsusi qabiliyyət tələb edən "Təsviri sənət" istiqaməti üzrə elmi-metodiki seminar keçirilib. Seminarda 2020/2021-ci tədris ili üçün ali təhsil müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üçün keçiriləcək rəsm və kompozisiya imtahanlarında istifadə ediləcək tapşırıqlar müzakirə edilib.

♦ Dekabrın 7-də Dövlət İmtahan Mərkəzində növbəti SAT imtahanları keçirilib. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçənlərin hamısı – 35 nəfər iştirak edib. İmtahanların gedişi zamanı iştirakçılara bilik və bacarıqlarını nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb.

♦ Dekabrın 10-da Azərbaycan Turizm Bürosunun tabeliyində fəaliyyət göstərən Azərbaycan Konqreslər Bürosu tərəfindən 2019-cu il ərzində Azərbaycana işgüzar tədbirləri cəlb edən yerli qurumların və təşkilatların mükafatlandırma mərasimi keçirilib. Dİm xüsusi mükafata layiq görülüb.

♦ Dekabrın 11-də Dövlət İmtahan Mərkəzi tərəfindən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi" mövzusunda təlim keçirilib.

♦ Dekabrın 12-də Dövlət İmtahan Mərkəzində ulu öndər, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəfatının 16-cı ildönümü ilə bağlı anım mərasimi keçirilib.

♦ Dekabrın 12-də tarix və biologiya fənləri üzrə növbəti elmi-metodiki seminarlar keçirilib.

♦ Dekabrın 13-də Rezidenturaya qəbul imtahanlarına hazırlaşanlara kömək məqsədi ilə yeni vəsait – "Нормальная физиология" nəşr edilib.

♦ 9-13 dekabr 2019-cu il tarixlərində Azərbaycan dili, ingilis dili, rus dili, coğrafiya və riyaziyyat fənləri üzrə hazırlıq kurslarının növbəti məşğələləri keçirilib.

♦ 9-13 dekabr 2019-cu il tarixlərində Azərbaycan dili, ingilis dili, rus dili, kimya, fizika, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə növbəti elmi-metodiki seminarlar keçirilib.

♦ Dekabrın 13-də DİM-də xüsusi qabiliyyət tələb edən Musiqi sənəti istiqaməti üzrə elmi-metodiki seminar keçirilib. Seminar bu istiqamət üzrə orta ixtisas təhsili müəssisələrinin xüsusi qabiliyyət tələb edən ixtisasları üçün keçirilmiş qəbul imtahanlarının təhlilinə və 2020/2021-ci tədris ili üçün keçiriləcək musiqi nəzəriyyəsi və solfecio imtahanının məzmununun müzakirəsinə həsr edilib.

♦ Dekabrın 13-də Dövlət Statistika Komitəsinin əməkdaşlarına "Dövlət qulluğunda etik qaydaların praktiki tətbiqi məsələləri" mövzusunda təlim keçirilib. Təlimdə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin mərkəzi aparatında və Bakı Şəhər Statistika İdarəsində çalışan 30-a yaxın əməkdaş iştirak edib.

♦ Dekabrın 14-də Dövlət İmtahan Mərkəzində hakimliyə namizədlərlə yazılı imtahan keçirilib. İmtahan 4 saat davam edib.

♦ Dekabrın 16-da 5 noyabr 2019-cu il tarixində elan edilmiş müsabiqənin müsahibə mərhələsinin keçirilmə qrafiki müəyyən edilib. Elan üzrə 30 dövlət orqanında mövcud olan inzibati dövlət qulluğu vəzifələrinə aid 91 (B növündə 91 vakant vəzifə üzrə 136 yer) vakant vəzifə müsahibəyə çıxarılıb.

♦ Dekabrın 17-də Dövlət Turizm Agentliyində "Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi" mövzusunda təlim keçirilib.

♦ Dekabrın 16-da Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədri Məleykə Abbaszadə "Study UK Alumni Awards 2019"un qaliblərinin mükafatlandırılması mərasimində iştirak edib. Britaniya Şurası (British Council) və Böyük Britaniyanın Azərbaycandakı səfirliyi "Study UK Alumni Awards 2019"un qaliblərinin adlarını açıqlayıb. Bu nüfuzlu beynəlxalq mükafat Britaniyanın ali təhsil imkanlarını və ölkənin bütün dünyadakı məzunlarının nailiyyətlərini qeyd etmək üçün nəzərdə tutulub.

♦ Dekabrın 16-da Azərbaycan dili, rus dili, riyaziyyat, fizika, kimya, biologiya, coğrafiya, ingilis dili və tarix fənləri üzrə oktyabrın 16-dan fəaliyyət göstərən hazırlıq kursları işini başa çatdırıb.

♦ 16 - 20 dekabr tarixlərində Azərbaycan dili, ingilis dili, rus dili, kimya, fizika, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə növbəti elmi-metodiki seminarlar keçirilib.

♦ Dekabrın 19-da Qida Təhlükəsizliyi Agentliyinin və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşlarına "Dövlət qulluğunda etik qaydaların praktiki tətbiqi məsələləri" mövzusunda təlim keçirilib. Təlimdə qurumların 90-a yaxın əməkdaşı iştirak edib.

♦ Dekabrın 21-də Dövlət Miqrasiya Xidməti ilə birlikdə Azərbaycan Respublikasının miqrasiya orqanlarına qulluğa qəbul olmaq istəyən namizədlər üçün test imtahanı keçirilib. İmtahan kompüter vasitəsilə təlimata uyğun olaraq 3 saat müddətində aparılıb və namizədlərə biliklərini nümayiş etdirmələri üçün zəruri şərait yaradılıb. Namizəd tərəfindən imtahan yekunlaşdırıldıqda və ya imtahan üçün ayrılan vaxt başa çatdıqda namizədə imtahanın nəticələrinə dair arayış təqdim olunub. İmtahanda 243 namizəd iştirak edib. Test imtahanının nəticələrinə əsasən, 165 nəfər müsabiqə şərtini ödəyərək (70 və daha artıq bal toplayaraq) növbəti mərhələdə iştirak etmək hüququ qazanıb.

♦ Dekabrın 22-də inzibati vəzifələrin B növünə aid olan vəzifə qrupları üzrə dövlət qulluğuna qəbul üçün test imtahanı keçirilib. İmtahanların idarə olunmasına 6 ümumi imtahan rəhbəri, 20 imtahan rəhbəri, 212 nəzarətçi‑müəllim, 24 buraxılış rejimi əməkdaşı, 6 bina nümayəndəsi ayrılıb. İmtahanda iştirak etmək üçün qeydiyyatdan keçmiş 2267 namizəddən 18 nəfər imtahana gəlməyib. Ümumilikdə 838 namizəd tələb olunan müsabiqə şərtlərini ödəyərək uğur qazanıb.

♦ Dekabrın 24-də Dövlət İmtahan Mərkəzində rezidenturaya qəbul qaydalarında edilmiş dəyişikliklərlə bağlı mətbuat konfransı keçirilib. Mətbuat konfransında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 8 fevral tarixli 41 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında rezidenturaya qəbul Qaydaları"nda Dövlət İmtahan Mərkəzinin təklifinə əsasən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 dekabr 2019-cu il tarixli 488 nömrəli Qərarı ilə edilmiş dəyişikliklər barədə məlumat verilib.

♦ 24 - 30 dekabr 2019-cu il tarixlərində Azərbaycan dili (ədəbiyyat), kimya, fizika, rus dili, biologiya, tarix, coğrafiya və riyaziyyat fənləri üzrə növbəti elmi-metodiki seminarlar keçirilib

♦ Dekabrın 24-dən 2020-ci il yanvarın 24-dək dövlət qulluğunda inzibati vəzifələrin A növünə (inzibati rəhbər (idarəetmə) vəzifələr) aid olan AA, AB və AC qruplarına uyğun olan vəzifələr üzrə keçiriləcək test imtahanına qeydiyyat elan edilib.

♦ Dekabrın 26-da DİM tərəfindən keçirilən imtahanlara zal nəzarətçisi qismində cəlb olunması nəzərdə tutulan müəllimlərin elektron qeydiyyatı başa çatıb. Hazırda "Nəzarətçilərin elektron qeydiyyatı" sistemində 15005 nəzarətçi-müəllim haqqında məlumat var. Nəzarətçi-müəllimlərdən 1116 nəfərinin məlumatları bazaya yeni daxil edilib.

♦ Dekabrın 29-da Dövlət İmtahan Mərkəzində DİM-in fəaliyyəti ilə əlaqədar ilin yekunlarına dair tədbir keçirilib.

SUMMARY

(12th Issue of "Abiturient" Journal)

The State Examination Centre of the Republic of Azerbaijan (hereafter - SEC or Centre) presents a summarized annual report for the academic year 2019-2020. The summary consists of the information on the administration of all examinations conducted by the SEC, overview of the instructions provided for the applicants and content/item experts, set of procedures applied in the admission process - entrance requirements, detailed descriptions of the admission programmes for undergraduate (including specialities requiring aptitude), graduate and residency levels. Separate paragraphs highlight school-leaving examinations, consecutive regional meetings with the public held within the country, development of new test items and their evaluation criteria and international partnerships maintained by the SEC.

Testing and Admissions
Undergraduate Education
(including specialities requiring aptitude exam)

From the beginning of each year up to the end of admission campaign, the SEC publishes a set of consecutive issues of "Abiturient" journal which provide the public with:

1. a detailed description of admission programmes[1] for admission to undergraduate level programmes of the higher education institutions of the Republic of Azerbaijan including programmes for admission to selective state-led schools[2];
2. calls for applications, instructions on online registration for examinations and admission separately;
3. the list of undergraduate degree programmes in public and private higher schools functioning in the country[3];
4. procedures and requirements of the standardized examinations and unified admissions including:
   samples of test items (multiple-choice, open-ended, situational judgement tests) of all levels of difficulty, used at the admission examinations;
5. a list of responses to frequently asked questions about application, admission and examinations, including:
   - correct answers, scoring tables and reports on all applicants' scores;
   - reports on cut scores and the names of all the admitted applicants for the current academic year;
6. advice for applicants, consultative articles on career planning, including:
   - a platform for high scorers to share their experiences and success stories.

As usual, registration for the exam as well as admission to higher education institutions and specialized secondary education institutions was carried out online, which simplified not only application procedure, but also prevented the applicants from making common mistakes. In practice, to make online registration system more effective, the SEC joined the state "Entry-Exit and Registration" interagency automated data-search system run by most state institutions. Thus, now the applicants can easily fulfil their "Online Application" in their personal account page in the Internet subject to the identification requirements specified by the state identification detector and submit it within the time frame set by the SEC.

The overall content of the application was published and presented to the public in the second issue of "Abiturient" journal in 2019.

To support the applicants favouring specialities requiring special aptitude, the SEC issued such publications as "Fine Arts", "Music Art", "Architecture and Design", "Theatre, Cinema and Choreography", "Physical Education and Sport", which contain scientific-methodical assistance[4]. These applicants can find a set of characteristics of aptitudes, requirements for every speciality, admission programmes for aptitude

[1] Admission programmes for undergraduate education are based on the core curricula of subjects being assessed.

[2] The state-led schools are the state financed Academies of Security, Defence and other academic institutions of the Republic of Azerbaijan.

[3] The list of specialities for admission, the number of enrolment openings and the names of education institutions taking part in the fulfilment of the state order are annually presented as a prognosis.

[4] A set of methodical procedures which are based on the data analysis produced every year.

examinations, assessment standards for the members of boards of examiners as well as the guidance for behaviours of applicants and examiners during these exams. Additionally, samples of required tasks, visual reproductions, pictures, tables, norms, etc. are published in the journal for better guidance for this segment of applicants.

The applicants choosing specialities requiring creative abilities were assessed by the Commissions for Aptitude Examinations not only in the capital city of Baku, but also in regions. Those, who passed aptitude exams successfully, gained the right to choose specialities requiring creative abilities.

Specialities meant for admission and the number of the enrolment openings were presented in the fourth issue of "Abiturient" journal. Speciality selection round was held from July 30 to August 13 via Internet.

The results of the competition and placement in higher education institutions were announced to the public through the "Abituriyent" journal, as well as the relevant services of the Internet and mobile operators – "Azercell", "Bakcell" and "Nar Mobile". Along with the list of admitted students, the minimum passing scores for each specialty (both paid and state-funded quotas) were provided in the "Abituriyent" journal.

Scientific-methodical Assistance (for applicants and content/item experts)

To support the applicants to prepare independently for the admission examinations, the SEC carries out series of instructional activities throughout the year. As a result of regularly held professional development seminars, which were conducted at the SEC, scientifically grounded methodological instructions and feedback of councils of experts, a wide range of scientific and instructional materials are developed and presented for the use of applicants online, such as: a) admission programmes of all subjects; b) instructions on how to prepare for the admission exam; c) notes on inaccurate textbook content and themes insufficiently covered in the school textbooks; d) content experts' remarks on different themes covered in the admission programmes and other instructional materials. In addition, a number of test samples and updated versions of testbooks on all examination subjects were published. For example, within the project "Video Lecture", lectures covering themes of admission programmes, new models of test items and recommendations of experienced experts on different subjects were placed on the SEC's Youtube channel. Furthermore, after the exams, challenging test items were explained and common mistakes made by applicants were analyzed and presented to the public on live TV programs.

Regional branches of the SEC that are functioning in Nakhchivan, Ganja, Shaki, Lankaran, Khachmaz, Goychay, Shirvan, Barda and Shamkir considerably helped to decentralize the administration of exams as well as the enrichment of instructional seminars. Due to the intensive involvement of the SEC's regional branches in the promotion of the SEC's projects, community of teachers working in regions was engaged not only in the administration of exams, but also contributed to the course of scientific discussions and the development of the methodological resources for item writers.

Live broadcast established at the SEC's headquarters connects the regional branches of the SEC with the main building, which provides an opportunity for the SEC to encourage the participation of teachers and experts from regions in the instructional seminars on examination subjects, organized at the central office of the SEC and enables the provision of reflective feedback by the experts involved at grass-roots level.

Content of the examinations

The SEC continues the development of open-ended or constructed-response items in its test development practice and maximizes their application in the examination disciplines. The open-ended test questions do not have answer choices, and examinees have to generate their own answers. A number of such open-ended test samples and their coding on Answer Sheet were illustrated in the 1st issue of "Abiturient" journal. These new models of test items were first pre-tested in the trial examinations held not only in the city of Baku, but also in the regions and only after validation these models were included in the Item Pool. The presentation of samples in distributed journals and the organization of trial examinations help applicants prepare for new test models, carefully instruct and familiarize them with new coding procedures prior to the actual exam. Overall, 28337 applicants were registered to take part in trial examinations. Meanwhile, an online software program was generated and launched by the SEC to let applicants take trial examinations online whenever requested by individuals.

Types of test items

The Centre uses three types of test questions in its exams.

1. Multiple-choice items

Multiple-choice items have been widely used since 1992 on various examinations organized by the State Students Admission Commission (SSAC) and its successor - the SEC. These items consist of a stem and 5 answer options. The examinees are required to choose the correct one or the key among other options.

2. Open-ended or constructed-response items

The SEC (formerly the SSAC) started to apply open-ended questions in admission examinations starting from 2011. These types of questions are presented without any answer choices and the examinees have to find correct answers themselves. Such kind of questions include questions requiring calculation, numeric entry and matching the halves.

Open-ended test items have been included in the test blocks of three subjects within each speciality group. 5 out of 30 test items have been open-ended on these subjects:

- mathematics, physics and chemistry in group I;
- mathematics, geography and history in group II;
- literature, history and native language in group III;
- physics, chemistry and biology in group IV.

3. Situational judgement tests. Such kind of items have been included in the test blocks for the first time in 2019. All three subjects within each speciality group contains 3 such kind of questions.

Application of open-ended test items and situation-judgement tests allows to distinguish applicants with high mathematical and analytical thinking ability and particularly, applicants with better preparation. It also helps to assess applicants' knowledge on four levels: knowledge, comprehension, application and skills.

Exam administration

This year, applicants were given the opportunity to take admission examination two times to reduce the examination stress and give the applicants the second chance in case of any emergency. Applicants who participated in both examinations were able to participate in the speciality selection stage with one of the results obtained in the admission examinations.

